MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

ELÇİN

SEÇİLMİŞ ƏSƏRLƏRİ

ELÇİN

Ш6
Е44

235180

SEÇİLMİŞ ƏSƏRLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"AVRASİYA PRESS"
BAKI-2005

*Bu kitab "**Elçin.** Seçilmiş əsərləri. İki cilddə. II cild"*
(Bakı, Azərnəşr, 1987) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır

Ön sözün müəllifi: **Vaqif Bəhmənli**

894.3613 - dc 21
AZE
Elçin. Seçilmiş əsərləri. Bakı, "Avrasiya Press", 2005, 424 səh.

Elçinin "Seçilmiş əsərləri"nə görkəmli yazıçının "Ağ Dəvə", "Mahmud və Məryəm" romanları daxil edilmişdir. "Ağ Dəvə" əsərində 1941-1945-ci illər müharibəsi zamanı köhnə Bakı məhəllələrindən birinin həyatı təsvir olunur.

"Mahmud və Məryəm" əsəri isə məşhur "Əsli və Kərəm" dastanının motivlərindən istifadə edilərək yazılmışdır və burada hadisələr XVI əsrin əvvəllərində, yeni yaranmış Azərbaycan Səfəvilər dövlətində cərəyan edir.

Zaman müxtəlifliyinə baxmayaraq, hər iki roman üslubca dövrün "mənəvi axtarışlar" nəsrinin məcrasında yazılmış, öz ruhu etibarilə, bədii-estetik təsvir vasitələrinin rəngarəngliyi, orijinallığı baxımından müasir əsərlərdir.

ISBN 9952-421-25-5

© "AVRASİYA PRESS", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kitabların nəşrinin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

ÖN SÖZ

Çağdaş milli nəsrimizin və dramaturgiyamızın banilərindən biri, şöhrətli yazıçı İlyas Əfəndiyevin ailəsində dünyaya göz açan Elçinin əsərləri – hekayə, povest, roman, publisistika, ədəbi qeydlər və hətta fundamental elmi məqalələri, tədqiqatları işıq üzü gördüyü vaxtdan dəhal sonra, öncə öz vətənində, eyni zamanda digər yaxın və uzaq ölkələrdə sürətlə yayılmış, sevilə-sevilə oxunmuş, daxili bir tələbatla neçə-neçə oxucu nəsli arasında əldən-ələ, zövqdən-zövqə ötürülərək davamlı bədii dəyərə malik olduğunu təsdiqləmişdir.

İndinin özündə də aradan yüz, yaxud min ilin ötməsini gözləmədən demək olar ki, onun yaradıcılığı, onun araya-ərsəyə gətirdiyi ədəbi sərvət zamanın sınağından çıxmışdır. Elçinin yaratdığı Söz sınanmış Sözdür!

Son 50 ildə Azərbaycan mədəniyyətinin, Azərbaycandakı yeni estetik düşüncənin inkişafında hələ ki, yeganə dövr olaraq fəqləndirilən 60-cı illər nəslinin öncüllərindən olan Elçin elə bir sənətkardır ki, qələmə sarıldığı (məhz qələmə sarıldığı (!), çünki Elçinin ədəbi çalışmalarında bir fədəkarlıq var) ilk çağdan, az qala əlli il ərzində heç zaman yazıçı ovqatından, üzərinə götürdüyü missiyadan, başqa sözlə yaradıcı prosesdən heç bir miqyasda iraq düşməmiş, sirli-sehrli (həqiqətən sirli-sehrli!) yazı masasının başını bir an da olsun tərk etməmiş və elə buna görə də ədəbi varlığının ən yetkin məqamına yetişdiyi indiki günlərimizdə heyrətamiz dərəcədə zəngin ədəbi-bədii irs yaratmağa nail olmuşdur.

Bizim ölkədə 20-80 yaş arasında elə bir insan təsəvvür etmək olmaz ki, Elçin yaradıcılığının çox qismini doyulmaz zövq ala-ala, ruhi bir qüdrət qazana-qazana oxumasın, onun lirik-psixoloji üslublu, poeziya ovqatlı, duzlu-məzəli dram əsərlərinə tamaşa eləməsin.

Bu dəfə oxucuların görüşünə iki iri həcmli əsərlə - Elçin yaradıcılığının və ümumi Azərbaycan nəsrinin şah əsərlərindən sayılan iki romanla gələn nasir təpədən-dırnağa milli yazıçıdır. Ən azı ona görə ki, ustad sənətkarın istedad və zəhmətlə nail olduğu yazı mədəniyyəti, özünü sözə çevirmə tərzi insanın hiss və həyəcanlarını, duyğu və düşüncələrini ifadə etmək baxımından doğma Azərbaycan dilini həsəd aparılacaq bir ucalığa yüksəltmişdir. Belə bir şans hər yazıçıya qismət olmur. Elçində dil ürək kimi çırpınır, beyin kimi düşünür, su kimi axır, gün kimi işıq saçır, axşam kimi düşür, dərd kimi ağrıdır, ruh kimi susur...

Bəlkə buna görə də Elçin nəsrinin, ümumən Elçin yaradıcılığının qüdrətini canlandırmaq çox çətindir, bəlkə mümkün deyil. Çünki bu yaradıcılıq

çoxsaylı nöqtələrdən, qəribədir, hətta bəzən mövcud olmayan nöqtələrdən (!) baxılmağa, araşdırılmağa layiqdir. Bəlkə buna görə ədəbiyyatda ilk və təsirli addımlar atmağa başladığı 60-cı illərdən bu yana Elçinin əsərləri saysız-hesabsız rəylər, sadə oxucu və peşəkar tənqidçi münasibətləri ilə, sənətkarın əsərlərinin bədii-estetik dəyərini müəyyən etməyə çalışan iri tədqiqat əsərləri ilə müşayət olunub, bu əsərlərə ədəbi-ictimai maraq bir an belə səngiməyib.

Bu maraq, əslində bu marağı doğuran yüksək əyarlı söz sərvəti Azərbaycanın mənəvi sərhədlərini aşaraq dünya çapında qiymət alıb, öz müəllifinə XX yüzilliyin ikinci yarısında bütün yer kürəsində Azərbaycan ədəbiyyatını təmsil etmək səlahiyyəti qazandırıb.

Lakonizm bədii dilin kamilliyi, kəsəridir. Elçin qələmi sözlərlə möcüzə yaratmaq iqtidarında olsa da, yazıçı lakonizmi başlıca yaradıcılıq prinsiplərindən biri olaraq çoxdan müəyyənləşdirmişdir. Bu mənada onu kamil bir hekayəçi adlandırmaq yerinə düşərdi. Həqiqətən Elçin Azərbaycan ədəbiyyatına bir-birinidən gözəl hekayələr bəxş edib. Eyni zamanda "Bir görüşün tarixçəsi", "Toyuğun diri qalması", "Poçt şöbəsində xəyal", "Dolça" və başqa məşhur povestlər də Elçinə məxsusdur. Bununla bərabər hər biri milli nəsrimizin inkişafında önəmli yer tutan, Azərbaycan bədii təfəkkürünü irəliyə aparan "Ağ Dəvə", "Mahmud və Məryəm", "Ölüm hökmü" əsərləri hekayə, povest ustası Elçini romançı olaraq təqdim edir.

Bəli, Elçin romançıdır. Ona görə yox ki, romanlar onun yaradıcılığında həcm və mündəricə baxınmından daha geniş yer tutur. Ona görə ki, Elçinin ən yığcam hekayəsində, ən kiçik povestində də roman tutumu, roman dərinliyi, roman siqləti var.

Romançılıq yazıçının öz əsərləri üçün seçdiyi hadisələrin mahiyyətindədir. Romançılıq həyat hadisələrini təsvir edərkən onun baş vurduğu psixoloji, mənəvi, fəlsəfi, ruhi dərinlikdədir...

Konkret olaraq janr nəzərdə tutularsa Elçin ilk romanını – "Mahmud və Məryəm"i 1982-ci ildə yazıb, həmin vaxta qədər yazıçı Azərbaycan ədəbiyyatının inkişafında hadisə sayılan bir çox əsərlərini – hekayələrini, povestlərini qələmə almışdı. Əgər, o, ötən əsrin 80-ci illərində, cəmi 6 il ərzində "Mahmud və Məryəm", "Ağ Dəvə" və "Ölüm hökmü" adlanan üç romanını yazmasaydı da indiki halal yazıçı şöhrətinə heç bir kölgə düşməzdi. Elçin şöhrət üçün yox, ürəyinin hökmü ilə yaradan sənətkardır.

Bir qədər öncə adı çəkilən romanların hər üçü sövq-təbii yaranmışdır. Hər üç roman məhz 60-cı ilin sonunda yaradıcılığa başlayan, 80-ci illərdə püxtələşən yazıçının ədəbi axtarışlarının qanunauyğun yekunudur. Bu, hələ azdır. Bu romanları qələmə almaqla qüdrətli yazıçı sanki bütünlükdə XX yüzillikdə Azərbaycan nəsrinin axtarışlarla zəngin bir mərhələsinin də başa çatdığını bəyan etmişdir, daha doğrusu belə bir qənaət yaradan ədəbi fakt

ortaya qoyulmuşdur. Bununla yanaşı milli nəsrin ən qiymətli inciləri olan bu əsərlər həm də çağdaş dünya nəsrinin hadisələri olaraq qiymətləndirilə bilər.

Qəribədir ki, "Ağ Dəvə" romanının bir epizodunda bu əsəri qələmə alarkən yazıçının özü də bilməyərəkdən zaman, ədəbiyyat, oxucu və özü qarşısındakı böyük məsuliyyət hissi ilə baş-başa qaldığını etiraf edir, peşəkar yaradıcılıq məsələsi ilə bağlı olan fikirlərini kağıza köçürməkdən yan keçə bilmir.

"Gecənin səssizliyi içində yazı mizimin üstündəki əlyazmalarına, yazıları yarımçıq qalmış vərəqlərə baxdım və yuxusuz gecələri səhərə kimi oturub yazdığım o əlyazmaları, o vərəqlər mənə tamam mənasız və lazımsız göründü... Elə bil, kimsə mənim əlimdən tutacaqdı, elə bil, kimsə məni qoymayacaqdı, tələsik həmin əlyazmalarını, yazısı yarımçıq qalmış həmin vərəqləri oxumadan, ayırd eləmədən bir-birinin üstünə yığdım və yazı mizimin üstündən götürdüm.

Yazı mizimin üstü bom-boş idi.

Mən keçib yazı mizimin arxasında oturdum, mizimin üstündəki bu boşluğa baxdım və dəhşət məni basdı, çünki indiyəcən yazdığım, çap elətdirdiyim nə vardısa, hamısı bayaqkı o əlyazmaları, yazısı yarımçıq qalmış vərəqlər kimi, birdən-birə mənə tamam mənasız və lazımsız görünürdü...

Mən nəsə başqa bir şey yazmalıydım. İndiyəcən yazmadığım nəyi isə yazmalıydım..."

Elçin öncə "Mahmud və Məryəm", sonra "Ağ Dəvə" və lap axırda "Ölüm

xronologiya əslində zülmün və despotizmin tarixi qədər, zülmə və despotizmə dözümün, mübarizənin, ədalətsizliklərə qarşı Tanrı susqunluğunun tarixi qədər antikdir.

Elçinin bənzərsiz üslubunun yaratdığı vəhdətdə birləşən, qaynayıb qovuşan bu üç romanı trilogiya saymaq kökündən yanlış olardı. Çünki hər bir roman ayrı-ayrılıqda tarixlik (lənənə tarixlik) epopeyadır. Rəğbətin ayrılmaz bir parçası olan insanın, insan taleyinin epopeyası...

"Mahmud və Məryəm" romanların içində ən zərifi, ən kövrəyidir. Lirizm və mifizm, tarixi olmuşlar, uzaq və yaxın faktoloji keçmişlə insan taleləri hiss olunmadan, təbii bir ehmallıqla birləşərək bədii mətləbə, yazıçının başlıca fəlsəfəsinə yol açır. Əlbəttə, "Mahmud və Məryəm" eşq haqqındadır. Ən azı ona görə ki, romanın əsasında bütün Şərqdə "Əsli və Kərəm" adı ilə dillərdə gəzib dolaşan, dastan gecələrini bəzəyən kədərli bir əhvalat dayanır. "Əsli və Kərəm"in motivlərinə söykənib başı bəlalı eşqdən, öndə aşiqlərə bal dadızdıran, ortada zəhərə, sonda külə dönən eşqdən yan keçmək mümkün deyil və qətiyyən mümkün deyil.

Şifahi xalq ədəbiyyatının təqribən 500 il öncəyə aid edilən fövqəladə bir nümunəsi – "Əsli və Kərəm" eşq haqqında xalqın yaratdığı bir romandır. Ona görə roman ki, burada xalqın bədii təfəkkürü, fəlsəfi-idraki yozumu peşəkar romanlarda olduğu qədər mükəmməldir.

"Əsli və Kərəm"in motivləri əsasında Elçinin qələmə aldığı "M

ordular baş-başa gəlir, qılıncının zərbindən qayalar parçalanan cəngavərlərin gözlərini qarğalar dimdikləyir.

Eşqin gözləri kordur, qanlı savaşları görmür...

Qanlı savaşların, müharibələrin gözü kordur; böyründən ötən, təmiz, pak paltarına qan sıçrayan eşqi görmür.

Eşqin, məhəbbətin aliliyindən, insanın təmizliyindən qorxan, ona düşmən kəsilən cəmiyyət nifrətə layiqdir, sonda əzablara qəhr olmağa düçardır...

Düzdü, Elçinin digər əsərləri kimi "Mahmud və Məryəm" də oxucuya xoşbəxt olmağın reseptini təklif etmir. Sadəcə humanist yazıçı insanları ayılmağa, yaxşılıqları dəyərləndirməyə çağırır. Yazıçı həyatın faniliyinə qarşı əzəli bal, ortası əzab, sonu kül olan sevgini, müharibələrə qarşı sülhü, vardövlətə, dünya sərtvələrinə qarşı həqiqi təmizlıyi, paklığı qoyur.

Azərbaycan ədəbiyyatının nadir nümunələrindən olan "Ağ Dəvə" Elçin qələminin sirli qüvvəsi ilə min illərin yaxşılıq və pisliklərini, mərdlik və namərdliklərini bir anın içinə sığışdıran epopeyadır. Qəbristanlıqda adi bir təsadüf nəticəsində əsərin qəhrəmanı, həm də hadisələrin naçılçısı Ələkbərin gördüyü uşaqlıq illərinin tanışları, məhəllə adamlarının çöhrəsi saysız-hesabsız tale hekayətlərini göz önünə gətirir.

"Ağ Dəvə" sənətkarlıq baxımından Elçin yaradıcılığında, eləcə də çağdaş nəsrin hərtərəfli tədqiq olunmağa, tədris olunmağa layiq əsərlərdən biridir.

Bu əsərlə tanışlıqdan sonra oxucuya elə gəlir ki, bir qədər əvvəl qeyd etdiyimiz kimi, Azərbaycan nəsrində hansı bir mərhələsə başa çatır və əlinə qələm alan hər hansı bir Azərbaycan yazıçısı yeni bir oxucu marağı qazanmaq istəyəcəksə o, mütləq Elçinin "Ağ Dəvə" romandakı etirafları təkrar etməli olacaq:

"...İndiyəcən yazdığım, çap etdirdiyim nə vardısa hamısı bayaqkı o əlyazmaları, yazısı yarımçıq qalmış o vərəqlər kimi, birdən-birə mənə tamam mənasız və lazımsız göründü.

Mən nəsə başqa bir şey yazmalıydım".

Yazıçı niyyətini, yazıçı möcüzəsini açmaq iddiasında olan bütün ön sözlərdə, ədəbi düşüncələrdə bir uğursuzluq qisməti var. Hər hansı bir əsərin sirrin o əsərin özündən savayı heç bir yazı anlada bilməz. Elə buna görə də oxuduğunuz bu bələdçi cümlələrə burdaca nöqtə qoyub sizi "Ağ Dəvə" və "Mahmud və Məryəm" romanlarıyla baş-başa buraxmağı ən uğurlu və ən ədalətli qərar sayırıq.

Vaqif Bəhmənli

I

"Sən mənim həyatım idin."

İki ildən artıq idi ki, mən qəbiristanlıqdan qayıdanda yalnız bu sözlər yazılmış adsız, şəkilsiz qəbir daşının yanından ötürdüm və hər dəfə də bu adi sözlər, bu adi cümlə məni həyəcanlandırırdı, ürəyimdə bir nigarançılıq və eyni zamanda da bir doğmalıq əmələ gətirirdi, tanımadığım, bilmədiyim və illərin küləyinin, qarının, yağışının, istisinin altında qaralıb-bozarıb köhnəlmiş, çopur-çopur olmuş bu qəbir daşı hər dəfə dərin bir kədərdən xəbər verirdi, vəfasızlıqdan, gəldi-gedərlikdən deyirdi, nə vaxtsa kiminsə xoşbəxtliyindən və xoşbəxtliyin əbədi bir keçmişdə qalmağından, o keçmişin səsçatmazlığından, ünyetməzliyindən söyləyirdi.

Qəbir daşlarının üstündə heç vaxt mənasız söz olmur, ən adi bir söz, ən ibtidai bir fikir də qəbir daşlarının üstündə mənalanır, dünyanın ən təsirli sözü, fikri olur, yəqin ona görə ki, qəbiristanlığın özü dünyanın ən mənalı yeridir.

Qəbiristanlıq kimliyindən, nəçiliyindən asılı olmayaraq, insanı filosof edir və sənin o anlardakı fikirlərin bir azdan, yəni qəbiristanlıqdan çıxandan sonra, adi, hətta bəsit görünür, amma həmin fikirlər qəbiristanlıqda elə bil ki, dünyanın ən müdrik fikirləridir.

Bir az aşağıda yenə də adsız, şəkilsiz köhnə bir qəbir daşı və üstündə daşyonanın əyri-üyrü xəttiylə belə bir yazı: "Şairlər oldu ki, bir misra da yazmadı".

Sonra başqa bir qəbir daşı: "Əlvida".

Sonra: "Hələ sağam, ağlaram, ölləm, torpağım ağlar".

Sonra: "Oğlu ölən analar, vay!".

İki ildən artıqdır ki, mən qəbiristanlıqdan evə qayıdanda bu yazı-ları oxuyuram və bütün günü, bütün gecəni o yazıların əhvalı mənimlə birgə olur, sonra səhər açılır və hər şey yaddan çıxır, o yazılar da unudulur...

Qəbiristanlığın güclə sezilən xüsusi bir qoxusu olur, bəlkə də bu, bir-birinə qarışmış təzə və köhnə gül, çürümüş yarpaq, yenicə qazılmış torpaq iyidir? Bilmirəm, amma mənə elə gəlir ki, o qəbiristanlıq qoxusu adamın paltarına hopur, bir müddət çəkilib getmir; hər halda mən son iki ildə həmişə qəbiristanlıqdan qayıdanda Əsmər – mənim arvadım – mənalı-mənalı üzümə baxır, bir söz demir, amma mən başa düşürəm ki, Əsmər mənim haradan gəldiyimi bilir.

Boz və çiskinli bir sentyabr günü idi, yağış qəbir daşlarını islatmışdı və bütün qəbiristanlıqda sonu görünməyən bir təmizlik, sonu görünməyən bir qüssə və bir əbədilik var idi.

Mən həmin boz və çiskinli sentyabr günü onları görən kimi tanı-dım. Daha doğrusu, mən əvvəlcə onları gördüm, ürəyim birdən döyünməyə başladı və yalnız bundan sonra mən onları tanıdım və bütün bu müddət cəmi bircə an çəkdi.

Qırx ildən sonra mən birinci dəfə idi ki, onları görürdüm, amma altısını da bir-bir tanıdım; saçları ağarmış və tökülmüş, üzlərinə qırış düşmüş bu yaşlı adamlar ONLAR idi: Cəfər idi, Adil idi, Əbdüləli idi, Qoca idi, Cəbrayıl idi, Ağarəhim idi.

Altısı da o qara mərmər daşlı qəbirin dövrəsində dayanmışdı, heç biri heç nə demirdi, altısı da gözünü o qara mərmər qəbir daşına dikmişdi, altısı da şux dayanmışdı və Cəfərin, Adilin, Əbdüləlinin, Qocanın, Cəbrayılın, Ağarəhimin qara mərmər qəbir daşı ilə üzbəüz beləcə dik dayanması, altısının da şux qaməti, altısının da tamam lal bir sükut içində o qara mərmər daşa baxması həmin boz və çiskinli sentyabr günündə o qəbiristan həzinliyinə elə bil ki, birdən-birə bir gümrahlıq, bir inam gətirdi və o anlarda mənə elə gəldi ki, bu altı kişinin tamam lal sükut içində beləcə şux duruşu, o qara mərmər başdaşına beləcə sədaqəti və ehtiramı o dəm yağışın qəbiristanlıqda islatdığı bütün qəbir daşlarında–təzəsində də, köhnəsində də, zənginində də, kasıbında da dəli bir ümid yaratdı.

Mən iki ildən artıq bir müddət idi ki, həftədə, iki həftədə-bir dəfə qəbiristanlığın bu cığırı ilə öz qəbrimə gedirdim (Belə demək olarmı? Nə üçün olmur? Əgər biz "mənim oğlum", "mənim anam" deyiriksə, nə üçün "mənim qəbrim" deyə bilmərik? Bu o demək deyil ki, mütləq sən özün o qəbrin içində olmalısan...) və bu cığırla da geri qayıdırdım və indi, yalnız indi, öz cığırımda ayaq saxlayıb o altı nəfər, şux dayanmış yaşlı kişilərə baxdığım anda mənə elə gəldi ki, əslində mən həmişə bu yerdən ötəndə o qara mərmər qəbir daşının nəzərlərini öz üzərimdə hiss etmişəm...

...Balakərim qoşa tut ağacının altında səkinin üstündə oturub Ağ Dəvənin iri qara gözlərinin baxışından, Ağ Dəvənin nəzərlərindən danışardı...

...Mən öz cığırımda dayanıb Cəfərə, Adilə, Əbdüləliyə, Qocaya, Cəbrayıla, Ağarəhimə baxırdım.

Qocalmış Cəfər, qocalmış Adil, qocalmış Əbdüləli, qocalmış Qoca, Cəbrayıl, Ağarəhim tamam lal bir sükut içində o qara mərmər qəbir daşı ilə üzbəüz dayanmışdı.

Birdən-birə Balakərimin sarı pencəyinin rəngi mənim gözlərimin qabağına yayıldı, birdən-birə Balakərimin tütəyinin səsini eşitdim və qəbiristanlığın bu yerini tanıdım, daha doğrusu, qəbiristanlığın bu yerinin indisi elə bil mənim gözlərimdə əridi, itdi, o sarı rəng də birdən-birə gəldiyi kimi, birdən-birə də yox oldu və mənim gözlərimin qarşısındakı həmin rəngsizlik içində, bulaşıq bir bozluq içində bu yerin keçmişi canlandı, mən indi qara mərmər başdaşı olan o qəbrin yanında yenə də qırx il bundan əvvəl Balakərimlə üzbəüz oturdum. Balakərim sarı pencəyinin cibindən tütəyi çıxartdı və yay kimi isti o payız günü qəbiristanlıqda dünyanın ən qəmli havası çalındı...

Onda o qara mərmər qəbir daşı yox idi...

Mən qocalmış Cəfərə, qocalmış Adilə, qocalmış Əbdüləliyə, Qocaya, Cəbrayıla, Ağarəhimə baxa-baxa mənim üçün səslənən o tütək səsinə qulaq asırdım və bu dəm mən, elə bil, özüm özümə də uzaqdan baxdım, qəbirlərin arasından keçən cığırda dayanmış və yaşı əllini keçmiş, gicgahının tükləri ağarmış, saçı ortadan seyrəlmiş, kökəlməyə başlamış, gözləri eynəkli o kişini kənardan gördüm və o dəm mən heç cür ağlıma sığışdıra bilmirdim ki, həmin kişi mənəm; sonra mən Balakərimin tütəyinə qulaq asa-asa yeddi-səkkiz yaşlı Ələkbəri gördüm və həmin balaca Ələkbər kimi Cəfərin, Adilin, Əbdüləlinin, Qocanın, Cəbrayılın, Ağarəhimin üstünə qaçmaq istədim: – "Mən sizi tanıdım!.. – demək istədim. – Mən də Ələkbərəm! – qışqırmaq istədim. – Tanıyırsınızmı, yadınıza düşdümü, o balaca Ələkbəri deyirəm, bax, həmin Ələkbər də mənəm!.." demək istədim, amma yerimdən tərpənmədim, qəbirlərin arası ilə gedən cığırda (mənim cığırımda!) ələbeləcə dayanıb bir-bir onlara baxdım: Cəfərə, Adilə, Əbdüləliyə, Qocaya, Cəbrayıla, Ağarəhimə.

Onların duruşunda, onların qara mərmər qəbir daşına baxan gözlərindəki ciddilikdə və ehtiramda bu qəbiristanlıq qüssəsini dağıdan, bu ümidsiz qəbiristanlıq sükutunu pozan, həmin çiskinli sentyabr günü yağışın altında islanmış qəbirlərə bir istilik, bir hərarət gətirən nə isə var idi və o "nə isə" bir yumruq qəhər kimi mənim boğazıma pərçim oldu, amma o qəhərdə qəbiristan məyusluğu ilə, kədəri ilə heç cürə uyuşmayan, şadlanmağa, sevinməyə bənzər bir şey var idi.

Sonra mənə elə gəldi ki, təmiz bir meh əsdi və mən uzun müddət idi ki, belə bir təmiz mehin həsrətində idim; qəbiristanlıqdakı tək-tük söyüd ağacının, meynələrin saralıb-solmağa başlamış yarpaqları tərpənmirdi, bir durğunluq içində qalmışdı, amma o təmiz meh mənim içimdən əsib keçdi...

Sonra mən o altı nəfərin dayandığı tərəfdə, o qara mərmər qəbir daşının yanında indiyədək fikir vermədiyim, daha doğrusu, görmədiyim bir nar ağacı gördüm və o nar ağacının üstündə üç-dörd dənə qıpqırmızı nar var idi və mənə elə gəldi ki, elə bil, o narların həmin qırmızısı söyüdlərin, meynələrin saralıb-solmağa başlamış yarpaqlarına da bir işıq verdi...

Mən yenə də qışqırmaq istədim, mən bu sözün gurultusundan, təntənəsindən qorxmayıb qışqırmaq istədim ki, sizi sevirəm, eşidirsinizmi, Cəfər, Adil, Əbdüləli, Qoca, Cəbrayıl, Ağarəhim, mən sizi çox istəyirəm, eşidirsinizmi!..

Mən Xanım xalanı da sevirdim...

Bax, Xanım xala, səndən bir az yuxarıda, bu cığırın lap yuxarı başındakı o ağ qəbir daşını görürsənmi, o da Sonanın qəbridir, sənin həyət qonşun Sonanın, "pravadnik" Ağakərimin arvadı, mənim anam Sonanın...

II

Bir dəfə atam həyətdəki talvarın altında oturub çay içə-içə yenə də uzaqlara baxdı, bir müddət danışmadı, sonra mənə dedi:

– Bir vaxt gələcək, görəcəksən ki, qocalmısan... Heç bilməyəcəksən ki, illər necə keçdi...

O vaxt atamın dediyi bu sözlər mənə çox uzaq və dumanlı bir gələcəkdən xəbər verirdi və mənə elə gəlirdi ki, heç vaxt gedib o uzaq gələcəyə çatmayacağam...

III

Gecənin səssizliyi içində yazı mizimin üstündəki əlyazmalarına, yazıları yarımçıq qalmış vərəqlərə baxdım və yuxusuz gecələri səhərə kimi oturub yazdığım o əlyazmalar, o vərəqlər mənə tamam mənasız və lazımsız göründü... Elə bil, kimsə mənim əlimdən tutacaqdı, elə bil, kimsə məni qoymayacaqdı, tələsik həmin əlyazmaları, yazısı yarımçıq qalmış həmin vərəqləri oxumadan, ayırd eləmədən bir-birinin üstünə yığdım və yazı mizimin üstündən götürdüm.

Yazı mizimin üstü bomboş idi.

Mən keçib yazı mizimin arxasında oturdum, mizin üstündəki bu boşluğa baxdım və dəhşət məni basdı, çünki indiyəcən yazdığım, çap elətdirdiyim nə vardısa, hamısı bayaqkı o əlyazmaları, yazısı yarımçıq qalmış o vərəqlər kimi, birdən-birə mənə tamam mənasız və lazımsız göründü...

Mən nəsə başqa bir şey yazmalıydım.

İndiyəcən yazmadığım nəyi isə yazmalıydım və mən hiss edirdim ki, bu – nə idi, nə yazacaqdım (hər halda, yazmağa çalışacaqdım...).

O altı nəfəri həmin qara mərmər qəbir daşı ilə üzbəüz gördüyüm o gündən bəri mənim bütün ürəyim, bütün zehnim dolmuşdu və mən bilirdim ki, bütün bunlar ağ vərəqlərə boşalmalı idi.

Mənim qarşımdakı bu ağ vərəqlərə...

IV

İlk yadıma gələn bir bazar günüdü və o uzaq bazar günü indi mənim üzümə gülür...

Hər dəfə atamın səfərdən qayıtmağı ərəfəsində anamın onu qarşılamaq üçün hazırlıq görməsi, ona evimizin həyət qapısı ağzında: – "Xoş gəlmisən, ay Ağakərim!.." – deməsi, sonra birlikdə otağa girmələri və atamla anamın məndən gizlətməyə çalışdıqları baxışlarla bir-birlərinə baxmağı mənim bütün həyatımda gördüyüm, oxuduğum, eşitdiyim görüşlərin ən gözəli idi.

Həmin bazar günü də anam səhər tezdən durub noxud islatdı, soğan təmizlədi, axşam qəssab Dadaşbaladan aldığı bir parça əti doğradı və bizim kiçik mətbəximizdəki nöyüt pilətəsinin –"kerosinka"nın üstündə atamın çox xoşladığı və hər dəfə suyuna çörək doğrayıb iştahla yediyi bozbaş asdı, sonra onsuz da təmiz olan otağımızı, kiçik arakəsməni, mətbəxi süpürüb bir də təmizlədi, əsgi ilə mətbəximizin həyət pəncərəsinin (evimizin yeganə pəncərəsinin), paltar dolabının,

sandığın, aşağısına yorğan-döşək, yuxarısına kasa, stəkan-nəlbəki, qəndqabı yığılmış rəflərin, beş dənə üstü döşəkçəli taxta kətilin tozunu aldı və hər tərəf tərtəmiz olandan sonra, nöyüt pilətəsinin üstündə yavaş-yavaş qaynara düşmüş bozbaşın kəfini yığandan və pilətənin odunu bir az azaldandan sonra sandığı açdı, tərtəmiz yuyub ütülədiyi ağappaq alt paltarlarını çıxarıb boğçaya yığdı, sabunu, kisəni, darağı, məhrəbanı boğçaya qoydu və – "Ələkbər, bozbaşda gözün olsun", – deyib hamama getdi.

Məhəllədə mənim atama "pravadnik" Ağakərim deyirdilər və mən gözümü açandan atam həmişə səfərlərdə olurdu. –"Bu səfərlər olmasa, vallah, mənim ürəyim partdayar, baba!" –deyirdi, çünki atam bizim məhəllədə qərib idi və ümumiyyətlə, hərdən mənə elə gəlirdi ki, atam təkcə bizim məhəllədə yox, bütün dünyada qərib idi, hətta bir şeyə sevinəndə və sevinclə adama baxanda belə, gözlərinin dərinliyində həmişə bir qüssə olurdu. Bilmirəm, bəlkə də mən atamın qəribliyini sonralar – atam müharibədə həlak olandan sonra başa düşmüşəm, onun gözlərindəki o daimi qüssəni də sonralar öz təsəvvürümdə dərk etmişəm, amma hər halda mənim o ilk uşaqlıq xatirələrimdə atam heç vaxt tamam qayğısız gülmür, tamam qayğısız sevinmir, atamın gülüşündə də, sevincində də həmişə bir qaranlıq, daha doğrusu, gizli bir sıxıntı olur. Məsələ burasında idi ki, atam hələ uşaq vaxtı öz atası ilə, yəni mənim babamla birlikdə Arazın o tayından – Təbriz tərəflərdən gəlib Bakının neft mədənlərində işləməyə başlamışdı, sonra babam neft quyusunda boğulub ölmüşdü və atam yetimliklə özü-özünü böyütmüşdü, böyüyüb Bakıda qalmışdı və ömürlük qərib olmuşdu. Atam anamla evlənəndən sonra, anamgilin ata-baba yurdu olan evimizə gəlmişdi, bizim məhəllənin sakini olmuşdu; hərdən atam fikrə gedəndə anam özünü saxlaya bilmirdi, əslində atamın əvəzinə atamdan da çox dərd çəkə-çəkə deyirdi:

– Ay Ağakərim, ay qurban olum sənə, ay başıva dönüm, dünyadı də... Sənnən çox gəzən yoxdu ki, dünyada, özün bilirsən bunu də, niyə üzürsən özüvü, nöş xiffət yeyir səni, bizi də bədbəxt eləyir, ay başıva dönüm sənin? Ode, hara baxırsan Fətulla Hatəmin şəkilləridir, o nöşün bəs ürəyini üzmür, özü də kitab yazandı, hansı şəklinə baxırsan, elə adamın üzünə hırıldayır...

Fətulla Hatəm də uşaq vaxtı atam kimi tək qalmışdı, özü-özünü böyütmüşdü və ən məşhur adamlardan biri olmuşdu, üç gündən-bir,

beş gündən-bir, qəzetlərdə şəkli çap olunurdu və günlərin bir günündə atam hansı xahişdən ötrüsə neçə vaxtdan bəri görmədiyi uşaqlıq dostu Fətulla Hatəmin yanına gedir, Fətulla Hatəm isə bütün uşaqlıqlarını bir yerdə keçirdikləri, bir parça çörəyi iki yerə böldükləri atamı qəbul eləmir, vaxtı olmur və bundan sonra anamın bütün dünyada ən birinci düşməni ömründə üzünü görmədiyi, ancaq şəkillərdən tanıdığı Fətulla Hatəm olur.

Atam daha heç vaxt Fətulla Hatəmin yanına getmədi və Fətulla Hatəm də heç vaxt atamı itirib-axtarmadı. Bilmirəm, bəlkə də onlar əslində yaxın dost deyilmişlər, bəlkə də Fətulla Hatəmin atamdan xoşu gəlmirmiş, ola bilər, amma mən həmişə hiss edirdim ki, atam bunu dilinə gətirməsə də, Fətulla Hatəmdən nəsə umur, yəni bu mənada ki, – buna tamam əmin idim, – birdən bizim həyət qapımız açılsaydı və bütün aləmdə məşhur adam olan Fətulla Hatəm birdənbirə bizim evimizə girsəydi, atam buna şad olardı, sevinərdi, evimizin belə bir qonağıyla fəxr edərdi; amma bir dəfə atam səfərdən fikirli qayıtdı, sonra məlum oldu ki, atamın işlədiyi vaqonda başqa hörmətli sərnişinlərlə bərabər, Fətulla Hatəm də gedirmiş və həmin birgə səfər zamanı nə olmuşdusa, mən hiss etdim ki, atam daha Fətulla Hatəmdən heç nə ummur.

235180.

Bəzən atamın fikirli vaxtlarında anam deyirdi:

– Sən özüvü üzürsən, Ağakərim, ancaq ode, Fətulla Hatəm şairləri bir-bir satır, özünə ad qazanır!..

Atam tələsik anamın sözünü kəsirdi, evimizin çöl qapısına tərəf baxa-baxa:

– Kiri, ay qız, – deyirdi. – Bu nə sözlərdi danışırsan? Bizi xataya salmaq istəyirsən?

Anam:

– Xataya nöş salıram, Ağakərim, başıva dönüm,– deyirdi. – Bunu bütün mələ danışır də, Fətulla Hatəm nə qədər yaxşı şairlər var, nə qədər alim adamlar var, hamısını bir-bir güdaza verir, buna görə də hörmət qazanır!.. Bəyəm bizim yazıq Səttar Məsumu o güdaza verməyib? Day bunu dünyada bilməyən adam yoxdu ki, Ağakərim...

Səttar Məsum bizim məhəllənin lap yuxarı başında olurmuş, mən onu yadıma gətirə bilmirdim, çünki o tutulub gedəndə üç-dörd yaşım var idi; müəllim imiş, ara-sıra qəzəllər, qoşmalar yazarmış, özü də Əliabbas kişi ilə, bir də ki, Xanım xalanın atası ilə dost imiş. Səttar

Məsum tutulanda Əliabbas kişi onunçun çox çalışıb, heç nədən qorxmayıb, ora-bura çox gedib, amma bir şey çıxmayıb; Əliabbas kişi o vaxt deyib: "–Bədbəxt Mirzə Səttarın üzünə Fətulla Hatəm durub, guya ki, bədbəxt Mirzə Səttar hökumətimizin əleyhinə imiş. Əlinə alıb yekə bir qələmi, Mirzənin qəzəllərinin misra-misra altından qırmızı xətt çəkib, minbir məna verib o misralara, zalım oğlu!.. Mirzə yazıb ki, ey gül, tikanın əzab verdi bülbülə, Fətulla Hatəm deyib ki, bu, bizim zəmanəmizə sataşır. Fətulla Hatəmin də ki, Allah göstərməsin, indi ifşa elədiyi adama zaval yoxdu. Getdi bədbəxt Mirzə Səttar..."

Atam deyirdi:

– İndi mən də gedim başlayım adam satmağa?

Bu dəfə anam qorxurdu:

– A-a-a... Əstəğfürullah de, Ağakərim!.. Allah eləməsin!..

Atam yenə də həmişəki mülayimliyi ilə:

– Sənin böyüklərlə nə işin var, bacı (atam hərdən anama "bacı" deyərdi və atamın anama "bacı" deməsi mənim çox xoşuma gəlirdi). Böyüklərin işinə qarışma... – deyirdi. –Bizim nəyimizə gərəkdi?..

Mən əvvəlcə belə söhbətlərə qulaq asanda elə bilirdim ki, Fətulla Hatəm şairləri həqiqi mənada, yəni bazarda bir kilo əncir kimi, yaxud dükanda pencək kimi, ayaqqabı kimi satır və ona görə də Fətulla Hatəm mənim təsəvvürümdə dünyanın ən qorxunc adamı idi, mən ondan qorxurdum və mən də atam kimi istəmirdim ki, bizim evdə onun söhbəti getsin. Fətulla Hatəm yeganə adam və ümumiyyətlə, pilətisinin dəmirinə sürtülə-sürtülə, nöyütdən nəm çəkə-çəkə ovulub qırıq-qırıq yerə tökülürdü.

Atamda elə xasiyyətlər var idi ki, onun yerinə başqa birisi olsaydı, məhəlləmizin adamları onu kişi hesab eləməzdi; misal üçün, atam toyuq kəsə bilmirdi, hərdən stansiyalarda ucuz qiymətə alıb gətirdiyi toyuqları mən həyətimizə çıxarıb Xanım xalanın oğlanlarına – Cəfərə, ya Adilə, ya Əbdüləliyə, ya Cəbrayıla, ya da Ağarəhimə kəsdirirdim (Qoca həmişə kitab-dəftərlə olduğu üçün ona müraciət etmirdim, nədənsə, mənim aləmimdə qoltuğunda kitab-dəftər gəzdirməklə həyətdə toyuq başı kəsmək bir-birinə uyuşmurdu.), amma atamın bu cür cəhətləri, qəribə idi, onu məhəlləmizdə hörmətdən salmırdı, hətta, atamın bizim məhəllənin adamları kimi yox, başqa ləhcə ilə danışmağına, hərdən fars sözləri işlətməyinə də heç kim gülmürdü, lağ eləmirdi.

Qatar atamı Rusiyanın uzaq şəhərlərinə aparırdı və o uzaq səfərlərdən qayıdandan sonra, atam birinci növbədə Sarı hamama gedirdi və bir gün səhərdən axşama kimi evdə istirahət edirdi, ikinci gün anamın ütüləyib hazırladığı tünd göy "şivyot" kostyumunu geyirdi, qara ayaqqabılarını krem ilə silib tərtəmiz parıldadırdı və küçəyə çıxırdı, məhəllənin kişiləri ilə hal-əhval tuturdu, səfərdə olduğu müddətdə məhəllədə yası olan vardısa, ora gedirdi, başsağlığı verirdi, toyu olan vardısa, gedib təbrik eləyirdi, uşağı olan vardısa, gözaydınlığı verirdi, sonra da bizim dalanımızdan bir az aşağıda

Anam tələsik qazanın qapağını qaldırıb bozbaşa baxdı:

– Gəl, gəl sən otur, Ələkbər, sənin payını çəkim, ye, bişib day... – dedi, mənim payımı çəkib qabağıma qoydu, sonra başına sarıdığı qırmızı çit yaylığı açdı və uzun xurmayı saçlarını iridişli daraqla daraya-daraya qurulamağa başladı və mən hiss edirdim ki, anam ürəyi döyünə-döyünə atamın yolunu gözləyir, burasını da hiss edirdim ki, Şövkət mənə söz atanda mənim ürəyim necə döyünürdüsə, anamın da ürəyi bax, eləcə döyünür.

Atam gələndə anam həmişəki həyəcanla onu qapının ağzında qarşıladı:

– Xoş gəldin!.. – dedi və həmişəki kimi də əlavə elədi: – Nə uzun çəkdi bu səfərün? Əldən salmadı səni?

Atam evə gəlməyinə, anamı görməyinə, məni görməyinə sevinə-sevinə (və gözlərinin dərinliyindəki o qüssə ilə...):

– Xoş gününüz olsun!.. – dedi. – Bilmirsən, bacı, səfərdə mən dəryada balıq kimiyəm... – Sonra məni öpdü, ayaqqabılarını çıxarıb otağa keçdi.

Ömründə heç vaxt mənim yanımda ya atam anamı, yaxud da anam atamı öpməmişdi, amma mən bunu görməsəm də bilirdim ki, mən olmayanda onlar bir-birini öpürlər və onların bu gizli sirlərində bir bayram əhvalı var idi; anamın atamın gəlişi ərəfəsində hamama getməsində də o, ağappaq alt paltarlarında da, onsuz da həmişə tərtəmiz olan evimizi təzədən silib-süpürüb təmizləməsində də o bayram əhvalının güclə sezilən bir işığı, ziyası var idi.

Atamın bizim o balaca arakəsməyə qoyduğu dolu həsir zənbili həmişəki kimi, mən boşaltmağa başladım və o həsir zənbilin bərəkətli vaqon qoxusu indiyə kimi mənim burnumdan getməyib (mən bəzən qızıma baxıram və fikirləşirəm ki, hayıf ki, mənim qızım o həsir zənbilin həmin bərəkətli vaqon qoxusunu heç zaman duymayıb, çünki mən dünyanın heç bir böyük restoranında, bolluqla nəfəs alan heç bir evdə, ağzınacan dolu heç bir zənbildə o qoxunu hiss etməmişəm...).

Məlum oldu ki, atamın növbəsini dəyişiblər, elə həmin bazar gününün axşamı təzədən birhəftəlik səfərə çıxacaq; atam hamama getdi, amma ləngimədi, tez qayıtdı, anam:

– Həmişə təmizlikdə... – dedi.

Atam:

– Çox sağ ol, – dedi. – O gün olsun Ələkbərin toy hamamına gedək!..

Anam:

– İllahamin! – dedi və yalnız xüsusi vaxtlarda, yəni bayram günlərində, yaxud dayım bizə gələndə süfrəyə qoyduğu kasalardan birini rəfdən götürdü, bozbaşı çəkib mizin arxasında oturmuş atamın qabağına qoydu, sirkə-badımcan gətirdi, duz, istiot gətirdi, göy-göyərti gətirdi və özü də atamla üzbəüz oturub atamın yeməyinə tamaşa eləməyə başladı.

Atam:

– Bismillah! – deyib çörək götürdü, iri tikələrlə kasaya doğradı və anamın ata-babasından qalmış gümüş qaşığı əlinə alıb buğlanan bozbaşı iştahayla yeməyə başladı.

Anam heç vaxt atamın yanında çörək yeməzdi, amma atam oturub çörək yeyəndə anam da mizin arxasında otururdu, atamın ləzzətlə xörək yeməyinə tamaşa edirdi və indi də atamın yeməyinə tamaşa eləyə-eləyə həmişəki kimi gülümsədi:

– Vallah, sən elə yaxçı yeyirsən ki, ay Ağakərim, – dedi, – adam elə səhərdən axşamacan sənin yanında oturub tamaşova baxmaq istəyir...

Atam da həmişəki sözlərini təkrar elədi:

– Pis günümüz belə olsun!..

Anam yenə də:

– İllahamin! – dedi. – Allah səni bizə çox görməsin, Ağakərim!.. Allah həmişə sənin canıvı sağ eləsin! Sən ki, gecə-gündüz işləyib bu evi belənçinə dolandırırsan, Allah sənin başından bir tük əskik eləməsin, həmişə üzün gülsün, könlün şad olsun!.. Sonra anam: – Ələkbər, çayniyi doldur, – dedi və mən tez mətbəxə qaçıb çayniyi götürdüm və həyətə çıxdım; atamın səfərdən qayıtdığı bu gözəl vaxtlarda mən də sevinirdim ki, nə isə eləyirəm, evimizdəki bu kiçik bayramda mənim də nə isə bir payım var və anam da bunu hiss edirdi, imkan düşəndə mənə bir iş buyururdu.

Həyətimizin ortasında krant var idi, krantın altında balaca çarhovuzu da Cəfər, Adil, Əbdüləli, Cəbrayıl, Ağarəhim (təkcə Qoca həmişə dərs oxuyurdu və belə işlərlə məşğul olmurdu) bir-birlərinə kömək eləyə-eləyə düzəltmişdilər, ümumiyyətlə, bu su kəmərini də onlar həyətimizə çəkib gətirmişdi və biz daha sudan ötrü Sarı hamamın həyətinə getmirdik, yayın cırhacır vaxtlarında da həyətimiz buz kimi Şollar suyunun sərinliyi içində gülürdü. Cəfər də, Adil də, Əbdüləli

də, Cəbrayıl da, Ağarəhim də, bəzən, hətta Qocanın özü də mənim anam evdə olmayanda, yəni anam bazara gedəndə, yaxud məhəllə arvadlarından birinin evində oturub söhbət eləyəndə həyətə düşürdülər, qurşaqdan yuxarı soyunub əlləri ilə sinələrini, boyunlarını, qollarını şappıldada-şappıldada əyilib həyətimizdəki krantın altında yuyunurdular və bir kənarda dayanıb onların beləcə əl-qollarını şappıldada-şappıldada yuyunmağına tamaşa eləmək mənim həmin yay-yaz, hətta payız günlərində (bəzən isə lap qış günündə!) ən çox sevdiyim və sevindiyim bir iş idi; bəzən suyu qəflətən mənim üstümə çiləyirdilər və o zaman üz-gözümə düşən o su çiskini, o sərin su çiskini, qəribə idi, mənim bütün bədənimə soyuq yox, bir hərarət gətirirdi. Elə ki, anam qayıdıb gəlirdi, Cəfər də, Adil də, Əbdüləli də, Cəbrayıl da, Ağakərim də, Qoca da tələsik köynəklərini geyib, öz şüşəbəndlərinə qalxırdılar, çünki anam cavan gəlin idi və anamın qabağında onların beləcə yuyunmağı düz olmazdı və ümumiyyətlə, o məhəllədə yaşadığımız bütün müddət ərzində mən bir dəfə də görmədim ki, ya Cəfər, ya Adil, ya Əbdüləli, ya Qoca, ya Cəbrayıl, ya Ağarəhim həyətə girəndə-çıxanda gözlərini qaldırıb bizim həyət pəncərəmizə, həyət qapımıza tərəf baxsın, yaxud anam həyətdə qab-qacaq yuyanda, paltar sərəndə şüşəbənddən baxsın; anama "Sona bacı" deyirdilər və atamdan başqa heç kim anama beləcə mehriban, beləcə məhrəm müraciət eləmirdi.

Bizim asfalt deşənmiş o kiçik, o təmiz həyətimizin qapısı dalana açılırdı və mən gözümü açandan o həyətdə iki ailə yaşayırdı; sağ tərəfdə bizim birmərtəbəli, damına qır basılmış, birotaqlı, mətbəxli və balaca arakəsməli evimiz, bir də ki, Xanım xalagilin bizlə üzbəüz ikimərtəbəli, yuxarıda ikiotaqlı və şüşəbəndli evləri. Xanım xalagilin binasının birinci mərtəbəsi zirzəmi idi və Xanım xalanın sürücü oğlanları Cəfər, Adil, Əbdüləli, Cəbrayıl, sürücülük kurslarında oxumağa hazırlaşan Ağarəhim həmin zirzəmiyə cürbəcür maşın hissələri, şinlər, çürbəcür alətlər yığırdı. O zirzəmi mənim çox sevdiyim bir yer idi və istədiyim vaxt ora girib-çıxırdım, istədiyim aləti götürüb oynayırdım (əlbəttə, buna görə də məhəlləmizin bütün uşaqları mənə həsəd aparırdılar), çünki mən də sürücü olmaq istəyirdim, amma Cəfər də, Adil də, Əbdüləli də, Cəbrayıl da, Ağarəhim də həmişə gülə-gülə mənə deyirdilər ki, Ələkbər, sən bizə çəkməmisən, sən Qocaya çəkmisən, sən şofer olmayacaqsan, oxumuş adam olacaqsan. Qoca, Xanım xalanın Əbdüləlidən sonrakı oğlu idi və bizim məhəl-

lədə yeganə adam idi ki, institutda oxuyurdu: mənə isə ona görə belə deyirdilər ki, kitaba, dəftərə çox həvəsim var idi, əlifbanı öz-özümə öyrənmişdim, əlimə keçən kitabı hələ məktəbə getməzdən qabaq, əvvəlcə höccələyə-höccələyə, sonra isə elə birnəfəsə oxuyurdum, oturub nəfəsimi dərmədən böyüklərin mənim üçün həmişə maraqlı olan söhbətlərinə qulaq asırdım, həmişə də özümdən kiçiklərlə yox, özümdən böyüklərlə oturub-dururdum, bəzən də elə hadisələr uydurub danışırdım ki, böyüklər mat qalırdı.

Həyətimizin asfaltını da Xanım xalanın oğlanları salmışdı, bizim evin damına da qırı onlar basmışdı, həyətimizin ortasındakı o krantın yanında isə bir söyüd çubuğu əkmişdilər və Qoca mənə deyirdi ki, Ələkbər, bir sən günlə, yox, saatla böyürürsən, bir də bu söyüd. Qocanın bu sözü mənim yadımda qalmışdı və mən həmişə diqqətlə o körpə söyüdə baxırdım ki, nə qədər böyüyüb, necə böyüyüb. Dalana açılan həyət qapımızın ağzında isə meynə əkmişdilər, talvar düzəltmişdilər, həmin meynələr böyüyüb talvarı tamam tutmuşdu və yayda o talvardan salxım-salxım üzümlər sallanırdı; bəzən anam həyəti sulayırdı, atam da səfərlərdən qayıdandan sonra o talvarın kölgəsində oturub çay içirdi, Cəfərlə, Adillə, Əbdüləli ilə, Qocayla, Cəbrayılla, Ağarəhimlə, hərdən də Xanım xalanın özüylə söhbət edirdi, Təbrizin bağ-bağatından danışırdı, xiyabanlarından danışırdı, Təbriz evlərindən, Təbriz həyətlərinin gözəlliyindən söz açırdı və mən ömrümdə Təbrizdə olmasam da, elə bilirdim ki, Təbrizi görmüşəm, gecələr yuxuya getməzdən əvvəl Təbrizin o gözəl xiyabanlarında gəzirdim.

Bir də ki, bizim həyətin lap aşağı başında Cəbrayılın quşxanası idi, bütün məhəlləmizdə, hətta bizim məhəllədən yuxarıdakı məhəllələrdə də məşhur olan bu quşxananı Cəbrayıl düzəltmişdi və orada səhər-axşam təmiz ləlekləri par-par parıldayan o ağappaq göyərçinlər bütün dünyanın sahibi kimi quruldayırdı; elə ki, göyün üzü də tərtəmiz olurdu, elə ki, o ağappaq sağlam göyərçinlərin qurultusu artırdı, göyün yeddinci qatına qalxmaq həvəsindən, şövqündən xəbər verirdi, onda Cəbrayıl göyərçinləri bizim damımıza qaldırırdı, sonra bizim damımızdan öz damlarına qaldırırdı və o gözəl göyərçinləri uçururdu; mənim o əziz, o istəkli göyərçinlərim gömgöy göyün üzündə güclə seziləcək, ağappaq nöqtə olanacan uçub gedirdilər və o zaman məhəlləmizin bütün uşaqları, cavanları, hətta bəzən məhəlləmizin kişiləri də başlarını qaldırıb o tərtəmiz göy üzündəki ağappaq göyərçinlərə

baxırdı (məhəllənin qızları isə pəncərə arxasında gizlənib göydə uçan o göyərçinlərə xəlvəti baxırdılar, elə bil ki, açıq-aşkar o göyərçinlərə baxmaq, açıq-aşkar Cəbrayılın özünə baxmaq kimi bir şey idi) və o zaman mənim sinəm elə bil ki, gözgörəsi qabarırdı, böyüyürdü, mən həyətimizə, dalanımıza, küçəmizə sığışmırdım, çünki o göyərçinlər bizim həyətimizin göyərçinləri idi, çünki mən o göyərçinlərə məhrəm adam idim, o göyərçinləri yedirirdim, istədiyim vaxt tumarlayırdım, çünki o göyərçinlərin hamısı məni tanıyırdı.

Həmin bazar günü o kiçik, o təmiz, o talvarlı həyətimizdə heç kim yox idi və yalnız bizim həyətimizə məxsus olan o sakitlik içində (həmin sakitliyi göyərçinlərin qurultusu müşayiət edirdi) cidd-cəhdlə çayniyi yaxaladım, sonra ağzınacan doldurub evə apardım, mətbəxdə nöyüt pilətəsinin üstünə qoydum, otağa keçdim və anamın yanında oturub mən də atamın iştahayla, ləzzətlə bozbaş yeməyinə tamaşa

Mən dalana çıxdım.

Bizim dalanımız yazda da, yayda da həmişə kölgəlik olurdu, çünki günün birinci yarısı bir tərəfin divarı, günün ikinci yarısı isə o biri tərəfin divarı kölgə salırdı və mən həmin bazar günü bizim o kölgəli, sərin dalanımızdan keçib küçəyə çıxdım.

Günorta olduğu üçün küçədə heç kim yox idi, təkcə dalanımızdan aşağıdakı qoşa tut ağacının kölgəliyində Şövkət oturub sübh tezdən Ziba xaladan aldığı tumu çırtlaya-çırtlaya tinin ucundakı mağazaya, nöyüt dükanına girib-çıxan adamlara baxırdı. Balakərim də yox idi, uşaqlar da yəqin indi Sarı hamamın həyətində oynayırdılar, amma mən gedib onlara qoşulmaq istəmirdim, nədənsə tək qalmaq istəyirdim, küçəmizin bu sakitliyinə qulaq asmaq istəyirdim, kimsəsizliyinə baxmaq istəyirdim, çünki hərdən bizim məhəlləmizin beləcə sakitliyi, kimsəsizliyi, əslində, adamlarla nəfəs alırdı, indi evlərinə çəkilmiş o

Əminə xalanın həmişəki kimi, təkcə səsi gəlirdi, nə dediyi eşidilmirdi, amma mən onsuz da məhəlləmizin bütün uşaqları və ümumiyyətlə, məhəlləmizdə yaşayan hamı kimi Əminə xalanın nə dediyini bilirdim: – "Ədə, gəldin yenə, ay nadürüst oğlu, nadürüst? Ay naxələf, yenə gəldin mənim canımçün?.. Ədə, öldürmək istəyirsən məni?.. Allah tez eləsin, tez məni aparsın ki, sənin üzündən qurtarsın canım!.. Tez aparsın Allah məni!.. Ədə, nə istəyirsən məndən?.. Yoxumdu, heç nə yoxumdu!.." Əminə xala bütün bu sözləri çığıraçığıra İbadullaya deyirdi və o bazar günü olduğu kimi, hərdən Əminə xalanın beləcə çığırtısı eşidiləndə mənə elə gəlirdi ki, bizim dalanımız, bizim küçəmiz, bütün məhəlləmiz xəcalət çəkir, utanır, pərt olur və mən özüm də pərt olurdum, mənim də qanım qaralırdı, çünki mən özüm də o küçənin, o dalanın kiçik bir hissəsi, kiçik bir parçası idim.

İbadulla Əminə xalanın yeganə oğlu idi (necə ki, mən atamla anamın yeganə oğlu idim və atamla anamın məndən başqa daha uşaqları olmayacaqdı), bir erməni arvadı alıb bizim məhəllədən köçüb getmişdi, Bakının harasındasa arvadının evində yaşayırdı, həmişə kefli olurdu və lap bərk kefli olanda da anasının yanına gəlirdi, gözləri demək olar ki, tamam tutulmuş Əminə xalayla dava salırdı, qızıl istəyirdi.

Atam səfərdən qayıdandan sonra həyətimizdəki talvarda oturub çay içə-içə hərdən soruşurdu:

– İbadulla yenə gəlib o yazıq arvadı incidirdi?

Anam:

– Həri, – deyirdi. – Nankor övladdı də, Allah heç kimə qismət eləməsin.

– Yenə qızıl istəyirdi?

– Həri.

Atam başını bulayırdı:

– O yazıq Əminə arvadda qızıl nə gəzir, baba? Keçəl dərman bilsə elə öz başına çəkər də...

Amma İbadulla həmin kefli vaxtlarında Əminə xalayla dava eləyib evdən həmişəki kimi əliboş çıxandan sonra, bəzən dalanımızın qabağında, səkinin üstündə oturub kürəyini yoğun elektrik şalbanına dirəyirdi və biz uşaqlara deyirdi:

– Gizlədib, gizlədib məndən... Atam bir ətəy qızıl qoyub gedib mənimçün... Gizlədib qızılları... Vermir... Tapa da bilmirəm, hər yeri

axtarıram, tapa bilmirəm... Yoxsa ki, o, qaldığım xarabada mənim nə itim azıb?.. Çıxıb gedərdim özümçün Voroneşə!..

Biz heç cür başa düşə bilmirdik ki, və ümumiyyətlə, bu, məhəllədə də bir sirri-xuda idi ki, İbadulla nə üçün məhz o uzaq və tanınmaz şəhərin adını çəkir və nə üçün məhz ora getmək istəyir?

İbadulla bütün bu sözləri ona görə bizə deyirdi ki, böyüklərin ondan zəhləsi gedirdi və məhəllənin heç bir cavanı, yaşlısı İbadullanın yanında dayanıb çərənlədiyi sözlərə qulaq asmırdı və ümumiyyətlə, İbadullanı adam hesab etmirdi. Balakərim hərdən nə tütək çalırdı, nə də Ağ Dəvədən, keçmişin sirli əhvalatlarından danışırdı, Sarı hamamın qabağında səkidə oturub susurdu, bir-bir məhəllənin evlərinə baxırdı və birdən bizim məhəllə ilə bağlı ciddi bir söz deyirdi; bir dəfə də dedi:

– Bir də görürsən əntiqə bir çəkmədi, əntiqə də dəridən tikiblər. Ancaq bir dənə yeri partdıyır, ora yamaq tikirlər. Çəkmə işdiyir, işdiyir, ancaq yenə də o partdayan yerin yamağı partdayır... Bax, bizim mələ o cür bir ayaqqabıdı, elə işdiyir, işdiyir, işdiyir... İbadulla da o ayaqqabının həmən o yamaq yeridi...

Əliabbas kişi isə deyirdi:

– Allah Həmdullaya rəhmət eləsin!.. Yaxçı ki, vaxtında getdi bu dünyadan, bu zayı belənçinə görmədi!..

Yenə Əminə xalanın çığırtısı eşidildi və o bazar günü İbadulla deyəsən lap çox içmişdi, çünki Əminə xala həmişəkindən bərk qışqırırdı. Əminə xala bizim dalanın dibində, axırıncı həyətdə olurdu, üç otağı var idi, amma tək yaşayırdı və buna görə də otaqların ikisini rayonlardan Bakıya gəlib texnikumda oxuyan tələbələrə kirayəyə verirdi, tələbələr isə İbadulladan yaman qorxurdu, İbadulla gələn kimi evdən çıxıb, qaçıb gedirdilər, bir də gecənin yarısı qayıdırdılar, indi də o rayonlu tələbələr həyəcanla bir-biri ilə danışa-danışa tələsik addımlarla mənim yanımdan ötüb getdilər və mənə elə gəldi ki, tələbələrin o tələsik addım səsləri də həmin bazar günü bizim küçəmizin ürəyindən olmadı, o tələsik addımlar bizim küçəmizi təpiklədi, döydü.

Qonşular yavaş-yavaş qapılardan, pəncərələrdən başını çıxarıb Əminə xalagilə tərəf boylandı, bəzisi çıxıb həyətlərinin dalan qapısı ağzında dayandı və Əminə xalanın dalan qapısına tərəf baxdı. İbadulla söyüşcül adam idi, ağzının sözünü bilmirdi və buna görə də heç kim İbadullaya qoşulmaq istəmirdi, hərə öz hörmətini gözləyirdi.

Əminə xala bu dəfə lap bərkdən qışqırdı, sonra da İbadullanın səsi gəldi və mən dalan boyu gedib Əminə xalanın qapısı ilə üzbəüz dayandım və əlbəttə, indi anam da həyət qapımızdan boylanıb baxsaydı tələsik məni geri səsləyərdi, Əminə xalanın qapısının yanında dayanmağa qoymazdı; amma anam indi evdə idi, atam uzaq səfərdən qayıdıb gəlmişdi, axşam yenə çıxıb gedəcəkdi, bizim evimizdə kiçik bir bayram var idi və mən istəmirdim ki, bələ bir

dolu o baxışlarla bir-birlərinə çox baxsınlar və elə bu vaxt Əminə xalagilin qapısına tərəf baxan adamların hamısının başı geri döndü, hamı bizim həyət qapımıza tərəf baxdı, çünki bizim həyət qapımız açıldı və Xanım xala dalana çıxdı. Xanım xalanın ardınca Cəfər, Adil, Əbdüləli, Qoca, Cəbrayıl, Ağarəhim dalana çıxdı və Xanım xala iti addımlarla Əminə xalagilə tərəf gəldi, oğlanları da

həyətə düşdü, daha doğrusu, elə bil ki, Xanım xala qalın çatma qaşlarının altından baxan o zəhmli gözləri ilə İbadullanı çəkib pilləkənlərlə aşağı saldı və mənə elə gəldi ki, bu saat Xanım xala iri sümüklü ağır əli ilə İbadullanın qulağının dibinə bir dənə yağlı sillə çəkəcək və yəqin ki, gözgörəsi bürüşüb balacalaşmış İbadulla özü də belə fikirləşdi, açıq çiyinlərini qaldırıb nazik və günün altında yanıb qartmış boynunu qısdı, amma Xanım xala əl qaldırmadı, bir an İbadullanın pərtdə ala gözlərinin içinə baxdı, sonra dedi:

– Rədd ol, buradan!

İbadulla boynunu düzəltdi, yenə də ağzını açıb nəsə demək istədi, amma gözlərini güclə Xanım xalanın gözlərindən qoparıb, bir-bir Cəfərə, Adilə, Əbdüləliyə, Qocaya, Cəbrayıla, Ağarəhimə baxdı, heç nə demədi, ağzını yumdu və həyətdən çıxıb mənim yanımdan ötdü, qapıların qabağında dayanmış adamların baxışları altında dalandan keçib küçəyə tərəf getdi. İbadulla yanımdan ötəndə məni araq iyi vurdu və atamla anam hərdən evdə oturub söhbət eləyəndə arağı o qədər pisləmişdilər ki, mən araq görəndə, iyini hiss eləyəndə az qala fiziki bir ağrı duyurdum, amma bu dəfə İbadulladan gələn o pis araq iyinə fikir vermədim, çünki mən həmin dəm Əminə xalagilin həyətindən çıxan Xanım xalaya, Xanım xalanın ardınca gələn Cəfərlə, Adillə, Qocayla, Əbdüləliylə, Cəbrayılla, Ağarəhimlə fəxr edirdim, mənim bütün ürəyim bir qürur hissi ilə dolmuşdu.

İbadulla dalanın axırına çatıb küçəyə burulmazdan əvvəl ayaq saxladı, dönüb dalanın adamlarına, Xanım xalagilə baxdı və boğuq səslə qışqırdı:

– Məni adamsız görmüsüz?! Qaz kimi bir-birivizin dalına düzülüb üstümə gəlirsüz?! Eybi yox, baxarsuz!.. Tökərəm üstüvüzə keruxalarımı, onda bilərsüz!..

Cəfər İbadullaya tərəf qaçmaq istədi, amma Xanım xala Cəfərə baxdı və Cəfər ayaq saxladı, İbadulla isə elə bildi ki, Cəfər gəlir, başından uçmasın deyə əli ilə ortası düyməli altıkünc kepkasını tutub yerindən götürüldü, küçəyə burulub gözdən itdi və Xanım xala eləcə dik-dik qabağına baxa-baxa, oğlanları da ardınca addımlaya-addımlaya həyətimizə girdi, dalana çıxmış arvadlar, qızlar da dağılışıb həyətlərə girdi, həyətlərin qapıları bağlandı, dalana açılan bəzi pəncərələrin arxasında dayanmış kişilərin kölgələri də çəkilib getdi, Əminə xalanın qapısı ağzında dayanmış biz uşaqlardan və bir də ki,

Balakərimdən başqa dalanda yenə də heç kim yox idi, bizim həmişə kölgəli olan sərin dalanımıza yenə də sakitlik çökdü.

Əminə xalanın həyət qapısı açıq idi və mən bayaqdan bəri ikinci mərtəbənin pəncərəsi qabağında dayanıb baxan Əminə xalanı görürdüm: düzdü, Əminə xalanın gözləri, demək olar ki, görmürdü, amma Xanım xala İbadullanı çağırdığı vaxtdan Əminə xala gəlib dayanmışdı pəncərənin qabağında, boylana-boylana gah həyətə, gah da dalan tərəfə baxırdı və yenidən dalanımıza çökmüş o sakitlik içində mən Əminə xalanın deyinməyini aydınca eşitdim " – Oğlumdu, özüməm, özümüz bilərik, nəyivizə qalıb, sizə nə dəxli var, nöş qarışırsız xalqın işinə?..".

Sonra Əminə xala da pəncərənin qabağından çəkildi, biz də küçəyə tərəf getmək istədik, Sarı hamamın həyətində oynayaq, amma Balakərim bizə baxmadan dalanımızın lap dibindəki xartut ağacına tərəf getdi, ağacın altında oturub yay-qış həmişə əynində olan sarı pencəyinin döş cibindən tütəyini çıxartdı, kürəyini xartutun yoğun gövdəsinə söykəyib arıq ovurdlarını doldurdu və tütəyi çalmağa başladı; biz də həmişəki kimi Balakərimin başına yığışdıq. Balakərim tütəyi çaldıqca mənə elə gəlirdi ki, bu tütək səsi də bizim dalanımıza, küçəmizə çökmüş o sakitliyin davamıdı və Balakərimin kürəyini söykədiyi o qollu-budaqlı xartut ağacı da həmin tütəyin səsi altında dünyanın işlərini fikirləşir.

Dalanımızın lap dibindəki o xartuta əvvəllər "İbadullanın ağacı" deyirdilər, çünki faytonçu Həmidulla ilə Əminə xalanın uşaqları olmurmuş və faytonçu Həmidulla nəzir deyir, İbadulla anadan olanda o xartutu nəzir kimi dalanımızda əkir. Faytonçu Həmidulla öldü, İbadulla böyüyüb fərsiz çıxdı, Əminə xala qocaldı, gözləri, demək olar ki, görmədi və Əminə xalanı bizim dalanımızın arvadları dolandırmağa başladı (o kirayənişin tələbələrin verdikləri pul necə olurdu? Heç kim bilmirdi və əslində heç kim bununla maraqlanmırdı da); anam, xüsusən də tez-tez Xanım xala bişirdikləri xörəkdən bir boşqab çəkib mənə verirdilər, aparırdım Əminə xalaya, Əminə xala da yerdən salınmış yaşıl məxmər döşəkcənin üstündə oturub sağ əlinin baş barmağı ilə əlindəki təsbehin qara narın daşlarını oynada-oynada: "– Allah qəbul eləsin!" – deyirdi, guya ki, ona göndərilən həmin pay da nəzir kimi bir şeydi.

Hərdən Xanım xala məni çağırıb Əminə xalaya pay göndərmək istəyəndə, əlindəki boşqaba xörək çəkə-çəkə başını bulayırdı, deyirdi:

– O İbadulla bədbəxt oğlu, uşaq vaxtı elə yaxçı oğlan idi ki...

Xanım xala bu sözləri qalın qaşlarının altından baxan qara və zəhmli gözlərinə, adətən kip örtülü olan nazik dodaqlarına, enli çənəsinə uyuşmayan bir mülayimliklə deyirdi, amma o mülayim sözlər məni qorxudurdu, çünki mən əlimdə tutduğum isti boşqabı Əminə xalaya apara-apara fikirləşirdim ki, birdən mən də böyüyəndə İbadulla kimi olaram...

İbadulla fərsiz çıxdığı üçün o xartutu daha İbadullanın adı ilə çağırmırdılar və o xartutun altı oturub tütək çalmaqdan ötrü, Ağ Dəvə barədə cürbəcür əhvalatlar danışmaqdan, fikrə getməkdən ötrü Balakərimin ən çox xoşladığı ikinci yer idi (birinci yer isə küçəmizin səkisində, Şövkətin evinin yanındakı qoşa tut ağacının altı idi).

Balakərim gecələr Sarı hamamın həyətində, quşxana kimi balaca bir yerdə yatırdı, gündüzlər isə həmişə çöldə-bayırda olurdu, qışda məhəllənin camaatına odun yarmaqda kömək edirdi, yayda qır daşıyıb damların daman yerlərini yamamağa kömək edirdi (və həmin evlərdə bişən xörəklərdən yeyirdi), çox zaman da Balakərimin çəkdiyi zəhmət havayı olurdu, misal üçün, haradansa əzab-əziyyətlə daşıyıb gətirdiyi daşlar, məlum olurdu ki, heç nəyə yaramır və heç kimə lazım deyil – Balakərim həmin daşları təzədən əzab-əziyyətlə geri qaytarırdı; axşamlar isə məhəllənin bütün uşaqları yığışırdı Balakərimin başına və Balakərim Ağ Dəvədən danışırdı, peyğəmbərlərdən, imamlardan danışırdı, padşahlardan, vəzirlərdən, səyyahlardan danışırdı, çox fikirli olanda, ürəyi lap dolu olanda sarı pencəyinin cibindən tütəyini çıxarıb çalmağa başlayırdı, birdən-birə çalmağa başladığı kimi, birdən-birə də çalmağını kəsirdi, deyirdi:

Hamam hamam içində,
Xəlbir saman içində.
Dəvə dəlləklik edər
Köhnə hamam içində.

Sonra o sirli əhvalatlardan danışmağa başlayırdı. Balakərim bu sözləri elə ahənglə, elə eyhamlarla, elə mənalı-mənalı deyirdi ki, həmin sözlərdən sonra məhəlləmizdəki Sarı hamam da mənə sirli bir aləm kimi görünürdü.

Bəzən Balakərim fikirli olanda tamam susurdu və biz bilirdik ki, belə vaxtlarda Balakərimdən heç nə xahiş eləmək lazım deyil, çünki

Balakərim, ümumiyyətlə, xahişlə, sifarişlə nə tütək çalırdı, nə də bir əhvalat danışırdı; susurdu, birdən öz-özünə – "Allah sənə rəhmət eləsin, Mirzə Səttar.. – deyirdi. – Allah sənə rəhmət eləsin!.." və biz başa düşürdük ki, söhbət vaxtilə bizim məhəllədə yaşamış şair Səttar Məsumdan gedir, amma Balakərimin nə üçün məhz Səttar Məsumu yadına salmağının səbəbini bilmirdik. Bəzən də, xüsusən, aylı-ulduzlu gecələrdə Balakərim o qoşa tut ağacının altında, yaxud Sarı hamamın həyətində, yaxud da burada, bu xartutun altında oturub başını göyə qaldırırdı, gözlərini aya, ulduzlara dikirdi, bir müddət beləcə susurdu və mən açıq-aşkar hiss edirdim ki, bizim yanımızda oturmağına baxmayaraq, həmin anlarda Balakərim bizdən çox-çox uzaqlardadır: sonra yenə bizim yanımıza qayıdırdı və qəribə sözlər deyirdir: "– Hər bir adam gərək hərdənbir göylə təkbətək dayansın, göyə baxsın gərək... Bax, o ulduzlara baxsın, o aya baxsın. Onda bilər ki, özü nə qədər balacadır. Onda bilər ki, başqaları da nə qədər balacadır...". Əlbəttə, mən Balakərimin bu sözlərindən bir şey başa düşmürdüm, amma o sözlər mənim yadımda qalırdı və eyni zamanda, elə bil, o sözlər o uzaq ulduzların özündən də, o ayın özündən də nəsə deyirdi və "nəsə" sirr ilə dolu idi...

Balakərimin neçə yaşı var idi? Bəlkə qırx idi? Bəlkə əlli idi? – Bilmirəm, Balakərimin atası, anası kim idi – heç nə bilmirəm, çünki o zamanlar mənə elə gəlirdi ki, Balakərim elə həmişə bu cür olub, Balakərimin heç vaxt atası, anası olmayıb, Balakərim heç vaxt uşaq olmayıb, həmişə beləcə tək olub, beləcə Balakərim olub, həmişə beləcə Ağ Dəvədən danışıb, beləcə tütək çalıb. Balakərimin çaldığı havaları, ancaq özü bilirdi, çünki əslində belə havalar heç yerli-dibli yox idi, bu havaları, ancaq Balakərim çalırdı və bizdən başqa dünyada heç kim o havalara qulaq asmayacaqdı...

Məhəllədə mənim ən yaxın dostum Cəfərqulu idi və düzdü, Cəfərqulu deyirdi ki, guya qabaqlar Balakərimin atası milyonçu olub, guya Ramanada fontan vuran neft quyuları var imiş, guya indi ikinci mərtəbəsində Muxtargil yaşayan, üçüncü mərtəbəsində papaqçı Əbülfətgil yaşayan və bizim məhəllənin ən hündür və ən yaraşıqlı binası olan o üçmərtəbə də vaxtilə Balakərimgilin imiş, guya Balakərim uşaq vaxtı böyük-böyük alim müəllimlərdən dərs almışdı, amma mən bütün bunlar barədə fikirləşmirdim (və ümumiyyətlə, mənə elə gəlirdi ki, bütün bunlar boş söhbətlərdir), çünki Balakərim mənim

üçün elə-beləcə Balakərim idi və bu gün də elə-eləcə Balakərim kimi də qalıb.

Məhəllənin kişiləri yaşamaq üçün həyətlərində Balakərimə yer verirdilər, hətta bir dəfə Əzizağa əminin oğlu Musa ağır xəstələnəndə Əzizağa əmi nəzir eləmişdi ki, Musa sağalsa, öz həyətlərində Balakərim üçün ayrıca birotaqlı, mətbəxli, arakəsməli bir bina tikdirəcək (bizim evimiz kimi), amma Balakərim bari hamamın həyətindəki o quşxana kimi yataq yerini heç nəyə dəyişmirdi, bütün təkliflərdən imtina edirdi (Əzizağa əmi də nəzirini məcbur oldu dəyişdi, iki dənə yekə qoç alıb qəssab Dadaşbalaya kəsdirdi və o iki qoçun ətini məhəllənin camaatına payladı), çünki Balakərim də dəstə-dəstə uçub gəlib o qoşa tut ağacına qonan sərçələr kimi bir şey idi, elə bil ki, küçəmizdəki o üçmərtəbəli binanın damında dayanıb aşağıda qalmış dünyaya baxırdı, amma axşamlar bizə həmin dünyanın ən gözəl və ən sirli əhvalatlarını danışırdı; bəzən mənə elə gəlirdi ki, Balakərim o əhvalatları bizə yox, özü- özünə danışırdı, ya da ki, xüsusən gecələr, küçəmizdən, dalanımızdan əl-ayaq çəkilən vaxtlar, küçəmiz, dalanımız bir müddət dincəlib, sonra təzədən addım həsrəti çəkməyə başladığı vaxtlar Balakərim o əhvalatları qəmbər döşənmiş küçəmizə, kənarları birqat daşla hörülmüş asfalt səkilərə, məhəlləmizin evlərinin divarlarına, bağlı qapı-pəncərələrinə, o qoşa tut ağacına, dalanımızın dibindəki o xartuta danışır.

Hərdən bizim evdə Balakərimdən söz düşəndə anam gülümsəyib deyirdi: "– Yazıq Balakərim şeytan fəhləsidi də..." və mənim bütün içim anamın dediyi bu sözlərə etiraz edirdi, çünki mən əvvəllər anamın bu sözlərini olduğu kimi başa düşürdüm, yəni mənə elə gəlirdi ki, anam Balakərimi, həqiqətən, şeytanın adamı hesab edir, amma sonralar mən başa düşdüm ki, anamın bu sözlərində əslində bir məhəbbət var, anamın Balakərimin çox vaxt hədər yük daşımağına, hədər zəhmətinə hayıfı gəlirdi.

Həmin isti bazar günü Balakərim kürəyini xartutun gövdəsinə söykəyib bir xeyli tütək çaldı və xartut da bizimlə birlikdə diqqətlə Balakərimin tütəyinə qulaq asdı; o tütəyin səsi İbadullanın davadalaşından sonra bizim dalanın, küçənin sakitliyinə bir təmizlik, paklıq gətirirdi; eyni zamanda o tütək səsi bizim evimizdəki o kiçik bayrama lap zərif, şəffaf bir ipək kimi hiss etdiyim qüssə, qəmginlik gətirirdi və axşam düşəndən sonra, mənim atam o vaqon qoxulu həsir zənbilini

əlinə alıb yenə də səfərə gedəndən sonra, Balakərim qədimlərdə baş vermiş əhvalatlardan danışmağa başladı...

...Bəzən, xüsusən, axır vaxtlar mənə elə gəlir ki, o əhvalatları Balakərim danışmayıb, onları mən özüm öz gözlərimlə görmüşəm.

Bəzən mənə elə gəlir ki, o əhvalatları haçansa mən özüm yazmışam.

Bəzən mənə elə gəlir ki, o əhvalatlar haçansa gələcəkdə baş verəcək və mən yuxulu valtlarımda təəccüb edirəm ki, gələcəkdə baş verəcək əhvalatları əvvəlcədən haradan bilirəm, necə görürəm?..

V

Balakərim ən çox Ağ Dəvədən danışırdı və biz Balakərimin başına yığışıb danışdıqlarına qulaq asa-asa bəzən heç nə başa düşmürdük, amma o Ağ Dəvə gözlərimizin qabağına gəlirdi və biz bilirdik ki, Balakərimin söylədiyi o əhvalatları bəzən yaxşı başa düşməsək də, dünyada ağappaq bir Ağ Dəvə var.

Biz heç vaxt Balakərimə suallar verib danışdığı əhvalatları özümüzçün aydınlaşdırmırdıq, çünki Balakərim tamam əmin idi ki, danışdıqlarının hamısını başa düşürük və biz özümüz də buna inanırdıq ki, eşitdiyimiz o qəribə əhvalatların hamısını başa düşürük, o qəribə sözlərin hamısı bizə məlumdur.

Bir dəfə gecənin yarısı yuxudan oyanıb küçə pəncərəmizin qabağına qaçdım. Anam yerindən dik atıldı:

– Nə var, nə olub?

– Ağ Dəvə gedir küçəmizdən... – dedim və pəncərəmizin şüşəsindən çölə baxdım; qaranlıq küçə bomboş, kimsəsiz idi, amma mənə elə gəldi ki, o qaranlıq içində küçəmizə döşənmiş qəmbərin üstündə Ağ Dəvənin iri ləpirləri ağarır və uzaqdan, lap uzaqdan da Ağ Dəvənin boynundakı zınqırovun səsi gəlir.

Atam:

– Balakərim bunların başını xarab eləyəcək... – dedi.

Anam:

– İşin yoxdu, – dedi. – Yuxu görüb...

Mən təzədən yerimə girəndən sonra da xeyli müddət Ağ Dəvənin barəsində fikirləşirdim və mənə elə gəldi ki, Ağ Dəvə kiminsə qapısında yatmaq üçün bizim məhəlləmizə gəlib; Balakərim deyirdi ki,

ölənləri Ağ Dəvə aparır və Ağ Dəvə kimi ki, o biri dünyaya aparmaq istəyir, gecə gəlib o adamın qapısının ağzında yatır. Həmin gecə mən məhəlləmizdəki adamları bir-bir gözlərimin qabağına gətirirdim və istəmirdim ki, Ağ Dəvə onlardan hansınınsa qapısında yatsın; mən qorxurdum, ürəyim döyünüb az qalırdı yerindən çıxsın, mən qorxurdum, amma səsimi çıxarmırdım, çünki istəmirdim ki, atam Balakərim haqqında pis fikirdə olsun.

Balakərim Ağ Dəvənin üstündəki adamlardan söhbət açırdı, Ağ Dəvənin gəzdiyi yerlərdən deyirdi və bəzən də söylədiyi cürbəcür sözləri özü bizə izah edirdi:

– Yolçu Ağ Dəvənin üstündə səhra ilə gedirdi... Səhra bilirsiz də, nə deməkdi, yəni ki, hər tərəf qum, hara baxırsan, qumnan savayı bir şey görmürsən...

...Qıpqırmızı qızarmış dan yeri səhra sırasına bir qırmızımtıllıq vermişdi və səhər yavaş-yavaş açıldıqca, elə bil bu Muğan səhrasının yeknəsəqliyini dəyişdirmək istəyirdi, amma səhərin beləcə yavaş-yavaş açılmasının, bu Muğan səhrasını yeknəsəqlikdən qurtarmaq ehtirasının özündə də bir yeknəsəqlik var idi.

Ağ Dəvə addımlarını bir-bir irəli ataraq həmişəki kimi, tələsmədən mənzilə doğru gedirdi və Ağ Dəvənin bu addımlarının dəyişməz ahəngi də əslində o səhra yeknəsəqliyinin müşayiətçisi idi və təkcə səhranın deyil, təkcə bu gecənin və indicə açılan bu səhərin deyil, bütün dünyanın və yüz min illərin yeknəsəqliyindən xəbər verirdi.

Ağ Dəvənin üstündə oturmuş Yolçu hər dəfə dəvə addım atdıqca yüngülcə yırğalana-yırğalana iri, qara gözlərini qıpqırmızı qızarmış o dan yerinə zilləmişdi və fikirləşirdi ki, bu səhranın da, bu dəvə addımlarının da, o qıpqırmızı dan yerinin də indiki yeknəsəqliyi min il bundan əvvəl də belə olmuşdu və min il bundan sonra da belə olacaqdı.

Yolçunun bütün bədənini, fikrini, hisslərini bir təəssüf bürümüşdü və bu təəssüf elə bil Yolçunu Ağ Dəvənin üstündən aldı, ürəyini uçundurdu, Yolçunu dayaqsız elədi, havadan asılı qoydu.

Təzəcə açılan o səhər ayazında Yolçunun bütün bədəni, fikri, hissləri bir möcüzə həsrətində idi, amma Yolçu yaxşı bilirdi ki, dünyada heç vaxt möcüzə olmayıb və heç vaxt da möcüzə olmayacaq; əslində Kəlimullah Musa peyğəmbər də möcüzə görmək istəyirdi, bəlkə özü heç bunu bilmirdi, amma elə buna görə Tur dağında Allaha çox yalvardı:

– Özünü mənə göstər!..

Amma Allahdan aldığı cavab bu oldu:

– Sən məni heç zaman görməyəcəksən!..

Dünya adidi, beləcə yeknəsəqdi, möcüzəsiz dünyadı və Yolçu fikirləşdi ki, əslində, elə bu adiliyin özü bir möcüzədir, amma bu möcüzədən heç kim baş açmır və Dədə Qorqud kimi bir el ağsaqqalı da, ancaq bunu deyib ki, gəlimli, gedimli dünya, son ucu ölümlü dünya; Dədə Qorqud bunu deyib və özü də neçə yüzilliklərdir ki, köçüb gedib bu dünyadan, Allah ona rəhmət eləsin.

Yolçu, Dədəyə rəhmət oxuya-oxuya torpağa, daha doğrusu, səhranın qumluğuna baxdı, çünki Dədə Qorqudun harada dəfn olunmağının – burada, yoxsa dünyanın o biri başında? – fərqi yox idi, bu dünyanın üzü eyni idi, torpaq eyni idi və Dədə Qorqud da saysız-hesabsız adamlar kimi, bu torpağın altında idi.

Ağ Dəvə addım atdıqca iri ləpirləri qumun üstündə qalırdı və Yolçu arxaya qanrılıb o ləpirlərə baxmaq istədi, amma qanrılmadı, çünki səhra boyu uzanan o ləpirlərin düz xətti də Yolçunun ürəyini sıxacaqdı, çünki o ləpir xətti daha salınmışdı və daha necə vardısa eləcə də qalacaqdı, dəyişməyəcəkdi, əyrilib-burulmayacaqdı, səhra boyu uzanan bu ləpir xəttində külək qopan, qasırğa başlayan müddətə qədər bir əbədilik var idi (sonu olan əbədilik!) və haçansa o külək qopanda, o qasırğa başlayanda – bəlkə sabah, bəlkə beş aydan sonra, bəlkə də iki ildən sonra – itib gedəcəkdi; sonra Yolçu yenə də iri qara gözlərini qaldırıb qıpqırmızı qızarmış dan yerinə baxdı və bu dəfə o dan yerinin qırmızısı dünyada tökülən qanlardan xəbər verdi...

Yolçuya nə olmuşdu? Bu nə fikirlər idi? Bu nə görümlər idi? Və bir halda ki, bütün beyni bu cür fikirlərin əsiri imiş, niyə bundan xəbəri olmayıb və nə üçün özünü bu vaxta qədər tanımayıb?

Dünən axşama yaxın yola çıxaçıxda darvazalarının qabağındakı qoca bir əncir ağacının budağına qonmuş qara qarğa gördü və heç özü də bilmədi, necə oldu ki, bir müddət dayanıb o qarğaya baxdı, diqqətlə baxdı və birdən-birə Yolçuya məlum oldu ki, qara qarğanın qapqara gözləri dünyanın ən gözəl gözləri imiş və Yolçu eyni zamanda, o qara qarğanın gözlərinin dibinə çökmüş kədəri də gördü və həmin kədər Yolçunu sarsıtdı.

Deyirdilər ki, qarğa üç yüz il yaşayır və qara qarğanın gözlərindəki o kədər də həmin üç yüz ilin kədəri idi.

Ağ Dəvə gözlərini mənzilə sarı – uzaqlara dikib eyni ahəngli

mür, rəbatlarda xərclik üçün, va da yolda rastına

istədi, amma bir şey çıxmadı və Yolçu gözlənilmədən (necə ki, gözlənilmədən o bir misra gəlmişdi...) kəşf etdi ki, bu gecə adi gecə deyil, bu gecənin aləmi bürümüş qaranlığı, əslində, o qara qarğanın gözlərindəki o dərin kədərin qaranlığıdır.

Bu hiss Yolçunu sarsıtdı və Yolçuya elə gəldi ki, elə bil, o kədərin indi aləmi bürümüş bu qaranlığı qara bir rəng kimi, ağ əbasını qapqara qaraldır, bir yapışqan kimi, əbasını da, köynəyini də keçib bədəninə yapışır – Yolçu o yapışqanın çimçəşdirən nəmliyini bütün bədəni ilə hiss etdi.

Yolçu bu hissi özündən eləmək istədi, gecənin sakitliyinə qulaq asdı, yolun kimsəsizliyinə, ulduzlara, aya tamaşa etdi və fikirləşdi ki, bütün ömürləri boyu bu yolları gedən sarbanlar dünyanın ən xoşbəxt adamlarıdır; sonra özü öz fikrinin sadəlövhlüyünə gülümsədi: bütün ömürlərini yolda keçirən sarbanlar yəqin hər dəfədə istəyirlər ki, yol tez qurtarsın, tez çatsınlar evlərinə-eşiklərinə, çünki dünyada hər şey nisbidir. Yolçu fikirləşdi ki, Adəm öz Tanrısına asi olub yoldan azdı və buna görə də Adəmi cənnətdən qovdular, Sərəndibə* gəldi və deyilənə görə, ayağının izi indiyə qədər də Sərəndibdə qalır; bütün böyük alimlərin, əhli-qələmlərin yazdığına görə və Yolçunun özünün yaxşı tanıdığı bir çox tacirlərin dediyinə görə, Sərəndib bir cənnətməkan yerdi, amma Adəmi cənnətdən ora qovublar, yəni ki, Adəm ataya cəza veriblər, yəni ki, Sərəndib bizim üçün, biz adi bəndələr üçün cənnətdir, amma əsl cənnətin yanında bir cəza yeridir...

Dünyada gözə görünən və görünməyən hər şey də beləcədir.

Ömürləri boyu yol gedən, dünyanın sakitliyi və genişliyi ilə üzbəüz olan sarbanlar da xoşbəxt deyildi.

Yolçu fikirləşdi ki, xoşbəxtliyin rəmzi deyilənə görə Süheyl ulduzudur və Süheyl ulduzunu bütün parıltısı ilə görmək üçün gərək Yəmən ölkəsinə gedəsən, çünki yalnız Yəməndə o ulduzu aydın görmək mümkündür və Yəməndən gələn qumaş, dəri-ədim ona görə o qədər

Gecə birdən-birə yol da Yolçunun ürəyini sıxdı və Ağ Dəvənin ağzını döndərib yoldan çıxdı, bir az kənarda səhranın içi ilə yola müvazi getməyə başladı, amma səhranın genişliyi də Yolçunun ürəyini toxdatmadı və Yolçu da, Ağ Dəvə də o ağır səhəri beləcə açdılar.

Yolçu yenə də topa-topa ağ buludlara baxdı, sonra altındakı Ağ Dəvəyə baxdı.

Ağ Dəvə həmişəki eyni ahənglə addımlaya-addımlaya ləpirlərini iri möhür kimi qumun üstünə yapışdırırdı və Yolçu fikirləşirdi ki, altındakı bu dəvənin ulu nəsli də min il bundan əvvəl beləcə eyni ahənglə addım atıb yol gedirdi və dəvə addımlarındakı bu yeknəsəqlik deyildi, min illərin eyniliyi idi.

Doğrudan da, topa-topa ağ buludlarla bu Ağ Dəvənin arasında nə fərq var idi?

Yolçu yenə də bütün varlığını, zehnini bürümüş həmin təəssüf hissi ilə bu qərara gəldi ki, heç bir fərq yoxdur.

Bir az aralıdakı kiçicik qum təpəsinin üstündə səhranın qumundan güclə sezilən bir kərtənkələ daşdan yonulmuş kimi tərpənməz dayanıb Yolçuya və Ağ Dəvəyə baxırdı və elə ki, Yolçu və Yolçunun altındakı Ağ Dəvə o kiçicik qum təpəsinin lap yanından ötdülər, kərtənkələ bircə göz qırpımında quyruğu ilə qumu qazıb qumun içində yox oldu.

O qədim dünyada, onda ki, bizim ən ulu babalarımızın ən ulu babaları yaşayırdı, bu göyü beləcə bizim kimi görürdü, bu yeri də beləcə bizim kimi görürdü, onda ki, Musa peyğəmbərin vaxtları idi, Samiri palçıqdan buzov düzəldib həmin buzovu danışdırdı, amma indi o buzov da yoxdur və bir vaxt gələcək – və o vaxt da yəqin ki, çox uzaqda deyil – mən də olmayacağam və mənimlə min illər bundan əvvəlki o palçıq buzovu arasında nə fərq var? Mən on aydan, ya on ildən sonra olmayacağam, amma elə həmin on ayla, on illə bərabər mənim bütün ömrümlə o palçıq buzovun yaşadığı o qədim dünyadan keçib gələn min illər arasında nə fərq var? Yaxud mənim yaşadığım

ki, Ağ Dəvə də neçə illərdən bəri belində gəzdirdiyi Yolçunun sinəsinin közərtisindən xəbər tutdu, bir anlıq, cəmi bircə anlıq ayaq saxladı, sonra yenə də həmişəki ahəngdarlığı ilə addımlaya-addımlaya yoluna davam etdi.

Bu nə suallar idi? Nə fikirlər idi?..

Yolçu elə bil ki, yüz illərin susuzluq yanğısı ilə fikirləşdi ki, min cür bəlalar çəkdim, amma bu da varmış yolumda... bayquş mənəm, bayquş mən, hamı quşdan say quş mən, nə bəlalı quş oldum, Allah, sızıldaram yay, qış mən...

Yenə o topa-topa ağ buludlara baxdı, daha doğrusu, o topa-topa ağ buludların arasından görünən tərtəmiz, gömgöy göyə baxdı və bütün içindən qarşısıalınmaz bir istək baş qaldırdı: çək qılıncını, vur boynumu... vur!.. vur!..

Bayaqkı dan yerinin qızartısı Yolçunun gözlərinin qabağına gəldi və bu qızartı yenə də qan rəngini aldı və Yolçu fikirləşdi ki, bir vaxtlar ki, hələ Məhəmməd Rəsulüllaha inanmayan adamlar var idi və o adamları da Allah xəlq etmişdi, bəs, nə üçün o adamlar Məhəmmədi daşa basıb dişini sındırdı, dodağını parçaladı? O adamlar Məhəmmədə inanmırdı, amma Allah ki, Məhəmmədi tanıyırdı, Allahın ki, elçisi idi Məhəmməd və bir halda ki, belə idi, nə üçün o adamlar əllərini qaldırıb Məhəmmədə daş atırdı, niyə əlləri qurumurdu və ümumiyyətlə, necə olurdu ki, belə bir bəd əməl o adamların ağlına gəlirdi, nə üçün o saat peyğəmbərə inanmırdılar, axı, Allah peyğəmbərin taleyini əvvəlcədən təyin etmişdi və Şeyx İbrahim Əlimuxtar Qəzvini – Allah ona rəhmət eləsin – demirmi ki, dünyanın ən böyük və ən müdrik kəlamı budur: Allah bilən məsləhətdir...

Allah niyə məsləhət bildi ki, cəmi iki yüz il bundan əvvəl o adamlar daşla vurub peyğəmbərin dişlərini sındırdı, dodağını partlatdı?

O yeni açılan səhər ayazında Yolçu özü öz fikirlərindən dəhşətə gəldi, Ağ Dəvənin üstündə belini dikəldib o topa-topa ağ buludların arasından görünən tərtəmiz, gömgöy göyə baxdı, elə bil ki, göyün o təmizliyindən, gömgöylüyündən bir imdad istədi və bu dəfə fikirləşdi ki, yəqin haqq o qədər ülvidir, o qədər böyükdür, yüksəkdir ki, onu dərk etmək üçün, ona gedib çatmaq üçün beləcə əzab-əziyyətlər çəkməlisən...

Amma nə üçün?

Bir şey ki, əzabla, beləcə əziyyətlə əldə ediləcək, o haqq ola bilərmi?

Allah ki, adildir...

Yolçu başa düşdü ki, dayanmaq lazımdır, indicə bütün gücünü toplayıb bir az dincəlməlidir, heç olmasa bir az mürgüləməlidir, yoxsa hər şey alt-üst ola bilər, yoxsa hər şey dağılar.

Yolçuda uzun illərin alış-veriş təcrübəsindən gələn dəqiq, səhvsiz hesablama fitri var idi və indi də iti zehni Yolçunu silkələyib ələ aldı, beynini bürümüş bu fikirlərin ucundan tutub ucuzluğuna getməyə qoymadı.

Yolçu Ağ Dəvəni yerə yatırdıb belindən düşdü, qumluqda bir-iki addım atıb dizləri üstə yerə çöməldi və gözlərini yumdu.

Məni həsrət yaratdı...

Yolçu başqa heç nə fikirləşmirdi, fikrində dolaşan təkcə bu bir misra idi.

Məni həsrət yaratdı...

Bu dəm əvvəl-axırı görünməyən o kimsəsiz səhra içində Yolçu ilə Ağ Dəvə üzbəüz idilər və Ağ Dəvə indi də bayaqkı addımlarının ahəngi ilə kövşəyə-kövşəyə iri qara gözlərini Yolçunun sifətinə dikmişdi, Yolçu isə gözlərini yummuşdu, nə Ağ Dəvəni, nə də Ağ Dəvənin qara gözlərini görürdü.

Məni həsrət yaratdı...

Bu bir misra Yolçunun yorulub əldən düşmüş beyninə kiçik bir yüngüllük gətirməyə başladı və Yolçu mürgüləndi.

Yolçu özü bilmirdi ki, yatır, ya oyaqdır, amma bayaqkı dan yerinin qızarmasını və bir də ki, o qara qarğanın iri, qara gözlərinin qara rəngli kədərini görürdü, o qırmızı ilə o qara bir-birinə qarışırdı, tünd-bozumtul bir rəng olurdu, sonra bu tünd-bozumtul rəngə bir səhra sarısı qarışdı və hər tərəfi açıq bir bozluq bürüdü...

Yolçu gözlərini açanda o ağ buludlar adda-budda göyün üzünə dağılmışdı, gün çıxmışdı və göyün bu təmizliyi ilə səhra qumlarının göz işlədikcə uzanan hamarlığı çox uzaq üfüq xəttində birləşirdi.

Yolçu dodaqaltı duasını pıçıldayıb salavat çevirdi və ayağa qalxdı, ətrafa baxdı və yerində donub qaldı: Ağ Dəvə yox idi.

Yolçu gördü ki, Ağ Dəvəni oğurlamayıblar, özü qalxıb gedib, çünki Ağ Dəvənin, elə bil, səhraya basılmış iri möhürlər kimi ləpirlərindən savayı qumluqda heç bir iz yox idi.

Ağ Dəvənin ləpirləri səhra ilə göyün birləşdiyi o uzaq üfüq xəttinə tərəf gedib gözdən itirdi.

Yolçu az qala dizəcən narın quma bata-bata bir müddət bu izi tutub getdi, amma Yolçu bu yerləri yaxşı tanıyırdı və gördü ki, Ağ Dəvənin izi səhranın lap dərininə, gedər-gəlməzə aparır, dayandı, bir xeyli o boz-sarımtıl səhrada günün altında boz-sarımtıl da bir cığır kimi uzanan ləpirlərə baxdı və birdən-birə Yolçuya elə gəldi ki, cığır kimi uzanıb gedən bu ləpirlər, əslində, səhranın dərininə yox, nəsə bir qeybə doğru gedir, nəsə başqa bir dünyaya, başqa bir aləmə aparır.

Yolçu bir müddət dayanıb bu boz-sarımtıl cığır kimi uzanıb gedən ləpirlərə baxdı, sonra geri qayıtdı.

Yolçu ikinci namazı səhrada qıldı, sonra səhradan çıxıb yolu tapdı və piyada gedib axşamüstü Şəhər girəcəyində dayanmış karvanının düşərgəsinə çatdı.

Yolçunun şagirdləri, nökərləri, qulamları ikinci namaz vaxtında gözlərini yola dikib Ağ Dəvəni gözləyirdilər, amma ağalarını – Yolçunu piyada gördülər, həbəş qulamları elə başa düşdü ki, Yolçunu yolda soyublar, Ağ Dəvəni əlindən alıblar, əllərini qılınca atdılar, cins Qarabağ atlarını minib quldurların ardınca çapmaq istədilər, amma Yolçu əlinin işarəsi ilə onları saxladı və:

– Dəvə itdi... – deyib çöldə çatılmış ocağın kənarına gəldi, yenə də əlinin işarəsi ilə ocağın kənarında oturmuş nökərləri ayağa qalxmağa qoymadı və özü də çömələb ocağın kənarında quru torpağın üstündə oturdu, iri, qara gözlərini yavaş-yavaş yenə də aləmi bürüyən o qaranlıq içində yanan ocağa zillədi.

Ocağın işığı Yolçunun üzünə düşürdü və Yolçunun iri, qara gözlərinin dibinə bu dəm dərin bir kədər çökmüşdü.

Heç kim danışmağa, bir söz soruşmağa cürət etmirdi; bu adamlar Yolçunun sərt xasiyyətinə yaxşı bələd idi.

Heç kim danışmağa cürət etmirdi, amma şagirdləri də, nökərləri də, qulamları da Yolçuya baxırdılar və ürəklərində fikirləşirdilər ki, bu adama ki, sərtliyinə, hətta bəzən qəddarlığına baxmayaraq, camaat Vəliyyünnemə[1] adını verib, bunun ki, o qədər saya gəlməyən ləlcavahiri var, qızılı var, yüz dəvə yükü mal-dövləti var, igid oğulları, igid kürəkənləri var, bircə dəvədən ötrü – qoy lap Ağ Dəvə olsun! – niyə beləcə qəm dəryasına qərq olub?

Həmin sükut içində oturmuşdular.

[1] Vəliyyünnemə – başqalarına kömək əli uzadan.

Hər tərəf gecənin zülmətinə qərq olmuşdu, amma o dərin kədərin kölgəsi Yolçunun gözlərindən çəkilib getmirdi.

Əlbəttə, o gecə o ocağın kənarında oturan adamlardan heç kim bilmədi ki, o dərin kədər qara qarğanın gözlərindəki kədərə bənzəyir.Hamı elə bildi ki, Yolçu Ağ Dəvənin itməyinin dərdini çəkir.

VI

Anam tez-tez deyirdi ki, kimin alnına nə yazılıb, elə də olacaq və anam bu sözləri deyəndə mən fikirləşirdim ki, görəsən, mənim alnıma nə yazılıb və mən kim olacağam? Necə yaşayacağam? Doğrudanmı, görəsən, mən özüm də ata olacağam? Mənim də uşaqlarım olacaq? Vaxt keçəcək və mənim də saçlarım ağaracaq?

Gözəl günlər var idi...

Bir dəfə bizim dalanda futbol oynayırdıq və mən topu vuranda top dalanımızın qabağından keçən Molla Əsədullanın qoluna dəydi və Molla Əsədulla bərk hirsləndi, qolunun top dəyən yerini ovxalaya-ovxalaya üstümə qışqırdı:

– Ay tüllab! – dedi. – Gözün yoxdu sənün, mən boyda adamı görmürsən?

"Tüllab" bizim məhəllədə söyüş idi və əlbəttə, mən bilirdim ki, bu, biədəb bir söz deyil, çünki böyüklər də hirslənəndə bizim yanımızda bu sözü ağızlarından çıxarırdılar (və hərgah biədəb söyüş olsaydı, Molla Əsədulla da bunu dilinə gətirməzdi!), amma bu sözün mənasının nə olduğunu bilmirdim.

Heç kimin ağlına gəlməzdi ki, həmin anlarda Yolçu fikirləşirdi: kaş mən də o dəvə ilə bir yerdə itəydim...

Axşam atamdan soruşdum:

– "Tüllab" nə deməkdir?

Atam dedi:

– Sizin məhəllənin söyüşüdü də... – O qürbət hissi həmişə atamla bir yerdə olduğu üçün, illərdən bəri yaşadığı məhəlləyə də "sizin məhəllə" deyirdi (və bu mənim ürəyimi sıxırdı, çünki mən istəyirdim ki, bizim məhəllə, eyni zamanda, atamın da məhəlləsi olsun). – Yenə nə eləmisən, kim söyüb səni?

Mən bir söz demədim və səhəri gün yenə də Balakərimin başına yığışanda soruşdum:

– Sən bilirsən "tüllab" nə deməkdir?

Balakərim mənim böyük təəccübümə və sevincimə səbəb olan gözəl sözlər dedi:

– "Tüllab" ərəb dilində "tələbə" deməkdir.

Bizim məhəllənin bütün uşaqları böyüyəndə şofer olmaq istəyirdi və əlbəttə, mən də çox istəyirdim ki, böyüyəndə Cəfər kimi, Adil kimi, Əbdüləli kimi, Cəbrayıl kimi (sonralar Ağarəhim kimi) şofer olum, "polutorka" sürüm və o "polutorka" gəlib bizim dalanın qabağında dayansın, anam o "polutorka"nın şüşələrinin kənarına qotazlı krujevalar toxusun, amma Balakərim "tüllab" sözünün mənasını başa salandan sonra birdən-birə haçansa Qoca kimi tələbə olmağın sevinci mənim bütün içimə yayıldı və mən bir dəfə Qocanın mənim quraşdırıb danışdığım əhvalata qulaq asandan sonra dediyi sözləri yadıma saldım: "– İbrahim-zad boş şeydi, Ələkbər, sən yazıçı olacaqsan, kitab yazacaqsan!..". O zaman Qocanın o sözləri mənim üçün o qədər qeyri-adi səsləndi, o qədər möcüzəli göründü ki, mən heç bilmədim ki, bu sözlərə sevinim, ya nə eləyim? Qocanın o sözlərindən sonra, birdən-birə mən Səttar Məsumu xatırladım, çünki Səttar Məsum da şair idi, yəni yazan adam idi və kiminsə haçansa məni də Səttar Məsum təki satacağının xofu bir yumruq kimi mənim ürəyimi sıxdı...

Balakərim "tüllab" sözünün mənasını başa salandan sonra isə mənim ürəyimdə heç bir xofdan əsər-əlamət yox idi; evimizdə üç-dörd kitab var idi, onları da lap balaca olanda cırmışdım, səhifələrinin yarısı var idi, yarısı yox idi və mən evə gedib həmin yarımçıq kitabları səliqə ilə anamın sandığına yığdım, çünki mən böyüyəcəkdim, tələbə olacaqdım, sonra yazıçı olacaqdım və o kitabların cırılmış, itmiş səhifələrini yenidən yazacaqdım...

Gözəl günlər var idi...

O kitablar lap bu yaxın vaxtlaracan mənim evimdə kitab rəflərindən birində idi, amma o kitabların itmiş, cırılmış səhifələrini mən yenidən yaza bilməmişdim.

Bir gün həmin kitabları rəfdə görmədim və məlum oldu ki, uşaqlar onları lazımsız qəzet-jurnallarla bir yerdə makulaturaya verib.

Mən uşaqlara heç nə demədim.

Sözə nə ehtiyac var idi və söz nə edə bilərdi?

VII

Bizim əlimizə xırda pul keçən kimi, qaçıb Meyranqulu əmigilə gedirdik ki, şingiləli saqqız alaq, yaxud evdə bişmiş sümürtgən qırmızı xoruz konfeti alaq, ya ortasına qurğuşun bağlanmış çiləndi alaq və Meyranqulu əmi də həmişə bizi deyinə-deyinə qarşılayırdı: "– Yenə gəldüz? Bilmirəm, vallah, əlüvüzdən sizin hara qaçıb gizlənim?..". Elə bil kimsə Meyranqulu əmini məcbur eləyirdi ki, çiləndi düzəltsin, xoruz bişirsin, bizə satsın (bu barədə Ziba xala yaxşı idi, həmişə üzügülər idi, həmişə satdığı tumu tərifləyirdi: "– Əntiqə semiçkadı, peyğəmbər haqqı, lap alayı şeydi!.. Alın, nuş olsun!.." və Ziba xala, hətta bəzən pulumuz olmayanda da cibimizə yarım stəkan müftə tökürdü), amma biz Meyranqulu əminin beləcə deyingənliyinə öyrəşmişdik və şingiləli saqqızı alıb çeynəyirdik, yaxud qırmızı xoruz konfetini alıb sümürtdəyirdik, ya da ki, bizim dalanın dibindəki xartut ağacının altına yığışıb çiləndi çiləyirdik.

Meyranqulu əmigilin evinin çöl qapısı birbaş küçəyə açılırdı (həyətləri yox idi) və yazda, yayda, payızda, qışın yağmursuz, küləksiz günlərində Meyranqulu əmi həmişə küçə qapılarının ağzında otururdu, özü düzəltdiyi balaca taxta kətili də qabağına qoyurdu və xoruzlar da, çiləndilər, şumaqədərlər də, bir banka suyun içinə yığdığı o şingilələr də səliqə ilə həmin taxta kətilin üstünə düzülürdü. Meyranqulu əmi deyinə-deyinə bizdən aldığı dəmir pula diqqətlə baxırdı (elə bil ki, biz onu aldadacaqdıq, pul əvəzinə başqa şey verəcəkdik, ya da ki, özümüz yalançı pul düzəldəcəkdik...), sonra həmin pulu soyuq vaxtlar əynindəki sırıqlısının, isti vaxtlar isə qəhvəyi rəngli köynəyinin cibinə qoyurdu, istədiyimizi verirdi: şingilə iki şahı, xoruz üç şahı, çiləndi bir abbası, taxta şumaqədər beş şahı, dəmir şumaqədər altı şahı...

Meyranqulu əminin İbrahim adlı bir oğlu var idi və bütün məhəllə bilirdi ki, Meyranqulu əmi ona görə taxta yonub şumaqədər düzəldir, xoruz konfeti bişirir, səhərdən axşamacan çöl qapısının ağzında oturur ki, İbrahim yaxşı geyinsin və İbrahimin oturub söz qoşmaqdan savayı başqa bir qayğısı olmasın. Məsələ burasında idi ki, İbrahim şair idi və İbrahimin yazdığı iki misra məhəllənin cavanlarının dilinin əzbəri idi:

Göy yaxasını açanda ay göründü,
Sən yaxanı açanda günəş göründü!

Düzdür, Balakərim deyirdi ki, bu şeri İbrahim oğurlayıb, guya Ənuşirəvan padşah Ağ Dəvənin üstündə gedəndə çöldə çimən Fəxrəndə xanımı görmüşdü və bu şeri də onda demişdi, indi İbrahim də yalandan deyir ki, bu şeri mən yazmışam. Burasını da deyirdilər ki, – əvvəllər, onda mən hələ lap balaca uşaq olmuşam – Meyranqulu əmi altı qızdan sonra dünyaya gəlmiş İbrahimin şerlərini yığıb Səttar Məsuma göstərib və guya Səttar Məsum da həmin şerlərin əvvəlini oxuyanda sonunu əzbər deyirmiş, çünki İbrahimin bu şerlərinin hamısı qabaqlar yaşamış başqa-başqa şairlərin imiş, amma hər halda İbrahim pul oğurlamırdı, paltar oğurlamırdı və İbrahimin şer oğurlamağının özü də elə hörmətli bir iş idi və belə deyirdilər ki, guya İbrahim bu şeri ("Göy yaxasını açanda ay göründü, sən yaxanı açanda günəş göründü!") Şövkət üçün yazıb (ya oğurlayıb).

Meyranqulu əmi şingilə-saqqız, çiləd, bülbül qəfəsi, oxlov, taxta qaşıq və başqa bu kimi şeylər satmaqdan əlavə, qabaqlar həm də pulla, gizlincə iynə-tuş ilə məhəllə cavanlarının, başqa məhəllələrdən gələnlərin əllərinə, qollarına, sinələrinə döymə yazılar yazırdı, cürbəcür şəkillər çəkirdi; indi daha bu işlə məşğul olmurdu, çünki bir dəfə Xanım xala gəlib Meyranqulu əmini məhəllənin camaatı içində biabır eləmişdi və demişdi: "– Sən ölməsən, Meyranqulu, atovun qəbirinə and olsun, əgər bir də görsəm, eşitsəm, bilsəm ki, bir adamın əlinə-qoluna yazı yazmısan, arvad şəkli çəkmisən, sən ölməsən, Meyranqulu, sənün boğazundan yapışıb aparıb milisə verməsəm, kişi qızı döyüləm!". Əlbəttə, Meyranqulu əmi bilirdi ki, Xanım xaladan nə desən çıxar və Xanım xalanın kişi əlləri kimi iri əllərinə baxıb bu qərara gəlmişdi ki, bir də bu işlə məşğul olmasın, xırdavatını satıb yeganə oğlu İbrahimi bəsləsin.

Deyirdilər ki, guya Xanım xala oğlanlarından hansınınsa bədənində yuxarısı arvad, aşağısı balıq olan bir şəkil görüb və ona görə də beləcə hirslənib: o yarısı arvad, yarısı balıq şəklini bilmirdik, amma Cəfərin də, Adilin də, Əbdüləlinin də, Cəbrayılın da, Ağarəhimin də əllərinin

Bəzən bizim dalanın qabağında dalbadal dörd maşın düzülürdü: Cəfərin, Adilin, Əbdüləlinin, Cəbrayılın sürdükləri maşınlar; Ağarəhim onda hələ sürücülük məktəbində oxuyurdu və bəzən Ağarəhim də şagird maşınını sürüb dalanın qabağına gətirirdi və onda bizim dalanın qabağında dalbadal beş maşın dayanırdı. Belə vaxtlar hərdən Xanım xala günorta yeməyinə evə gəlmiş oğlanlarının xörəyini çəkib sonra özü küçəyə çıxırdı, dalbadal düzülmüş o maşınlara baxırdı və elə bil ki, o maşınlar da Xanım xalanın oğlanları idi.

Xanım xalanın əri hələ mən anadan olandan qabaq ölmüşdü, amma mənə elə gəlirdi ki, Xanım xalagil həmişə belə olublar; Xanım xala olub, bir də ki, Cəfər, Adil, Əbdüləli, Qoca, Cəbrayıl və Ağarəhim olub, daha heç kim olmayıb; mən Xanım xalagili başqa cür təsəvvür edə bilmirdim.

Adil də, Əbdüləli də, Cəbrayıl da "polutorka" sürürdü və o təptəzə "QAZ-AA"larla biz hamımız fəxr edirdik. Cəfər avtobus sürürdü və o "ZİS-16" da təptəzə idi və hərdən Cəfər bizi, məhəllənin uşaqlarını avtobusa mindirib yuxarı məhəllələrə sürəndə biz olurduq dünyanın ən xoşbəxt adamları və yuxarı məhəllə uşaqlarının həsəd dolu baxışları bizim üstümüzə dikiləndə biz başımızı dik tuturduq, özümüzü bu gözəl avtobusun əsl sahibi bilirdik.

Qocanın isə maşını yox idi, çünki sürücü deyildi, amma buna baxmayaraq, mən Qocanı hamıdan çox istəyirdim və Qoca da mənimlə daha artıq mehriban idi və bir dəfə mənim quraşdırdığım bir əhvalata qulaq asandan sonra heç vaxt yadımdan çıxmayacaq o sözləri dedi: "– İbrahim-zad boş şeydi, amma sən yazıçı olacaqsan, kitab yazacaqsan!..".

Sonralar "tüllab" sözünün də mənasını öyrəndim və Qocanın dediyi sözlər ilə "tüllab"ın mənası mənə o qədər təsir etmişdi ki, bəzən gecələr yerimə girəndən sonra yata bilmirdim, ürəyim bir həyəcanla, coşğunluqla

Mən qulaqlarıma inanmadım, çünki yeddiillik ömrümdə heç bir teatra, sirkə getməmişdim, təkcə kinoya getmişdim və Qocadan bu sözləri eşidəndə başa düşdüm ki, həyatımın böyük bir hadisəsi ərəfəsindəyəm və nədənsə gözlərimin qabağında cürbəcür rənglər oynamağa başladı: qırmızı yaşıla qarışdı, yaşıl göyə qarışdı, göy sarıya qarışdı, sarı narıncıya qarışdı... Mən bilirdim ki, bu, ərəfəsində olduğum o sevincin, xoşbəxtliyin rəngidi və mən gecələr yerimə girib yatmazdan əvvəl, atamın vərdiş etdiyim xorultusunun (atam evdə yatanda və xoruldamayanda mən yata bilmirdim, çünki atamın xorultusuna adət etmişdim) müşayiətilə bu rəngləri görürdüm, bu rənglər bir-birinə qarışırdı, parıldayırdı və onların qırmızı, yaşıl, göy, sarı, narıncı işıltılarında mənim bütün ürəyimə yayılan ilıq bir təbəssüm var idi; hərdən atamın xorultusu kəsirdi və mən diksinib o rənglər aləmindən çıxırdım, balaca otağımıza, dördkünc miz ilə paltar dolabının arasında yerdən salınmış yorğan-döşəyimizin içinə qayıdırdım, amma sonra atam yenə xoruldamağa başlayırdı və mən də təzədən yavaş-yavaş o rənglər aləminə gedirdim; mən nəsə bir bayram gözləyirdim, elə bir bayram ki, bu, balaca otağımızdan, gecələr də nöyüt pilətəsinin iyini özündə saxlayan balaca mətbəximizdən, həyətimizdən, dalanımızdan, küçəmizdən uzaqlardadı, amma nə qədər uzaq olsa da, bir vaxt gəlib məni tapacaqdı...

...Mən indi də o uzaq uşaqlıq çağlarını yadıma salanda fikirləşirəm ki, sən bir işə bax, mən o bayramı həmin balaca otağımızdan, balaca mətbəximizdən, həyətimizdən, dalanımızdan, küçəmizdən, o qoşa tut ağacından, o körpə söyüddən uzaqlarda təsəvvür edirdim...

...Qoca dedi:

– Axşam səni sirkə aparacağam.

Mənə elə gəldi ki, gecələr yuxuya getməmişdən əvvəl içinə girdiyim o rənglər aləmi heç vaxt görmədiyim o sirkin rəngləridir.

Həmin gün anam da sirkə gedəcəyimə mənim qədər sevinirdi (çünki anam da ömründə sirkdə olmamışdı...), günorta tələsik köynəyimi yuyub mətbəxdəki nöyüt pilətəsinin üstündə qurutdu, ütülədi, şalvarımı da ütülədi, corablarımın dabanlarını səliqə ilə gözəyib sahmana saldı, axşam cibimə iki abbası pul qoydu ki, sirkdə özümə konfet və limonad alım və biz Qoca ilə birlikdə sirkə yollandıq.

Biz yeddinci sırada oturmuşduq, tamaşa hələ başlamamışdı, adamlar iki-bir, üç-bir gəlib biletlərinə baxa-baxa yerlərini tapıb otururdular

və mən bu adamların arasında olmağımla fəxr edirdim, mənim bütün içimdə heç vaxt hiss etmədiyim bir sevinc, coşğunluq var idi və mən çox istəyirdim ki, anam da indi burada olaydı, atam da indi burada olaydı və indi onların da ürəyində mənim ürəyimdəki kimi bir sevinc olaydı.

Mən ömrümdə bu boyda binada, bu qədər adamların arasında olmamışdım və sirkin gümbəz kimi tavanı boyu asılmış cürbəcür kəndirlər, pilləkənlər, pərdələr, işıqlar elə bil ki, məni Balakərimin danışdığı o sehrli aləmə aparıb çıxarmışdı: hərdən mənə elə gəlirdi ki, bütün bunlar da həqiqət deyil, yuxudur, yaxud eşitdiyim və gözlərimin qarşısında canlandırdığım bir aləmdir.

Düzdür, mən bu girdə, hündür, işıqlı yerdə bu qədər adamın arasında olmağımla fəxr edirdim, amma eyni zamanda mən Qoca ilə də fəxr edirdim, yanımızdan ötənlərin hərdən Qocaya, sonra mənə baxmaqları xoşuma gəlirdi, mən sevinirdim və sirkin meydanından gələn at iyi, taxta kəpəyinin iyi həmin sevinci tamam qeyri-adi edirdi.

Qoca bizim məhəlləmizdə birinci adam idi ki, institutda oxuyurdu və birinci adam idi ki, həkim olacaqdı; əlbəttə, Qoca maşın sürmürdü, gizlin-gizlin pəncərələrdən baxan məhəlləmizin qızlarının gözünün qabağında təptəzə "polutorka" ilə küçəmizdən keçib dalanın qabağında dayanmırdı, amma Qocanın qoltuğundakı o qalın-qalın kitablar da məhəlləmizin adamlarına (o cümlədən, gizlin-gizlin pəncərələrdən baxan o qızlara) Cəfərin, Adilin, Əbdüləlinin, Cəbrayılın (sonralar Ağarəhimin) maşınlarından az təsir etmirdi və analarımız bizə öyüd-nəsihət verəndə əsas etibarilə Qocanı misal çəkirdilər: "– Bax, görürsüz Qocanı? Siz də yaxşı oxuyun, kitabxanalara gedin ki, Qoca kimi olasuz!". Hətta Muxtar da axşamlar qara "emadin"dən düşüb evinə gəldiyi vaxtlar, ya da ki, səhərlər evindən çıxıb qara "emadin"ə mindiyi zamanlar küçədə Qocanı görsəydi salam verirdi.

Həmin axşam mən özümlə və Qoca ilə fəxr edə-edə, sirkin girdə meydanından gələn at iyini, taxta kəpəyinin iyini dünyanın ən sehrli iyi kimi içimə çəkə-çəkə tamaşanın başlanmağını gözləyirdim (əslində mənim üçün tamaşa sirkin binasına girdiyim dəqiqədən başlamışdı!) və bu vaxt birdən-birə Ədiləni gördüm. Ədilə yanındakı bir qız ilə biletlərinə baxa-baxa gəlib bizdən bir az kənarda və aşağıda, üçüncü sırada dayandı və yerində oturmazdan əvvəl gözləri ilə yuxarı cərgələri axtardı, bizi görən kimi tez gözlərini çəkdi və rəfiqəsi ilə yanaşı oturdu.

Mən Ədiləni Qocaya göstərmək istədim, mənə elə gəlirdi ki, səhərdən bəri bütün içimi doldurmuş həmin sevinc və fərəh hissi Qocanı da beləcə əlinə alıb və mən Qocanın o sevincini, o fərəhini daha da artırmaq istədim, amma... Ədiləni göstərməyimə ehtiyac yox idi, Qoca Ədiləni görmüşdü və indi də Ədiləyə tərəf baxırdı.

Mən birdən-birə çox pərt oldum və özümü güclə saxladım ki, ağlamayım, çünki bircə anın içində mən başa düşdüm ki, Qoca məni istədiyinə görə sirkə gəlməmişik, ona görə bura gəlmişik ki, Ədilə də bura gələcəkdi və Qoca məni ona görə bura gətirmişdi ki, mən balaca idim, heç nə başa düşməyəcəkdim və başqaları da heç nə başa düşməyəcəkdi.

Bayaqkı sevincdən, fərəhdən heç nə qalmadı, o gözəl at iyini, taxta kəpəyinin iyini də daha hiss etmədim və durub ağlaya-ağlaya içi adamla dolu bu böyük, girdə binadan qaçıb getmək istədim. Bəlkə də durub qaçacaqdım, amma Qoca gözlərini Ədilədən çəkib mənə baxdı, gülümsədi, Qocanın ağappaq dişlərini gördüm və qorxdum ki, birdən Qoca da ölər və bu hiss məni ağlamağa, durub qaçmağa qoymadı.

Məsələ bunda idi ki, bir müddət bundan əvvəl, yazın ortalarında Xanım xala həmişəki kimi, yenə də başını şüşəbənddən çıxarıb məni çağırdı: "– Ələkbər, ay Ələkbər! Yenə bu iynə şoqəribi saplaya bilmirəm!.." (Xanım xala bu cür şikayətləri, ancaq mənə eləyirdi.) Mən qaça-qaça Xanım xalagilə qalxdım və bir yığın köynəyi, corabı qabağına töküb səliqə-sahmana salan Xanım xaladan iynəni aldım, sapı iynənin gözündən keçirdim və yenə də dalana qaçıb oynamaq istədim, amma bu vaxt gözüm şüşəbəndin bir küncünə qoyulmuş yazı masasına sataşdı. Bu yazı masası Qocanın idi və bizim məhəllə-mizdəki evlərdə yeganə yazı masası idi (çünki heç kimə lazım deyildi), həmişə də üstündə cürbəcür kitablar, kağızlar, qələmlər olurdu, amma bu dəfə həmin yazı masasının üstündə iri və ağappaq sümüklər var idi. Mən özümü saxlaya bilməyib Xanım xaladan soruşdum ki, bu nə sümüklərdir belə və Xanım xala da cavab verdi ki, adam sümükləridir. Mənə elə gəldi ki, Xanım xalanı yaxşı başa düşmədim və təzədən heç nə demədim, çünki Qocanı çox istəyirdim və istəmirdim ki, uşaqlar Qoca haqqında pis fikrə düşsün, amma özüm Qocanı görəndə ürkürdüm, yazı masasının üstündəki o iri adam sümüklərinin ağartısı gözlərimin qabağından keçib getmirdi; beləcə günlər keçdi və Qocanın təbəssümü həmişəki kimi o qədər mülayim və ilıq idi ki, o ağappaq adam sümüklərinin soyuğunu yavaş-yavaş mənim ürəyimdən çıxarıb apardı.

İndi də Qoca gülümsəyəndə və mən Qocanın ağappaq dişlərini görəndə o iri adam sümükləri birdən-birə yadıma düşdü və mən qorxdum ki, Qoca da ölər...

Qoca qulağıma pıçıldadı:

– Biz səniynən dostuq də, hə?

Mən başımı tərpətdim.

Qoca yenə qulağıma pıçıldadı:

– Dilimiz bir, sirrimiz bir, hə?

Mən başımı bir də tərpətdim, Qocanın sözlərini təsdiq elədim.

Tamaşa başladı, amma mən bütün fikrimi toplayıb ömrümdə birinci dəfə gördüyüm o sirk tamaşasına baxa bilmirdim, çünki o iri adam sümükləri gözlərimin qabağından çəkilib getmirdi və mən istə-mirdim ki, nə vaxtsa, Qoca da ölsün və Qocanın da sümükləri kiminsə yazı masasının üstündə beləcə ağarsın: sonra mən Ədiləyə baxdım: üzünün bir tərəfi görünürdü və Ədilə diqqətlə sirkin meydançasına baxırdı, amma mən hiss edirdim ki, bütün fikri-zikri bizim yanımızda, daha doğrusu, Qocanın yanındadır. Həmin anlarda Qoca ilə Ədilənin beləcə gizli baxışları, aralarındakı bu gizli ünsiyyət, nədənsə Ağ Dəvəni yadıma saldı və mənə elə gəldi ki, Ağ Dəvə bu gizli baxış-ların, gizli ünsiyyətin ucundan tutub yavaş-yavaş gələcək və Ədiləgilin qapısının ağzında yatacaq. Yenə də Ədiləyə baxdım, ağlıma gələn bu fikirlərdən qorxdum və bayaqkı o pərtliyimi yadımdan çıxartdım, çünki mən Ədilənin də ölməyini istəmirdim.

Mən həmişə hamıdan – uşaqlardan da, anamdan da, bizə gələn başqa arvadlardan da eşitmişdim ki, Ədilə məhəllə-mizin ən gözəl

bədənində bir doğmalıq, məhrəmlik hiss edirdim. Ədilənin o uzun, o qalın, o xurmayı, qoşa hörükləri arxadan dizlərinin qattağınacan uzanırdı və bizdən yuxarı məhəllələrin cavanları uzaqdan-uzağa Ədiləyə tamaşa eləyə-eləyə ona "Saçlı qız" – deyirdilər, hətta öz aralarında bizim məhəlləyə də "Saçlı qızın məhəlləsi" deyirdilər.

Ağac kəpəyi döşənmiş sirk meydançasında canbazlar atılıb-düşürdü, həyatımda ilk dəfə gördüyüm, par-par alışıb-yanan paltar geymiş artistlər əllərində cürbəcür fiqurlar oynadırdı, mən isə Ədiləyə baxırdım və fikirləşirdim ki, Xanım xalanın nə üçün bu gözəl qızı, bu cür hörüklü, bu cür xurmayı saçlı qızı görməyə gözü yoxdur?

Əlbəttə, mən anamla bir yerdə hamama, dükana gedəndə, ya arvadlar bizə yığışanda söhbətlərindən bilirdim ki, Xanım xalanın nə vaxtsa Abuzər adında bir qardaşı olub və həmin Abuzər Ədilənin anası Fatma xalaya aşiq olub, amma Fatma xala Abuzəri bəyənməyib, papaqçı Əbülfətə, yəni Ədilənin atasına ərə gedib. Səfurə xala hamamda anamın belini kisələyə-kisələyə deyirdi: "– Qaragün Fatma, guya ki, bir ağ günə çıxıb, Abuzəri bəyənməyib, papaqçı Əbülfətə ərə gedib... Əbülfət yazıq da neynəsin? Gecə-gündüz papaq tikib o qaragün qızları dolandırır də...".

Fatma xala ilə Əbülfət əminin Ədilədən başqa dörd qızı var idi, dördü də ərdə idi, amma birinin əri adam bıçaqlamışdı və həbsxanada yatırdı, o birisinin əri neçə il idi ki, xəstələnib yorğan-döşəyə düşmüşdü, o biri iki qızın da dolanışacağı, güzəranı yaxşı deyildi və bu qızların hamısı bir dəstə uşaqları ilə bərabər, papaqçı Əbülfətin əlinə baxırdılar. Ədilə kiçiyi idi, hələ ərə getməmişdi və Səfurə xala hamamda anamın belini kisələyə-kisələyə deyirdi: "– Allaha and olsun, mən Səfurə, bu çağacan o Ədilə gözəlliyində, onu görüm yanmasın, qız xeylağı görməmişəm!.. Ağıl deyirsən, bunda... Həya deyirsən, bunda!.. Xanımın o doxtur oğluynan da ki, Leyli-Məcnundurlar!.." Mis parçla ləyəndən isti su götürüb öz başına tökə-tökə bədəninin sabununu yuyan Firuzə xala deyirdi: "– Ağəz, bilmirsiz bəyəm ki, Xanımda dəyə kini var? Qoyar bəyəm ki, ya oğlu gedib Fatmanın buxunluydu, Allah Qocanın canını salamat eləsin, elə Qoca kimi şəkil bir oğlanıydı, nolar, ancaq Fatma qaragünün gözü Əbülfəti seçdi, Abuzəri seçmədi də, çünki bu qaragün başı küllü Fatma Əbülfətə baxdı Məcnunun gözüynən... Olan oldu, keçən keçdi də, ağəz, Xanım day nə istəyir bu biçarə uşaqdan? Bax, mən ölü, siz diri, görərsiz, Xanımın oğlanlarına kim gəlsə, vay halına!.. Ağəz, Xanımda cəllad ürəyi var!..". Məşədixanım xala həmişəki kimi, açıq-aşkar ağ elədi və bu dəfə də anam Səfurə xalanın belini kisələyə-kisələyə dedi: "– Ağəz, vallah, Xanım xaladan ürəyiyumşaq adam yoxdu!.. Tanımırsız siz onu...". O zaman mən kök və saçı tamam tökülmüş papaqçı Əbülfət əmini gözlərimin qabağına gətirib sidq-ürəkdən təəccüb edirdim ki, Əbülfət əmiyə Məcnun kimi necə baxmaq olar?

Xanım xalanın özü arvadların yanında olanda, əlbəttə, nə Səfurə xala, nə Firuzə xala, nə də xüsusən Məşədixanım xala belə söhbətlər eləmirdi, hətta Xanım xala özü olmayanda da belə söhbətlər eləyən arvadlar hərdənbir qapıya tərəf baxırdılar ki, birdən Xanım xala içəri girər...

Abuzər çoxdan vərəm olub ölmüşdü və mən onun təkcə şəklini görmüşdüm, amma onun şəklini gördüyüm o gün həmişəlik yaddaşımda qalmışdı, çünki həmin gün Xanım xalanın da gözlərində iki gilə yaş görmüşdüm... Mən məhəlləmizdəki arvadların hamısının ağlamağını görmüşdüm, çünki bizim məhəllənin arvadlarının gözünün yaşı əllərində olurdu (anam kimi) və bəd bir xəbər eşidəndə o saat kövrəlirdilər, ağlayırdılar; təkcə Xanım xalanın ağlamağını görməmişdim, amma həmin gün atam Rostovdan duzlu balıqlar gətirmişdi və həmin balıqlar anamın çox xoşuna gəlmişdi; "– Ağzın dada gəlsin, ay Ağakərim, başıva dönüm sənin, elə bil lap xalis Ənzəli balığıdı!" və o balıqlar o qədər anamın xoşuna gəlmişdi ki, birini mənə verib Xanım xalagilə pay göndərmişdi, mən də taxta pilləkənlərlə ikinci mərtəbəyə qalxıb Xanım xalagilin şüşəbəndindən keçib otaqlarına girdim, Abuzərin şəklini də otağın divarlarından asılmış gördüm, həmişə, ancaq şüşəbəndə gəldiyimə görə (Xanım xala demək olar ki, həmişə

sanı yaşasın, Qoca çox oxşayır ona...". Xanım xala nə papaqçı Əbülfətə, nə Fatma xalaya, nə də qızlarına salam verirdi və hamı bilirdi ki, Xanım xalanın bu adamları görməyə gözü yoxdur. Yazıq Fatma xala həmişə gözdə-qulaqda olurdu, qorxa-qorxa hamama gedirdi ki, birdən Xanım xala orda olar, arvadlarla bir yerə yığışa bilmirdi ki, birdən Xanım xala gələr və bizim məhəlləmiz də beləcə səksəkə içində yaşayırdı.

Ədilə gözlərini sirkin girdə meydançasına zilləmişdi, amma mən hiss edirdim ki, bütün fikri-zikri bizim yanımızda, yəni Qocanın yanındadı. Məhəllədə hamı bilirdi ki, Qoca ilə Ədilə bir-birini istəyirlər və bu söhbət mənim və yoldaşlarımın da maraqla qulaq asdığımız və məhəlləmizin gizli sirlərindən biri kimi bir-birimizə danışdığımız əhvalat idi. Düzdür, saatsaz Gülağa ilə arvadı Sona da (mənim anamın adaşı) bizim məhəllədə yaşayırdı və məhəllədə camaatın gözü qabağında, kişilərin yanında, hətta Əliabbas kişinin yanında qol-qola gedirdilər, amma buna daha hamı öyrəşmişdi, özü də nə Gülağa, nə də Sona məhəllənin işlərinə qarışmazdı, heç kimlə əlaqələri yox idi, həmişə bir yerdə olurdular, bir-birlərindən ayrılmırdılar, amma Qoca ilə Ədilənin bir-birlərini istəmələri başqa əhvalat idi (burada bir gizlinlik var idi, Xanım xalanın kini, ədavəti var idi!) və bizə elə gəlirdi ki, bu əhvalatda, yəni Ədilə ilə Qocanın bu cür gizlin-gizlin bir-birlərini istəmələri ilə Balakərimin danışdığı o sehrli əhvalatlar arasında bir yaxınlıq var, amma hərdən axşamlar Balakərimin başına yığışanda və bu barədə söz düşəndə Balakərim başqa şey deyirdi: "– Bu Romo ilə Cületin əhvalatıdı. Onları da ataları, anaları qoymadı ki, bir-birinə qismət olsun, ikisi də öldü. Sonra ataları da, anaları da peşiman oldu əməllərindən, nöşün ki, çox böyük səhv eləmişdilər, amma sonradan atılan daş topuğa dəyər, yəni ki, sonrakı peşimançılıq fayda verməz...".

Düzdür, həmin sirk günü mən pərt olmuşdum, amma mən Ədiləyə baxırdım, sirkin tavanından asılmış cürbəcür işıqların altında parıldayan o qalın xurmayı hörüklərinə baxırdım, hərdən lap yavaşcadan qolumu yanımda oturmuş Qocanın qoluna toxundururdum və bütün üroyimlə, bütün zehnimlə istəmirdim ki, onlar ölsün.

Mənim üroyimdə səbəbini bilmədiyim bir nigarançılıq var idi, gözlərimi Ədilədən çəkib sirkin meydançasına baxırdım, amma özümdən asılı olmadan təzədən Ədiləyə baxırdım; o nigarançılıqdan başqa da mənim üroyimdə qəribə hisslər əmələ gəlmişdi, amma mən həmin

hisslərdən baş açа bilmirdim, bilmirdim ki, mən sevinirəm, yoxsa kədərlənirəm və bu zaman Qoca yenə də qulağıma pıçıldadı:

– Dostuq da biz! Dilimiz bir, sirrimiz bir, hə?

Mən başımı tərpətdim, Qocanın sözlərini təsdiq etdim.

Qoca pencəyinin döş cibindən üçkünc bükdüyü bir kağız çıxartdı, mənə verdi və həmin pıçıltı ilə:

– Verərsən ona, – dedi. – İndi fasilə olacaq...

Mən o üçkünc məktubu əlimdə tutmuşdum və mənə elə gəlirdi ki, həmin məktubdan bədənimə bir nəvaziş, bir mülayimlik yayılır, həmin nəvaziş, həmin mülayimlik bayaqkı pərtliyi, incikliyi yuyub aparır və mən yenə də, bu böyük, bu işıqlı zalda, bu qədər adamlarla bir yerdə olduğuma görə, Qoca ilə yanaşı oturduğuma görə və hətta Ədilənin də burada olduğuna görə, daha doğrusu, Ədilənin də əvvəlcədən Qoca ilə sözləşib bura gəldiyinə görə sevinməyə başlayırdım: əlimdə tutduğum o üçkünc məktub elə bil ki, məni də Qoca ilə Ədilənin münasibətlərinə bağlamışdı, birləşdirmişdi, elə bil ki, biz üçümüz də eyni sirrin içində idik və mən özümü Balakərimin danışdığı o sirli əhvalatların qəhrəmanlarından biri kimi hiss edirdim.

Fasilə başladı və Ədilə yanındakı qız ilə birlikdə ayağa qalxıb zaldan çıxdı. Ədilə bizə tərəf baxmadı, amma mən hiss etdim ki, güclə özünü saxladı ki, bizə tərəf baxmasın və mənim Ədiləyə yazığım gəldi, hətta gördüm ki, gözlərim dolur.

Qoca təəccüblə mənə baxdı:

– Nə olub?

Mən tələsik:

– Heç nə... – dedim və gülümsədim; sirkin işığı gözlərimi tutmuş o yaş tor içində daha artıq parıldadı.

Qoca soruşdu:

– Verirsən məktubu?

Mən:

– Hə, – dedim və ayağa qalxıb Ədiləgilin ardınca zaldan çıxdım.

Əlbəttə, Ədilə ilə Qoca bu qədər camaatın gözü qabağında görüşə bilməzdilər, dayanıb danışa bilməzdilər, çünki Ədilə Qocanın nişanlısı deyildi və tanıyan olsaydı, bilən olsaydı, nə deyərdi?

Foye adamla dolu idi və mən əlimdə tutduğum o üçkünc məktubla birlikdə bu yad adamların arasında dolaşıb Ədiləni axtarırdım və yavaş-yavaş daha da artan bir nigarançılıqla fikirləşirdim ki, birdən

fasilə qurtarana kimi Ədiləni tapa bilmərəm və bu məktubu Ədiləyə verə bilmərəm; əlbəttə, mən o üçünc məktubun içində nə yazıldığını bilmirdim, amma bilirdim ki, bu, gözəl məktubdu və bu gözəl məktubu mütləq Ədiləyə çatdırmaq lazımdır.

– Ələkbər!.. Ələkbər!..

Mən bu tanınmaz-bilinməz adamların arasında birdən-birə beləcə öz adımı eşidəndə, əvvəlcə təəccüb içində donub qaldım, sonra rəfiqəsi ilə bir yerdə bufetin yanında dayanmış Ədiləni gördüm.

Əlbəttə, Ədilə məni tanıyırdı, bilirdi ki, məhəllə uşağıyam, amma heç vaxt məni çağırmamışdı, mənimlə danışmamışdı və doğrusu, Ədilənin məni adımla çağırması, mənim adımı bilməsi ürəyimə elə bir fərəh gətirdi ki, bayaqkı fərəh hissi, qürur bunun yanında bir heç idi.

– Ələkbər!..

Mən onlara yaxınlaşdım – bilmirəm niyə, amma ürəyim şiddətlə döyünməyə başladı, dilim qurudu, bilmədim ki, nə edim? Nə deyim? Amma Ədilə də, yanındakı qız da mənə yox, əlimdə tutduğum o üçünc məktuba baxırdı, sonra Ədilə soruşdu:

– Necəsən, Ələkbər?

Ədilənin səsi elə yumşaq, elə mülayim idi ki, bu səsdə elə bir nəvaziş, məhrəmlik var idi ki, mənə elə gəldi ki, bu səs də əslində Ədilənin, yəni mənim qarşımda dayanmış bu qızın, bu doğurçu adamın yox, o sirli əhvalatlardan gələn bir səsdir.

Bütün gücümü topladım ki, səsim titrəməsin və dedim:

– Yaxşıyam...

Araya sükut çökdü.

Yanımızdan ötən, foyedə gəzişən adamlar hərdən maraqla, bəzən, hətta heyrətlə Ədilənin o xurmayı, o qalın və uzun qoşa hörüyünə baxırdı və mən bu adamların, xüsusən, cavan oğlanların gözlərindəki o ifadəyə görə də Ədiləylə, Qocayla, onların arasındakı münasibətlə və mənim həmin münasibətin içində olmağımla öyünürdüm, amma həyəcanım keçib getmirdi, ürəyim eləcə döyünürdü, ağzım eləcə qupquru idi.

Mən bilmirdim ki, o üçünc məktubu bu qızın yanında Ədiləyə verim, yoxsa yox? Deyim ki, bu məktub Qocadandır, yoxsa yox? Ədilə yavaş-yavaş qızarırdı və yəqin o uzaq yaz axşamı sirkdə bufetin yanında Ədilə də bilmirdi ki, nə desin, həmin balaca Ələkbərdən o üçünc məktubu özü alsın, yoxsa gözləsin? Ədilənin yanındakı qız mənə baxıb gülümsəyirdi və birdən dedi:

– Ələkbər, Ədiləylə mən bacılığıq, bir-birimizdən sirrimiz yoxdu...

Ədilə də tez dedi:

– Hə, Tamarayla bacılığıq biz, sirrimiz yoxdu bir-birimizdən...

VIII

Bir dəfə bazardan nar alırdım, məndən irəlidə yaşlı bir qadın da nar alırdı və barmaqları ilə narın bərkliyini-boşluğunu yoxlaya-yoxlaya bir-bir seçib tərəziyə yığırdı. İri "aerodrom" papağını gözlərinin üstünəcən sallamış narsatan oğlan etiraz edirdi:

– Belə olmaz axı, ay bacı!.. Sən seçib yığırsan hamısını özünə, bəs yerdə qalanını kim alacaq?

Yaşlı qadın:

– Xəstəm var... – deyirdi. – Qoy bir az fərli nar olsun...

– Onda kilosunu üç manatdan götür!..

– Özün dedin ki, kilosu iki manat əlli qəpiyədir.

– Axı, mən demədim ki, ay bacı, seçəsən bir-bir...

Sazaqlı bir qış günü idi və mən əynindəki tünd göy, nimdaş paltosuna sığışmayan bu kök qadına, bu kök qadının qırış düşmüş sifətinə, elə bil ki, rəngini itirmiş sulu gözlərinə, tünd göy şlyapasının altından çıxmış ağ saçlarına, bir-bir nar seçən barmaqlarındakı səhər-axşam mətbəxdə keçən günlərdən xəbər verən nazik bıçaq izlərinə baxa-baxa birdən-birə onu tanıdım. O yaşlı qadınla o uzun-uzun illər bundan əvvəl cəmi bir dəfə sirkdə və bir dəfə də qəbiristanlıqda gördüyüm Tamara arasında heç bir oxşarlıq yox idi, amma mən həmin sazaqlı qış günü bazarda onu görən kimi tanıdım.

O kök, o yaşlı qadın bazarda bir-bir nar seçirdi və mən güclə özümü saxlayırdım ki, onun o mətbəxli əllərini əllərimin arasına almayım, soruşmayım ki, necə oldu o təbəssüm, o gülüş, soruşmayım ki, o uzaq yaz axşamı, sirkdə, bufetin yanında sizinlə üzbəüz dayanmış o balaca Ələkbəri xatırlayırsınızmı? Narsatan oğlan elə hey deyinirdi:

– Belə olmaz, bacı, vallah, belə olmaz! Sən seçdin qurtardın bu narı!..

Yaşlı qadın:

– Xəstəm var, ay qardaş, – deyirdi. – Yoxsa seçməzdim...

– Onda üç manat verəcəksən!

– Niyə? Özün dedin ki, iki manat əlli qəpiyədir!..

Narsatan oğlan isə elə dediyini deyirdi:

– Mən demədim ki, seçəsən bir-bir?.. Hərənin bir dərdi-səri var də, bacı, sən seçib yığırsan hamısını, bəs, yerdə qalanını kim alacaq?

– Mən alaram, – dedim. – Yerdə qalanını mənə satarsan.

Yaşlı qadın çönüb baxdı və əlbəttə, məni tanımadı, amma sulu gözlərində bir minnətdarlıq var idi:

– Məsələ pulda deyil, – dedi. – Doğrudan xəstəm var, istəyirəm ki, yaxşı nar olsun.

– Başa düşürəm, – dedim.

Sonra aldığı həmin bir kilo narı çox illərin bazarlığını eləmiş meşin zənbilinə yığdı, narın pulunu verdi və çıxıb getdi.

O yaşlı, kök qadının – Tamaranın sulu gözlərindəki o ani minnətdarlıq həmin sazaqlı qış günü mənim ürəyimi daha artıq sıxdı.

IX

Həmin yaz axşamı sirkdə, bufetin yanında dayanıb əlimdə tutduğum o üçkünc məktubu Ədiləyə uzatdım və Ədilə cəld həmin məktubu alıb nazik redikülünü açdı, məktubu redikülə qoydu və Tamara da elə diqqətlə o redikülə baxdı ki, elə bil Qocanın məktubunu elə rediküldən oxumaq istəyirdi; sonra Ədilə redikülündən başqa bir üçkünc məktub çıxartdı, iki dənə şokolad konfet çıxartdı və əvvəlcə o şokolad konfetləri mənə verdi:

– Ala, Ələkbər, sənin üçündü bunlar...

Mən Ədilənin əlindəki o iki şokolad konfetə baxırdım, o konfetlər şax-şax kağıza bükülmüşdü, o şax-şax kağızların üstündə qıpqırmızı lalə şəkilləri çəkilmişdi və mən bilmirdim ki, bu konfetləri götürüm, yoxsa yox? Amma sonralar mən Ədilənin əlindəki o iki şokolad konfet barədə fikirləşəndə gözlərimin qabağına həmin konfetlər yox, həmin konfetlər bükülmüş o şax-şax kağızlar, o qıpqırmızı lalələr yox, Ədilənin o gözəl, o mehriban əli gəlirdi və hər dəfə də mən istəyirdim ki, o gözəl, o mehriban əl mənim saçlarımı sığallasın, üzümdə gəzsin; bu hiss, bu arzu həmişə də, elə bil, özü ilə bir kövrəklik gətirirdi. Yəqin ona görə ki, o əldə həmin gözəlliklə, mehribanlıqla bərabər, nəsə bir həzinlik də var idi.

Ədilə yumşaq səsi ilə:

– Götür, Ələkbər, – dedi. – Qoy ağzın şirin olsun.. Heç olmasa sənin ürəyin şad olsun, Ələkbər...

Bu sözlərdən sonra, mən o iki şokolad konfeti götürdüm; sonra Ədilə məktubu mənə uzatdı:

– Bunu da ver ONA, Ələkbər...

Mən bu təzə məktubu da Ədilədən aldım və birdən-birə fikirləşdim ki, nə gözəl olardı, Ədilə bu məktubu mənə yazmış olsaydı və birdən-birə ağlıma gələn bu fikir məni diksindirdi, sonra mən belə fikirləşdiyim üçün öz ürəyimdə Qocadan xəcalət çəkdim.

Ədilə ilə üzbüz dayanmışdım. Ədilənin verdiyi məktub mənim əlimdə idi, mən getməliydim, həmin məktubu Qocaya verməli idim, amma çevrilib çıxıb gedə bilmirdim; bəlkə utanırdım? Bəlkə həyəcandan idi, təəssüratların çoxluğundan idi? Bilmirəm, mən başımı aşağı dikmişdim, yalnız Ədilənin ayaqlarını və bir də ki, o uzun, qalın, o xurmayı hörüklərin uclarını görürdüm; sonra Şövkət yadıma düşdü. Əlbəttə, mən başa düşürdüm ki, Ədilə ilə Şövkət başqa-başqa adamlardır, amma indi hiss edirdim ki, Ədilədə də Şövkətdə olan nəsə var, bu "nəsə"nin nə olduğunu bilmirdim, amma hamı Şövkətdən pis sözlər danışırdı və mən Ədilə ilə üzbəüz dayanıb başımı aşağı dikdiyim o dəqiqələrdə istəmirdim ki, həmin "nəsə" Ədilədə də olsun.

Qoca öz yerində oturmuşdu və mən gedib Ədilənin verdiyi məktubu Qocaya uzatdım, Qoca da Ədilə kimi məktubu tez məndən aldı, amma cibinə qoymadı, elə o dəqiqə də açıb oxumağa başladı.

Onda 1941-ci ilin yazı idi və mən hələ yalnız payızda birinci sinifə gedəcəkdim, amma mən özüm hərfləri çoxdan öyrənmişdim, sərbəst oxuyurdum. Qoca Ədilənin məktub yazdığı o dama-dama dəftər kağızını gözlərinin qabağında tutub oxuyurdu və mən də bütün diqqətimi toplayıb kağızın o biri üzünü, yəni arxasını, mənim gözlərimin qabağındakı hissəsini oxumağa başladım və yalnız dörd misralıq bir bəndi höccələyə-höccələyə oxumağa macal tapdım və o dörd misralıq bənd həmişəlik mənim yadımda qaldı:

Məktub, səni ad eylərəm,
Poçta əmanət eylərəm.
Gedib Qocaya çatmasan,
Bil ki, qiyamət eylərəm.

Əlbəttə, mən çox istəyərdim ki, oradakı "poçta" sözünün əvəzində mənim adım olaydı, çünki bu məktubu Ədilə poçtaya əmanət eləməmişdi, mənə əmanət eləmişdi, amma hər halda o dörd misrada mənim adım olmasa da, mənə elə gəlirdi ki, o dörd misrada yazılanlar mənə də nəsə gözəl sözlər deyir, mən də bu yazışmanın iştirakçısı idim, bu gizli məhəbbətdən mənim də nəsə bir əmanətim var idi.

Sonra Qoca həmin dama-dama məktəbli dəftərinin o biri üzünü çevirdi ki, məktubun ardını oxusun və mən yenə də başımı qabağa əyib, butün diqqətimi toplayıb bu dəfə Ədilənin məktubunun əvvəlini höccələməyə başladım:

Sevimli məktub

Sənə... göydə qa... qa... qanad çalan azad... quşlardan da... ar... ar... artıq bir xoşbəxtlik... arzulayıram, əzizim... Bu ar... ar... arzudan sonra, ürəyimin... ən... dərin gu... guşəsində bəslədiyim... qızılgül ətirli... salamımı sənə təq... təq... təqdim edirəm...

Bundan sonrasını oxumağa macal tapmadım, çünki Qoca ehtiyatla məktubu qatlayıb pencəyinin döş cibinə qoydu və biz sirkin meydançasına tamaşa eləməyə başladıq.

Fasilə qurtarmışdı, meydançada tamaşanın ikinci hissəsi başlamışdı və Ədilə ilə Qocanın məktublaşmasından sonra, o gözəl "Sevimli məktub" sözündən, bu sözün altından səliqə ilə çəkilmiş dalğavarı qırmızı xətdən sonra, o cümlələrdən sonra mənim ürəyimin o işıqlı sirk sevinci yenə də qayıdıb gəlmişdi, əvvəlkindən də güclü, coşğun gəlmişdi və mən tamam qayğısız, tamam bir yüngüllük içində gülə-gülə meydançaya baxırdım, Qoca da gülə-gülə meydançaya baxırdı. Ədilə də gülə-gülə meydançaya baxırdı; mənə elə gəlirdi ki, meydançadan gələn o taxta kəpəyinin iyinə, o at iyinə qızılgül ətri də qarışıb, mən özümdə bir quş azadlığı hiss edirdim, "Sevimli məktub" sözünün altından çəkilmiş o dalğavarı xəttin qırmızısı mənim gözlərimdə bütün sirki sevinc rənginə bürümüşdü və mən, əlbəttə, xoşbəxt idim.

Meydançada iki təlxək bir-biri ilə bərkdən söhbət edirdi; birinin yekə və qırmızı burnu var idi, o birinin şalvarı dizinəcən idi, böyük və dama-dama pencəyi var idi, özü də tamam kürən idi.

Qırmızıburun Kürənə dedi:

– Sağlıqla qalın, əziz dost!.. Mən daha gedirəm...

– Gedirsiniz?

– Hə. Sirkdən həmişəlik gedirəm. Əlvida!

– Hələlik. Görüşənədək!

– Biz daha körüşməyəcəyik!

– Niyə?

– Necə niyə? Mən sirkdən həmişəlik gedirəm!

– Sirkdən heç hara gedə bilməyəcəksiniz!

– Niyə?

– Ona görə ki, bütün dünya sirkdir! Hara getsəniz, yenə də tamaşanın içində olacaqsız!

Qoca pıçıldadı:

– Düz deyir...

Mən də başımı tərpədib Qocanın pıçıldadığı sözləri təsdiq etdim, amma əslində Qırmızıburunla Kürənin söhbətlərindən heç bir şey başa düşmədim...

...gözəl günlər var idi...

...amma mənim üçün fərqi yox idi, çünki mən o sirk sevincinin içində idim, çünki o taxta kəpəyinin iyinə, o at iyinə qızılgülün ətri qarışmışdı, çünki o, "Sevimli məktub"un altından çəkilmiş dalğavarı xəttin qırmızısı mənim gözlərimin qarşısından getmirdi, o qırmızıda bir şəffaflıq var idi və mən elə bil ki, meydançaya da, Ədiləyə də, Ədilənin xurmayı, qalın və uzun qoşa hörüklərinə də o şəffaf qırmızının arxasından baxırdım.

Qırmızıburun dedi:

– Nə olar? Amma mən daha sizin dediyiniz o sirkdə təlxəklik eləyib camaatı güldürməyəcəyəm. Bəsdi daha! İndi qoy başqaları təlxəklik eləsin, mən gülüm! Artıq mən ixtiraçıyam! Elə bir kəşf eləmişəm ki, qazancımın sayı-hesabı olmayacaq!

– İxtiraçısınız? Nə kəşf etmisiniz?

– Heç, elə-belə...

Qırmızıburun əllərini az qala dirsəklərinəcən şalvar ciblərinin içinə salıb forslu-forslu meydançada gəzirdi, bizə baxıb göz vururdu və biz də gülürdük, Qoca da gülürdü, Ədilə də gülürdü və mən istəyirdim ki, Ədilə həmişə, bax, beləcə gülsün.

Kürən soruşdu:

– Bir deyin görək, axı, siz nə kəşf etmisiz?

Qırmızıburun yenə də bizə göz vurub dedi:

– Paxıllıq eləyir e-e-e!..

Kürən dedi:

– Deməli, yalan deyirsiz! Heç nə kəşf etməmisiz!

– Etmişəm!

– Nə?

– Dünyanın ən böyük kəşflərindən birini! Sizcə zəngli saatsız həyat mümkündür?

Kürən bir az fikirləşəndən sonra dedi:

– Yox!

– Kürən olanda nə olar?.. Başı yaxşı işləyir!

– Nə deyirsiz?

– Heç... Mən zəngli saatdan da yaxşı bir şey kəşf etmişəm! İşləməyinə söz ola bilməz!

– Çox qəribədir... Sizin ixtiranın quruluşu necədir?

– İlk baxışda çox adidir.

– Eh, onsuz da dünyada hər şey adi olub: anadan olmaq da, ölmək də...

– Bəs, səhər tezdən yuxudan durmaq?

– Hə, o çətin işdir...

Ədilə gülürdü və Ədilə güləndə yanaqlarında almacıqlar əmələ gəlirdi və mənə elə gəlirdi ki, Ədilənin yanaqlarındakı o almacıqlar yalnız mənimllə Qoca üçün əmələ gəlir.

– Mənim ixtiram belədir: bir dənə şam götürürsünüz. Bax, bu cür.

– Qırmızıburun cibindən bir dənə ağ şam çıxartdı.

– Mən hesablamışam ki, bu şam düz on saata yanıb qurtarır. Buna görə də, görürsünüz, xətlər çəkib şamı on yerə bölmüşəm. Gecə saat on ikidə girirsiniz yerinizə. Səhər, misal üçün, saat altıda durmalısınız. Şamdan dörd hissə kəsib götürürsünüz, qalır düz altı hissə, sonra yandırıb qoyursunuz ağzınıza. Şam ağzınızda yanır, siz isə yatırsınız. Səhər saat altı olan kimi, dodaqlarınızda isti hiss edirsiniz, o saat da yuxudan durursunuz! Hə, necədi?

– Pis deyil...

– Əladır, əla! Diliniz gəlmir ki, deyəsiniiz "əladır!" Çünki istəmirsiniz mən sirkdən gedim!

– Yox, məsələ burasındadır ki, sizin ixtiranız hamı üçün yaramır...

– Yaramır? Niyə?

– Ona görə ki, misal üçün, mən arxası üstə yatmıram, əksinə, üzüqoylu yatıram...

– Nə olsun?

– Necə nə olsun? Şamı bəs?..

– Hə?

– Hə!..

– Eybi yox, qoy bu sizi narahat eləməsin! Bunun da əlacını tapmışam...

Qırmızıburun gəlib Kürənin qulağına nəsə pıçıldadı, heç kim heç nə eşitmədi, amma hamı gülməkdən uğunub getdi; Qoca da gülürdü, Tamara da gülürdü, təkcə Ədilə gülmədi və mən uzaqdan-uzağa gördüm ki, Ədilə qızardı; Qocadan soruşdum:

– Camaat nəyə gülür?

Qoca gülə-gülə dedi:

– Sən belə şeylərə fikir vermə...

Mən yenə də başımı tərpədib Qocayla razılaşdım, yəni ki, yaxşı, fikir verməyəcəyəm, amma mən heç nəyi başa düşməsəm də, bunu başa düşürdüm ki, əgər Ədilə gülmədisə, əgər Ədilə eləcə qızardısa, deməli, Ədilə yaxşı qızdır, deməli, Şövkət kimi deyil və bir halda ki, Ədilə belə yaxşı qız idi, bir halda ki, Ədilə Şövkət kimi deyildi, onda Xanım xala da gərək bunu biləydi, başa düşəydi, mən istəyirdim ki, indi Xanım xala da burada olaydı və Ədilənin gülməməyini, beləcə qızarmağını görəydi.

Mən bütün bunları fikirləşirdim, ürəyimdə bir sevinc, bir şadlıq var idi, amma o bayaqkı nigarançılıq da nədənsə tamam keçib getmirdi, sirkin meydançasında isə bu dəfə atlar çapırdı və təlimçi hər dəfə uzun qamçısını şaqqıltı ilə yerə vuranda mən səksənirdim, mənə elə gəlirdi ki, indi Ağ Dəvə də qaçıb sirkin meydançasına gələcək, atlarla bir yerdə meydançada dövrə vuracaq, sonra da gəlib Ədilənin qabağında yatacaq; amma bir azdan o nigarançılıq da keçib getdi, qaşovlanmış tükləri parıldayan o sağlam atların meydançada beləcə dövrə vurub çapması hər şeyi mənim yadımdan çıxartdı, mən yenə də təpədən dırnağacan o sirk sevincinin içində idim, yenə də o qızılgülün ətrini hiss edirdim, o şəffaf qırmızı gözlərimin qabağında idi.

Tamaşa qurtaranda Qoca:

– Hə, necədir? – soruşdu.

– Yaxşıdır!.. – dedim.

– Səni tez-tez sirkə gətirəcəyəm.

Tamaşa qurtarmışdı. Ədilə də, Tamara da ayağa qalxıb camaatla birlikdə yavaş-yavaş çıxışa doğru gedirdi, mən də Ədiləgildən bir az

arxada Qocanın əlindən tutub çıxışa tərəf addımlayırdım və mənim ürəyimdə bir az qəmginlik var idi, çünki o ağac kəpəyinin iyi də, at iyi də, Qırmızıburun da, Kürən də daha xatirəyə çevrilirdi; çünki o qızılgülün ətri də, o "Sevimli məktub" da, "Sevimli məktub"un altından çəkilmiş o dalğavarı qırmızı xətt də xatirəyə çevrilirdi və yəqin ki, o zaman o balaca Ələkbər yeddiillik həyatında ilk dəfə indinin cəmi bir andan sonra xatirəyə çevrilməsini hiss edirdi, xatirələrin həmişə keçmişdə qaldığını və o keçmişin isə əbədiliyini sövq-təbii duyurdu; yəqin belə idi...

Biz camaatla birlikdə foyeyə çıxdıq və bu zaman Ədilə imkan tapıb başını bir balaca arxaya çevirdi və bir anlıq, cəmi bircə anlıq Qocaya baxdı, amma Ədilənin o bir anlıq gizli baxışında da, elə bil, qızılgülün ətri vardı və mən özümdən asılı olmayaraq, fikirləşdim ki, görəsən haçansa, kim isə mənə də belə baxacaqmı? Və mənim ürəyimdə o uzaq gələcəyin narahatlığı yarandı, amma bu narahatlıqda bir əzizlik, bir doğmalıq var idi, bu narahatlığın naməlumluğu işıqlı idi, fərəhli idi.

Əlbəttə, Qoca da o bir anlıq gizli baxışı gördü və mən hiss etdim ki, Qocanın əli mənim əlimi necə sıxdı, mənə elə gəldi ki, Ədilənin o bir anlıq gizli baxışı Qocanın bütün bədənindən keçdi; mən də Qocanın əlini sıxdım və Qoca mənə baxıb yenə də dedi:

– Səni tez-tez sirkə gətirəcəyəm.

Ədilə ilə Tamara bizdən on-on beş addım irəlidə idilər və sirkin də binasından birinci onlar çıxdı, sonra biz küçəyə çıxdıq və mən o saat başa düşdüm ki, nəsə olub, başa düşdüm nəsə pis bir hadisə baş verib.

Ədilə ilə Tamara küçənin ortasında dayanmışdılar, daha doğrusu, küçənin ortasında quruyub qalmışdılar və mən iti addımlarla küçədəki adamların arasından keçib Ədiləyə tərəf gedən Xanım xalanı gördüm. Qocanın kiçik qardaşları Cəbrayılla Ağarəhim də Xanım xalanın yanında idilər.

O zaman məni heyrət və tüklərimi qabardan bir dəhşət bürüdü və indinin özündə də mən heç cür başa düşə bilmirəm ki, bizim sirkə getməyimizdən, Ədilənin də sirkdə olmağından Xanım xala necə xəbər tutmuşdu.

Qoca mənim əlimi buraxıb irəli, Ədiləyə tərəf getdi və mən bir balaca sakit oldum ki, Qoca Ədiləni müdafiə edəcək. Qoca

caq ki, iti addımlarla qırğı kimi gələn Xanım xala Ədilənin başına oyun açsın, amma Qoca anasına baxa-baxa bir-iki addım atandan sonra ayaq saxladı, daha irəli getmədi.

Xanım xala Ədilə ilə üzbəüz dayandı, Tamara Ədilənin əlindən tutdu, elə bil ki, Ədiləni o qırğıdan qorumaq istəyirdi, amma Xanım xala Tamaraya heç məhəl də qoymadı, qalın qaşlarının altından baxan zəhmli gözləri ilə düz Ədilənin gözlərinin içinə baxdı, əvvəlcə nazik dodaqlarını daha da kip bağladı, sonra:

– Ay qız! – dedi. – İndi də uşağı tovlayıb sirkə gətirirsən? Elə bilirsən xəbər tutmayacağam mən? Nə ifritəsən, ağəz, sən!.. Hə də, əlbəttə, anası gəzən ağacları balası budaq-budaq gəzər də!..

İndicə sirkdən çıxan adamlar küçədə ayaq saxlayırdı, kimisi təəccüblə, kimisi maraqla gah Xanım xalaya, gah da, uzun hörüklü qıza baxırdı və mən qaranlıqda görməsəm də, hiss edirdim ki, Ədilənin sifəti alışıb yanır, hiss edirdim ki, Ədilə az qalır dəli olsun və Ədilə bilmir ki, nə eləsin.

Xanım xala:

– Nə həyasız qızsan sən, ağəz?! – dedi.

Ədilə elə bil birdən özünə gəldi və dəli kimi qaça-qaça bizdən uzaqlaşdı. Tamara da:

– Ədilə!.. Ədilə!.. – deyə çığıra-çığıra rəfiqəsinin ardınca qaçdı.

Xanım xala bu dəfə Qocanın üstünə çımxırdı:

– Gəl, gəl düş qabağıma!

Qoca, Xanım xalaya baxdı, səssiz-səmirsiz Xanım xalanın yanında dayanmış Cəbrayıla, Ağarəhimə baxdı, sonra yavaş-yavaş qardaşlarının yanına gəldi və mən hiss edirdim ki, Qoca mənə baxmaq istəmir, amma bunun daha mənası yox idi, Qoca istəyirdi mənə baxsın, istəyirdi baxmasın, mən daha Qocanı çox istəmirdim. Həmin yaz gecəsi kimsəsiz və yad bir küçədə Qoca ilə, Cəbrayıl ilə, Ağarəhim ilə yanaşı addımlayırdım, Xanım xala bizim arxamızca gəlirdi, amma mənə elə gəlirdi ki, arxamızca addımlayan adam hər gün həyətimizdə gördüyüm, gedib iynəsini sapladığım, qutabını yediyim Xanım xala deyil, sirkdə o gözəl atları qamçılayan təlimçidir.

Heç kimə heç nə demirdim və mən Qocanın yanında addımlaya-addımlaya heç nə fikirləşmirdim, təkcə qaçıb çıxıb getmək istəyirdim və o yaz gecəsi, o kimsəsiz və yad küçədə məni qaçmağa qoymayan o

gedib evimizi tapacaqdım; məni qaçmağa qoymayan arxamızca gələn Xanım xalanın xofu idi, mən Xanım xaladan qorxurdum. Təkcə bunu elədim ki, Qocanın yanından aralanıb Ağarəhimin yanınca getməyə başladım və Qoca da özünü saxlaya bilməyib mənə baxdı, mən isə ona tərəf baxmadım; mən əslində, lap əslində Xanım xaladan çox, Qocadan incimişdim...

Dalanımızdan keçib həyətimizə girəndə mən heç kimlə sağollaşmadım və birbaş evimizə getdim. Anam yatmamışdı (atam isə növbəti səfərdə idi), məni gözləyirdi və mənim əvəzimə əvvəlcədən sevinə-sevinə:

– Hə, necə oldu? – soruşdu. – Xoşuna gəldi?

Mən cavab vermədim.

Anam soruşdu:

– Nolub sənə?

Mən yenə də cavab vermədim.

Anam onluq nöyüt lampasının işığında təəccüblə mənə baxırdı və mən daha özümü saxlaya bilməyib bərkdən ağlamağa başladım.

Həmin yaz gecəsi yerimə girib uzanmışdım, amma yata bilmirdim, yuxum gəlmirdi və birdən Ədilənin verdiyi o şokolad konfetlər yadıma düşdü və mən fikirləşdim ki, o konfetləri həmişə yadigar saxlayacağam, o konfetlər bütün ömrüm boyu Ədilədən mənə yadigar qalacaq. Sonra bilmirəm yavaş-yavaş yuxuya gedib – yuxu görürdüm, ya məni qara basırdı, gözlərimin qabağına Qırmızıburun gəlirdi, Kürən gəlirdi və birdən-birə də gözlərimin qabağına qupquru quruyub qaxaca dönmüş qızılgül gəlirdi, o qurumuş qızılgül mənim ürəyimi sıxır, sonra yenə taxta kəpəyinin iyini, at iyini hiss edirdim, gözlərimin qabağında canbazlar hoppanıb-düşürdü və yenə də birdən-birə vurulub yerə düşmüş quş görürdüm və o quşun köksündən qıpqırmızı qan axırdı.

Hərdən məhəllədə əlimizə köhnə təkər kamerası keçəndə nazik rezinlər kəsib qusyuran düzəldirdik, xırda və iti qəmbər qalpaləri ilə sərçə vururduq və o yaz gecəsi o vurulmuş sərçələr üst-üstə mənim gözlərimin qabağına yığılırdı və o sərçələrin köksündən axan qıpqırmızı qan get-gedə dalğavarı xətlərə çevrilirdi, sonra bu dalğavarı xətlər elə bil ki, qıpqırmızı dəniz olurdu, "Sevimli məktub" sözlərini yuyub aparırdı, Ədilənin o gözəl, o mehriban əlləri də o "Sevimli məktub" sözlərinin ardınca gedirdi, o gözəl, o mehriban əllər o qıp-

qırmızı dənizin içində gözdən itirdi, yox olurdu; sonra mən birdən-birə Şövkəti görürdüm, Şövkət qapılarının qabağındakı skamyada oturub tum çırtlayırdı, hərdən də mənə göz vurub bərkdən gülürdü, birdən də cəld qalxıb evlərinə girirdi, çünki bizim küçəmizin o başından Xanım xala gəlirdi, Xanım xala gəlib düz mənim gözlərimin qabağından keçib gedirdi və mən Xanım xalanın kip örtülmüş nazik dodaqlarına, qalın qaşlarının altından baxan qara və sərt gözlərinə baxanda qorxmurdum, əksinə, Xanım xalanı saxlamaq istəyirdim, Xanım xalaya demək istəyirdim ki, Ədilə yaxşı qızdır...

...indi mənim qızım universitetin dördüncü kursunda oxuyur və Ədilə yəqin ki, yaşda mənim qızımdan üç-dörd yaş kiçik idi...

...amma Xanım xalaya heç nə deyə bilmirdim və Xanım xala da başını həmişəki kimi dik tutub iti və sərrast addımlarla uzaqlaşıb gedirdi.

O gündən sonra mən bir müddət Qocanı görəndə özümü görməməzliyə vururdum, Qoca da elə bil ki, məndən kənar gəzirdi, sonra yavaş-yavaş yenə də Qoca ilə danışmağa başladıq, amma mənim ürəyimdə o yaz gecəsindən nəsə qalmışdı, heç özüm də bilmirdim ki, bu nə idi və deyəsən biz daha heç vaxt Qoca ilə əvvəlki kimi yaxın olmadıq.

O konfetləri mən bir müddət yadigar saxladım, amma bir gün Meyranqulu əminin oğlu şair İbrahim yenə də evlərində kino göstərirdi (şair İbrahimin diafilm göstərən aparatı var idi və hərdən məhəllənin uşaqlarının hərəsindən bir abbası alıb evlərində divarda şəkilli film göstərirdi), mənim bir abbasım yox idi və mən pul yerinə şair İbrahimə həmin konfetləri verdim. Sonralar buna görə özüm özümdən xəcalət çəkirdim, amma o yaz gecəsi özümə verdiyim bir sözə əməl edirdim: xeyli müddət sərçə vurmadım, amma sonra müharibənin aclığı gəldi və mən yenə də sərçə vurmağa başladım.

Hərdən Ədiləni məhəllədə görürdüm – ya evlərinə gedirdi, ya da evlərindən çıxırdı və hər dəfə də məni görəndə bəlkə də bütün dü-yadan küsmüşdü, amma məndən küsməmişdi, Ədilənin gözlərində bir mehribanlıq oxuyurdum; Ədilə və bizim aramızdakı bu sözsüz, gizli dostluq mənim ürəyimin heç kimə demədiyim bir sirri idi və o sirdə həmişə bir hərarət var idi.

Müharibə başlayandan sonra, bir dəfə mən küçəmizdəki taxta elektrik dirəyinin dibində, səkidə oturub taxta şumaqədərlərimin

ucunu yonub itiləyirdim və bu zaman mənim yanımdan ötən Ədilə
ayaq saxlad[illegible]

Xanım xala xəmirdən təzə kündələr kəsə-kəsə anamın sözünü ağzında yarımçıq qoyurdu:

– Ayıb döyül sizə? Nöş naşükürlük eləyirsiz? Nöş şadlığıvuza şıllaq atırsuz? Nöş deyinirsüz, ağəz? Bura nöş bələnçinə pis olub sizinçün?

Xanım xala qalın qaşlarının altından o zəhmli gözləri ilə bir-bir Səfura xalaya, Məşədixanım xalaya, Firuzə xalaya, Nisə xalaya, anama baxırdı və anamgil də o saat susurdu, bir söz demirdi, bir müddət beləcə lal-dinməz işlərini görürdülər, çalışırdılar ki, Xanım xalaya baxmasınlar, axırda Məşədixanım xala özünü saxlaya bilmirdi, araya başqa bir söz atırdı:

– Vallah, Muxtar yaxçı adamdı, kim nə deyir-desin!.. Kübra qısırdı, özü də o cür xəstə, amma Muxtar atmır onu... Vallah, Muxtarın yerinə kim olsa, gedib özünə başqa bir arvad alar, oğul-uşaq sahibi olar... Nolar qulaqları balaca olanda?..

Amma Xanım xala bu dəfə də Məşədixanım xalanın üstünə çımxırırdı:

– Yaxçıdı, pisdi, özü bilər, bizə nə? Sizün Muxtarın qulaqlarında nə işivüz var, ağəz?

Bundan sonra daha arvadların danışmaq həvəsi tamam qaçırdı və işlərini tez-tez görməyə başlayırdılar ki, tez də qurtarıb getsinlər, çünki Xanım xalanın üzünə ağ ola bilmirdilər və Xanım xalanın yanında da qeybət eləyə bilmirdilər – bizim evdə də belə idi, hamamda da, küçədə də. Misal üçün, hamamda Məşədixanım xala Firuzə xalanın böyüyüb şişmiş qarnına baxa-baxa deyirdi: "– Elə ki, başa düşdün ki, boynunda uşaq var, gərək o saat gözüvu yumasan, əyər oğlan istəyirsən, gərək gözləyəsən ay çıxsın, gözüvü açıb birinci gərək aya baxasan, yox, əyər ki, qız istəyirsən, onda gərək birinci günə şüşəbənddən anamın üstünə acıqlanırdı: "– Ağəz, Sona, nöş bu cür sözlər danışıb uşağı qorxudursan?" "– Mən neyniyim, ay Xanım xala, camaat belə deyir də..." "– Camaat bəlkə başını divara vuracaq, sən də gərək vurasan başıvı divara?" Anam səsini kəsib daha bir söz demirdi, çünki mən heç vaxt görməmişdim ki, bizim məhəlləmizdə bir arvad Xanım xalaya cavab qaytara.

Məşədixanım xalanın dediyi həmin Muxtar bizim məhəllədə olurdu, amma əslində bizim məhəlləli deyildi, hökumət ona məhəlləmizdəki o üçmərtəbənin ikinci mərtəbəsində ev vermişdi və hər səhər işə gedəndə Muxtarın ardınca qara "emadin" maşın gəlirdi, həmin maşın da qaytarıb Muxtarı işdən evə gətirirdi. Muxtarın dəqiq nə vəzifədə işləməyini heç kim bilmirdi, amma "emadin"in sürücüsü onun qabağında düz dururdu. Muxtar məhəllənin başqa kişiləri kimi heç vaxt bazar günü səkidə oturub nərd oynamırdı, ya tut ağacının dibində oturub çay içmirdi, məhəllənin toyunda, yasında iştirak eləmirdi, heç kimlə dinib-danışmırdı, təkcə elə başını tərpədib salam verirdi və "emadin"ə minirdi, ya da "emadin"dən çıxıb evlərinə girirdi. Payızda, qışda və yazda Muxtarın əynində həmişə uzun və qara meşin pencək olurdu və deyirdilər ki, Muxtar həmin pencəyin altından belinə tapanca bağlayıb; başında da meşin şapka olurdu, yayda isə boğazı axıracan düymələnən tünd-qəhvəyi rəngdə köynək geyirdi və Muxtarın qara xrom uzunboğaz çəkmələri, tünd-qəhvəyi qalife şalvarı bütün məhəllədə məşhur idi. Bir də ki, Muxtarın evinə telefon çəkmişdilər (bizim məhəllədə heç kimin evində telefon yox idi) və əslində Muxtardan çəkinmək o telefondan, o qara "emadin" dən, o qara meşin pencəkdən çəkinmək idi.

Bir yerə yığışmış arvadlardan başqa məhəllədə heç kim, hətta uşaqlar da Muxtar barədə danışmağı xoşlamazdı, amma bir gün belə

– Stəkana töküb içsin də...

Cəfərqulu əlini yellədi:

– Ay-hay!.. Alə, sənin heç dünyadan xəbərün yoxdu ki!..

Mən nədən xəbərim olmadığını aydınlaşdırmaq istəmədim, çünki hiss eləyirdim ki, burada nəsə xoşagəlməyən bir şey var, o balaca əlləkbəl isə, yəqin ürəyinin dərinliyində istəmirdi ki, Şövkətlə bağlı o xoşagəlməyən nəyəsə qulaq assın və buna görə də mən Cəfərquludan heç nə soruşmadım, amma birdən-birə Şövkətin ağ, hamar və dərin göbəyi gözlərimin qabağına gəldi...

Məsələ burasında idi ki, qabaqlar anam məni özü ilə arvad hamamına aparanda çox zaman Şövkət də orada olardı və Şövkətin ağ və dolu bədəni, hamar dərisi, yoğun budlarında hamamdakı başqa arvadların bədənindən fərqli olaraq bir dənə də qırış yox idi. Şövkət həmişə gülürdü, həmişə kefi kök olurdu və elə bil ki, Şövkətin o sağlam, o dolu və tarım bədəni də həmişə gülürdü, sevinirdi.

Bir dəfə hamamda Şövkət diqqətlə mənim saçlarıma baxdı, sonra mənə tərəf əyildi, başımı iki əli arasına alıb özünə tərəf yaxınlaşdırdı və Şövkətin hamar, dik döşünün iri və yaş giləsi mənim üzümə toxundu, sonra Şövkət bərkdən hamamdakı arvadlara dedi:

– Ağəz, bunun başında üç dənə ağ tük var, e!.. Bəxtəvər, böyüyəndə xoşbəxt olacaq! – Şövkət başımı buraxdı, belini düzəltdi və o hamar, dik döşlər mənim başımın üstündən yuxarı qalxdı.

Anamın da məhəlləmizin başqa arvadları kimi Şövkətdən xoşu gəlmirdi, amma hamamda Şövkətin dediyi o sözlər anamın ürəyincə oldu:

– Allah ağzundan eşitsin! – dedi.

Amma bir dəfə də mən hamamda həmişəki kimi Şövkətə baxanda Şövkət də yaş qara saçlarını sifətindən kənara çəkib işım-işım işıldayan iri ala gözləri ilə mənə baxdı, sonra birdən mənə göz vurdu, sonra da şaqqanaq çəkib gülə-gülə anama dedi:

– Ağəz, ay Sona, bu ki adamı gözüylə yeyir, bunu nöş gətirirsən bura?

Mən elə pərt oldum ki, bütün sifətim alışıb-yanırdı və bilmirdim ki, nə edim, amma bununla birlikdə Şövkətin eləcə şaqqanaq çəkib gülməyində də, o iri ala gözlərinin həmin işıltısında da o ağ və dolu bədənindəki kimi, o tarım çəkilmiş hamar dərisindəki kimi, nəsə elə bir şey var idi ki, əslində, lap əslində, mən Şövkətdən incimədim.

Həmin hadisədən sonra bir də heç vaxt anamla arvad hamamına getmədim, anam nə qədər edirdisə də (– Allah vurub onu! – deyirdi anam, hirslə Şövkətin qarasına deyinirdi: – Ləçərin birinin sözündən ötrü hamama nöş getmirsən?), mən getmirdim və ümumiyyətlə, mən istəmirdim ki, anam bu barədə bir söz desin, çünki istəmirdim ki, Şövkəti söyüşünlə, Şövkəti ləçər desinlər. Mən bir də heç vaxt anamla birlikdə arvad hamamına getmədim və ondan sonra anam vedrədə su qızdırıb məni mətbəximizdə çimizdirməyə başladı.

Şövkətin evi bizim dalanımızdan bir az aralıda, qoşa tut ağacının yanında idi və bu birmərtəbəli, sarı əhəngli binanın qapısı birbaş küçəyə açılırdı. Şövkət tək yaşayırdı, atası ilə anası çoxdan ölmüşdü və bizim məhəllədə heç kim onları görməmişdi, çünki Şövkət də Muxtar kimi, bizim məhəlləyə gəlmə idi. Anam deyirdi ki, indi Şövkət yaşayan o ikiotaqlı evdə qabaqlar qırçı Mirzəgil yaşayırdı, sonra qırçı Mirzəgil köçdülər kəndə – Mərdəkana, bu evi də filan qədər qiymətə satdılar Şövkətə və Şövkətin də bu qədər pulu haradan idi? – Heç kim bilmirdi və bu barədə mənim yanımda arvadlar arasında söz düşəndə mənalı-mənalı bir-birlərinə baxırdılar. Deyilənə görə, özündən böyük qardaşı var idi, amma Şövkəti danışdırmırdı, çünki Şövkət haçansa arvadlı bir kişiyə qoşulub qaçmışdı, sonra da o kişi nədən ötrüsə Şövkəti qovmuşdu.

Şövkət Meyranqulu əmidən xahiş etmişdi və Meyranqulu əmi də qoşa tut ağacının yanında taxtadan skamya düzəltmişdi (həmin gün mənim yaxşı yadımdadır: Meyranqulu əmi skamya düzəldirdi, Əzizağa əmi də üzbəüz səkidə dayanıb tamaşa eləyirdi və bu zaman onların arasında o vaxt mənim başa düşmədiyim belə bir söhbət oldu: " – Meyranqulu, yaman işləyirsən a, deyəsən xeyir iş var?!." " – Əzizağa, mənim indi elə vaxtımdı ki, balı şüşədən yalayıram. Başqa şeyə gücüm çatmaz!.." və Əzizağa əmi də bərkdən güldü) və Şövkət yazda, yayda, payızın əvvəllərində axşamlar işdən sonra, ya da ki, bazar günləri səhərdən axşamaçan həmin skamyada oturub Ziba xaladan aldığı günəbaxan tumu çırtlayırdı, gəlib-gedənlə salamlaşırdı, şaqqanaq çəkib gülə-gülə zarafat eləyirdi. Bəzən Şövkət cəld yerindən qalxıb evlərinə girirdi və bu o demək idi ki, Xanım xala küçəyə çıxıb; Şövkət Xanım xaladan niyə belə qorxurdu? – Heç kim bilmirdi və biz bu barədə Balakərimdən bir söz soruşanda deyirdi: "– Bilmirsiz ki, ya, ilan vuran ala çatıdan qorxar?.." Biz, əlbəttə, bu sözlərin də mənasını

başa düşmürdük, amma həmişəki kimi, özümüzü o yerə qoymurduq, guya hər şeyi başa düşürük və Balakərimdən soruşurduq ki bəs niyə Şövkət elə şaqqanaq çəkib gülür? Balakərim deyirdi: " – Dəvəyə dedilər ki, boynun əyridür! Dedi ki, haram düzdü ki, ya, boynum da düz olsun?" Biz bu sözlərin də mənasını başa düşmürdük (hər halda mən heç nə başa düşmürdüm!), amma burasını başa düşürdük ki, Balakərimin dediyi o sözlər Şövkətin xeyrinə deyil və mən bu işə təəccüb edirdim, çünki məhəllədə hamı bilirdi ki, Şövkət fabrikdən gətirdiyi peçenyedən, konfetdən, qoğaldan, pirojnalardan həmişə Balakərimə pay verir və Balakərim də çox vaxt elə bu payların hesabına qarnını doyuzdurur.

Şövkət şirniyyat fabrikində işləyirdi və böyük-böyük alabəzək güllü uzun xalatının cibi həmişə konfetlə dolu olurdu, o hamam əhvalatından sonra, hərdən məni görəndə gülüb göz vururdu və cibindən konfet çıxarıb mənə uzadırdı: "– Ala, yaxçı konfetti, gəl, götür..." – deyirdi, amma mən qaçıb gedirdim, çünki qorxurdum ki, konfeti götürəndə Şövkət əlimdən tutub saxlayar, üzümə baxa-baxa hamamdakı kimi şaqqanaq çəkib gülər və mən də bilmərəm ki, nə eləyim? – qaçıb gedirdim, Şövkət də gülə-gülə ardımca deyirdi: "– Bu hələ konfetin dadını bilmir!.."

Məhəllənin cavan qız-gəlinlərinin Şövkətə gizli bir həvəsi var idi və yay vaxtı, günün qızmar çağında ki, küçədə heç kim olmurdu (təkcə Şövkət qoşa tutun kölgəsində oturub tum çırtlayırdı), cavan qız-gəlinlər dükana çay dalınca, ya yağ dalınca gedəndə, ya da əllərinə nöyüt qabı alıb nöyüt dalınca gedəndə fürsət düşsəydi, Şövkətin yanında dayanırdı, Şövkətin o qoşa tutun kölgəsində, o skamyada oturub tum çırtlaya-çırtlaya deyib-gülməyinə qulaq asırdı.

Şövkət deyirdi:

– Allah haqqı, mənim də saatım lap xarab olub... İstəyirəm aparım verim Gülağaya, düzəltsin. Amma qorxuram o ciyəri yanmış arvadından!..

Şövkət bu sözləri deyirdi və şaqqanaq çəkib gülürdü və Şövkətin başına yığışmış qız-gəlin də, düzdür, özlərini saxlaya bilməyib xısın-xısın gülürdü, amma həm də qızarırdı, gözlərini yerə dikirdi.

Mən qız-gəlinin Şövkətin bu sözlərindən beləcə qızarmaqlarına, utanmaqlarına təəccüb edirdim və bir dəfə anamdan soruşdum:

– Mən dalanın ağzında dayanmışdım, eşitdim ki, Şövkət deyir ki, saatım xarab olub, yermək istəyirəm Gülağa düzəltsin...

Anam soruşdu:

– Hə, nə olsun?

Mən dedim:

– Mən də onu soruşuram də... Burda nə var ki, arvadlar qızarırlar?

Məni heyrət bürüdü, çünki anam mənə baxdı və birdən anam da qıpqırmızı qızardı.

Düzdür, mən Şövkətdən bir az qorxurdum, hətta haradasa ürəyimdə Şövkətlə bağlı bir səksəkə də var idi, amma mən bayaq dediyim kimi istəmirdim ki, onun haqqında pis danışsınlar və Cəfərqulu deyəndə ki, Muxtar Şövkətin göbəyində konyak içir, mən hamıya demək istəyirdim ki, yalandır bu, istəyirdim hamını inandırım ki, belə şey ola bilməz, amma əlbəttə, heç kim mənə inanmayacaqdı, mənim sözlərimin heç bir əhəmiyyəti olmayacaqdı, çünki yoldaşlarımın arasında yaşca ən kiçiyi mən idim; özüm isə ürəyimdə bilirdim ki, Cəfərqulunun dediyi söz yalan deyil, həqiqətdir, yəni bilirdim ki, Şövkətlə Muxtarın arasında nəsə gizli bir iş var, çünki bir dəfə özüm onların gizlincə bir yerdə olmaqlarını görmüşdüm.

Cəbrayıl həyətimizin aşağı başında quşxananın yanında mənim üçün də taxtadan balaca bir qutu düzəltmişdi və mən şumaqədərlərimi, çiladilərimi o qutuya yığırdım. Bir gün gecə yağışın səsinə yuxudan oyandım və bir müddət evimizin damına, həyətimizə tökülən, qapımızı döyəcləyən o yağış səsinə qulaq asdım, sonra həmin yağış səsinin içində həyətdəki göyərçinlərin vaxtsız qurultusunu eşitdim və yadıma düşdü ki, şumaqədərlərim də indi o qutunun içində yağışın altındadır (qutunun taxtaları bir-birindən aralı olduqu üçün, yağış içini isladırdı və bir dəfə gecə yağış yağmışdı, dəmir şumaqədərlərimin hamısı suyun altında qalıb sonra paslanmışdı), anam yuxudan oyanmasın deyə (atam həmişəki kimi, səfərdə idi) ehmallıca ayağa qalxdım, anamın şalını başıma, çiynimə salıb həyətə çıxdım ki, tez şumaqədərləri götürüb evə gətirim, amma mən ömrümdə həyətimizi beləcə tənha görməmişdim, mənə elə gəldi ki, həyətimiz də yatıb, yuxudadır, bir müddət Xanım xalanın taxta pilləkənlərinin altında dayanıb və bərk-bərk anamın şalına bürünüb həyətimizin bu tənhalığına tamaşa elədim, göyərçinlərin qurultusuna, navalçalardan axan suyun şırıltısına, damımıza, həyətimizin ortasına tökülən yağışın səsinə qulaq asdım, həyətimizin o tənhalığının, o yağış şırıltısının sehri məni elə tutdu ki, şumaqədərlər də yadımdan çıxdı və mən anamın şalının altında bəyaz qaqa-

qaça həyət qapımızdan dalanımıza çıxdım və dalanımızı da heç vaxt görmədiyim kimi, tamam tənha gördüm, mənə elə gəldi ki, səhərdən axşamacan futbol oynadığım, ənzəli oynadığım ("Keçi girdi bostana!.. Daş atdım, qıçı sındı!.. Apardılar həkimə! Həkim verdi vəkilə!.. Vəkil dedi: nə işimə!.."), çiləndi çiləndiyim, atılıb-düşdüyüm bu dalanı əslində heç tanımamışam, gecəyarısı, o yağış içində bizim dalanımız da Balakərimin danışdığı əhvalatların bir parçası, bir hissəsi idi, sonra mən qaçaqaça küçəyə çıxdım və küçəmizi də eləcə tənha gördüm, eləcə yağış içində gördüm: bütün işıqlar sönmüşdü, bütün pəncərələr yatmışdı, təkcə küçəmizə döşənmiş qəmbərlər yağışın altında lap xırdaca işıldayırdı, bir də ki, o qoşa tut ağacının yarpaqları lap xırdaca işıldayırdı və bu zaman mən tamam gözlənilməz bir hadisənin şahidi oldum: Şövkət yaşayan evin küçə qapısı açıldı və bir kişi qaraltısı oradan çıxıb cəld küçə ilə üzüaşağı getdi, üçmərtəbənin qapısının qabağında gözdən itdi.

Düzdür, qaranlıq idi, düzdür, o kişinin sifəti görünmürdü, amma mən meşin pencəyinin yağış altındakı parıltısından onu o saat tanıdım: Muxtar idi və ümumiyyətlə, hərgah o meşin pencəkdə olmasaydı, o balaca Ələkbər o qaraltını sövq-təbii tanıyacaqdı.

Bayırın soyuğundan sonra üşüm-üşüm üşüyə-üşüyə yerimə girib yorğanı başıma çəkdim, anamın yaş olmuş şalından sonra, yorğan bütün bədənimi evin istisi ilə isindirdi və mən fikirləşdim ki, görəsən bu gecə vaxtı Şövkətlə Muxtar Şövkətin evində nə eləyirdilər? Çox fikirləşdimsə də bu suala əməlli-başlı bir cavab tapa bilmədim, amma burası mənim üçün bir kəşf idi ki, bizim məhəlləmizin də öz gecə sirləri var imiş... Sonra bir müddət yenə də yağışın səsinə, vaxtsız oyanmış o göyərçinlərin qurultusuna, novalçalardan axan suyun şırıltısına qulaq asdım və bu qərara gəldim ki, Şövkət belə bir gecədə tək olmaq istəməyib və buna görə də oturub Muxtarla dərdləşiblər, amma niyə Muxtarla? Muxtarın balaca qulaqları mənim gözlərimin qabağına gəldi və mən həmin yağışlı gecədə, yerdən salınmış yorğandöşəyimin içində öz təsəvvürümdə Muxtarı o gecəyə də, Şövkətə də heç cürə yaraşdıra bilmirdim; bir də axı, Muxtarın arvadı Kubra xala evdə tək qalmışdı... Yenə bir müddət yağışın səsinə, göyərçinlərin qurultusuna qulaq asdım və doğrusu, o yağışlı gecədə istədim ki, mən də durub kiminləsə söhbət eləyim, hətta istədim anamı yuxudan oyadım, amma oyatmadım, çünki bütün günü həyətimizdəki çarhovuzun qırağında paltar yumuşdu və yorulmuşdu.

Mən o yağışlı gecədə gördüyümü heç kimə demədim, heç Cəfərqulu da bir şey bilmədi, çünki mən Şövkətlə Muxtarın bu gecə vaxtı nə elədiklərini ağlıma sığışdıra bilməsəm də, burasını yaxşı bilirdim ki, bu əhvalatı kiməsə danışsam, o saat məhəlləyə yayılacaq və məhəllənin kişiləri Şövkəti öldürməsələr də (evdə qardaşı, ya atası yox idi ki, Şövkəti öldürsün), hər halda məhəllədən qovacaqlar, amma Şövkət tum çırtlaya-çırtlaya mənə baxıb göz vursa da, şaqqanaq çəkib gülsə də, mən Şövkətdən bir az qorxsam da, istəmirdim ki, onu məhəllədən qovsunlar; bir də mən istəmirdim ki, Kübra xalanın halı lap pis olsun.

Bəzən Muxtar qara "emadin"ə minib işə gedəndən sonra, Kübra xala o üçmərtəbənin ikinci mərtəbəsindəki şüşəbəndli eyvanlarının pəncərəsindən başını çıxarıb bizi çağırırdı:

– Gəlin, ay uşaqlar, gəlin!.. Qalxın yuxarı!..

Biz hamımız – məhəllənin uşaqları daş pilləkənlərlə ikinci mərtəbəyə qalxırdıq, ayaqqabılarımızı çıxarıb otağa girirdik və otağın ortasındakı girdə mizin arxasında otururduq. Bizim evlərimizdə heç vaxt peraşki bişirməzdilər və biz elə bilirdik ki, (hər halda mən belə fikirləşirdim) peraşkini, ancaq hökumət bişirtdirir və onu ancaq küçələrdə, məktəb bufetlərində satırlar, amma sonra bildik ki, Kübra xala da çox dadlı ət, kartof və noxud peraşkisi bişirir. Kübra xala həftədə, on gündə bir dəfə bizim üçün peraşki bişirirdi və biz üstünə qotazlı süfrə salınmış o girdə mizin arxasında oturub peraşki yeyirdik.

Anamgil deyirdi:

– Yazıq Kübranın uşaq sarıdan ürəyi nisgillidi... – və anamgil bizim gedib Kübra xalanın bişirdiyi o peraşkiləri yeməyimizə pis baxmırdı.

Kübra xala həmişə təngnəfəs olurdu, mətbəxdən otağa gedib içi isti peraşki dolu boşqabı qabağımıza qoyurdu və hər dəfə də mən Kübra xalanın beləcə təngnəfəs olmağına, güclə yeriməyinə, nəfəs alanda xırıldamağına baxa-baxa təəccüb edirdim, çünki bir dəfə Məşədixanım xala anamgilə deyəndə eşitmişdim ki, qulağı kiçik olan kişinin arvadı gözəl olar. Muxtarın qulaqları çox kiçik idi, amma Kübra xala gözəl deyildi... Düzdür, Kübra xala gözəl deyildi, amma Şövkət gözəl idi və bu barədə fikirləşəndə yenə də Şövkətin ağ, hamar və dərin göbəyi mənim gözlərimin qabağına gəlirdi.

Kübra xala:

– Yeyin!.. – deyirdi, özü də güclə nəfəs ala-ala stulda bizim yanımızda otururdu (o stulların söykənəcəyi də Muxtarın pencəyi kimi, qara meşindən idi), dincələ-dincələ bir-bir bizə baxırdı: – Yeyin!.. – deyirdi. – Bu dəfə ətli peraşki az oldu... Muxtara tapşırmışam sizinçün yaxşı ət alsın, gələn həftə, Allah qoysa, ət peraşkisini çox eləyəcəyəm... Təki salamatlıq olsun! Yeyin!..

Kübra xalanın dediyi sözlər mənə çox qəribə gəlirdi, çünki mən belə hesab edirdim ki, Muxtar özü hamıya tapşırıq verən adamdır və onun özünə heç bir tapşırıq vermək olmaz; bir də burası mənə təəccüblü gəlirdi ki, sən demə Muxtar özü də bilir ki, qara "emadin"ə minib işə gedəndən sonra, Kübra xala bizimçün peraşki bişirir və Muxtar bundan ötrü arvadına acıqlanmır; nədənsə mənə elə gəlirdi ki, bizim gəlib burada beləcə peraşki yeməyimiz Muxtardan gizlin bir iş olmalıdır və Muxtar bu işdən xəbər tutanda Kübra xalaya acıqlanmalıdır.

Kübra xalagilin evində ən maraqlı şey, əlbəttə, telefon idi və mən çox istəyirdim ki, elə bir yer olsun ki, mən bu qara telefonun dəstəyini götürüb o yerə zəng eləyim, amma elə bir yer yox idi.

Birdən biz peraşki yediyimiz yerdə altına krujevalı ağ örtük salınmış o qara telefon aparatı bərkdən zəng çalırdı (bəzən biz küçədə oynayanda da bu zəngin səsini eşidirdik) və biz hamımız diksinib duruxurduq. Kübra xala təngnəfəs gəlib aparatın dəstəyini götürürdü:

– Alo... – deyirdi, sonra gülümsəyirdi: – Yaxşıyam, ay Muxtar. Vallah, yaxşıyam, həkim-zad lazım deyil, narahat olma. Nə bişirim sənə? Vallah, dedim ki, yaxşıyam... Narahat olma... – Sonra Kübra xala dəstəyi çox ehmalca aparatın üstünə qoyurdu, elə bil Kübra xala qorxurdu ki, birdən Muxtarın səsi zədələnər və mən sidq-ürəkdən təəccüb edirdim ki, Kübra xala Muxtarla anam mənimlə danışan kimi danışır.

Kübra xala:

– Yeyin!.. – deyirdi və biz də ağzımız yana-yana o isti peraşkiləri ləzzətlə yeyirdik, sonra boşqabı boşaldıb durub getmək istəyəndə Kübra xala üç-dörd dənə peraşki bükülmüş qəzet bağlamasını bizə verirdi: – Bunu da aparın verin Balakərimə...

Kübra xala heç vaxt evlərindən aşağı düşməzdi, hər halda mən heç vaxt Kübra xalanı bir yerə gedən, ya da elə-belə küçədə dayanıb arvadlarla söhbət edən görməmişdim, hətta hamama da getmirdi

(Cəfərqulu deyirdi ki, Kübra xalanı Muxtar özü evdə çimizdirir), çünki xəstə idi, pilləkənləri düşüb-qalxa bilmirdi, amma Kübra xala bilirdi ki, bizim məhəlləmizin Balakərimi var.

Hərdən biz oturub peraşki yeyirdik, Kübra xala isə tez-tez xırıltıyla nəfəs ala-ala, həddən artıq böyük döşləri tez-tez enib qalxa-qalxa yenə mətbəxə gedirdi, susəpəni su ilə doldurub, gəlib küçə eyvanına çıxırdı və dibçəkdəki gülləri sulayırdı. Eyvanda çoxlu saxsı dibçəklər var idi və həmin dibçəklərdə cürbəcür güllər bitmişdi və bir dəfə Kübra xala o gülləri sulaya-sulaya dedi:

– Mən ölendən sonra bu güllər mənim üçün darıxacaq...

Düzdür, Kübra xala bizi dadlı peraşkilərə qonaq edirdi, amma heç birimizin adını yaxşı bilmirdi, dəyişik salırdı və bir gün məndən soruşdu:

– Sənin adın nədir?

– Ələkbər, – dedim.

– Sən Xanımın oğlusan?

– Yox, – dedim, sonra fikirləşdim ki, birdən Kübra xala elə bilər ki, mən burada onun bişirdiyi peraşkini yediyimə görə Xanım xalanın adını çəkməkdən qorxuram, ona görə də: – Oğlu deyiləm Xanım xalanın, ancaq bir həyətdə oluruq – dedim.

Məsələ burasında idi ki, bir dəfə qışda Xanım xala küçənin ortasında Muxtarı biabır elədi, abrını ətəyinə bükdü və ümumiyyətlə, Muxtarı yaxşıca yerində oturtdu.

O qış elə bil payız idi, tez-tez Bakıya şıdırğı yaqışlar yağırdı və həmin yağışlı qış günlərindən birində, günorta vaxtı məhəlləyə belə bir xəbər yayıldı ki, Muxtar Xanım xalanın oğlu Əbdüləlini tutdurub. Məhəllənin bütün camaatı bu işə lap məəttəl qaldı, çünki Muxtar gəlmə də olsa, hər halda bizim məhəllədə yaşayırdı və öz məhəlləsinin cavanını tutdurmaq, əlbəttə kişiyə yaraşan iş deyildi, Əbdüləli lap adam öldürsəydi də, Muxtar gərək belə iş tutmayaydı, amma bir azdan məlum oldu ki, Əbdüləli heç kimi öldürməyib, heç kimi bıçaqlamayıb, döyməyib və Muxtar da Əbdüləlini ona görə tutdurub ki, səhər qara "emadin"də işə gedəndə Əbdüləli "polutorka" ilə sürüb onu keçib və bütün gecəni yağış yağdığına görə küçənin çirkab suyu "polutorka"nın təkərlərinin altından sıçrayıb "emadin"in üstünə tökülüb.

Ağahüseyn əmi barmağını papiros tüstüsündən saralmış ağ bığlarına çəkə-çəkə başını bulayıb:

– Alə, – dedi, – belə də iş olar? Maşınını ötməyin üstündə də mələnin cayılını tutdurub türməyə basarlar?

Əzizağa əmi dedi:

– Ətağa cəddi, dünyanın lap day axırıdı!..

Həsənağa əmi barmağı ilə Muxtargilin şüşəbəndli evyanını göstərə-göstərə dedi:

– Alə, bizə sataşır o, bizə! Alə, biz ölmüşük bəyəm ki ya, belə iş görür bu oğraş? Biz nəyik bəyəm, alə, kişi-zad döyülük ki, bu zaraza belə rəftar eləyir biznən?

Məhəllənin arvadlarının canına qorxu düşmüşdü. Həsənağa əmi-

Dərs hazırlamaq, çörək yemək uşaqların yadından çıxmışdı və biz Muxtarın aqibəti barədə, axşam nə olacağı barədə tez-tez yayılan müxtəlif şeyləri müzakirə edirdik. Cəfərqulu belə bir xəbər də gətirdi ki, Xanım xalanın böyük oğlu Cəfər küçədə təsadüfən qara "emadin"ə rast gəlib, guya avtobusla qara "emadin"in qabağını kəsib, Muxtardan xahiş eləyib ki, Əbdüləlini buraxdırsın və guya Muxtar Cəfəri də hədələyib ki, səni də tutduraram. Mən bilmirdim ki, Cəfərqulunun nəfəsini dərmədən tez-tez söylədiyi bu təzə xəbər doğrudan da olub, yoxsa yox, hətta ürəyimdə mənə elə gəlirdi ki, bunu Cəfərqulu özündən toqquşdurub, amma hər

Cəfərqulu bu dəfə də belə bir xəbər gətirdi ki, Əliabbas kişi Həsənağa əmini çağırıb yanına ki, məhəllədə mərəkə salmayın və geyinib bu havada küçəyə çıxıb ki, özü Muxtardan xahiş eləsin ki, Əbdüləlini buraxdırsın.

Ağahüseyn əmi özü gedib evlərindən taxta kətil gətirdi, Əliabbas kişi həmin kətildə oturub çənəsini gümüş naxışlı çəliyinə söykədi və gözlərini küçəyə dikdi ki, qara "emadin" nə vaxt gələcək.

Mən Əliabbas kişinin ağappaq saqqalına, gümüş naxışlı çəliyinə baxa-baxa fikirləşdim ki, görəsən, Əliabbas kişi də haçansa uşaq olub?

Balakərim elə hey tütək çalırdı və Balakərimin hansı havanı çaldığını demək, əlbəttə, mümkün deyildi, çünki o tütəyin çalğısında bütün havalardan bir az var idi və həmin qış axşamı o tütəyin nə çaldığını, nə dediyini ancaq Balakərimin özü bilirdi.

Əliabbas kişi bir-iki dəfə öskürdü, sonra gözlərini küçədən çəkib biz tərəfə baxdı və çağırdı:

– Balakərim!..

Balakərim tütəyi ağzından ayırıb Əliabbas kişiyə tərəf baxdı, sonra ayağa qalxıb qoşa tutun altından kişilərin yanına getdi, Əliabbas kişinin qabağında dayandı. Əliabbas kişi soruşdu:

– Necəsən, Balakərim?

Balakərim dedi:

– Yaxşıyam, day-day.

– Çalma, Balakərim.

– Baş üstə, day-day.

– Yeri döyül.

– Oldu.

Balakərim daha bizim yanımıza gəlmədi, yağışdan islanıb tündləşmiş sarı pencəyinin qolu ilə tütəyin ağzını sildi, qoydu cibinə və Əliabbas kişigildən bir az aralı çəkildi, Sarı hamamın divarına söykənib dayandı.

Küçədə bir nəfər də olsun arvad yox idi və bu dəm arvadlar evdə oturub səksəkə içində gözləyirdilər ki, küçədən nə xəbər gələcək, arvadlar həya-abırından keçib ürəklərində yəqin ki, Muxtarı ən pis küçə söyüşləri ilə söyürdülər.

Küçənin aşağı başında Muxtarın qara "emadin"i göründü, amma bu vaxt çox gözlənilməz bir hadisə baş verdi və hamı səhərdən bəri gözlədiyi qara "emadin"ə yox, başını çöndərib bizim dalana tərəf

baxdı: Xanım xala qabaqda, ardınca da Cəfər, Adil, Qoca, Cəbrayıl, Ağarəhim dalandan çıxıb iti addımlarla Muxtargilin küçə qapısına tərəf gəlirdi. Qara "emadin"in görünməsi ilə Xanım xalagilin dalandan çıxmağı bir oldu və bu necə oldu? – Hamı bu işə məhəttəl qaldı.

Xanım xala Cəfərdən, Adildən, Qocadan, Cəbrayıldan, Ağarəhimdən üç-dörd addım irəlidə, qəmbər döşənmiş küçənin tən ortası ilə düz maşının qabağına gəlirdi və qara "emadin" Xanım xalaya yaxınlaşdıqca sürücü bərkdən siqnal verməyə başladı. Xanım xala elə bil heç nə eşitmirdi, elə bil ki, eləcə təkbətək üstünə yeridiyi maşın deyildi və Xanım xalanın ciddi sifətində, kip örtülmüş nazik dodaqlarında heç bir həyəcandan əsər-əlamət yox idi, təkcə qalın qaşlarının altından baxan qara gözlərində bir qəzəb işıltısı var idi.

Qara "emadin" yaş qəmbərliyin üstündə tükürpədən səs çıxarıb Xanım xalanın qabağında dayandı və hirsindən açıq-aşkar çənəsi əsən Muxtar maşının qapısını açıb qışqırdı:

– Ay arvad...

Muxtar daha başqa söz deməyə macal tapmadı, çünki Xanım xala yekə əli ilə Muxtarın meşin pencəyinin yaxasından yapışıb çölə çəkirdi:

– Çıx bayıra!.. Çıx!..

Xanım xalanın bu hərəkətinin gözlənilməzliyindən Muxtarın gözləri bərəlib az qala hədəqəsindən çıxacaqdı və Muxtar özünü itirmişdi (axşam idi, mən görmürdüm, amma mənə elə gəlirdi ki, Muxtarın balaca qulaqları qıpqırmızı qızarıb), maşından çıxmırdı və özünü maşının içində geri çəkə-çəkə yaxasını Xanım xalanın iri əlindən qurtarmaq istəyirdi:

– Ay arvad.. Ay arvad..

Muxtar daha başqa söz demirdi. Xanım xala isə əlini Muxtarın yaxasından buraxmaq bilmirdi:

– Çıx!.. Çıx bayıra!..

Cəfər, Adil, Qoca, Cəbrayıl, Ağarəhim də küçənin ortasında, Xanım xaladan iki-üç addım aralıda dayanmışdılar və bir söz demədən Xanım xalanın Muxtarı maşından çəkməyinə və Muxtarın da yaxasını Xanım xalanın əlindən qurtarmaq istəməyinə baxırdılar. Biz də tut ağacının altında quruyub qalmışdıq, Xanım xalanın bu hərəkəti o qədər gözlənilməz idi ki, özümüzə gələ bilmirdik. Əliabbas kişi taxta kətilin üstündən ayağa qalxmışdı, amma o da bir söz demirdi, elə-eləcə baxırdı.

Qara "emadin"in sürücüsü özünə gələn birinci adam oldu, maşından çölə atıldı, belindəki qoburdan çıxartdığı tapançanı qaldırıb göyə bir güllə atdı, amma o göyə atılan güllənin səsi heç kimi səksəndirmədi və sürücü də səkidə dayanmış kişilərə, küçənin ortasında dayanmış o cavan oğlanlara – Cəfərə, Adilə, Qocaya, Cəbrayıla, Ağarəhimə baxdı, qoşa tutun altında dayanmış bizə baxdı, bir-iki dəfə bərkdən, tələşlə:

– Ay adamlar! Yoldaşlar!.. – dedi, sonra tapança qaldıran qolu yanına düşdü, qorxu-hürkü içindəki gözləri ilə baxa-baxa bilmədi ki, nə eləsin.

– Çıx bayıra!.. Çıx!.. Sən də kişisən? Tufu! – Xanım xala əlini Muxtarın yaxasından çəkdi və əlini çəkməyi ilə də Muxtarın üzünə bir lombultu tüpürməyi bir oldu.

Muxtar yalın əli ilə Xanım xalanın tüpürcəyini üzündən sildi.

Küçəmizdə elə sükut var idi ki, elə bil hər şey donmuşdu, elə bil camaatın ürəyi də sinəsində donub dayanmışdı, vurmurdu.

Xanım xala sağ əlinin iki uzun barmağını qoşalayıb az qala Muxtarın gözlərinə soxa-soxa bərkdən dedi:

– Sən öləsən, əgər bu gün uşağı buraxdırmasan, gedib sənün böyüklərin ki, var e, onları tapacağam! Gedib girəcəyəm onların yanına! Sənün başunda bir turp əkəcəyəm ki, anandan əmdiyin süd burnundan gəlsin! Yoxsa, elə bilirsən yalvaracıyam sənə mən? Ay sən öləsən!

Muxtar, deyəsən yavaş-yavaş özünə gəldi, hər halda Muxtar maşından düşməli idi, küçəyə yığışmış bu adamları vecinə almasa da, heç olmasa sürücünün yanında ayıb idi və belindəki tapançanın, əynindəki meşin pencəyin, ayağındakı xrom uzunboğazların, bu qara "emadin"in, evindəki o qara telefon aparatının yaratdığı həmişəki inam yenə də Muxtara qayıtdı və maşından çıxıb Xanım xalanın tüpürcəyindən yaş olmuş əlini meşin pencəyinin ətəyinə silə-silə:

– Özünü yığışdır, arvad! – dedi.

Xanım xala:

– Arvad sənsən! – dedi.

Muxtar:

– Görərsən! – dedi. – Görərsən!

Xanım xala:

– Sən də görərsən! – dedi, sonra üzünü səkidə dayanmış Əliabbas kişigilə, Həsənağa əmiyə, Ağahüseyn əmiyə, Əzizağa əmiyə tutdu: –

Əyər siz də buna bir söz desəz, buna əl vursaz kişi döyülsüz! Mən ölməmişəm hələ! – dedi və geri çevrilib gəldiyi kimi də, iti addımlarla küçənin ortası ilə dalanımıza tərəf getdi. Cəfər, Adil, Qoca, Cəbrayıl, Ağarəhim də Xanım xalanın ardınca getdi...

...Bundan sonrakı hadisələri mən görməmişdim, amma o hadisələrin hamısı indi mənim gözlərimin qabağındadır...

Muxtarın dəqiq nə işində və harada işləməyi bizim məhəllədə heç kimə məlum deyildi və həmin yağışlı qış axşamının səhəri sübh tezdən Adilin "polutorka"sı dalanın ağzında dayanmışdı və o səhər Xanım xala bütün ömründə birinci dəfə oğlunun sürdüyü maşına mindi, Adillə bir yerdə kabinkada oturub gözlədi, gəlib Muxtargilin evinin qabağında dayanmış qara "emadin" yerindən tərpənib Muxtarı işə aparanda Adilin "polutorka"sı da yerindən tərpəndi, qara "emadin"in ardınca şəhərin küçələrindən keçdi.

Qara "emadin" bir binanın darvazasının qabağında dayandı.

Adil də maşını qara "emadin"dən xeyli aralıda saxladı.

Xanım xala:

– Bunun qapısını aç görüm! – dedi.

Adil kabinkanın qapısını açdı. Xanım xala maşından düşdü və:

– Sən get işə – dedi.

Adil bir müddət maşını tərpətmədi və Xanım xala altdan yuxarı tərs-tərs oğluna baxdı:

– Sənə demirəm get işivə?!

Adil nəsə demək istədi, amma anasının kip örtülmüş nazik dodaqlarına, qalın qaşlarının altından işıldayan gözlərinə baxdı, heç nə demədi və maşını işə saldı.

"Polutorka" gözdən itdi.

Xanım xala qara "emadin"ə tərəf baxdı.

Darvazanın yanında kiçik bir köşk var idi və əyninə milisioner paltarı geymiş lopa bığlı bir nəfər köşkdən çıxıb əlini qulağının dibinə apardı, sonra o darvazanın dəmir qapılarını açdı və Muxtarın mindiyi qara "emadin" darvazadan keçib binanın həyətinə girdi, milisioner darvazanı təzədən bağladı və öz köşkünə qayıtdı.

Qış səhəri idi, soyuq idi və o səhər seyrək qar yağmağa başlamışdı, amma qar yerə düşən kimi su olurdu, asfaltın üstündə bircə damcı yaş ləkəyə çevrilirdi.

Xanım xala gəlib həmin darvazanın qabağında dayandı, diqqətlə bu binaya baxdı, sonra darvazanın yanındakı köşkə yaxınlaşdı, qapını açıb içəridə oturmuş o lopa bığlı milisionerə:

– Salam-məleyküm, – dedi.

Milisioner:

– Əleyküm-salam, – dedi və təəccüblə köşkün ağzında dayanmış bu arvada baxdı.

Xanım xala dedi:

– Böyüyüvüz lazımdı mənə!

– Kim lazımdır?

– Böyüyüvüz!

O lopa bığlı milisioner erməni idi, güldü və erməni ləhcəsi ilə:

– Axçi, burda hamı mənimçün böyükdü də... – dedi – Burda ən kiçiyi mənəm, bildin?

– Bildim.

– İndi de görüm sənə kim lazımdır?

– Bu binadakıların hamısının böyüyü!

– Vax?! Çağırıb səni?

– Yox.

– Tanıyır səni?

– Yox.

– Sən tanıyırsan onu, axçi?

– Yox.

– Ha, indi bəs, nə istəyirsən?

– Başa düşmədin nə istəyirəm? Bu binanın böyüyünü istəyirəm!

Milisioner bu dəfə ağzını açmağa macal tapmadı, çünki köşkün balaca pəncərəsindən gördü ki, yenə bir qara "emadin" gəlib darvazanın qabağında dayandı, tez ayağa qalxıb Xanım xalanın yanından ötdü, yenə də qara "emadin"in qabağında mil kimi tarım durub sağ əlini qulağının dibinə apardı, sonra darvazanın dəmir qapılarını açdı, qara "emadin" həyətə girdi, milisioner darvazanın qapılarını bağladı, köşkünə tərəf gəldi, bayaqkı yerində dayanmış Xanım xalaya:

– Get, axçi, get... – dedi. – Bura sənin yerin deyil. Və köşkün qapısını Xanım xalanın üzünə bağladı.

Xanım xala yenə də darvazanın qabağına gəldi, bu binanı pəncərə-pəncərə diqqətlə nəzərdən keçirdi, sonra köşkə baxdı, köşkün balaca pəncərəsindən görünən o lopa bığlı milisionerə baxdı.

Milisionerin əlli səkkiz-altmış yaşı olardı, furajkasının altından ağarmış saçları görünürdü, yanındakı taxta kətilin üstündə girdə elektrik pilətəsi yandırmışdı və deyəsən, üşüyürdü, əllərini pilətənin üstünə tutmuşdu.

Bu binaya piyada adamlar da gəlirdi, köşkə girib milisionerlə salamlaşırdılar, ciblərindən balaca vəsiqə çıxarıb göstərirdilər və köşkün arxa qapısından içəri keçib gedirdilər. Bu adamlardan bəzisi gülə-gülə milisionerə nəsə deyirdi, milisioner də gülə-gülə cavab verirdi, bəzisi də elə təkcə başını tərpədib keçirdi, elələri də olurdu ki, heç milisionerə salam da vermirdi, başını dik tuturdu, heykəl kimi dinməz ötüb içəri girirdi. Milisioner hərdənbir başını aşağı əyib köşkün balaca pəncərəsindən Xanım xalaya baxırdı, başını bulayırdı.

Yenə bir maşın gəlib darvazanın qabağında dayandı və həmin maşında da sürücüdən başqa Muxtar kimi bir nəfər oturmuşdu. Milisioner yenə də köşkdən çıxıb maşının qabağında əlini qulağının dibinə apardı, maşının içində oturmuş adam başını tərpətdi, sonra milisioner darvazanın dəmir qapılarını açdı, maşını həyətə buraxdı və yenidən darvazanı bağlayıb köşkünə qayıdanda Xanım xalaya:

– Axçi, – dedi, – yazığın gəlsin özünə, sətəlcəm olarsan. Get işinlə məşğul ol.

Xanım xala:

– Sənə dəxli yoxdu! – dedi. – Sən get camaatın qapısını aç!

– Bax! Nə pis arvadsan sən?!

– Özüm bilərəm! Get sən yaxçı ol!

Milisioner başını bulaya-bulaya köşkə girdi, yenə əllərini elektrik pilətəsinin üstünə tutdu, özünü saxlaya bilməyib köşkün balaca pəncərəsindən Xanım xalaya baxdı və yenə də başını buladı.

O soyuq qış səhəri Xanım xala bu binanın yerləşdiyi küçə ilə o baş-bu baş gedib-gəldi: milisionerin oturduğu köşkdən və o dəmir darvazadan başqa bu binanın heç bir girişi yox idi və Xanım xala yenə də gəlib darvazanın qabağında dayandı.

Bu binaya daha gəlib-gedən yox idi, yəqin ki, iş başlamışdı. Milisioner də elə bil Xanım xalanı yadından çıxarmışdı, balaca dəmir çaydanı elektrik pilətəsinin üstünə qoymuşdu, özü də çeşməyini taxıb köhnə "Oqonyok" jurnalı oxuyurdu.

Qar elə-eləcə seyrək yağırdı, yerə düşən kimi suya dönürdü, asfaltın üstündə girdə yaş ləkəsi qalırdı, sonra o da quruyub yox olurdu.

Xanım xala başına və pencəyin üstündən çiyinlərinə saldığı qalın yun şalın içində soyuq hiss eləmirdi, amma yavaş-yavaş ayaqlarının barmaqları və əlləri donurdu.

Elə bil ki, o soyuq qış günü bu bina da Xanım xalanın barmaqları kimi donmuşdu, elə bil ki, bu binanın içində heç kim yox idi və Xanım xala yenə binanın pəncərələrini bir-bir gözdən keçirtdi; pəncərələrin hamısına tünd-göy rəngli pərdə çəkilmişdi və elə bil ki, o tünd rəngli pərdələr də parça deyildi, ipdən toxunmamışdı, tünd-göy rəngli daşdan yonulmuşdular, ömründə heç bir əl onları açmamışdı, heç bir yel onları tərpətməmişdi.

Milisioner gözünü jurnaldan çəkdi, əli ilə çaydanı yoxladı, yəqin bilmək istəyirdi ki, qızıb, yoxsa yox? Sonra əlini əlinə sürtdü, yəqin çaydanın istisini bir əlindən o biri əlinə verirdi, sonra yenə başını aşağı salıb jurnalı oxumaq istədi, amma birdən köşkün pəncərəsindən Xanım xalaya baxdı, sonra çeşməyini gözündən alnına qaldırıb lap diqqətlə baxdı və yenə də başını buladı.

Yun şal get-gedə o seyrək, sulu qardan nəm çəkirdi, Xanım xala üşümürdü, çiyinlərində yun şalın ağırlığını hiss edirdi, bir də ki, ayağının barmaqları, əlləri donurdu.

Milisionerin köşkünün qapısı açıldı və iki nəfər bu binadan çıxıb Xanım xalanın yanından ötdü və küçə ilə üzüaşağı gedib gözdən itdi; bir azdan binadan bir nəfər də çıxdı.

Adicə adamlar idi...

Milisioner özünə çay dəmləyirdi.

Xanım xala darvazaya yaxınlaşdı, diqqətlə qulaq asdı, içəridən heç bir səs eşidilmirdi, sonra Xanım xala yenə gəlib köşkün qapısını açdı:

– Sən məni içəri buraxmayacaqsan, a kişi?

– Axçi, sən nə interesni arvadsan?!

– Buraxacaqsan məni içəri, yoxsa yox?

– Propuskun var?

– Nə?

– Kağızın var, deyirəm? İcazən?

– Yox.

– Bəs, onda nə istəyirsən?

– Buranın böyüyünən işim var!

– Şipyon tutmusan?

– Nə?

– Heç nə. – Milisioner elektrik pilətəsinin üstündəki çaydanın qapağını qaldırıb baxdı ki, qaynayıb, yoxsa yox, sonra dedi: – Gir içəri, qapını da bağla, soyuqdur.

Xanım xala köşkə girib qapını bağladı.

Milisioner soruşdu:

– Doğrudan işin var sənin?

– Necə yəni doğrudan? Oyun oynayıram burada səhərdən?

– Vax! Lap vacib işdir?

– Hə.

Milisioner əlini qabağındakı kiçik yazı mizinin üstündəki telefon aparatına uzatdı:

– Qoy bir dejurnuya zəng eləyim.

– O kimdi elə?

– Dejurnudu də.

– Mənə buranın böyüyü lazımdır, ay kişi! Başa düşmədin sən?

– Ara, axçi, sən məni dəli eləyəcəksən? Nə dava salırsan burada? Ha, babamın sənin babana borcu var? Get, get, evinə, xoş gəldin!..

– Sən də qal bu xosmanda! –Xanım xala köşkün qapısını ardınca çırpıb yenə də küçəyə çıxdı və yenə də gəlib darvazanın qabağında dayandı.

Qar kəsmişdi, amma soyuq külək başlamışdı.

Bu binanın pəncərələrindəki o tünd-göy rəngli pərdələr elə-eləcə tərpənməz idi və o lopa bığlı milisionerin oturduğu köşkün o balaca pəncərəsi bu binada yeganə pərdəsiz pəncərə idi.

Milisioner çay içirdi, birdən əlindəki stəkanı yarımçıq mizin üstünə qoydu, bu vaxt Xanım xala da bir zəng səsi eşitdi, milisioner köşkdən çıxıb gəlib darvazanın dəmir qapılarını açdı və bu dəfə üstü brezentlə örtülü böyük bir maşın həyətdən çıxdı, küçə ilə sürətlə ötüb-getdi, milisioner darvazanı bağladı, sonra köşkünə qayıtmadı, gəlib Xanım xalanın qabağında dayandı:

– Burada durmaqdan nə çıxacaq, axçi? Niyə getmirsən?

– Sənin işin deyil!

– Vax! Sənlə bir evdə yaşayanlar gör nə çəkir!.. Burada durub onu gözləyirsən?

Xanım xala cavab vermədi.

Milisioner:

– Axçi, – dedi – sən nə naivni adamsan?.. Get evə, istədiyinə ərizə ilə yaz. Baxarlar ərizənə, çağırarlar səni...

– Sənə borcu qalmayıb!

Milisioner yenə də başını bulaya-bulaya köşkə girdi və qapısını bağladı.

Külək get-gedə bərkiyirdi və qar təzədən yağmağa başlamışdı.

Xeyli müddət beləcə keçdi.

Bayaq həyətdən çıxmış üstü brezentlə örtülü böyük maşın geri qayıtdı, milisioner köşkdən çıxıb gəlib darvazanı açdı, maşın içəri girdi, milisioner darvazanın dəmir qapılarını bağladı, Xanım xalanın

[redacted]

Milisioner deyinə-deyinə köşkə qayıtdı, qapını bağladı, oturdu və yəqin özünə söz verdi ki, bir də bu arvada tərəf baxmayacaq, amma elə

bil ki, bu arvadın get-gedə şiddətlənən çovğun içində beləcə saatlarla o darvazanın qabağında dayanıb durması ondan çox o lopa bığlı milisioneri narahat edirdi, fikrini toplayıb həmişəki kimi, "Oqonyok" jurnalının köhnə nömrələrini oxuya bilmirdi, əməlli-başlı çay da içə bilmirdi, evdən gətirdiyi kolbasa-çörəyi də yeyə bilmirdi, yenə tez-tez köşkün pəncərəsindən Xanım xalaya baxırdı, yenə Xanım xala buranın işçilərinə yaxınlaşmaq istəyəndə yüngülcə başını tərpədirdi, yəni ki, yaxınlaşma, bundan sənə bir kömək olmaz, sən [redacted]

[redacted]

qapısını dartışdıranda bu adam təəccüb dolu gözləri ilə Xanım xalaya baxdı, sonra milisionerə baxdı.

Milisioner özünü sim kimi tarım çəkib, düz dayanmışdı və sağ əli də qulağının dibində idi.

Sürücü yavaş-yavaş irəliləyən maşını bir anlıq saxladı və arxada oturmuş o kök adam özü qapını açdı:

– Nədi? Nə olub?

– Sizinlə işim var!

Kök kişi yenə də milisionerə baxdı:

– Bu kimdir belə?

Milisioner bədənini daha da tarım çəkdi:

– Bilmirəm!

Kök kişi qışqırdı:

– Bəs, sən nə bilirsən?

– Vinovat!

Sonra kök kişi sürücüyə əmr etdi:

– Sür!

Maşın yerindən götürüldü və bütün bunlar o qədər sürətlə oldu ki, Xanım xala bir söz deməyə, bir şey eləməyə macal tapmadı.

O qara maşın uzaqlaşıb gözdən itdi.

Milisioner elə-eləcə tarım dayanmışdı, bir müddət uzaqlaşıb gedən o maşının ardınca baxdı, sonra Xanım xalaya baxdı.

Xanım xala əllərini, ayaqlarını hiss eləmirdi, amma soyuq da hiss eləmirdi, geri döndü və az qala topuğacan qara bata-bata o binanın yanından uzaqlaşdı.

Bütün gecəni qar yağdı, Bakıya şaxta düşdü.

Həmin qış gününün səhəri milisioner öz soyuq köşkündə oturub əllərini elektrik pilətəsinin üstünə tutmuşdu.

Milisionerin qanı qara idi, çaydanın suyunu yoxladı ki, doludu, yoxsa yox, qoydu elektrik pilətəsinin üstünə, sonra cibindən yekə bir dəsmal çıxarıb çeşməyinin şüşələrini silməyə başladı və bu dəm köşkün balaca pəncərəsindən yenə də dəmir darvaza ilə üzbəüz dayanmış Xanım xalanı gördü. Milisioneri səhər-səhər çağırıb yaxşıca danlamışdılar və indi telefonla növbətçiyə xəbər verməli idi ki, dünən axşam maşının qabağını kəsən arvad yenə gəlib, amma milisioner bir müddət həmin arvada baxdı, sonra bu arvadın və öz bəxtinin qarasına deyinə-deyinə heç hara zəng eləmədi, durub köşkdən bayıra çıxdı, ehtiyatla o tərəf-bu tərəfə baxdı, sonra tələsik Xanım xalaya yaxınlaşdı:

– Get burdan, – dedi. – Görsələr səni, yaxşı olmaz.

Xanım xala cavab vermədi və dayandığı yerdən də tərpənmədi.

– Ara, məzhəb haqqı, bundan qan iyi gəlir! Ara, bunun xatası mənim başımda çatlayacaq, vallax, billax, belə olacaq... – Sonra milisioner bir az yumşaq səslə: – Get evə axçi... – dedi. – Onsuz da gəlməyib. İki gün böyük iclas olacaq, o da orda olacaq, işə gəlməyəcək.

Xanım xala yenə də heç nə demədi və milisioner eyni ehtiyatla ora-bura baxıb öz soyuq köşkünə qayıtdı.

O qarlı-büsatlı qış günü Xanım xala səhərdən axşama kimi o böyük binanın dəmir darvazası ilə üzbəüz səkinin bir küncündə dayandı və həmin gün milisioner bir dəfə də eləcə ehtiyatla ora-bura baxa-baxa Xanım xalanın yanına gəldi:

– Ay arvad, sənin evin yoxdur? – dedi. – Uşaqlarımın canına and olsun ki, gəlməyib, burda yoxdur. Böyük iclas var, iki gün orda olacaq... Ara, axçi, sən mənim sözümə inanmırsan?..

Xanım xala o günü birinci dəfə ağzını açıb söz dedi:

– Birdən gəldi?.. – Bu, əlbəttə, o deyən söz idi ki, yəni mən sənə inanıram, öz işində ol, mənə fikir vermə.

Milisioner:

– Ara, birdən hər şey ola bilər! – dedi. – Ha indi mən burda yıxılıb ölə bilərəm, nə olsun? – Sonra bu iki gündə neçənci dəfə bu arvada deyilən sözlərin əhəmiyyətsizliyinə əmin olub şinelinin cibindən bir parça çörək çıxartdı: – Ala, ye bunu heç olmasa, ay tərs arvad!

Xanım xala:

– Çox sağ ol, – dedi. – Get özün çörəyini ye, nuş olsun.

Milisioner daha bir söz demədi, çörəyi cibinə qoydu və köşkünə tərəf gedəndə Xanım xala arxadan dedi:

– Səndən mən çox razıyam... Yaxşı adamsan...

Doğrusu, Xanım xalanın bu sözləri o qarlı-şaxtalı qış günü həyatda dünyanın hər üzünü görmüş o lopa bığlı milisioneri kövrəltdi.

Axşam düşdü, binadakı adamların hamısı çıxıb getdi, qar tutmuş o göy pərdələrin arxasında yanan işıqlar da söndü, milisioner də yerini başqasına tənvir verdi, amma Xanım xalanın gözlədiyi maşın nə gəldi, nə də getdi.

Üçüncü gün də belə keçdi, Xanım xala sübh tezdən gecə düşənə kimi, həmin bina boşalanacan burda dayandı, amma gözlədiyi maşın yenə də nə gəldi, nə də getdi. Bir dəfə həyətdən çıxan qara "emadin"də Muxtarı gördü, amma Muxtar həmişəki kimi, ciddi oturub düz

qabağa baxırdı və üzbəüz səkinin bir kənarında dayanıb qalın qaşlarının altından zəndlə baxan Xanım xalanı görmədi.

Məhəllədə qara "emadin" yenə də gəlib Muxtargilin qapısında dayanırdı, Muxtar maşından düşüb evə gedirdi və heç kim Muxtara heç nə demirdi; xeyli sonra Xanım xala piyada gəlirdi və məhəllədə Xanım xaladan da heç kim heç nə soruşmurdu, hamı bilirdi ki Xanım xala sübh tezdən harasa çıxıb gedir, amma məhz hara getdiyini heç kim bilmirdi, təkcə burası hamı üçün açıq-aşkar aydın idi ki, Xanım xala getdiyi o yerə Əbdüləlinin işi üçün gedir.

Bütün məhəllə Əbdüləlinin yolunu gözləyirdi, Əbdüləli isə gəlib çıxmırdı.

O balaca Ələkbər də Əbdüləlinin yolunu gözləyirdi... O balaca Ələkbər də bütün məhəllə camaatı kimi, çox istəyirdi ki, Xanım xala o qara "emadin"dən də, o telefon aparatından da, o qara meşin pencəkdən də artıq olsun...

Dördüncü gün Xanım xala gəlib həmin binanın darvazası ilə üzbəüz dayananda milisioner köşkdən çıxdı, Xanım xalaya baxdı və başını yüngülcə tərpətdi. Xanım xala başa düşdü ki, gözlədiyi maşın həyətdədir.

Yenə də bütün günü qar yağdı və Xanım xala hərdənbir qalın yun şalını çırpa-çırpa axşama qədər gözlədi, bina yenə də boşalmağa başladı, qar tutmuş pəncərələrdə tünd-göy pərdələrin arxasında yanan və güclə sezilən işıqlar bir-bir söndü və nəhayət Xanım xala

– Kimdəndir, ay arvad, şikayətin? Bu nə biabırçılıqdır belə?

– Səndəndir şikayətim!.. Bir də sənin işçilərindən!

– Nə? – Kök kişi heyrətlə başını qabağa uzatdı. – Nə dedin?

Elə bil ki, bir külək əsdi, əli qulağının dibində o cür tarım dayanmış milisioneri bir-iki dəfə yerində yırğalatdı.

– Dedim ki, səndəndir şikayətim, sənin işçilərindəndir! Adam döyülsən sən bəyəm? İnsan döyülsən? Dünyanı elə bu maşınla tutub gedəcəksən? – Xanım xala iki əlini də maşının kapotuna dirəyib dayanmışdı və yerindən tərpənmirdi.

Kök kişi bədəninə yaraşmayan bir cəldliklə maşından düşdü və gəlib Xanım xalayla üzbəüz dayandı, üstünə maşın işığı düşmüş arvadın kip örtülmüş nazik dodaqlarına, hirsdənmi, həyəcandanmı, soyuqdanmı gömgöy göyərmiş sifətinə baxdı, qar düşüb donmuş şalına, uzun qat-qat tumanına, az qala dizəcən qara batmış ayaqlarına baxdı və soruşdu:

– Bütün günü məni gözləyirsən burada?

Xanım xala cavab vermədi.

Kök kişi milisionerə:

– Burax bunu içəri! – dedi və cəld addımlarla köşkdən keçib binaya qayıtdı.

Xanım xala əllərini maşının kapotundan çəkdi, milisionerə baxdı, sonra şalını çırpdı və o kök kişinin ardınca köşkdən keçib binaya daxil

Əlbəttə, o vaxt heç birimizin ağlına gəlməzdi ki, dünyanın ən böyük davası pusquda dayanıb bizi gözləyir və lap az vaxt keçəcək, dünyanın o ən böyük davası bizim məhəllədə kişi qoymayacaq, kişi təkcə biz olacağıq, bir də ki, Balakərim.

O gözəl qış gecəsinin səhəri, günortaya yaxın küçənin aşağısında Muxtarın qara "emadin"i göründü və hamı buna təəccüb etdi, çünki Muxtarın qara "emadin"i yalnız səhərlər Muxtar işə gedəndə və axşamlar işdən qayıdanda görünərdi; bu dəfə o qara "emadin" Muxtargilin qapısında dayanmadı, bizim dalanın qabağında dayandı və mən də qaça-qaça dalanımızın qabağına gəldim. Muxtar maşından düşüb dalanın girəcəyində dayandı, dalana açılan qapılara baxdı, sonra mənə baxdı və soruşdu:

– Sən burda olursan?

Mən başımı tərpətdim, yəni ki, hə.

Muxtar soruşdu:

– Onlar da burada olur?

Mən, əlbəttə, o saat başa düşdüm ki, söhbət kimdən gedir və yenə də başımı tərpətdim ki, hə.

Muxtar tələsik:

– Gəl, – dedi. – Göstər görüm harada olurlar?..

Mən əvvəlcə Xanım xalagilin harada yaşadığını Muxtara göstərmək istəmədim, amma gördüm ki, Muxtar çox tələsir və burası da mənim üçün tamam aydın idi ki, Muxtarın beləcə tələsməyi Xanım xalanın gücündəndir, sonra onun balaca qulaqlarına baxdım və nədənsə mənim Muxtara yazığım gəldi, qabağa düşüb həyətimizə girdim, Muxtar da mənim ardımca gəldi.

Anam əlinə bel alıb həyət qapımızın ağzını qardan təmizləyirdi və Muxtar içəri girib salam verdi, anam təəccüblə Muxtara baxdı, salamını isə almadı.

Muxtar yenə mənə baxdı:

– Harada olur o?

qızardığını gördüm; həmin qış günü Muxtarın sifəti elə bil ki, od tutub yanırdı, balaca qulaqları da qıpqırmızı qızarmışdı və o balaca qulaqların qızartısı da, əlbəttə, təkcə o qış soyuğunun qızartısı deyildi.

Xanım xala soruşdu:

– Nə istəyirsən?

Muxtar mərd-mərdanə dedi:

– Mənə əmr eləyiblər ki, səndən üzr istəyim.

Xanım xala o qış günü qıpqırmızı qızarmış Muxtarı o taxta pilləkənlərin üstündə çox saxlamadı:

– Yaxşı, – dedi. – Amma çıx get, bir də ayağın bu həyətə, bu dalana dəyməsin!

Muxtar həyətdən çıxdı, sonra qara "emadin"in səsi gəldi, sonra həmin səs də itdi, Xanım xala şüşəbəndin pəncərəsini bağladı, həyətimizə həmişəki sakitlik çökdü və o sakitlik içində yalnız anamın əlindəki belin səsi, təmizlədiyi qarın xışıltısı eşidilirdi.

Birdən Xanım xala yenə də şüşəbəndin pəncərəsini aralayıb məni səslədi:

– Qalx yuxarı, Ələkbər...

Mən şüşəbəndə qalxdım. Xanım xala şüşəbənddə oturub təkbaşına qutab bişirirdi və tavadakı isti qutablardan birini götürüb üstünə sumaq səpdi, mənə uzatdı:

– Ala, ye, Ələkbər.

Mən ağzım yana-yana o isti qutabı ləzzətlə yedim. Xanım xala soruşdu:

– Necə qutab çıxıb, Ələkbər?

Mən:

– Əntiqədir, – dedim və başa düşdüm ki, Xanım xala bu qutabı kiminçünsə xüsusi bişirir, yoxsa ki, heç vaxt belə sual verməzdi.

Doğrudan da günorta Adilin "polutorka"sı gəlib dalanın qabağında dayandı və Adil maşından düşüb evlərinə qalxdı, Xanım xala büküb

Adil Xanım xalanın verdiyi o bağlamanı mənim yanıma qoymuşdu və mən həmin bağlamanın istisindən, iyindən başa düşdüm ki, qutabdır.

– Hara gedirik? – soruşdum.

– Anam tapşırıb ki, aparaq bu payı verək.

Adil maşını böyük bir binadan bir az aralıda saxladı və yekə dəmir darvazanın yanındakı balaca bir köşkü mənə göstərib dedi:

– Götür bu qutabları, Ələkbər, apar, orda bir erməni milisioner oturub, ver ona. De ki, paydı, anam göndərib onun üçün, uşaqları üçün.

Mən bağlamanı götürüb maşından düşdüm və küçənin qarına batabata həmin köşkə getdim, qapını açdım; içəridə lopa bığlı bir milisioner oturmuşdu və əllərini yanındakı elektrik pilətəsinin üstünə tutub qızınırdı, təəccüblə mənə baxdı. Mən əlimdəki bağlamanı onun qabağındakı kiçik yazı mizinin (Qocanın yazı mizi kimi bir miz idi) üstünə qoydum.

– Ara, bu nədi belə? – soruşdu.

– Paydı, – dedim. – Xanım xala qutab bişirib sizə göndərib. Sizə, bir də uşaqlaruvuza.

Milisioner yenə təəccüblə bir mənə, bir də mizin üstündəki o səliqəli bağlamaya baxdı:

– Ha-a?

Mən:

– Hə, – dedim.

– Xanım xala kimdi, matağını?

– Xanım xaladı də,.. – dedim, çünki bu suala başqa bir cavab tapmadım.

Birdən o lopabığ milisioner:

– Ara, yoxsa o həmin arvaddı? – soruşdu və elə bil ki, bütün sifətinə bir işıq gəldi. – Ara, çox sağ olsun! Ara bu nə zahmatdı belə? Klyanus, bu payı heç kimdən götürməzdim, məzhəb haqqı, amma o arvad ki, var e, eli, o başqa arvaddı!..

Mən:

– Sağ olun, – deyib köşkdən çıxdım və o milisioner də ayağa qalxıb mənim ardımca köşkdən çıxdı.

– Ara, matağını, – qışqırdı. – O arvada məndən çoxlu-çoxlu salam de! İşi düzəldi də onun yaqin?! Ara,. məzhəb haqqı, mən heç o cürəsi kişi görməmişəm!.. Vax!..

Həmin günün axşamı məhəlləyə belə bir xəbər yayıldı ki, Muxtarın vəzifəsini aşağı salıblar, çünki işdən evə piyada gəlmişdi və bu minval ilə Muxtar xeyli müddət evdən işə, işdən evə piyada gedib-gəldi, o qara "emadin" görünmədi və Muxtarın beləcə piyada gedib-gəlməyi bizim hamımıza qəribə görünürdü, amma günlərin bir günündə Muxtarı işə aparmaq üçün yenə də qara bir "emadin" gəldi və bu dəfə də məhəlləyə belə bir xəbər yayıldı ki, guya Muxtar yaxşı işçidir, buna görə də vəzifəsini təzədən böyüdüblər.

XIII

İldə bir dəfə, iki dəfə atam məni də özü ilə səfərə götürürdü, həm gəzirdim, həm də vaqonda atama kömək eləyirdim və mən o səfərləri dünyada hər şeydən artıq xoşlayırdım, vaqonda yol getmək, atamla birlikdə vaqonu təmizləmək, qatar dayananda atamla birlikdə tanınmaz-bilinməz o uzaq stansiyalarda vaqondan düşmək, o uzaq stansiyalarda tanınmaz-bilinməz adamları görmək, hər yerdən bir azuqə alıb o həsir zənbili doldurmaq mənim üçün dünyada xoşbəxtlik, bəxtəvərlik deyilən bir şey var idisə – o idi; amma anam cavan idi, gözəl idi və onu tək qoyub getmək düzgün deyildi və ümumiyyətlə, mən istəmirdim ki, anam evdə tək qalsın, bizimçün darıxsın, amma hər halda ildə bir dəfə-iki dəfə atamla səfərə çıxırdım (o səfərlər nisbətən yaxın səfərlər olurdu: Mahaçqalaya, yaxud Minvoda, lap uzağı Rostova gedib qayıdırdıq) və bir dəfə sübh tezdən həmin səfərlərdən birindən Bakıya qayıtdıq, evə girəndə gördük, ağlamaqdan anamın gözləri qızarıb. Atam:

– Nə olub? – soruşdu və gülümsədi.

Araz çayından bu tərəfdə atamın məndən və anamdan başqa heç kimi yox idi, buna görə də gülümsəyirdi, çünki, hərgah mən də, anam da sağ-salamat gözünün qabağındaydıqsa, deməli qorxulu bir şey yox idi.

Anam yenə hıçqırdı və dedi:

– Yazıq Kübra, Muxtarın arvadı, dünən rəhmətə getdi.

Atam ciddiləşdi və:

– Allah rəhmət eləsin... – dedi.

Kübra xalagilin eyvanındakı saxsı dibçəklər, o saxsı dibçəkdəki güllər birdən-birə mənim gözlərimin qabağına gəldi, o güllər dünən-

dən bəri Kübra xalasız idi, o güllər dünəndən bəri Kübra xalayçın darıxırdı və mənim Kübra xalaya da, o güllərə də çox yazığım gəldi.

Muxtar Kübra xalanı mollasız dəfn elətdirdi, çünki deyirdilər ki, Muxtar dinə düşməndir və ümumiyyətlə, guya Muxtar kimi bir adamın öz ölüsünün üstünə molla çağırmağı adi camaata pis təsir edər.

Düzdür, bizim məhəllədə burasını da deyirdilər ki, Muxtar gizlincə Molla Əsədullaya pul verib Kübra xala üçün yasin oxutdurub və özünü də qorxudub ki, bu barədə heç kimə heç nə deməsin; doğrudan da belə olmuşdu, ya olmamışdı, bilmirəm, amma hər halda belə bir söhbət gəzirdi.

Kübra xala öldü, Muxtar tək qaldı, sonra müharibə başladı və biz bir daha Kübra xalanın bişirdiyi o dadlı, o isti peraşkilərdən yemədik.

XIV

O biri otaqdan royalın səsi gəlir: qızım Baxın prelüdlərini çalır.

Baxın prelüdləri həmişəlikdir, həmişə insanlarla bir yerdə olacaq, o prelüdləri yüz il bundan əvvəl də çalıblar, bu gün onları mənim qızım çalır, yüz il bundan sonra da kimsə onları çalacaq.

Amma Balakərimin tütəkdə çaldığı havaları bir də heç kim eşitməyəcək.

Bax nəhəng idi, amma Balakərim heç kim idi.

Heç kimlərin mahnısı əbədi susur.

Bu çox acıdır...

XV

Axır vaxtlar Gülağa tez-tez mənim yadıma düşür...

Gülağa indiki kimi gözümün qabağındadır: hündürboylu, qartal dimdiyi təki itiburunlu, nazik qarabığlı bir oğlan idi, özü də bığları elə idi ki, elə bil qapqara nazik ipək saplardan düzəltmişdin; bir də ki, Gülağanın cürbəcür kiçik alətləri yaxşı yadımdadır və indi də Bakıda, başqa şəhərlərdə, xaricdə saatsaz emalatxanaları görəndə, saatsaz alətləri görəndə Gülağa o saat yadıma düşür.

Gülağa saatsaz idi və məhəlləmizdə kimin evində saatı xarab olsaydı, Gülağa vaxt tapıb özü gələrdi, kiçik çantasını açıb alətlərini

çıxardardı, qol saatı idisə, sağ gözünə qalın şüşə taxardı və tez də saatı düzəldib tələsik çıxıb gedərdi (əlbəttə, pul götürməzdi).

Gülağa ona görə belə tələsirdi, ona görə vaxtı az olurdu ki, gecə-gündüz arvadı Sona ilə bir yerdə idi. Səhər tezdən evdən bir çıxırdılar, Gülağa öz emalatxanasına gedirdi, Sona işlədiyi tikiş fabrikinə gedirdi, axşam da işdən sonra yenə görüşüb evə bir yerdə gəlirdilər, qapılarını bağlayıb bütün axşamı evlərində olurdular, ya da təzədən evdən çıxıb qol-qola kinoya gedirdilər, hətta məhəllədə deyirdilər ki, guya teatra da gedirlər.

Gülağa ilə Sonaya qədər bizim məhəllənin heç bir ər-arvadı camaatın gözü qabağında bir-birinin qoluna girib yol getməmişdi və ən qəribəsi bu idi ki, məhəllənin camaatı Gülağa ilə Sonanın beləcə qol-qola gəzməklərini qəbul eləmişdi, elə bil bütün məhəllənin qayda-qanununun bu cavan ər-ərvada dəxli yox idi.

Bir dəfə Novruz bayramının ərəfəsi idi, axşam qoşa tutun altında Balakərimin başına yığışmışdıq və Balakərim bir xeyli müddət tütək çalandan sonra birdən-birə dedi:

– Lap qədim vaxtlarda bir Süleyman peyğəmbər var idi də, bilirsiz, demişəm sizə. Bu Süleyman peyğəmbərin bir arvadı var idi, adı Bilqeyis idi, çox da sədaqətli arvad idi. Bir də bir dəvəquşu var idi, bu quşun da adı Bubbu quşu idi. Bu Bubbu quşu ki, var idi, Süleyman peyğəmbər ilə Bilqeyisin sirlərini bir-birlərinə çatdırırdı. Gülağa da, bax, həmin Süleymandı. Sona da Bilqeyisdi. O ki, qaldı Bubbu quşuna, o da elə Gülağa ilə Sonanın özüdü...

Və qoşa tutun altında oturduğumuz həmin axşam mənə məlum oldu ki, Balakərim tütəyi bayaqdan bəri Gülağa ilə Sona üçün çalırmış və ümumiyyətlə, mən başa düşdüm ki, Balakərim hər dəfə gözlənilmədən tütəyi sarı pencəyinin cibindən çıxarıb çalmağa başlayanda, bu musiqi kiməşə həsr olunur, Balakərim kiminsə barəsində fikirləşir.

Müharibə başlayandan sonra, Gülağa cəbhəyə getdi, həlak oldu və Gülağanın ölüm xəbərindən sonra bir müddət keçdi, Sona harasa köçüb getdi və mən bir də Sonanı görmədim.

İndi yadıma düşür ki, müharibədən bir neçə il sonra hardasa, kimdənsə qulağıma çatdı ki, guya Gülağanın qara xəbəri düz deyilmiş, guya qayıdıb gəlib Gülağa, amma bu xəbərin nə dərəcədə düz olduğunu bilmədim...

...Sona tez-tez gözlərimin qabağına gəlir və mən Sona barədə fikirləşirəm...

XVI

Əliabbas kişi hərdən İbadulladan söz düşəndə deyirdi:

– Allah Həmidullaya rəhmət eləsin!.. Yaxşı ki, vaxtında köçdü bu dünyadan, bu zayı bələnçinə görmədi!..

Əliabbas kişinin bu sözləri həmişə mənə təsir edirdi, mənim yadımdan çıxmırdı; təkcə ona görə yox ki, mənim də İbadulladan zəhləm gedirdi, üzünü görmədiyim o rəhmətlik Həmiddulla kişiyə də, Əminə xalaya da yazığım gəlirdi; həm də ona görə ki, bəzən biz dalaşanda, ya nə isə pis bir iş görəndə və analarımızın bizə acığı tutanda deyirdilər: "–Vallah, qorxuram axırda Məmmədbağır olasan!.." "– Olginə, olginə Məmmədbağır, biyabır elə bizi aləmdə!.." "–Ədə, sən də mənimçün Məmmədbağır-zadsan bəyəm?!".

Hərdən anamdan soruşurdum:

– Məmmədbağır kim olub?

Anam tələsik:

– Heç kim. Yat! – deyirdi.

– Bilirəm, Əliabbas kişinin oğlu olub...

Anam hirslənirdi:

– Uşaqsan, uşaq işinlə məşğul ol də!.. Demirəm sənə ki, yatginən?!

Əliabbas kişi bizim dalandan bir az aşağıda, Sarı hamamın yanında yaşayırdı və hamı bilirdi ki, bütün məhəllədə Əliabbas kişinin xətrini ən çox istəyən Xanım xaladı və Xanım xalanın da xətrini Əliabbas kişi çox istəyir.

Əliabbas kişi tək yaşadığı üçün məhəllənin arvadları ona tez-tez pay göndərirdilər, amma Əliabbas kişi məhəllənin bütün arvadlarının, hətta qapıbir qonşuları Ağahüseyn əminin arvadı Səkinə xalanın da xörək bişirib xüsusi səliqə-səhmanla göndərdiyi payı geri qaytarırdı (əlbəttə, Əliabbas kişi yox, bir başqası olsaydı, payı geri qaytardığı üçün, araya pərtlik düşərdi, amma Əliabbas kişidən incimək olmazdı, çünki məhəllənin aqsaqqalı idi), təkcə Xanım xalanın payını qəbul edirdi və bəzən, hətta özü gümüş naxışlı çəliyini taqqıldadataqqıldada bizim həyətə gəlirdi, aşağıdan yuxarı Xanım xalanı çağırırdı, elə ki, Xanım xala şüşəbənddən boylanırdı, deyirdi:

– Xanım, yadıma balqabaq qutabı düşüb. Sabahda, birigündə imkanun olsa, balqabaq qutabı bişir mənimçün...

Bu o demək idi ki, Əliabbas kişi Xanım xalaya çox hörmət eləyir, Xanım xalanı özünə məhrəm bilir və buna görə də ərklə sifarişini verir.

Deyirdilər ki, Əliabbas kişi, Xanım xalanın atası, bir də ki, Səttar Məsum vaxtilə çox bərk dost olublar və o dostlardan indi, ancaq Əliabbas kişi sağ qalmışdı; qocalmışdı, çəliklə yeriyirdi, tək idi, amma hər halda sağ qalmışdı.

Sarı hamamı Əliabbas kişinin atası tikdirmişdi və buna görə də bizim məhəllənin yaşlı adamları, eləcə də bizdən yuxarıdakı məhəllələrin camaatı çox vaxt Sarı hamama Hacı Qasım hamamı deyirdilər, çünki Əliabbas kişinin atasının adı Hacı Qasım imiş. Vaxtilə Sarı hamam Əliabbas kişinin şəxsi əmlakı imiş, Bakıda sovet hakimiyyəti qurulandan sonra isə uzun müddət hamamın müdiri işləmişdi, qocalanda pensiyaya çıxmışdı və yerini qapıbir qonşusu Ağahüseyn əmiyə vermişdi. Əliabbas kişinin arvadı Həlimə xala ölmüşdü və buna görə də məhəllənin arvadları Əliabbas kişiyə qulluq eləmək istəyirdilər, amma bu barədə (və ümumiyyətlə!) kişinin xasiyyəti tünd idi, Xanım xaladan savayı o biri arvadların qulluqları boşa çıxırdı. Əliabbas kişinin yeganə qızı Nisə xala da atasının təkcə Xanım xalaya hörmətini qəbul edirdi, Xanım xalanın göndərdiyi paya da, Xanım xalaya verilən sifarişlərə də pis baxmırdı. Nisə xala Maştağada ərdə idi, əri qəssab idi, yekə uşaqları, nəvələri var idi və Nisə xala da, əri də, uşaqları da nə illah eləyirdilər, Əliabbas kişini kəndə, öz yanlarına apara bilmirdilər (Əliabbas kişi deyirdi: "–Məni öldürmək istəyirsüz? Məlesiz bir gün də yaşaya bilmərəm mən!.") və həftədə bir dəfə, iki dəfə şəhərətrafı qatara – "elektriçkaya" minib gedirdilər, Əliabbas kişiyə baş çəkirdilər, bişir-düşür eləyirdilər, silib-süpürürdülər, yuyub ütüləməkçün pal-paltarını götürüb çıxıb gedirdilər.

Hərdən gecə yağış yağanda, ya bərk giləvar əsəndə, ya xəzri əsəndə və Əliabbas kişi öz evində tək olanda Xanım xala – ya Cəfərə, ya Adilə, ya Əbdulə liyə, ya Qocaya, ya Cəbrayıla, ya da Ağarəhimə deyirdi:

– Get, bir baş çək, görginən kişi neyniyir?..

Bəzən payızın əvvəllərində səhər-səhər külək qopurdu, az qalırdı küçəmizdəki o qoşa tut ağacını dibindən çıxarıb götürüb aparsın və o zaman Cəfər, Adil, Əbdüləli, Cəbrayıl, Ağarəhim işdə olanda, Qoca institutda olanda, yəni evdə heç kim olmayanda, Xanım xala şüşəbənddən qışqırırdı:

– Ələkbər, ay Ələkbər! Get, gör kişi neyniyir... Bir şey-zad lazım döyül ona?..

Mən, külək başımdan aparmasın deyə, bir əlimlə papağımı, bir əlimlə də pencəyimin ətəklərini tutub üzü küləyə gedə-gedə (elə küləklərdə qaçmaq olmurdu) gəlib Əliabbas kişinin gecə-gündüz həmişə cəftəsiz olan qapısını açırdım və elə içəri girə-girə də:

– Xanım xala soruşur ki, necəsən? – deyirdim.

Əliabbas kişi qaşlarını çatırdı və mən bilmirdim ki, acıqlanır, yoxsa zarafat edir, çünki ümumiyyətlə, Əliabbas kişi həm acıqlı idi, həm də zarafatcıl adam idi.

– Balam, İranda adama salam-zad vermirlər?.. – soruşurdu.

O balaca Ələkbər çiyinlərini çəkib:

– Bilmirəm... – deyirdi.

– Niyə, balam? Sən İranlı deyilsən?

– Yox.

– Bəs, haralısan?

– Bizim mələli!

Əliabbas kişi bu dəfə açıq-aşkar gülürdü:

– Onda, ay bizim mələli, əvvəlcə bir Allahın salamını ver, sonra sözünü de də...

Mən təzədən salam verirdim:

– Salam.

– Ay baban rəhmətlik! Allah atova da can sağlığı versin, iranlı olanda nə olar, yaxşı kişidi!.. Əleykümə salam, kişi qırığı! Necəyəm? Hər işim qaydasındadı, bircə bəzmi-Süleymanım[1] çatışmır!.. – Əliabbas kişi yenə gülümsəyirdi.

– Bilirsən də, Ələkbər, sənin adaşın Mirzə Ələkbər çox böyük əhli-qələm olub!.. Deyib ki, qoca müstəğniyi-sərvət də olsa, qolunda bir çocuqca qüvvət olmaz!.. Başa düşdün?

Mən başımı tərpədirdim, yəni ki, hə, başa düşdüm və əlbəttə, əslində bu söhbətlərdən heç nə başa düşmürdüm, sonra Əliabbas kişi deyirdi:

– Allah Mirzə Ələkbərə rəhmət eləsin, bilib ki, nə deyir! Allah Mirzə Səttara da rəhmət eləsin, Sabirin dəlisi idi, şerləri dilindən düşmürdü... Çünki elə özü də Sabir kimi, xalqını sevən adam idi...

[1] *Bəzmi-Süleyman* – dinə görə Süleyman peyğəmbər yer üzündəki bütün canlıların dilini bilirdi və istədiyi vaxt quşları, heyvanları öz məclisinə yığırdı; həmin məclisə belə deyirdilər.

Anam hər dəfə bizim evdə Fətulla Hatəmin qarasına danışanda, Fətulla Hatəmin şəkli çıxmış qəzet parçası ilə mətbəxdəki nöyüt pilətəsini silib təmizləyəndə, həmişə Əliabbas kişi mənim yadıma düşürdü, çünki Əliabbas kişinin dostu Səttar Məsumun aqibəti anamın dediklərini təsdiq edirdi və mənim aləmimdə anamın o sözlərinə, o hərəkətlərinə bəraət qazandırırdı.

Əliabbas kişi çox vaxt əlində kəhrəba təsbeh oynada-oynada, taxta kətilin üstünə salınmış döşəkcədə otururdu, ayaqlarının biri altında olurdu, o birini də qaldırıb qoyurdu kətilin üstünə və Əliabbas kişini beləcə yumaq kimi yığışıb kətilin üstündə oturmuş görəndə mənə elə gəlirdi ki, bu kişi bizim məhəlləmizdə yaşayan adi adamlardan deyil, haradansa başqa bir aləmdən gəlib, bəlkə də Balakərimin danışdığı o sirli aləmdən gəlib, ya da hərdən mənə elə gəlirdi ki, Allahın da görkəmi yəqin Əliabbas kişinin görkəmi kimidir, beləcə saçı, qaşı-ağarmış, ağsaqqallı; amma öskürəndə adi adamlar kimi öskürürdü və öskürə-öskürə də deyirdi:

– Ələkbər, indi ki, gəlmisən, qoy onda sənə bir sirr açım. – Əliabbas kişinin gözləri yenə də gülürdü. – Bilirsən də, indi iyirminci əsrin birinci yarısıdır. Əsr bilirsən nə deməkdir? O bədbəxt oğlu, bədbəxt Balakərim başa salmayıb sizə ki, əsr nədir? Əsr, yəni ki, yüz il deməkdir.

Sən iyirmi birinci əsrdə yaşayacaqsan, onda, indiki mənnən cavan olacaqsan... Bir də gördün ki, Ələkbər, onda Dəccəl[1] zühur elədi, dedi ki, mən Mehdiyəm, onda sən, Ələkbər, bil ki, yalan deyir o köpəyoğlu Dəccəl, Mehdi döyül, Mehdi Sahib-əzzaman sonra zühur eləyəcək[1]?

Yaxşı, Ələkbər? Allah qoysa, iyirmi birinci əsrdə mənim bu sözlərimi yaduva salarsan, onda, bəlkə məni də yaduva saldun.– Əliabbas kişi yenə də gülümsəyirdi və mən bilmirdim ki, zarafat eləyir, yoxsa ki, bütün bu anlaşılmaz sözləri doğrudan deyir. – Yaxşı, Ələkbər?

Mən başımı tərpədirdim, yəni ki, yaxşı, çünki onsuz da Əliabbas kişinin danışıqlarından heç nə başa düşmürdüm, yenə də bir əlimlə papağımı, o biri əlimlə pencəyimin ətəklərini tutub bu dəfə qaça-qaça (çünki qayıdanda külək arxadan əsirdi) həyətimizə gəlirdim: Xanım xala soruşurdu:

– Noldu, Ələkbər? Necədi kişi?

[1] Dinə görə Dəccəl Məhəmməd peyğəmbərin düşməni idi və o da dünyanın axırında zühur eləyib özünü Mehdi adlandıracaq, amma sonra Mehdi Sahibbəzzaman gəlib onu öldürəcək

Mən:

– Yaxşıdır – deyirdim. – Ancaq öskürür.

Axşam Xanım xala ya Cəfərə, ya Adilə, ya Əbdüləliyə, ya Cəbrayıla, ya Ağarəhimə, ən çox da Qocaya (çünki Qoca həkimlik oxuyurdu) bir qırıq keçi piyi verirdi:

– Get, kişinin belinə sürt bir az, – deyirdi.– Qoy soyuqdəyməsini çəkib canından çıxartsın...

Əlbəttə, anam istəmirdi ki, Əliabbas kişi kimi bir adamın Məmmədbağır kimi bir oğlundan danışsın, amma onsuz da mən hər şeyi bilirdim, Balakərim deyirdi ki, bu hadisə iyirminci illərin əvvəllərində, yəni ki, inqilabın ilk illərində baş verib...

...Neçə gündü ki, mən o hadisə barədə fikirləşirəm və bəzən mənə elə gəlir ki, o hadisə mənim gözlərimin qarşısında baş verib...

...Bir payız axşamı qurtarırdı, gecə başlayırdı və yağış da get-gedə bərkiyirdi, suyun şırıltısı küləyin səsinə qarışmışdı və külək hər dəfə yağışı Əliabbas kişigilin küçə pəncərəsinin şüşəsinə çırpanda kişinin ürəyində elə bil nəsə sınırdı, səbəbini bilmədiyi bir nigarançılıq baş qaldırırdı.

Əliabbas kişi, elə bil ki, o payız gecəsinin ömürlük əzabını əvvəldən hiss etmişdi.

Əliabbas kişi mizin üstündə yanan nöyüt lampasının işığında Məmmədbağıra baxırdı və açıq-aşkar görürdü ki, oğlu da narahatdır.

Məmmədbağır küncdəki taxtın üstündə oturub o yeddilik nöyüt lampasının alaqaranlığında haradansa əlinə keçmiş bir qəzet oxuyurdu və tez-tez qalxıb küçə pəncərəsinə yaxınlaşırdı, şüşədən diqqətlə bayıra baxırdı.

O payız günü səhər tezdən Həlimə xalanın başı ağrıyırdı və arvad bütün günü birtəhər yola vermişdi, xörəyi bişirmişdi, evin işini görmüşdü və indi tamam əldən düşmüşdü, dəsmalla başını sarıyıb yerinə girmişdi, mürgü döyə-deyə:

– Niyə yatmursuz? – deyirdi.

Əliabbas kişi soyunub ağ tuman-köynəkdə yerinda oturmuşdu, amma ürəyindəki o nigarançılıq qoymurdu, ya nə idisə, yatmaq istəmirdi.

Məmmədbağırın on səkkiz yaşı var idi, Əliabbas kişinin yeganə oğlu idi (bir də ki, Nisə idi, Maştağada ərdə idi) və Əliabbas kişi o yeddilik lampanın işığında oğlunun təzətər bığlarına baxdı və fikir

Əliabbas kişini çəkib qədimlərə apardı, o vaxtlara ki, özü beləcə bir cavan idi; kişiyə elə gəldi ki, o vaxtdan qırx beş il yox, min il keçib, çünki o cavanlıq elə bir uzaqlıqda qalmışdı ki, bu qırx beş ilin yükü o qədər ağır olmuşdu, o qədər kəşməkeşli olmuşdu ki, adi illərin gününə, adi illərin xatirəsinə sığışmırdı.

Əliabbas kişi soruşdu:

– Niyə yatmırsan?

Məmmədbağır:

– Qəzeti oxuyub gedib yatıram... – dedi.

Əliabbas kişiyə elə gəldi ki, elə bil Məmmədbağır gözlərini ondan gizlətmək istəyir, çalışır ki, atasına tərəf baxmasın, Məmmədbağırın sözlərində də, daha doğrusu, dediyi sözlərin tələffüzündə də nəsə bir sünilik var idi, bunu təkcə həmin gün yox, ümumiyyətlə, axır vaxtlar hərdən hiss edirdi və o yağışlı-küləkli payız gecəsi elə bil birdən-birə Əliabbas kişinin əli qıpqırmızı közə dəydi, kişi diksindi, ürəyində: "Lənət şeytana!" – dedi, sonra qalxıb bir papiros yandırıb çəkmək istədi, amma Həliməyə yazığı gəldi, çünki Həlimə yorulub əldən düşmüşdü, bütün günü başı ağrıyırdı və Əliabbas kişi istəmədi ki, indi də arvad papiros tüstüsündə yatsın.

Əliabbas kişi:

– Kor eləyərsən gözlərivi, – dedi. – Söndür işığı, get yat. – Və Əliabbas kişi burasını da demək istədi ki, çox oxudun, axırda oldun Səttar Məsum, sonrası nə olsun? Yazıq kişini o qədər əsəbiləşdirirlər ki, yazdığı qəzəlləri oxuyanlar da, oxumayanlar da o qədər üstünə düşüb ifşa edirlər ki, biçarə Mirzə, bilməyir ki, başına nə çarə qılsın; amma Əliabbas kişi bu barədə bir söz demədi, əvvəla, ona görə ki, Səttar Məsum olmaq o qədər də asan iş deyildi, ikincisi də ona görə ki, hər halda Səttar Məsum olmaq, Səttar Məsumun qəzəllərini oxumaya-oxumaya o qəzəllərdəki güldə, bülbüldə zərərli bir şey axtarmaqdan qat-qat üstün idi. – Söndür işığı, söndür, yataq. Məmmədbağır:

– İndi, – dedi və ayağa qalxdı.

Bu zaman o yağış şırıltısının, o külək vıyıltısının arasından əvvəlcə maşın səsi eşidildi, sonra o maşının işığı pəncərədən otağa düşdü və Əliabbas kişi təəccüb etdi ki, gecə vaxtı bu nə maşındı belə dayandı qapılarının ağzında (adətən Bakının bu dağlıq küçələrindən fayton gedərdi, maşınlar buralara qalxmazdı)?

Məmmədbağır ayaq üstə quruyub qaldı və oğlunun ayaq üstə beləcə quruyub qalmağını Əliabbas kişi açıq-aşkar hiss etdi; otaq alaqaranlıq idi, amma o alaqaranlıq içində Əliabbas kişi gördü ki, Məmmədbağır ağappaq ağarıb və kişi burasını da hiss etdi ki, oğlunun ürəyi döyünür, az qalır yerindən çıxsın.

Çöl qapısını bərkdən döydülər və Əliabbas kişi, əlbəttə, başa düşdü ki, nəsə bir hadisə baş verib, bu elə-belə qapı döymək deyil, yerindən qalxdı, pencəyi çiyninə saldı və balaca aralığa keçib bayır qapısının yanında dayandı:

– Kimdir?

– Aç! Hökumət adamlarıdır!

Bayırdan gələn bu səsdə elə bir sərtlik və amiranəlik var idi ki, burada daha başqa söhbət ola bilməzdi, qapı açılmalıydı və Əliabbas kişi təzədən otağa keçə-keçə:

– Bu saat, – dedi. – Bir dəqiqə gözlə.

Əliabbas kişi tələsirdi ki, Həlimə tez qalxıb geyinsin, bu yad adamlar arvadı beləcə gecə köynəyində görməsinlər, amma bayırdakı səs daha artıq bir sərtlik və amiranəliklə dedi:

– Tez aç! Bu dəqiqə aç! Sındıracağıq qapını!

Əliabbas kişi Həliməyə:

– Dur geyin! Geyin! – deyirdi və Həlimə xala da yorğan-döşəyin ortasında oturub yuxulu gözlərini döyə-döyə başa düşmürdü ki, nə olub.

Əliabbas kişi Həlimə xalaya:

– Cəld ol, geyin! – deyirdi, amma Həlimə xala geyinməyə macal tapmadı, çünki bu dəfə qapını elə bərk döydülər ki, Əliabbas kişigilin bayır qapısının zəif cəftəsi davam gətirmədi, qırıldı və qapının çırpılıb açılmağı ilə üç nəfər kişinin otağa girməyi bir oldu.

Bu adamlardan birinin əynində uzun şinel var idi, o biri iki nəfər qara meşin gödəkcə geymişdi və qapı aqzında yağışın altında dayandıqlarına görə üçünün də üstündən su tökülürdü; uzun şinelli sərt və qəti addımlarla mizə tərəf yeriyib nöyüt lampasının pilətəsini axıracan yuxarı qaldırdı, otaq işıqlandı, amma lampa his verməyə başladı və hisin iyi o saat otağa doldu, elə bil bu his iyini içəri girən o üç nəfər özü ilə birlikdə gətirmişdi, elə bil bu his iyi o uzun şinelin, o meşin qara gödəkcələrin qoxusu idi.

Həlimə xala gözünü his verən nöyüt lampasından çəkə bilmirdi, çünki od ki, gecə his elədi, bu o demək idi ki, gecə evə şeytan gələcək.

Uzun şinelli, otağın ortasında dayanıb tərpənməyən Məmmədbağıra ötkəm bir nəzər saldı, sonra gəlib Əliabbas kişi ilə üzbəüz dayandı və dedi:

– Deməli, qapını hökumətin üzünə bağlayırsan?!.

– Niyə bağlayıram? Bağlamıram... Mənim hökumətdən gizli bir işim yoxdu...

– Bəs, niyə açmırdın?

– Gecənin yarısıdı, arvad-uşaq var evdə...

– Deməli, arvad-uşağın qayğısına qalırsan, amma hökumət adamlarını yağışın altında saxlayırsan?!

Meşin gödəkcəlilərdən biri dedi:

– Bunun nəfəsi düşmən nəfəsidir!

Uzun şinelli:

– Belələrini az görməmişik! – dedi. – Qızılları gətir!

Əliabbas kişiyə elə gəldi ki, bu uzun şinellinin əmrini düzgün başa düşmədi.

– Nəyi gətirim?

– Qızılları!

– Hansı qızılları?

– Kasıbları, yoxsulları soyub yığdığın qızılları!

Əliabbas kişi:

– Mən hamamçıyam, – dedi. – Soyğunçu deyiləm!

– Deməli soymurdun kasıbları?

– Özüm özümü soymayacaqdım ki! Kasıb elə mən özümüydüm də...

Uzun şinelli barmağını uzadıb az qaldı Əliabbas kişinin gözünün içinə soxsun və:

– Belələri qızılı özbaşına gətirib hökumətə verməz! – dedi. – Belələri qızılı özlərindən də çox istəyirlər. Aclıqdı, camaat yeməyə çörək tapmır, belələri isə qızılın üstündə oturur. Sən verməyəndə özxoşuna, elə bilirsən tapa bilməyəcəyik? Axtarın!

Meşin gödəkcə geymiş həmin iki nəfər otağı axtarmağa başladı.

Nöyüt lampasının pilətəsi elə hey his verirdi və yerində oturub yorğana bürünmüş Həlimə xala hərdən özündən asılı olmayaraq istəyirdi ki, qalxıb lampanın pilətəsini aşağı çəksin, amma o uzun şinelliyə, o meşin gödəkcəli iki nəfərə baxa-baxa yerindən tərpənmirdi.

Məmmədbağır otağın ortasında ayaq üstə dayanmışdı, qımıldanmırdı və Əliabbas kişi oğlunun ağappaq ağarmış sifətinə baxa-baxa

fikirləşirdi ki, bu üç nəfərin beləcə içəri soxulmaqları, evi beləcə ələk-vələk eləmələri oğlunu hirsləndirib, ona görə belə ağappaq ağarıb, bu cür dayanıb qımıldanmır; kişi ehtiyat edirdi ki, Məmmədbağır cavandı, dəliqanlıdı, birdən əlindən xata çıxar, bu adamlara hücum eləyər, vurar onları, söyər onları və ondan sonra da bunların əlindən qurtarmaq olmaz, bədbəxt olar uşaq.

Düzdür, Əliabbas kişi belə fikirləşirdi, amma bütün bu fikirlərlə bərabər, görürdü ki, Məmmədbağırın sifətində, duruşunda nəsə başqa bir şey də var və Əliabbas kişi onun nə olduğunu heç cür başa düşə bilmirdi.

Otaqda, mətbəxdə, arakəsmədə yer qalmadı, künc-bucaq qalmadı ki, o iki nəfər oranı yoxlamasın və bu adamlar hər dəfə dolabın gözündə, ya qazanın içində pal-paltardan, döşək ağından, süfrədən, ya soğandan, sarımsaqdan, noxuddan başqa bir şey tapmadıqda, Uzun şinelli get-gedə artan aşkar bir acıqla tez-tez Məmmədbağıra baxırdı.

Əliabbas kişi Uzun şinellinin Məmmədbağıra atdığı o acıqlı baxışları görürdü və o baxışları heç cür yoza bilmirdi, o baxışların mənasını başa düşə bilmirdi, amma o baxışlarda xoşa gəlməyən, adamın ətini ürpəşdirən nəsə hiss edirdi.

Lampanın lüləyinin yuxarı hissəsi hisdən qaralırdı və buna görə otağın da divarlarının yuxarı tərəfinə, elə bil ki, kölgə düşürdü.

Külək yenə də hərdən yağışı otağın küçə pəncərəsinin şüşəsinə çırpırdı, amma Əliabbas kişi daha buna fikir vermirdi və Məmmədbağır da daha əvvəlki tək küçəyə tərəf baxmırdı.

Meşin gödəkcəlilərdən biri mətbəxdə əlini az qala qoltuğacan un kisəsinə soxub unun içində qızıl axtarırdı və bu zaman burnuna un dolduğu üçün tez-tez asqırmağa başladı. Bu adam asqırdıqca Uzun şinelli, elə bil, daha artıq əsəbiləşdi, qəzəbli gözləri yerində oynamağa başladı:

– Qızıl haradadı? – qışqırdı və qəribə idi, Əliabbas kişiyə elə gəldi ki, Uzun şinelli onun üstünə, yəni Əliabbas kişinin üstünə yox, Məmmədbağırın üstünə qışqırır.

Meşin gödəkcəlilərin ikisi də əliboş gəlib Uzun şinellinin yanında dayandı və Uzun şinelli neçənci dəfə otağı diqqətlə nəzərdən keçirib Həlimə xalaya baxdı:

– Bunun yorğan-döşəyini axtarın! – dedi.

Məmmədbağır qıpqırmızı qızardı.

Əliabbas kişi:

– Azərbaycanlı döyülsən sən? – dedi.

Uzun şinelli:

– Sənin kimi azərbaycanlı olub, ölkənin bu ac vaxtında yetim-yesirdən qızıl gizlətməkdənsə, qaraçı olmaq yaxşıdır! – dedi.

Həlimə xala bürünüb oturduğu yorğanı daha bərk-bərk sinəsinə sıxdı.

Əliabbas kişinin beynində bir fikir o dəm nəbz kimi vururdu: Məmmədbağırdan muğayat ol! Məmmədbağırdan muğayat ol! Məmmədbağırdan muğayat ol! Amma birdən-birə hər şey yaddan çıxdı, Əliabbas kişinin bütün varlığı belə bir rüsvayçılığa dözmədi, bu yad kişilərin qabağında arvadını gecə köynəyində ayağıyalın, başıaçıq görməkdənsə, ölmək yüz dəfə artıq idi və Əliabbas kişi başa düşdü ki, daha hər şey bitdi, qurtardı, yaşının bu çağında indicə bu Uzun şinellinin üstünə atılacaqdı, heç olmasa, ürəyini boşaldacaqdır.

Həlimə xala yorğanı bərk-bərk sinəsinə sıxıb döşəyin üstündə oturmuşdu, gözləri Əliabbas kişidəydi və Həlimə xala o saat hər şeyi başa düşdü, otuz il bir yastığa baş qoyduqları Əliabbas kişinin gözlərində hər şeyi oxudu, bir gözqırpımında ayağa qalxdı, büründüyü yorğanla bərabər, yerindən bir addım kənara çəkildi, Əliabbas kişiyə macal vermədi, tələsik dedi:

– Gəlin, gəlin, başıvıza dönüm, gəlin axtarun! Nolar? Hərə öz işini görür də!.. Gəlin, gəlin, axtarun... Ancaq ciyəri yanmışlar kimdisə, aldadıblar sizi!..

Meşin gödəkcəlilərdən biri yastığı əlləşdirib bir tərəfə atdı, döşəyi əlləşdirib o biri tərəfə itələdi, sonra Həlimə xalanın büründüyü yorğana baxdı.

Həlimə xala dedi:

– Ay qərdeş, vallah bu yorğanda da heç nə yoxdu!..

Uzun şinelli:

– Biz Allaha-zada inanmırıq, arvad! – dedi.

– Nəyə inanırsınız, deyin, ona and içim. Bu yorğanda qızıl yoxdu, ay qərdeş!..

Uzun şinelli Məmmədbağıra baxdı, Məmmədbağır gözlərini gizlətdi, Uzun şinelli qışqırdı:

– Hani bəs, qızıllar?

Sükut çökdü, elə bil, daha yağış da kəsdi, külək də dayandı, sonra Məmmədbağır – elə bil, ayaqları otağın taxta döşəməsinə yapışmışdı,

– güclə ayaqlarını darta-darta otağın küncündə divara söykənmiş taxta yaxınlaşdı, əyilib taxtı yerindən tərpətdi və gücənə-gücənə kənara çəkdi, taxtın altında, taxta döşəmədə ağzı kiçik qıfıllı balaca bir qapı var idi.

Uzun şinelli taxta döşəmədəki o balaca gizli qapıya baxdı, sonra Əliabbas kişiyə baxdı və onun gözlərində həmin dəm elə bir nifrət var idi ki, elə bil insana, yəni Əliabbas kişiyə yox, dünyanın ən murdar bir məxluquna baxır.

Məmmədbağır o balaca qapının yanından kənara çəkildi.

Əliabbas kişi heç nə demirdi.

Ayaq üstə dayanmış Həlimə xala büründüyü o yorğanın içində üşüdü, titrəməyə başladı.

Külək yenə də hərdən yağışı zərblə küçə pəncərəsinin şüşəsinə çırpırdı.

Nöyüt lampasının hisi lampanın şüşəsini tamam qapqara eləmişdi və otağın divarlarının yuxarısına da qaranlıq çökmüşdü.

Uzun şinelli dedi:

– Sındırın!

Uzun şinelli az qalırdı Əliabbas kişinin üzünə tüpürsün.

Meşin gödəkcəlilərdən biri tələsik mətbəxdən gətirdiyi mis kəfkirin qulpu ilə döşəmədəki o gizli balaca qapının kiçik qıfılını sındırdı və qapını qaldırıb açdı. Döşəmənin altında balaca bir xəlvətxana var idi və Uzun şinelli his verən nöyüt lampasını mizin üstündən qapıb sürətlə xəlvətxananın yanına gəldi: lampanın işığı bu sürətin yelindən titrədi, otağın divarlarının yuxarısındakı o qaranlıq kölgə də titrədi, sonra Uzun şinelli əlindəki nöyüt lampasını irəli tutub xəlvətxananı işıqlandırdı: içəridə üzünə açıq qəhvəyi rəngli dəri çəkilmiş dördkünc, uzunsov bir mücrü var idi və həmin mücrünün də ağzı lap kiçicik bir qıfılla bağlanmışdı. Meşin gödəkcə geymiş kişi əlində tutduğu kəfkirin qulpunu bu cıqqılı qıfıla da keçirib qanırmaq istədi, amma qıfıl cox kiçik və zərif olduğu üçün, kəfkirin qulpu onun dəmirinə keçmədi və meşin gödəkcəli adam həmin qıfılı elə əli ilə dartıb qopartdı.

Mücrünün içində ovcuna sığan bir Quran var idi, başqa heç nə yox idi.

Meşin gödəkcəli adam mücrünü Uzun şinelliyə uzatdı, amma Uzun şinelli əlinin hərəkəti ilə mücrünü kənar elədi, sürətlə otağın ortasına keçib nöyüt lampasını hirslə mizin üstünə qoydu və Məmmədbağıra tərs bir nəzər saldı.

Məmmədbağır da başını qaldırıb Uzun şinelliyə baxdı.

Əliabbas kişiyə elə gəldi ki, Məmmədbağır gözü ilə yalvarır, imdad istəyir.

Uzun şinelli Məmmədbağıra yaxınlaşmaq istədi, amma iki addım atıb dayandı, əlini qaldırıb uzun barmağı ilə Məmmədbağırı hədələyə-hədələyə:

– Sənin verdiyin siqnalların hamısı belə zay çıxır! – dedi. – Bizi xalqın yanında biyabır eləyirsən? Yaşadığın evdən də xəbərin yoxdur! Hanı bəs, deyirdin atam qızıl gizlədib?

Məmmədbağır udquna-udquna xəlvətxanaya tərəf işarə elədi:

– Elə bilirdim orada qızıldı...

Uzun şinelli ikrah dolu nəzərlərlə Məmmədbağıra baxıb:

– Axmaq oğlu, axmaq! – dedi, sonra çönüb sürətlə Əliabbas kişigilin evindən çıxmaq istədi, amma bayır qapısının ağzında ayaq saxlayıb Əliabbas kişiyə baxdı: – Bağışla, vətəndaş! – dedi. – Zəmanə pis zəmanədir!.. Vəziyyət ağırdır... Nə isə, bağışla. – Və çıxdı.

Meşin gödəkcə geymiş o biri iki nəfər də Uzun şinellinin ardınca evdən çıxdı.

Sonra küçədəki maşın işə düşdü, işığı küçə pəncərəsini işıqlandırdı, sonra maşın da, elə bil, o Uzun şinelli kimi, hirslə yerindən götürüldü və get-gedə səsi uzaqlaşdı, eşidilməz oldu.

Yağış şırhaşır yağırdı.

Bayır qapısının cəftəsi vurulmadığı üçün, cırıltıyla açılırdı, sonra külək qapını təzədən öz yerinə çırpırdı.

Nöyüt lampası mizin üstündə elə-eləcə his verə-verə yanırdı və otağın divarlarının yuxarısına çökmüş o qaranlıq da yavaş-yavaş artırdı.

Otağın içindəki bu üç nəfər – Əliabbas kişi, Həlimə xala, Məmmədbağır, elə bil, daşa dönmüşdülər, tərpənmirdilər, qımıldanmırdılar.

Birdən Əliabbas kişi irəli yeriyib küçə pəncərəsini tavbatav açdı. külək yağışı kişinin sifətinə çırpdı, bayır qapısı da açıq olduğu üçün, otağın içi yel çəkdi, nöyüt lamlasının şüşəsi yerindən qopub döşəmənin üstünə dəydi və çilik-çilik oldu.

Əliabbas kişi iki əlini də pəncərədən çölə uzadıb göyə qaldırdı, yağış birca anın içində kişinin qollarından süzüldü, bütün bədənini yaş elədi, bir buz soyuqluğu kişinin bütün bədənini bürüdü, amma Əliabbas kişi bu buz soyuğunu hiss eləmədi, su tökülən əllərini Göyə sarı uzada-uzada həyəcandan boğulan səsi ilə:

– Ya Allah! – dedi. – Ya Allah! Əyər varsansa, əyər görürsənsə, əyər eşidirsənsə, bunu, – Əliabbas kişi suyu süzülən əlinin biri ilə otaqda dayanmış Məmmədbağırı göstərdi, – bunu cəzasına yetir! Yetir cəzasına!.. Əyər yoxsansa da, heç nə eşitmirsən, heç nə görmürsənsə də, qoy bu cəzasına yetsin!..

Büründüyü yorğan bayaqdan sürüşüb çiyinlərindən yerə düşmüş və indi təkcə gecə köynəyində başı, sinəsi açıq, ayağı yalın Həlimə xala dəli kimi:

– Əliabbas! – qışqırdı. – Əliabbas!..

Əliabbas kişi arvadını eşitmədi, Göyə sarı uzanmış yaş əlləri ilə o gecənin qaranlığını yara-yara:

– Yetsin cəzasına! Yetsin!.. – dedi...

...O hadisədən sonra Məmmədbağır bir də heç vaxt evlərində qalmadı, qısa ömründə bir də heç vaxt Əliabbas kişinin gözlərinə görünmədi, həmin yağışlı payız gecəsi baş götürüb evdən gedən oldu, xəbər gəldi ki, nəşəxorlara qoşulub, qumarbazlara qoşulub, pul uduzur, vermir, qaçır gizlənir və günlərin bir günündə, min doqquz yüz iyirmi üçüncü ilin bir qış səhəri məhəllənin adamları o qoşa tut ağacının dibində Məmmədbağırın meyitini tapdılar.

Qoşulduğu dostları, yoldaşları, həmin qumarbazlar, nəşəxorlar pul uduzub qaçmış Məmmədbağırı haradasa tapıb bıçaqlamışdılar və Məmmədbağır güclə özünü məhəlləyə yetirmişdi, o qoşa tut ağacının dibində düşüb qalmışdı.

Əlbəttə, həmin qış səhəri xəbər o saat bütün məhəlləyə yayılmışdı və məhəllənin adamları küçəyə çıxmışdı. Məmmədbağırın meyitini dövrəyə almışdılar.

Məmmədbağırın cavan və solğun sifətində ağrıdan, əzabdan əlamət yox idi, əksinə, elə bil ki, sifətinə bir xoşbəxtlik kölgəsi qonmuşdu.

Birdən hamı Sarı hamama tərəf baxdı.

Əliabbas kişi evdən çıxıb asta addımlarla camaata tərəf gəlirdi.

Məhəllənin adamları bir-birlərindən aralanıb yol verdi və Əliabbas kişi həmin asta addımlarla camaatın arasından keçib qoşa tut ağacının qabağında dayandı, arxası üstə yerə sərilmiş oğlunun

köynəyini qıpqırmızı qızartmışdı, boynunda, çənəsinin altında laxtalanmışdı, əlləri, üzünün bir tərəfi palçığa batmışdı.

Əliabbas kişi bir müddət oğlunun meytinə baxdı və titrəyən əllərini birdən-birə göyə qaldırdı:

– İlahi! – dedi. – Şükür kərəminə! – dedi. – Şükür kərəminə!.. – Sonra geri çevrilib eyni asta addımlarla camaatın arasından keçib evinə getdi və həmin qış günü bir də evdən çıxmadı.

Məhəllənin ağsaqqalı Səttar Məsum bir müddət tərəddüd etdi, sonra Əliabbasın yanına getdi:

– Qəddar olma... – dedi və Əliabbas kişi bütün ömründə birinci dəfə dostuna nəinki cavab vermədi, Səttar Məsumun heç üzünə də baxmadı.

Məmmədbağırı məhəllənin adamları basdırdı.

Əliabbas kişi oğlunun dəfn mərasimində iştirak eləmədi, harada basdırıldığından da xəbəri olmadı.

Məmmədbağırın dəfnində hamı susmuşdu və için-için ağlayan, özləri deyib özləri eşidən təkcə Həlimə xala ilə Maştağadan gəlmiş Nisə idi.

Məhəllənin arvadları gizlin-gizlin Həlimə xalanın dərdinə ağlayırdı.

Əliabbas kişi oğlu üçün təziyə saxlamadı və heç kimdən başsağlığı qəbul eləmədi.

XVII

Mən heç cürə yadıma sala bilmirəm ki, müharibənin başlamağını birinci dəfə nə vaxt eşitdim? Kimdən eşitdim? Bunu eşidəndə mən nə edirdim? Nə ilə məşğul idim? Bəzən mənə elə gəlir ki, bu xəbəri birinci dəfə anamdan eşitdim, bəzən yadıma düşür ki, yox, deyəsən müharibənin başlamağını birinci dəfə Balakərimdən eşitdim, ya da, deyəsən bizim dalanımızın lap dibindəki o xartutun altında çiləyirdik və bu xəbəri də birinci Cəfərqulu qaça-qaça bizə gətirdi. Bəzən də mənə elə gəlir ki, müharibənin başlamağını ilk dəfə məhəllədən eşitdim, yəni bu xəbəri mənə bomboş küçəmiz pıçıldadı, bomboş dalanımız pıçıldadı, gözgörəsi yetimləşmiş o Sarı hamam pıçıldadı... amma küçəmiz müharibə başlanandan sonra boşalmışdı, kimsəsizləşmişdi, dalanımız da müharibə başlayandan sonra boşalmışdı, kim-

mışdı. Bəzən mən gözümü yumuram və o bomboş, kimsəsiz küçədə, səkinin üstündə tənha taxta kətil görürəm, gün çıxıb, o taxta kətilin kölgəsi səkinin üstünə düşüb və o bomboş, kimsəsiz küçədə yavaş-yavaş, gözlə görünmədən hərəkət eləyən yalnız o taxta kətilin səkinin

üstünə düşmüş kölgəsidir: gün əyilir, kölgə də taxta kətilin başına fırlanır, o dörd nazik kətil ayağının kölgəsi ortada birdən tamam əriyir, yox olur, çünki gündüz kətilin üstünə düşür, sonra yenə o kölgə yavaş-yavaş səkinin üstündə uzanır, sonra isə axşam düşür, gün çəkilir, kölgə itir və mənə elə gəlir ki, o taxta kətil Əliabbas kişinin kətilidir, həmişə gətirib Sarı hamamın yanında səkiyə qoyardılar, üstünə də balaca döşəkcə atardılar. Əliabbas kişi də gəlib o kətildə oturardı, çənəsini iki əli ilə də tutduğu gümüş naxışlı çəliyinin dəstəyinə söykəyərdi və gəlib-gedənə baxardı, salam alardı, söz soruşardı, küsənləri, inciyənləri çağırıb barışdırardı, dalaşanların başına ağıl qoyardı (təkcə İbadulladan başqa, çünki Əliabbas kişi içki içib keflənmiş adamla söhbət eləməzdi). Müharibə başlayandan bir az sonra, elə ki, bizim məhəlləmizə bir yetimlik çökdü, elə ki, Sarı hamamın rəngi bir qəmginlik rəngi kimi, elə bil, bizim bütün məhəlləyə yayıldı, onda Nisə xala əri ilə və oğlanlarından da biri ilə gəlib bütün ömründə birinci dəfə atasının üzünə ağ oldu, atasının sözünə, müqavimətinə, məhəllədən ayrılmaq istəmədiyinə baxmadı və Əliabbas kişini özü ilə Maştağaya apardı və biz daha heç vaxt Əliabbas kişini görmədik, Əliabbas kişinin bizim dalandan aşağıya, Sarı hamamın yanındakı evinin küçə qapısına bundan sonra həmişə yekə və qara bir qıfıl asıldı və mənim bütün daxilimdə o yekə və qara qıfıla bir kin-küdurət, bir nifrət var idi, müharibə qurtarandan çox-çox illər sonra da, hətta indinin özündə də mən müharibə barədə fikirləşəndə o yekə və qara qıfıl gəlib mənim gözlərimin qarşısında dayanır.

XVIII

Bir dəfə biz bunun şahidi olduq ki, Balakərimin həmişə yol çəkən qara gözlərinə necə dərin bir kədər çökdü...

Həmin axşam Balakərim qoşa tutun altında oturub Ağ Dəvədən danışanda və biz də həmişəki kimi, başına yığışıb Balakərimə qulaq asanda, bir də gördük ki, İbadulla da bizim yanımızdadır və o da diqqətlə Balakərimin dediklərinə qulaq asır.

Balakərim danışırdı və danışdıqca da, həmişəki kimi, özü də buralardan uzaqlara gedirdi, o qədim vaxtlarda, o Ağ Dəvənin yanında olurdu və indi də orada idi.

Biz də, həmişəki kimi, Balakərimlə birlikdə Ağ Dəvənin yanında, yaxşı başa düşmədiyimiz o sehrli aləmdə idik.

Birdən İbadulla Balakərimin söhbətini yarımçıq kəsdi:

– Alə, Balakərim, bu nə nağıldı danışırsan, alə, bu uşaqlara? Sən dəvə ətinin qutabından danış ey, dəvə ətinin qutabından! – Sonra İbadulla ağzı sulana-sulana dəvə ətinin qutabını təsvir etdi: – Tavada cız-cıznan qızara o üz-bu üz, üstünə də sumaq töküb ağzın yana-yana yeyəsən!.. Yanında da yüz qram ceyran südü, sonra bir dənə də yüz!..

Balakərim söhbətini kəsib həmişə yol çəkən o qara gözlərini İbadullaya zillədi və bizim gözlərimizin qabağında, tamam açıq-aşkar şəkildə Balakərimin gözlərini dərin bir kədər bürüdü. Əlbəttə, o balaca Ələkbər o vaxt bəlkə də heç "kədər" sözünün nə olduğunu bilmirdi, amma burası tamam şəksiz idi ki, İbadullanın sözləri, İbadullanın ağzı sulana-sulana elədiyi təsvir Balakərimə çox pis təsir etdi.

Sonra Balakərim o kədərli gözlərini İbadulladan çəkib bir-bir bizə baxdı və biz bu gözlərdə bir ağrı hiss etdik və bizə elə gəldi ki, indicə Ağ Dəvənin yox, Balakərimin öz ətini kəsib tavada qızartdılar, qutab bişirdilər; Balakərim bir-bir bizə baxırdı və elə bil ki, o baxışlarla bizə yalvarırdı, yalvarırdı ki, İbadullanın sözlərini eşitməyin, indicə dediklərini yadınızdan çıxarın.

Həmin gecə yuxuya getməzdən əvvəl mən özümə söz verdim ki, bir də heç vaxt ət bişmişi yeməyəcəm.

Müharibə başlayandan sonra bizdə onsuz da ət bişmişi olmurdu.

Həmin gündən təxminən üç ay sonra, Sarı hamamın yanında, Əliabbas kişinin o qapısı qıfıllı evinin qonşuluğunda yaşayan Ağahüseyn əmi ilə Səfurə xalagil nəzir qoyun kəsmişdilər. Ağahüseyn əmi ilə Səfurə xalanın böyük oğlu Eynulla müharibədə yaralanıb gəlmişdi, Bakıda qospitalda yatmışdı, indi də sağ-salamat evlərində idi. Səfurə xala bütün qızıl bər-bəzəyini satmışdı. Ağahüseyn əmi də o pula oğlunun müharibə yarasından beləcə sağ-salamat qurtarmağı münasibətilə qoyun almışdı, heyvanı qəssab Dadaşbalaya kəsdirmişdi və ətdən yarım kilo-yarım kilo qəzetə büküb məhəllədəki bütün evlərə pay göndərmişdi.

Bizə də pay gəlmişdi və anam həmin paydan bozbaş bişirmişdi.

Mən özümə verdiyim həmin sözü yadımdan çıxartdım və bozbaşı yedim...

...Bir müddətdən sonra Eynulla təzədən müharibəyə getdi və qayıtmadı...

XIX

Bir gün – onda hələ müharibənin ilk ayları idi – məhəlləyə belə bir xəbər yayıldı ki, Ziba xalanın doğrudan da, Qavril adında oğlu varımış, Qavril doğrudan da, Amerikada yaşayırmış və həmin Qavril indi Ziba xalanı özü ilə Amerikaya aparmaqdan ötrü bizim məhəlləyə gəlib.

Bu görünməmiş hadisə bütün məhəlləmizi mat qoymuşdu; sonra məhəlləyə belə bir xəbər də yayıldı ki, Ziba xalanın oğlu Qavril faşistlərin məşhur düşməni imiş; Amerika camaatını faşistlərin əleyhinə qaldırmış, qəzetdə-jurnalda yazıb Amerika camaatını ayıldırmış ki, faşistlərlə vuruşmaq lazımdır və buna görə də Qavrilə icazə veriblər ki, Ziba xalanı özü ilə aparsın, yəni icazə veriblər ki, ana-bala bir yerdə olsun.

Ziba xalanın evi bizim məhəllənin aşağı başında, nöyüt dükanının yanında idi və həmin yerdən keçib gedəndə o nöyüt iyindən başqa qovrulmuş günəbaxan tumunun iyi də adamı vururdu, çünki Ziba xala yay-qış həmişə tum qovurardı, göy torbasını həmin tumla doldurub küçə qapısının ağzında, taxta kətilin üstündə oturardı, torbanın içindəki qalın şüşə stəkanı doldurub tum satardı. Ziba xalanın tum satdığı o stəkan o qədər çatlayıb sınmışdı və çatlaq yerləri, sınıqlar qəzet qırıqları ilə, cürbəcür rəngli kağız parçaları ilə o qədər yapışdırılmışdı ki, əslində şüşə heç görünmürdü və stəkanın içinin tutumu da azalıb bircə ovuc olmuşdu.

Ziba xala yəhudi idi, haçansa Qubanın yəhudi kəndindən köçüb bizim məhəlləyə gəlmişdi, əri bizim məhəllədə ölmüşdü və o vaxtdan da tək yaşayırdı, amma hamı deyirdi ki, guya Ziba xalanın Qavril adında bir oğlu var və həmin Qavril Amerikada yaşayır. Düzdür, bunu hamı deyirdi, amma əslində, heç kim üreyinin dərinliyində bu sözə inanmırdı, çünki Amerika çox uzaq bir məmləkət idi, çünki Amerika haqqında cürbəcür möcüzələr danışırdılar, deyirdilər orda elə binalar var ki, guya əlli mərtəbədən də hündürdür, deyirdilər Amerikada elə maşınlar var ki, saatda 130 kilometr gedir və deyirdilər ki, oranın cavanları əllərinə avtomat alıb, üzlərinə göz yeri deşik qara parça bağlayıb bank yarırlar və burasını da deyirdilər ki, guya Amerikada tısbağa yumurtasını qurudub "poroşok" eləyirlər, sonra bişirib yeyirlər (sonradan həmin tısbağa yumurtasının "poroşok"u Bakıya da gəlib

çıxdı və biz bildik ki, bu, həqiqət imiş); Ziba xala isə çox adi bir adam idi, Ziba xalanı gündə görürdük, balaca və uzunsov taxta kətilinin üstündə oturub tum satırdı:

– Peyğəmbər haqqı, yaxşı tumdu!.. – deyirdi.

Bir dəfə Əliabbas kişi o gümüş naxışlı çəliyini taqqıldadataqqıldada küçədən ötəndə Ziba xalanın bu sözlərini eşitdi və güləgülə arvada sataşmaq istədi:

– Sən hansı peyğəmbəri deyirsən, ay Ziba?

Ziba xala dedi:

– Əliabbas qardaş, Allah səni həmişə səlamət eləsin, əyər peyğəmbərdirsə, deməli, yaxşı olub. Yaxşı elə hamıyçun yaxşıdı, sən müsəlmana da, xaçpərəstə də, mənə də...

Əliabbas kişi başını buladı, yəni ki, Ziba xala ağıllı danışır və dedi:

– Vallah, düz sözə nə deyəsən?..

Əlbəttə, Ziba xalanın ən birinci müştərisi Şövkət idi və evdə, dükanda, hamamda məhəlləmizin arvadları Şövkətin qarasına danışanda Məşədixanım xala hərdən zarafatla deyirdi:

– Sən Allah, çox deməyin o Şövkətdən... Başına bir iş-zad gələr, Ziba xala ac qalar...

Bizim məhəllədə hamı Ziba xalanın xətrini istəyirdi, çünki xeyirəşərə yarayan arvad idi, mehriban, dilişirin idi, heç kimlə işi yox idi və elə ki, müharibə başladı, daha tum tapılmadı və Ziba xala da daha o uzunsov taxta kətilin üstündə oturub: "– Peyğəmbər haqqı, yaxşı tumdu!.." – deyə tum satmadı, məhəlləmizin evlərində ona-buna kömək eləməyə başladı, xüsusən, müharibədən qara xəbərləri tez-tez gəlməyə başlayan cavanların qara məclislərində qab-qacaq yudu, stəkan-nəlbəki quruladı, bircə qarnı var idi, yarıac, yarıtox dolandı.

Daha neçə ay idi müharibə başlamışdı, biz hamımız öyrənmişdik ki, oğullar məhəlləmizdən gedirlər, hərəsinin üçünc əsgər məktubu dünyanın bir yerindən gəlir və buna görə də indi, əksinə, kiminsə məhəlləmizə gəlməyi, özü də bu adamın Amerikadan gəlməyi, faşistlərin məşhur düşməni olmağı, özü də Amerikadan gələn bu adamın bizim hamımızın öyrəşdiyimiz, gündə gördüyümüz Ziba xalanın doğmaca oğlu olmağı bizə elə təsir etmişdi ki, bütün uşaqlar yığışıb gedib dayanmışdıq Ziba xalanın evi ilə üzbəüz səkidə və gözlərimizi dikmişdik Ziba xalanın ağ çit pərdə asılmış küçə pəncərəsinə, Qavrili görmək istəyirdik, çünki deyirdilər ki, əynində qəribə-qəribə paltarlar

var, başına da guya silindir qoyub. Qavril isə evdən çölə çıxmırdı və biz elə-eləcə dayanıb Ziba xalanın o ağ çitpərdəli pəncərəsinə baxırdıq.

Arvadlar deyirdi ki, Qavril gəlib ki, Ziba xalanı özü ilə Amerikaya aparsın, deyirdilər ki, Amerikada Qavrilin on otağı var, özü də iyirmi birinci mərtəbədə.

Səfurə xala deyirdi:

– Vay, yazıq Ziba, o mərtəbələri necə qalxacaq elə?

Firuzə xala deyirdi:

– Ağəz, pilləkənlə qalxmırlar ki, maşın qaldırır adamları yuxarı də...

Nisə xala deyirdi:

– A-a-a... Yazıq Ziba o maşına necə minəcək hər gün, ağəz?

Müharibə başlanandan sonra birinci dəfə idi ki, məhəllənin arvadları kimincünsə sevinirdi, çünki müharibə başlanandan sonra birinci dəfə idi ki, məhəlləmizə bəd xəbər yox, Ziba xala üçün şad xəbər gəlirdi (yəni oğlu Qavril gəlib çıxmışdı).

Firuzə xala deyirdi:

– Yazıq Ziba çox əziyyət çəkib. Səhərdən axşamacan əyilib tum satmaqdan beli donqarıb. Qoy getsin oğluynan, mağıl heç olmasa, ömrünün axırında oğul-uşaq görsün...

Məşədixanım xala deyirdi:

– Bu ki, belə yaxçı oğul idi, nöş indiyəcən görünmürdü? Nöş demirdi ki, balam, mənim də axı, anam var, hə? Ağəz, vallah, mən ölü, siz diri görərsüz, bunu arvadı göndərib bura, deyib ki, get, əvu götür gəl, uşaqlara baxsın!..

Anam deyirdi:

– Sizi bilmirəm, vallah, mən darıxacayam Ziba xalayçün.

Günorta vaxtı arvadların bizdə yığışıb oturduğu zaman anamın dediyi bu sözlər mənə də çox təsir etdi, çünki birdən-birə mənim özüm üçün aydın oldu ki, heç vaxt haqqında fikirləşmədiyim, gündə gördüyüm və bizim məhəllənin hansı bir binası, hansı bir qapısı, pəncərəsi kimi alışdığım, adət etdiyim Ziba xalanı çox istəyirəm və Ziba xala çıxıb gedəndən sonra mən də anam kimi, onunçun darıxacağam.

Bayaqdan bəri elə-eləcə küçədə dayanıb Ziba xalanın ağ çitpərdəli pəncərəsinə baxırdıq. Qavril isə görünmək bilmirdi və biz anam da həmin arvadların arasında idi. Düzdür, bayaqdan bəri mənimlə birlikdə səkidə dayanıb Ziba xalanın ağpərdəli pəncərəsinə baxan uşaqlar çöldə qalacaqdı, Qavrili görə bilməyəcəkdi və mənim onları beləcə burada qoymağım yaxşı deyildi, amma Amerikadan gələn Qavrili görmək istəyim o qədər güclü idi ki, mən uşaqlardan ayrılıb anamın yanına qaçdım və anamın əlindən tutub arvadlarla birlikdə uşaqların açıq və həsəd dolu baxışları altında Ziba xalagilə girdim.

Ziba xala elə bil ki, bütün ömrü boyu oğlunun yox, Xanım xalagilin yolunu gözləyirmiş, özünü arvadların üstünə atdı, bir-bir hamısının üzündən öpdü, mənim də üzümdən öpdü:

– Nə yaxşı gəldin, ay Ələkbər!.. Allah həmişə səni səlamət eləsin!.. – Sonra da Ziba xala birdən-birə içini çəkə-çəkə ağlamağa başladı. – Peyğəmbər haqqı, heç hara getməzdim!.. Sizi qoyub hara gedirdim? Kimdi məni adam yerinə qoyan sizdən başqa? Amma nəvələrim var də o xarabada, görmək istəyirəm onları, nə edim, bəs haçan görəcəyəm? Nəvələrim də deyir, ingiliscə danışırlar, bəs mən onları necə başa düşəcəyəm? Ay arvadlar, mən sizi qoyub hara gedəcəyəm, başıma haranın daşını salacağam? Allah sizi həmişə səlamət eləsin, o xarabada mən nə edəcəyəm?..

Anam da, Səfurə xala da, Məşədixanım xala da kövrəlib ağlayırdı, təkcə Xanım xala ağlamırdı, gözlərini diqqətlə Qavrilə zilləmişdi, elə bil, Xanım xalanın o gözləri Qavrili Ziba xalanın o balaca otağında sınaqdan keçirirdi, istəyirdi bilən ki, bizim bu bədbəxt Ziba xala bu adamın yanında bir xoş gün görəcək, yoxsa yox?

Qavril mizin arxasında oturmuşdu, biz içəri girəndə ayağa qalxdı, arvadlar öpüşüb-ağlaşdığı bütün müddət ərzində ayaq üstündə dayandı, sonra yenə mizin arxasında oturdu və doğrusu, mən Qavrili görəndə bir balaca müteəssir oldum, çünki elə bilirdim ki, faşistlərlə vuruşmaq istəyən Koroğlu kimi bir qəhrəman görəcəyəm, amma Amerikadan gəlmiş bu Qavril gözlədiklərimin tamam əksinə olaraq adi bir adam idi: saçları tökülmüş, sarışın, arıq, uzun və Qavrilin geyimi də adi geyim idi: ayaqlarında Ziba xalanın ev başmaqları, eynində adi şalvar, adi ağ köynək... Məni müteəssir edən ən böyük adilik də bundan ibarət idi ki, Qavril

qızarmış gözlərini sildikcə, Qavril də bu arvadlar kimi kövrəlirdi, dodağını dişləyib dolmuş gözlərini tavana zilləyirdi; amma hər halda Qavrilin uşaqları öz evlərində ingiliscə danışırdı və bu mənə son dərəcə qəribə gəlirdi ki, bizim bu Ziba xalanın nəvələri, dəqiqədə-bir "–Allah qoysa!.." – deyib doluxsunan bu Qavrilin uşaqları bir-birləri ilə ingiliscə danışırlar, Azərbaycan dilini bilmirlər və heç olmasa rus dilini də bilmirlər.

Biz də mizin arxasında oturmuşduq və Ziba xala hərdənbir hıçqıra-hıçqıra, içini çəkə-çəkə, əlindəki balaca dəsmalla gözlərini, yaş burnunu silə-silə:

– Allah sizi həmişə səlamət eləsin!.. Məni yaddan çıxartmayın... – deyirdi. – Qayıdıb gələcəyəm mən...

Qavril başını tərpədib anasının sözlərini təsdiq edə-edə:

– Allah qoysa!.. – deyirdi.

– Qoy gedim bir o nəvələri görüm...

Qavril:

– Allahın köməkliyilə!.. – deyirdi.

– Sonra yenə qayıdıb gələcəyəm, peyğəmbər haqqı...

Qavril:

– Allah qoysa!..– deyirdi.

– Hamınıza məktub yazacağam, siz də, qurban olum, tək qoymayın məni orada, məktub yazın, Allah sizi həmişə səlamət eləsin!..

Bu vaxt Qavril əynindəki ağ köynəyin cibindən balaca tütək kimi bir şey çıxartdı, firlayıb ağzını açdı və mən bütün həyatımda ilk dəfə avtomat qələmi belə gördüm... Qavril həmin avtomat qələmi mizin üstündəki qəzetin kənarında Amerikadakı ünvanını yazırdı, mən isə gözlərimi o avtomat qələmdən çəkə bilmirdim: kiçik və yaraşıqlı sarı perosuna baxırdım, sədəf kimi hamar və bərq vuran qələminə baxırdım və yalnız bu zaman mən inandım ki, Qavril doğrudan da Amerikadan gəlib, o avtomat qələmə baxa-baxa Qavrilin arvad kimi kövrəlib doluxsunmağı da, dəqiqədə-bir "– Allah qoysa!.." – deməyi də yadımdan çıxdı.

Mən heç cür gözlərimi Qavrilin əlindəki o möcüzədən çəkə bilmirdim; mənim müxtəlif perolara, qələmlərə yaman azarım var idi (həmin il, yəni müharibə başlayan ili mən birinci sinifə gedirdim), evdə oturub nazik və uzun taxta qələmin ucuna taxdığım peronu mürəkkəbə batıra-batıra ağ milimil dəftərlərdə yazmağa da çox həvəsim

var idi və Qavrilin əlindəki o avtomat qələm mənə elə təsir etmişdi ki, elə bil mənim özümün həyatımda nəsə ruh yüksəldən bir hadisə baş vermişdi, o hadisədə müharibə başlanandan sonra hamımızın yadığanmağa başladığımız bir bayram əhval-ruhiyyəsi var idi, ədəddi, bu bayramda bir balaca həzinlik, hətta qüssə var idi, çünki o avtomat qələm mənim deyildi, heç vaxt mənim olmayacaqdı, amma hər halda dünyada belə gözəl avtomat qələmlər var idi...

Qavril sədəf kimi hamar və bərq vuran o avtomat qələmin kiçik və yaraşıqlı sarı perosu ilə Amerikadakı ünvanın (və bizim Ziba xalanın da bundan sonrakı ünvanını) yazıb arvadlara verdi, sonra avtomat qələmin ağzını bağladı və köynəyinin cibinə qoydu və mən indi də gözlərimi o ağ köynəyin cibindən çəkə bilmirdim və bu vaxt mən öz üzərimdə Xanım xalanın ani baxışlarını hiss elədim, bu baxışları görmədim, məhz hiss etdim, qızardım və gözlərimi Qavrilin ağ köynəyinin cibindən çəkdim.

Bir neçə gün mən o avtomat qələm əhval-ruhiyyəsinin içində idim, o avtomat qələm məndə səbəbini bilmədiyim bir coşğunluq, nikbinlik əmələ gətirmişdi və mən daha özümü inandırmışdım ki, gələcəkdə mənim də mütləq belə avtomat qələmlərim olacaq və o avtomat qələmlərlə Qavril kimi sürətlə, səliqə ilə yazılar yazacağam, amma o yazılar qəzet kənarındakı ünvan yazıları olmayacaq, nəsə başqa yazılar olacaq... və bütün bunlarla bərabər, məndəki o coşğunluqda, nikbinlikdə yenə də səbəbini bilmədiyim həzin bir qüssə var idi və o qələm əhval-ruhiyyəsi içində o balaca Ələkbər birdən-birə Ədilənin "Sevimli məktub"unu xatırlamışdı, o "Sevimli məktub"un hərarəti yenə də balaca Ələkbərin sinəsini qızdırmışdı, amma eyni zamanda, o hərarətdə də bir nisgil var idi.

Ziba xala nöyüt dükanının yanındakı evin küçə qapısına balaca bir qıfıl vurdu və oğlu Qavril ilə Amerikaya getdi və müharibənin dərdi elə bil ki, kiçicik bir yenilikdən, çox yüngül bir fasilədən sonra, yenə də bütün məhəlləmizi əlinə aldı və axşamlar Balakərim heç kimə bir söz demədən qoşa tutun altında, səkinin qırağında oturub tütəyini çalmağa başlayanda, o tütək elə bil ki, sehrli dünyalarla, dünyanın möcüzəli işləriylə bərabər, bizim məhəllənin yavaş-yavaş yetimlədiyindən də deyirdi, Sarı hamamın, dalanımızın, məhəlləmizdəki evlərin divarlarına hopmuş qüssədən də deyirdi və mən cıqqırığımı çəkmədən Balakərimin o gözəl tütəyinə qulaq asa-asa birdən-birə fikirləşdim ki,

haçansa bir gün gələcək və mən bu gözəl tütəyin söylədiklərini o avtomat qələmin kiçik və yaraşıqlı perosundan çıxan sözlərlə yazacağam... Bu fikir mənim bütün içimi həyəcana gətirdi, çünki tamam gözlənilməz idi, əslində bu fikir o balaca Ələkbər üçün böyük bir kəşf idi və həmin kəşf mənim ürəyimə yeni hisslər gətirdi, elə bil ki, mən birdən-birə özüm öz gözümdə böyüdü

xalanın sifəti də dəyişməmişdi, nazik dodaqları həmişəki kimi kip örtülürdü, qalın qaşlarının altından baxan qara gözləri həmişəki kimi sərtlikdən xəbər verirdi, amma mən Xanım xalanın səsində nəsə hiss edirdim, hiss edirdim ki, bu səsdə nəsə dəyişib, amma bunun məhz nə olduğunu bilmirdim.

— Bura gəl, Ələkbər

Ziba xala isə daha bizim məhəlləyə qayıtmadı və nöyüt dükanının yanında Ziba xalanın küçə qapısındakı o balaca qıfıl müharibənin axırına yaxın biz evimizi satıb məhəllədən dayımın yanına köçdüyümüz vaxta kimi, elə-eləcə qapıdan asılı qaldı, payızın yağışı, qışın qarı o balaca qıfılı paslatdı və həmin paslı qıfıl Əliabbas kişinin qapısında asılmış o böyük qıfıllar

uzanıb gedən yaşıl çəmənlik də, qıvrıla-qıvrıla axan şirin sulu o çay da, şumlanmış o tünd-qəhvəyi torpaq da Məhəmmədin, Əlinin, onların arvadlarının, onların uşaqlarının üzünə gülürdü.

Onlar o uzaq və yalçın dağlardan köçüb gəlmişdi, ömürlərini o uzaq dağlarda, daşların, qayaların arasında keçirmişdi. Ulu babaları hacansa – Nuh-Nəbinin dövründə, Dədə Qorqud boy boylayanda, soy

əvəzinə, torpaq əvəzinə təkcə çınqıllar qaldı, qaya parçaları qaldı və bu sıyrım daşlar o leysandan sonrakı günəş altında parıldayırdı, sabahın, bir ildən sonranın, yüz ildən sonranın əzabından, iztirabından, məhrumiyyətindən deyirdi.

O kənddə ilk dəfə insan cana gəldi, insan üsyan etdi: Məhəmməd əkin yerini basmış daş parçaları arasında dolaşa-dolaşa iri və güclü bədəninə də sığışmayan bir ehtirasla:

– Lənət bu yerlərə! – qışqırdı. – Lənət bu yerlərə! Bəsdir daha dağ keçisi kimi yaşadıq! Bəsdir! Köçək buradan! Babalarımız nahaq burada məskən saldı! İgid düşmən qılıncına hədəf olmaq burada məskən salmaqdan artıqdır! Gedək bu yerdən! Allahın altındakı yer genişdir! Gedək! Köçək buradan!

Kəndin camaatı Məhəmmədin başına toplaşdı, amma heç kim heç nə demədi, hamı heyrətlə Məhəmmədə baxdı, heyrətlə Məhəmmədə qulaq asdı, kəndin camaatı min il idi heç ağlına da gətirmirdi ki, harasa bir başqa yerə köçmək olar, haradasa torpaq axtarmaq olar, haradasa daşsız-qayasız, leysansız-şaxtasız yaşamaq olar.

Sonra hamı bütün bu yerlərin ən ulu sakini Süleyman dədəyə baxdı.

Dədə Süleyman bir müddət heç nə demədi, sonra elə bil özü özü ilə danışdı:

– Babaların işi haqq işidi, – dedi. – Babaların ruhu müqəddəsdi... Tənəyə layiq deyil...

Məhəmməd gəlib Dədə Süleymanla üzbəüz dayandı:

– Məni bağışla, Dədə – dedi.

Dədə Süleyman:

– Mən bağışladım, – dedi. – Bağışlayırsa, qoy Allah da bağışlasın.

Məhəmməd:

– Mən gedirəm, Dədə – dedi.

Dədə Süleyman yenə də bir müddət susdu, sonra Məhəmmədin başına toplaşmış kəndin camaatını bir-bir nəzərdən keçirtdi, sonra o sıldırım dağlardan aşağıdakı topa-topa boz buludlara baxdı və birdən-birə bir vəh kimi gələn Dədə Qorqud sözlərini pıçıldadı:

Oğul! Sən varacaq yerin
Dolmac-dolmac yerləri olur.
Atlı batıb çıxmaz,
Onun palçığı olur

Ala ilan sökəməz,
Onun ormanı olur...
Hey demədən baş gətirən
Onun cəlladı olur...

Dədə Süleyman susdu, Məhəmmədə baxdı, bir müddət beləcə keçdi və Məhəmməd yenə də:

– Mən gedirəm, Dədə – dedi.

Dədə Süleyman uzun ömründə bir daha başa düşdü ki, olacağa çarə yoxdur, nə yazılıbsa o da olacaq və dedi:

– Kim istəyirsə onunla gedə bilər...

Kəndin camaatı Dədə Süleymanın bu sözlərindən ürküb dağılmağa başladı, hərə öz evinə çəkildi və bir azdan o daşlı-kəsəkli əkin yerində Məhəmməd qaldı, Dədə Süleyman qaldı, bir də Əli qaldı.

Əli Məhəmmədin qabağına gəldi:

– Mən də səninləyəm! – dedi. – Mən də bıkdım daha! Mən də gedirəm! – dedi, sonra Dədə Süleymana baxdı.

Dədə Süleymanın uzun-uzun illərdən bəri kiçilmiş, alacalanmış gözlərində ağappaq saçlarına, ağappaq saqqalına uyuşmayan bir işıq var idi və Dədə Süleyman o işıqlı gözləri ilə Məhəmmədə baxdı, Əliyə baxdı, o sıldırım dağlardan aşağıdakı topa-topa boz buludlara baxdı və gülümsədi:

– Həzrət Əli də həmişə Məhəmməd peyğəmbər-rəsullüllahla bir yerdə olub... – dedi.

Məhəmməd:

– Bizə xeyir-dua ver, Dədə, – dedi.

Dədə Süleyman:

– Oğul, uğrun açıq olsun!.. – dedi, eyni sözləri Əliyə də dedi, ürəyini bürümüş həzinlik, qəmginlik içində yavaş-yavaş öz daxmasına getdi, yatağına uzandı.

Həmin gün Məhəmməd də, Əli də kəllərini arabalarına qoşdular, xışlarını, kətmənlərini, bellərini, külünglərini götürdülər, arvadlarını, uşaqlarını arabaya mindirdilər, özləri arabaların qabağına düşdülər və o sıldırım qayalara, topa-topa boz buludlardan xeyli yuxarıda olan o kəndə axırıncı dəfə nəzər saldılar, "– Ya uğur!" – dedilər və yola düzəldilər.

Kəndin camaatı Məhəmmədə də, Əliyə də heç nə demədi, amma onlar yola düzələndən sonra, kəndin qa[illegible] sıldırım qayalara yığışıb ardlarınca baxdı, arvadlar, qızlar, gəlinlər qaçıb evdən su

gətirdi, Məhəmmədlə Əlinin ardınca atdı və ağladılar. Bu kəndin camaatı indiyə kimi yalnız ölən adamlardan əbədi ayrılırdılar və indi birinci dəfə idi ki, kimdənsə əbədi ayrılanda onu yerə basdırmırdılar, harasa başqa yerə yola salırdılar.

Sonra kəndin camaatı Dədə Süleymanın daxmasına tərəf axışdı, çünki Dədə Süleyman ürəyini bürümüş o həzinlik, o qüssə içində hiss edirdi ki, bu dünyada barmaqla sayılacaq gecələrin, gündüzlərin qonağıdır...

Məhəmməd ilə Əli gecə-gündüz yol getdilər, dağlardan aşdılar, təpələrdən keçdilər, yollara meydan oxudular: qarşı yatan Qara dağını aşmağa gəlmişik, axıntılı suyunu keçməyə gəlmişik; bir-birlərinə həyan oldular, bir-birlərinə kömək etdilər, axırıncı tikələrini yarı böldülər və nəhayət, gəlib bu geniş yamaca çatdılar, burada bina saldılar.

Məhəmməd də, Əli də, onların arvadları, uşaqları da ömürlərində birinci dəfə idi ki, belə genişlik görürdülər, ömürlərində birinci dəfə idi ki, ovuclarına doldurduqları tünd-qəhvəyi torpağın ətrini beləcə hiss edirdilər və o torpağın nəmi onların ovuclarından keçib bütün bədənlərinə indiyədək heç vaxt hiss etmədikləri bir rahatlıq gətirirdi, sabahın bolluğundan və ümumiyyətlə, yer üzünün gözəlliyindən, həyatın, xoşbəxtliyindən deyirdi.

Məhəmməd də, Əli də gecə-gündüz işlədilər, bir-birlərinə kömək elədilər, meyvə yedilər, ov ovladılar, bir-birlərinə həyan oldular, bir yerdə Məhəmmədə, sonra da bir yerdə Əliyə ev tikdilər, həyət düzəltdilər və hərə özü üçün böyük bir sahəni şumlamağa başladı, torpağa qulluq etdi.

Həmin gün ki, gün təzəcə çıxmışdı və özü ilə bütün bu tərəflərə bir bəxtəvərlik gətirmişdi, Məhəmməd çarıqlarını çıxarıb çəpər boyu öz sahəsini gəzirdi, bu çəpəri təzə salmışdılar, bu çəpər Məhəmmədin sahəsi ilə Əlinin sahəsini bir-birindən ayırırdı: bu çəpər o yaşıl dağların, o güllü-çiçəkli düzənliyin, o tünd-qəhvəyi tor[illegible] şahidi olduğu ilk çəpər idi.

Məhəmməd qıymırdı ki, bu torpağı çarıqla bastalasın və ömründə birinci dəfə idi ki, Məhəmmədin yalın ayaqları topuqdan da yuxarıya qədər yumşaq torpağın içinə batırdı və o tünd-qəhvəyi, yumşaq torpağın nəmində bir istilik, bir hərarət var idi, heç vaxt heç bir paltar, heç bir yorğan Məhəmmədin bədənini bu istilik, bu hərarət qədər qızdırmamışdı, bu istilikdə, bu hərarətdə bir ana əlinin məhrəm iyi var idi.

Məhəmməd torpağın istisi ilə, hərarəti ilə beləcə qızına-qızına gedib qollu-budaqlı bir armud ağacının yanında dayandı və təəccüblə bu armud ağacına, bu armud ağacının altından keçən çəpərə baxdı; bu armud ağacı da, dibinin torpağı da Məhəmmədin sahəsində olmalı idi – bu cür razılaşmışdılar və çəpəri də bu cür qoymuşdular, amma indi çəpər irəli çəkilmişdi və ağacın dibinin bütün torpağı Əlinin sahəsinə keçmişdi.

Məhəmmədin bədənini bürümüş o torpaq istisi, o hərarət bircə anın içində yox olub getdi, elə bil ki, günün bu yerlərə gətirdiyi o bəxtəvərlik də silinib getdi və çox acı bir pərişanlıq hissi Məhəmmədi sarsıtdı.

Bu vaxt Əli də çəpər boyu öz sahəsini gəzməyə başladı və gəlib həmin armud ağacının altında Məhəmmədlə üzbəüz dayandı və Məhəmməd Əlinin iri və dünənə qədər tərtəmiz gözlərinə baxa-baxa birinci dəfə o gözlərdə bir hərislik sezdi, titrək səsiylə:

– Bir-birimizə qardaş dedik! Susuzlayanda suyumuzu böldük, acanda ruzimizi böldük, duzumuz bir oldu! – dedi. – Niyə belə iş tutdun? Niyə çəpəri qabağa çəkdin, mənim torpağımı götürdün?

Əli fəxrlə, qürurla çəpər boyu öz sahəsinə baxdı, şumlanmış o tünd-qəhvəyi torpağa baxdı, sonra yenə Məhəmmədə baxdı və dedi:

– Bu yer də mənim idi. Mən şumlamışdım buranı.

Məhəmməd armud ağacının altındakı torpağa baxdı və Əlinin bu ağ yalanından dəhşətə gəldi. Məhəmməd Əlinin iri və dünənə qədər tərtəmiz gözlərində heç vaxt görmədiyi və təsəvvürünə gətirə bilmədiyi bir əyrilik gördü, amma zor elədi, özünü ələ aldı və dedi:

– Sən səhv edirsən, qardaş, bura mənim torpağımdı!..

Əli gülümsədi:

– Yox, qardaş, sən səhv edirsən!.. Yaxşı yadına sal... Bura mənim torpağımdı!..

Sonra Əli çəpərin bu tərəfinə, Məhəmmədin sahəsinə baxdı və Məhəmməd Əlinin gözlərində bir aclıq duydu. Əli elə bil, o gülümsəyən gözləri ilə Məhəmmədin şumlanmış torpağını yemək istəyirdi və Məhəmməd başa düşdü ki, bu dəm Əli bu torpağa da sahib olmaq istəyir, ömrü boyu torpaqsız olmuş, ömrü boyu əzab-əziyyət çəkmiş Məhəmmədin bütün bədəni uçundu, elə bil, onu yenə də çəkib o topa-topa boz buludlardan yuxarıda, o sıldırım qayaların arasında yaşadığı barsız-bəhərsiz həmin leysanlı günlərə salmaq istədilər və Məhəmməd dartındı, təzədən o günlərə qayıtmamaq üçün bütün varlığı ilə

müqavimət göstərdi, xışdan çıxarıb çəpərin dibinə atdığı dımrığı yerdən qapdı və var gücü ilə Əlinin başına vurdu.

Bircə anın içində bütün bu tərəfləri bürümüş o bəxtəvərlik, torpağın o gözəl tünd-qəhvəyisi qıpqırmızı qızarıb qan rəngini aldı və sonra Əli daha heç nə görmədi, dəhşətli bir heyrət içində:

– Qardaş?! – dedi, sonra hər şey qurtardı. Əlinin cansız bədəni ömrü boyu dünyanın çox işlərini görmüş o qollu-budaqlı armud ağacının dibinə sərildi, parçalanmış alnından axan qan gözlərinin üstündən süzülüb o tünd-qəhvəyi rəngli şumlanmış torpağa töküldü.

Məhəmməd bir müddət Əlinin cəsədinə baxdı, gözlərini bu cəsəddən ayıra bilmədi, göz işlədikcə uzanan o genişlik içində birdənbirə Dədə Süleymanın pıçıltısı ilə Dədə Qorqudun sözlərini eşitdi:

Oğul, oğul, ay oğul!
Qaragülcə gözlərim aydını oğul!
Güclü bəlim qüvvəti oğul!
Gör axır nələr oldu?..

Və elə bil ki, Dədə Süleyman Dədə Qorqudun bu sözlərini Məhəmməd üçün yox, o armud ağacının dibində sərilib qalmış Əli üçün pıçıldayırdı, elə bil, Məhəmməd bu pıçıltını öz qulaqları ilə yox, Əlinin o qanlı qulaqları ilə eşidirdi, sonra Məhəmməd hiss etdi ki, arxadan Ağ Dəvənin üstündə Həqiqəti Deyən gəlir, geri çöndü, baxdı.

Ağ Dəvə başını dik tutub həmişəki kimi, aramla addımlaya-addımlaya irəliləyirdi və Ağ Dəvə hər dəfə pəncələrini yerə basıb qaldırdıqca ləpir yerlərindən ağappaq çiçəklər baş qaldırırdı.

Həqiqəti Deyən heç vaxt əyninə paltar geyməzdi, saqqalını, saçını qırxdırmazdı, dırnaqlarını tutmazdı, çünki Həqiqəti Deyən də, əslində, insan idi və Həqiqəti Deyənin fikrinə görə insan gərək olduğu kimi görünəydi.

Həqiqəti Deyən Ağ Dəvənin belində oturmuşdu: Həqiqəti Deyəni heç kim görməmişdi, amma hamı onu tanıyırdı.

Ağ Dəvə eləcə aramla addımlaya-addımlaya gəlib Məhəmmədin qabağında dayandı.

Məhəmməd ömründə dəvə görməmişdi və elə bil ki, yer üzündəki bütün dəvələr Ağ Dəvə olur.

Həqiqəti Deyənin də gözləri Ağ Dəvənin ləpir yerlərindən baş qaldıran o çiçəklər kimi, ağappaq idi və o ağappaq gözlərdə hər şey öz

əksini tapırdı və Məhəmməd də o dəm o ağappaq gözlərdə öz əksini gördü, o qollu-budaqlı armud ağacının əksini gördü. Əlinin qıpqırmızı qana bulaşmış cəsədinin əksini gördü.

Əlinin alnından axıb sifətində, tünd-qəhvəyi torpağın üstündə laxtalanmış qan Həqiqəti Deyənin ağ gözlərində kiçik qırmızı bir ləkə salmışdı.

Məhəmməd səhərdən bəri əlində saxladığı ağzı qanlı o dımrığı yerə atdı və bütün varlığı ilə Həqiqəti Deyəndən öz sözlərinin təsdiqini umdu:

– Bu torpaq mənim idi, onun deyildi! – qışqırdı. – Söylə, Həqiqət, kimin idi? Söylə həqiqəti!

Həqiqət Deyən Məhəmmədə baxdı, armud ağacının dibində sərilib qalmış Əlinin cəsədinə baxdı və dedi:

– Mən sənəm, mən oyam. – Həqiqəti Deyən əlini uzadıb Əlinin cəsədini göstərdi. – Mən nə deyə bilərəm? Dava torpaq üstündə idi, torpaqdan da soruşmaq lazımdır.

Ağ Dəvə qabaq ayaqlarını dizdən bukdü, boynunu qabağa uzatdı və bir qulağını torpağa dirədi, bir müddət torpağa qulaq asdı, sonra boynunu qaldırdı, başını çevirib iri, qara gözləri ilə Həqiqəti Deyənin ağappaq gözlərinin içinə baxdı. Həqiqəti Deyən, Ağ Dəvənin baxışlarında hər şeyi oxudu:

– Torpaq deyir ki, siz ikiniz də yalan söyləyirsiniz! – dedi. – Torpaq deyir ki, mən onların heç birinin deyiləm. Torpaq deyir ki, onlar mənimdir! Biri artıq gəlir qoynuma. O biri də vaxtı çatanda gəlib mənim olacaq!

Sonra Ağ Dəvə ayağa qalxdı və həmişəki aram addımlarıyla uzaqlaşıb yavaş-yavaş gözdən itdi...

...Cərgə ilə uzanmış ləpir yerlərində bitən o ağ çiçəklər haçansa Ağ Dəvənin bu yerlərdən keçməyindən xəbər verirdi...

XXI

Məhəlləmizin birinci qaragünlüsü yazıq Meyranqulu əmigil oldu, məhəlləmizə müharibədən birinci qara xəbər Meyranqulu əmigilin evinə gəldi və yazıq Meyranqulu əmi heç cür özünü saxlaya bilməyib arvadların, uşaqların yanında arıq və uzun barmaqlı əllərini nazik baldırlarına vura-vura, ağlaya-ağlaya təkcə elə bunu deyirdi:

– Şair oğlum mənim!.. Şair oğlum mənim!..

İbrahimin altı bacısı o qədər ağlamışdılar ki, üzlərini, sinələrini o qədər cırıq-cırıq eləmişdilər ki, ancaq inildəməyə gücləri qalmışdı.

Məhəllənin bütün camaatı axışıb Meyranqulu əmigilə gəldi: Həsənağa əmi, Ağahüseyn əmi, Əzizağa əmi (bir azdan onların da hamısı müharibəyə getdi...), bizim dalandan da Cəbrayılla Ağarəhim Meyranqulu əmigilin evlərinin qabağında küçənin ortasında çadır qurdu və Molla Əsədulla o çadırın içində, yuxarı başda oturub Quran oxuyurdu, hərdən də qalın cildli o yekə və qalın kitabı böyük ehtiyatla bir kənara qoyurdu, çeşməyini də gözündən alıb kitabın yanına qoyurdu və sükut içində çay içə-içə pıçıldayırdı:

– Kəfənsiz gedən nocavan... – Sonra bərkdən:

– Allah rəhmət eləsin!.. – deyirdi.

Çadırın içində oturan kişilərin hamısı bir balaca yerlərindən qalxıb bir ağızdan:

– Allah rəhmət eləsin!.. – deyirdi.

Molla Əsədulla:

– Allah sizin də bütün ölənlərinizə rəhmət eləsin!.. – deyirdi. – Allah baisin cəzasını versin!.. Allah sizin cavanlarınızın hamısını hifz eləyib güllədən saxlasın! Allah heç bir evi kişisiz qoymasın, uşaqlar yetim qalmasın!.. Allah Hitlerin divanını eləsin, qənimi əzrayıl olsun, qəbiri od tutub yansın və dili ağzında kömürə dönsün!.. Allah Stalinin də ömrünü uzun eləsin!..

Çadırın içindəki kişilər yenə də bir ağızdan:

– İllahamin! – deyirdi.

Cəfərqulu ilə mən tez-tez o çadırın içinə girib-çıxırdıq, orda oturan kişilərə çay paylayırdıq, boş stəkanları yağışdırırdıq və qəribə idi, Molla Əsədullanın dediyi o sözlər, çadırın içindəki kişilərin bir ağızdan danışması məni öz gözlərimdə böyüdürdü, mən özüm özümə böyük bir adam kimi görünürdüm.

Molla Əsədulla deyirdi:

– Meyranqulunun oğlu İbrahim çox yaxşı oğlan idi. Bu cəhətdən İbrahim peyğəmbərə bənzəyişi var idi. Babilin padşahı Nəmrud İbrahimi oda atdırdı, amma od İbrahim Xəlili götürmədi, o qədər təmiz idi!.. Və o yerdə ki, od yanırdı, həmin od qalağı çiçəkli bir bağa döndü...

Molla Əsədulla belə əhvalatlar danışanda mən yerimdən tərpənmirdim, dayanıb qulaq asırdım və bu söhbətlər mənə o qədər təsir

edirdi ki, dünyada hər şey yadımdan çıxardı və bəzən o vaxt özümə gəlirdim ki, ya isti çay əlimə tökülüb yandırırdı, ya Cəfərqulu qolumdan tutub dartırdı. Molla Əsədullanın danışdığı əhvalatlar hərdən Balakərimin danışdığı əhvalatlara oxşayırdı, amma əsas fərq ondan ibarət idi ki, mənə elə gəlirdi ki, Molla Əsədulla danışdığı bu əhvalatların hamısını gözləri ilə görüb, bütün bunlar hamısı həqiqətdir; hər halda, Molla Əsədulla bu əhvalatları uşaqlara danışmırdı, böyüklərə danışırdı və buna görə də həmin əhvalatların nüfuzu bir az çox idi...

Mən İbrahimin bizə bir abbasıya kino göstərməyini, pulumuz olmayanda bizdən konfet almağını və bu kimi bütün başqa işlərini yadımdan çıxarmışdım, amma şair İbrahimin yazdığı o iki misra mənim başımdan çıxmırdı:

Göy yaxasını açanda ay göründü,
Sən yaxanı açanda günəş göründü!..

Düzdür, mən bu iki misranın mənasını başa düşmürdüm, amma həmin iki misra (onlar bəlkə, doğrudan da, İbrahimin deyildi, amma bunun fərqi yox idi!..) İbrahimin ölümündən sonra, elə bil ki, dünyanın ən dərdli, nisgilli bir nəğməsiydi; o zaman, əslində, o balaca Ələkbər ölümün də nə olduğunu yaxşı başa düşmürdü, amma şair İbrahimin misraları ilə ürəyimdə baş qaldırmış o dərdli, o nisgilli nəğmə hərdən məni kövrəldirdi, gözlərimi doldururdu və mən ağlamaq istəyirdim; bir də ki, Molla Əsədullanın dediyi o çiçəkli bağ gözlərimin qabağından getmirdi və o bağda bitən qırmızı, narıncı, bənövşəyi çiçəklər də dərdin, nisgilin içində idi.

Həmin gecə yuxuya getməzdən əvvəl mən özümü şair İbrahimin yerində təsəvvür etdim, elə bil ki, müharibədə ölən şair İbrahim yox, mən özüm idim və Meyranqulu əmigilin evinin qabağındakı o çadır da mənim üçün qurulmuşdu, məhəllənin bütün kişiləri o çadırda mənim yasıma yığışmışdı, Molla Əsədulla məni İbrahim Xəlil peyğəmbərə oxşadırdı, məhəlləmizin kişilərinin hamısının sifəti bir-bir mənim gözlərimin qabağından gəlib-keçirdi və mən bir tərəfdən özüm özüm üçün qüssələnirdim, müharibədə öldüyüm üçün özümün özümə heyifim gəlirdi, bir tərəfdən də qürur hissi keçirirdim, özümlə fəxr edirdim, çünki müharibədə vuruşmuşdum, çünki müharibədə ölmüşdüm, çünki məhəlləmizin bütün kişiləri mənə görə o çadıra

yığışmışdı və o arvadlar, qızlar, gəlinlər də mənim üçün ağlayırdı; sonra mənə elə gəldi ki, Babilin padşahı Nəmrud məni yandırmaq istəyir və o odun istisini hiss etdim, amma qorxmadım, çünki o od çiçəkli bir bağa dönəcəkdi və o bağın qırmızı, narıncı, bənövşəyi çiçəkləri olacaqdı.

Məhəlləmizə ikinci dəfə bu cür qara xəbər Firuzə xalagilin evinə gəldi və bu dəfə çadır Firuzə xalagilin evinin qabağında quruldu, sonra o çadır tez-tez qurulmağa başladı, bu evin qapısı ağzından o evin qapısı ağzına köçdü və bu çadır da, elə bil ki, çöndü oldu Ağ Dəvə, qapıların ağzında qurulub dünyanın dərdli işlərindən xəbər verdi.

Bir dəfə mən Balakərimdən soruşdum:

– Bəs, o Ağ Dəvə niyə Hitlerin qapısında yatmır?

Balakərim əvvəlcədən hər şeyi bilirmiş kimi, mənalı-mənalı gülümsədi:

– Yatacaq, Ələkbər, yatacaq... Farslar bilirsən nə deyib, Ələkbər? Atondan soruş, bilər; farslar deyib ki, hər suxən cayi, hər nöqtə məqami darəd...

Mən farsların dediyi bu sözlərin mənasını, əlbəttə, başa düşmürdüm, o sözlərin deyilişində, musiqisində bir sakitlik, rahatlıq var idi, amma o sakitliyin, o rahatlığın bizim məhəlləyə dəxli yox idi, o sakitlik də, rahatlıq da bizim məhəllədən köçüb getmişdi.

Həmin çadır bizim məhəllədə bircə dəfə qurulmadı: anamın adaşı Sonanın əri saatsaz Gülağanın qara xəbəri gələndə məhəlləmizin ya xəstəliyə görə, ya şikəstliyə görə, ya da nəsə başqa bir səbəbə müharibəyə getməmiş beş-üç kişisi Gülağagilin evinin qabağında çadır qurmaq istədi, amma Sona qoymadı, çığır-bağır saldı, yas tutmadı, çünki Sona Gülağanın ölməyinə inanmırdı, qışqırıb camaatı başa salırdı ki, o qara xəbər yalandır.

Hamının Sonaya yazığı gəlirdi, məhəllənin arvadları bir tərəfdən cayan getmiş sakit, heç kimdə işi olmayan gözəl-göyçək Gülağa üçün ağlayırdı, bir tərəfdən də yazıq Sonanın beləcə halına ağlayırdı; deyirdilər ki, Sonanın başına hava gəlib, amma bu barədə çox danışmırdılar, danışanda da yana-yana, gözləri dola-dola danışırdılar.

Küçəmizin lap aşağı başında, tinin ucunda yan-yana üç dükan var idi: ət dükanı, çörək dükanı, nöyüt dükanı və bizim məhəllənin camaatı həmişə əti (noxud, düyü, duz, qənd, yağ da o dükanda olurdu) o dükanda qəssab Dadaşbaladan alardı, amma müharibə başlayandan

sonra, o dükan bağlandı və qəssab Dadaşbala da çayçılığa başladı, yas yerlərində samovar qoydu, gedib Gürcüstandan quru çay alıb gətirdi, çay dəmlədi və heç vaxt bekar qalmadı, ən çox pul qazanan da elə o idi, amma adı əvvəlki kimi qəssab Dadaşbala idi; anamgil bütün gecəni o çörək dükanının qabağında növbəyə dururdu və qabağında bir o qədər növbə olan o dükan səhər tezdən açılırdı, tez də boşalıb bağlanırdı: əlimizə qab alıb nöyüt dalınca biz gedərdik, amma bir azdan nöyüt də qurtardı (nöyüt də kişilər kimi, müharibəyə gedirdi), vaxt keçdi və bizim evimizin lampasına, pilətəsinə hopmuş nöyüt iyi də çəkilib getdi, yox oldu.

Bizim dalanımızın qabağında daha bir avtobus və dörd dənə də "polutorka" yan-yana dayanmırdı, çünki təkcə bizim küçəmiz yox, təkcə bizim dalanımız yox, bizim həyətimiz də boşalırdı: əvvəlcə Cəfər, Adil, Əbdüləli müharibəyə getdi, sonra da Qoca getdi və Xanım xala təkcə Cəbrayılla, bir də ki, Ağarəhimlə qaldı.

Müharibə başlamışdı və biz hamımız öyrənmişdik ki, bədbəxtlik, qəza oğlu olan, əri, atası, qardaşı olan evlərin başının üstündə fırlanır və əlbəttə, heç kimin ağlına gəlməzdi ki, bədbəxtlik gəlib beş qızı olan papaqçı Əbülfət əmigilin evinə girəcək (hərdən arvadlar bir yerə yığışanda Məşədixanım xala deyirdi: "– Qızı olmağın da bu xoşbəxtliyi var!.. Ode, Fatma, beş uşağı var, beşi də qız, heç biri də getməyəcək müharibəyə").

O vaxt ki, bizim məhəllənin evlərinin qabağında çadırlar qurulmağa başladı, o vaxt ki, qəssab Dadaşbala baltanı-kötüyü bir tərəfə atıb çayçılıqla məşğul olmağa başladı, o vaxt ki, anam gecədən səhərə kimi çörək dükanının qabağında növbəyə dayandı, onda daha müharibədən əvvəlki bütün hadisələr birdən-birə tamam uzaq bir keçmişdə qaldı, mənim həyatım, elə bil ki, ortadan qanrılıb iki hissəyə əyilmiş dəmir çubuq kimi birdən-birə iki hissəyə ayrıldı: müharibə başlananadək olan həyatım və müharibə başlanandan sonrakı həyatım.

Mənim ürəyimdəki o sirk sevinci də, əvvəllər gözlərimin qabağında oynayan o sirk rəngləri də artıq səkkiz-doqquz yaşlı Ələkbər üçün uzaq bir keçmişdə qalmışdı və mən hərdən küçədə Ədiləni görəndə o sirk xatirələri həmin uzaq keçmişdən baş qaldırırdı, bir həraqat qatırmak istəyirdi, amma o hərəkətin istisi tez da qurtarırdı, Ədilə küçədə gözdən itirdi və o xatirələr yenə də özünün səsçatmaz, ünyetməz uzaqlığına qayıdırdı; bizim məhəlləmizdə və ümumiyyətlə,

mənim həyatımda daha elə bir fərəhli hadisə, elə bir fərəhli hiss, həyəcan yox idi ki, o "Sevimli məktub"u həmin uzaqlıqdan çıxarıb gətirə bilsin və qəribə idi, elə bil ki, Ədilənin o qalın, o uzun, xurmayı qoşa hörükləri də işıltısını itirmişdi, adiləşmişdi.

Bir müddət mən Ədiləni küçədə görəndə utandığımdan qaçıb gizlənirdim ki, məni görməsin.

Məsələ burasında idi ki, atam növbəti səfərindən qayıtdığı günlərdən birində anama dedi:

– Dünya yaman etibarsız olub, bacı... Gec-tez mən də gedəcəyəm cəbhəyə. İstəyirəm heç olmasa Ələkbərin kiçik toyunu görüm...

Müharibədən əvvəl bizim məhəllədə uşaqların sünnət olunmağı toy-bayrama çevrilərdi, amma bu dəfə heç bir toy-bayram olmadı, atam bir ləzgi dəllək tapıb gətirdi və hər şey çox adi keçdi; qeyri-adilik təkcə onda idi ki, mən də müharibədən əvvəllər olduğu kimi, belimə qıpqırmızı fitə taxdım və sünnətdən iki gün sonra, belimdə o qıpqırmızı fitə ilə küçəyə çıxıb, uşaqlarla oynamağa başladım.

Biz həmişə özümüzdən böyük oğlanların bellərinə qırmızı fitə dolayıb küçədə oynamalarına həsədlə baxardıq, indi mən özüm də böyümüşdüm, mən özüm də belimə qıpqırmızı fitə bağlamışdım və doğrusu, belimdəki bu qırmızı fitənin sevinci mənim müharibə başlanandan sonrakı həyatımın yeganə sevinci idi.

Mən küçədə, hamının gözü qabağında özümü çox qürurlu tuturdum, çünki böyümüşdüm, çünki mənim belimdə qırmızı fitə var idi, amma bircə Şövkəti görəndə özümü görməməzliyə vururdum və özümdən asılı olmayaraq çalışırdım ki, tez qaçıb həyətimizə girim, bir də ki, Ədiləni görəndə gizlənirdim, istəmirdim ki, Ədilə məni qırmızı fitəylə görsün, çünki Ədilədən utanırdım.

Şövkət yenə də hərdən evinin qabağında, qoşa tut ağacının yanındakı taxta skamyada otururdu, amma daha əvvəlkilər kimi tum çırtlamırdı, çünki Ziba xala köçüb getmişdi Amerikaya və ümumiy-

Bu cür sözlərinə baxmayaraq, yenə də Şövkətə nifrət etmirdim, amma onu görəndə qaçıb həyətimizə girirdim və küçəyə çıxmırdım, elə bil ki, bu da, Şövkət ilə mənim aramda bir oyun idi.

Ədilədən isə utanırdım.

Ədilənin o qara gözləri, o ağ sifəti, o qalın və uzun, o xurmayı rəngli qoşa hörükləri yenə də mənim üçün doğma idi, amma bu doğmalığın özündə də bir uzaqlıq, bir keçmişlik var idi və nədənsə, mənə elə gəlirdi ki, Ədilənin həmin doğmalığı Qoca üçün beləcə bir uzaqlıqda, beləcə bir keçmişdə qalıb və Ədilə bunu bilir, buna görə əzab çəkir.

Qoca da müharibəyə getmişdi və bizim məhəlləmizdə Qoca ilə Ədilə haqqındakı söhbətlər də, demək olar ki, yaddan çıxmışdı, Balakərim daha Romeo ilə Cülyettadan danışmırdı, mən daha Ağ Dəvənin Ədiləgilin qapısının ağzında yatacağından qorxmurdum, amma bir dəfə küçədə qəflətən Ədilə ilə üzbəüz gəldim və mən belimə bağladığım o fitə kimi qıpqırmızı qızardım, amma Ədilə elə bil heç bu fitəni görmədi, qara gözləri ilə mənə baxdı və mən həmin gözlərdə həsrət hiss etdim, dərin bir qüssə gördüm, elə bil o gözlər mənə baxmırdı, çox uzaqları axtarırdı, Balakərimin gözləri kimi yol çəkirdi, sonra Ədilə ikinci dəfə məndən soruşdu:

– Necəsən, Ələkbər?

Ədilə bu sualı elə verdi, elə bil ki, əslində başqa şey deyirdi; deyirdi ki, mən çox pisəm, Ələkbər, mənim ürəyim gülmür Ələkbər, mən dünyanın ən bədbəxt adamıyam, Ələkbər, mən yazığam, kimsəsizəm... Sonra Ədilə birdən-birə mənə dünyanın ən təsirli sözlərini dedi:

– O sirkin biletlərini yadigar saxlamışam, Ələkbər...

Mən heç cür özümü saxlaya bilmədim və gözlərim doldu, dolmuş gözlərimi Ədilədən gizlətmək istədim, amma bir şey çıxmadı, Ədilə mənim gözlərimin dolduğunu gördü və elə həmin anda Ədilənin də o

idi ki, müharibə başlanandan sonra elə bil, bütün dünyanın toyları-düyünləri də həmişəlik bir uzaqlıqda, həmişəlik bir keçmişdə qalmışdı və bizim bütün məhəlləmizdə evlərin qapısı ağzında təziyə çadırları qurulduğu bir vaxtda kiminsə evlənmək istəməsi, elçiliyə getməsi adamı heyrətə gətirirdi, üşüdürdü.

Kübra xala öləndən sonra Muxtar o şüşəbəndli evlərində tək yaşayırdı, yenə də səhər tezdən qara "emadin"ə minib işə gedirdi və həmin qara "emadin"lə də axşam işdən qayıdırdı, yenə də əynində qara meşin pencək, ayaqlarında xrom uzunboğazlar var idi və müha-

Nolar qulaqları balaca olanda? Adam öləcək, vallah, insafən, Kübraya çox yaxşı baxırdı Muxtar, evcannı kişidi. Düzdü e, Ədilə çox xanımxatındı, amma gedəcəkdi Xanımın oğluna, nolacaqdı, ikisi də cavan, bir tərəfdən də Xanım kimi əzazil!..

Anam deyirdi:

– Əzazil niyə olur Xanım xala, ay Səfurə bacı?..

Səfurə xala deyirdi:

– İndi Xanımı sən mənə tanıdacaqsan?.. Muxtar ayağını bərk basıb yerə. Qoca, Allah eləsin ki, sağ-salamat qayıtsın frontdan, ağıllı uşaq-

mənə çox təsir etdi və mən bir neçə gün fikirləşdim ki, Muxtara da salam vermək lazımdır, Muxtar da adamdır, "salam" onsuz da bizim deyil. Balakərim deyirdi ki, "salam" Allahındır və mən nəhayət, bu qərara gəldim ki, Allahın o "salam"ını Muxtara verim və bir dəfə axşamdan bir az keçmiş Muxtar işdən qayıdıb qara "emadin"dən düşəndə salam verdim, amma Muxtar gözucu mənə baxdı (bəlkə tanıdı məni? Tanıdı ki, Xanım xaladan üzr istəməyə gələndə Xanım xalagilin evini ona mən göstərdim və müharibədən əvvəlki o gözəl gündə Xanım xalanın onu qovmağının şahidi oldum?) və salamımı almadı; bundan sonra mən ona yenə də salam vermədim. (Bir dəfə Balakərim qoşa tut ağacının altında, səkidə oturub bir müddət Muxtargilin şüşəbəndinə baxdı, sonra dedi: – "Dünyada ki, nə qədər gül var, o güllərin də öz dili var. Kübra onların dilini bilirdi, ancaq Muxtar onlarnan danışa bilmir. O güllərin ürəyi sıxılır...")

Səfurə xalanın oğlu Eynulla onda hələ müharibədə itkin düşməmişdi, birinci dəfə yaralanıb sağalandan sonra, ikinci dəfə müharibəyə getmişdi və Səfurə xala deyirdi:

– Muxtar olanda [illegible], balam, kişi doyul bəyəm? Özü də işi elədi ki, fronta getməyəcək!.. Bir az yaşı çoxdu Fatmanın qızından, nolar, balam, kişinin yaşı çox olar də, kişi kişidi də, başıva dönüm sənin!..

Anam deyirdi:

– Könül sevən göyçək olar də, ay Səfurə bacı...

– Bəsdi, ağəz, uşaq sözü danışma!.. Qızı qoyarsan öz xoşuna, ya halvaçıya gedər, ya zurnaçıya!..

Anam Səfurə xaladan cavan idi, anam ürəyində Ədilə ilə Qocanın təəssübünü çəkirdi və Səfurə xala ilə bu söhbətdə məğlub olmaq istəmirdi:

– Axı, bunu da deyiblər ki, ay Səfurə bacı, qızı otaqlıya yox, papaqlıya verginən də!..

Mən ürəyimdə anamın bu sözlərinə tamam şərik çıxırdım, çünki anam özü otaqlıya getməmişdi, atamın heç vaxt evi olmamışdı, amma atam papaqlı kişilərdən biri idi, gecə-gündüz yol gedirdi, heç nədən ötrü Fətulla Hatəm kimilərinə ağız açmırdı və o ağır günlərdə də bizi dolandırırdı.

Səfurə xala deyirdi:

– Nolub ağəz Muxtarın papağına? Sənin Fatmadan çox ürəyin yanacaq o qıza? Vallah, gül kimi söz deyir Fatma öz qızına! Deyir ki, bizə bax, ağıllı ol, həmişə kasıb olmuşuq, deyir, bir qarnı ac, bir qarnı

getməsəydi, Xanımın qardaşı o rəhmətlik Abuzərə getsəydi, indi nə olacaqdı? Yetim qalacaqdı bütün uşaqları...

Anam deyirdi:

– Allah bilən yaxşıdı... Kimin alnına nə yazılıb, odu...

Anam bu sözləri deyirdi və mən yaxşı bilirdim ki, həmin anlarda anam nə fikirləşirdi: dünyanın işləri niyə belə nainsafdır, ay Allah? Bu dünyanın beləcə dərdləri-sərləri elə bizə qalıb? Yəni bu boyda müharibə də Fətulla Hatəmlərə təsir eləyə bilmir? Camaatın oğlu qayıtmır, əri itkin düşür, ancaq qəzetlər yenə də Fətulla Hatəmin şəkillərini çap eləyir – Fətulla Hatəm cəbhədəki əsgərlərə məktub yazıb! Fətulla Hatəm faşist köpəyuşağının əleyhinə çıxış eləyib!.. – Elə hazır çıxışdansa, məktubdansa, xalqın əri kimi, oğlu kimi gedib özü vuruşsun də faşistlərlə, nöş getmir? çünki Fətulla Hatəmdir...

...Muxtarın özü üçün elçi getməsi, Ədiləni istəməsi və papaqçı Əbülfətlə Fatma xaladan Ədilənin "hə"sini alması bizim o yetimləmiş küçəmizə, kimsəsizləmiş, gözgörəsi rəngini itirib bozarmış məhəlləmizə nəsə bir canlılıq gətirmişdi, amma günlərin bir payız günü, günlərin bir pis günü, günün günorta çağı anamla birlikdə vayşivən səsinə evdən qaçıb küçəyə çıxdıq.

Ədilə özünü o üçmərtəbənin damından atmışdı.

Anam əlləri ilə mənim başımı qamarlayıb qarnına basdı, qoymadı ki, mən küçənin ortasına düşmüş Ədiləni görüm, amma onsuz da mən özüm, o biri uşaqlar kimi, qaçıb gedib küçəmizin ortasında, qəmbərin üstünə düşmüş Ədiləyə baxmaq istəmirdim, mən daha uşaq deyildim, mənim təcrübəm var idi, mən məhəlləmizin qapıları ağzında qurulmuş çox çadırlar görmüşdüm və mən bilirdim ki, ölüm əbədi ayrılıqdı, bunu daha başa düşmüşdüm, dərk eləmişdim, başımı daha da bərkdən anamın qarnına sıxdım, küçənin hay-küyünü, çığır-bağırını, anamın hıçqırıqlarını eşidə-eşidə Ədiləyçün hönkürüb ağladım.

Anam isti ovcu ilə mənim başımı qarnına sıxmışdı və beləcə də məni evə apardı:

– Qorxma, – dedi. – Qorxma.

Sonra özü də ağlaya-ağlaya həyətə qaçıb bir parç sərin su gətirdi, üzümü yudu, mənə su içirtdi, amma mən heç cür sakit ola bilmirdim və anam da mənim bir söz deməyib beləcə hönkür-hönkür ağlamağımı qorxmağımla yozurdu, ağlına da gətirmirdi ki, o balaca Ələkbər qorxudan yox, kədərdən ağlayırdı və mənim ürəyimi uçunduran o

kədərin yüngül, hətta tamam çəkisiz bir ləkəsi indiyə qədər mənim ürəyimdə qalıb.

Ədilə sağ idi, amma tamam əzilmişdi və onu maşına qoyub xəstəxanaya apardılar.

Bütün məhəllə xəstəxanadan xəbər gözləyirdi, bütün məhəllə Allaha yalvarırdı ki, Ədilə sağalsın və məhəlləmizdə heç kim ağzını açıb Ədilənin qarasına bir söz demirdi, belə bir pis iş tutduğu üçün Ədiləni günahlandırmırdı.

Dörd gündən sonra Ədilə öldü.

Ədilə mənim üçün birinci doğma adam idi ki, ölürdü.

Düzdür, müharibədən məhəlləmizə qara xəbərlər gəlirdi, düzdür, mən şair İbrahimi də, saatsaz Gülağanı da, başqa qara xəbərliləri də yaxşı tanıyırdım, bu ölümlər mənə çox təsir edirdi, mən də bütün məhəlləmiz kimi, bu ölümlərin dərdini çəkirdim, amma Ədilənin ölümündə, elə bil ki, mənim özümün nəsə şəxsi bir payım var idi, elə bil, mənim özümün hansı bir hissəm isə ölmüşdü...

Mən, heç kim görməsin deyə, dalanımızın dibindəki o böyük xartutun altında, ya nöyüt əvəzinə ocaqda yandırılmaq üçün Sarı hamamın həyətinə yığılmış taxta-tuxtanın, şalban qırıqlarının (bunların çoxunu Balakərim oradan-buradan tapıb daşıyıb gətirirdi) arasında bir tərəfə çəkilib Ədilə barədə fikirləşirdim. Ədilənin qara gözlərini, ağ bənizini, o qalın və uzun, o xurmayı hörüklərini, müharibədən əvvəlki o yaz axşamı sirkin bufetində tez-tez qalxıb-enən dolu sinəsini gözlərimin qabağına gətirirdim, mənə elə gəlirdi ki, Ədilə yenə də əlini uzadıb mənim başımı sığallayır və mən qəhərlənirdim, "Sevimli məktub"un o dalğavari qırmızı xətti o vaxt, dalanımızın dibindəki o xartutun altında, ya Sarı hamamın həyətindəki o bir qalaq taxta-tuxtanın arasında mənə yalnız və yalnız dünyanın kədərli işlərindən xəbər verirdi, mən birdən-birə müharibədən əvvəlki o uzaqlıqdan, o keçmişdən qayıdıb gəlmiş qızılgül ətrini də hiss edirdim, amma o qızılgül ətri də o dəm dünyanın kədərli işlərindən xəbər verirdi və mən özüm özümə o "Sevimli məktub"un axırındakı o dörd misranı pıçıldayırdım:

Məktub, səni ad eylərəm,
Poçta əmanət eylərəm.
Gedib Qocaya çatmasan,
Bil ki, qiyamət eylərəm...

Və mənə elə gəlirdi ki, o "Sevimli məktub" ömründə gedib heç kimə çatmayıb, həmişə yolda olub, heç mən özüm də o məktubu oxumamışam və o "Sevimli məktub" həmişə də beləcə yolda olacaqdı, heç vaxt heç kimə çatmayacaqdı və bu yolun beləcə əbədiliyi mənim üçün bütün dünyanın vəfasızlığı idi...

Ədilə bir də heç kimə məktub yazmayacaqdı, Ədilə bir də heç kimə qızılgül ətirli salam təqdim etməyəcəkdi və mən birdən-birə Xanım xala barədə fikirləşdim, Xanım xalanın müharibədən əvvəlki o gözəl yaz gecəsi sirkin qabağında peyda olub qışqıra-qışqıra dediyi – "Nə həyasız qızsan sən, ağəz?!" – sözləri təzədən eşitdim və daha da artıq kövrəldim; əlbəttə, Ədilənin o cür əzablı ölümündə Xanım xalanın təqsiri yox idi, amma, hər halda mən, o dəqiqələrdə Xanım xalanı xatırlamaq istəmirdim, Xanım xalanı gözlərimin qabağına gətirmək istəmirdim, səsini eşitmək istəmirdim, mənim o balaca ürəyim sınmışdı, Ədilənin ölümündən sonra Xanım xaladan incimişdim və mənə elə gəlirdi ki, bir də heç vaxt Xanım xala ilə barışa bilməyəcəyəm.

Ədilənin cənazəsini o üçmərtəbəli binadan çıxartdılar, Molla Əsədulla qabağa düşdü, məhəllənin bütün camaatı cənazənin ardınca qəbiristanlığa tərəf addımlamağa başladı və mən heç cür ağlıma sığışdıra bilmirdim ki, Ədilə indi çiyinlərdə gedən o mafənin içindədir, üstünü şalla, ipək örtüklə o cür basdırıblar, nəfəs almır.

Biz elə bil ki, öyrənmişdik ki, daha ölən adamın özü olmur, yəni müharibədən qara xəbərlər gələndə çadırlar qurulurdu, evlərdə vayşivən qopurdu, təziyə tutulurdu, amma heç kim qəbiristanlığa getmirdi, çünki ölü özü yox idi, uzaq-uzaq ellərin soyuq torpağında qalırdı... İndi isə, yenə də müharibədən əvvəlki kimi, camaat cənazənin ardınca qəbiristanlığa gedirdi və bu mərasimin özü də, elə bil ki, Ədilənin ölümünü daha təsirli, daha yanğılı eləmişdi.

Klarnetçalan Ələkbərin bir gözü şikəst idi, buna görə də müharibəyə getməmişdi və hərdən cəbhədən, xüsusən cavan adamların, hələ evlənməmiş, toyu çalınmamış adamların qara xəbəri gələndə, qapılarında qurulmuş çadırlara girirdi, qutunu açıb tələsmədən klarneti yığırdı və ürəkdən gələn bir yanğı ilə muğamat çalırdı və həmin vaxtlarda Ələkbərin klarneti məhəlləmizin hələ ki, müharibəyə getməmiş kişilərinin də gözünü yaşardırdı, kişilər də, heç kim görməsin deyə, gözlərinə dəsmal tutub çiyinlərini ata-ata səssiz ağlayırdı.

Ələkbər Ədilənin cənazəsinin ardınca gedə-gedə klarnetdə, "Segah" çalırdı və Ələkbərin titrəyən barmaqları klarnetin dillərində gəzdikcə, mənə elə gəlirdi ki, elə bil, Balakərimin danışdığı o uzaq və kimsəsiz səhralar dünyasındayam və o dünyada göz işlədikcə uzanan o səhra qumlarından başqa, gömgöy göydən başqa, bir də ki, o yanıqlı klarnet səsindən başqa heç nə yoxdur, amma o səhrada da, o gömgöy göydə də, o yanıqlı klarnet səsində də Ədilənin qara gözlərinin, qalın və uzun, o xurmayı rəngli qoşa hörüklərinin qüssəsi var idi.

Mərasim bizdən yuxarıdakı məhəllələrdən keçirdi, o məhəllələrdə bir yetimlik var idi, o məhəllələrin də kişiləri, cavanları yox idi, arvadları, qızları dərd əlindən dəyişmişdi, gözləri yolda idi, amma biz Ədilənin cənazəsini aparanda o küçələrin də qapılarının qabağına camaat yığılmışdı, o camaatın da gözü dolurdu, ürəyi yanırdı:

"– Özünü öldürən Saçlı qızdı..." Əlbəttə, bizim bütün məhəlləmiz dərd içində idi, amma o dərd ilə bərabər, məhəlləmizin adamlarının ürəyində söz ilə dilə gətirmədikləri pis bir maraq da var idi və nə gizlədim, o pis maraq o balaca Ələkbərin də ürəyinə sirayət eləmişdi: Xanım xala nə edəcəkdi? Bu dəfn mərasimi zamanı küçədə görünəcəkdi, yoxsa evdə oturacaqdı? Düşmən hesab elədiyi adamların bu dərdli günündə onların gözünə görünəcəkdi?

Xanım xala bir tərəfində Cəbrayıl, o biri tərəfində də Ağarəhim dalandan çıxdı və həmişəki şax addımları ilə gəlib camaata qoşuldu. Xanım xalanın ətrafındakı adamların hamısı, hətta ağlayan arvadlar da səslərini kəsdilər. Heç kim heç nə demədi və hamı o lal sükut içində, Ələkbərin klarnetinin müşayiəti ilə Ədilənin cənazəsinin ardınca addımladı.

Məhəlləmizin yaşlı arvadları Fatma xalanın qoluna girmişdilər, amma Fatma xala imkan tapan kimi əlini başına [illegible] pırpızaqlaşmış saçını yolurdu, əlini üzünə atıb sifətini cırırdı və ağlamaqdan, vayşivəndən batmış səsiylə zarıyırdı:

– Məni öldürəydin!.. – deyirdi. – Cavan canına niyə qıydın?!

Papaqçı Əbülfət əminin sifəti görünmürdü, çünki iri dəsmalını gözlərinə basmışdı, amma mənə elə gəlirdi ki, papaqçı Əbülfət əminin təkcə o iri dəsmalın altında gizlənmiş gözləri ağlamır, bütün bədəni ağlayır, addımları ağlayır, eynindəki paltar ağlayır.

Papaqçı Əbülfət əminin yanında mənim tanımadığım böyük-kiçikli bir dəstə uşaq bərkdən hönkürə-hönkürə ağlayırdı və Cəfərqulu dedi ki, o bir dəstə uşaq Ədilənin bacılarının uşaqlarıdır.

Mən Tamaranı gördüm. Tamaranın da saçları Fatma xalanın saçları kimi pırpızaqlaşmışdı, rəngi ağappaq, gözləri qıpqırmızı idi və həmin dəm mən gedib Tamaranın əlindən tutmaq istədim, Tamaranın yanında addımlamaq istədim, amma getmədim, çünki bilirdim ki, bunun heç bir mənası yoxdur.

Qəssab Dadaşbala yekəqarın, kök bir kişi idi (düzdür, müharibə başlayandan sonra, qarnı da xeyli ərimişdi, özü də arıqlamışdı, amma hər halda yenə də məhəlləmizdə ən kök adam idi) və mən əvvəllər həmişə Dadaşbalaya baxanda yer üzünün qoyunlarına, quzularına yazığım gələrdi, amma indi qəssab Dadaşbala çiyinlərini ata-ata elə ürəkdən ağlayırdı ki, elə bil dünyanın ən ürəyiyumşaq adamı idi (bəlkə, elə, doğrudan da, belə idi?).

Özümdən asılı olmayaraq, hərdən gözlərimlə camaatın arasında Xanım xalanı axtarıb tapırdım: nazik dodaqları eləcə kip örtülmüşdü və qalın qaşlarının altından eləcə irəli baxırdı, amma bir azdan qəbiristanlıqda bir hadisə baş verdi və mən Xanım xalanın kip örtülmüş o nazik dodaqlarının bir anlıq qaçdığını gördüm, gözlərində də bir qığılcım gördüm, amma o qığılcımın mənasını başa düşmədim.

İki qəbirqazan əlinə bel alıb Ədilənin qəbirini torpaqla dolduranda saçlarını yolan, üz-gözünü, sinəsini cıran Fatma xalanın gözləri laldinməz bir tərəfdə dayanmış Xanım xalaya sataşdı və o dəm Xanım xala da Fatma xalaya baxdı və Fatma xala tamam batmış səsiylə boğazının damarları şişə-şişə qışqırdı:

– Çağıracaq sənin oğlunu yanına!.. Çağıracaq!..

Birdən-birə qəbiristanlığa sükut çökdü, hamı istər-istəməz Xanım xalaya baxdı və o qəbiristanlıq sükutu içində yalnız qəbirqazanların bellə yerdən götürdükləri və qəbirə atdıqları torpağın səsi eşidilirdi.

Xanım xala bir söz demədi, necə dayanmışdısa, eləcə də dayandı, gözlərini də Fatma xalanın gözlərindən yayındırmadı və mən Xanım xalanın dodaqlarının bir anlıq, cəmi bircə anlıq qaçmağını da, çatma qaşlarının altından baxan gözlərindəki o bir anlıq qığılcımı da onda gördüm.

Sonra Molla Əsədulla yasin oxudu, məhəlləmizin arvadları Ədilənin təzə qəbirinin üstünə düşüb qalmış, buradan heç hara getmək istəməyən Fatma xalanı güclə çəkib qəbiristanlıqdan apardı, papaqçı Əbülfət əmi də dərd əlindən ağlayan addımları ilə getdi, bütün camaat dağıldı və qəbiristanlıqda üstünə təzə torpaq qalanmış o qəbir, biz

uşaqlar və Balakərim qaldı, sonra mən gördüm ki, Xanım xala da bir yanında Cəbrayıl, o biri yanında Ağarəhim, o təzə qəbirin o biri tərəfində dayanıb, sonra da gördüm ki, qəbirin aşağı tərəfində, bir az aralıda Muxtar dayanıb.

Mən Muxtarı camaatın arasında görməmişdim, qəbiristanlığa nə vaxt gəlməyindən xəbərim yox idi və indi onu qəflətən qəbirin yanında beləcə dayanmış görəndə, elə bil, nədənsə qorxdum.

Muxtar gözlərini o təzə qəbirə zilləmişdi.

Xanım xala da gözlərini o təzə qəbirə zilləmişdi.

Biz cınqırımızı da çıxarmırdıq, gah o təzə qəbirə, gah Muxtara, gah da Xanım xalaya baxırdıq.

Mənə elə gəlirdi ki, qəbiristanlığa çökmüş o sükut heç vaxt pozulmayacaq.

Birdən Xanım xala gözlərini qaldırıb bizə tərəf baxdı və dedi:

– Balakərim, çıxart çal o tütəyi...

Əlbəttə, biz hamımız Balakərimin xasiyyətinə yaxşı bələd idik, bilirdik ki, heç vaxt sifarişlə tütək çalmır və qorxduq ki, birdən indi də Balakərim Xanım xalanın dediyini eləməz, amma Balakərim bu dəfə əlini sarı pencəyinin döş cibinə saldı və tütəyini çıxarıb çalmağa başladı.

Ələkbərin klarnetindən sonra Balakərimin tütəyi zəif səslənirdi, bu tütəyin özündə bir yetimlik var idi və Balakərimin nə çaldığı da məlum deyildi, bu havanı, ancaq Balakərim bilirdi, bu, Balakərimin havası idi və Ələkbərin klarnetindən fərqli olaraq, Balakərimin tütəyi qəbiristanlığın sakitliyini müşayiət etmirdi, əksinə, qəbiristanlığın və o təzə qəbirin sakitliyi Balakərimin tütəyini müşayiət edirdi.

Balakərim bir müddət beləcə çaldı və biz də bir müddət o çalğıya qulaq asa-asa həmin təzə qəbirin üstünə yığılmış bir qalaq torpağa baxdıq.

Sonra Muxtar heç nə demədən geri çevrildi və Balakərimin tütəyinin o çalğısı altında asta addımlarla qəbiristanlıqdan çıxıb getdi.

Mən Xanım xalaya baxırdım və mən o payız günü, o qəbiristanlıqda Xanım xalanı tamam bağışlamışdım, onunla barışmışdım.

Həmin gecə mən yenə də yuxuya gedə bilmirdim, anam da narahat idi, nigaran idi, tez-tez yerindən qalxıb mənim yatağımın yanına gəlirdi, mənə baxırdı, amma mən səsimi çıxartmırdım, gözümü açmırdım və yəqin anam da elə başa düşdü ki, yatmışam, amma o təzə

qəbirin üstündəki o bir qalaq torpaq mənim gözlərimin qabağında idi
və o təzə qəbir günorta olduğu kimi, qəbiristanlıqda deyildi. Molla

– deyirdi, Ağ Dəvənin dediklərindən, elədiklərindən, qədim-qədim
zamanlardakı ca

Mən bütün ömrümdə birinci dəfə idi ki, Şövkətin səsində beləcə açıq-aşkar kədər hiss edirdim.

Balakərim Şövkətə baxdı və mən Balakərimin həmişə yol çəkən o qüssə dolu gözlərində heç vaxt görmədiyim bir təşəkkür, bir minnətdarlıq gördüm – o baxışlar indi də mənim gözlərimin qabağındadır, – eyni zamanda, o baxışlarda birdən-birə hədsiz bir sədaqət yaranmışdı və mən heç vaxt təsəvvür etməzdim ki, kiminsə baxışları Şövkətə bu cür təsir edə bilərmiş; Şövkət Balakərimin o baxışları altında qızardı, başını aşağı saldı, otağına girdi, heç vaxt örtmədiyi bir ehmalla qapını örtdü və mən buna tamam əmin idim ki, Şəvkət də öz otağında mənim anam kimi, doyunca ağladı, ürəyini boşaltdı.

Bizim dalanımızın qabağında dalbadal düzülüb dayanan o avtobus da, o "polutorka"lar da, elə bil ki, çox uzaq bir keçmişdə qalmışdı; o avtobus da yox oldu, o "polutorka"lar da bir-bir azaldı, Cəfərdən, Adildən, Əbdüləlidən sonra, Qocadan sonra, Cəbrayıl da müharibəyə getdi, şagirdliyi qurtarıb sürücülüyə başlamış Ağarəhimin təzə (yəni bizim üçün, bizim küçəmiz üçün, bizim dalanımızın ağzı üçün təzə, əslində isə köhnəlib əldən düşmüş bir maşın) "polutorka"sı bir müddət tək-tənha bizim dalanın qabağında dayandı və o tək maşına baxanda həmişə mənə elə gəlirdi ki, o maşın da Cəfərin, Adilin, Əbdüləlinin, Cəbrayılın haçansa burada dayanmış o maşınları üçün darıxır, mənə elə gəlirdi ki, o tək maşın da bizim küçəmiz kimi, dalanımız kimi, həyətimiz kimi qüssə içindədir.

Xanım xala əvvəlkindən də az danışırdı, dodaqları demək olar ki, tərpənmirdi, gözləri yenə də əvvəlki kimi zabitəli idi, amma mən Xanım xalanın o kip örtülmüş nazik dodaqlarına baxırdım, o zabitəli gözlərinə baxırdım və hiss edirdim ki, Xanım xala bir əlacsızlıq içində əzab çəkir; Xanım xala bilirdi ki, Ağarəhim də vaxtı çatan kimi cəbhəyə gedəcək. Xanım xala bi[illegible]

ilə (mən evdə olmayanda bir əli ilə bişirirdi, o biri əli ilə də burnunu tuturdu) iyrənə-iyrənə bişirirdi və mənim üçün nuş olsun deyə, tərifləyə-tərifləyə gətirib qabağıma qoyurdu, sonra tələsik üzünü məndən gizlədirdi, amma mən bilirdim ki, bu günə düşdüyüm üçün, yəni mənim o iyrənc tısbağa yumurtasının tozundan bişmiş bir şeyi yeməyə məcbur olduğum üçün, anamın gözləri dolub və mən anamın xatirinə (həm də ac olduğum üçün!) tısbağa yumurtasının tozundan su ilə bişirilmiş, yağsız horra kimi bir şeyi yeyirdim.

Mən anamın yanağından axan o iki damla göz yaşını görmürdüm, amma o iki damla göz yaşı, o qüssəli, kədərli, köməksiz iki damla göz yaşı, qəribədir, o qüssəsinə, kədərinə, köməksizliyinə baxmayaraq, şəffaf olduğu üçün, təmiz olduğu üçün hərdən həyətimizin ortasındakı o nazik söyüd ağacının məhəbbətini (bəlkə də sevincini!) mənim ürəyimə doldururdu; əlbəttə, o məhəbbətdə də bir həzinlik var idi, qüssə, kədər də var idi, amma hər halda məhəbbət idi, istək idi: o nazik söyüd müharibənin o ağır çağlarında da doyunca su içirdi, çünki bizim həyətimizin ortasındakı o krantın suyu heç vaxt kəsilmirdi, bumbuz Şollar suyu istədiyi vaxt – gecə də, gündüz də şırhaşır axırdı və o suyun sərinliyi indiyə kimi mənim əllərimdə, üzümdə qalıb, o suyun şəffaflığı (anamın o iki damla göz yaşı kimi şəffaflığı!) həyətimizin, dalanımızın, küçəmizin o qəmgin günlərinin, o yetim günlərinin, əslində, yeganə könül oxşayan, yeganə fərəh gətirən (qoy lap kiçiçik olsun...) bir xatirəsi idi.

Cəfər, Adil, Əbdüləli, Qoca, Cəbrayıl və axırda da Ağarəhim müharibəyə gedəndən sonra, Xanım xala tək qalandan sonra, bəzən mən onun şüşəbəndin pəncərəsindən həyətimizin ortasındakı o kranta baxdığını görürdüm və mən də Xanım xalanın hələ də zabitəli o gözləri ilə qurşaqdan yuxarı soyunub o krantın altında yuyunan Cəfəri, Adili, Əbdüləlini, Qocanı, Cəbrayılı, Ağarəhimi görürdüm və mənim

Anam, müharibəyə getmiş atamın dərdini çəkirdi, mənim yetimliyimin, aclığımın dərdini çəkirdi, bir də ki, – mən bunu açıq-aşkar görürdüm – Xanım xalanın dərdini çəkirdi, hərdən Xanım xalanın şüşəbəndinə tərəf baxırdı, başını bulayırdı, ah çəkirdi, gözləri dolurdu. "Yazıq arvad..." – deyə, pıçıldayırdı və mən əvvəlcə anamın pıçıldadığı bu sözləri Xanım xalaya yaraşdıra bilmirdim, çünki mənim fikrimcə hamı yazıq ola bilərdi, hətta bizim küçəmiz, dalanımız, həyətimiz də yazıq ola bilərdi, hətta şüşəbənddə, əynindəki alt köynəyində Kübra xalanın dibçəklərini sulayan Muxtar da yazıq ola bilərdi, amma Xanım xala heç cür yazıq ola bilməzdi; amma sonralar anam: "–Yazıq arvad..." – deyib pıçıldayanda mən həmin uyuşmazlığı daha qabaqkılar kimi hiss etmirdim...

Xanım xala hərdən bizim həyət qapımıza tərəf baxırdı və belə anlarda mən o sərt qara gözlərdə bir nigarançılıq, hətta səksəkə görürdüm, mənə elə gəlirdi ki, hər dəfə bizim həyət qapımız açılıb-örtüləndə, hər dəfə bizim dalanımızdan bir səs gələndə Xanım xala bir qara xəbər gözləyir və həmişə də hamıdan gizlətmək istədiyi o nigarançılıq, o səksəkə içindədi.

Bir dəfə İbadulla müharibənin o qıtlığı içində də haradansa araq tapıb içmişdi, yenə dalanımıza gəldi, yenə Əminə xalanın çığırtısı dalanımıza yayıldı, İbadulla yenə də bütün dünyanı söyə-söyə Əminə xalanın həyətindən çıxdı və ayaqları ayaqlarına dolaşa-dolaşa gəlib bizim həyət qapımızın ağzında Xanım xalayla rastlaşdı, yəqin o, keçmiş günləri yadına saldı, Cəfəri, Adili, Əbdüləlini, Qocanı, Cəbrayılı, Ağarəhimi yadına saldı və nifrət dolu kefli gözləri ilə Xanım xalaya baxa-baxa:

– Hə, nə bilmisən sən nemesləri? – dedi. – O əclaf nemeslər mən ölüm, sən ölməsən bilmirlər e!.. – Bir-bir çaxacaqlar gülləni o yaxbala oğlanlaruvun başına!..

Mən eləcə ayaq üstə dayanıb İbadullaya baxan və bir söz deməyən Xanım xalanın təəssübünü çəkə-çəkə və bütün bədənimlə əsə-əsə:

– Yalan deyirsən, köpəyoğlu! – qışqırdım.

İbadulla:

– Köpəyoğlu sənün o həmşəri atondu! – dedi. – Onun da boş başına bir dənə güllə çaxacaqlar!..

Mən yenə də:

– Yalan deyirsən! – qışqırdım və özümü saxlaya bilməyib bərkdən ağladım. Həmin gündən sonra bir müddət Xanım xaladan qaçırdım, gözlərinə görünmək istəmirdim, sıxılırdım, çünki mən Xanım xaladan utanırdım; mən təkcə ona görə utanmırdım ki, özümü saxlaya bilməyib eləcə bərkdən ağladım, həm də (və ən əsas!) ona görə ki, Xanım xala mənim gözlərimin qabağında eləcə köməksiz, tənha idi...

XXIII

Bir dəfə, bir-iki il bundan əvvəl, televiziya ilə çıxışım var idi, ora getməli idim, amma qarajı açıb maşını çıxarmağa həvəsim yox idi, küçəyə düşüb taksi tutdum.

Çıxışımı yazmağa və ümumiyyətlə, bu çıxış barədə fikirləşməyə macal tapmamışdım, vaxtım olmamışdı və indi taksidə gedə-gedə nə deyəcəyim barədə düşünürdüm. Deməyə daha söz qalmamışdı, insan nə qədər söz işlədə bilər? Yenə də özümün özümə acığım tutdu: bu mürəkkəb dünyanı nə üçün özüm üçün daha artıq mürəkkəbləşdirirdim? və işim var mənim bu qədər lazımsız görüşlərdə? Bu lazımsız çıxışlar nəyimə gərəkdir mənim? Başqasının nəyinə gərəkdir? Niyə bir küncə çəkilib yazımı yazmıram?

Bəlkə, yaza bilmirəm, ona görə?

Taksini saxlatmaq istədim, düşüb piyada, rahat, azad gəzə-gəzə evə qayıtmaq istədim, hərçənd bu istəyin altındakı qatda başa düşürdüm ki, havayı istəkdi, bu gün taksini saxlatdırsam da, sabah taksi yenə də yolda olacaq, çünki mən gərək nə vaxtsa ilk dəfə taksiyə minməyəydim...

Özümün özümə gülməyim tutdu: taksinin nə günahı?

Bu vaxt taksi sürücüsü soruşdu:

– Ələkbər məllim, necəsiz?

– Yaxşıyam, çox sağ olun – dedim və sürücüyə baxdım: başının ortası tamam tökülmüş, ağappaq qıvrım saçlı, çal bığlı bir kişi idi və mən bu yaşlı adamı tanımırdım.

Əvvəllər, o vaxtlar ki, Bakının camaatı, xüsusən, rayonlardan gəlib Bakıda ali məktəblərdə oxuyan tələbələr küçədə, bazarda, bulvarda məni görəndə təzəcə tanımağa başlayırdı, cavan qızlar məni hələ

təzəcə bir-birlərinə göstərə-göstərə: "– Tanıdın kimdir?.." – pıçıldayırdı, onda beləcə tanınmağım, seçilməyim, deyə bilmərəm ki, məni xüsusi sevindirirdi, amma hər halda mənə xoş gəlirdi, sonra illər keçdi və bu da adi bir işə çevrildi, elə bil ki, belə də olmalı idi; bu dəfəki taksi sürücüsü isə təzədən:

– Ələkbər məllim, tanımadız məni? – soruşdu.

Mən yenə də bu daz başa, bu ağappaq qıvrım saçlara, günün altında yanıb qaralmış bu sifətə baxdım və:

– Vallah, – dedim, – yaddaş qalıb ki?..

O yaşlı taksi sürücüsü dedi:

– Cəfərquluyam də!..

Mən əvvəlcə başa düşmədim ki, söhbət kimdən gedir, sonra o taksi sürücüsünü birdən-birə tanıdım, daha doğrusu, tanıdım sözü burada əslində yerində deyil, çünki mənim o uzaq keçmişdəki Cəfərqulu dostumla bu yaşlı taksi sürücüsünün arasında heç bir oxşarlıq yox idi və mən onu tanıya bilməzdim, adicə olaraq, mən başa düşdüm ki, bu adam qətiyyən, tanımadığım bu yad adam həmişəlik uzun-uzun illərin arxasında qalmış o balaca, o cəld, şəvə kimi qıvrım qara saçları günün altında parıldayan Cəfərquludur. Sonra mən o qara qıvrımsaçlı Cəfərqulu ilə küçədə oynayan, yoldaşlıq eləyən o balaca Ələkbəri gördüm və özümün də o balaca Ələkbər üçün beləcə bir yadlığımı hiss elədim.

Cəfərqulu (?!) gözlərini yoldan çəkməyərək gülümsəyə-gülümsəyə dedi:

– Yaduvuza gəlir də, Ələkbər məllim, mələdə hamı deyirdi ki, siz böyük adam olacaqsız, kitablar yazacaqsız?.. Allaha and olsun, bir dəfə görmədim bu yaşıma qədər ki, mələnin sözü düz çıxmasın!.. Maşallah, indi sizin hörmətiniz Fətulla Hatəmdən də çoxdu!

Mən bu yaşlı taksi sürücüsünə baxırdım və bu adama çox söz demək istəyirdim, demək istəyirdim ki, mənə müəllim demə, mənimlə "siz"lə danışma, ondan çox adamı soruşmaq istəyirdim, çox söz soruşmaq istəyirdim, soruşmaq istəyirdim ki, Balakərim necə oldu? Şövkəti soruşmaq istəyirdim, o qoşa tut ağacını soruşmaq istəyirdim, soruşmaq istəyirdim ki, hanı o qıvrım qara saçlar, Cəfərqulu, Ağ Dəvənin nağılları yadına gəlirmi, Cəfərqulu? Amma heç nə demirdim və heç nə soruşmurdum, mənə nə olmuşdu, bilmirəm... Yaxşı ki, Cəfərqulu özü

danışırdı, oğlundan, qızından deyirdi, təzəcə anadan olmuş nəvəsindən deyirdi.

Mən gülümsəyirdim, başımı tərpədə-tərpədə, Cəfərqulunun sözlərini təsdiq edirdim və özümün özümə yazığım gəlirdi... Ona görəmi ki, illər beləcə sürətlə keçib-gedib? Ona görəmi ki, beləcə bir sürətlə də əvvəl uzaqlaşır, son isə yaxınlaşır?

Cəfərqulu danışırdı və gülürdü.

– Yaduvuza gəlir, Ələkbər məllim, bir dəfə o Muxtarın şüşəbəndini necə vurub şüşəsini sındırduz?! – Cəfərqulu başını bulaya-bulaya bərkdən güldü, sonra sidq-ürəkdən gələn bir maraqla yəqin ki, həmin o uzaq günü – mənim Muxtarın şüşəbəndinin şüşəsini sındırdığım o günü yadına salıb soruşdu: – Bu necə işdi ki, ay Ələkbər məllim, dünya dəyişir, ancaq o Fətulla Hatəm dəyişmir, hə? Televizoru açırsan, danışır, qəzeti açırsan, şəkli qəzetdə, özü də həmişə böyük vəzifələrdə, hə?? Necə olur bu? Raboçi adamam da, pryamoy soruşuram sizdən!..

Mən də gülümsəyib çiyinlərimi çəkdim:

– Nə bilim, vallah...

– Gecələr necə yatır e, o, Ələkbər məllim? O yazıq Səttar Məsumlar gəlib girmir onun yuxusuna?

Mən yenə də çiyinlərimi çəkdim, gülümsədim:

– Nə bilim... – dedim. – İnsan çox mürəkkəb məxluqdur də... hər bir adamın özüyçün bir bəraəti var...

Cəfərqulu güldü:

– Məniynən belə çətin sözlərlə danışmayın e, Ələkbər məllim, başım çıxmır mənim belə sözlərdən!.. Mən də köçdüm də mələdən, Ələkbər məllim, indi sedmoy mikrarayonda oluram, beş ildi, yaxçı üç otağım var sağlığıvıza, telefonu-zadı, hər şeyi, ancaq, Ələkbər məllim, mələ başqa şeydi!..

Cəfərqulu mənimlə görüşünə ürəkdən şad idi; bu görüşdən heç bir umacağı yox idi, mənim susub qalmağımı da vecinə almırdı, danışırdı və gülürdü. Gəlib televiziya idarəsinin qabağına çatanda dedi:

– İbadulla yaduvuza gəlir, Ələkbər məllim? Zarazanın biri idi!.. – Və yenə də ürəkdən güldü.

Cəfərqulu əvvəl ilə son arasındakı məsafədə də özünü taksi maşınının sükanı arxasındakı kimi sərbəst və rahat hiss edirdi.

XXIV

Həyətimizin ortasında, krantın altındakı o balaca çarhovuzun yanında əkilmiş o söyüd böyüyürdü, hər dəfə yaz gələndə təzə qolları, budaqları yarpaqlayırdı və o söyüd ağacı ilə birlikdə mən də böyüyürdüm.

Mən böyüyürdüm və böyüdükcə də çox şeyi başa düşürdüm, mən satmaq sözünün də məcazi mənasını bilirdim və bilirdim ki, insan insanı sata bilər, amma mənim aləmimdə şair adi insan deyildi, şair insandan böyük idi, insandan uca idi və bir dəfə mən Balakərimdən soruşdum:

– Şairi satmaq olar?

Balakərim:

– Olar... – dedi.

XXV

Bir dəfə yazın təzə gələn vaxtlarıydı, bilmirəm qırx üçüncü ilin, ya qırx dördüncü ilin – dəqiq yadımda deyil – apreli təzəcə girmişdi və bizim məhəllədəki o qoşa tut ağacı da oyanmışdı, çırtlayıb çıxmış, tumurcuqlar qolbudağını bürümüşdü və bir dəstə sərçə gəlib o qoşa tuta qonmuşdu, həmin körpə tumurcuqları dimdikləyib yeyirdi.

Müharibə başlanandan sonra sərçələr bizim məhəllənin uşaqlarından pişiklərdən də artıq qorxurdu, çünki hərəmiz əlimizdə bir quşvuran gecə-gündüz sərçə axtarıb vururduq və o sərçə əti bizim üçün təkcə dünyanın ən dadlı əti deyildi, eyni zamanda, başımızı ucaldan bir şey idi; həmin vurulmuş sərçələr bizim küçəmiz kimi, dalanımız kimi, həyətimiz kimi yetimləmiş ürəyimizə bir fərəh, qürur hissi gətirirdi, çünki biz kişi kimi evə ət gətirirdik, yemək gətirirdik, elə gün olurdu ki, hərəmiz səkkiz dənə, on dənə sərçə vururduq və elə günlərdə anam da mənimlə bir yerdə sərçə əti yeyirdi, durub nədən ötrüsə mətbəxə gedəndə, ya həyətə çıxanda mən öz payımdan götürüb anamın boşqabına qoyurdum, çünki mən istəyirdim ki, vurub gətirdiyim o sərçələrdən anam çox yesin, amma yavaş-yavaş sərçələr həm azaldı,

həm də bizi yaxşıca tanımağa başladı, qaraltımızı görən kimi ürküb uçuşurdular.

Sərçələr də aclıq çəkirdi və gözgörəsi kiçilmişdilər, lap balacalaşmışdılar.

Həmin yay səhəri mən, hələ müharibəyə getməzdən əvvəl, Cəbrayılın bağışladığı köhnə təkər kamerasından kəsib düzəltdiyim quşvuranı əlimdə tutub qoşa tut ağacının altında dayanmışdım və o bir dəstə sərçənin haray-həşir sala-sala acgözlüklə o körpə tumurcuqları dimdikləyib yeməklərinə baxırdım.

Sərçələr ac idi, o körpə və yəqin ki, dadlı tumurcuqların cazibəsi qorxuya üstün gəlmişdi, sərçələr mənim qoşa tutun altında dayanmağımdan ürküb uçuşmurdu və mən də, qəribədir, həmin yaz səhəri əlimdə hazır tutduğum quşvuranı qaldırıb sərçələri vurmaq istəmirdim.

Mənim o qoşa tut ağacının körpə tumurcuqlarına yazığım gəlirdi, qorxurdum ki, sərçələr o tumurcuqları yeyib qurtarar, ağaclar daha yarpaqlamaz, amma mənim bambalaca olmuş o sərçələrə də yazığım gəlirdi və onları vurmaq istəmirdim, başımı yuxarı qaldırıb elə-eləcə tamaşa edirdim.

– Ələkbər!..

Mən o sərçə civiltisi içində beləcə birdən-birə öz adımı eşitməyimə bir balaca diksindim.

Şövkət evinin küçə qapısına söykənib səkidə dayanmışdı və mənə baxırdı.

Mən o qırmızı fitəni daha çoxdan açıb çıxartmışdım, həmişəki şalvar da əynimdə idi, amma Şövkəti bu cür qəflətən görəndə yenə özümü itirdim və hiss etdim ki, Şövkət hələ mənə bir söz deməmişdən, bir atmaca atmamışdan qıpqırmızı qızarıram.

Şövkət gülümsəyə-gülümsəyə mənə baxırdı və mən bilirdim ki, indicə Şövkət nəsə elə bir söz deyəcək ki, bilməyəcəyəm nə eləyim. Şövkətin deyəcəyi o sözlər məni də o civildəşən ac sərçələr kimi, lap kiçildəcəkdi, lap balacalaşdıracaqdı və mən, həmişəki kimi, yenə də qaçıb getmək istədim, amma bütün gücümü yığıb özümü saxladım, çünki beləcə gözgörəsi qaçmağımı daha özümə sığışdırmırdım.

Şövkət mənim cəmi üç addımlığımda dayanmışdı və mən ömrümdə birinci dəfə Şövkətin gözlərində nəsə elə bir şey gördüm ki,

əvvəllər o cür şaqqanaq çəkib gülməyilə, bu taxta skamyada oturub Ziba xaladan aldığı tumu çırtlamağı ilə, göz vurmaları, atmacaları ilə heç cür uyuşmurdu.

Şövkət qalın, ətli dodaqlarındakı həmin yüngül təbəssümlə:

– Yenə qaçmaq istəyirsən? – soruşdu.

Mən bir söz demədim. Dizlərim əsirdi və buna görə də mən özüm öz xəcalətimi çəkirdim.

Sonra o yüngül təbəssüm birdən-birə Şövkətin qalın, ətli dodaqlarından çəkildi və mənə elə gəldi ki, Şövkətin də gözləri yol çəkdi və mən buna təəccüb etdim, çünki Şövkətin yaxın bir adamı yox idi, nə əri, nə qardaşı, nə də ki, oğlu müharibədə idi. Düzdür, Balakərimin də heç kimi yox idi, heç kimi müharibəyə getməmişdi, Balakərimin də gözləri həmişə yol çəkirdi, amma Balakərim başqa idi. Balakərimin gözləri hələ müharibə başlamazdan da əvvəl beləcə yol çəkərdi... Müharibə başlanandan sonra bizim məhəllənin bütün arvadlarının, qızlarının gözləri yol çəkirdi, çünki əzizləri müharibədə idi, amma, axı, bizim məhəllənin bütün arvadları, qızları başqa idi, Şövkət başqa... Mən heç vaxt Şövkəti beləcə ciddi, beləcə fikirli görməmişdim; sonra da Şövkət, elə bil, özü özü ilə danışdı:

– Mən nə eləyim axı, mən başı batmış, şapalaqla üz qızardıram də... Gərək elə burnumu sallayım, öz günümə ağlayım səhərdən axşamacan?.. Onda yaxşı olaram camaat üçün mən?..

Sonra da Şövkət özü özü haqqında biədəb bir söz deyib evinə girdi və qapını bağladı.

Sərçələrin civiltisi aləmi başına götürmüşdü.

Mən gözlərimi Şövkətin küçə qapısından çəkib başımı qaldırdım və yenə də o bir dəstə ac sərçəyə baxdım.

bayaqkı açgözlüklə, tələsə-tələsə o körpə tumurcuqları

az səhəri mənim o körpə tumurcuqlara çox yazığım gə-
mənim o kiçilmiş, o balacalaşmış sərçələrə də yazığım
min yaz səhəri mənim Şövkətə də yazığım gəlirdi.
ə də Şövkətin küçə qapısına baxdım.
gəlirdi ki, bu qapı bir də heç vaxt açılmayacaq, Şövkət
xt bu taxta skamyada oturmayacaq, heç vaxt gülməyəcək.
üssəli bir hiss idi.

XXVI

Hanı o qara qıvrım saçlar, Cəfərqulu?..

Axır vaxtlar tez-tez fikirləşirəm ki, Cəfərqulu taksi sürücüsü olmayaydı, mənim kimi yazıb-pozan bir adam olaydı, bizim məhəllədən necə yazardı? O müharibə günlərini, məhəlləmizin o yetimliyini, məhəlləmizin bütün divarlarına, hətta səkilərə, qəmbər küçəyə hopmuş o kədəri necə təsvir edərdi?

Amma bunun nə mənası var?

Mənim üçün məhz taksi sürücüsü Cəfərqulunun xatirələri ilə, məhz taksi sürücüsü Cəfərqulunun görümləri ilə, yaddaşı ilə bizim məhəlləmizə qayıtmaq maraqlıdır, yazıçı Cəfərqulunun yox.

XXVII

O tut ağacının ağlamağı indiyə qədər yadımda qalıb və indinin özündə də bəzən mənə elə gəlir ki, qəzet cırılanda o cırıltı həmin qəzetin ağlamağıdır, yaxud əlindən yerə düşüb çilik-çilik sınan güzgünün səsi də həmin güzgünün ağlamağıdır.

O qış günü gün elə çıxmışdı ki, adamın üzünə elə gülürdü ki, elə bil dünyada heç bir müharibə yox idi, heç bir ölüm-itim yox idi, elə bil Xanım xalanın altı oğlu, məhəlləmizin bütün cavanları, kişiləri, **mənim atam müharibədə deyildi, həmişəki kimi öz evlərindəydi, elə bil, dünyada heç kim ac deyildi və heç kim qışın soyuğundan üşüm-üşüm üşümürdü. Dünyanın alçaq işlərinin öz qanunları var və bu qanunlardan da biri ondan ibarətdir ki, müharibə v**

ğun dərəcəsi dəyişir, misal üçün, müharibə vaxtı termometr mənfi 2 göstərirsə, bu, dinc günlərin mənfi 2-si olmur, müharibə günlərinin mənfi 2-si dinc günlərin mənfi 20-sinə bərabər olur, üşüdür, üşüdür.

Həmin üşüm-üşüm üşüdüyümüz qış günü o tut ağacının ağlamağını birinci Cəfərqulu eşitmişdi, bizim dalanın dibinə qaçmışdı və görmüşdü ki, İbadulla yekə mişarla ağacı kötüyündən kəsir.

Biz dalanımızın dibinə yığışıb İbadullanın o xartut ağacını kəsməyinə tamaşa edirdik və İbadulla hər dəfə iridişli yekə mişarı tutun gövdəsinə çəkəndə mənə elə gəlirdi ki, eşitdiyimiz o səs mişarın səsi

Sərçələr
dımdıkləyir
Həmin y
lırdı, amma
gəlirdi və h
Mən yer
Mənə el
bir də heç v
Bu çox

deyil, tut ağacının ağlamağıdır və mən bütün diqqətini əlində işlətdiyi o iridişli yekə mişara vermiş İbadullanın pərtdə ala gözlərinə baxa-baxa bütün ürəyimlə fikirləşirdim ki, nə yaxşı ki, mən İbadullanın oğlu deyiləm, nə yaxşı ki, İbadulla mənim qardaşım deyil və nə yaxşı ki, dünyada Ağ Dəvə var və o Ağ Dəvə, əlbəttə, mütləq bir gecə gələcək, İbadullanın yaşadığı evin qapısında yatacaq.

Mən lap balaca olanda – onda hələ müharibə başlamamışdı və bizim məhəllədə, əlbəttə, heç kimin ağlına da gəlmirdi ki, iki-üç ildən sonra bizi hansı günlər gözləyir – həyətimizdə ya Əbdüləli, ya Qoca, ya Cəbrayıl mənə cürbəcür fokuslar göstərirdi və həmin gözəl fokuslardan biri də bundan ibarət idi ki, sağ əl ilə sol əlin baş barmağını qapayıb tuturdular, sonra sağ əli yuxarı qaldırırdılar, sol əlinin baş barmağı yox olurdu: "– Görürsən, Ələkbər? – deyirdilər. – Barmaq yoxdu!" Mən gülürdüm: "– Gizlətmisən! – deyirdim. – Bax! – deyirdim və qapanmış sol əli açırdım: Bude!" – deyirdim, yumub ovcun içində gizlətdikləri baş barmağı dartıb qaldırırdım və yaxşı bildiyim bu fokus həmişə mənə ləzzət verirdi, daha doğrusu, mənə ləzzət verirdi ki, böyüklərin bicliyini başa düşürdüm, məni aldada bilmirdilər...

Həmin vaxtlar bir dəfə İbadulla dalanımızın qabağındakı səkidə oturmuşdu və məni görəndə: "– Gəl bura, – dedi. – Sənə fokus göstərəcəyəm". Düzdür, mənim İbadulladan xoşum gəlmirdi, amma fokuslardan xoşum gəlirdi və mən gəlib İbadullanın qabağında dayandım. İbadulla sağ əlini sol əlinin üstünə yummuşdu: " – Bax, – dedi, – indi barmağım yox olacaq". Mən gülüb: "– Bilirəm" – dedim. İbadulla: "– Nə bilirsən, alə? – dedi. – Heç nə bilmirsən sən! Bax!" – İbadulla sağ əlini yuxarı qaldırdı və mən gözlədiyim kimi, sol əlinin baş barmağı yox oldu. Mən gülə-gülə: "– Bude, ovcunun içində gizlətmisən barmağuvu!" – dedim və İbadullanın yumulmuş sol əlini arxayın-arxayın açmağa başladım; kip örtülmüş barmaqlarının birini açdım, ikincisini açdım, üçüncüsünü açdım, çeçələ barmağını da açdım və mən gördüm ki, İbadullanın baş barmağı doğrudan da yox olub, əlinin o tərəfinə baxdım, bu tərəfinə baxdım və dəhşət məni bürüdü, başımın tükləri qabardı, çünki mən onda bilmirdim ki, İbadullanın sol əlinin baş barmağını haçansa balta kəsib. İbadulla birdən gülməyə başladı, mən isə

İridişli, yekə, enli mişar tamam ağacın gövdəsinin içinə girdi və mişar o xartut ağacının gövdəsinin içində ora-bura gedib-gəlincə, ağacı kəsdikcə, mənə elə gəlirdi ki, həmin kəsik yerinin hər iki tərəfindən tökülən ağ-sarımtıl taxta kəpəyi o xartut ağacının qanıdı və onda o balaca Ələkbər özü üçün xeyli müddət yadından çıxmayan və ona çox mənalı görünən belə bir kəşf etdi ki, qan həmişə qırmızı rəngdə olmur.

İbadulla dalanımızın dibinə yığışıb o xartut ağacının kəsilməyinə tamaşa edən uşaqlara, yəni bizə fikir vermirdi və cidd- cəhdlə öz işini görürdü, hərdənbir dayanıb belini düzəldirdi, baş barmağının yerini ovuşdururdu və o dəqiqələrdə mən çox istəyirdim ki, İbadullanın sol əlindəki baş barmaq yeri ağrısın, yara olsun, İbadullanı incitsin, göynətsin.

Biz bir-birimizin yanında dayanıb xartut ağacının kəsilməyinə tamaşa edirdik və heç birimiz səsimizi çıxartmırdıq, heç birimiz tərpənmirdik; bilmirəm bizə nə olmuşdu? Biz nədən qorxurdux? Və onda mən bütün yer üzündə bir yiyəsizlik hiss etdim, məni bir acı hiss bürüdü və həmin acı hiss mənə başa saldı ki, dünyada yiyəsizlikdən müsibət bir şey yoxdur və yəqin İbadullanın xartutu kəsməyinə tamaşa eləyəndə bizi qorxudan da o yiyəsizlik hissi idi, məhəlləmizin, dalanımızın, bu xartut ağacının yiyəsizliyi idi.

O xartut ağacı birdən-birə mənim üçün çox əziz oldu, sevimli oldu, mənim gözəlim oldu və mən heç vaxt ağlıma gətirməzdim ki, o xartut ağacını, o lal-dinməz ağacı, müharibənin soyuğundan çılpaq budaqları üşüm-üşüm üşüyən o əzizim xartut ağacını bu qədər istəyirəm.

Tut ağacı ağlayırdı və mənə elə gəlirdi ki, İbadullanın pərtdə ala gözlərində pis bir hərislik var və tut ağacının bu ağlayışı da, bizim küçəmizin, dalanımızın eləcə yetimliyi, yiyəsizliyi də İbadullaya güc verir, həvəs verir, mənə elə gəlirdi ki, İbadullanın pərtdə ala gözlərindəki o hərislik bütün ömrü boyu həmişə pusquda dayanıb, necə ki, canavar pusquda dayanır, – yetimlik gözləyib, yiyəsizlik gözləyib, gözləyib ki, Cəfər də, Adil də, Əbdüləli də, Qoca da, Cəbrayıl da, Ağərəhim də müharibəyə getsin və orada ölsün. Birdən-birə mən hiss

gəldi, Xanım xalanın qalın qaşlarının altından baxan gözlərinə baxdım və elə bil ki, Xanım xalanın o gözləri ilə təzədən bir-bir Cəfəri gördüm, Adili gördüm, Əbdüləlini, Qocanı, Cəbrayılı gördüm, Ağarəhimi gördüm və bütün varlığımla hiss etdim ki, bu saat yerdən iri bir qəmbər götürəcəyəm, var gücümlə vurub İbadullanın başını partladacağam, mənim ürəyim bərkdən döyünməyə başladı.

Cəfərqulu mənim yanımda dayanmışdı və birdən gözlərini İbadulladan çəkib başını arxaya çevirdi, dalanımızın ortasında Xanım xalagilin pəncərəsinə tərəf baxdı və mən Cəfərqulunu başa düşdüm, əlbəttə, Cəfər, Adil, Əbdüləli, Qoca, Cəbrayıl, Ağarəhim indi burada olsaydı, hələ müharibə başlamamış o gözəl günlərdəki kimi, avtobus və "polutorka"lar bir-birinin ardınca dalanımızın qabağında düzülsəydi, bu xartut ağacı heç vaxt beləcə ağlamazdı, İbadulla o iridişli yekə, enli mişarı heç vaxt beləcə tutun gövdəsinə yeridə bilməzdi, amma Cəfər də, Adil də, Əbdüləli də, Qoca da, Cəbrayıl da, Ağarəhim də burada deyildilər, müharibədə idilər və orada öləcəkdilər; Həsənağa əmi də, Ağahüseyn əmi də, Əzizağa əmi də, bizim məhəlləmizin bütün kişiləri müharibədə idi və mənim atam da müharibədə idi, hərbi dəmiryolçu idi...

Mənə elə gəldi ki, İbadulla birdən-birə mənim ürəyimin içinə girdi, çünki İbadullanın pərtdə ala gözlərindəki hərislik işıldadı, o hərislik Cəfərin, Adilin, Əbdüləlinin, Qocanın, Cəbrayılın, Ağarəhimin müharibədə ölməyinə, Xanım xalanın dəli olacağına sevindi və bu vaxt Cəfərqulu mənim qulağıma pıçıldadı:

– Gəl, bu zarazanı öldürək gecə!

Mən İbadullanın gözlərindəki o pis hərisliyə baxa-baxa:

– Hə! – pıçıldadım (və o balaca Ələkbər heç vaxt o cür qətiyyətli olmamışdı!).

Cəfərqulu soyuq qış günü hirsdən, həyəcandan qızmış isti əli ilə mənim biləyimi sıxdı və mən başa düşdüm ki, bu, elə-belə söhbət deyil, biz heç vaxt bu cür ciddi danışmamışıq, həyatımızın birinci ciddi söhbətidir və biz doğrudan da gecə İbadullanı öldürəcəyik; mənə elə gəldi ki, o iridişli yekə, enli mişar daha xartut ağacını kəsmir, xırçıldaya-xırçıldaya İbadullanın özünün sümüklərini doğrayır və mənim tüklərim qabardı, mişara keçmiş İbadullanın qıpqırmızı qanının içində ağappaq ağaran sümükləri mənim gözlərimin qabağına gəldi, sonra birdən-birə Xanım xalagilin şüşəbəndində, Qocanın yazı mizinin

üstündə gördüyüm o iri və ağappaq adam sümükləri mənim gözlərimin qabağına gəldi və məni dəhşət basdı ki, neçə müddətdir Xanım xala o iri və ağappaq adam sümükləri ilə bir yerdə təkbətək yaşayır...

İbadullanın əlindəki mişar o xartut ağacının gövdəsinin axırına çıxırdı və bu vaxt mənə elə gəldi ki, ağlayan təkcə o xartut deyil, heç vaxt üzünü görmədiyim faytonçu Həmdulla kişi də indi o xartutla bir yerdə ağlayır; mənə elə gəldi ki, faytonçu Həmdulla kişi yalnız bir vaxt nəzir əkdiyi o xartutun aqibətinə ağlamır, həm də İbadullanı öldürəcəyimizə ağlayır; faytonçu Həmdulla kişi, əlbəttə, o xartutu çox istəyirdi, əlbəttə, oğlunun o xartutu beləcə kəsməyinə də yanırdı, amma hər halda faytonçu Həmdulla kişi İbadullanı da istəyirdi...

İbadulla sonuncu dəfə belini düzəldib sağ əli ilə baş barmağının yerini ovuşduranda Cəfərqulu isti əli ilə mənim biləyimi bir də sıxdı və mən Cəfərqulunun əlinin o istisinin təsirindən anamı fikirləşdim, uzun və isti çörək bıçağımızı götürəcəkdim və gecə biz həmin bıçaqla İbadullanı öldürəcəkdik və məni, əlbəttə, tutacaqdılar, koloniyaya göndərəcəkdilər, anam dizlərinə döyə-döyə ağlayacaqdı, amma anamın o göz yaşları mənə çox təsir etsə də, biz İbadullanı öldürəcəkdik...

Tut ağacı, mənim o ağlayan xartutum gövdəsindən aşıb çılpaq budaqları ilə dalanımızın divarlarını cıra-cıra yerə sərildi və mən bir az yüngülləşdim, hətta sevindim ki, daha hər şey qurtardı, bütün əzab-əziyyətlər sona yetdi, o xartut daha ağlamayacaq və birdən-birə mənə elə gəldi ki, həmin xartut ağacı da bizim məhəllənin kişiləri, cavanları kimi müharibədə həlak olub.

Dalanımızın o cızılmış divarları mənə baxırdı və deyirdi: Öldür İbadullanı! Öldür İbadullanı! Öldür İbadullanı!

İbadulla o iri və itidişli mişarı da əlindən yerə atdı, belini düzəltdi, göyə baxdı və mənə elə gəldi ki, İbadullanın pərtdə ala gözlərindəki hərislik yavaş-yavaş sönməyə başladı, çünki o soyuq qış günü, xartutun həmin sonuncu günü göyün üzündə qəribə bir mavilik var idi və göyün o maviliyi, o təmizliyi İbadullanın gözlərindəki o hərisliyi də [illegible] tutacağı kimi öldürdü – İbadullanın gözlərində yalnız ölü bir hərislik qalmışdı.

Xartut çılpaq qol-budağı ilə yerə sərilmişdi, biz isə yerimizdən tərpənmirdik və İbadulla gözlərini o mavi, o tərtəmiz göydən çəkdi, gözucu bizə baxdı, sonra yerə sərilmiş o xartut ağacına baxdı və həmin hərislik yenə də dirildi. İbadullanın pərtdə ala gözlərini işıldatdı

və İbadulla yenə əlinə balta aldı, bu dəfə tutun çılpaq budaqlarını qırmağa başladı; bir budağı qırdı, ikincisini qırdı, iki əli ilə sapından tutduğu baltanı başının üstünə qaldırıb üçüncü budağı qırmaq istəyəndə, birdən əl saxladı, baltanı yerə atdı və bizə tərəf gəldi.

Uşaqlar İbadullanın bizə tərəf gəldiyini görəndə qorxub dalan boyu üzüaşağı qaçışdı, elə bil, İbadulla taunlu idi, tez-tez gördüyümüz adam deyildi, gözləri tutulmuş yazıq Əminə xalanın oğlu deyildi.

Mən də qaçmaq istədim, amma yerə sərilmiş o yetim tut ağacı, tutun o kəsik kötüyü, qırılmış çılpaq qol-budağı, dalanımızın cızılmış o divarları məni saxladı, qaçmağa qoymadı və mən yerimdə dayandım. Cəfərqulunun isti əli mənim biləyimi sıxırdı və Cəfərqulu da uşaqlara qoşulub qaçmadı, dayandı.

İbadulla gəlib bizimlə üzbəüz durdu və yuxarıdan aşağı düz bizim gözlərimizin içinə baxdı və indi İbadullanın pərtdə ala gözlərində o hərislikdən heç bir əsər-əlamət yox idi; kal və xırıltılı səsi ilə dedi:

– Nə baxursuz mənə, dəvə nalbəndə baxan kimi? Nə qalır ki, adama, bu tut ağacı da qalaydı? Ode, faşistlər oturublar Voronejdə, kef eləyirlər özləriyçün zarazalar! Çünki bu dünya zaraza dünyadı! Adama qalan bir kəfəndi, o da məlum döyül, qismət olacaq, ya yox?

Ancaq bilməyəcəksüz ki, İbadulla anası ölmüş, bu ağacı kəsdi ki, odun eləyib aparıb satsın, balalarını dolandırsın... Bilməyəcəksüz ki, zaraza İbadulla döyüldü, dünyaydı zaraza!..–Və İbadullanın o pərtdə ala gözlərindən bir damla yaş süzülüb sifəti ilə axdı.

Əlbəttə, biz bilirdik ki, (yəni bütün böyüklər belə deyirdi), İbadulla əlinə keçən pulu içkiyə verir, bu odunun pulu da, yəqin, içkiyə gedəcəkdi və İbadullanın gözlərinin beləcə yaşarmağı dalanda yerə sərilmiş o çılpaq, o qolu-budağı qırılmış o xartutun, bizim dalanın divarlarını cırmaqlaya-cırmaqlaya ölən o tut ağacının yazıqlığını, yetimliyini, yiyəsizliyini azaltmırdı, biz ömründə burasını da eşitməmişdik ki, İbadullanın balaları var və yəqin bunu da yalan deyirdi, amma hər halda o soyuq qış günü biz Cəfərqulu ilə bir-birimizə baxıb İbadulladan aralandıq və asta addımlarla keçib dalandan çıxdıq; biz burasını da başa düşürdük ki, daha gecə İbadullanı öldürməyəcəyik.

O gecə mən o yazıq tut ağacı barədə də, İbadullanın ağlamağı barədə də fikirləşirdim, amma ən çox otuz il barədə fikirləşirdim, çünki İbadullanın dediyi o otuz il sözü mənə bəlkə də hər şeydən artıq təsir etmişdi. Otuz ildən sonra mənim otuz doqquz yaşım olacaqdı və mən bunu heç cür ağlıma sığışdıra bilmirdim. Mənim atamın otuz

Həmin yağışlı-sazaqlı qış günü İbadulla, elə bil ki, top lüləsindən çıxmışdı, bir əli ilə pencəyinin həmişə açıq olan ətəklərindən (ömründə əyninə palto geymirdi, həmişə pencəkdə olurdu), o biri əli ilə ortası düyməli altıkünc kepkasının dimdiyindən tutub ayaqları dalanımızdakı gölməçələrə [illegible]

İbadullaya tərəf baxırdı; Əminə xalanın həmişə sulu və donuq olan gözlərində həmin dəm bir fəxarət, bir qürur var idi, elə bil, doğrudan da İbadulla özü təkbaşına, qolunun gücünə gedib Voroneji faşistlərdən azad eləmişdi.

qapıların ağzına yığışdı və İbadulla da yumruğunu düyünləyib bir-bir bu camaatın gözü qabağında oynada-oynada:

– Gördüz!?– dedi. – Gördüz?!

Elə bil indiyə kimi, hamı – pəncərədən baxan, qapıların ağzına yığışan bu dalan camaatı, hətta dalanımızın divarları, qapıları, pəncərələri də İbadullanın böyüklüyünə, İbadullanın gücünə şübhə edirdi, amma indən sonra daha heç bir şübhə yeri qalmamalı idi, hamı İbadullanın böyüklüyünü, İbadullanın gücünü görməli idi.

– Gördüz?! Gördüz necə qovduq oğraş faşistləri Voronejdən?!

Arvadlar, uşaqlar dalanın ortasında dayanıb yumruğunu oynadan və nazik boğazının damarları şişə-şişə var gücü ilə qışqıran İbadullaya baxa-baxa qalmışdı və bilmirdi ki, nə eləsin: İbadullanı ələ salsın, ya pəncərələrdən çəkilsin, qapıları bağlasın, ya da ki, nə eləsin? Hər halda birinci dəfə idi ki, bizim dalanın camaatı İbadullanın Əminə xalanı çığırtmağı münasibətilə qapıya, pəncərəyə toplaşmamışdı, [illegible]

evlərin damlarındakı qarın ağımtıllığı güclə sezilirdi və Sona yerindən qalxdı, əynindəki gecə köynəyində gəlib otağın küçə pəncərəsinin qabağında dayandı, küçəyə baxdı; yox, dəli olmamışdı, dəli olsaydı, onda gərək bu evləri tanımayaydı, bax, o Sarı hamamın qaraltısını, onun yanında Əliabbas kişinin evidi (qapısında da bir yekə qıfıl var, indi burdan görünmür), bir az yuxarıda Xanım xalagilin yaşadığı dalandı (o dalanda bir "pravadnik" də yaşayır və o "pravadnik"in də arvadının adı Sonadır, bir balaca oğlanları da var, adı da deyəsən, Ələkbərdir), o tərəfdə Meyranqulu əmigil yaşayır, o tərəfdə Məşədixanım xalagil yaşayır, Meyranqulu əminin oğlu İbrahim inişil müharibədə öldü, Məşədixanım xalanın oğlu da müharibədə öldü və əgər Sona dəli olsaydı, gərək bunların hamısını yadından çıxaraydı, gərək bu evləri də tanımayaydı, o evlərdə yaşayan adamları da tanımayaydı; yox, dəli deyildi və Gülağanın dodaqlarındakı o xəfif təbəssümü Sona gözləri ilə gördü.

minən on gün idi ki, hiss edirdi: bu evdə nəsə baş verir, amma nə idi? – bilmirdi, daha doğrusu, dəqiq ifadə edə bilmirdi, sözlə deyə bilmirdi və desəydi də dünyada heç kim Sonaya inanmazdı, hamı dəli bilərdi onu və bəlkə Sona doğrudan da dəli olub?

Hər gün səhər durub işə gedirdi, axşam iş qurtaran kimi evə qayıdırdı və işdə də, məhəllədə də adamlarla, ancaq salamlaşırdı, başqa heç nə deyə bilmirdi, söhbət edə bilmirdi və işdə də, məhəllədə də adamlar dilləri ilə bir söz deməsələr də, gözləri ilə deyirdilər, deyirdilər ki, yazıq Sona dəli olub; Sona gözlərdən oxuyurdu bunu.

Adamların nə təqsiri var və Sona adamları necə başa sala bilərdi ki, əvvəlki kimi danışmağı, söhbət eləməyi bacarmır, özündən asılı deyil bu, özü istəyir ki, kimləsə danışsın, kiməsə nəsə desin, nəsə eşitsin, hətta lap gülsün də, amma bacarmır, mümkün deyil, çünki özündən asılı deyil.

Düz üç ay bundan əvvəl Gülağanın bu şəklini albomdan götürdü vo fotoqraf Əlinin yanına getdi. Fotoqraf Əli Sonanı görəndə təəccübdən gözləri bərəldi və indi pəncərənin qabağında dayanıb küçənin qaranlığına baxan Sona bunu da yaxşı yadına gətirirdi. Fotoqraf Əli sual və maraq dolu gözlərini, həmişəki qara paltarını geyib, qara yaylığını bağlamış və Gülağanın ölüm xəbəri gələndən sonra, heç kimlə heç nə danışmayan Sonaya zillədi. Sona o şəkili fotoqraf Əliyə verdi:

– Böyüt bu şəkili.

Fotoqraf Əli şəkili Sonadan aldı, baxdı, sonra Gülağanın sinədən yuxarı çəkdirdiyi bu şəklin arxasına baxdı; şəklin arxasında göy mürəkkəblə yazılmışdı: "Mənim gülüm Sona! Baxanda xatırlama, xatırlayanda bax! Gülağa. Bakı. 13 may 1939-cu il".

– Nə boyda böyüdüm?

– Gülağa nə boydadır, o boyda.

Fotoqraf Əli heç nə demədi, amma Sona başa düşdü ki, fotoqraf Əli nə fikirləşdi.

Fotoqraf Əli fikirləşdi ki, bu yazıq doğrudan dəli olub, elə danışır, elə bil Gülağa indi də sağdır (nə boydadır, o boyda) və bir də ki, ağlı başında olan adam, adam boyda şəkli neyləyir? Ancaq fotoqraf Əlinin Gülağaya hörməti var idi, ümumiyyətlə, özünün ağ ciyəri xəstə olduğu üçün fotoqraf Əli müharibəyə getməmişdi, amma müharibəyə gedənlərin və xüsusən də müharibədə həlak olanların hamısı üçün ürəkdən yanırdı, imkanında nə vardısa eləməyə hazır idi və bu dəfə də

baxmayaraq ki, Sonanın sifarişi adi sifariş deyildi, baxmayaraq ki, indi o boyda foto kağızı tapmaq çox çətin idi, Sonanın verdiyi şəkli geri qaytarmadı.

İki gündən sonra, fotoqraf Əli böyütdüyü şəkli özü gətirib Sonaya verdi və Sona o şəkli otağın divarından asdı.

Gülağa bu şəkli çəkdirəndə, hələ Sona ilə evlənməmişdi və bu o vaxtlar idi ki, Sona Şuşa uşaq evində məktəbi təzəcə bitirib Bakıya gəlmişdi, tikiş fabrikində işə girmişdi və cəmi üç-dörd ay keçəcəkdi, günlərin bir gözəl günündə Gülağa ilə rastlaşacaqdı, sonra Gülağa ilə görüşməyə başlayacaqdılar, sonra Gülağa ilə evlənəcəkdilər və Sona, bax, bu evə, bu otağa gəlin gələcəkdi.

Nə adi sözlər idi: rastlaşmaq... görüşmək... evlənmək...

Bir dəfə, bax, bu çarpayıda, beləcə bir qış gecəsi, beləcə bir qaranlıq içində Sona Gülağanın qucağında idi və təkcə əlləri ilə, qolları ilə yox, bütün bədəni ilə, bütün daxili ilə Gülağanı qucaqlamışdı və demişdi:

– Mən o günü gözləyirdim... Mən bilirdim ki, hansı gün gələcək səni görəcəyəm, sən hansı gün gəlib çıxacaqsan... Mən sənin adını da bilirdim... Səni sifətdən də tanıyırdım...

Gülağa Sonaya inanırdı, bilirdi ki, Sona düz deyir, doğrudan da belədir, Sona onların ilk dəfə rastlaşdıqları günü gözləmişdi, Sona həmin günə qədər ömründə heç vaxt Gülağanı görməmişdi, amma Gülağanı tanıyırdı və görən kimi də tanıdı...

Bir dəfə yay idi, gecənin qaranlığı idi, bürküdən nəfəs almaq olmurdu, ikisi də çılpaq idi; ikisi də çarpayıda uzanmışdı, Sona əli ilə Gülağanın əlindən tutmuşdu və Gülağanın əli Sonanın daxilinə bir sərinlik gətirirdi, təmizlik gətirirdi və Sona həmin qaranlıqda gözlərini tavana zilləmişdi, Gülağanın uşaqlıq vaxtlarından danışırdı.

Gülağa heyrət içində Sonaya qulaq asırdı.

– Bunları mən nə vaxt sənə danışmışam?

Bütün bunları haçansa Sonaya danışmağı Gülağanın yadına gəlmirdi, amma Sonanın dedikləri hamısı həqiqət idi, Gülağa doğrudan da uşaqlıq çağlarında o cür eləmişdi, o cür fikirləşmişdi, o cür ağlamışdı...

– Birdən sən cadugər-zad olarsan a, Sona?..

Sona ürəkdan gülmüşdü:

– A-a-a. Mən səni çox istəyirəm də... Ona görə də hər şeyi bilirəm.

O vaxtlar Sona hərdən işdə də beləcə ürəkdən gülürdü və Sona ilə bir yerdə işləyən qızlar buna məəttəl qalırdılar, çünki beləcə ürəkdən gülməyə bir səbəb yox idi və hamı təəccüblə Sonaya baxırdı, sonra da dünyagörmüş Xədicə xalaya baxırdılar, yəni ki, ay Xədicə xala, bu Sonaya nə olub, belə gülür?! Xədicə xala gülümsəyirdi və deyirdi:

– Bəxtəvərdi də Sona, ona görə belə gülür...

Qızlar bu dəfə maraq və eyni zamanda, hörmət dolu gözləriylə Sonaya baxırdı, çünki bəxtəvərlik barədə, xoşbəxtlik barədə çox oxumuşdular, çox eşitmişdilər, amma bəxtəvərliyi, xoşbəxtliyi beləcə üz-üzə, göz-gözə görməmişdilər.

Bir dəfə Şövkət hamamda qız-gəlinlərlə bir yerdə çimində demişdi:

– Eh, Sonaya nə var ki, e, bəxtəvər başına, soyuq olanda istisi yanında, isti olanda sərini yanında... Gözlərindən görürəm!..

Onda hələ ərə getməmiş qızlar Şövkətin bu sözlərindən əməlli-başlı bir şey başa düşməmişdilər, ərə getmiş cavan gəlinlər isə Şövkətin bu sözlərindən sonra, küçədə rast gələndə həsədlə Sonanın gözlərinə baxmışdı.

Gülağa hündürboylu, enlikürəkli, şümal bir oğlan idi və Xanım xalanın oğlanları ilə birlikdə məhəllənin ən sayılan, hörmətli cavanlarından idi və Gülağa da məhəlləni çox istəyirdi, çünki əvvəlcə atası ölmüşdü, sonra Gülağa on üç-on dörd yaşlarına çatanda anası ölmüşdü və Gülağanı məhəllə böyütmüşdü, evini məhəllə saxlamışdı, Gülağanın atası da məhəlləydi, anası da, qardaşları, bacıları da.

Sonra Sona[illegible]

[illegible] Gülağa üçün dünyada Sonadan başqa heç kim və heç nə yox idi. Düzdür, Sona Gülağanı bütün məhəllənin əlindən aldı, düzdür, məhəllə haradasa bir az Gülağadan incidi də, çünki Gülağa məhəllənin qızlarını bəyənmədi, özü təkbaşına yad bir qız alıb evinə gətirdi, amma bütün bunlarla bərabər, məhəllə Sonanı görəndən sonra, Sonaya fikir verəndən sonra, Sonanı qəbul etdi.

Gülağa ilə Sona bu məhəllədə birinci kişi və qadın xeylağı idi ki, günün günorta çağı, camaatın gözü qabağında qol-qola gəzirdi, yaxud gedəndə əl-ələ tuturdu və ən təəccüblüsü bu oldu ki, məhəllədə heç kim buna pis baxmadı, heç kim Gülağanı tənələmədi, heç kim Sonanın qarasına danışmadı, çünki məhəllə tükü tükdən seçirdi, məhəllə Gülağanı yaxşı tanıyırdı və Sonanı da yaxşı tanımışdı.

O qış gecəsi Sona pəncərənin qabağında dayanıb küçəyə baxırdı.

Bütün gecə qaranlıq içində idi.

Hər tərəfi basmış o qaranlıq içində qarın güclə sezilən ağımtıl parıltısı yer üzünün qaradan başqa da rənglərindən xəbər verən yeganə işarə idi.

Qaranlıq içindəki o qar ağımtıllığı, elə bil ki, yavaş-yavaş artmağa başladı, gecənin qaranlığını aydınlaşdırmağa başladı və Sonaya elə gəldi ki, bütün bunlar bir yuxudur.

Bəlkə doğrudan da yuxudur?

Axır vaxtlar ağ yuxular görürdü.

Gülağanın özünü görmürdü, amma o ağ yuxular Gülağanın nəfəsi idi, Gülağanın baxışları idi, Gülağanın təbəssümü idi.

Bəlkə Gülağanın dodaqlarındakı o xəfif titrəyişi də yuxuda görürdü?

Yox, bütün bunlar yuxu deyildi, bu ağ – o küçədəki, damlardakı, pəncərə sürahilərindəki qarın ağartısı idi, ağ yuxu deyildi, bax, o Sarı hamamın qaraltısıdı, onun yanında Əliabbas kişinin evidir, bir az yuxarıda Xanım xalagilin dalanıdır, o dalanda Sonanın adaşı cavan bir arvad da yaşayır və o arvadın Ələkbər adında balaca və çoxbilmiş bir oğlu da var, Xanım xalanın oğlanlarının da adı Cəfərdir, Adildir, Əbdüləlidir, Qocadır, Cəbrayıldır, Ağarəhimdir və Cəfər də, Adil də, Əbdüləli də, Qoca da, Cəbrayıl da, Aqarəhim də Gülağanın dostlarıdır və hərgah Sona dəli olmuşdusa, bunların heç birini yadında saxlaya bilməzdi...

[illegible] asılmış o fotoşəkilə yenə baxmaq istədi, amma yenə də qorxdu, şamı yandırmadı, gəlib çarpayıda oturdu; nədən qorxurdu? Qorxurdu ki, şəkilə baxar və yenə də o xəfif təbəssümü, dodaqların o xəfif titrəyişini görər? Yoxsa qorxurdu ki, birdən yanılmış olar, başa düşər ki, gözünə görünüb o təbəssüm, o titrəyiş, aldanıb? Sona ikiəlli başını tutdu və yenə də birdən-birə otaqda ikinci bir nəfəs duydu, ikinci bir adam nəfəsi hiss etdi.

Bütün varlığını toplayıb diqqətlə qulaq asdı.

Otaqdakı o ikinci adam nəfəsi lap güclə duyulurdu.

Bu nəfəs, əlbəttə, Gülağanın nəfəsi idi və Sonanın buna heç bir şəkk-şübhəsi yox idi, bu belə də olmalı idi, Sona niyə qorxurdu, niyə ürəyi eləcə döyünürdü, sinəsindən çıxmaq istəyirdi?

Düz üç yüz altmış bir gün idi ki, Gülağa müharibəyə getmişdi və düz iki yüz əlli üç gün idi ki, o yalançı məktub gəlmişdi, o yalançı qara xəbər gəlmişdi.

Üçünc bir məktub idi və Sona o məktubu bir dəfə oxudu, sonra o məktubu ikinci dəfə oxudu, sonra üçüncü dəfə oxudu, orada açıq-aşkar yazılmışdı ki, Gülağa müharibədə həlak olub və Sona da həmin məktubu yüzüncü dəfə, iki yüzüncü dəfə oxuya-oxuya bilirdi ki, ağ yalandır bu, bilirdi ki, Gülağa Sonanı burada tək qoyub özü müharibədə ölə bilməz.

Məhəllə də o qara kağızdan xəbər tutdu və məhəllə Gülağanın yasını saxlamaq üçün Sonagilin evinin qabağında çadır qurmaq istədi, fotoqraf Əli gəlib Gülağanın şəklini istədi ki, yaxadan asmaq üçün kiçildib çoxaltsın, arvadlar, qızlar, gəlinlər ağlaya-ağlaya Sonanın başına yığışdı ki, heç olmasa bir balaca təskinlik versinlər, dərdini bölüşdürsünlər, amma Sona buraya köçüb gəldiyi vaxtdan birinci dəfə məhəllənin üzünə ağ oldu, çadırın taxtalarını quraşdıran adamların üstünə, iri mis samovarını gətirib su ilə doldurmaq istəyən qəssab Dadaşbalanın üstünə qışqırdı, qoymadı ki, qapının ağzında çadır qursunlar, fotoqraf Əlini qovdu, şəkil vermədi, ağlamaq əvəzinə, başına yığışmış məhəllə arvadlarının üstünə qışqırdı:

– Yalandı bu!.. – dedi. – Yalandı bu!.. Yalandı!.. – dedi.

Sona qoymadı ki, Gülağa üçün yas saxlasınlar, çünki o qara xəbər ağ yalan idi, Gülağa ölməmişdi, Gülağa ölə bilməzdi, çünki bu dünyada heç bir günahı yox idi, heç bir pis iş görməmişdi və ona nə üçün güllə dəyməliydi, nə üçün durduğu yerdə qanına qəltan olmalı idi? Sona burada tək idi, Sona burada qalmışdı, sağ idi və Gülağa orada necə ölə bilərdi, güllə Gülağanı necə tuta bilərdi?

Saat neçə idi görəsən? İki idi? Üç idi? Dörd idi?

Gülağa saatsız idi və Sona düz üç yüz altmış bir gün idi ki, evin saatlarını, özünün də qolunun saatını dolabın siyirtməsinə yığmışdı və o vaxtdan bəri bu evdə saat işləməmişdi, çünki Gülağa ki, çox istədiyi bu saatlardan bu qədər uzaq düşmüşdü, durduğu yerdə əlinə tüfəng almışdı, sinəsini gülləyə nişan tutmuşdu, Sona qıymırdı ki, saat səslənsin bu evdə, qıymırdı ki, Gülağa orada güllə-boran səsi eşitsin, amma Sona burada əvvəlki vaxtlar olduğu kimi, saat səsi eşitsin.

Dolabın siyirtməsindəki o saatların hamısı Gülağa gələndə qurulacaqdı, Gülağa gələndən sonra işləməyə başlayacaqdı və Gülağa da,

əlbəttə, gələcəkdi, çünki cəbhədən gələn o üçünc kağız ağ yalan idi (və o ağ yalan ağ yuxular gətirmişdi).

Gülağanın birnəfərlik balaca saatsız emalatxanası İçərişəhərin yanında Qoşaqala qapısı tərəfdə böyük bir binanın birinci mərtəbəsində idi və hərdən Sona işdən çıxıb tramvaya minirdi, həmin emalatxanaya gedirdi, emalatxanada da işin vaxtı qurtarırdı, Gülağa emalatxananın qapısını bağlayırdı, amma özləri içəridə qalırdı, iki taxta kətil güclə sığışan o balaca, o darısqal otaqda yanaşı oturub divarlardan asılmış, mizin üstünə yığılmış böyükü-kiçikli yüz saatın tıqqıltısına qulaq asaraq pencərənin şüşəsindən İçərişəhərin Qoşaqala qapısına baxırdılar və bu zaman o Qoşaqala qapısı əslində Sonanın da, Gülağanın da bir-birlərinə gizli hisslərinin, gizli həyəcanlarının qapısı idi.

Gülağa emalatxananın işığını söndürürdü və küçədən keçən adamlar pencərənin şüşəsindəki ipləndən sallanmış cürbəcür saatların arasından içərinin qaranlığında oturmuş Sonanı və Gülağanı görmürdü, amma Sona da, Gülağa da o adamları görürdü və küçədən keçən o adamların heç ağlına da gəlmirdi ki, cürbəcür saatlar düzülmüş bu şüşənin o tərəfindəki balaca darısqal saat təmiri emalatxanası həmin dəm, əslində, emalatxana deyildi. Sona ilə Gülağanın hisslərinin, həyəcanlarının yuvası idi – necə ki, ağaclarda quşların yuvası olur, adamlar gedər-gələr, o yuvanı görməz, amma o yuvanın içindəki quşlar hamını görər.

Bəzən Gülağa gözlərini o Qoşaqala qapısından çəkirdi, saatların çıqqıltısı arasından Sonanın da ürəyinin döyüntüsünü eşidirdi, sonra Sonanın əynindəki paltarın yaxasını açırdı, hələ evlənmələrindən əvvəlki vaxtlar olduğu kimi, üzünü Sonanın döşlərinin arasında gizlədirdi və Sona hiss edirdi ki, Gülağanın gözləri dolub, əli ilə Gülağanın yumşaq saçlarını qarışdıra-qarışdıra Qoşaqala qapısına baxırdı, elə bil ki, açıq sinəsi ilə bu dünyagörmüş, iri daşların çopurları uzaq-uzaq keçmişlərdə qalmış yüz illərdən xəbər verən o Qoşaqala qapısına meydan oxuyurdu...

Qışda Gülağa o emalatxanada kiçik bir primus yandırırdı və o kiçik primusun istisi həmin emalatxanaya bəs eləyirdi, primusun iyi, alovunun göyümtül-yaşıl rəngi və tamam canlı bir məxluq kimi, hənirtisi saatların çıqqıltısı ilə birlikdə Bakının ortasındakı, camaatın gözü qabağındakı o balaca, o darısqal emalatxananı tamam başqa bir aləmə aparırdı və həmin aləmdə Sona ilə Gülağadan başqa heç kim yox idi, o aləm, ancaq Sonaya və ancaq Gülağaya məxsus idi.

Düz üç yüz altmış bir gün idi ki, Sona o emalatxananı görmürdü.

Bir dəfə işdən çıxanda yenə də tramvaya minib Qoşaqala qapısının yanına getmək istədi, o emalatxanaya baxmaq istədi, amma getmədi, çünki Gülağa uzaqlarda idi və Gülağasız o emalatxanaya, o Qoşaqala qapısına baxmaq da düz deyildi, Sona bunu özünə qıymadı və həmişəki kimi, dinməz-söyləməz öz evinə gəldi.

Gülağanı müharibəyə yola saldığı gün heç özləri də bilmədi, necə oldu ki, səhər tezdən birlikdə Qoşaqala qapısının qabağındakı həmin meydana getdilər və bir müddət meydanın ortasında dayanıb qapısı qıfıllı o emalatxanaya baxdılar, Gülağa gülümsədi, Sona da gülümsədi, çünki bu, müvəqqəti bir ayrılıq idi, Gülağaya heç nə olmayacaqdı, Gülağa sağ-salamat qayıdıb gələcəkdi.

Düz üç yüz altmış bir gün keçmişdi, sabah üç yüz altmış iki gün olacaqdı, sonra bəlkə yeddi yüz altmış səkkizinci gün olacaqdı, bəlkə üç min doqquz yüz səksən dördüncü gün olacaqdı, amma axır ki, Gülağa qayıdıb gələcəkdi – bunu Sona yaxşı bilirdi, belə olacaqdı, Gülağa qayıdacaqdı, amma on gün idi ki, bu otaqda nəsə baş verirdi, Sona bunu hiss edirdi və Sona burasını da bütün ürəyi ilə, bütün içi ilə hiss edirdi ki, nəyinsə ərəfəsindədir.

Sona həmin ərəfə barədə fikirləşmək istəmirdi, çünki, əslində ürəyinin dərinliyində, o dərinlikdə ki, ora özü də daxil olmağa çəkinirdi, cürət eləmirdi, bax, orada, o dərinlikdə bilirdi ki, nə baş verəcək və buna görə də ərəfə barədə fikirləşməyə qorxurdu, qorxurdu ki, birdən özünə də məlum olar ki, doğrudan da dəli olub.

Sona çarpayıdan ayağa qalxdı.

Yox, dəli olmamışdı Sona.

Görəsən saat neçədir?

danışırdı, bu fotoşəkillə də söhbət edirdi və çox vaxt da bu danışıq, bu söhbət sözsüz olurdu, çünki Gülağa həmişə Sonanı sözsüz də başa düşürdü, adicə bir-birlərinin gözünün içinə baxmaq kifayət idi və Gülağa bu fotoşəkildə də Sonanı başa düşürdü, Sona bunu bədəninin hər bir hüceyrəsi ilə hiss edirdi, duyurdu.

Bir neçə gün idi ki, Sonaya elə gəlirdi ki, bu fotoşəkildə nəsə bir dəyişiklik var, nəsə əvvəlki kimi deyil, amma baxırdı, baxırdı və bu dəyişikliyin nə olduğunu tapa bilmirdi. Gülağa indi də həmişəki kimi baxırdı, dodaqlarındakı o təbəssüm də həmişəki kimi idi, amma bütün bunlarla bərabər, Gülağanın bu fotoşəklində nəsə elə bir şey var idi ki, əvvəllər yox idi və ümumiyyətlə... ümumiyyətlə, fotolarda elə şey olmurdu.

Bayaq paltarını soyunub yerinə girməzdən əvvəl də Sona Gülağanın bu fotoşəkli ilə beləcə üzbəüz dayanmışdı və birdən-birə Sona həmin fotoşəkildə Gülağanın dodaqlarında bir titrəyiş sezdi, o titrəyişi gözləri ilə gördü, bu, yalan deyildi, Sonanı qara basmırdı, bu həqiqət idi, bayaq fotoşəkildə Gülağanın dodaqları xəfif bir titrəyişlə titrədi.

Sona həyəcan keçirmirdi, Sona qorxmurdu ki, dəli olar, amma Sonanın şam tutmuş əli titrəyirdi və Sonanın əli titrədikcə şamın zəif işığı fotoşəkildə Gülağanın yanaqlarında, dodaqlarında, çənəsində oynayırdı.

Sona əlində titrəyən o şamın işığında bir müddət diqqətlə Gülağaya baxdı, amma şamın zəif işığının hərəkətindən başqa fotoşəkildə bir tərpəniş sezmədi, sonra Sona Gülağanın gözlərinin içinə baxdı və birdən-birə bu gözlərin dərinliyində bir ağrı hiss etdi və o qaranlıq qış gecəsi həmin hiss Sonanı sarsıtdı.

Günlərin həmin gözəl günündə idi, Gülağa ilə rastlaşmışdılar, sonra Gülağa ilə görüşməyə başlamışdılar, sonra evlənmişdilər –

hadisə baş verdi: Sona saat səsi eşitdi və sərt hərəkətlə dönüb dolaba tərəf baxdı.

Saat səsi dolabdan gəlirdi.

Sona dolaba yaxınlaşdı, özünün qol saatını, evin divar saatını və Gülağanın mizüstü saatını düz üç yüz altmış bir gün bundan əvvəl qoyduğu və o vaxtdan bəri də əl vurmadığı siyirtməni açdı, əlindəki şamı irəli tutub siyirtmənin içini işıqlandırdı: saatların üçü də çıqqaçıq işləyirdi.

Vaxtlar müxtəlif idi.

Sonanın qol saatında 12-yə 7 dəqiqə qalmışdı.

Divar saatı 6.26 göstərirdi.

Gülağanın mizüstü saatı 03.12 göstərirdi.

Vaxtlar müxtəlif idi, yəqin ki, saatlar müxtəlif vaxtlarda yatmışdılar, amma indi üçü də birdən işləməyə başlamışdı.

Sonanın əlindəki o şam daha titrəmirdi.

Sona divardan asılmış o böyük fotoşəklin yanına qayıtdı.

Dolabın saatlar işləyən siyirtməsi eləcə açıq qaldı.

Sonanın əlindəki şamın işığı yenə də Gülağanın sifətinə düşdü və Sona yenə də Gülağanın gözlərinin dərinliyindəki o ağrını gördü, sonra o biri əlini fotoşəklin hamarı ilə Gülağanın alnına sürtdü.

Gülağanın alnında narın tər damcıları var idi.

Yox, bu, şamın istisindən fotoşəklin kağızına düşmüş nəmiş deyildi, bu, tər damcıları idi, çünki Gülağa əzab çəkirdi, Gülağa bu səkildən çıxmaq istəyirdi. Sona bunu başa düşmüşdü və Gülağanın gözlərinin dərinliyindəki o ağrı da indi çəkdiyi bu əzabın ağrısı idi.

Şam öz-özünə söndü.

Sona o qaranlıq içində bir müddət Gülağanın fotoşəkli ilə üzbəüz dayandı.

Şamı daha yandırmadı.

Lap ehmallıca, lap barmaqlarının ucunda pəncərəyə tərəf getdi, elə bil uşaq yatmışdı və Sona da qorxurdu ki, səs olar, uşaq yuxudan

Daha qar yağmırdı, külək də əsmirdi, hər halda küləyin səsi gəlib otağa çatmırdı, sakit, səssiz-səmirsiz bir qış gecəsi idi və o sakitlik, o səssizlik içində dolabın açıq siyirtməsindəki saatların çıqqıltısı eşidilirdi.

Şamın sönmüş fitilinin yüngül iyi otağa yayılmışdı və bu yüngül qov bir balaca Qoşaqala qapısının qarşısındakı o darısqal saat təmiri emalatxanasında göyümtül-yaşıl alovla yanan primusun qoxusuna bənzəyirdi, amma Sona bu barədə də fikirləşmədi, həmişəki kimi, xəyalən Qoşaqala qapısının qabağındakı o balaca, o darısqal emalatxanaya getmədi; Sona əynindəki gecə köynəyilə pəncərənin qabağında dayanıb küçəyə baxırdı və gözləyirdi.

On beş-iyirmi gün bundan qabaq fabrikdə bir yerdə işlədikləri qızlardan hansısa bu ölümlü-itimli günlərdə heç olmasa, bir balaca ürək açmaqdan ötrü nəsə gülməli bir söz dedi, hamı güldü, təkcə Sona gülmədi və dünyagörmüş Xədicə xala:

– Dərdlidi də Sona, necə gülsün... – dedi. – Ürəyi ağrıyır Sonanın...

Həmin qış gecəsi, o saat çıqqaçıqının müşayiət etdiyi həmin sakit, səssiz-səmirsiz qış gecəsi Sona küçənin qaranlığına baxırdı və o dəm Sonanın heç bir dərdi yox idi, Sonanın ürəyi daha ağrımırdı, ağrı Gülağanın gözlərində idi və Sona gözləyirdi.

Sona Gülağanı yaxşı tanıyırdı və bilirdi ki, Gülağa güclüdür, zirəkdir, bilirdi ki, Gülağa da indi bütün varlığıyla Sonanın yanına qayıtmaq istəyir və Sona gözləyirdi (və Gülağa bunu bilirdi!).

Sona elə-eləcə pəncərənin qabağında dayanmışdı, cünki bir daha o şəkilə baxmaq istəmirdi, Gülağanın gözündəki o ağrını görmək istəmirdi, Gülağanın o əzablarının gözgörəsi şahidi olmaq istəmirdi və dayanıb gözləyirdi.

Sona tamam sakit idi, tamam arxayın idi, bilirdi ki, Gülağanın gözlərindəki o ağrı da, Gülağanın o əzabları da müvəqqətidir, o ağrı da keçib gedəcək və o əzab da yox olacaq.

Dolabın açıq siyirtməsindəki o saatların çıqqıltısı, elə bil ki, həmin

Gülağa azad olurdu.

Gülağa qayıdırdı.

Küçədəki, evlərin damlarındakı, pəncərələrin sürahilərindəki qarın ağımtıl işığı elə bil ki, artmağa başlamışdı, qaranlıq içində gümüşü bir parıltıyla küçələrin, şəhərlərin, bütün dünyanın təmizliyindən, təzəliyindən xəbər verirdi.

Kağız daha cırılmadı.

Sükut çökdü və elə bil ki, dolabın siyirtməsindəki o saatların da çıqqıltısı kəsildi.

Sona çönüb otağa baxmırdı, pəncərənin qabağında dayanmışdı və gözləyirdi.

Otaqda addım səsi gəldi.

Bir addım...

İkinci addım...

Üçüncü addım...

Yenə sükut çökdü.

Sona arxadan az qala kürəklərinə toxunub döyünən o ürəyin səsini eşitdi.

Sonra Gülağa əlini ehmallıca Sonanın çiyninə qoydu.

Sona diksinmədi, Sona bilirdi ki, belə də olacaq və birdən-birə Sonanın ürəyi coşdu, düz üç yüz altmış bir günün dərdi, düz iki yüz əlli üç günün əzabı iri-iri, gilə-gilə yaş olub gözlərindən axdı.

Sonanın çiynindəki o əl köynəyinin altına girdi, çılpaq çiynində gəzdi və o əlin istisi, o əlin hərarəti Sonanın bütün içindən keçdi.

Sonra Gülağa Sonanı özünə tərəf çevirdi, Sonanın gözlərinə baxdı və başa düşdü ki, ömründə heç vaxt Sonanı beləcə xoşbəxt görməyib, hətta o balaca, o darısqal emalatxanada bir-birlərinə qısılıb qoşa oturduqları o dəqiqələrdə də Sona beləcə xoşbəxt deyildi.

Sona həmin qış gecəsi o qaranlıq otaqdakı pəncərənin qabağında özünü Gülağanın bağrına basdı, Gülağanın üz-gözünü, boynunu, sinəsini öpə-öpə:

– Axır ki, gəldin... – pıçıldadı. – Axır ki, gəldin... Qayıtdın axır, qayıtdın... – pıçıldadı. – Gəlib çıxdın... – dedi. – Gəlib çıxdın...

Gülağa Sonanın əynindəki o gecə köynəyini çıxartdı və Sonanın ağappaq çılpaq bədəni, elə bil ki, o otağın qaranlığını düz üç yüz altmış bir gün pərçimlənib saxlamış və yalnız indi azadlığa çıxmış hisslərlə, həyəcanlarla doldurdu.

Gülağa çılpaq Sonanı qucağına aldı, çarpayıya gətirdi.

Gülağa Sonanın hələ də yaxşı qurumamış və duzlu tam verən gözlərini, dodaqlarını, qabarıb özünə yer tapmayan döşlərini öpürdü və Sona xoşbəxtlikdən boğula-boğula, təngnəfəs ola-ola pıçıldaya-pıçıldaya:

– Yalançı bir məktub gəlmişdi mənə... – deyirdi.

Gülağa pıçıldaya-pıçıldaya:

– Yalançı deyildi o məktub... – deyirdi. – Mən ölmüşdüm... Məni vurmuşdular... Məni sən diriltdin...– deyirdi. – Sənin nəfəsin məni dartıb o şəkildən çıxartdı...

– Səhər yavaş-yavaş açılırdı.

Yenə qar yağmağa başlamışdı.

Sona çarpayıda uzanmışdı və Gülağaya baxırdı.

Gülağa pəncərənin qabağında dayanmışdı və düz üç yüz altmış bir gün görmədiyi məhəllədə o qış səhərinin açılmağına tamaşa edirdi.

Sona gülümsəyirdi, çünki Gülağanın yerinə sevinirdi.

Sonanın bütün bədənində bir rahatlıq var idi və o rahatlıqda bir əbədilik, həmişəlik var idi.

Sonra Gülağa pəncərənin qabağından çəkilib dolaba yaxınlaşdı, siyirtmədəki saatları götürdü, mizüstü saatı həmişəki yerinə qoydu, Sonanın qol saatını da mizin üstünə qoydu, sonra əlində tutduğu divar saatına baxdı.

Sona da çarpayıdan qalxıb Gülağanın yanına gəldi və bir-bir o saatlara baxdı.

Vaxtlar həmin müxtəlifliyi olduğu kimi saxlamışdı.

Sonanın qol saatında 3-ə 10 dəqiqə qalmışdı.

Divar saatı 9.29 göstərirdi.

Gülağanın mizüstü saatı 06.15 göstərirdi.

Sonra Sona ilə Gülağa bir-birlərinə baxdı və ikisi də bərkdən, ürəkdən gülməyə başladı.

İkisi də çılpaq idi, ikisi də o balaca otağın ortasında dayanmışdı, bir-birinə baxırdı və bərkdən, ürəkdən gülürdü.

Sonra Gülağa əlindəki saatı divara vurmaq istədi.

Sona:

– Neyləyirsən divara vurub?.. – dedi.– O biri evimizdə vurarsan. Onsuz da buradan köçəcəyik...

– Niyə?

– A-a-a.. Kim inanar ki, sən şəkildən gəlmisən? – Sona fotoşəklə baxdı.

Fotoqraf Əlinin böyütdüyü o fotoşəkildə kağızın yalnız qıraqları qalmışdı, Gülağanın portretinin yeri boş idi və Sonaya elə gəldi ki, elə bil o şəkili qayçı ilə kəsib götürmüsən.

XXXI

Mən çal bığlı, başının ortası tamam tökülmüş ağappaq qıvrım saçlı o taksi sürücüsündən – Cəfərquludan çox şey soruşmaq istəyirdim, amma heç nə soruşmadım, daha doğrusu, nə üçün? niyə? səbəbini bilmirəm... – Heç nə soruşa bilmədim və aydınlıq bir yaz gecəsi evdən çıxıb piyada bizim məhəlləmizə tərəf getdim.

Bakının dağlıq hissəsinə qalxan və bir azdan məni nöyüt dükanının – bizim nöyüt dükanımızın tininə, məhəlləmizə aparıb çıxaracaq küçə boyu addımlaya-addımlaya bu tanış evlərə, birmərtəbəli, ikimərtəbəli, üçmərtəbəli binalara baxırdım və heç birini tanımırdım; yəni bu binalar öz-özlüyündə mənə tanış idi, anamın əlindən tutub bu küçə ilə şəhərin mərkəzinə tərəf çox getmişdim, bu küçədən çox keçmişdim, amma eyni zamanda, mən bu binaların heç birini hansı bir xatirəyləsə bağlı xatırlamırdım, mən bu binalarda bir yadlıq hiss edirdim və mənə elə gəlirdi ki, bu hiss qarşılıqlıdır, çünki küçələr yalnız binalardan, yalnız asfaltdan, daşdan ibarət deyil və mənə elə gəlir ki, küçələrin də yaddaşı var; insanlar gəlir, gedir, amma küçələr qalır, küçələrin ömrü insanların ömründən çox-çox artıq olur, küçələr yüz il, iki yüz, üç yüz il yaşayır və gəlib-gedən o insanların nəfəsi ilə nəfəs alır, gəlib-gedən o insanların hissləri, həyəcanları ilə yaşayır və bu barədə fikirləşəndə hərdən mənə elə gəlir ki, qarışqa adında, ya fil adında, ya insan adında məxluq olduğu kimi, küçə adında da bir məxluq var.

Mən sonuncu dəfə bu küçə ilə nə vaxt getmişəm? – yadıma gəlmir... Biz məhəlləden küçənəd on-on bir yaşım var idi və yəqin qırx il idi ki, ayağım bu küçəyə dəymirdi (bu da mənim etibarım!..) və hərgah küçənin yaddaşı varsa, küçə canlıdırsa, deməli, nəyisə də unudur, yaddan çıxarır və bunu duymaq, hiss etmək qüssə gətirir, bu yalnız qırx ilin ayrılıq qüssəsi deyil, yalnız həmin qırx ilin əbədi bir keçmişdə qalmağının, qayıtmazlığının qüssəsi deyil, bu qüssə, eyni

zamanda, gələcəyindir, daha doğrusu, gələcəkdə qalmış beş ilin, on ilin, hətta qırx-əlli ilin də haçansa əbədi bir keçmişdə qalacağının indidən hiss olunan qüssəsidir.

Bizim o nöyüt dükanımızın, o ərzaq dükanımızın sarı əhənglə rənglənmiş birmərtəbəli binasını uzaqdan gördüm və o saat da tanıdım və nə qədər istəsəm də ki, bunu yazmayım, qayıdıb çıxıb getmək istədim, çünki bütün bunların nə mənası var idi? Mən indi o məhəllədə kimi axtarırdım? "keçmişə səfər" – bu yalnız bizim özümüzün kitablarda yaratdığımız bir ifadədir, əslində, keçmiş heç kimi qəbul etmir, keçmiş öz işini görüb, qurtarıb və onun qapısında əbədi bir qıfıl var, Ziba xalanın qapısındakı o paslı qıfıl kimi, Əliabbas kişinin qapısındakı o yekə qıfıl kimi...

Lakin mən ki indi, bax, bu küçə ilə üzüyuxarı, bizim məhəlləmizə doğru getdiyim bu anlarda Ziba xalanı da, Əliabbas kişini də xatırlayıram...

Əsmər deyir ki, guya mən ürəyimin dərinliyində sentimental bir adamam; bilmirəm, bəlkə də belədir və mənim fikirləşdiklərim də, yazmaq istədiklərim də sentimental bir adamın fikri, istəyidir, ola bilər, amma hər halda mən məhəlləmizin tinindəki sarı əhənglə rənglənmiş o balaca binanı görəndə dayanmaq istədim, geri qayıdıb çıxıb getmək istədim və o dəm mənə elə gəldi ki, o tanış və eyni zamanda yad binalar, o küçə pəncərələri, cürbəcür rənglərlə rənglənmiş – yaşıl, göy, qəhvəyi, çəhrayı, sarı küçə qapıları, yavaş-yavaş yarpaqlamağa başlamış meynələrlə əhatə olunmuş küçə eyvanları mənə baxır və məni məzəmmət edir; əlbəttə, bu hissdə bir uşaqlıq var idi, amma nə olar? mən ki... mən ki öz uşaqlığıma qayıtmaq istəyirdim...

Məhəlləmizin aşağı başında tinin ucuna çatıb nöyüt dükanı ilə üzbəüz dayandım, məhəlləmizə baxdım və yox, mənim ürəyim düşmədi, yerimdə də donub qalmadım, elə bil ki, elə belə də olmalı idi, elə bunu da gözləyirdim; Sarı hamam da yox idi, bizim dalanımız da yox idi, aralıqdakı o binalar, o evlər də yox idi və həmin sahədə indi çoxmərtəbəli böyük bir yaşayış binası var idi. Həmin binanın pəncərələri yanırdı, eyvanlarına adamlar girib-çıxırdı, o böyük bina öz gündəlik həyatı ilə yaşayırdı və həmin binanın qabağında hündür, qollu-budaqlı bir söyüd ağacı var idi.

Yüngül bir meh əsdi və o yüngül meh o qollu-budaqlı söyüdün yenicə göyərməyə başlamış körpə yarpaqlarını tərpətdi və mənə elə

gəldi ki, əslində, o yarpaqlar məni salamladı; mənə elə gəldi ki, indi o böyük, o qollu-budaqlı söyüd ağacı da, vaxtilə mənim atam kimi, bu küçədə – bu yeni küçədə qəriblik içindədir.

Bir, iki, beş, yeddi, on, on bir... Bu böyük bina on bir mərtəbə idi və onun yəqin ki, cəmi ikicə mərtəbəsinə bizim bütün məhəlləmiz sığışardı.

O binanın üçüncü mərtəbəsinin mənə yaxın eyvanında üç-dörd yaşlı bir uşaq dayanmışdı və sürahinin dəmir barmaqlığı arasından mənə baxırdı; mən də o uşağa baxdım, ona göz vurdum və birdən qəribə bir hadisə oldu: o uşaq ağzını yekə açıb bərkdən ağlaya-ağlaya otağa qaçdı; anası tələsik eyvana çıxdı, küçə boyu o tərəf-bu tərəfə baxdı, başını yuxarı qaldırıb binanın üst eyvanlarına baxdı və yəqin ki, heç harada şübhəli bir şey görməyib otağa keçdi.

Mənim söyüdüm güldü.

Bir dəfə mən yuxuda qıpqırmızı bir ay görmüşdüm və elə yuxuda ikən o qırmızı aya baxa-baxa başa düşürdüm ki, yuxu görürəm, başa düşürdüm ki, o cür yekə, o cür qırmızı ay ola bilməz, amma o yekə, o qırmızı ay, necə deyərlər, mənim bunu başa düşüb-düşməməyimin fərqində deyildi, eləcə qırmızı alışıb-yanırdı, eləcə mənim gözlərimin qabağında idi.

İndi göydə həmişəki (adi!) ay idi, həmişəki (adi!) ulduzlar idi, bir də ki, o böyük yaşayış binasının işıqları yanırdı və həmin işıqlı pəncərələr, işıqlı qapılar bizim məhəllədə özlərini qətiyyən yad hesab eləmirdi, əksinə, o pəncərələrin, o şüşə qapıların işığında, genişliyində, yaraşığında bizim məhəlləyə hətta bir minnət var idi.

Muxtarın yaşadığı, Ədilənin yaşadığı o üçmərtəbəli bina əvvəlki kimi, öz yerində idi (və indi bu mənə bir möcüzə kimi göründü!), amma Muxtargilin o şüşəbəndində daha Kübra xalanın dibçəkləri yox

əldən duşmüş bir qarı oturmuşdu (hərdən bu barədə fikirləşəndə mənə elə gəlir ki, həmin gecə o qarı mənim gözümə görünmüşdü...) və mən asta addımlarla gəlib o qarının qabağında dayandım, hələ uzaqdan görən kimi tanıdığım o qarını salamladım (yoxsa o salamı özüm özümə verdim?).

– Axşamın xeyir, Səfurə xala.

– Abatın xeyir, – dedi.

– Necəsən, Səfurə xala?

– Necə olacağam? Görmürsən? Hay-hayım gedib, vay-vayım qalıb.

– Məni tanımadın?

– Yox...

– Mənəm də!..

Həmin yaz gecəsi o böyük binadan gələn işıq içində mən Səfurə xalanın alacalanmış sulu gözlərində qəfil bir səksəkə gördüm və mənə elə gəldi ki, Səfurə xala hələ də səksəkə içindədir, hələ də müharibədə itkin düşmüş oğlu Eynulladan bir xəbər gözləyir. Əlbəttə, biz hamımız bu barədə çox eşitmişik, çox oxumuşuq ki, analar müharibədə itkin düşmüş oğullarının yolunu hələ də gözləyirlər, amma bu dəfə bütün ömrümdə birinci dəfə mən bunu gözlərimlə gördüm, duydum.

Mən Səfurə xalanın üzündəki qırışlara baxdım və birdən-birə mənə elə gəldi ki, Səfurə xalanın üzündəki o əyri-üyrü qırış xətləri ilə bizim qırx il bundan əvvəlki məhəlləmiz arasında çox yaxın bir oxşarlıq var...

Səfurə xala yenə də:

– Yox, tanımadım...– dedi.

– Ələkbərəm...

– Hansı Ələkbər? – Səfurə xalanın alacalanmış sulu gözlərindəki

zamanda, əvvəlki bina deyildi, divarlarına, pəncərələrinə, şüşəbəndinə, giriş qapısına baxan kimi, bilirdin ki, indi bu binanın həyatı tamam başqa bir həyatdır, əvvəlkindən yaxşıdımı? pisdimi? bilmirəm, amma tamam başqa idi və mənim üçün burasına da şəkk-şübhə yox idi ki, indi bu binada tamam başqa adamlar yaşayırdı; o üçmərtəbəli binanın mənim üçün doğmalığının özündə indi bir yadlıq var idi.

Binanın qabağında, səkinin qıraağında qırx il bundan əvvəl olduğu kimi, yerə, asfaltın üstünə salınmış balaca bir döşəkcədə lap qocalıb

canı uzun müddət gözlərində saxlamağa heyi yox idi.

– Sonanın oğluyam...

– Hansı Sonanın?

– Pravadnik Ağarəhimin arvadı...

Səfurə xalanın da tamam qırışmış qoca sifəti mənim o söyüdüm kimi gülümsədi:

– Vallah, dedim sənə də, hay-hayım gedib mənim, vay-vayım qalıb. Bir ayağım burdadı, bir ayağım qəbirdə. Allah tez gətirsin o günü..

– Sarı hamamdan yuxarıda, dalanda olurduq...

– Vallah, bilmirəm, Allahın yanında nə günahım var ki, götürüb aparmır məni?!

– Xanım xalagillə bir həyətdə olurduq.

O alacalanmış sulu gözlər deyəsən fikrə getdi, keçmişdən nəsə qoparıb gətirmək istədi, sonra dedi.

– Allah Xanıma rəhmət eləsin!..

– Məni tanımadın?

– Yox.. Allah məni öldürsün! Öldürmür də. Xəcil eləyir məni..

Yenə yüngül bir meh əsdi və mən gözlərimi Səfurə xaladan çəkib o qollu-budaqlı söyüd ağacına baxdım, söyüdün yenicə göyərməyə

günü-gündən zəifləyirdi, büzüşürdü, ləələklərini tökürdü, elə hey gözlərini yumub mürgüləyirdi və Ağarəhim də müharibəyə gedəndən sonra, daha quşxananın ağzı həmişə açıq qaldı, göyərçinlər istəyəndə uçub gedib yem axtardılar, bir şey tapdılar, ya tapmadılar, təzədən həyətimizdəki o quşxanaya qayıtdılar, gündən-günə lap arıqladılar, lap əldən düşdülər, daha uçub gedib yem axtarmağa da nə həvəsləri, nə də taqətləri qaldı.

Cəbrayılın göyərçinləri öz aqibətləri ilə barışmışdılar və bu, mənim ürəyimdə bir dərd olmuşdu, amma mənim bu dərdə çarə eləməyə heç bir imkanım yox idi, çünki bizim həyətimiz də, bizim dalanımız da, bizim küçəmiz də tamam imk[redacted]

[redacted]

o qamətə baxmayaraq, kişini həyətimizdən qovdu və o yoğun peysərli bədheybət kişi əvvəlcə diqqətlə həyətimizin o başına-bu başına baxdı, elə bil nəyi isə yoxlayırdı, nəyi isə öyrənirdi, sonra da qapıdan çıxa-çıxa:

– Onsuz da acından ölürlər... – dedi və danışdıqca da iri, sarı dişlərinin arasından tüpürcək sıçrayırdı. – Kiminçün saxlayırsan onları, ay ağılsız zənən?

Xanım xala həyət qapımızı o bədheybət kişinin ardınca elə çırpdı, az qaldı təmiz qırxılmış şişman peysəri partlatsın.

Xanım xala:

– Köpəyoğlu! – dedi. – Almaq istəyir ki, aparıb toyuq kimi saxlasın, sonra da başlarını kəsib satsın!..

Bu dəhşətli sözləri eşidəndə bütün tüklərim ürpəşdi və o dəm mən bütün varlığımla Xanım xalayla fəxr elədim, mənə elə gəldi ki, o bədheybət kişidən qorxmayan, o bədheybət kişini həyətimizdən qovan, ardınca qapını eləcə çırpan Xanım xala yenə də əvvəlki Xanım xaladır, mənə elə gəldi ki, avtobus da, o dörd "polutorka" da yenə dalbadal bizim dalanın ağzına düzülüb, mənə elə gəldi ki, bizim həyətimiz də, dalanımız da, küçəmiz də əvvəllərdəki kimi, arxalıdır, müharibə başlamazdan qabaq olduğu kimi, güclüdür, basılmazdır. Əlbəttə, eyni zamanda, mən o dəhşətli sözlərə təəccüb də etdim, çünki gözümü açandan eşitmişdim ki, göyərçin yemək günahdır.

– Göyərçin yemək axı, günahdır... – dedim.

Xanım xala:

– Dünyada o qədər günah iş tutan adam var ki... – dedi.

Həmin gecə uzun müddət həyətimizdəki o göyərçinlərin qurultusuna qulaq asdım; əvvəllər axşam düşən kimi o ağ göyərçinlər yatırdı, amma müharibə başlayandan sonra, Cəfər, Adil, Əbdüləli, Qoca, Cəbrayıl, Ağarəhim müharibəyə gedəndən sonra, o quşxananın qapısı eləcə açıq qalandan sonra, göyərçinlər bəzən gecənin yarısına kimi yata bilmirdi, quruldayırdı.

Mən bilirdim ki, o göyərçinlər acdır, mənim o göyərçinlərə verməyə heç nəyim yoxdu, mən bilirdim ki, o göyərçinlər daha heç vaxt göyün yeddinci qatına qalxıb güclə görünən bir nöqtəyə dönə bilməyəcək, amma mənim bütün ürəiym, bütün varlığım həmin dəm Xanım xalaya dərin bir təşəkkürlə dolu idi, çünki Xanım xala qoymadı ki, o yoğun peysərli bədheybət kişi o göyərçinləri çiynindən salladığı həmin torbaya doldursun; birdən-birə mənə elə gəldi ki, elə bil, özüm o

torbanın içindəyəm və mənim nəfəsim tıncıxdı, az qaldı bir havasızlıq içində boğulum, amma yox, o yoğun peysərli bədheybət kişi göründüyü kimi qorxulu deyilmiş, Xanım xala onu bizim həyətimizdən qovdu və mən də onun torbasında deyildim, anamın həmişəki kimi, otağın bir küncündə, yerdən saldığı yorğan-döşəyin içində idim və həmin gecə mən o ac göyərçinlərin, o balacalaşmış, büzüşmüş xəstə göyərçinlərin qurultusuna qulaq asa-asa yenə də göyü gömgöy gördüm, ləkəsiz gördüm və o gömgöy, o tərtəmiz, ləkəsiz göydə yenə də Cəbrayılın sağlam, cəld, sıx lələkləri günün altında parıldayan göyərçinləri uçurdu, məhəlləmizin üstündə dövrə vururdu; müharibə başlayandan sonra, bəlkə də birinci dəfə ürəyimdəki o rahatlıq içində, gözlərimin qarşısında o gömgöylük içində, o təmizlik, ləkəsizlik içində yuxuya getdim və bütün həyatımda ilk dəfə tərtəmiz mavi bir yuxu gördüm: o ağ göyərçinlər də tərtəmiz mavi göyərçinlər idi, göy də tərtəmiz mavi idi və o mavi göyərçinlər o mavi göydə uçurdu və o mavilik içində haradasa ağ bir işıq yanırdı və mən bilirdim ki, o ağlıq Ağ Dəvənin ağlığıdır, yuxuda mənə elə gəlirdi ki, əllərim, bütün bədənim görmədiyim, amma işığı gələn Ağ Dəvənin ağappaq yununa toxunur və o yun ipək kimi yumşaqdır, mülayimdir, hərarətlidir.

Səhər anamın səsinə yuxudan oyandım:

– Vay, köpəyuşağı!.. Vay, süzün ciyərüvüz yansun!..

Anamın səsi həyətdən gəlirdi.

Mən başa düşdüm ki, nəsə bir hadisə baş verib, yerimdən qalxıb həyətə qaçdım.

Gecə quşxanadakı göyərçinlərin hamısını oğurlayıb aparmışdılar.

Bu, məhəlləmizdə mənim yadıma gələn birinci oğurluq idi.

Mən çarhovuzun kənarında oturdum, o bomboş quşxanaya baxdım və özümü saxlaya bilməyib ağlamağa başladım: mənim özümün özümüzə yazığım gəlirdi, çünki gecə bizim həyətimizə girmişdilər, o göyərçinləri, o yazıq, xəstə göyərçinləri oğurlamışdılar, mənim isə xəbərim olmamışdı və Xanım xalanın da bundan xəbəri olmamışdı və biz o göyərçinləri heç olmasa qoruya bilməmişdik ki, öz quşxanalarında ölsünlər və əlbəttə, mənim o göyərçinlərə də yazığım gəlirdi və o balaca Ələkbər o yazıq göyərçinləri suda bişmiş, tavada qızarmış təsəvvür edəndə daha dərdən ağladı. Bu vaxt kimsə yekə əlini çiynimə qoydu və mən diksindim, çünki birdən-birə mənə elə gəldi ki, çiynimdəki bu əl dünən həyətimizə gələn, çiynindən boş torba

sallanmış yoğun peysərli o bədheybət kişinin əlidir, amma mənim başımın üstündə dayanan Xanım xala idi, bu əl Xanım xalanın əli idi və Xanım xalanın əli tamam yüngülləşmişdi, mən heç vaxt ağlıma gətirməzdim ki, Xanım xalanın o yekə əli beləcə yüngülləşib, beləcə çəkisiz olub və yekə əlin beləcə yüngülləşməyi, beləcə çəkisizliyi məni daha da kövrəltdi.

Xanım xala:

– Ağlama, Ələkbər... – dedi. – Ağlama...

Mən lap bərkdən ağladım.

XXXIII

Bizim dalanımızda kürən bir pişik var idi, o qədər kök idi ki, dərisinə sığışmırdı, güclə yeriyirdi, yay aylarında səhərdən axşamacan dalanımızın qabağındakı elektrik şalbanının kölgəsində yatırdı və mən həmişə təəccüb edirdim ki, bu kürən pişik ki, bu qədər yatır, bəs, nə vaxt siçan tutur, nə vaxt yemək yeyir və beləcə kökəlir?

Gün ərzində şalbanın səkiyə düşmüş kölgəsi dəyişdikcə kürən pişik də tənbəl-tənbəl qalxıb yerini dəyişirdi, təzədən kölgədə uzanırdı, hərdən də gözünü açırdı, qalxıb gərnəşirdi, əsnəyirdi, təzədən yatırdı və Balakərim deyirdi ki, o kürən pişiyin guya min yaşı var və guya o kürən pişik heç vaxt ölməyəcək.

Nə iş idisə, o kürən pişiklə məhəlləmizdə heç kimin arası yox idi.

Müharibə başlanandan sonra adamlar çöreksiz qaldı, siçanlar azaldı və o kürən pişik də arıqladı, axırda lap bir dəri, bir sümük qaldı, amma heç kim buna fikir vermədi, çünki camaat kürən pişiyin hayında deyildi, öz hayında idi.

Kürən pişiyin tənbəlliyindən əsər-əlamət qalmamışdı, daha heç vaxt şalban kölgəsində uzanmırdı, səhərdən axşamacan məhəllənin həyətlərini gəzirdi, bəzən dalanda mənim dalımca düşürdü, miyoldayırdı və mən ayağımı yerə vurub onu qovurdum, çünki ona verməyə bir şeyim yox idi, bir də ki, ürəyimdə o yazıq kürən pişiyə qarşı gizli bir kin var idi, çünki Balakərimin sözləri mənim beynimə batmışdı və mənə elə gəlirdi ki, elə bil, doğrudan da, tanıdığım, istədiyim adamların hamısı öləcəkdi, yer üzündəki bütün adamlar öləcəkdi, təkcə bu kürən pişik heç vaxt ölməyəcəkdi, həmişə yaşayacaqdı.

Hərdən yenə də Əminə xalanın evindən səs-küy gəlirdi və onda hamı bilirdi ki, İbadulla yenə gəlib çıxıb, yenə keflidir, yenə anasından qızıl istəyir və əlbəttə, İbadulla həmişəki kimi yenə də Əminə xalanın yanından əliboş çıxırdı, daha doğrusu, qızılsız çıxırdı, amma məhəlləmizin camaatının boğazlarından kəsib Əminə xalaya verdiyi paylardan heç olmasa, nəsə bir ovuc götürürdü: suda bişmiş noxud, ya lobya, ya da bir başqa şey və belə günlərdən birində mən İbadullanı dalanımızın dibində, əvvəllər xartut bitən yerdə gördüm.

İbadulla yerə çömelmişdi, o kürən pişik də İbadullanın yanında dayanmışdı və mən ömrümdə birinci dəfə pişik gözlərində açıq-aşkar bir mehribanlıq gördüm; kürən pişik həmin mehribanlıq dolu gözləri ilə İbadullaya baxırdı.

İbadulla kürən pişiyə əli ilə nəsə yeməli bir şey verirdi və mən uzaqda dayanıb baxdığım üçün bunun nə olduğunu görmürdüm, amma hər nə idisə, əlbəttə, İbadulla onu indicə çığır-bağırla anasından almışdı.

İbadulla əli ilə kürən pişiyi yedirdə-yedirdə:

– Ala, ay pişik... – deyirdi. – Ay yazıq pişik... Bu qaranlıq dünyada mənim təkcə dostum sənsən... Adamlar bir-birinin düşmənidi, təkcə dünyanın pişiklərində insaf var, təkcə dünyanın pişiklərində düzlük var... Ala... Ye... Görürsən, hamı üz döndərib səndən... Eybi yox.. Ala...

Mən kürən pişiyi yedizdirən İbadullaya baxırdım və özümü tamam itirmişdim; yox, mən təkcə ona görə özümü itirməmişdim ki, İbadulla ilə o kürən pişik arasında beləcə bir mehribanlıq görmüşdüm; həm də ona görə ki, niyə o kürən pişiyi məhəlləmizdə heç bir başqa adam yox, məhz İbadulla yedizdirir? Niyə bizim məhəllədə İbadulladan başqa heç kimin bu pişiyə beləcə yazığı gəlməyib?

Birdən-birə mən özüm özümə oğru pişik kimi göründüm, çünki beləcə gizlində dayanıb baxırdım, gizlənə-gizlənə başqasının sirrinə [illegible] vaxt İbadulla ilə o kürən pişiyi pusmadım.

Hər dəfə Əminə xalanın evindən səs-küy gələndə mən bilirdim ki, bir azdan dalanımızın dibindəki o xartutun yerində İbadulla anasından qoparıb aldığı qonşu paylarından nəsə bir tikə, bir parça o kürən pişiyə verəcək, kürən pişiklə söhbət edəcək, amma özümü saxlayırdım və ora getmirdim (bəlkə də bütün bunlar mənə belə gəlirdi, dalanın

dibinə getsəydim də, orada heç kimi görməyəcəkdim!); bircə dəfə özümü saxlaya bilmədim, çünki dalanımızın dibindən ağlamaq səsi eşitdim və yavaş-yavaş o tərəfə getdim.

İbadulla o xartutun kötüyünün yanında yerə çöməlib ağlayırdı.

Kürən pişik İbadullanın qabağında böyrü üstə uzanmışdı, ayaqlarını uzatmışdı, gözlərini yummuşdu və mən başa düşdüm ki, kürən pişik ölüb.

İbadulla ağlaya-ağlaya deyirdi:

– Niyə dünyada adamlar adam oldu? Niyə pişiklər adam olmadı?..

XXXIV

Elə ki, Eynulla yaralanıb sağalandan sonra ikinci dəfə müharibəyə getdi və Eynulladan heç bir səs-soraq çıxmadı, elə ki, Ağahüseyn əmi

adamdır, çünki hamı ürəyində ona nifrət edir, aşağının da ondan zəhləsi gedir, yuxarının da, amma Fətulla Hatəm uzun illərdir ki, bu "hamı" ilə üzbəüz, təkbətək dayanıb, bir yaxın dostu, yaxın sirdaşı yoxdur, amma həmişə üzdədir, həmişə iş başındadır, yəqin ona görə ki, özünə ən yaxın dost, ən yaxın sirdaşdır, özü özünə mənəvi dayaqdır (bundan böyük güc?!). Dövrlər dəyişir, adamlar dəyişir, bəzən Fətulla Hatəm də bir-iki il kölgədə qalır, bəzən lap vəzifədən də götürülür, amma yenə də haradansa pırtlayıb çıxır, əvvəlki hörmət-izzəti bərpa olunur.

– Salam, ay Ələkbər bala!..

– Axşamınız xeyir, Fətulla müəllim.

– Bala deməyimdən incimirsən? – Fətulla Hatəm güldü və mən onun gülümsəyən bic, ağıllı və soyuq gözlərini gördüm. – İllər keçir, böyüyürsünüz, maşallah, böyük hörmət-izzət sahibi olursunuz, amma mənim üçün elə dünənin uşaqlarısınız. Əlinizdə tutardınız yazılarınızı,

yox, həqiqət idisə, mən bunu bacarmalıydım, mən Fətulla Hatəmin daxili bəraətlərini tapmalıydım, özüm üçün aşkar etməliydim... Mən bilirdim, bütün zehnimlə, ürəyimlə hiss edirdim ki, nə vaxtsa mütləq Fətulla Hatəm barədə nəsə yazacağam – roman olacaqdı, nə olacaqdı, bilmirdim, amma o əsər o vaxt yazılacaqdı ki, mən Fətulla Hatəmi gördüyüm, eşitdiyim bütün qatların, layların altından çıxara bilim (necə ki, arxeoloqlar yeri qazıb saxsı bir qab çıxarırdılar!), onun özünün özü ilə təkbətəkliyini görə bilim...

– Səni narahat etmədim ki?

– Xeyr, buyurun.

– Əsmər qızımızdan uşaqları xəbər aldım, deyir yaxşıdırlar.

– Çox sağ olun, pis deyillər.

Bunlar hamısı, əlbəttə, başlanğıc idi, indi mətləbə keçəcəkdi; hər halda, son iyirmi beş ildə mən Fətulla Hatəmin xasiyyətinin üzdə olan bu cəhətlərini yaxşı öyrənmişdim: müxtəlif ədəbi məclislərdə görüşürdük, ikimiz də yazı-pozu işi ilə məşğul idik, ikimiz də, necə deyərlər, bir ədəbi mühitdə yaşayırdıq (yaş fərqinə baxmayaraq), amma Fətulla Hatəm heç vaxt bilməyib ki, mən kimin oğluyam (bəlkə də atamı çoxdan yadından çıxarıb...), heç vaxt bilməyib ki, mənim anam onun şəkilləri çıxmış qəzetlə mətbəximizdəki nöyüt pilətəsini silərdi.

– İllər belədir də, Ələkbər bala, düz deyiblər, quşqanadlıdır. Elə bil dünən idi sizə ailə qurmağımız...

Mən iyirmi ildən artıq idi ki, evli idim və mənim həyatımın ən çox xəcalət çəkdiyim bir hadisəsi də bununla bağlı idi... hələ o uzaq illərdə, o vaxtlar ki, hələ cəbhədən atamın qara xəbəri gəlməmişdi və dayım da bizi məhəllədən köçürtməmişdi, ürəyimizdəki o qorxu və nigarançılıqla müharibə illərini bir qarnı ac, bir qarnı tox yaşayırdıq, həmin günlərdən birində, gecə anam birdən-birə qalxıb çarpayının üstündə oturdu: "– Yatmısan, Ələkbər?", "Yox", "– Ələkbər, yaxşı qulaq as mənə, deyir, şər deməsən, xeyir gəlməz, dilim qurusun, kişkişlər olsun, işdi şayəd, yenə deyirəm, dilim-ağzım qurusun, müharibədən atondan pis bir xəbər gəlsə, işdi şayəd, mənim də başıma bir iş gəlsə, dayın da olmasa, tək qalsan sən, Allah eləməmiş, Ələkbər, heç vaxt, eşidirsən məni, heç vaxt gedib Fətulla Hatəmdən bir kömək istəmə!..". Həmin gecə söhbətindən sonra çox illər keçdi, lazım oldu və o zaman anam bütün ömrünün arzusu olan bu hadisələrə ("– Bircə sənin toyuvu görəydim, Ələkbər, bircə nəvə gəzdirəydim qucağımda, day başqa heç nə istəmirəm Allahdan!..") xüsusi ciddcəhdlə hazırlaşa-hazırlaşa dedi ki, elçilər hörmətli adamlar olmalıdırlar, qız tərəf görsün ki, sən kimsən, qoy görsünlər ki, kimlə qohum olurlar və bir müddət keçəndən sonra, çox götür-qoy eləyəndən sonra birdən anam dedi: "– Ələkbər, bəlkə Fətulla Hatəmə deyəsən elçi gedə? Gedər?" Anamın bu sözlərinə quruyub qaldım, amma ən xəcalətlisi isə budur ki, gedib utana-utana, qızara-qızara bu xahişi elədim və Fətulla Hatəm də böyük bir ruh yüksəkliyi ilə bu işə razı oldu ("–Düzdür, – güldü. – indi təzə-təzə yazı-pozuya başlamısız, adamla danışanda qızarırsız, pörtürsüz,– güldü, – bir azdan bunların hamısını yaddan çıxaracaqsız, qorxsaz qorxacaqsınız, – o güldü, – qorxmasaz, hörmət-izzət qalmayacaq. Eybi yox,o sənin öz vicdanına! Hara gedirik və sənə kimi alırıq?"), bir-iki nəfəri də yanına salıb gedib mənim elçiliyimi elədi...

– Hə, – dedim, – illər tez gəlib gedir.

– Ələkbər, bilirsən ki, mən səni həmişə bizim istedadlı yazıçılarımızdan biri hesab etmişəm və həmişə sənin gələcəyinə xüsusi ümidim olub. Ancaq hərdən təəssüf eləyirəm ki, sən böyük mənəvi-əxlaqi problemlər qoyan romanlar əvəzinə, epik əsərlər əvəzinə, vaxtını xırda şeylərə sərf eləyirsən... Özün başa düşürsən də, əyər mən sənin yaradıcılıq taleyinə biganə olsaydım, bu sözləri deməzdim.

– Nə olub, Fətulla müəllim?

(Bəlkə məndə Fətulla Hatəmə qarşı uşaqlıq çağlarından gələn bir qərəzçilik, qərəzli bir kin-küdurət var?)

– Bax, misal üçün, bu gün nəşriyyatdan o köhnə-pasmanda bir şair var idi, nəydi onun adı? Hə, Səftər Məsumun kitabını gətirmişəm. Baxıb görürəm ki, kitabın tərtibçisi sənsən, müqəddiməni də sən yazmısan. Vaxtına hayıfın gəlmir? – Fətulla Hatəm yavaş-yavaş elə bil ki, özünü əlli ildən bəri adət etdiyi xitabət kürsüsündə, yaxud idarədəki böyük mizin arxasında hiss edirdi, gülmək hissəsi daha qurtarmışdı, indi ciddi söhbət gedirdi və mən bu söhbətin mənasını başa düşürdüm.

– Axı, haradan tapıb çıxarırsız naftalin iyi verən bu Səftər Məsumları?

– Səttar Məsum. – dedim; bu da Fətulla Hatəmin xasiyyətinin bir

– Hə, Səttar Məsum. Mən o bədbəxti tanıyırdım. Yazıq içki düşkününün biri idi... Düzdür, qəzəllərində, qoşmalarında təb var, özünün də taleyi faciəli oldu, qanlı-qadalı illər idi də, nə ağına baxırdılar, nə də bozuna...

("Bədbəxt Mirzə Səttarın üzünə Fətulla Hatəm durub, guya ki, bədbəxt Mirzə Səttar hökumətimizin əleyhinə imiş. Əlinə alıb yekə bir qələmi, Mirzənin qəzəllərinin altından misra-misra qırmızı xətt çəkib, minbir məna verib o misralara, zalım oğlu!.. Mirzə yazıb ki, ey gül, tikanın əzab verdi bülbülə. Fətulla Hatəm deyib ki, bu, bizim zəmanəmizə sataşır. Fətulla Hatəmin də ki, Allah göstərməsin, indi ifşa elədiyi adama zaval yoxdur. Getdi bədbəxt Mirzə Səttar...").

– Ancaq Ələkbər, hissə də qapılmaq olmaz də... Zalım oğlu o Səftər Məsum, səhərdən axşamacan zakusoçnularda idi...

– Siz onunla bir yerdə zakusoçnuda olmusuz?

Sükut çökdü. Doğrusu, heç özüm də bilmədim ki, bu sözlər ağzımdan neçə çıxdı (Fətulla Hatəm ömründə iyirmi beş qram konyakdan artıq bir şey içməzdi və yəqin ki, heç vaxt da "zakusoçnu"da olmamışdı) və elə bil ki, Fətulla Hatəmin onsuz da qaraşın sifəti mənim gözlərimin qabağında daha da qaraldı və həmin dəm o qaraltı ilə ilanın yerində qıvrılıb başını dik qaldırması, haça dilini çıxarıb baxması eyni şey idi.

– Bunu ona görə soruşuram ki, Fətulla müəllim (...deyəsən qorxdum, yəqin qorxdum ki, indi izahat verirəm...), Səttar (bu dəfə Səttar sözünü xüsusi vurğu ilə dedim), yəni Səftər yox, Səttar Məsumun içki düşkünü olmağını sizdən başqa bir adamdan eşitməmişəm...

– Mənim sözüm kifayət deyil, Ələkbər?

(Əleykümə salam, kişi qırığı! Necəyəm? hər işim qaydasındadı, bircə bəzmi-Süleymanım çatışmır!.. Bilirsən də, Ələkbər, sənin adaşın Mirzə Ələkbər çox böyük əhli-qələm olub!.. Deyib, qoca müstəğniyi-sərvət də olsa, qolunda bir çocuqca qüvvət olmaz!.. Başa düşdün? Allah Mirzə Ələkbərə rəhmət eləsin, bilib ki, nə deyir!.. Allah Mirzə Səttara da rəhmət eləsin, Sabirin dəlisi idi, şerləri dilindən düşmürdü... Çünki elə özü də Sabir kimi, xalqı sevən adam idi...).

– Fətulla müəllim, o kitab Səttar Məsumun zakusoçnı sərgüzəştlərindən bəhs etmir ki... Özünüz dediniz ki, təbli şair olub, xalqın arasında populyardır, bütün ömrünü yazıb, müəllimlik edib, heç bir

iddiası da olmayıb. Heç olmasa, bir dəfə onun şerlərini yığıb çap elətdirmək lazım idi, ya yox?

– Ələkbər, axı, şəxsiyyət də gərək kamil olsun, şəxsiyyət də gərək təmiz olsun, ülvi hisslərlə yaşasın!.. XVIII əsr fransız maarifçiləri bilirsən nə deyib? O insan ki, əlinə qələm alıb oxucu ilə söhbət edir, gərək dünyanın ən pak və təmiz məxluqu olsun!

Hərgah Allah mənim o yeganə istəyimi yerinə yetirsə, mən elə bu dəqiqə gedib molla olmağa, yaxud keşiş olmağa, yaxud da gedib sinaqoqada işləməyə hazıram.

– Fətulla müəllim, bəyəm Səttar Məsumun o balaca kitabı insanların ülvi hisslərlə yaşamağına mane olur? Yazıq Səttar Məsumun şikayəti, uzaqbaşı gülün bülbüldən şikayətidir də!

– Bəs, oradakı eyhamlar?

– Hansı eyhamlar?

– Sənin müqəddimənəki eyhamlar! (...ilan tamam yay kimi yığılıb...) Səttar (o da bu adı mənim kimi xüsusi vurğu ilə deməyə başladı) Məsumun taleyi ilə bağlı sənin yazdığın o eyhamlı abzaslar? Kor-kor, gör-gör, onlar axı, birbaşa mənim ünvanımadır!..

Nəşriyyatlarda, qəzet-jurnal redaksiyalarında kiçik bir işinin yerinə yetirilməsi naminə (misal üçün: kitablarının həcmi bir çap vərəqi artsın, yaxud məqalələri jurnalda üç nömrə əvvəl çap olunsun, yaxud iki otağı üç otağa dəyişdirməkdə Fətulla Hatəm onlara kömək eləsin, yaradıcılıq ezamiyyətinə göndərsin və s.) Fətulla Hatəmə qulluq göstərmək istəyən o qədər yazıq adamlar var idi ki... İndi də yəqin Səttar Məsumun mənim çapa hazırladığım o balaca kitabı ilə bağlı gedib Fətulla Hatəmin qulağına pıçıldamışdılar və Fətulla Hatəm də, əlbəttə, heç kimin (o cümlədən də mənim) ağlına gəlməyən bir tədbir fikirləşib tapacaqdı.

– Camaat obıvateldir, sənin o abzaslarını necə yozacaqlar? – soruşdu.

– Həqiqət necədirsə, elə də yozsunlar.

("Düzdür, – güldü, – indi təzə-təzə yazı-pozuya başlamısız, adamla danışanda qızarırsız, pörtürsüz,– güldü, – bir azdan bunların hamısını yaddan çıxaracaqsız, qorxsaz qorxacaqsınız, – güldü, – qorxmasaz, hörmət-izzət qalmayacaq. Eybi yox, o sənin öz vicdanına! Hara gedirik və sənə kimi alırıq?").

– Sən hələ uşaqsan, Ələkbər!.. – Bax, bu daha əsl Fətulla Hatəm idi. – Həqiqət çox nisbi məfhumdur. Sən o illəri nəzəri cəhətdən öyrənmisən, mən isə o illərdə yaşamışam, o illərin ədəbi prosesində iştirak etmişəm. O mürəkkəb dövrün, o ziddiyyətli dövrün bütün əzab-əziyyətini ürəyimdə çəkmişəm. Mən təqiblərə məruz qalıb əzablar çəkəndə sən haradaydın?

– O böyük stolların arxasında əzablar çəkirdiz?

Fətulla Hatəm susdu, sonra tamam açıq-aşkar bir hədə-qorxu hiss olunan o məşhur boğuq səsiylə:

– Nə dedin? – soruşdu.

Əsmər əlini dodaqlarına vura-vura mənə işarə eləyirdi ki, susum, danışmayım, özümü ələ alım, amma hərgah həqiqət lap nisbidirsə də, əvvəl-axır bir dəfə mən öz həqiqətimi Fətulla Hatəmə deyə bilərəm, yoxsa yox? Doğrudan da, nə vaxta qədər Fətulla Hatəmlə eyhamlarla danışmalıyıq və hərgah mən, yaşı əllini keçən, saçı-saqqalı ağarmış bir adam (yazıçı!) ömrümün axırına qədər Fətulla Hatəmlə beləcə eyhamla danışacağamsa (və ümumiyyətlə, Fətulla Hatəmlərlə), onda nə istəyirəm? niyə yazıram? və necə yazacağam?

– Ələkbər bala, telefon pis işləyir, nə dediyini başa düşmədim.

– Fətulla müəllim, yadınıza gəlir, bir dəfə, müharibə vaxtı Muxtargilə qonaq gəlmişdiniz? Onda pəncərənin şüşəsini mən vurub sındırmışdım!..

Əsmər daha mənə işarə eləmirdi, əli ilə ağzını sıxıb yerində donub qalmışdı (yadıma gəlir, mən həmin hadisəni haçansa Əsmərə danışmışdım).

Bir neçə an sükut çökdü və elə bil telefon, doğrudan da, xarab olmuşdu, cürbəcür fısıltı, xışıltı eşidilirdi və elə bil ki, mən o fısıltının, xışıltının şəklini görürdüm, çünki Fətulla Hatəmin indi hirsdən daha da qaralmış sifəti, kinlə işıldayan gözləri, bütün sifəti yenə də mənim gözlərimin qabağında idi və telefonun dəstəyindən eşidilən o fısıltı ilə, o xışıltı ilə bu sifət arasında bir oxşarlıq, yaxınlıq var idi.

– Muxtar kimdir?

– Səttar Məsumla bir küçədə yaşayırdı...

Yenə sükut çökdü, sonra Fətulla Hatəm həmin hədəli-qorxulu məşhur boğuq səsiylə sözləri bir-bir dəqiq tələffüz edə-edə:

– Ələkbər, – dedi. – Mən sənin üçün bir stəkan su deyiləm ki, birnəfəsə başına çəkəsən!

– Bilirəm, – dedim.

Fətulla Hatəm dəstəyi asdı.

Əsmər yalnız indi əlini ağzından çəkib:

– Sən neylədin?! – dedi.

Hətta mənim arvadım da Fətulla Hatəmdən qorxurdu...

XXXVI

Küçəmiz, dalanımız yetimləşəndən, həyətimiz kimsəsizləşəndən sonra, dalanımızın qabağı tamam "polutorka"sız və o avtobussuz qalandan sonra, o vaxt ki, kişi qalmadığı üçün İbadulla bizim dalanda kişilik edirdi, fərəhsiz, sevincsiz bürkülü bir yay axşamı Xanım xalanın anama dediyi sözlər mənə çox təsir etdi; o sözlər nə üçün mənə o cür təsir etdi? Yəqin ona görə ki, Xanım xala ömründə heç vaxt (hətta o yekə əli o cür yüngülləşəndən sonra da!) məhəlləmizin başqa arvadları kimi, ürəyinin ağrısını açıb camaatın gözünün qabağına tökməzdi, dərdini-sərini danışa-danışa ürəyindəki o ağrının göynəyi ilə camaatın da gözünün yaşını axıtmazdı. Anam hərdən Xanım xala haqqında başqa arvadlara, bəzən də özü özünə deyirdi: "– Heç olmasa bir az ağlaya, qışqıra, bir az ürəyini boşalda... Yoxsa ki, dinib danışmır, o altı oğulun nigarançılığını da salıb ürəyinə... Adam ürəyi dözər buna bəyəm?" həmin fərəhsiz, sevincsiz, bürkülü yay axşamı isə Xanım xala qalın qaşlarının altından baxan gözlərini bir neçə an anamın gözlərinin içinə dikdi, sonra nazik dodaqlarını tərpədə-tərpədə:

– Sona, – dedi, – uşaqlar ki, ordadı, uşaqlar ki, o ölüm-dirimin içindədi, – dedi. – Cəfərsiz, Adilsiz, Əbdüləlisiz, Qocasız, Cəbrayılsız, Ağarəhimsiz, – dedi, – bu rahat günləri ki, mən burda yaşayıram, bunları özümə günah bilirəm Sona...

Anam:

– Sən özüvü üzməginən, – dedi. – Allahın köməkliyiynən hamısı sağ-salamat qurtarıb gələcəklər!.. Hitlerin ölübə-ölənlərinin goruna itin poxu!.. Köpəyoğlunun taxtı tabut olsun, yəhəri qannan dolsun oğraşın, oyun açdı başımıza!..

Xanım xala bir müddət də anama baxdı, sonra taxta pilləkənlərlə öz evlərinə qalxdı, mən açıq-aşkar gördüm ki, anam Xanım xalanı başa düşmədi və Xanım xala özü də bildi ki, anam onu başa düşmədi;

anam Xanım xalanın xətrini istəyirdi. Xanım xalanın tək qalmağı, Xanım xalanın o nigarançılığı, bir səs eşidən kimi, hamıdan (bəlkə elə özündən də!) gizlətmək istədiyi həmin nigarançılıqla həyət qapımıza tərəf baxmağı anamı əməlli-başlı yandırıb-yaxırdı, amma Xanım xala bu RAHAT GÜNLƏRİ özünə rəva bilmirdi, bu RAHAT GÜNLƏR Xanım xalanı sıxırdı, əzirdi, rahatlıq vermirdi.

Mən dalanımızın dibinə, İbadullanın kəsdiyi o xartut kötüyünün yanına getdim, müharibədən əvvəl, o xartutun gözəl çağlarında uşaqlarla köməkləşə-köməkləşə bura gətirdiyimiz və iki gün dalbadal yağış yağdığı üçün hələ də nəm olan "kubik" daşın üstündə oturdum; mənim özümün özümdən zəhləm gedirdi, mən heç vaxt bu cür hiss yaşamamışdım, o balaca Ələkbər özü özündən xəcalət çəkmişdi, özü özündən utanmışdı, özünün özünə yazığı gəlmişdi, amma o dəm birinci dəfə idi ki, özü özünə nifrət edirdi, çünki mənim atam müharibədə vuruşurdu, bizim məhəllənin bütün kişiləri, cavanları müharibədə vuruşurdu, mən isə burada RAHAT yaşayırdım, mənim ürəyimi qüssə, kədər bürüyürdü, amma əslində o qüssənin, o kədərin özündə də bir rahatlıq var idi, çünki mən cəbhədəki atam kimi ölümə getmirdim; o dəm mən hətta küçəmizin, dalanımızın, həyətimizin o yetimliyində, kimsəizliyində də bir RAHATLIQ gördüm.

O nəm "kubik" daşın üstündə oturduğum həmin bürkülü yay axşamı Xanım xalanın qalın qaşlarının altından baxan o qara gözləri mənim gözlərimin qabağına gəldi və mən o qara gözlərdə daha əvvəlki zabitəni hiss etmədim, mənə elə gəldi ki, Xanım xalanın gözlərindəki o zabitəni aclıq yox, kimsəsizlik yox, nigarançılıq da yox, bax, həmin RAHATLIQ yeyib, yox eləyib.

İbadullanın keçən il iri və itidişli yekə mişarla kəsdiyi o gözəl xartutun yoxluğuna daha hamımız öyrəşmişdik, daha gecələr burada Balakərimin başına yığışıb o tütəyə qulaq asmırdıq. Ağ Dəvənin əhvalatlarına qulaq asmırdıq və o gözəl xartutdan qalmış həmin iri kötüyün ətrafını bu bir ilin ərzində ot basmışdı, elə bil ki, həmişə oyunlarımızın məskəni olan bu balaca yer – dalanımızın dibi, indi bizim bütün məhəlləmizin yiyəsizliyinin, yetimliyinin göstəricisi idi; təkcə kürən pişik gəlib buralarda dolaşırdı, sonra kürən pişik də öldü və bu yerlərə heç bir ins-cins ayağı dəymədi.

Mən nəm "kubik"in üstündə oturub çox kədərli bir yadigar kimi, o gözəl xartutdan qalmış o böyük kötüyə baxırdım və birdən elə bil ki, qəfildən ayıldım, o kötüyün dalanın divarına yaxın bir küncündə bitmiş bir dəstə kötük göbələyi gördüm. Atam səfərlərə gedəndə, vaqon qoxulu o bərəkətli həsir zənbili evimizə dolu gətirəndə, hərdən mən həmin zənbildən kötük göbələyi də çıxarırdım: atam Rusiyanın stansiyalarından alıb gətirirdi, deyirdi ki, göbələklərin içində ən salamatı bu göbələkdir. Anam o göbələkləri şit yağda soğanla qovururdu, üstünə yumurta vururdu və mən də o göbələk çığırtmasını çox xoşlayırdım.

Mənim yaşıl bir maykam var idi, yəni həmin mayka haçansa yaşıl olmuşdu, sonra o qədər cırılmışdı, didilmişdi ki və anam da o cırılmış, didilmiş yerləri o qədər gözəmişdi ki, yaşıllığından və ümumiyyətlə, maykalığından bir şey qalmamışdı. Birdən-birə heç nə barədə fikirləşmək istəmədim, daha doğrusu, bütün fikirlərim başımdan uçub getdi, hətta xartutu kəsən və bu kədərli yadigarı qoyub gedən o iri və itidişli yekə mişarı da yadımdan çıxartdım və o kötük göbələyinin irili-xırdalı hamısını yığıb yaşıl maykamın ətəyinə doldurdum.

Dayım təxminən bir il əvvəl haradansa bir şüşə günəbaxan yağı tapıb bizə gətirmişdi və o bir şüşə günəbaxan yağını anam doğrudan da, gözünün işığı kimi qoruyub saxlayırdı, amma həmin bürkülü yay axşamı anam da, görünür, atamın səfərlərini xatırladı, balaça arakəsməmizdə atılıb qalmış o həsir zənbilə baxdı, ah çəkdi, gözləri doldu, – "Allah baisin evini yıxsın!" – dedi və həmin günəbaxan yağından bir az tavaya töküb göbələyi qızartdı, sonra tən yarıya bölüb iki boşqaba çəkdi və boşqabın birini mənə uzadıb o bürkülü yay axşamı dünyanın ən gözəl sözlərini dedi:

– Apar arvada, Ələkbər... Denə ki, özün yığmısan göbələyi... Denə ki, özümüz doyunca yemişik...

Mən o gözəl qoxusu bütün ətrafa yayılmış o isti boşqabı anamdan alıb həyətə çıxdım, taxta pilləkənləri yuxarı qalxdım, o, isti boşqabı mizin üstünə qoydum və anamın dediyi sözləri Xanım xalaya dedim. Xanım xala ayaqlarını altına yığıb taxtda oturmuşdu, mənə baxdı, mizin üstünə qoyduğum o isti göbələk qovurmasına baxdı, bir söz demədi, amma gülümsədi və mənə elə gəldi ki, Xanım xalanın o gülümsəməyində nəsə şüşə kimi bir şey var, sınıb çilik-çilik ola bilər.

Mən şüşəbəndin ortasında dayanmışdım və bilmirdim ki, nə edim. Nədənsə çıxıb getmək istəmirdim, istəyirdim ki, Xanım xala bu göbələk qovurmasını isti-isti mənim yanımda yesin; bəlkə də gözləyirdim ki, Xanım xala məni tərifləyəcək, durduğum yerdə – beləcə göbələk tapdığım üçün mənim yerimə sevinəcək? bilmirəm... Xanım xala taxtdan düşüb mizin yanına gəldi, yenə boşqabdakı göbələk

qovurmasına baxdı, yenə gülümsədi və mən yenə də o gülümsəmədə şüşə kimi bir şey gördüm.

Xanım xala dedi:

–Yadıva gəlir, Ələkbər, bir dəfə bizə Ənzəli balığı gətirmişdün?..

Mən başımı tərpətdim, yəni ki, yadıma gəlir və doğrudan da, həmin gün mənim yadıma gəlirdi və həmin gün Xanım xalanın gözlərindən süzülüb axan o iki damla göz yaşı [illegible]

[illegible] sonra da birdən-birə elə bil ki, Balakərim tütək çaldı və Balakərimin tütəyində çalınan o uzaq, eyni zamanda çox yaxın havanı eşidə-eşidə Ədiləni yadıma saldım və o vaxt Xanım xalanın gözlərindən axan o iki damla göz yaşı indi mənim təsəvvürümdə təkcə Abuzərdən ötrü axmırdı, o göz yaşları indi həm də Ədilədən ötrü axırdı... Sonra mənə elə gəldi ki, bizim bütün məhəlləmiz bir yetimlik, bir kimsəsizlik səfərinə çıxıb və Xanım xalanın mənim təsəvvürümdəki o iki damla göz yaşı məhəlləmizin ardınca atılmış suyun damlalarıdır.

Mən çıxıb getmək istədim, çünki gözlərimin qabağına cürbəcür görümlər gəlirdi və mən heç özüm də bu görümlərdən baş açа bilmirdim, o görümlər, o təsəvvürlər mənim başımı ağrıdırdı, beynimi yorurdu və bu zaman Xanım xala o bir boşqab göbələk qovurmasına baxa-baxa birdən dedi:

– Ələkbər, bəlkə bunu göndərək Əliabbas kişiyə?

Mən:

– Əliabbas kişi çoxdan köçüb gedib ki, kəndə... – dedim.

Xanım xala:

– Hə? – soruşdu, sonra dedi: – Hə, düzdü... – mənə baxdı və mənə elə gəldi ki, Xanım xalanın qalın qaşlarının altından baxan qara gözləri də Əminə xalanın gözləri kimi zəifləyib, pis görür və heç kimin bundan xəbəri yoxdur, sonra birdən-birə məni dəhşətli bir qərxu bürüdü ki, birdən Xanım xala dəli olar...

Xanım xala bir də:

– Hə düzdü... – dedi, – sonra: – Sən heç nigaran qalmagınə, Ələkbər... – dedi. – Qayıdıb gələcək, altısı da Ələkbər... Mən tanıyıram onları, Ələkbər, gələcəklər altısı da, heç nə olmayacaq onlara, Ələkbər... Sən heç nigaran qalma, səni hələ maşınla çox gəzdirəcəklər onlar, Ələkbər... Cəfər də gəzdirəcək səni maşında, Ələkbər, Adil

də gəzdirəcək, Əbdüləli, Cəbrayıl da, Ələkbər, Ağarəhim də, Qoca da siznən bir yerdə gəzər, Ələkbər...

Xanım xala mənə baxa-baxa bu sözləri deyirdi, amma mənim bütün tüklərim biz-biz olmuşdu, mənə elə gəlirdi ki, Xanım xala məni görmür, mənə baxan gözləri harasa çox uzaqlara dikilib və bu sözləri də Xanım xala[illegible]

Mən, ayaqlarım titrəyə-titrəyə taxta pilləkənləri düşüb evimizə getdim və bir müddət mənə elə gəldi ki, Xanım xalanın mənim çıxıb getməyimdən hələ də xəbəri yoxdur, hələ də mənə müraciət eləyə-eləyə Cəfərin, Adilin, Əbdüləlinin, Qocanın, Cəbrayılın, Ağarəhimin qayıdıb gələcəyindən danışır, onların heç birinə heç nə olmayacağından deyir; bir müddət də keçdi, sonra Xanım xala da o taxta pilləkənlərlə aşağı düşdü, əlində balaca bir bağlama var idi – mən başa düşdüm ki, pay göndərdiyimiz həmin göbələk qovurmasıdı, – həyətimizdən çıxıb dalanın aşağı başına tərəf getdi və bu dəfə də mən başa düşdüm ki, Xanım xala o göbələk qovurmasını Əminə xalaya pay aparır.

...Gecə mən yerimdə gözlərimi yumub Balakərimin tütəkdə çaldığı o uzaq və eyni zamanda da çox yaxın havanı yenə də eşitdim və o tütək çaldı, çaldı, çaldı, sonra da elə bil, Balakərim həm çalırdı, həm deyirdi:

Hamam hamam içində,
Xəlbir saman içində,
Dəvə dəlləklik edər
Kəhnə hamam içində...

XXXVII

O arvad üç gün-üç gecə idi ki, bir balası qarnında, o biri balası qucağında acliqdan qaçırdı, amma karvan yolu elə hey uzanıb gedirdi, qurtarmaq bilmirdi, bir mənzilə gətirib çatdırmırdı və dünən səhər axırıncı çörək qırığını qucağındakı balasına verdi, lap kiçik bir qırıq da özü yedi ki, qarnındakı balasının olsun; lap az keçdi ki, acliq onları yenə haqladı, acliq onları yenə öldürməyə başladı.

Şəhərə aclıq düşdü, qaçan başını götürüb qaçdı, qalan acından qırıldı və iri gözləri çuxura düşüb acından işım-işım işıldayan, bir vaxt dolu və ehtiraslı bədənini tarımlamış ağ dərisi indi sümüklərindən sallanan o arvadın da əri öz boğazından kəsib balalarına verdi və özü acından həlak oldu, sonra o görünməmiş aclıq bir-birinin ardınca o arvadın üç oğlunu da apardı, cəmi bir balası qucağında, bir balası da qarnında qaldı və üç gün bundan əvvəl bütün əmlakına, ev-eşiyinə, həyət-bacasına dəyişdiyi bir parça arpa çörəyini qoynunda gizlətdi, yaşı hələ tamam olmamış balasını qucağına aldı, o ac Şəhərdən çıxdı, ayağı yalın, başı açıq bu karvan yoluna düşdü.

Bu karvan yolu vaxtıyla yolçu ilə dolu olardı, buradan gecə-gündüz karvan keçərdi, amma indi tamam bomboş idi, çünki o ac Şəhərdə dəvələrin, atların hamısını kəsib yemişdilər və o ac Şəhərə daha heç bir karvan gəlmirdi, çünki camaat karvanın dəvələrini o saat kəsib yeyirdi.

Karvan yolu bomboş, boz bir düzənlikdən keçib-gedirdi və həmin düzənlikdə o görünməmiş quraqlıqdan sonra, günün altında qupquru quruyub saralmış qanqaldan başqa heç nə yox idi.

Gün çıxmışdı və get-gedə daha artıq qızdırırdı, amma o arvad da, o arvadın qucağındakı uşaq da, qarnındakı balası da həmin günəş hərarətini hiss etmirdi; bütün içini, bütün varlığını yeyən bir aclıqdan başqa, o arvadın döşlərinin qapqara giləsində duz basılmış yara yeri kimi göynəyən, cızdağını çıxaran bir ağrı var idi: həmin uzandıqca uzanan yol boyu, həmin aclıq içində o arvad içi boş kisə kimi sallanmış döşlərini qucağındakı balasının ağzına verirdi, uşaq olan-qalan gücü ilə südü tamam qurumuş o döşləri sümürürdü, yara eləyirdi əvvəllər heç olmasa bir az qan gəlirdi bu döşlərdən, indi daha heç qan da yox idi.

O arvadın qarnındakı bala da aclıq içində idi, təpik atırdı, əllərini, başını tərpədirdi və arvad, əlbəttə, bətnindəki bu hərəkətlərin hamısını hiss edirdi, hələ doğulmamış, hələ bu qara yer üzünə gəlməmiş o uşağın çəkdiyi əzabı bütün ürəyi ilə duyurdu, amma heç nə edə bilmirdi, elə hey uzanan, uzanan, qurtarmaq bilməyən bu karvan yoluna baxırdı, əlini qarnına sürtürdü, bətnindəki o uşağı sakit eləmək istəyirdi, əlini qarnına ehtiyatla sürtürdü ki, sümükləri çıxmış barmaqları qarnının nazilib sallanmış dərisindən o uşağı əzməsin, hələ doğulmamış, hələ bu qara yer üzünə gəlməmiş uşağı... Qucağındakına baxdı:

mən ölsəm sənə qurban, sən ölmə, mən yazığam... nə günah eylədim ki, başıma qəza gəldi?..

A başım, başım səni...
Töküm qan yaşım səni...
Hara götürüm qaçım,
Bəlalı başım, səni?..

Ümid, ancaq bu karvan yoluna idi, bu karvan yolu əvvəl-axır harasa bir yerə gətirib çıxartmalı idi, o yerdə insanlar olacaqdı və o yerdə bir tikə çörək olacaqdı.

Arvad bütün gücünü toplayıb ayaqlarını sürütləyirdi, əllərini isə hiss etmirdi, əlləri elə bil ki, qucağındakı o körpənin bələyi altında qurumuşdu, daşa dönmüşdü və bir də ki, döşlərinin giləleri göynədə-göynədə ağrıyırdı.

Əzizim, günə düşdüm.
Kölgədən günə düşdüm...
Evin yıxılsın, fələk,
Sən deyən günə düşdüm...

Arvad yolun kənarında bir qaratikan kolu gördü, gəlib o kolun yanında dayanmaq istədi, amma qorxdu ki, sonra yerindən tərpənə bilməsin, qucağındakı uşağı yerə qoyub qaratikan kolunun kökünü eşib çıxartmaq istədi, amma qorxdu ki, sonra uşağı yerdən qaldıra bilməz, amma ayaqları özü özünə dayandı, bədəni özü özünə əyilib uşağı ehmallıca torpağın üstünə qoydu, əlləri özü özünə qaratikanın dibini eşdi, eşdi, qaratikanın kökünü çıxartdı, ağzına aparıb çeynəməyə başladı ki, bir azı qarnına getsin, bətnindəki o uşağın olsun, bir azını da ağzından çıxarıb torpağın üstündə qoyduğu o uşağa versin, qaratikan kökünün zəqqəto acısını hiss etmədi, amma dişləri o kötüyü əzə bilmədi, nə qədər elədisə də bir şey çıxmadı, qaratikanın kökünü yerə atdı, özü də bilmədi ki, necə ayağa qalxdı, uşağı yerdən necə götürdü, təzədən necə yola düzəldi...

Göyün üzü tərtəmiz idi, günün işığından başqa göydə heç nə yox idi və bu vaxt çox uzaqlarda güclə sezilən yaşıl dağlar göründü, o dağlarda o tərəflərdəki gözəl dünyanın cürbəcür meyvələri var idi, o dağlarda buz kimi bulaqlar var idi...

Dağlar, necə dağlarsan?..
Məni görcək ağlarsan...
Sinəmdə yer qalmadı,
Sən haramı dağlarsan?..

Çox uzaqlarda güclə sezilən o yaşıl dağlar, elə bil, o arvada bir az güc verdi, bir az ümidini artırdı, o arvad qurumuş əlləri kimi, döşlərinin ağrısını da unutdu, o yaşıl dağları tuş tutub getdi, getdi...

Əzizim oyan, dağlar...
Al qana boyan, dağlar..
Bu yan zülmətxanadır,
Necədir o yan, dağlar?..

Amma bir azdan o tərtəmiz göy də tutulmağa başladı, topa-topa buludlar gəldi, uzaqdakı o yaşıl dağlar görünməz oldu və o arvad başa düşdü ki, bu, daha axırdı, başa düşdü ki, onu da, qucağındakını da, qarnındakını da Allah qarğıyıb və birdən-birə yüz təbib də gəlsəydi, bir Allah qarğımışa nə edə bilərdi?

Qabaqda, yolun kənarında bir ağac gördü, uzaqdan tanıdı ki, o ağac zeytun ağacıdır, yenə ürəyində ümid yarandı, yenə taqətsiz ayaqlarını sürütləyə-sürütləyə o zeytun ağacının yanına gəlib çatdı, qucağındakı uşağı yerə qoydu, o qoca zeytun ağacının dibini axtardı, bir dənə də qopub düşmüş zeytun tapmadı, ağacın üstündə də bir dənə zeytun yox idi, o arvad uşağını yerdən qaldırıb yenə yola düşmək istədi, amma daha uşağı qaldıra bilmədi, yerə oturdu, bədənini dik saxlaya bilsin deyə, kürəyini o qoca zeytun ağacının gövdəsinə söykədi və tamam əmin oldu ki, daha heç vaxt buradan qalxa bilməyəcək, daha heç vaxt o uşağı qucağına ala bilməyəcək və tamam taqətsiz inildəyə-inildəyə ağlamağa başladı və o arvadın eləcə zingildəməyi ilə, elə bil, torpağın üstündə qalmış o uşağa da güc gəldi və o uşaq da bərkdən ağlamağa başladı.

Bir müddət beləcə keçdi.

Bütün dünyada heç kim yox idi, bir o tutulmuş göy idi, bir o uzandıqca uzanan yol idi, bir də o arvad idi, qarnındakı balası idi, torpağın üstündəki o uşaq idi və o arvad it kimi zingildədikcə, torpağın üstündəki o uşağın ağlamağını eşitdikcə, hər tərəfə bir zülmət çökürdü və o arvad hiss edirdi ki, bu, əbədi bir zülmətdir, həmin zülmət yavaş-yavaş onları aparır...

Bir müddət beləcə keçdi.

O arvadın zingildəyə-zingildəyə ağlamağı və torpağın üstündəki o uşağın ağlamağı, elə bil ki, o arvadın qarnındakı balasını sakitləşdirdi, daha əl atmadı, ayaq atmadı, o zülmət onu da özü ilə aparmağa başladı və bu zaman o arvad öz ağlamağından, torpağın üstündəki o uşağın ağlamağından savayı da bir ağlamaq səsi eşitdi, axırıncı dəfə bütün gücünü topladı və onları götürüb aparan o zülmətdən çıxdı, gözlərini açdı.

Ürəyiyumşaq adam həmin qoca zeytun ağacının altında dizi üstə yerə çöküb o arvadla üzbəüz oturmuşdu, o arvada baxırdı, torpağın üstündəki o uşağa baxırdı, o arvadın irəli çıxmış qarnına baxırdı, onların axırıncı gücləri ilə ağlamaqlarına baxırdı və özü də gözlərinin qabağındakı bu müsibətə için-için ağlayırdı.

Ağ Dəvə yolun kənarında dayanmışdı və sükut içində kövşəyə-kövşəyə o arvada, o arvadın qarnına, torpağın üstündəki o uşağa, Ürəyiyumşaq adama və qoca zeytun ağacına baxırdı.

O arvad Ürəyiyumşaq adamı görən kimi tanıdı, deməli, Allahın üzü onlardan hələ tamam dönməmişdi, Allahın onlara yazığı gəlmişdi, bu çöl-biyabanda başqa birisini yox, Ürəyiyumşaq adamı gətirib onların üstünə çıxartmışdı.

Ürəyiyumşaq adamın əlində kiçik bir bağlama var idi və o arvad o saat hiss etdi ki, o kiçik bağlamanın içindəki çörəkdir.

Ürəyiyumşaq adam da o karvan yolunun yolçusu idi və qoca zeytun ağacının altında ağlayan o arvadı görəndə Ağ Dəvəni saxladı, Ağ Dəvə qabaq ayaqlarını dizdən büküb aşağı çöməldi, Ürəyiyumşaq adam dəvədən düşüb o arvada yaxınlaşdı, torpağın üstündə acından ağlayan o uşağı gördü, o arvadın irəli çıxmış qarnına baxdı və özünü saxlaya bilmədi, dizi üstə yerə düşdü, o arvadın halına, o uşağın halına için-için ağladı.

O arvad daha ağlamadı, torpağın üstündəki o arvad-uşaq da, elə bil, hiss elədi ki, anası bu saat ona nəsə verəcək, səsini kəsdi, Ürəyiyumşaq adam isə kirimək bilmirdi, dizləri üstə oturub hıçqıra-hıçqıra ağlayırdı.

O arvad Ürəyiyumşaq adamın əlindəki o bağlamaya baxırdı.

Ürəyiyumşaq adam axır ki, birtəhər özünə gəldi, ayağa qalxdı, yoluna düzəlmək istədi və bu zaman o arvad dəhşətlə pıçıldadı:

– Hara, qardaş?

Ürəyiyumşaq adam əli ilə ağlamaqdan qızarmış gözlərini silə-silə:

– Yolum uzaqdır, bacı, – dedi. – Mən də mənzil başına çatacağam-çatmayacağam, Allah bilir...

– Bir parça çörək ver bizə...

Ürəyiyumşaq adam əlində tutduğu o kiçik bağlamaya baxdı və:

– Bu, mənim azuqəmdi, bacı... – dedi. – Mən sənin halına çox acıyıram, – dedi. – Nə qədər istəyirsən, oturum sənin bu halına ağlayım, – dedi. – Amma bu, mənim azuqəmdi, onu sənə verə bilmərəm, – dedi və yenə də özünü saxlaya bilməyib hıçqıra-hıçqıra ağladı.

O arvad daha ağlamadı, torpağın üstündəki o uşaq sümükdən və dəridən ibarət titrəyən barmağı ilə torpağın üstündəki o uşağı göstərdi və:

– Ondan da əl çəkdim, – dedi, sonra əlini qarnının üstünə qoydu. – Heç olmasa, bunu saxlamaqdan ötrü mənə bir dişdəm çörək ver...

Ürəyiyumşaq adamın təmiz ala gözləri var idi və həmin təmiz ala gözləri ilə o arvada baxdı, heç nə demədi..

O arvad Ağ Dəvəyə baxdı, Ağ Dəvənin iri qara gözlərini gördü və o arvad Ağ Dəvənin o iri qara gözlərində elə sözlər oxudu ki, həmin sözlər aclıqdan da, aclığın o qurtarmaq bilməyən, uzandıqca uzanan yol boyu əzab-əziyyətindən də betər oldu, bütün içini, bütün varlığını didib dağıtdı.

Ağ Dəvənin o iri qara gözləri o arvada deyirdi: yox, sən o bir dişdəm çörəyi qarnındakı o tifil üçün yox, özün üçün istəyirsən; sən özün özünü qarnındakı o tifillə aldatma, o bir dişdəm çörəyi sən özünü ölümdən qurtarmaq üçün istəyirsən...

O arvad gözlərini Ağ Dəvənin o iri qara gözlərindən gizlətdi.

Ürəyiyumşaq adam yenə özünü saxlaya bilmədi, yenə hıçqırdı və astadan eləcə için-için ağlaya-ağlaya Ağ Dəvəni mindi, o karvan yoluna düşdü, Ağ Dəvə yavaş-yavaş addımlaya-addımlaya uzaqlaşdı, gözdən itdi.

XXXVIII

Atam üç-dörd ay idi müharibəyə getmişdi və mənə elə gəlirdi ki, atamın xiffətini tək mən çəkmirəm, tək anam çəkmir, mənə elə gəlirdi ki, bizim evimizdəki rəflərə düzülmüş o stəkan-nəlbəkilərdən tutmuş, çarpayımızdan, mizimizdən, sandığımızdan, taxta kətillərimizdən tutmuş o həyət pəncərəmizəcən, o qapımızacan hər bir əşya, evimizin hər bir küncü-bucağı atamın xiffətini çəkir; atamın öz dünyası var idi, atam öz təbiətinə və taleyinə görə bəlkə də bizim dalanımıza, bizim küçəmizə yad bir adam idi, amma mənə elə gəlirdi ki, indi bizim dalanımız, bizim küçəmiz də atamın xiffətini çəkir və indi mənə elə gəlirdi ki, atam burada bizimlə olmadığı vaxtda, yəni müharibəyə getdiyi bu aylar ərzində bizim məhəlləyə daha yaxın olub, daha əziz olub.

Həmin günlərdən birində, bir payız axşamı, o qoşa tutun yarpaqlarının saralıb töküldüyü bir vaxtda dalbadal üç dənə qara "emadin" gəlib Muxtargilin evinin qabağında dayandı və Cəfərqulu ilə mən, elə bil ki, o qara "emadin"lərdən qorxa-qorxa Sarı hamamın qapısına qısılıb gözlərimizi məhəlləmizin bu gözlənilməz qonaqlarına zillədik.

Birinci "emadin"i biz tanıyırdıq, Muxtarın idi və Muxtar tələsik o maşından düşüb ikinci, üçüncü "emadin"in qabağına gəldi: ikinci maşından uzun qara saçları səliqə ilə arxaya daranmış bir nəfər çıxdı və mənə elə gəldi ki, boz kostyum geyib düyünü iri qalstuk taxmış və indi gülümsəyən bu adamı çox görmüşəm, amma onun kim olduğunu heç cür tapa bilmədim; üçüncü maşından da bir nəfər düşdü və Muxtar:

– Xoş gəlmisiniz! – dedi. – Buyurun, gəlin içəri!..

Mən ömrümdə Muxtarı bu cür üzügülər görməmişdim və ümumiyyətlə, təsəvvür eləməzdim ki, Muxtar beləcə qonaqpərvər ola bilər.

O gülümsəyən adam üzüyuxarı, üzüaşağı maraqla bizim küçəmizə

ürəyimdə o sözə – o günahsız "ekzotika" sözünə qərəzli bir münasibət var. Bir də ki, yadıma gəlir, o adamın gülüşü mənə pis təsir etdi, elə bil, mənim əlimi tutub güclə yaş bir qurbağaya toxundurdular, mən o gülüşün süniliyini, yalançılığını o saat hiss etdim, çünki məhəllə-mizdə heç kimin heç vaxt o cür yalandan gülməyini görməmişdim.

O adam Muxtargilin giriş qapısından içəri girəndə Cəfərqulu pıçıldadı:

– Tanıdun? Səttar Məsumu satan budu də!.. Görürsən necə hırıldayır?..

Mən Cəfərqulunun sözlərindən sonra o adamı o saat tanıdım: əlbəttə, özü idi, Fətulla Hatəm idi, qəzetlərdə şəkillərini çox görmüşdüm, ədəbiyyatdan yeni dərs kitabımızda şəkli var idi, anamın onun şəkilləri çap olunmuş qəzetlə mətbəximizdəki o nöyüt pilətəsini təmizləməyi və həmin şəkillərin ovulub qırıq-qırıq yerə tökülməyi gözlərimin qabağına gəldi.

Qara "emadin"lərin üçü də Muxtarın qapısı ağzında dayanmışdı, maşınların üçünün də sürücüsü var idi və o sürücülərin üçü də qoca kişilər idi, çünki cavan sürücülərin hamısı müharibədə idi, Cəfər kimi, Adil kimi, Əbdüləli kimi, Cəbrayıl, Ağarəhim kimi, amma Fətulla Hatəmin özü qoca deyildi, mənim atamla bir yaşda idi, amma mənim atam müharibədə idi, bizim bütün evimiz atamın xiffətini çəkirdi, bizim balaca arakəsmədəki həsir zənbil bomboş idi, o bərəkətli vaqon iyini tamam itirmişdi, amma Fətulla Hatəm indi bizim məhəllədə idi, gizli bir rişxəndlə gülümsəyən gözləri ilə bizim küçəmizə baxıb mənim mənasını bilmədiyim sözlər deyirdi. Fətulla Hatəm indi Muxtarın evində qonaq idi, yəqin nəsə yeyirdilər, nəsə içirdilər, Fətulla Hatəm həmişə gülümsəyirdi, gülürdü, amma mənim atam həmişə fikirli olurdu. Fətulla Hatəm bizim küçəmizə qara "emadin"lə gəlirdi, amma mənim atam həmişə qəribçilik içində idi, Fətulla Hatəm Muxtargildən çıxıb qara maşınında öz evlərinə gedəcək, amma mənim atam bəlkə də heç vaxt evimizə qayıtmayacaqdı. Səttar Məsum Sabiri çox istəyirdi, Fətulla Hatəm Səttar Məsumun üzünə durmuşdu, tutdurmuşdu, amma indi bizim təzə dərsliyimizdə Sabirin şəklindən bir az sonra Fətulla Hatəmin şəkli gəlirdi; bir koma qəhər içəridən mənim boğazıma dirəndi (birdən-birə mənə elə gəldi ki, Xanım xalagildə yazı mizinin üstündəki o iri adam sümükləri Səttar Məsumun sümükləridir və heç kim bunu bilmir...) və dünyanın belə bir ədalət-

sizliyi mənim ürəyimi o vaxta qədər heç zaman duymadığım dəhşətli bir acıqla, kinlə, ədavətlə doldurdu, qəhər məni boğdu və mənə elə gəldi ki, Kübra xalanın o şüşəbənddəki gülləri də beləcə bir qəhər içindədir, mən heç özüm də bilmədim ki, yerdən iri bir daş parçasını necə götürdüm, o iri daş parçasını Muxtarın şüşəbəndinə necə çırpdım.

Şüşəbəndin böyük şüşələrindən biri cingiltiylə sınıb küçəyə töküldü, mənim atdığım o daş, elə bil, bizim bütün küçəmizi səksəndirdi, amma o bir anlıq səksəntidə bir qürur da hiss etdim, elə bil, mən nədən ötrüsə Muxtarın o şüşəbəndindən, Muxtarın evində oturmuş o adamlardan bütün küçəmizin intiqamını almışdım və küçəmiz də mənim bu intiqamımla, mənim özümlə qürurlanırdı.

Muxtarın sürücüsü:

– Tı çto delayeş, neqodyay?! – qışqırıb maşının qapısını açdı, amma mən və ardımca da Cəfərqulu bir göz qırpımında qaçıb küçəmizin yuxarı başındakı tindən burulduq və qaça-qaça da məhəlləmizdən uzaqlaşdıq.

Əlbəttə, Muxtargilin evində oturmuş o adamlar qorxmuşdu və indi yəqin qanları qara idi, amma o şüşəbənddəki o güllər, Kübra xalanın gülləri indi yəqin şüşəsi sınıb tökülmüş o açıq pəncərədən mənim ardımca gülümsəyirdi...

Evə bir də gecə qayıtdım.

XXXIX

Gərək ki, inişil idi, ayın əvvəllərində Bakıda bir neçə gün dalbadal bərk yağış yağdı, külək əsdi və həmin küləkli-yağışlı may günlərindən birində evdə mənim ürəyim darıxdı, plaşımı geyib şlyapamı başıma basdım və küçəyə çıxıb dənizkənarı bulvara tərəf getdim.

Düzdür, yağış lap azalmışdı, hərdənbir atırdı, amma hər tərəf su içində idi, külək əsirdi və mən küçədəki kiçik gölməçələrə fikir vermədən addımlayırdım.

Yaxşı yadımdadır, bazar günü idi, amma Bakının küçələri bomboş idi və binaların navalçalarından tökülən, küçələrdə səkinin dibi ilə köpükləno-köpükləno axan suya, yaş divarlara, damlara yaz gələli təzəcə oyanıb birdən-birə də belə bir payız soyuğuna düşmüş ağaclara baxdıqca, üzümə, əllərimə adda-budda yağış damcıları düşdükcə

mənə elə gəlirdi ki, bütün Bakı camaatı şəhərdən çıxıb haradasa buz kimi suyun altına düşüb və bu boş küçələr, yaş binalar da beləcə adamsız qalıb.

Dənizkənarı bulvarda açıqlıq olduğu üçün külək daha da bərk əsirdi və bulvarda da, əlbəttə, heç kim yox idi, sahil bomboş idi və yağışdan işıldayan asfalt sahil dəniz boyu uzanırdı.

Bir dəstə ac qağayı da uçub dəniz kənarına gəlmişdi və o küləyə, yağışa baxmayaraq, dənizin üstü ilə uçurdu, enib dalğaya dimdik vururdu və həmin küləkli-yağışlı may günü mən çox təəssüf etdim ki, ciblərimdə bu quşlara verə biləcəyim heç nə yoxdur, hətta tələsik bulvardan çıxıb dükana getmək istədim, bu quşlar üçün kilkə alıb gətirmək istədim, amma belə bir fikrə düşməyim – bilmirəm niyə? – məni özümə, yaşıma yaraşmayan gücsüz bir adam kimi göstərdi; məsələ onda deyildi ki, alıb gətirdiyim xırda balıqlar onsuz da böyük və ac quşların hamısını doyuzdurmayacaqdı, məsələ onda idi ki, bu istək tamam sadəlövh bir uşaq istəyi idi...

Dəniz dalğalı idi və o dalğaların üzü elə ağappaq köpüklənmişdi ki, o təmiz ağlıq həmin küləkli-yağışlı may gününün bozluğu ilə heç cür uyuşmurdu.

Mən sahildən yuxarı qalxdım və bulvarın ağaclıq hissəsi ilə addımlamağa başladım, hər dəfə yenicə yarpaqlamış və bu qəfil may soyuğundan üşüm-üşüm üşüyən ağacların yanındakı çəndən külək yarpaqların suyunu mənim üzümə çırpırdı.

Bulvar boyu addımlaya-addımlaya kənardan özüm özümə baxdım: beləcə küləkli-yağışlı bir gündə yazıçının bulvarda gəzməyində, əlbəttə, bir romantika var idi və kənardan görünən, kənardan baxılan o romantikaya, doğrusu, mənim gülməyim tutdu.

Həmin küləkli-yağışlı may günü boş bulvarda tək-tənha dolaşdığım o dəqiqələrdə mənə elə gəlirdi ki, dünyada bu küləyin və bu dənizin səsindən başqa, bir də ki, indi daha uzaqda qalmış o qağayı səsindən başqa heç bir səs yoxdur və olmayıb.

Bulvardakı köhnə yay kinoteatrının yanından keçəndə, elə bil ki, üçü də bədənləri ilə həmin taxta lövhəni küləkdən qoruya-qoruya domino oynayırdılar.

O yaşlı kişilərdən birini mən qırx il görməsəm də, o saat tanıdım.

Taxta lövhə yaş olduğu üçün o üç nəfərin can-dildən həmin lövhəyə çırpdıqları domino daşlarının səsi çox küt çıxırdı və o səsin o cür küt çıxmağında da nəsə bir payız əhvali-ruhiyyəsi, bir payız sarılığı var idi, hərgah səsin rəngi olsaydı, o domino daşlarının küt səsi mütləq xəzəl rəngində olmalıydı.

O üç nəfərdən biri, o yaşlı kişi Muxtar idi.

Mən bir müddət dayanıb eləcə kənardan Muxtara baxdım.

Bu qırx ildə Muxtar az dəyişmişdi, amma eyni zamanda, qırx il bundan əvvəlki o Muxtar ilə indi bu küləkli-yağışlı gündə bulvarda oturub iki başqa qoca kişi ilə o sarı səsli domino daşlarını çırpa-çırpa domino oynayan bu Muxtar arasında çox görümlü, hiss olunası bir fərq də var idi; bu yalnız yaş fərqi deyildi, bu fərq bəlkə də onda idi ki, indi Muxtarın əynində həmin qara meşin pencək, başında həmin meşin kepka, ayaqlarında həmin xrom uzunboğaz yox idi və Muxtar indi dünyanın ən adi bəndəsi kimi geyinmişdi.

Yay kinoteatrının mövsümü hələ açılmamışdı, qapısı bağlı, divarları yaş, bilet kassasının balaca pəncərəsi dəmir torlu idi və qəribə idi, elə bil ki, bu boş bulvarda, bu küləkli-yağışlı gündə o üç nəfərin kinoteatrın divarı dibində oturub domino oynamağı həmin kinoteatrı daha artıq kimsəsiz, daha artıq tənha eləmişdi.

O üç nəfər yaşlı kişinin isə divarının dibində bir-birlərinə qısıldıqları kinoteatrın həmin kimsəsizliyi, tənhalığı ilə işi yox idi, dominonun daşlarını bədənləri ilə küləkdən qoruduqları taxta lövhənin üstünə vura-vura domino oynayırdılar (və o domino daşlarının da səsində bir payız məyusluğu var idi).

Mən bir kənarda dayanıb o üç nəfərə baxırdım, domino daşlarının o küt səsini eşidirdim, sonra mənə elə gəldi ki, bu ətrafa nəsə çox doğma bir qoxu yayıldı, o qoxu çox-çox uzaqlardan gəldi, sonra mən başa düşdüm ki, bu, o isti nərəskilərin qoxusudur, sonra mən Kübra

O domino daşlarının çıxartdığı küt səsin payız sarısını, ancaq mən görürdüm, o səs, ancaq mənim gözlərimin qabağında xəzələ çevrilirdi, amma o üç nəfər qoca kişi bunun fərqində deyildi.

Mən Muxtara baxırdım və Muxtarın da həmin küləkli-yağışlı günə mənim kimi evdə darıxıb bura gəlməyi, elə bil, uzaqdan-uzağa bizi bir-birimizə yaxınlaşdırdı.

Mən uşaq olanda Balakərim bizə deyirdi ki, dünyadakı bütün insanlar bir-biri ilə qohumdur, çünki yer üzündəki bütün adamlar Adəm ilə Həvvanın törəmələridir və Balakərim bu sözləri özünün böyük bir kəşfi kimi deyirdi və o zaman Balakərimin o sözləri mənə dünyanın ən böyük (və nə üçünsə çox sirli!) həqiqətlərindən biri kimi təsir etmişdi.

Mən gülümsədim, çünki həmin küləkli-yağışlı may günü mənə elə gəldi ki, elə bil doğrudan da Muxtarla qohumuq.

Həmin küləkli-yağışlı günün gecəsi göydə qəribə bir təmizlik var idi, göy başdan-başa ulduzla dolmuşdu, ay çıxmışdı, elə bil, ömründə heç vaxt yer üzündə yağış deyilən, bulud deyilən, külək deyilən bir şey olmayıb və aylı-ulduzlu gecə mən də qəribə bir yuxu gördüm:

Adi binalardakı kimi, blok pilləkənləri idi, amma o pilləkənlər yuxarı qalxmırdı, yerin altına enirdi.

Mən həmin pilləkənləri burula-burula, tərləyə-tərləyə sürətlə xeyli aşağı endim.

Sonra bir evə girdim və başa düşdüm ki, bura Muxtarın evidir.

Muxtar ağ tuman-köynəkdə idi, əlində də içi su ilə dolu böyük bir vedrə var idi.

Muxtarın əynindəki o tuman-köynəyin ağlığında bir kəfən rəngi var idi.

Mənim əlimdən tutdu: – "Gəl, gəl bura!.." – dedi və biz həmin yerin altındakı evdən də aşağı düşməyə başladıq və Muxtar o pilləkənləri endikcə vedrədəki su dalğalanıb ayaq altına tökülürdü, elə bil ki, yağışdan sonrakı kiçik gölməçələrdi.

Mən əvvəlcə elə bildim, qabağımızdakı tabut qapağıdır, amma sonra gördüm ki, zirzəminin dar taxta qapısıdır və biz o qapının qarşısında dayandıq. Muxtar əlini dirsəyəcən vedrəyə saldı – suyun içindən bir dəstə açar çıxarıb zirzəminin o darısqal taxta qapısındakı yekə qıfılı açdı (o yekə qıfıl mənə çox tanış gəldi, hətta o an mən

Muxtarın ağ köynəyinin qolu dirsəyəcən yaş olmuşdu, ağ tumanının balaqları da vedrənin suyundan yaş olmuşdu və tumanının, köynəyinin yaş yerləri bədəninə yapışmışdı.

Muxtar dedi: "–Bude onlar!.. Hamısını saxlamışam!".

Zirzəminin torpaq döşəməsinə saxsı dibçəklər düzülmüşdü və həmin dibçəklərdə güllər bitmişdi.

O güllər Kübra xalanın gülləri idi, amma o güllər kağızdan idi.

Muxtar əyilib vedrədəki sudan ovuc-ovuc götürürdü və saxsı dibçəklərdəki o kağız gülləri sulayırdı.

Sonra mən hiss etdim ki, indicə yuxudan oyanacağam və mən doğrudan da yuxudan oyandım, gecənin yarısı idi, təzədən gözlərimi yumub bir müddət yerimdə o tərəf-bu tərəfə çevrildim; təzədən yatmaq istəyirdim, istəyirdim görüm ki, o kağız güllər Muxtarın verdiyi ovuc-ovuc sudan sonra canlandı, canlı gül oldu, yoxsa yox?

XL

Bir dəfə – həmin 44-cü ilin isti və quraqlıq payız günlərindən biri idi. Xanım xala həmişəki dik addımları ilə küçəmizdən keçirdi, birdən üçmərtəbənin yanında ayaq saxladı, başını qaldırıb papaqçı Əbülfətgilin pəncərələrinə tərəf baxdı və birdən papaqçı Əbülfətin arvadı Fatma xalanı səslədi və dünyada heç kimin gözləmədiyi dəhşətli sözlər dedi:

– Fatma! Fatma! – dedi Xanım xala.– Ədiləyə denə çıxıb üzümə tüpürsün mənim, haqqı var!..

Küçədə məndən, Balakərimdən və Cəfərquludan başqa heç kim yox idi, qoşa tutun altında, səkidə oturmuşduq; Cəfərqulu heyrətlə Xanım xalaya baxdı və mən açıq-aşkar gördüm ki, Cəfərqulu Xanım xaladan, Xanım xalanın bu sözlərindən qorxub; Balakərim də Xanım xalaya baxırdı, amma Balakərimin həmişə yol çəkən gözlərində heç bir heyrət yox idi; mən də Xanım xalaya baxırdım və ürəyim döyünə-döyünə çox kədərli bir sevinclə sevindim ki, nə yaxşı ki, bizim küçəmizdə indi heç kim yoxdur, nə yaxşı ki, Xanım xalanın bu sözlərini heç kim eşitmədi, çünki mən istəmirdim ki, məhəlləmizin [redacted]

da betər qorxurdum, mənim bütün canımı bir xof bürümüşdü, mən istəmirdim ki, Xanım xala dəli olsun.

Fatma xalagil də yəqin Xanım xalanın sözlərini eşitmədi.

Xanım xala daha heç nə demədi, həmişəki dik addımları ilə gedib dalanımıza buruldu.

Balakərim bir müddət bizim dalanımıza tərəf baxdı, sonra:

– Dünya! – dedi. – Sənin...

Və ömründə söyüş söyməyən Balakərim həmin isti payız günü dünyanı çox pis söyüşlə söydü.

XLI

Mən Amerikaya üç il bundan əvvəl getmişdim və hərgah bir dəfə də mənim yolum Amerikaya düşsə, mütləq Ziba xalanı axtarıb tapacağam.

Bəlkə Ziba xala çoxdan ölüb?

Bilmirəm...

Amma məndə belə bir hiss var ki, Ziba xala sağdır, hətta mən Ziba xalanı görürəm də: lap qocalıb, beli bükülüb, gözləri sulanıb və o sulanmış gözlər gecə-gündüz uzaq bir məhəllənin, heç kimin tanımadığı və heç kimin təsəvvür də etmədiyi bir məhəllənin xiffətini çəkir...

Ziba xalanın nəvələri, nəticələri ingiliscə danışır və o gözəl tum torbasından, o gözəl tum stəkanından xəbərləri yoxdur.

xalanın çığırtısı dalanımıza yayılırdı: "–Nə istəyirsən məndən, ay nadürüst oğlu, nadürüst? Genə gəldün? Allah haçan məni götürüb aparacaq ki, sənün əlündən qurtarsın canım, ay naxələf?.."

Kürən pişik öləndən sonra mən bir müddət təxminən bir həftə-on gün İbadullanı görmədim, hətta burası da mənim yadımda idi ki, o bir həftə-on gün ərzində hərdənbir İbadulla yadıma düşdü və elə bil ki, mən özüm özümdən gizlətmək istədiyim bir nigaranlıq keçirirdim: İbadullaya nə olub görəsən? Amma o bir həftədən-on gündən sonra, İbadulla yenə araq iyi verə-verə dalanımıza gəlməyə başladı, Əminə xalanı qışqırtmağa başladı.

Dalanımızın arvadları, qızları, daha həyət qapılarının ağzına yığışıb, pəncərələrdən boylanıb Əminə xalanın evinə tərəf baxmırdı, çünki hərənin öz dərdi özünə bəs idi, çünki qara xəbərlər gələn evlərdə qopan vayın-şivənin yanında qoca Əminə xalanın çığırtısı daha təsir etmirdi.

Bir gün mən həyətimizin dalan qapısının ağzında oturmuşdum, atam neçə ay idi ki, müharibədə idi və anamın öz-özünə danışmağa başladığı günlər idi, kimsəsiz dalanımıza baxırdım, dalanımızın sakitliyinə qulaq asırdım və mən də özümü bütün dünyada tamam tək-tənha hiss eləyirdim, sinəmdə tamam təşnəsiz bir ürək vururdu və o ürəyin həmin təşnəsiz tıppıltısını açıq-aydın eşidirdim, mənə elə gəlirdi ki, bu təklik-tənhalıq əbədidir, ürək həmişə beləcə təşnəsiz vuracaq, bizim dalanımızın sakitliyindəki o yazıqlıq, kimsəsizliyindəki, yiyəsizliyindəki o yetimlik də daimidir; mənim ürəyimin o tıppıltısı da, elə bil,

ganəliyi içində Əminə xalanın sözlərini eşitdim: "–Get, köpəyoğlu, çıx get day, canım qurtardı sənnən!.. Get, köpəyoğlu, get, bir qara daş da dalunca!..".

Mən ömrümdə İbadullanı belə görməmişdim, pərtdə ala gözləri sevincdən, əldə etdiyi qələbədən işıldayırdı və gözlərinin o işıltısı İbadullanın günün altında yanıb qaralmış arıq sifətinə, qırışmış nazik boğazına, bütün cansız vücuduna bir yaraşıq vermişdi; elə bil, yerişi də dəyişmişdi, addımlarında heç vaxt olmayan bir sərrastlıq var idi, sinəsini irəli vermişdi, gəlib mənim qabağımdan ötdü, əvvəlcə mənə fikir vermədi, çünki o dəm İbadulla deyəsən, ümumiyyətlə, heç nəyə fikir vermirdi və dünyanın ən xoşbəxt, daha doğrusu, dünyanın ən qalib adamı idi, sonra birdənbirə dayandı, geri dönüb həmin şəstli addımlarla düz mənim qabağıma gəldi, əlini pencəyinin cibinə salıb ağ əsgiyə bürünmüş nəsə çıxartdı, həmin balaca əsgi bağlamasını mənim gözlərimin qabağında açdı, həyəcandan dili-dodağı əsə-əsə, maxorkadan saralmış iri və seyrək dişlərinin arasından ətrafa tüpürcək sıçraya-sıçraya:

– Hə, gördüz?! – dedi. – Axırı verdi qızıllarımı!.. Gördüz!?.

O ağ əsgi parçasının içində Nikolayın saqqallı şəkilləri olan bir ovuc qızıl sikkə var idi.

– Getdim mən day!.. Axtarun, taparsuz məni Voronejdə!.. Ay tapduz a!..

İbadulla getdi; eləcə şəstlə və sərrast addımlarla getdi.

Mən Əminə xalanın qışqırığını aydın eşidirdim:

"–Get, köpəyoğlu, səni görüm qan qusasan!.. Səni görüm tramvay altında qalasan, köpəyoğlu, saxladuğun o qəhbənən bir yerdə!.."

Mənə elə gəldi ki, bizim o qəmgin dalanımıza nəsə çirkab bir su töküldü.

Mənə elə gəldi ki, Əminə xalanın özü də başdan-başa o çirkabın içindədir.

İbadullanı mən bir daha heç vaxt görmədim.

bir qeyri-adiliyini o saat hiss etdi, dalanımızın pəncərələrindən boylandı, həyət qapılarının ağzına yığışdı.

Əyninə qara paltar geyib başına qara yaylıq bağlamış və ağlamaqdan gözləri qızarmış, göz qapaqları şişmiş, təxminən əlli yaşlarında bir arvad Əminə xalanın həyət qapısı ağzında dayanıb rusca deyirdi:

– Qde İbadulla? On ved kak malenkiy rebyonok, propadyot!.. – Və özünü saxlaya bilməyib ağlayırdı.

Bir göz qırpımında bütün dalana belə bir pıçıltı yayıldı ki, rusca danışan bu qadın İbadullanın həmin erməni arvadıdır və bizim dalanın camaatı bu işə lap mat qaldı, çünki İbadulladan on beş yaş böyük olan bu arvadın məktəb müəllimlərinə oxşayan ciddi görkəmi, qara paltarının, yaylığının səliqəsi, rusca danışıb eləcə ürəkdən ağlamağı İbadulla ilə və İbadullanın erməni arvadı barədəki təsəvvürlə heç cür uyuşmurdu.

– Qde on? Çto vı s nim sdelali? Ved propadyot on bez menya, kak vı etoqo ne ponimayete? Qde nayti eqo, podskajite... – deyirdi və ağlayırdı...

XLIII

Yay keçib getdi, payız gəldi və həmin payız günü həyətimizə axşam təzəcə düşmüşdü, mən evimizin həyətə açılan qapısı ağzında oturub bilək nazikliyində yaraşıqlı bir ağac olmuş o söyüdün saralmış yarpaqlarına baxa-baxa [illegible] yetimizin sakitliyinə qulaq asırdım və o sakitlik yenə də mənim ürəyimi axırdı; mənə elə gəlirdi ki, o sakitlik kiminsə görünməz gözləri ilə mənə baxır, o sakitlik bilir ki, bu saat mən həyətimizdə təkəm, mənim heç kimim yoxdur; o sakitlik, elə bil, pusquda durub.

tökülməsi mənim ürəyimi daha da sıxırdı; mən məhəlləmizin kişilərinin, cavan və güclü oğlanlarının ölməyinə öyrəşmişdim, yəni onların müharibədən gələn qara xəbərlərinə adət etmişdim, amma indi bilək yoğunluğunda olsa da, bu balaca söyüdün, mənim gözlərimin qabağın

rəcəyi o çörəkdən də əl çəkməyə hazır idim, təki anam indicə həyətimizə girəydi və mən Xanım xalanın ağlamağını görməyəydim; amma Xanım xala ağlamadı, əksinə, gülümsədi:

– Otur, Ələkbər, – dedi. – Sənə yadigar verəcəyəm. – Sonra otağa

məni heç olmasa bir balaca sevindirmək istəyir, mənim üçün nəsə bir şey eləmək istəyir, amma neçə illər idi ki, bizim həyətdən, Xanım xalanın o şüşəbəndindən qutab iyi gəlmirdi və o qutab iyi keçmişin həm sevinci, həm də qüsseli bir xatirəsinə çevrilmişdi və indi Xanım xalanın əli çatan bu şəkil idi, həmin şəkil ilə o balaca Ələkbəri sevindirmək istəyirdi, çünki Xanım xala şüşəbənddən baxanda o şəffaf buz layının arxasından o balaca Ələkbərin kimsəsizliyini, fərəhsizliyini görmüşdü, o balaca Ələkbər evlərinin həyət qapısı ağzında oturub boynunu bükəndə, həyətdəki o sakitlikdən qorxanda, Xanım xala o şəffaf buz layının arxasından o uşağın gözlərindəki həmin qorxunu görmüşdü.

Mən, əlbəttə, Xanım xalaya demədim ki, bu fotoşəkildən məndə də var, Xanım xala ilə üzbəüz oturub fotoşəklə baxdım və bu zaman birdən-birə başa düşdüm ki, həmin şəkil mənim üçün daha əvvəlki kimi maraqlı deyil, mən bu şəkildə təyyarənin, bu şəkildəki o ağappaq buludların açıq-aşkar yalançılığını gördüm, hətta fikirləşdim ki, bu şəkli cırmaq lazımdır, çünki bizim məhəlləmizin o yetimlik çağında, o qaraxəbərli çağında bu yalançı təyyarənin ağappaq yalançı buludların üstü ilə uçmağı mənə pis təsir elədi. Xanım xala isə gülümsəyə-gülümsəyə deyirdi:

– Bax, görürsən, Ələkbər... Bu şəkli sənə yadigar verirəm... Ancaq yaxçı saxla ya, Ələkbər, bu şəkli, yaxçı şəkildi çox...

Mən başımı tərpədirdim, yəni ki, elədir, düzdür, bundan artığına isə gücüm çatmırdı, bir söz deyə bilmirdim, təkcə elə başımı tərpədirdim; mən gözümü o şəkildən çəkib Xanım xalaya baxmaq istəmirdim, çünki Xanım xalanın gülümsəməyi mənim xoşuma gəlmirdi, daha doğrusu, Xanım xalanın nazik dodaqlarındakı o təbəssümdə nəsə elə bir şey var idi, o, mənim xoşuma gəlmirdi və mən istəmirdim ki, Xanım xala elə gülümsəsin, mən istəyirdim ki, Xanım xalanın o nazik dodaqları həmişəki kimi, kip örtülmüş olsun, Xanım xalanın qalın qaşlarının altından baxan iri qara gözləri yenə zabitə ilə baxsın, o gözlərin həmin sərtliyi həmişə hiss olunsun.

Mən, Qocanın şüşəbəndin aşağı küncündəki yazı masasına da baxmaq istəmirdim, çünki mənə elə gəlirdi ki, Qocanın dərs öyrəndiyi o ağappaq iri adam sümükləri yenə də o mizin üstündədir və mən o adam sümüklərini görmək istəmirdim – bir azdan gecə düşəcəkdi, məhəlləmiz yatacaqdı və mən istəmirdim ki, o zaman, yəni o gecə

vaxtı, hamı yatandan sonra, Xanım xala bu boş şüşəbənddə həmin ağappaq iri adam sümükləri ilə təkbətək qalsın.

Həmin gecə mən yuxuya gedə bilmirdim, ayıqlıq ilə yuxu arasında elə hey ağappaq buludların üstü ilə uçurdum; mən o təyyarəyə minmək istəmirdim, uçmaq istəmirdim, amma elə hey uçurdum və açıq-aşkar görürdüm ki, buludların o ağlığı elə adam sümüklərinin ağlığıdır, o ardı-arası kəsilməyən uçuş boyu məni də, o təyyarəni də, o ağappaq buludları da Xanım xalanın nazik dodaqlarındakı o təbəssüm müşayiət edirdi və mənə elə gəlirdi ki, o təbəssüm, əslində Ağ Dəvənin iri qara gözlərinin baxışından yaranmışdı, biz də həmin baxışın, həmin baxışdan doğan o təbəssümün içində uçurduq.

O gecənin səhəri mən məktəbdən qayıdanda anam:

– Şalvarıvı çıxar ver, – dedi. – Yuyacağam.

Mənim məktəbə geydiyim şalvar tamam çirkin içində idi və sabun tapılmadığı üçün, anam o şalvarı yuya bilmirdi ki, səhərəcən qurusun və mən onu təmiz geyib məktəbə gedim, amma həmin gün dayım bizə bir parça gilabi tapıb gətirmişdi (dayımın da bir gözü şikəst idi, müharibəyə getməmişdi və hərdən beləcə gəlib bizə baş çəkirdi) və anam bu qərara gəlmişdi ki, o bir tikə gilabi parçasını başqa bir şeylə dəyişməsin, ya başqa pal-paltara, hamamda çimməyə sərf eləməsin, mənim şalvarımı yusun.

Anam həmin payız günü həyətimizdəki krantın altında gilabini köpükləndirib mənim şalvarımı yuyurdu və birdən əlini saxladı, belini düzəldib Xanım xalagilin şüşəbəndinə tərəf baxdı və öz-özünə:

– Bu arvad nöş görükmür bu gün?.. – dedi, sonra yenə həmişəki kimi ah çəkdi, başını buladı. – Yazıq arvad... Danışıb-ağlayıb heç olmasa ürəyini də boşaltmır, bütün dərdini-sərini salır içinə...– dedi. – Allah baisi cəzasına yetirsin, necə ki, yetirir (hamı bilirdi ki, Hitlerin axırına daha az qalıb və o zamanlar anam tez-tez deyirdi: – Allah Stalinin kölgəsini bizim başımızın üstündən əskik eləməsin, az qalıb day bu Hitler oğraşın axırına!..). Əzrayıl qənimini versin baisin, necə ki, verir!.. – Sonra anam mənə dedi: – Ələkbər, get gör arvad neyniyir?..

Mən dünənki kimi başımı aşağı salıb taxta pilləkənləri cırıldadacırıldada şüşəbəndə qalxdım. Xanım xala şüşəbənddəki taxtın üstündə oturub çiynini divara söykəmişdi və gözlərini yumub yatmışdı. Mən oğrun-oğrun şüşəbəndin küncündəki yazı mizinə baxdım: yox,

yazı mizinin üstündə heç nə yox idi. Xanım xala oyanmasın deyə, yavaşca şüşəbənddən çıxdım və həyətdə anama dedim ki, Xanım xala yatıb. Anam yenə də başını buladı, yenə də ah çəkdi və yenə də:

– Yazıq arvad... – dedi.

Anam şalvarımı yudu, həyətdəki zivədən asdı, şalvar o isti payız günəşinin altında tez qurudu və anam günorta həyətə çıxıb şalvarımı zivədən götürəndə yenə də Xanım xalanın şüşəbəndinə tərəf baxdı:

– Aa-a-a, bu arvad nöş görükmür? – dedi. – Ələkbər, ay Əlləkbər! Balam, get gör neyniyir arvad səhərdən o evdə...

Mən yenə də başımı aşağı saldım, yenə də o taxta pilləkənləri cırıldada-cırıldada şüşəbəndə qalxdım. Xanım xala bayaqkı kimi, yuxu içində idi və mən yenə də ehmallıca həyətə düşdüm, anama dedim ki, Xanım xala yatıb. Birdən-birə anamın bütün sifətini bir nigarançılıq bürüdü:

– Bu qədər də yatmaq olar? – dedi və anamın sifətini bürümüş o nigarançılıq mənim də ürəyimə bir nigarançılıq gətirdi və mən də anam kimi başımı qaldırıb Xanım xalanın şüşəbəndinə baxdım.

Anam əlində tutduğu şalvarı mənə verdi, əllərini günorta həmişə əynində olan döşlüyünün ətəyinə silə-silə mənə baxdı, sonra o taxta pilləkənləri cırıldada-cırıldada şüşəbəndə tərəf qalxdı. Mən anamın ürəyinin döyüntüsünü hiss edirdim və mənim ürəyim də bərkdən döyünməyə başladı, anam şüşəbəndə girdi, çox uzun bir an keçdi, birdən anam bərkdən çığırdı və anamın çığırtısını eşidən kimi, mən əlimdəki şalvarı yerə tullayıb dalana qaçdım, ağlaya-ağlaya qışqırdım:

– Xanım xala ölüb!..

Mən öz səsimdən başqa heç nə eşitmirdim və öz səsim də mənə başqasının səsi kimi, uzaqdan gəlirdi, mən heç nə görmürdüm, heç nə fikirləşmirdim, ağlayırdım və ağlaya-ağlaya da qışqırırdım:

– Xanım xala ölüb!.. Xanım xala ölüb!..

O axşam bütün məhəllə bizim həyətimizdə, dalanımızda idi.

Məhəlləmizə qara xəbər gələndə, adam öləndə evlərdən, həyətlərdən vay-şivən qopardı, arvadlar ağlayıb üz-gözlərini cırardı, amma o axşam bizim həyətimizdə, dalanımızda heç kim ağlamırdı, hamı susmuşdu, heç kim heç nə demirdi və bizim həyətimizdəki, dalanımızdakı o sükut ağlamaqdan çox betər idi; o axşam küçəmiz də eləcə dərin bir sükut içində idi və küçəmizin o sükutunda da qapqara bir matəm ağırlığı var idi.

O gecə Balakərim də qoşa tut ağacının altında, səkidə oturub bir müddət susdu, sonra bizim dalana tərəf baxa-baxa:

– Onda təqsir yoxdu... – dedi. – Ağ Dəvə yatmışdı qapısında...

Səhəri gün Molla Əsədulla qabağa düşdü və məhəlləmizdə, demək olar ki, kişi qalmadığı üçün, arvadlardan və uşaqlardan ibarət böyük bir izdiham – bizim bütün məhəlləmiz Xanım xalanı qəbiristanlığa apardı və qəbiristanlıqda məhəlləmizin camaatına baxa-baxa mənə elə gəldi ki, həmin dəqiqələrdə tamam boş qalmış küçəmiz, dalanımız, həyətimiz, məhəlləmizin indi bomboş, adamsız olan bütün evləri, o evlərin pəncərələri, qapıları, divarları, pilləkənləri, küçəmizə döşənmiş o qəmbər daşlar da, o qoşa tut ağacı da lal sükut içində ağlayır. Papaqçı Əbülfət əmi də, Fatma xala da qəbiristanlıqda idi və mənə elə gəlirdi ki, indi Ədilə də haradansa baxır və Ədilə də o boş məhəlləmiz kimi, lal sükut içində Xanım xalanın ölməyinə ağlayır.

Xanım xalanı basdırandan sonra camaat dağılışanda, anam da arvadlarla çıxıb gedəndə, mən yerimdən tərpənmədim, çünki mən bilirdim ki, mən əmin idim ki, Balakərim qəbiristanlıqda qalacaq, tək oturub tütək çalacaq və mən də Xanım xala basdırılan o payız günü Balakərimin o tütəyinə qulaq asmaq istəyirdim, mənə elə gəlirdi ki, o tütəyin səsinə qulaq asmasam, bir də heç vaxt həyətimizə çıxa bilməyəcəyəm, bir də heç vaxt başımı qaldırıb həyətimizdəki şüşəbəndə baxa bilməyəcəyəm və camaat dağılandan sonra Balakərim doğrudan da qəbiristanlıqda qaldı, bir müddət ayaq üstündə dayandı, sonra gəlib Xanım xala basdırılan yerlə üzbəüz köhnə bir qəbir daşının yanında yerdə oturdu, tütəyi sarı pencəyinin cibindən çıxartdı və yay kimi isti o payız günü həmin qəbiristanlıqda dünyanın ən qəmli havasını çaldı.

XLIV

Balakərim yenə də gündüzlər məhəllənin kişisiz evlərinə kömək eləyirdi, su daşıyırdı, odun yarırdı, mismar tapıb, daş tapıb sökülən, dağılan yerləri özü bildiyi kimi yamayırdı, düzəldirdi (hər halda anam daha Balakərimə "şeytan fəhləsi" demirdi), axşamlar isə qoşa tut ağacının altında, ya da Sarı hamamın həyətində oturub tütəyini sarı pencəyinin cibindən çıxarırdı və öz havalarını çalmağa başlayırdı, sonra:

Hamam hamam içində,
Xəlbir saman içində,
Dəvə dəlləklik edər
Köhnə hamam içində...

– deyib Ağ Dəvənin əhvalatlarından dınışırdı və Balakərimin danışdığı həmin əhvalatlarda da əynindəki pencəyin rəngi kimi, bir qəmginlik var idi.

Balakərimi müharibəyə aparmırdılar və uşaqların arasında belə bir şayiə gəzirdi ki, guya Ağ Dəvə qoymur Balakərimi davaya aparsınlar; düzdür, mən daha böyümüşdüm, mən daha hər şeyi başa düşürdüm və mən bilirdim ki, Balakərim kimilərini müharibəyə aparmırlar, amma uşaqların arasında yayılmış o şayiə, elə bil ki, mənim gözlərimdə Balakərimin danışdığı o əhvalatlara (hətta Balakərimin özü də!) bir çəki, bir həqiqilik, doğruluq vermişdi, mən o əhvalatlara əvvəlkindən daha artıq inanırdım, o əhvalatlar mənə əvvəlkindən daha artıq təsir edirdi və o tütəyin havalarında da, elə bil ki, daha artıq bir sehr var idi.

Bizim məhəlləmizi, əlbəttə, daha heç nə ilə təəccübləndirmək, heyrətləndirmək mümkün deyildi, özü də təkcə ona görə yox ki, məhəlləmiz hər şey görmüşdü, əsas ona görə ki, məhəlləmiz öz həyatının hər saatını, hər gününü cəbhədən gələ biləcək ölüm xəbərinin xofu ilə yaşayırdı, hər saat, hər gün səksəkə içində kiminsə ölüm xəbərini gözləyirdi və buna görə də başqa xəbərlərə, başqa hadisələrə biganə idi, amma bir gün bizim məhəlləmizdə elə bir hadisə baş verdi ki, böyükdən kiçiyə kimi, hamı mat qaldı: Şövkət Balakərimə ərə getdi və Balakərimi gətirib öz evində saxlamağa başladı.

Deyirdilər ki, gecə Şövkət özü gedib Balakərimi Sarı hamamın həyətindəki quşxana kimi yerdən çıxarıb, darta-darta evinə gətirib, su qızdırıb Balakərimi uşaq kimi çimizdirib, yedizdirib-içizdirib və ömründə heç vaxt arvad görməmiş Balakərim də həmin gecə minnətdarlıq, sədaqət, etibar dolu gözləri ilə Şövkətə baxa-baxa hönkürhönkür ağlayıb və Şövk[redacted]rıb çalmırdı, Ağ Dəvənin əhvalatlarını danışmırdı, demək olar ki, bütün günü evdə, yəni Şövkətin evində olurdu, o əhvalatları daha, ancaq Şövkət üçün danışırdı, bizim o əziz, o gözəl tütəyi də daha, ancaq Şövkət üçün çalırdı; hərdən o əzizimiz, o gözəlimiz tütəyin zəif səsi eşidiləndə biz gəlib Şövkətin kip örtülmüş, pərdə çəkilmiş küçə pəncərəsinin qabağında, səkidə otururduq və bizim o keçmiş tütəyimizin səsinə qulaq asırdıq.

Bir dəfə küçədə Balakərimlə üz-üzə gəldim və əvvəlcə elə bildim ki, bu adam Balakərim deyil, Balakərimə çox oxşayan başqa bir adamdır: o sarı pencək Balakərimin əynində deyildi, əvəzinə göy rəngli təzə pencək geymişdi və Balakərim oğrun-oğrun o tərəf-bu tərəfə baxa-baxa gedirdi, elə bil ki, əynindəki o təzə göy pencəyə görə küçəmizdən, küçəmizdəki o birmərtəbəli, ikimərtəbəli binaların divarlarından, qapılarından, pəncərələrindən utanırdı, o Sarı hamamdan, o qoşa tut ağacından utanırdı...

Mən Balakərimə baxa-baxa birdən-birə çox istədim ki, Balakərim yenə də "şeytan fəhləsi" olsun, anam yenə də ona belə desin və gülümsəsin (müharibədən əvvəlki kimi gülümsəsin)...

Mənə elə gəlirdi ki, Balakərimin küçəmizdən çəkilməsi, əslində, bizim məhəlləmizə bir növ vəfasızlıqdır, mənə elə gəlirdi ki, Balakərimin birdən-birə küçəmizdən beləcə çəkilməsi ilə küçəmizin, dalanımızın, həyətlərin – bütün məhəlləmizin yetimliyi, kimsəsizliyi daha da artıb, amma mən nə Balakərimdən, nə də Balakərimi bizim əlimizdən almış Şövkətdən inciyirdim, əksinə, mən haradasa, ürəyimin dərin bir nöqtəsində Balakərimin yerinə də, gecələr oturub gözləri yuxudan qapananacan Balakərimin danışdığı o əhvalatlara qulaq asan, daha tək yaşamayan, tərtəmiz saxladığı Balakərimlə bir yerdə yatıb, bir yerdə duran Şövkətin də yerinə sevinirdim və əslində, bizim bütün məhəlləmiz, hətta əvvəllər həmişə Şövkətin qarasına danışan o dərdli arvadlar da o qaraxəbərli günlərdə ürəklərinin həmin dərin nöqtəsində Balakərimin də yerinə, Şövkətin də yerinə sevinir-

XLV

1944-cü ilin dekabrında cəbhədən atamın ölüm xəbəri gəldi və dayım bizim evimizi satdı, anamı da, məni də götürüb öz yanına apardı.

Biz məhəlləmizdən köçdük.

XLVI

Onlar altı nəfər idi

Onların altısı da müharibədən sağ-salamat qayıdıb gəlmişdi. Cəfərin, Adilin, Əbdüləlinin, Qocanın, Cəbrayılın, Ağarəhimin o boz və çiskinli sentyabr günündə dik dayanıb lal bir sükut içində o mərmər başdaşına baxan ciddi sifətləri yenə mənim gözlərimin qabağında idi və o baxışlardakı güc, möhkəmlik, kişilik, eyni zamanda o baxışlardakı ehtiram, sədaqət, elə bil ki, bu gecə – bu yağışlı sentyabr gecəsi mənim bu iş otağıma da bir hərarət, bir nikbinlik gətirirdi.

Sentyabr neçə gün idi ki, beləcə yağışlı keçirdi və neçə gün idi ki, mən o altı nəfərlə beləcə üzbəüz idim, onlara baxırdım, onların baxışlarını oxuyurdum və o baxışlar, o şux duruş neçə gün idi ki, yalnız mənim iş otağıma yox, bəlkə də mənim bütün içimə, mənim gündəlik həyatıma bir hərarət gətirirdi və bu hissdə bir təmizlik, bir şəffaflıq var idi, daha doğrusu, mənə elə gəlirdi ki, bu hiss mənim başqa hisslərimi təmizləyir, mənim düşüncələrimə, istəklərimə də bir təmizlik gətirir.

Mən kürəyimi söykənəcəyə söykəyib ayaqlarımı parketin üstü ilə uzadıb evimdəki iş otağımda, yumşaq kürsüdə oturmuşdum və küçə eyvanına açılan pəncərələri, eyvanın kafel döşəməsini döyəcləyən, navalçalardan tökülən, şırıltı ilə küçədən axan yağışın səsinə qulaq asırdım və o altı nəfərin sifəti mənim gözlərimin qabağından çəkilmirdi (və əlbəttə, mən özüm istəmirdim ki, o altı nəfərin sifəti mənim gözlərimin qabağından çəkilsin!), mən onları təsəvvürümə bir-bir gətirmirdim, onların

yağış yağan həmin payız günləri ərzində...) o balaca Ələkbər də mənimlə birgə oldu, daha doğrusu, o balaca Ələkbərin hissləri, düşüncələri, o balaca Ələkbərin təmizliyi mənimlə birgə oldu, o hisslər, o düşüncələr, o təmizlik, elə bil, nəsə məlhəm kimi bir şey idi və o məlhəmlə mənim yazı mizimi silmişdi, o ağ vərəqləri də, mənim o yazı makinamı da həmin məlhəmdən keçirmişdi.

Mən qalxıb yataq otağına getmək istəmirdim, soyunub yerimə girib yatmaq istəmirdim, elə beləcə, oturmaq istəyirdim və istəyirdim ki, bu yağış da beləcə yağsın; həmin gecəyarısı o yağışın səsinə qulaq asa-asa mənə məlum oldu ki, sən demə, ən çox sevdiyim fəsil bu payız fəsliymiş və dünyanın ən gözəl səsi də mənim üçün bu yağışın səsiymiş və o sevimli yağış səsinə qulaq asa-asa mən mürgüləməyə başladım; əlbəttə, mən istəsəydim mürgüləməzdim, ayağa qalxardım, ya çay içərdim, əl-üzümü yuyardım və gözlərimin qabağındakı o altı nəfərlə, necə deyərlər, ayıq başla üz-üzə durardım (bütün bu yeddisəkkiz gündə olduğu kimi), amma bu gecə yarısı, o yumşaq kürsüdə mürgü məni maqnit kimi özünə çəkirdi və mən də müqavimət göstərmirdim, əksinə, mürgüləmək istəyirdim, çünki mənim ürəyim hiss eləyirdi: şırhaşır yağışlı bu sentyabr gecəsi həmin mürgü mənə nə isə deyəcək...

...nə isə göstərəcək...

...bilmirəm...

bilmirəm, bütün bunlar yuxu idi, yoxsa məni qara basırdı?

amma hər halda mən bütün bunları görürdüm...

...o karvan yalnız Ağ Dəvədən ibarət idi...

...bir... üç... beş... altı...

o karvanda altı dəvə var idi, hər dəvənin də öz sarbanı var idi, hərə öz dəvəsinin qabağına düşüb gedirdi və mən açıq-aşkar gördüm ki, o sarbanlar bir-bir Cəfərə, Adilə, Əbdüləliyə, Qocaya, Cəbrayıla, Ağarəhimə oxşayır...

yox, yox, bu sarbanlar Cəfər özü deyildi, Adil özü deyildi, Əbdüləli, Qoca, Cəbrayıl, Ağarəhim özü deyildi, bunu mən bilirdim...

...amma onlara çox oxşayırdılar...

mən özümü görmürdüm, amma mən də haradasa o karvanın yanında idim, bəlkə də o karvanı ötürürdüm, bilmirəm və mən o karvandan soruşdum (bəlkə də o sualı verən mən deyildim, kimsə bir başqa adam idi, bəlkə də heç adam deyildi, günün altında yamyaşıl düzənlik boyu uzanıb gedən o karvan yolu idi, yaxud uzaqlardan baxan zirvəsi qarlı o meşəli dağlar idi?..)

...hara?..

Karvan cavab verdi (sarbanlar yox, Ağ Dəvələr yox, məhz bütün karvan cavab verdi)

...Gələcəyə gedirik!..

mən (yaxud uzanıb gedən o karvan yolu, yaxud zirvəsi qarlı o meşəli dağlar) bu sualı niyə verdim, mən ki lap əvvəldən bilirdim o karvanın hara getdiyini, bilirdim ki, o karvan Gələcəyə gedir, düzdür, mən bunu bilirdim, amma buna baxmayaraq, mən karvanın o cavabına sevindim, çünki əslində, sevinən mən deyildim, daha doğrusu, sevinən mən idim, amma mən indi o böyük coxmərtəbəli binanın üçüncü

I

Hicri 920-ci ilin camadiül-əvvəl ayının 4-ü, milad ilə 1514-cü il iyun ayının 28-i idi.

Gəncə yatmışdı.

Bu gün günorta şəhərdə elə bir isti var idi ki, nəfəs almaq mümkün deyildi və qocaların dediyinə görə belə isti bir də düz altmış dörd il bundan əvvəl, el aşığı Sazlı Abdullanın başı kəsildiyi gün olmuşdu. Sazlı Abdulla o zamankı Gəncə hakimi Qara Bəşirə əyan-əşrəf yanında söz qaytarmışdı, üzünə ağ olmuşdu, Qara Bəşirin oğlu Qara Bəkirin toyunu çalmamışdı, demişdi ki, sənin sarayın qan çanağıdı və mənim sazımın simləri mən istəsəm də orada səslənməyəcək və Qara Bəşir el aşığının bu hörmətsizliyindən, bu ehtiramsızlığından o qədər hirslənmişdi ki, uzun qara bığlarının uclarını çeynəyib qara saqqıza döndərmişdi. Sazlı Abdullanı şəhərin bazar başında edam etmişdilər və altmış dörd il keçəndən sonra da Gəncənin qocaları heyrətlərini gizlədə bilməyib toyda, yasda danışırdılar ki, elə ki, cəllad Toppuzqulunun ülgücdən iti dəhrəsi bir göz qırpımında Sazlı Abdullanın başını bədənindən ayırdı və elə ki, el aşığının qanı fəvvarə vurub edam kötüyünün ətrafındakı keçən günlərdən qalıb qurumuş qanı təzələdi, elə ki, bazar başını dövrəyə almış camaatın ürəyindən yanğısı altmış dörd ildən sonra da keçməyən bir vay keçdi, o zaman edam kötüyünün üstünə sərilmiş başsız cəsədin yanında düşüb qalmış saz birdən-birə öz-özünə dilə gəldi və dünyanın ən dərdli-ələmli nəğməsini çaldı, heyrətdən, qorxudan camaatın tükü qabarıb paltarını deşdi; saz elə çaldı ki, o günortanın müsibət istisi də birdən-birə çəkildi, lopa-lopa qara buludlar camaatın başının üstünü aldı, göy kişnədi, bir leysan başladı ki, hamı güclə qaçıb evinə girdi və bir müddət beləcə yağdı, bir müddət bu leysan altında el aşığı Sazlı Abdullanın sazı da öz-özünə beləcə çaldı, sonra yağış kəsdi, sazın da səsi kəsildi, camaat təzədən bazar başına axışdı və baxıb gördü ki, nə saz var, nə cəsəd var, nə də baş var. O vaxtdan bəri cəllad Toppuzqulu da, cəllad Toppuzqulunun oğlu cəllad Tanrıqulu da və indi cəllad Tanrıqulunun oğlu cəllad Toppuzqulu da Gəncənin bu bazar başında nə qədər baş kəsmişdilər, o cümlədən, Qara Bəkirin gizli iştirakı ilə Qara Bəşirin, sonra şahın əmri ilə Qara Bəkirin özünün başını, oğruların, dələduzların, casusların, sözə baxmayan el aşıqlarının başını kəsmişdilər, amma

daha heç vaxt belə hadisə olmamışdı. Düz altmış dörd il bundan əvvəlki o edam günü leysan Sazlı Abdullanın qanını yuyub aparmışdı, amma deyirdilər ki, o vaxtdan bəri haçan həddən artıq isti olur, onda bazar başındakı edam kötüyünün ətrafında Sazlı Abdullanın qanı gün altında parıldayır və bu gün də edam kötüyünün ətrafında bir neçə dəfə o cür parıltı görmüşdülər.

Gəncə yatmışdı.

Şəhərin və ətraf kəndlərin toxucuları, dəmirçiləri, misgərləri, dulusçuları, dabbaqları, boyaqçıları, şəhərin sənətkarlıq emalatxanalarında günəmuzd işləyən gəlmələr, nökərlər günortanın bu görünməmiş cırhacırında, axşamın istisində o qədər işləyib əldən düşmüşdülər ki, gecənin bürküsünə baxmayaraq, indi yeddinci yuxularını alırdılar. Tacirlər, dükandarlar, saray adamları, hökumət işçiləri, arvadlar, uşaqlar da bu bürküdə yerlərində çapalaya-çapalaya axır ki, yuxuya getmişdi.

Təkcə Ziyad xan yatmamışdı. Hər halda, Ziyad xana elə gəlirdi ki, bu boyda Gəncədə, Qarabağ bəylərbəyliyinin bu boyda mərkəzində təkcə onun yuxusu ərşə çəkilib.

Kür ilə Araz arasında yerləşən Qarabağ bəylərbəyliyi cənubda Qafandan, Ordubaddan, Naxçıvandan tutmuş şimalda Qazaxacan, qərbdə Cavaddan tutmuş şərqdə Göyçə gölünəcən böyük bir ərazini özündə birləşdirirdi və Səfəvilər dövlətinin mühüm inzibati vahidlərindən biri idi. Azərbaycanın qonşu Şirvan və Təbriz bəylərbəylikləri kimi bilavasitə dənizə çıxmasa da, Çuxursəd və yenə Təbriz bəylərbəylikləri kimi Osmanlılarla həmsərhəd olmasa da, Qarabağ bəylərbəyliyi, əslində, Səfəvilər dövlətinin ən etibarlı şimal istehkamı idi və Ziyad xan bütün bu yerlərin hakimi-mütləqi idi, amma...

...Neçə müddət idi ki, gecələr belə əzablı keçirdi, neçə müddət idi ki, Ziyad xan gecələri beləcə yuxusuz keçirirdi və ən qəribəsi də bu idi ki, Ziyad xan özü də həmin əzab-əziyyətlərinin səbəbini bilmirdi: nə özünü xəstə hiss edirdi, nə də elə bir xüsusi hadisə baş vermişdi ki, bir ay bundan əvvəlkindən fərqlənsin və bir ay bundan sonranı qatı qaranlığa bürüsün; düzdü, Ziyad xan peşəkar bir duyğu ilə hiss edirdi ki, kiçik basqınlar, xırda münaqişələr, çəkişmələr, siyasi hiyləgərliklər daha sona yetir, bıçaq daha sümüyə dirənib və Sultan Səlim ilə Şah İsmayıl arasında əsl müharibə başlamasına az qalıb, amma nə etmək

Əlbəttə, Ziyad xan özünün də, oğlunun da sabahının qayğısını çəkirdi, əlindən gələni edirdi: lazım olanda qəzəblənirdi və yaltaqlanırdı, lazım olanda düşmənin başını bədənində saxlayırdı və dostunun başını qurban verirdi, Ziyad xana "Adil" deyənlər də var idi, "Həccac ibn Yusifdi!"[1] deyənlər də var idi, amma sən çaldığını çal, gör fələk nə çalır, deyiblər, hakim üçün hər günün sabahı əslində tamam naməlum idi və bu naməlumluğun nigarançılığına qalsaydı, onda gərək Ziyad xan iyirmi üç il gecələr gözlərini yummayaydı, çünki düz iyirmi üç il idi ki, Ziyad xan hökmdar idi və bu iyirmi üç ildə şahlar bir-birini əvəz etmişdi, mərkəzi hakimiyyətlər dəyişmişdi, fitnə-fəsadlar aşıb-daşmışdı, amma bəylərbəyi Ziyad xanın Qarabağ bəylərbəyliyindəki hakimi-mütləqliyi necə vardısa, eləcə də qalmışdı, yalnız qara camaat yox, yalnız qaçaq-quldur yox, yalnız yaltaq saray əyanları yox, naiblər və kələntərlər[2] də onun zəhmindən tük salırdılar, çünki Ziyad xan əsas etibarilə qançıl və satqın olan yüksək vəzifə sahibləri ilə necə rəftar etməyi yaxşı bilirdi, çünki Ziyad xan özü dərğalıqdan[3] başlamış bütün bu mərhələləri bir-bir keçmişdi və özündən aşağını ovcunun içində möhkəm saxlamağı bacarırdı, özündən yuxarıları isə... indi dövran çox mürəkkəb idi və qəti bir söz demək, qəti bir nəticə çıxarmaq mümkün deyildi.

Yox, yuxusuzluğun səbəbi başqa idi.

Uzaqdan vaxtsız bir xoruz banının səsi gəldi, sonra bir-iki xoruz da o tərəfdən-bu tərəfdən həmin vaxtsız bana səs verdi, sonra yenə sakitlik çökdü və yatmış Gəncə bir müddət beləcə sakitlik içində qaldı, sonra həmin gecəyarısı cavan, məlahətli və həzin bir səs sazın, kamançanın və tütəyin müşayiəti ilə dalğa-dalğa Gəncənin üstünə yayıldı. Ziyad xan xanəndə oxudurdu.

Xanəndə, deyilənə görə, cəmi 19–20 yaşı olan və Bağdadda mədrəsədə təhsil alan Məhəmməd Füzuli adlı cavan bir şairin qəzəlini oxuyurdu:

Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahımdən, muradım şəmi yanmazmı?

[1] Həccac ibn Yusif əs-Səqəfi (661–715) – İraqda hökmdarlıq etmiş son dərəcə qəddar və əzazil bir hakim, Şərq ədəbiyyatında bu ad qəddarlıq rəmzi kimi işlədilir.

[2] Kələntər – şəhər hakimi idi; bəylərbəyliklər mahal

Qamu bimarinə, canan dəvayi-dərd edər ehsan,
Neçin qılmaz mənə dərman, məni bimar sanmazmı?

Cəmi beş-altı ay bundan əvvəl yayılmış bu qəzəli indi bütün bu tərəflərdə əzbər bilməyən adam tapılmazdı. Füzulinin atası Süleyman Şirvan torpağından, Bayat tayfasından idi və Süleymanı şəxsən tanıyan bəzi yaşlı gəncəlilər deyirdilər ki, Füzuligil Girdman sahillərindən köçüb İraqa gediblər. Məhəmməd Füzuli Azərbaycan, fars və ərəb dillərində qəzəllər yazırdı və Azərbaycan dilində yazılmış bu qəzəli, deyilənə görə, xanəndə Hafiz Lələ[1] özü Şah İsmayılın məclislərində ifa edirdi.

Qəmim pünhan tutard

dünyanın dərdini-sərini, dünyanın bəd əməllərini unutduracaq bir qüdrətdən əsər-əlamət görmədi, amma sonra, bu cavan oğlanın oxumağına qulaq asanda başa düşdü ki, doğrudan da xanəndə deyil bu, Asəfi-dövrandır[1].

Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım,
Oyadar xəlqi əfqanım, qara bəxtim oyanmazmı?

Bu səs və bu qəzəl dünyanın bütün bəd əməllərini və o cümlədən, özünün bütün bəd əməllərini Ziyad xana tamam unutdurmuşdu. İyirmiüçillik hökmranlığı ərzində tikdirdiyi karvansaralar, hamamlar,

Firəng tacirinin heyrətdən gözləri bərələ qaldı, yəqin bütün səyahəti ərzində birinci dəfə idi ki, hökmdardan belə söz eşidirdi.

Güli-rüxsarına qarşu, gözümdən qanlı axar su,
Həbibim, fəsli güldür bu, axar sular bulanmazmı?

Xanəndənin dediyi sözlər Ziyad xanı yenə çəkib gecənin yarısına, sarayın yataq otağına gətirdi və Ziyad xan birdən-birə həmin cavan şair Füzulinin başqa iki misrasını xatırladı:

Dust bipərva, fələk birəhm, dövran bisükun,
Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.

Bu cavan şair baltanı lap kökündən vurub və məsələ burasındadır ki, cavan olmağına baxmayaraq, həqiqəti deyib.

Ziyad xan əlinin işarəsi ilə musiqini saxladı və neçə illərdən bəri Ziyad xanın sarayında çalğıçılıqla məşğul olan sazəndələr bu işə təəccüb etdilər, çünki Ziyad xan birinci dəfə idi ki, xanəndənin səsini yarımçıq kəsirdi.Ziyad xan sərin xiyar qabığı ilə burnunu, alnını silə-silə səbzxətt xanəndədən soruşdu:

– Nəyin qalıb sənin o dağlarda?

Xanəndə Ziyad xanın gözlənilməz sualından özünü itirdi; bu cavan oğlan indi qabağında oturub xiyar qabığı ilə üz-gözünü silən çalsaqqallı, çalsaçlı, alnının ortasında sağ qulağının dibinə kimi uzanan çapığı həmişə nəbz kimi vuran zəhmli kişidən bir-iki dəfə "Afərin!" sözündən başqa heç nə eşitməmişdi; sazəndələr də küt nəzərlərlə bir-birinə baxdı.

Ziyad xan başı ilə xanəndəyə işarə etdi:

– Hə? – yəni ki, sualıma cavab ver.

Cavan xanəndə handan-hana özünü ələ alıb:

– Anam... – dedi.

Ziyad xan xırda tum gözlərini qıyıb zəndlə xanəndə oğlanın düz gözlərinin içinə baxa-baxa:

– Təkcə elə anan? – soruşdu.

– Bir də... bir də bir bacım... – Xanəndə bu sözləri güclə dedi və Ziyad xan da, sazəndələr də başa düşdü ki, bu oğlan özündən kiçik və yəqin ki, gözəl bacısının da güclə eldən-obadan, anasından ayrılıb Gəncə sarayına kəniz gətiriləcəyindən qorxur.

– Təkcə elə ananla bacın?

– Bəli...

– Düz demirsən, küçük!

Ziyad xanın əlindəki xiyar qabığını gümüş sininin içinə çırpıb dediyi bu sözlərdəki sərtlik və qətilik saraydakı xidmətləri ərzində az şey görməyən sazəndələri də üşütdü.

Yataq otağının zəif şam işığında ağappaq ağarmış xanəndə oğlan heç nə deyə bilmədi.

Ziyad xan əli ilə üz-gözünün xiyar nəmliyini silə-silə:

– Sənin o dağlarda ürəyin qalıb, – dedi. – Gözlərindən oxuyuram. Get!

Xanəndə və sazəndələr ayağa qalxdı.

Ziyad xan əli ilə sazəndələrə işarə etdi:

– Siz qalın.

Xanəndə oğlan ayaq üstə quruyub qalmışdı.

Ziyad xan dedi:

– Eşitmədin, get dedim?

Xanəndə:

– Gecəniz xeyrə qalsın, – dedi və otaqdan çıxmaq istədi.

– Hara gedirsən?

Yarımçıq yuxudan oyadılıb yataq otağına gətirilmiş xanəndə oğlan bir uşaq səmimiliyi ilə:

– Yatmağa, – dedi.

– Yox, yatmağa yox. Birbaş öz dağlarınıza get. Bu gecədən azadsan. – Sonra Ziyad xan əlini əlinə vurub xidmətçini çağırdı: – Bu oğlanı öz elinə yola salın. – Sonra da əlavə etdi: – Yaxşı yola salın!..

Bu o deyən söz idi ki, Qarabağ dağlarından qoparılıb gətirilmiş bu cavan oğlana yaxşı bir at verəcəkdilər, üç il bundan əvvəl Gəncədə kəsilmiş təngə[1] ilə doldurulmuş bir kisə verəcəkdilər, anası üçün, bacısı üçün bir-iki top ipək, qumaş verəcəkdilər və həmin at gecə-gündüz çapıb, Bərdədən keçib, belində yox, göyün yeddinci qatında uçan yeni sahibini Qarabağ dağlarına çatdıracaqdı.

Cavan xanəndə bir söz deməyə, təşəkkür etməyə, özünü yerə atıb Ziyad xanın ayaqlarını qucaqlamağa, barmaqlarına almaz, yaqut, zümrüd qaşlı üzüklər taxılmış əlindən öpməyə cəsarət etmədi və ayağı

[1] Təngə – Səfəvilər dövrünün gümüş pulu.

ayağına dolaşa-dolaşa otaqdan çıxdı – həyəcandan dizləri titrəyirdi, ayaqları sözünə baxmırdı...

...Vaxt gələcək və səksən ildən sonra Qarabağ dağlarındakı toy-düyünlərdə İsa bulağında, Turşsuda, Səkili bulaqda, Daşaltı çayının sahilində, Topxana meşəsinin sərinliyində qurulmuş kef məclislərində saçı-saqqalı ağappaq ağarmış, uzun-uzun illər boyu çox hakimlər görmüş, çox qanlı hadisələrin, savab işlərin, haqq işlərin şahidi olmuş qoca el aşığı sazı sinəsinə sıxıb bir dastan danışacaq və həmin dastan çox-çox illər əvvəl yaşamış zəhmli Ziyad xanın mərhəmətindən deyəcək, musiqinin və ustad Məhəmməd Füzuli sözlərinin güdrətin-

lərini gəzib yerli hökmdarların əhvali-ruhiyyəsini öyrənirdi, hər halda kim olursa-olsun – Ziyad xan gülümsədi – həqiqəti demişdi və heç olmasa iyirmi üç ildə bir dəfə həqiqət demək olar, yoxsa yox?

Ziyad xan o əcnəbiyə hələ çox şey deyə bilərdi. Allah ki, bu torpağı, təkcə Qarabağ bəylərbəyliyini yox, bütün Azərbaycan torpağını, bir ucu Qəzvində, o biri ucu Dərbənddə, bir ucu Xəzərin sahillərində, o biri ucu Ərzurum dağlarında olan bir məmləkətin torpağını bu qədər bərəkətli eləyib, həmişə başıbəlalı olub, həmişə soyulub və həmişə də belə olacaq. Bu torpağın ipəyi, duzu, nefti, quru meyvəsi, balığı, düyüsü,

ayağından öpürlər, dünyanın ən tərifli sözlərini tapıb sənə deyirlər, peyğəmbərlərə layiq bilmədikləri sözü sənə layiq bilirlər, amma hamısı da arxadan bıçağı sapına kimi sənin kürəyinə yeritməyə hazırdırlar.

Sazəndələr gecənin yarısı özləri öz çalğılarından həzz ala-ala çalırdılar və sazəndələrə elə gəlirdi ki, gözlərini yumub mütəkkəyə dirsəklənmiş Ziyad xan da musiqidən beləcə həzz alır.

Sazəndələr bilmirdi ki, bu dəm bu musiqini Ziyad xan çox uzaqlardan eşidirdi və sazəndələr bilmirdi ki, bu dəm Ziyad xanın ürəyindən qara qanlar axırdı. Ziyad xan naiblərini, kələntərlərini, təkcə Bayandur bəydən başqa bütün saray adamlarını bir-bir gözünün qabağından keçirir və heyrət edirdi ki, bu dünyanın necə işidi ki, elə bil ki, bu satqınları, riyakarları, anasının əmcəyini kəsənləri bu boyda böyük bir xalqın, bu boyda igid və namuslu bir xalqın içindən bir-bir seçib çıxarıblar və hərəsinə bir mahal, bir şəhər etibar ediblər. Kim eləyib bunu? Ziyad xan fikirləşdi ki, bunu eləyənlərin elə ən birincisi özüdü və görünür başqa cür mümkün deyil, görünür Şeyx Nizaminin vəsf elədiyi adillik və ədalət quruluşu, ancaq kitablarda mümkündü, görünür taxt-tac – dünyanın nə qəribə işləri var! – ancaq özünün düşmənlərinə arxalanmalıdı, yaltağa, ikiüzlüyə, xainə arxalanmalıdı.

Və birdən-birə dünyanı bürümüş bu yaltaqlıq, ikiüzlülük, xainlik içində o iri göy gözlərin işığı göründü.

Tapdı Ziyad xan.

Hər şey bircə anın içində aydın oldu və bircə anın içində də həmin gecə bürküsündə Ziyad xanı soyuq tər basdı; Ziyad xan dikəlib yerində oturdu və gözlərini açdı.

Sazəndələr Ziyad xanın xırda tum gözlərində dünyanın kədərini, məyusluğunu oxudular və bu işə məəttəl qaldılar.

Bu an Ziyad xan üçün aydın olmuş həqiqət onu elə sarsıtmışdı ki, bəylərbəyliyin tacını başına qoymayacaq və Ziyad xanın neçə müddətdən bəri yuxusunu ərşə çəkən də bu idi.

Bu həqiqət indi aydın oldu? Elə indicə, qəflətən yaxandan yapışdı? Yox, qoca...

Əslində son illərdə bu həqiqət həmişə Ziyad xanla olmuşdu və Ziyad xan bu həqiqəti özündən qovmaq istəmişdi, istəmişdi ki, özünə yaxın buraxmasın; bu həqiqəti ürəyində daşıyırdı, beynində həkk olunmağa qoymurdu.

Səhərdən bəri uzun-uzadı torpaqdan dəm vurursan, ticarətdən dəm vurursan, guya ki, torpağın dərdidi sənin dərdin?

Bax, bax o gözlərə, yaxşı bax və özün özündən qaçma. O göy gözlər Mahmudun gözləri idi və bu dəm bu göy gözlərdə o qədər təmizlik, şəffaflıq var idi ki, bu gözlərdən ətrafa elə bir saflıq yağırdı ki, Ziyad xanın nəfəsi tıncıxdı.

Bu birinci dəfə idi, birinci dəfə idi ki, öz oğlunun gözlərindəki təmizlikdən, şəffaflıqdan Ziyad xanın nəfəsi beləcə tıncıxırdı; əvvəllər Ziyad xan oğlunun iri göy gözlərinə baxanda dincəlirdi, öz günahlarını yadından çıxarırdı, haçansa, kiminsə gözlərini çıxartdırdığını, kiminsə başını, burnunu, qulağını kəsdirdiyini unudurdu, Mahmudun gözlərinin təmizliyi elə bil ki, haradasa öz atasının da günahlarını azaldırdı, çünki Ziyad xan qanlar axıtmışdısa da, anaları gözüyaşlı, balaları yetim qoymuşdusa da, bu təmiz varlığı da dünyaya gətirmişdi; hərgah Ziyad xan tamam cəllad və taxt dəlisi idisə, o zaman heç vaxt onun belindən belə bir məxluq gəlməzdi, deməli, Ziyad xanın da içində bir işıq var idi, amma bu işıq tamam sönmüşdü, görünmürdü, amma Mahmudun bütün varlığı işıqdan xəbər verirdi.

Ziyad xan əvvəllər də başa düşürdü ki, Mahmudun ürəyi şair

sultanları ilə Səfəvilər arasındakı ölüm-dirim mübarizəsindən baş çıxarmaq, Şah İsmayılın mərhəmətini qazanmaq, türk sultanları ilə də açıq-aşkar düşmənçilik edib öz taxtının səbəbini, ancaq Səfəvilərin

ki, biz oyuncağıq, fələk oyunbaz? Dur, dur, dur götür o pak məxluqu, qaç bu məmləkətdən, qaç gizlən, gizlət oğlunu ki, didməsinlər səndən sonra, əlinə bir külüng al, bir mağara çap qaya

dünyanın gözəlləri Ziyad xan üçün bir tərəfə idi, Qəmərbanu bir tərəfə idi və Ziyad xan yeganə hökmdar idi ki, hərəmxanası yox idi, təkcə Qəmərbanusu var idi; erməni gözəlləri, yəhudi canalanları, ərəb rəqqasələri – dünyada heç kim Qəmərbanunun yerini vermirdi.

Ziyad xanın hər şeyi var idi, təkcə övladı yox idi.

Doqquz il idi ki, Qəmərbanu ilə bir yastığa baş qoyurdular, doqquz il idi ki, təbib qalmamışdı – dərman istəmişdilər, ocaq qalmamışdı – əlac istəmisdilər, [illegible] almaları iki bölüb yemisdilər,

– Camaat!

Ziyad xan və adamları təzədən otağa qayıtdı və Lal tülkünün sözlərini onlara bəyan etdi:

– Tülkü qurban olduğumuz buyurur ki, arvadın getsin üç gecə Göyçə gölündə çimsin, gəlsin, tülkü qurban olduğumuz ona baxacaq və dərdinizə əlac deyəcək.

Ziyad xan elə bil ki, ağıl-kamal sahibi xan yox, avam bir kəndli idi və o zamanlar hələ cavan olan Mirzə Salman bu işə lap təəccüb etdi:

Ziyad xan sərt hərəkətlə Qəmərbanunu özündən araladı və otağa girdi.

Lal içində tülkünün vurnuxduğu qəfəsi qucağına almışdı və bomboz gözlərini Ziyad xana zilləyib dedi:

– Tülkü qurban olduğumuz belə buyurdu ki, cəmi məxluqi-insanat doqquz aydan sonra doğur, sizinki doqquz ildən sonra doğacaq!

İllər keçmişdi və Ziyad xan bu əhvalatı tamam unutmuşdu və o aylı-ulduzlu gecədə Qəmərbanunun sözlərindən sonra Ziyad xanın ürəyində yaranmış ümid daha da artdı və inandı ki, övladı olacaq, hətta nəinki övladı, inandı ki, oğlu olacaq.

Ziyad xan iri ovcunu Qəmərbanunun mərmər qarnında gəzdirdi və bu əlin istisi Qəmərbanunun bütün içinə yayıldı.

Düz doqquz aydan sonra, yazın axırlarında, Cövza bürcü taleyində[1] Mahmud anadan oldu.

Amma nə Ziyad xanın, nə də Qəmərbanunun heç ağlına gəlmədi ki, el aşığı Sazlı Abdulla ustadlar ustadnaməsində belə deyib: fələk biçinçidir, bu dünya zəmi və biçilən zəmidən mürğzar olmaz; ustadlar ustadnaməni bir yox, iki deyər və Sazlı Abdulla da ikinci ustadnamədə demişdi: dünya bir bostandır, pozular gedər...

...Haradasa, lap yaxınlıqda bir xoruz banladı.

Ziyad xan gözüyumulu uzanmışdı və heç nə eşitmirdi, əslində daha heç nə fikirləşmirdi də, gözlərinin qabağından getməyən o iri göy gözlərlə üzbəüz dayanmışdı və Ziyad xanın bütün vücudunu bir təəssüf hissi bürümüşdü; bu təəssüf hissi yalnız Mahmuda görə deyildi, yalnız özünə görə də deyildi, bu – ümumiyyətlə, dünyanın, yaşayışın, varlığın mənasına bir təəssüf idi.

Sazəndələr bilmirdi nə eləsinlər, çalsınlar, ya çalmasınlar? Ziyad xan yatıb, ya yatmayıb? Hər halda çalğıçılar çalğılarına ara vermədilər və bir azdan Ziyad xanı tamam unudub, yuxusuzluqlarına baxmayaraq bir-birinin çalğısından həzz ala-ala və bir-birini ruhlandıra-ruhlandıra tütəyin, sazın, kamançanın dili ilə dünyanın qocalığından, insanların gəldi-gedərliyindən, əhddən, vəfadan, etibardan söhbət açdılar.

Bu vaxt cavan xanəndə də saraydan çıxıb çapa-çapa Qarabağ dağlarına tərəf bina oldu və tütəyin, sazın, kamançanın onu yola salan

II

Xoruz bir də banladı.

Bütün Gəncə yatmışdı, təkcə Mahmud yatmamışdı, bir də ki, atasının yataq otağından həzin bir musiqi eşidilirdi.

Bu musiqi gecənin yarısı başladı, xanəndə əvvəlcə Füzuli təxəllüslü təzə bir şairin sözlərini oxudu, sonra daha oxumadı, təkcə elə sazəndələr çaldı.

Bütün Gəncə Qarabağ dağlarından gətirilmiş bu xanəndənin səsindən, oxumağından danışırdı, bu səs hamının ürəyini açırdı, hamıya dərdini-sərini unutdururdu, amma heç kimin ağlına gəlmirdi ki, bu səs adamın ürəyini sıxa da bilər, adamı qəmgin edər, kədərləndirər.

Həmin cavan xanəndənin səsi Mahmudun ürəyini sıxırdı.

İnsanları başa düşmək çox çətindi: bu cür qəmgin səsdən necə həzz almaq, necə nəşələnmək olar?

Cavan xanəndə Gəncəyə gətirilməndən sonra, sarayda birinci dəfə oxuyanda məclisə toplanmış bütün saray əyanı bu səsə heyran olmuşdu və hamının sifətindən nəşə damırdı, hamı böyük bir həzz içində qulaq asa-asa saray aşpazı şəkili Nəsibin bişirdiyi cücəplovdan yeyirdi, süfrəyə düzülmüş alma, gavalı, şaftalı, ərikdən yeyirdi, sərin bulaq suyu içirdi.

Mahmud elə birinci gün həmin xanəndəyə qulaq asa bilmədi, çünki Mahmud heç cür başa düşə bilmirdi ki, bir səsdə ki, nə qədər kədər var, qəmginlik var, bu səsdən necə nəşələnmək olar və bu səsə qulaq asa-asa necə arxayınca plov yemək olar, necə dünyanın ən tərifli sözlərini tapıb Ziyad xanın zövqünü tərifləmək olar?

Mahmud məclisdə otura bilmədi, qalxıb çölə çıxdı, bağçada gəzişdi və bağçada da eşitdiyi həmin səs Mahmudu ağlatdı; Mahmud qolu-budağı çətir kimi bütün ətrafı örtmüş qoca alma ağacının gövdəsinə söykənib ağladı.

Səhəri gün elə həmin bağçada saray kitabxanasının müdiri Mirzə Salman ilə Mahmud üz-üzə gəldi və Mirzə Salman həmişəki kimi, uzun ağ saqqalının ucunu sol əlinin şəhadət barmağına dolaya-dolaya soruşdu:

axıra kimi bir yerdə mütaliə etmişdilər, "Xəmsə"nin bütün şərhlərini Mirzə Salman vermişdi; Mirzə Salman qoca yaşlarında saray kitabxanasının müdiri mənsəbinəcən yüksəlmişdi. Son zamanlar Mahmudun kiçicik hərəkətləri belə Mirzə Salmanın nəzərlərindən yayınmırdı.

– Gözəl səsi var, müəllim...

– Bəs, nə üçün məclisi yarımçıq tərk etdin?

– Çünki o səs bir cür dəyirdi, amma sir [illegible]

yaz gül-çiçəyi içində həmin mükaliməni yadından çıxartdı, xanəndənin dünənki o yanıqlı səsini də yadından çıxartdı, dünən burada, bu qollu-budaqlı qoca alma ağacının dibində ağlamağını da yadından çıxartdı, çünki təbiətdə ki, bu qədər rəng var idi, təbiətdə ki, bu qədər saflıq var idi, günəş ki, torpağı bu cür qızdırırdı, torpaq ki, bu cür geniş idi, yaşamaq gözəl idi.

[illegible]

[illegible]

[illegible]

Qəmərbanu bu yaz gələli Mahmudun çöllərə, dağlara gəzintiyə çıxmasına da sevinmişdi və Mahmudun xəbəri yox idi ki, tək-tənha saraydan çıxıb dağlara qalxanda, gül-çiçək toplayanda Qəmərbanunun muzdlu gözətçiləri gizlincə dalına düşüb onu gözlərindən buraxmırdılar. Mahmud gəzməyə tək çıxırdı, istəmirdi ki, yanında qarovulçular olsun və Qəmərbanu da Mahmudun qəlbini sındırmırdı, çünki Qəmərbanu bilirdi ki, Mahmudun qəlbi şüşə kimidir, sındırmaq olmaz və oğlunun gizli gözətçilərinin muzdunu daha da artıq verirdi ki, Mahmudun qız kimi çöllərdən gül-çiçək yığmağını heç kimə deməsinlər, amma Qəmərbanunun xəbəri yox idi ki, həmin gözətçilər axşamlar bir yerə yığışıb ermənilərdən aldıqları çaxırdan içə-içə Mahmudun bu qız hərəkətlərinə doyunca gülürdülər və keflənəndən sonra bunu ləzzətlə hamıya danışırdılar.

Amma bir məsələdən Qəmərbanunun gizli gözətçilərinin də xəbəri yox idi: Mahmud nəsə gözləyirdi, Mahmud nəyinsə ərəfəsində idi.

Bu nə idi? Mahmud özü də bunu bilmirdi, təkcə burasını bilirdi ki, nəsə olacaq; torpaq ki, beləcə gülür, deməli, nəsə olmalıdı.

Mahmud həmin isti yay gecəsi də nəyi isə gözləyirdi.

Atasının yataq otağının pəncərəsindən şam işığı gəlirdi, sazəndələrin çalğısı eşidilirdi və bu bürkülü yay gecəsində yenə nəsə var idi, amma Mahmud bilmirdi ki, bu nədir, hiss edirdi, o yaz günlərindəki kimi hiss edirdi: lap yaxınlıqda nəsə var, nəsə olmalıdı.

Bir dəfə yanılmışdı və Mahmud bilirdi, hiss edirdi ki, ikinci dəfə yanılmayacaq.

Yaz keçdi, yay gəldi, amma o yaz mübarəkliyi, yaz təravəti, Mahmudun bütün zehnini qamaşdıran o yaz yaşılı, qırmızısı, sarısı, narıncısı keçib-getməmişdi, yazın gətirdiyi o ərəfə hissi keçib-getməmişdi və günlərin bir günündə belə bir hadisə oldu: yenə isti yay gecələrindən biri idi və gecəyarıdan keçmiş Mahmud saz səsinə yuxudan oyandı, əvvəlcə elə bildi ki, sazı atasının yataq otağında çalırlar, amma sonra hiss etdi ki, yox, bu başqa cür sazdı, bu saz başqa sözlər deyir, bu saz o sözləri deyir ki, həmin sözləri yazda torpaq deyirdi, günəş deyirdi, ay işığı, ulduzlar deyirdi, həmin sözlərin yaşıl, qırmızı, sarı, narıncı rəngi var idi.

Mahmud yerindən dikəlib pəncərəyə tərəf baxdı.

Həmin aydınlıq yay gecəsi Mahmudun yatdığı otağın pəncərəsi qabağında, elə bil, gözəgörünməz iplə göydən sallanmış bir saz var idi və həmin saz öz-özünə çalırdı.

Mahmud başa düşdü ki, bu, el aşığı Sazlı Abdullanın sazıdı.

Mahmud bu hadisəni heç kimə danışmadı, hətta Sofiyə də bir kəlmə söz demədi, çünki onsuz da, heç kim buna inanmayacaqdı və onsuz da, axır vaxtlar adamlar Mahmudu yaxşı başa düşmürdü.

Mahmud elə bildi ki, həmin ərəfə hissi sona yetdi, gözlədiyi gecəyarısı pəncərəsinin qabağında gəlib çalan həmin saz idi, sonra başa düşdü ki, yox, yanılıb, çünki əslində bu saz da yazın dediyini demişdi, yazın ötüb getdiyi üçün gəlmişdi, yazın yaşılından, qırmızısından, sarısından, narıncısından xəbər gətirmişdi.

Mahmud bilirdi ki, ikinci dəfə yanılmayacaq.

Sazəndələr çalırdı.

Atası nə üçün yata bilmirdi?

Bəlkə atası da yatmaq istəmirdi, ömrünün çoxunu yuxuda keçirmək istəmirdi? Bəlkə atası da nəsə gözləyirdi? Yox, atası yata bilmirdi, çünki dərdi var idi – Mahmud bunu hiss edirdi və Mahmud burasını da hiss edirdi ki, atası özü öz dərdindən qaçır.

Bəlkə bu gecəyarısı atasının dərdi öz yataq otağında onu yaxalayıb?

Bu fikir Mahmudun ürəyini sıxdı və Mahmud yerindən qalxıb pəncərəyə yaxınlaşdı.

Dan yeri sökülürdü.

Saray yanmışdı. Bağçadakı, eşikdəki keşikçilər də nizələrinə söykənib mürgü döyürdü.

Bir azdan səhər açılacaqdı, kənizlər, nökərlər qulluğa başlayacaqdı, xırdavatsatandan, arşınmalçıdan tutmuş tacirlərəcən şəhər əhli gəlib Ziyad xanın qəbuluna düzüləcəkdi, – hərənin bir dərd-səri var idi, saray əyanları işə başlayacaqdı.

Dörd gün bundan əvvəl saray əyanı kələntər Yaqubun vəfatı münasibətilə matəm məclisinə toplaşmışdı və Mahmud həmin məclisdə bardaş qurub oturmuş saray əyanını bir-bir gözdən keçirə-keçirə dəhşətə gəlmişdi: mərhumun xatirəsi bir tərəfə qalmışdı, əyanlar isə Ziyad xanın huzurunda Ziyad xanın adilliyindən, mərhəmətindən, igidliyindən danışırdı və Mahmud onların hər birinin sifətinə baxdıqca yalan dediklərini, riyakarlıq və yaltaqlıq etdiklərini aşkar hiss edirdi və Mahmud burasını da hiss edirdi ki, atası da bütün bunları görür, başa düşür və bütün bunları qəbul edir; bu qoca adamlar öz səksənlərinə nə ilə gəlmişdi, nə üçün yaşamışdı? Doğrudanmı onların elə

hiss və həyəcanları var idi, elə dərd və sərləri var idi, elə istək və arzuları var idi ki, bütün bu ikiüzlülüyə, yaltaqlığa və riyakarlığa bəraət qazandırırdı?

Mərhum kələntər Yaqubun ölümü həmin məclisdə heç kimi ölüm haqqında düşündürmədi.

Bəlkə bu adamlar da ölümü çoxdan dərk eləmişdilər və anaları haçansa onların da başını döşünə sıxmışdı?

Əlbəttə, Mahmud "bu dünya fanidir, ömür bivəfa" sözlərini təsadüfən rast gəldiyi dilənçilərdən, dərvişlərdən tutmuş müəllimi Mirzə Salmanacan çox adamın dilindən eşitmişdi, çox ozanların söyləmələrində bu cür sözlərə qulaq asmışdı, çox kitablarda bunları oxumuşdu, amma ölümün əslində nə olduğunu üç il bundan əvvəl, yeniyetməlik çağında dərk etmişdi.

O zaman birdən-birə Mahmud dəhşətə gəlmişdi ki, adamlar necə gülə bilir, necə şadlanır, məgər bilmirlər ki, bir gün gələcək və onlar qara torpağa dönəcəklər? Ana balasını necə əzizləyir, məgər bilmir ki, bir gün gələcək və özü də, balası da, balasının balası, onun da balası qapqara torpağa dönəcək?

Əlacsızlıqdan, taleyin, aqibətin belə bir qətiliyindən və mütləqliyindən doğan dəhşət və yanğı o zaman Mahmudun bütün içini sarsıtmışdı və ən başlıcası isə, adamların ölümə bu qədər biganə olmaları az qalırdı Mahmudu dəli eləsin. Mahmud anasına baxırdı və anasına yazığı gəlirdi, çünki anası başa düşmürdü ki, bir vaxt gələcək və qara torpağa dönəcək; Mahmud atasına baxırdı va atasına yazığı gəlirdi, çünki atasının heç xəbəri yox idi ki, bir vaxt gələcək və qara torpağa dönəcək.

Adamlar tamam yad və mənasız idi.

Mahmud adamlardan qaçırdı.

Oxuduğu bu kitablar necə yazılmışdı? Bu kitabları yazan şairlər, alimlər insan deyildimi və onlar bilmirdi ki, bir vaxt gələcək ölməcəklər?

Mahmuda elə gəlirdi ki, bir də heç zaman gülməyəcək, bir də heç zaman sevinməyəcək və hər şey artıq geridə qalıb, ömür yaşanıb artıq.

Və bir dəfə bağçada tək-tənha dolaşdığı vaxt hovuzun yanında daxilindəki bu dəhşət və yanğı birdən-birə şüşənin içinə doldurulmuş cin kimi dişarı çıxdı və Mahmud hovuzun mərmər sürahisini qucaqlayıb bütün bədəni uçuna-uçuna hönkürdü, ağladı.

O zaman Qəmərbanu haradan peyda oldu? Axı, bütün bağça bomboş idi...

Qəmərbanu oğlunu arxadan qucaqladı:

– Nə olub, Mahmud? Nə olub, sənə? Niyə mənə heç nə demirsən, Mahmud?

Mahmud üzünü çöndərib anasına baxdı və Qəmərbanunun gözlərində, sifətində yaxınlıqdan, doğmalıqdan, əzizlikdən doğan elə bir ağrılı, kədərli canyanğısı, şəfqət hiss etdi ki, heç kimə demədiklərini dedi:

– Öləcəyəm mən... Bir vaxt gələcək, mən öləcəyəm...

Qəmərbanu dəli bir ehtirasla oğlunun başını sinəsinə sıxdı, titrəyən barmaqları ilə oğlunun saçlarını qarışdırdı:

– Hamımız öləcəyik, bala!..

Qəmərbanunun ürəyinin döyüntüsü, elə bil, bir məlhəm idi və bu ürəyin istisi Mahmudun bütün bədənini qızdırdı və bu ürək Mahmuda başa saldı ki, sən nə birinci, nə sonuncusan; Mahmud başa düşdü ki, adamlar göründükləri kimi deyil.

– Çox kitab oxuma, Mahmud...

Mahmud Qəmərbanunun bu sözlərini eşitmədi, çünki Mahmud bu dəm təkcə o ürəyin döyüntüsünə qulaq asırdı, o ürəyin dediklərini eşidirdi; Mahmud başa düşmüşdü ki, əsl sözü deyən dil deyil, ürəkdi.

Dan yeri sökülürdü.

Mahmud yatdığı otağın pəncərəsi qarşısında dayanıb mərhum kələntər Yaqubun matəm məclisinə yığılmış saray əyanlarını təzədən bir-bir gözləri önünə gətirdi və bu dəfə həmin adamlar dörd gün bundan əvvəlki kimi iyrənc görünmədi, çünki o adamların da ürəyi var idi və həmin ürəklər də yəqin kiminçünsə nəsə demişdi, deyirdi və deyəcəkdi.

Bu vaxt otağın qapısı astadan döyüldü, sonra əlində şam tutmuş Sofi içəri girdi:

– Mahmud, niyə yatmamısan?

Mahmud çönüb Sofiyə baxdı.

Sofi bu ortaboylu, nazik, ağbəniz, qıvrım sarışın saçlı, iri göygözlü oğlanın baxışları altında özünü naqolay hiss etdi; bu iri göy gözlərdə Mahmudun incəliyi, zərifliyi ilə uyuşmayan bir sirayət, özünəçəkmə, cazibə var idi.

– Bəs, sən niyə yatmamısan, Sofi?

– Mən... – Sofi dərhal cavab verə bilmədi, çünki Sofi Mahmuda deyə bilməzdi ki, Qəmərbanu pəncərədən oğlunun kölgəsini görüb və gəlib yatmış Sofini durğuzub bura göndərib ki, Mahmudun nə üçün yatmadığını öyrənsin; bu yazıq arvad oğlunun dərdindən gecələr də yata bilmirdi və həmişə səksəkədə idi. – Mən bürküdən yata bilmirəm. Niyə pəncərənin qabağında dayanmısan?

– Saray əyanlarına baxıram.

– Saray əyanlarına? – Sofi sidq-ürəkdən təəccüb etdi.

– Saray əyanları indi yeddinci yuxularını alırlar...

Mahmud gülümsədi:

Müqəddəs Məryəm ana Beytül-Müqəddəsdən qaçırdı...

Müqəddəs Məryəm ana lap cavan bir qız idi və hərdən Məryəmə elə gəlirdi ki, müqəddəs Məryəm onun özüdü, çünki hərdən müqəddəs Məryəmin sifəti Məryəmin sifətinə çevrilirdi.

Müqəddəs Məryəm yaxası, ətəyi cırılmış boz rəngli çit bir don geymişdi və ayaqyalın, başıaçıq səhra ilə qaçırdı.

Müqəddəs Məryəmin əynindəki donun cırıqlarından görünən çılpaq bədəni də Məryəmin bədəni idi.

Səhra göz işlədikcə uzanırdı.

Günün altında köz kimi qızarmış səhra qumu müqəddəs Məryəmin

İsanın üzü günəş kimi işıq saçdı.

Sonra İsanın üzü adi çağa üzünə döndü və bu çağanın əl-ayağı quma bulaşdı və Məryəm belə bir adiliyə heyrət etdi.

Mələklər yox idi.

Səhranın qumuna bulaşmış çağa bərkdən qışqırdı. Sonra yenə qışqırdı.

Məryəm həmin qışqırıq səsinə yuxudan oyanmışdı.

Məryəm o bürkülü yayın sübh çağında üşüm-üşüm üşüdü, bədəninə bir uçunma gəldi, sonra qonşu otaqda yatan atasının nəfəsini eşitdikcə yavaş-yavaş özünə gəlməyə başladı və əvvəlcə gedib atasını durğuzmaq istədi, amma dünən Baba Keşişin bütün günü ibadətdə olduğunu yadına salıb getmədi.

Baba Keşişin qonşu otaqdan eşidilən nəfəsi Məryəmi sakitləşdirdi: bir halda ki, bu nəfəs bu cür aydın eşidilirdi, heç nə ola bilməzdi, heç nədən qorxmaq lazım deyildi, hər şey öz qaydasında olacaqdı.

Yox, Məryəm yuxunu atasına danışmayacaqdı, çünki qışda da bir yuxu görmüşdü və həmin yuxunu atasına danışmışdı: görmüşdü ki, Məsihanın süfrəsi[1] arxasında oturub yemək istəyir, amma Məsiha süfrəsinin üstü bomboşdu: sür-sümük, bulaşıq qablar, çörək qırıntısı və Məsiha süfrəsinin arxasında Məryəmdən başqa heç kim yox idi.

Baba Keşiş qalın çatma qaşlarını dartıb soruşdu:

– Sən nədən bildin ki, Məsiha süfrəsidi?

Məryəm arıq çiyinlərini çəkdi:

– Bilmirəm... Amma Məsihanın süfrəsiydi...

Baba Keşiş daha bir söz demədi və o yuxunu da yozmadı, bəlkə də yozmaq istəmədi və o gündən sonra düz bir ay fikirli gəzdi; Məryəm atasının üzünə baxan kimi halını hiss edirdi, əgər atasının ürəyi rahat idisə, Məryəm bunu Baba Keşişə baxan kimi bilirdi, narahat idisə, yenə baxan kimi bilirdi, fikirli idi – bilirdi.

Hərgah Baba Keşiş o yuxunu yoza bilməmişdisə, o necə yuxu idi və necə olmuşdu ki, Məryəm belə bir yozumsuz yuxu görmüşdü?

Hərgah Baba Keşiş o yuxunu yozmaq istəməmişdisə, deməli, pis yuxu imiş o yuxu, çünki Baba Keşiş qızının ürəyinə nigarançılıq salmaq istəməmişdi.

[1] Məsiha (İsa peyğəmbər) süfrəsi – dinə görə bu süfrənin üstündəki yeməklər behişdən gətirilmiş və bu süfrədən qırx gün nə qədər adam yeyibsə, süfrə boşalmayıb, nə qədər bol imişsə, o qədər də bol qalıb.

Hərdən belə şeylər olurdu. Baba Keşiş heç vaxt yalan demirdi, aldatmırdı, amma hərdən susurdu, hərdən Məryəmin suallarına cavab vermirdi və Məryəm də başa düşürdü ki, həmin sualı təkrar etmək lazım deyil.

Əvvəllər – axırıncı yazdan qabaq – suallar çox olurdu.

Baba Keşiş ilə Məryəmin yaşadığı ev Gəncənin kənarında, iki-otaqlı, birmərtəbəli kiçik bina idi və bir dəfə qışın sonlarında Baba Keşiş ilə Məryəm Gəncənin o biri başında taxtadan tikilmiş balaca kilsədən çıxıb evlərinə qayıdırdı; günorta Məryəm atasına yemək aparmışdı və özü də gecəyə kimi atası ilə birlikdə kilsədə qalıb şam yandırmışdı, dua eləmişdi.

Evlərinə girəndə birdən-birə Məryəm istədi ki, onları da kimsə qarşılasın, kimsə içəri girən kimi Baba Keşişin qabağına bir stəkan isti çay qoysun, kimsə başqa bir yaxın adam, əziz adam Baba Keşişin yerini rahatlasın, qayğısına qalsın, qulluğunda dursun.

Məryəm soruşdu:

– Sən niyə evlənmədin, ata?

Baba Keşiş qalın çatma qaşlarının altından zil qara və işıqlı gözləri ilə Məryəmə baxdı və heç nə demədi.

Bir müddət beləcə dayanıb bir-birilərinə baxdılar və gözləri ilə bir-birlərini başa düşdülər: Baba Keşiş başa düşdü ki, Məryəm nə üçün bu sualı verdi və Məryəm də başa düşdü ki, Baba Keşiş nə üçün susur.

Məryəm anadan olan gün anası vəfat etmişdi və həmin gündən etibarən də Baba Keşiş ilə Məryəm bir yerdə idi.

Hərdən Məryəmə elə gəlirdi ki, dünyaya günahkar doğulub, çünki öz gəlişi ilə başqa bir həyatı məhv edib və atasını da dərdli edib; Məryəm hiss edirdi ki, dünyaya gəldiyi gün atasının ən istəkli adamı gedib, amma Məryəm burasını bilmirdi ki, anası hər gün atası ilə söhbət edir, Məryəmdən danışır, Məryəmin boya-başa çatmasına sevinir, səhərdən axşama kimi atası ilə bir yerdə olur; Baba Keşiş heç vaxt Allahın işinə qarışmırdı, bu qanlı-qadalı dünyada, bu namərd dünyada nə olurdusa, hamısını qəbul edirdi, çünki Allah belə lazım bilirdisə, belə də olmalı idi, amma on yeddi il bundan əvvəl arvadının ölümünü şüurla qəbul etmişdi, qəlbən qəbul etməmişdi və buna görə də özünü Allahın yanında günahkar hesab edirdi – bu, Baba Keşişin Allahın qarşısındakı yeganə günahı idi.

Yaz gələndən sonra isə birdən-birə hər şey dəyişdi.

Gəncənin ətrafındakı çöllər gül açdı, çiçəklədi, nərgizlər baş qaldırdı, kollar-koslar göyərdi, Gəncə çinarları yarpaqlamağa başladı, qaranquşlar yuvalarına qayıtdı və ən qəribəsi də bu oldu ki, Məryəm bu yaz oyanışını elə bil ki, birinci dəfə gördü, elə bil ki, əvvəllər torpaq heç vaxt bu cür gülməmişdi, bu cür sevinməmişdi və sevindirməmişdi.

Məryəm hər gün səhər tezdən atası kilsəyə gedəndən sonra, eveşiyi sahmanlayırdı, silib-süpürürdü, bir ağ keçiləri var idi, onu sağırdı, atası üçün soyutma yumurta bişirirdi, ət olurdusa, ət bişirirdi, həyət-bacadan göyərti yığırdı, sonra ağ keçi ilə birlikdə həyətlərindən çıxıb evin ətrafındakı çöllərdə dolaşırdı, gül-çiçək dərirdi və hər axşam da atasından nəsə soruşmaq istəyirdi, amma soruşa bilmirdi, çünki bilmirdi ki, nə soruşsun, Məryəm hiss edirdi ki, sinəsində sözü var, ürəyi doludu, atasına çox şeylər deməlidi, amma nə deməlidi? – bilmirdi. Sonra get-gedə bu hiss başqa bir hisslə əvəz olundu: Məryəm, elə bil, nəyi isə atasından gizlətmək istəyirdi, amma nəyi gizlətmək istəyirdi? – bilmirdi. Bu hiss Məryəmi sıxırdı, incidirdi, çünki dünyada nə ola bilərdi ki, Məryəm onu atasından gizlətsin? Məryəm daha əvvəlki kimi atasının yanında soyunub-geyinmirdi, çünki atasından utanırdı və bu utancaqlıq hissi də Məryəmi üzürdü, çünki atası, əslində, Məryəmin ikinci özü idi və Məryəm Baba Keşişdən nə üçün utanmalı idi?

Bütün bunlar yazdan başladı və yaz keçib-gedəndən sonra da qaldı və Məryəm də nəyi isə gözləməyə başladı; bu "nə isə" həm sıxıntılı idi, həm də fərəhli, sevincli idi və ən başlıcası isə, bu "nə isə" gizli bir yük idi: gecə yatağa girəndə başlayırdı, səhər yuxudan oyananda başlayırdı, tək-tənha çöllərdə gəzəndə başlayırdı, gül-çiçək dərirdi, qaçırdı, oynadırdı, güldürürdü.

Səhər tamam açılmışdı.

Otağın sad təmizliyində bir sakitlik var idi və bu sakitlikdə nəsə gözlənilməz xarakter var idi. Məryəm bu gözlənilməz səbəbsiz narahatlıq hissini atasının nəfəsə çevrilmişdi.

Məryəm gözlərini pencərədən çəkib yan otağın qapısına baxdı. Baba Keşiş qapının ayzında dayanmışdı.

Baba Keşiş bundan əvvəl, yəqin ki, yüzlərlə bu adamı idi. Cəsdan bu adamın işıqlı qara gözlərində, qalın çatma qaşlarında, alnındakı və gözünün qıraqlarındakı qırışlarda yenə elə bir doğmalıq, elə bir yaxınlıq hiss etdi ki, taxtından sıçrayıb özünü Baba Keşişin üstünə atdı və üzünü atasının geniş sinəsinə sıxıb:

– Məryəm ananı yuxuda gördüm, ata... – dedi, sonra yuxusunu danışdı.

Baba Keşiş nazik və uzun barmaqları ilə qızının xurmayı saçlarını sığallaya-sığallaya diqqətlə qulaq asdı və Məryəm həyəcanla yuxusunu danışıb qurtarandan sonra, bir müddət susdu. Məryəm başını atasının sinəsindən qaldırıb gözlərinin içinə baxdı. Baba Keşiş gülümsədi. Baba Keşiş çox az-az gülümsəyərdi və beləcə gülümsəmək Baba Keşişin sərt sifətinə çox yaraşırdı. Məryəmin də gözləri güldü. Baba Keşiş dedi:

– Sən ananı görmüsən yuxuda, qızım. Su da yuxuda aydınlıqdı...

– Bəs, çağa?

Baba Keşiş demək istədi ki, o çağa da sən özün olmusan, amma demədi, çünki özü özünün bu fikrindən hürkdü, çünki dünyada da, yuxuda, xəyalda da ikinci İsa ola bilməzdi və belə bir günah işləmək olmazdı.

IV

Allahın qarşısında Qəmərbanunun günahları çox idi və Qəmərbanu bütün bu günah işləri Mahmuda görə tutmuşdu və get-gedə Qəmərbanunun ürəyini başqa bir qorxu bürüyürdü: Mahmudda ki, bu qədər təmizlik, bu qədər paklıq var, onun yolunda işlənmiş bu qədər günahdan sonra Mahmud xoşbəxt ola bilməyəcəkdi, Mahmudun təmizliyi qoymayacaqdı ki, Mahmud başqasının bədbəxtliyi hesabına xoşbəxt olsun.

Onda, bəs, nə üçün Qəmərbanunun özünün bədbəxtliyi kömyə gəlmirdi, yoxsa, Qəmərbanu insan deyildi və Qəmərbanunun ürəyi yox idi?

Qəmərbanu xəfif, gəlin dəsmalı otağda çıxıb, yavaş-yavaş döşəyinin üstündə oturmuşdu.

Nahamaz içəri girib Xəzər Sahanın onmatozin olduğunu sonra Qəmərbanu [illegible]

– Nə oldu, Mirzə? Nə oldu kitablar? Sənə tapşırığımdan qırx gün keçib!..

Mirzə Salman uzun nazik saqqalının ucunu şəhadət barmağına dolaya-dolaya:

– Bir həftədən artıqdı karvan Təbrizdən çıxıb, Banu, – dedi. – Yaxın vaxtlarda peyda olar.

– Atlı göndər, Mirzə! Atlı göndər, karvanı tələsdirsin!

Mirzə Salman ayaq üstə dayanıb gözlərini yerə dikmişdi və indi fikri Təbrizdən gələn kitab yüklü karvanın yanında yox, tamam başqa yerdə idi: bu bədbəxt qadın bu qədər ehtirasını, ağlını, bacarığını başqa işə sərf etsəydi, Sara Xatun[1] ola bilərdi, amma Sara Xatun Uzun Həsənin anası idi, Qəmərbanu isə Mahmudun anası idi, Mahmudu Allah-taala başqa cürə xəlq etmişdi və Mahmud heç vaxt Uzun Həsən ola bilməyəcəkdi və əslində bu heç lazım da deyildi...

Qəmərbanu dedi:

– Gedə bilərsən, Mirzə!

Mirzə Salman yüngülcə başını tərpətdi və daxili bir razılıqla otaqdan çıxdı. Son zamanlar Mirzə Salman Qəmərbanuya baxa bilmirdi, bir vaxtlar hamıdan, Qəmərbanunun özündən də gizlətdiyi

Falçı rəmmalların əməli, təsirli seyidlərin dedikləri, elədikləri hamıya öz gücünü göstərirdi, təkcə Mahmuda təsir edə bilmirdi və təkcə Qəmərbanunun sinəsindəki dərdi azaltmırdı.

İki il bundan əvvəl Qəmərbanu qızıl gücünə məşhur seyid Əbdülqasımı Ərdəbildən Gəncəyə gətirtdi və ərdəbilli seyid Əbdülqasımdan çarə istədi, oğlunu təkliyin, yumşaqlığın, sadəliyin sehrindən çıxarıb başqa cavanlar kimi at belinə mindirməkdən ötrü, qılınc oynatdırmaqdan ötrü əlac istədi, saçı, saqqalı, qaşı ağappaq ağarmış bu ixtiyar seyidin əllərindən öpdü, qul kimi qulluğunda durdu.

Ərdəbilli seyid Əbdülqasım iki gün gecə-gündüz dilinə bir qurtum su vurmadı, ağzına bir tikə çörək qoymadı və Quranı birinci kəlməsindən axırıncı kəlməsinə kimi ahəstə səslə, aramla əzbərdən oxudu, gözlərini onunçun ayrılmış otağın tavanına dikib, elə bil ki, dünyanı tamam yadından çıxartdı, sonra gecənin yarısı saqqalından bir tük qoparıb Qəmərbanuya uzatdı:

– Bunu uşağın başına çevir.

Qəmərbanu özü tükü Seyid ağadan alıb Mahmudun yataq otağına getdi, yatmış Mahmudun başına çevirdi və gətirib Ağaya qaytardı. Ağa ayağa qalxıb saçı, saqqalı kimi ağappaq əbasının ətəklərini əlinə yığdı

gizlətsinlər, indi isə, Mirzə Salmanın köməyi ilə bir ətək qızıl pula Təbrizdən müxtəlif kitablar aldırıb Gəncəyə gətirdirdi ki, Mahmudu kitaba həvəsləndirsin.

ağ saçını, ağ saqqalını da yadından çıxartdı və sinədən qopub gələn bir nifrət və qəzəblə qışqırdı:

– Səfeh qoca! Sən hələ bilmirsən ki, bu ağac alma ağacıdı?!

Kəniz-qaravaş hamısı heyrətdən yerində donub qaldı və hamısı da birağızdan:

– Bismillah! – dedi. – Harut, Marut[1] əməlidi!..

Qəmərbanu bu əhvalatı da uğursuz bir təşəbbüs kimi yadından çıxartdı.

Ziyad xanın ərdəbilli seyid Əbdülqasımdan heç xəbəri olmadı. Ziyad xanın nədən xəbəri var idi ki?

Qış keçdi, yaz gəldi, ağaclar çiçəklədi, alma ağacı da çiçəklədi, sonra çiçəklər töküldü, almalar yekəlməyə başladı və bir dəfə Qəmərbanu bu alma ağacının yanından ötəndə yerində quruyub qaldı: qollu-budaqlı bu alma ağacının lap yuxarısında, göy almaların arasında saralmağa başlayan bir armud var idi.

Həmin gün Qəmərbanu qırx qoyun kəsdirib Gəncənin bütün seyidlərinə paylatdı, qırx qoyun da kəsdirib məscidlərə göndərtdi, acyalavaclara paylatdı, Gəncədə xümsü[2] üç ay müddətinə ikiqat artdırdı,

Ərdəbilə təcili bir çapar göndərib tapşırdı ki, hər nə vasitə ilə olursa-olsun, Ağanı dilə tutub Gəncəyə gətirsin, desin ki, Qəmərbanu onu dünya malından qane edəcək və gecə-gündüz Allaha yalvardı ki, Ağanın qarşısındakı günahını yusun.

Yeddi gündən sonra çapar qayıdıb belə bir görünməmiş xəbər gətirdi ki, yayın bu cırhacırında Qalxanlı dərəsinə qar yağıb və yaxın müddətdə bu dərəni keçib Ərdəbilə getmək mümkün deyil.

Qəmərbanu bu dəfə əlli qoyun qurban kəsdirtdi və camaata paylatdı. Həmin günlərdə Gəncənin qəssabları ətin üç girvəngəsini Naxçıvanda kəsilmiş dörddə bir təngəyə verirdi, amma yenə alan olmurdu, çünki hamının evində qurbanlıq ət var idi və bir həftədə Gəncə qəssabları az qala bir il geri düşdülər.

Qəmərbanu gecə-gündüz alma ağacının yanında oldu və həmin armud yetişib sapsarı saralandan sonra onu dərdirib birbaş Mahmuda apardı.

Qəmərbanu axır vaxtlar heç zaman bu cür yüngül yeriməmişdi, bu cür fərəhli olmamışdı, bu cür geniş və dərindən nəfəs almamışdı və hava sinəsini bu cür doyuzdurmamışdı.

[1] Harut və Marut – Allahın qəzəbinə keçmiş cadugər mələklərdir və dini rəvayətə görə Babil əhalisinə cadugərliyin sirrini öyrətmişlər.

[2] X ü m s – seyidlərə verilən dini vergi.

Mahmud sarayın kitabxanasında oturub kitab oxuyurdu və kitab Mahmudu o qədər tutmuşdu ki, bir söz demədən anasının uzatdığı armudu alıb yedi və yeyə-yeyə də oxumağına davam etdi.

Qəmərbanu ömründə hiss etmədiyi bir həyəcanla və əvvəlcədən sirayət etmiş bir sevinclə gözləyirdi.

Mahmud armudu yeyib qurtardı və yenə də oxumağına davam etdi.

Qəmərbanu bir müddət də gözlədi.

Mahmud eyni həvəslə qarşısındakı kitabı oxuyurdu.

Qəmərbanunun ürəyi dəhşətli bir uğursuzluq qorxusu ilə döyünməyə başladı.

Mahmud axşamacan kitab oxudu, sonra bağçada gəzməyə çıxdı, sonra da yatmağa getdi.

Həmin gecəni Qəmərbanu yata bilmədi. İki dəfə özü Mahmudun yataq otağına getdi, iki dəfə də Sofini göndərdi.

Mahmud sakitcə yatırdı.

Səhərə yaxın Qəmərbanunu yuxu tutdu və bir azdan sonra oyanan kimi Sofini çağırtdırdı:

– Nə xəbər var, Sofi?

Sofi suçlu adamlar kimi – elə bil ki, bütün təqsirlər onda idi, – gözlərini gizlədə-gizlədə:

– Heç nə... – dedi.

Əlbəttə, Sofinin halı Qəmərbanunun iti gözlərindən yayınmadı:

– Səndə söz var, Sofi!..

– Səhər... səhər aşpaz toyuqları kəsdirəndə Mahmud görüb...

Sifəti ağappaq ağarmış Qəmərbanu:

– Sonra? – soruşdu.

– Mahmud ağlayıb qaçıb...

Qəmərbanu başa düşdü ki, Ağanın Mahmuda gücü çatmayıb.

Bəlkə Ağa acıq eləyib? Bəlkə Qalxanlı dərəsinə də qar elə buna görə yağıb?

Sonra Qəmərbanunun ağlından dəli bir fikir keçdi: Qəmərbanu dərdinə əlac üçün müqəddəs axtarır, bəlkə elə müqəddəs Mahmudun özüdü?

Gecə Qəmərbanu tərtəmiz göyə baxdı, Mahmud anadan olanda bu əl boyda çağanın Cövza bürcü taleyinə hamının sevinməyi yadına düşdü və Qəmərbanu öz-özünə dedi:

– Göylər də aldatdı səni...

Bundan sonra Qəmərbanu nə falçı, rəmmal çağırtdırdı, nə seyid, dərviş axtartdı, nə də pirə getdi, nəzir dedi.

Bundan sonra Qəmərbanu Mahmudun özü ilə də danışa bilmirdi. Mahmudun iri göy gözlərindəki təmizlik, sadəlik bircə anın içində Qəmərbanunun bütün silahlarını əlindən alırdı.

İndi də Qəmərbanu ümidini Təbrizdən gətiriləcək kitablara bağlamışdı.

Qəmərbanu ayağa qalxıb bağçaya getmək istədi, Mahmudu görmək istədi və bu vaxt qapı açıldı, Ziyad xan içəri girdi.

Birinci dəfə idi ki, Ziyad xan günün günortaçağı tək-tənha və xəbərsiz Qəmərbanunun otağına gəlirdi. Qəmərbanu belə başa düşdü ki, yəqin siyasət aləmində nəsə mühüm bir hadisə baş verib.

Ziyad xan Qəmərbanu ilə üz-üzə əyləşdi.

Qəmərbanu görürdü ki, Ziyad xan çox fikirlidi və söhbətinə başlamağa çətinlik çəkir.

Qəmərbanu ərinə baxa-baxa fikirləşdi ki, səd heyf, Ziyad xana layiq arvad olmadı. Bu xain dünya ilə Ziyad xan təkbətək qaldı və Qəmərbanu Ziyad xana arxa ola bilmədi, Allah onlara elə bir oğul verdi ki, zəmanə bu oğula yad oldu və bu oğulun qayğıları, bu qayğıların iztirabı, ağrısı Ziyad xanın bu xain dünyada ən yaxın adamını – Qəmərbanunu əlindən aldı.

Bu saçlar, bu saqqal nə tez ağardı, qocalıq Ziyadı nə tez haqladı? Nə tez gəlib keçdi cavanlıq illəri? Ziyadın əllərinin üstü nə yaman qırışıb, Qəmərbanu indiyəcən heç buna fikir verməmişdi... Boynundakı, boğazındakı qırış xətlərinə bax, elə bil bir-bir xəncərlə cızılıb... Qəmərbanu elə bil ki, o xəncərin ağrısını hiss etdi, əlini uzadıb barmaqlarını Ziyad xanın saçlarında gəzdirdi və söhbətə başlaması üçün ərinə kömək etdi:

– Nə olub, Ziyad?

Ziyad xan Qəmərbanuya baxdı və:

– Mahmuddan nigaranam... – dedi.

Qəmərbanu tez yerində dikəldi:

– Nə olub Mahmuda?

– Heç nə... Qəmər, Mahmud taxtda otura bilməyəcək...

İndi hər şey aydın oldu. Axır ki, Ziyad xan öz doğma oğlunu görə bildi, tanıya bildi. Qəmərbanu gülümsədi:

– Bilirəm...

Ziyad xan arvadının dodağındakı təbəssümdə, gülümsəyən nəmli gözlərində o qədər dərin bir dərd oxudu, o qədər acı hiss etdi ki, onunçun da hər şey aydın oldu: Qəmərbanu bu ağrını çoxdan ürəyində gəzdirir. Ziyad xan burasını da bütün ağırlığı ilə hiss etdi ki, indi üzbəüz oturduqları bu əziz adamla illər keçdikcə, əslində tamam yadlaşıblar, bir-birlərindən xəbərləri yoxdur və Ziyad xan heyrətə gəldi ki, gözəl Qəmərbanunun beləcə qocaldığını da, elə bil, birinci dəfə görür; bütün həyatını qurban etdiyi o taxt Ziyada nə vermişdi? Ziyad tək və kimsəsiz idi və bu təklik, kimsəsizlik iylənmiş bir nəmişlik kimi, rütubət kimi həmin an Ziyadın bədəninə yapışdı.

Əslində Ziyad xanın çox şeydən xəbəri yox idi və yəqin ki, heç vaxt da xəbəri olmayacaqdı.

Ziyad xan iyirmi üç il idi ki, hakim idi və Ziyad xan iyirmi üç il idi ki, taxtını əlində saxlamaq üçün, taxtını möhkəmləndirmək üçün, xəzinəni doldurmaq üçün çalışırdı, amma Ziyad xan bilmirdi ki, neçə il idi ki, Qəmərbanu gecə-gündüz bu taxtın, bu xəzinənin gələcəyi üçün çalışır... Ziyad xanın başı gündəlik işlərə o qədər qarışıq idi ki, siyasi çəkişmələr, hərbi toqquşmalar, qonşuların gizli və açıq yürüşləri, qonşuların üstünə gizli və açıq həmlələr, saray hiylələri Ziyad xanı o qədər məşğul edirdi ki, daha Mahmud haqqında fikirləşməyə, ən başlıcası isə Mahmudu görməyə və tanımağa macalı yox idi. Ziyad xan elə bilirdi ki, başını yerə qoyan kimi, qohum-əqrəba, yaxın adamlar yığışıb yeganə övladı Mahmudu oturdacaqdılar taxta və deyəcəkdilər ki, Mahmud xan, hökmdarlıq et...

Qəmərbanu gülümsədi.

Ziyad xanın papağını qabağına qoyub fikirləşməyə vaxtı yox idi; ən birinci Mahmudu elə bu qohum-əqrəba boğacaqdı, elə bu qohum-əqrəba çaqqal gözünü quzuya dikən kimi, gözünü Mahmuda dikmişdi və fürsət axtarırdı ki, Ziyad xanın başına bir iş gəlsin.

Qəmərbanu günahkar nəzərlərlə Ziyad xana baxırdı, çünki Qəmərbanu bu dəm Cavanşir xanı xatırlamışdı və Cavanşir xanla Ziyad xan o qədər bir-birlərinə oxşayırdılar ki, elə bil bir almanı yarı bölmüsən; Qəmərbanunun əti ürpəşdi.

Cavanşir xan Ziyad xanın kiçik və yeganə qardaşı idi və Ziyad xan kimi də at minən, qılıncoynadan idi. Qəmərbanu hərdən Cavanşir xanın Mahmuda dikilmiş gözlərində bir canavar ehtirası hiss edirdi və

indi Qəmərbanu fikirləşdi ki, bəlkə heç belə deyilmiş, ona belə gəlirmiş? Amma bir də Sofi belə bir xəbər gətirdi ki, Göy göldə qurulmuş kef məclisində Cavanşir xan deyib ki, Gəncəni bura köçürəcəyəm, sarayımı da elə tikdirəcəyəm ki, Göy gölə baxsın.

Bu o deyən söz idi ki, Cavanşir xan özünü taxtın varisi hesab edirdi və bunu daha heç gizlətmirdi də.

Qəmərbanu bir həftənin içində qızıl gücünə quldurbaşı Göyçək Kəllözlə dil tapdı və quldurbaşı Göyçək Kəllöz Murov dağında keçi ovuna çıxmış Cavanşir xanı gizlincə izlədi, ox ilə vurub öldürdü. Sonra bu sirr heç vaxt açılmasın deyə, Qəmərbanu yenə qızıl gücünə saray keşikçisi Təkgöz Vəliqulu ilə dil tapdı və Təkgöz Vəliqulu pusqu qurub Göyçək Kəllözü gecənin yarısı Gəncədə, məşuqəsi Haykanuşun yanına gələndə xəncərlə doğradı. Sonra bu sirri də Allahdan və Qəmərbanudan başqa heç kim bilməsin deyə, Qəmərbanu öz əli ilə Təkgöz Vəliqulunu zəhərliyib öldürdü.

Ziyad xan qırx gün Cavanşir xanın ölümünə yas saxladı, bu ölümü şahların, sultanların siyasəti ilə yozdu, kələntərlərin, naiblərin fitnəfəsadı ilə yozdu, imkanı çatan şübhəli adamları qılıncdan keçirtdi, amma Ziyad xanın heç ağlına gəlmədi ki, bu ölümün əsl səbəbkarı Mahmuddu. Qəmərbanu da təkcə bununla təskinlik tapırdı, təskinlik tapırdı ki, bu qurbanlar və Ziyad xanın xəbərsiz olduğu başqa qurbanlar bəd əməllərin nəticəsi deyil, bəd əməllərdən Mahmudu qorumağın nəticəsidi və bütün bunlar hamısı Mahmudun gələcəyi üçündür; Mahmudun təmizliyi, Cavanşir xanlardan və Təkgöz Vəliqulular dan artıqlığı bu əməllərə bəraət qazandırırdı; düzdü, Cavanşir xanın da, Təkgöz Vəliqulunun da balaları yetim qalırdı, amma əslində Mahmud o yetimlərdən də köməksiz idi, o yetimlər həyatda özlərinə bir gün ağlayacaqdılar, amma Mahmud üçün həmin gün Qəmərbanudan başqa heç kim ağlamayacaqdı.

Ziyadın xırda tum gözləri ancaq indi qüsə ilə örtülmüşdü, bəs bu gözlər əvvəllər hara baxırdı? Bu gözlər hamının göründüyünü niyə görə-

bir Mahmud dərdi də verdi. Qismətdən artığı yoxdur. Arı da atdım, həyanı da atdım, nə oldu ki, bədbəxt Ziyad nə edəydi?

Bir dəfə kənizləri ilə bir yerdə sarayın qadın hamamında çimində birdən Qəmərbanunun ağlına gəldi ki, Mahmudu ayıltmaq lazımdır. Mahmud on altı yaşının içində idi, amma Mahmud o qədər təmiz idi ki, heç kimin ağlına gəlmirdi ki, Mahmud hələ indiyə kimi qızın, arvadın nə olduğunu bilmir və hamı elə bilirdi ki, elə belə olmalıdı.

Bu yeni fikir Qəmərbanuya aman vermədi və Qəmərbanu tamam əmin oldu ki, bundan sonra hər şey düzələcək; Mahmudu kişi eləmək lazımdır və Mahmud kişi olandan sonra, heç olmasa bir az sərtləşər, bir az camaatla qaynayıb-qarışar və çətini də əvvəlidi, sonra hər şey qaydasına düşəcək, sonra Mahmud da öz yaşıdları kimi, at çapacaq, qılınc oynadacaq, qız qaçırdacaq, Mahmud da başqa varislər kimi, atasının kəsən əli, fikirləşən beyni olacaq.

Qəmərbanu elə hamamdaca ehtirasdan bədəni sim kimi tarım çəkilmiş bir kəniz seçdi və aparıb bu kənizi öz əli ilə geyindirib-kecindirdi, hər şeyi ona başa saldı, bir kisə qızıl verdi, birini də boyun oldu və elə həmin gün də kənizi Mahmudun yanına xidmətçi göndərdi.

İki gün keçdi və Qəmərbanu hiss etdi ki, kəniz onun gözünə görünməkdən çəkinir, üçüncü gün də keçdi və dördüncü gün Qəmərbanu səbr edə bilmədi, özü Mahmudun otağına getdi. Mahmud da otaqda yox idi, kəniz də və bu otaq yenə də dünyanın təmizliyindən, şəffaflığından xəbər verirdi və Qəmərbanu başa düşdü ki, bu otaqda heç nə olmayıb. Qəmərbanu, Sofini çağırtdırdı və Sofi belə bir xəbər gətirdi ki, üç gün, üç gecədi ki, Mahmud sarayın kitabxanasında həmin kənizə əlifba öyrədir.

Qəmərbanu qəzəbdən, özünün özünə tutduğu acıqdan, öz əməlinin xəcalətindən titrəyə-titrəyə kənizi yanına gətirtdi və bu gözəl qızın uzun hörüklərini qoluna dolayıb çiğırdı:

— Səni əlifbə öyrənməyə göndərmişəm?

Kəniz qoynundan çıxartdığı bir kisə qızılı yerə qoyub Qəmərbanu-

Qəmərbanunun əli boşaldı və qızın hörüklərini buraxdı.

Kəniz dəli kimi ağlaya-ağlaya otaqdan qaçdı.

Qəmərbanunun ağlına min cür fikir gəldi və axırda tab eləməyib gecə ilə Gəncənin ən birinci küpəgirəni Qısır Qarını yanına çağırtdırdı. Qısır Qarı palçıqlı balağının ucunu dişlərinə alıb qaranəfəs yüyürə-yüyürə saraya gəldi.

Düzdü, Qısır Qarı Gəncənin ən birinci küpəgirən qarısı idi və bütün Gəncə camaatının Qısır Qarıdan zəhləsi gedirdi və Qısır Qarıya işi düşən hər kimsə çalışırdı ki, həmin iş tez qurtarsın, Qısır Qarının sifətini daha görməsin, amma dünyada heç kim bilmirdi ki və ümumiyyətlə, bu heç kimin ağlına gələ bilməzdi ki, Qısır Qarının da ürəyində uzun-uzun illərin arzusu, uzun-uzun illərin həsrəti var: Qısır Qarı yerdən ayrılmaq, uçmaq istəyirdi və Qısır Qarı dünyanın quşlarına yanğısı ildən-ilə daha da artan bir həsədlə baxırdı və əlacsızlıq, mümkünsüzlük içində kövrəlirdi; bu – Qısır Qarının ürəyindəki hamıdan gizlətdiyi yeganə kövrəklik idi. Qısır Qarı həmişə başını aşağı salırdı, danışanda da, bir yerə qaçanda da, bir iş görəndə də başını yuxarı qaldırmırdı, çünki başını dik tutanda hərdən Qısır Qarının gözləri göyə sataşırdı və o zaman Qısır Qarının ürəyi gizli-gizli gizildəyirdi, göy, elə bil, çox güclü bir ahənrüba idi, Qısır Qarını özünə çəkirdi, yox, çəkmirdi, özünə tərəf sovururdu. Qısır Qarının ürəyi çapalayırdı, sinəsindən çıxıb göyə qalxmaq istəyirdi, amma nə etmək olardı, Qısır Qarının qanadı yox idi və Qısır Qarı quş kimi uça bilmirdi. Hərdən səhər tezdən yuxudan oyananda Qısır Qarı gözünü açıb kiçik və kimsəsiz daxmasının pəncərəsindən gömgöy və tərtəmiz göyə baxırdı və Qısır Qarının ürəyindən dünyada heç kimin ağlına gəlməyəcək bir göy həsrəti, bir mavilik həsrəti keçirdi...

Qısır Qarı adi adamlar kimi gəzə bilmirdi, həmişə yüyürürdü, həmişə qaçırdı.

Qəmərbanu otaqda yanan şamın zəif işığında bu çirkin və çirkli qarının umsaq gözlərinə baxdı, pırpız saçlarına baxdı, qaxaca dönmüş taxta sinəsinə baxdı və Qəmərbanunun ürəyindən bir ağrı keçdi: fələk məni gör kimlərə ürcah eylədi... Sonra dedi:

– Sənə işim düşüb, qarı... Amma bir daş altda, bir daş üstdə! Yoxsa...

Qısır Qarı, Qəmərbanunun sözünü yarımçıq kəsdi:

– Xanım qızım, o Əlinin qəzəb oğlu Həzrət Abbas mənə qənim olsun, Qısır Qarı ki, var, bir ovuc darıdı, hara səpələsən, elə oradaca qalır. Sən sözünü de. Oxuduğum Quran haqqı, qıldığım namaz haqqı, bir daş altda, bir daş üstdə!

Əlbəttə, Qısır Qarı ömründə nə Quran oxumuşdu, nə də namaz qılmışdı, amma nə etmək olardı, fələyin ürəyi daş idi, fələk hərdən elə eləyirdi ki, şahın da işi dehqana düşürdü.

Qəmərbanu, Qısır Qarıya bir qızıl verdi və istədiyini ona başa saldı, sonra Mahmudun yatdığı otağa getdilər. Qəmərbanu eşikdə qaldı, Qısır Qarı tumanını çəkə-çəkə burnunu silə-silə içəri girdi.

Mahmud yatmışdı və Mahmudun solğun bənizi, sarışın saçları həmin gecə pəncərədən düşən ay işığında o qədər işıqlı, o qədər nurlu idi ki, elə bil Mahmud yatağında yox, Rəfrəfin[1] belində idi, amma Qısır Qarı belə şeyləri vecinə alan deyildi, Mahmudun yatağının yanında çömeldi və bir azdan çox kişini saf-çürük eləmiş əlini ehmallıca çəkib ayağa qalxdı və otaqdan çıxdı.

Qəmərbanu yenə bəd bir xəbərin hürküsü ilə eşikdə dayanıb gözləyirdi. Qısır Qarı, Qəmərbanuya yaxınlaşıb:

– Lap kefin istəyən kişidir!.. – deyə xısın-xısın pıçıldadı və ağzındakı yeganə dişi ağardıb səssiz güldü.

Qəmərbanu sakit oldu, amma eyni zamanda ürəyinə gələn şübhədən və gördüyü bu işdən bir xəcalət hissi baş qaldırıb bütün içinə yayıldı və elə bil ki, qabağındakı bu ifritə idi günahkar – nifrətlə, iyrənə-iyrənə Qısır Qarının üzünə tüpürdü.

Qəmərbanu özünü dünyanın ən ləyaqətsiz anası hesab etdi.

İki gündən sonra saraya belə bir xəbər yayıldı ki, xidmətçilər səhər tezdən durub görüblər ki, kənizlərdən biri özünü bağçadakı tut ağacından asıb. Hamı təəccüb etdi və heç kim bilmədi ki, bu cavan, gözəl-göyçək kəniz, deyib-gülən, baxışları ilə ox atan kəniz niyə belə iş tutub. Təkcə Qəmərbanu bu intiharın səbəbini bilirdi: Qəmərbanu üç gün bundan qabaq iki kisə qızıldan imtina edib için-için ona yalvaran o kənizin gözlərində yeni yaranmış çılğın bir məhəbbət oxumuşdu və Qəmərbanu bu gözlərdə burasını da açıq-aşkar görmüşdü ki, həmin məhəbbət məhkum məhəbbətdi.

[1] Rəfrəf – Məhəmməd peyğəmbər göylərə merac eləyəndə mindiyi ikinci xəyali atın adıdır.

Belə idi, əzizim... Belə idi, Ziyad...

Ziyad xanın çox işdən xəbəri yox idi və Ziyad xan indi Qəmərbanu ilə üzbəüz oturub bircə günün içində dərd əlindən solmuş xırda tum gözləri ilə arvadından imdad umurdu.

Yazıq Ziyad... Allah-taala bu oğulu sənə ya gərək min il bundan əvvəl verəydi, ya da gərək min il bundan sonra verəydi, bu namərd dövran bizim oğlumuza layiq deyil, bu qara dövran Mahmud təmizliyi üçün bir qara yaradı.

Min il bundan əvvəl?

Bəlkə elə min il bundan əvvəl də mənim kimi sinəsi dərdli bir ana balası üçün min il sonranı arzulayırmış? Dolansın əyyamın, dönsün dövranın, dünya... Düz doqquz ildən sonra fələk məni bağa bağban elədi, bağban ağlar, bağça ağlar, gül ağlar... Bu bəd dünya daşa basıb və izlər bizi?

Qəmərbanu fikirləşdi ki, axı Quran deyir ki, Allah sıxıntıdan sonra həmişə şad edir[1], bəs mənim bu bəxtiqara ürəyimin şadlığı hanı?

Qəmərbanu ürəyindən keçənlərin ağrısı ilə ayağa qalxdı və:

– Ümid Allahadı!.. – dedi, içində isə yenə bir ağrı bağrını dəlib keçdi: bənizi ağ, könlü pak, bəxtiqara oğlum mənim... bədbəxt Ziyadın, bədbəxt Qəmərin bədbəxt Mahmudu...

...Qəmərbanu necə ağlına gətirə bilərdi ki, lap az bir müddətdən sonra, onun bədbəxt, bəxtiqara hesab etdiyi oğlu dünyanın ən xoşbəxt adamı olacaq?

V

Yayın istisində Baba Keşişgilin evindən bir az aralı, Gəncə çayının sahilində ot saralıb-solmuşdu, amma günün altındakı bu sarılıq Mahmudun ürəyini qısmırdı, əksinə, dünyanın genişliyindən xəbər verirdi. Düzdü, Quranda yazılırdı ki, Allah "göyləri, yeri və bunların arasında olanı" müvəqqəti yaradıb, "müəyyən zaman üçün" yaradıb, amma göz işlədikcə uzanan bu saman sarısı, günün şüaları altında parpar parıldayan Gəncə çayının şırıltısı indi dünyanın daimiliyindən və insan ömrünün də əbədiliyindən danışırdı: altı gündə yaradılmış dünya[1] bir idi, insanlar çox adi və insan ömrü də Adəmin ömründən başlamış yüz min il bundan sonrakı insanın ömrünəcən üst-üstə götürülməli idi.

Mahmud bu gün səhər bağçaya çıxdı və birdən-birə elə bil ki, o hündür saray hasarları arasında böyük bağçaya sığışmadı, hasarlar Mahmudu darıxdırdı, yayın ortasında saray bağçasının süni yaşıllığında bir qüssə hiss etdi və Mahmud saraydan çıxıb çöllərdə gəzməyə getdi, gəzib dolaşa-dolaşa Gəncə çayının sahilindəki bu kəhrəba sarısı düzənliyə gəldi.

Bu düzənlikdə bir azadlıq var idi, sərbəstlik var idi və bu azadlıq, bu sərbəstlik – qəribə iş idi – çoxdan yadından çıxartdığı ən adi hadisələri təzədən və tamam təzə rənglərlə, təzə hisslərlə Mahmudun yadına salırdı: bir dəfə lap uşaq idi, anası ilə gəzməyə çıxmışdı, yaşıl bir çəmən idi, ağ bir çiçək gördü və bu ağappaq çiçəyi dərmək istəyəndə gicitkən əlini daladı və Mahmud bərkdən ağlaya-ağlaya anasının qucağına qaçdı; bir dəfə, yeddi-səkkiz yaşı olardı, əmisi Cavanşir xan – Allah ona rəhmət eləsin – Mahmudu tərkinə aldı, gəzməyə çıxdılar, çapa-çapa bir kəndə gəldilər, həmin kənddə bir arvad təndir qırağında oturub çörək bişirirdi, əmisi atın başını çəkib yerə atıldı, təndirin qırağında üst-üstə yığılmış çörəklərdən birini götürdü və bir parça qoparıb Mahmuda uzatdı, Mahmud da tez çörəyi dişlədi və çörəyin istisi ağzını yandırdı, Mahmud bərkdən ağladı, gözünün yaş sifətinin nilinə[2] qarışdı, əmisi də bərkdən gülməyə başladı və bundan sonra Mahmud hər dəfə çörək yeyəndə soruşurdu ki, istidi, ya yox; bir dəfə, on bir-on iki yaşı olardı, sarayın həyətində gəzəndə toyuqlara baxan kök, yekəpər bir kəndli arvad Mahmudu çağırdı: "– Qulağını bəri tut" – dedi və əlindəki yumurtanı Mahmudun qulağına sarı uzatdı: yumurtadan nazik civilti gəlirdi, tıqqıltı səsi gəlirdi, sonra cücə yumurtanın qabığını deşdi, cücənin başı göründü, yumulu gözləri göründü, sonra cücə həmin kök arvadın əlindəcə yumurtadan çıxdı, elə bil suya salıb çıxartmışdın, xırda lələkləri ətinə yapışmışdı, başını qaldırıb yumulu gözləri ilə elə bil ki, göyə baxdı və nazik səsi ilə civildəməyə başladı, Mahmud dedi ki, cücə yemək istəyir, kök arvad

Bütün bu uzaq xatirələr bir ilıqlıq gətirdi, bir sevinc gətirdi, Mahmud o ağ çiçəyin ətrini duydu, o isti təndir çörəyinin iyini və dadını hiss etdi, o cıqqılı cücənin həyatdakı ilk civiltisini eşitdi və bu vaxt...

...və bu vaxt Mahmud Məryəmi gördü.

Məryəm səhər durub Baba Keşişi kilsəyə yola saldı, sonra evi silib-süpürdü, həyətdə su qaynadıb Baba Keşişin köynəklərini yudu, Ağ Keçini sağıb südündən qatıq çaldı, soyutma yumurta bişirdi, həyətdən soğan yığıb təmizlədi, sonra yenə həyətə çıxdı, qapılarının ağzındakı armud ağacından bir armud dərib yedi, bir armud da dərib Ağ Keçiyə verdi, sonra Ağ Keçi ilə birlikdə gəzə-gəzə Gəncə çayının sahilindəki bu düzənliyə gəldi.

Məryəm yazda Ağ Keçiyə bir mahnı qoşmuşdu və yazdan bu tərəfə o mahnını heç oxumamışdı, amma indi, elə bil, Məryəm bayramı[1] təzədən qayıtmışdı və düzənliyin bu sakitliyi, bu genişliyi birdən-birə həmin mahnını Məryəmə oxutmağa başladı:

Ay Keçi,
Ay Ağ Keçi,
Buynuzun uzundu, qurda görə,
Saqqalın uzundu, sözün keçsin,
Tükün uzundu, üşüməyəsən,
Südün da çoxdu, mənə görə..
Ot verim sənə,
Su verim sənə,
Həmisə

Ağ Keçi başını aşağı salıb düz Mahmudun üstünə gəldi.

Mahmud əlini uzadıb Ağ Keçinin buynuzlarının arasını tumarladı.

Ağ Keçi ürkmədi.

Məryəm bu işə lap məəttəl qaldı, çünki Ağ Keçinin Məryəm ilə Baba Keşişdən savayı heç kimi yox idi və Ağ Keçi başqa adamlardan ürkürdü, amma Məryəm burasını da hiss etdi ki, elə belə də olmalıdı, Ağ Keçi bu solğunbənizli, sarışınsaçlı, iri göygözlü oğlandan ürkməməlidir.

Ağ Keçi başını çöndərib Məryəmə tərəf baxdı və mələdi.

Ağ Keçinin mələməsi göz işlədikcə uzanan bu saman sarısı düzənliyə yayıldı.

Baba Keşiş deyirdi ki, yer üzündəki bütün heyvanların öz dili var və Davud peyğəmbərin oğlu Süleyman heyvanların hamısının dilini bilirmiş, amma Baba Keşişin heç ağlına gəlməzdi ki, gün gələcək və Məryəm də heyvanların dilini başa düşəcək.

Ağ Keçi Məryəmi çağırırdı. Ağ Keçi qorxma, deyirdi, yaxın gəl, deyirdi, Ağ Keçi Məryəmi bu dünyanın hələ ona məlum olmayan gözəlliyinə çağırırdı, bədəninə sığışmayan hisslərin, həyəcanların bu saman sarısı düzənlik kimi azadlığına, sərbəstliyinə, qəlibsizliyinə çağırırdı, yaxın gəl, deyirdi, qorxma, deyirdi.

Bəyəm Məryəm qorxurdu?

Məryəm gəlib Mahmud ilə üzbəüz dayandı.

Mahmud üçün hər şey aydın olmuşdu və Mahmud bilirdi ki, daha yanılmır.

Mahmud əlini qabağa uzatdı.

Məryəm bilmirdi ki, bu oğlan nə üçün Baba Keşişə oxşayır, Məryəm istəmirdi ki, bu oğlanın əlindən tutsun, çünki bu oğlan yad idi və eyni zamanda bu oğlan doğma idi və Məryəm əlini Mahmudun əlinin üstünə qoydu.

Məryəm dedi:

– Mən Məryəməm...

Elə bil ki, neçə an idi lal olub susmuş, tamam səssizləşmiş kəhrəba sarısı bu düzənlik də pıçıldadı: mən Məryəməm...

Mahmud dedi:

– Mən Mahmudam...

Bu sözlərin də azadlığı, sərbəstliyi dalğa-dalğa bütün ətrafa yayıldı.

Onlar beləcə üzbəüz dayanmışdı.

Onlar bilmirdi ki, nə etsinlər.

Sonra onlar yanaşı addımlamağa başladılar.

Məryəm Mahmudun yanında addımlayırdı, Mahmuda baxmırdı, amma Mahmudun sifəti, Mahmudun baxışları Məryəmin gözlərinin qabağında idi.

Mahmud ovcunda tutduğu bu əlin nəbzini hiss edirdi və hiss edirdi ki, bir vaxt ölümdən qorxub başını anasının döşlərinə sıxanda anasının ürəyi necə vururdusa, Məryəmin də bütün bədəni eləcə vurur.

Məryəmgilin qonşuluğunda anası ilə, iki kiçik qardaşı və kiçik bacısı ilə bir yerdə yaşayan Anuş adında bir qız var idi. Anuş Məryəmdən on beş yaş böyük idi və bu yaraşıqlı, sağlam, işlək qız ərə getməmişdi, elçiləri bir-birinin ardınca geri göndərirdi və hamı da bu işə təəccüb edirdi. Məryəm böyüdükcə hiss etməyə başlamışdı ki, atası səhər tezdən durub kilsəyə gedəndə Anuş öz pəncərələrindən oğrun və ürkək baxışlarla Baba Keşişi yola salır, axşam, ya gecə Baba Keşiş evə qayıdanda, Məryəm qaranlıqda görmürdü, amma bilirdi ki, Anuş yenə pəncərədə onu qarşılayır. Məryəm Anuşun baxışlarında

Üç ildən sonrakı bu gözlənilməz kəşf Məryəmi elə bil dalğa kimi qoynuna aldı, elə bil Məryəmin ayaqları yerdən üzüldü, elə bil Məryəm havada dolandı və Məryəmin alma qırmızısı ilə pörtmüş yanaqları daha artıq alışıb-yandı.

Mahmud bütün bədənində, bütün varlığında elə bir həvəs, elə bir istək hiss edirdi ki, əlində tutduğu bu ıstı əl Mahmudun ürəyini elə üçündürürdü ki, indiyə qədər hisslərin, həyəcanların hamısı tamam bir heç idi, çünki bütün bunlar hamısı təzə idi və əvvəllər bilinməz idi.

Mahmud çox sözlər demək istəyirdi, amma, Allah, insanı dildən nə qədər acız yaratmısan və bu qədər ki, Sən insana hiss-həyəcan vermisən, bunun müqabilində dünyanın sözləri dəryanın yanında damla deyilmi?

Məryəm ilə Mahmud əl-ələ gedə-gedə tez-tez bir-birinə baxırdı və Mahmud dili ilə deyə bilmədiklərini gözləri ilə deyirdi və Məryəm də Mahmudun dili ilə deyə bilmədiklərini gözlərindən oxuyurdu və Məryəmin bütün bədəni alışıb-yanırdı.

Ağ Keçi başını aşağı salıb bir az qabaqda gedirdi və birdən Ağ Keçi dayandı, çönüb altdan-yuxarı Məryəm ilə Mahmuda baxdı, sonra başını yuxarı qaldırıb mələdi və Məryəmə elə gəldi ki, Ağ Keçi, Məryəmin dili ilə göydən sərinlik istədi.

Necə oldu ki, topa-topa boz buludlar bu cür birdən-birə bir yerə toplaşdı?

Göy guruldadı, şimşək çaxdı və həmin yay günü kəhrəba sarısı düzənliyin sakitliyinə, genişliyinə sərin yağış yağmağa başladı.

Məryəm ilə Mahmud, bir də Ağ Keçi yağışın altında tamam islandı.

Məryəmin əynindəki təkcə çit paltarı idi və çit paltar islanıb bədəninə yapışdı və Məryəmin döşləri, döşlərinin dik durmuş gilələri, qarnı, baldırları çit paltarın altından qabardı.

Mahmud əlini Məryəmin islan

VI

Saraya ildırım sürətilə belə bir xəbər yayıldı: Ziyad xanın oğlu Mahmud aşiq olub.

Bu xəbər sarayın cavanlarına gülməli gəldi, sarayın kəniz-qaravaşının bu xəbərə inanmağı gəlmədi, dövrün siyasətindən başları açılmayanlar bu xəbərin fərqinə varmağa macal tapmadı, qazdan ayıq olanlar çox götür-qoy edib, bu xəbəri Ziyad xanın növbəti siyasi fəndi kimi yozdu, ürəklərinin dərinliyində Ziyad xana batmaq ümidindən əl çəkib gələcəyin təskinliyini Mahmudun zəifliyində tapanlar bu xəbərdən narahat oldu, çünki Ziyad xanın nəvələri ola bilərdi, təzə qohumlar arasında Mahmudun güclü qohumları, müdafiəçiləri ola bilərdi, Ziyad xanın taxtına göz dikənlər ola bilərdi, amma saraya belə bir xəbər də yayılanda ki, Mahmud Gəncənin kənarlarında yaşayan hansı bir keşişinsə qızına aşiq olub, hamı bu işə məəttəl qaldı.

Bu xəbər Qəmərbanuya elə həmin gün gəlib çatmışdı.

Qəmərbanu bu xəbərə ürəkdən sevinə bilmirdi, çünki Qəmərbanu öyrənmişdi, elə bil ki, xəbərlərin ən bədi həmişə gizlənib özünü axıra saxlayırdı, əvvəlcə xırda-xırda ümid oyadırdı, sonra birdən-birə adamı yandırıb-yaxırdı.

Keşiş qızı çölün düzündə Mahmudun təmizliyindən, sadəliyindən istifadə etmişdi və Qəmərbanu keşiş qızı ilə əlaqəyə girib bu cür görüşləri özü lap tez-tez təşkil edə bilərdi və yəqin ki, bunun xərci on gümüşdən artıq olmayacaqdı, uzaqbaşı bir sağmal inək göndərərdi onlara, deyirdilər ki, bircə keçidən başqa heç nələri yoxdu; ya da qızı saraya gətirdərdi, öz yanında kəniz saxlayardı və nəyi necə lazım bilirdisə elə də eləyərdi, amma Sofinin gətirdiyi xəbər, fikirləşdikcə Qəmərbanunu daha artıq narahat eləməyə başlayırdı.

Sofi belə bir xəbər gətirmişdi ki, deyəsən Mahmud keşişin qızına evlənmək istəyir.

Bu qız necə ifritədi ki, cavan yaşında belə bir məharət yiyəsidi? O keşiş necə iştaha və cəsarət sahibidi ki, bu cür xam xəyallara qapılır? Əlbəttə, bu qızı da, atasını da itirmək asan iş idi, amma Qəmərbanu burasını tamam dəqiq bilirdi ki, haçansa Mahmudun ürəyi yaralansa, o yara sağalan deyil və buna görə də çox ehtiyatlı olmaq lazım idi.

Çətinlik bunda idi.

Qəmərbanu Sofini çağırıb tapşırdı ki, gedib o keşiş qızına yaxşıca-yaxşıca baxsın və görsün ki, hansı yuvanın quşudu.

Sofi saraydan çıxıb Baba Keşişgilin ucqar məhəlləsinə yollandı və Sofi elə bilirdi ki, yüz nazlı-qəmzəli maral misalı bir qız görəcək, görəcək ki, qaşlar kamandı, gözlər şəvə kimidi, burun hind fındığı, sinə Səmərqənd kağızıdı, amma Sofi həyətdə çömələb keçi sağan qaraşın, arıq, adi bir qız gördü və bu işə sidq-ürəkdən təəccüb etdi...

...Sofi sonralar da bu işə tez-tez təəccüb edirdi, amma nə birinci dəfə, nə də çox-çox sonralar Sofinin ağlına gəlmədi ki, Məryəmə Mahmudun gözləri ilə baxmaq lazımdı...

...Sofidən sonra Qəmərbanu, Qısır Qarını çağırtdırıb keşiş qızı barədə bir xəbər gətirməsini tapşırdı və Qısır Qarı tumanını çəkə-çəkə, burnunu silə-silə Baba Keşişgilin məhəlləsinə qaçdı və səhəri gün Qəmərbanunun yanına yuyürüb bütün ömrü boyu hamını pislədiyi üçün, hamını şeytanladığı üçün zorla dilinə gətirdiyi yaxşı sözlər dedi:

– Oxuduğum Quran haqqı, qıldığım namaz haqqı, məhəttəl qalmalı işdi... Keşişin o sısqa qızı Zəhra[1] kimi ürəyiyumşaqdı... – Sonra xaçpərəst bir qızı Qəmərbanunun yanında Zəhraya bənzətdiyi üçün: – Əstəğfürullah... – dedi.

Hərgah Qısır Qarı kimi bir imansız belə sözlər deyirdisə, Qəmərbanu Sofini nahaq danlamışdı.

Qəmərbanu çox fikirləşdi və nəhayət Mirzə Salmandan xahiş etdi ki, gedib keşişgilə yaxın olan savadlı xaçpərəstlərdən keşişin qızı barədə bir məlumat gətirsin. Bir müddətdən sonra Mirzə Salman geri qayıtdı və uzun saqqalının nazik ucunu sol əlinin şəhadət barmağına dolaya-dolaya:

– Bilqeys[2] kimi ağıllı bir qızdı, – dedi.

Qəmərbanu dizi üstə oturduğu döşəkçədən qalxıb həmişəki kimi qarşısında ayaq üstə müntəzir dayanmış Mirzə Salmana baxdı və əvvəlcə elə bil nə soruşacağını, nə soruşmayacağını bilmədi, sonra solğun bir səslə:

– Mirzə... – dedi. – Mirzə, məsləhətin nədi?..

[1] Zəhra – əsl adı Fatimədir. Məhəmməd peyğəmbərin qızı və imam Əlinin arvadı idi. Rəvayətə görə çox mərhəmətli və ürəyiaçıq olub.

[2] Bilqeys – əfsanəyə görə Süleyman peyğəmbərin arvadı olub və ağlı ilə hamını heyran edib.

Görəsən, o uzaq gənclik çağlarında heç Qəmərbanunun ağlına gəlmişdimi ki, indi qarşısında beləcə müntəzir dayanmış bu qoca Mirzə Salman ayların, illərin qurtar

Quran ayəsi kimi təmiz, bakir Mahmudun keçi saxlayan keşiş qızı ilə izdivac tapmağını da qəbul et.

– Görmüsən toyuq gedəndə cücələri necə dalına düşür?

– Hə, hə... Mənim balaca uşağım olacaq... O uşaq mənim döşümdən süd içəcək... əməcək, hə?

– Hə... Sən ona süd verəcəksən... O süd əmib doyacaq. Sonra sənə baxıb güləcək...

– Hə, hə... Mənə baxıb güləcək... Acanda dodaqlarını büzəcək...

Məryəm Mahmudun əlini sıxdı.

Bu yeddi gün təkcə ötən illərin qayğısını, tənhalığını, sükunətini və indi məlum olmuş mənasızlığını yuyub aparmışdı, bu yeddi gün ötən illərdəki sevincləri də, doğma hiss-həyəcanları da yuyub aparmışdı, çünki bu yeddi gün Mahmudun da, Məryəmin də bütün içini doldurmuş təzə hisslər, təzə sevinclər idi. Nə Mahmud, nə də Məryəm ağlına gətirə bilməzdi ki, dünyada belə bir yeddi gün mövcuddu, amma indi bunu əvvəllər ağıllarına gətirə bilməyəcəklərini belə yadlarından çıxarmışdılar; bütün dünyada bir Mahmud var idi və bir də Məryəm var idi və dünya da çox geniş idi, azad idi, sərbəst idi.

Birinci gün, yayın cırhacırında bu düzənliyə yağmış o yaz yağışı altında Məryəmin ürəyindən keçmiş qorxu da indi tamam yaddan çıxıb getmişdi və Məryəm unutmuşdu ki, Mahmud xaç çevirmir.

O cavan xanəndə bu yeddi gündə Mahmudun yadına düşən birinci adam idi.

Necə olmuşdu ki, bir vaxtlar Mahmudun ürəyi qısılırdı, darıxırdı və Mahmuda elə gəlirdi ki, bu boyda dünya, bu qədər geniş, azad, sərbəst dünya qəfəsdi?

Mahmud əllərini Məryəmin qolları ilə yuxarı qaldırdı, çiyinlərindən, boynundan sürüşdürdü, yumru döşlərinin üstündə saxladı, sonra hər iki əlini Məryəmin çit paltarının yaxasından qoynuna saldı. Məryəmin çit paltarı daralıb çiyinlərindən çıxdı və sinəsi ilə, beli ilə aşağı sürüşdü, Məryəmin döşləri bayıra çıxdı və düz Mahmudun gözlərinin içinə baxdı; elə bil Məryəmin təzəliyi və istiliyi duyum-duyum duyulan bədəni də dünyanın bu genişliyinin, sərbəstliyinin həsrətində idi və indi azadlığa çıxdı.

Məryəm bütün köksü ilə Mahmudun əllərinə sığındı.

Anlaya bilmədiyi, başa düşmədiyi bir hisslə Mahmudun bütün bədəni uçunurdu.

Bu vaxt Məryəmə elə gəldi ki, bir az aralıda, saman sarısı saralmış kol-kosun arasında nəsə tərpəndi və Məryəm bir quş hürküsü ilə dikəlib diqqətlə o tərəfə baxdı və Mahmud da

Əlbəttə, nə Mahmudun, nə də Məryəmin ağlına gələ bilməzdi ki, bu sakit, geniş, bu təmiz, azad və sərbəst düzənlikdə yeddi gündü ki, həmişə Qəmərbanunun muzdla saxladığı xəbərçilərinin gözləri qabağında olublar; birinci gün qəfil yağan o yağış altında da xəbərçilər yerə yatıb uzaqdan-uzağa ləzzətlə onlara tamaşa edirdi və Anasının Əmcəyini Kəsən İbrahimin də Məryəmin islanmış bədəninə baxa-baxa dabaq dəymiş öküz kimi, ağzının suyu axırdı; yeddi gün idi ki, Qəmərbanunun bu xəbərçiləri eyni zamanda bu çöllü-biyabanda Mahmud ilə Məryəmin keşiyini çəkirdi və meymun yerinə adam oynadan Gəncə lotuları, yolkəsənlər, adamsoyanlar Anasının Əmcəyini Kəsən İbrahimin qorxusundan bu tərəflərin həndəvərinə yaxın durmurdu.

Mahmuda yalnız indi məlum oldu ki, bütün bu azadlıq və sərbəstlik, bu sakitlik mühafizə olunan azadlıq, sərbəstlik və sakitlik idi.

Mahmud çönüb Məryəmə baxdı.

Dizləri üstə düşüb qalmış Məryəm bu düzənliyin sonsuzluğu müqabilində çox kiçik, kimsəsiz və köməksiz idi.

Məryəm gözlərini qaldırıb Mahmuda tərəf baxdı və bir də indi – yeddi gündən sonra yadına düşdü ki, Mahmud kilsəyə getmir və bu yeddi gündə Məryəm özü də bir dəfə də olsun kilsəyə getməyib.

Məryəm bu yeddi gündə birinci dəfə iztirab hiss etdi...

...Baba Keşiş də belə bir iztirab içində idi.

Düz yeddi gün idi ki, Baba Keşiş açıq-aşkar görürdü: nəsə baş verib və Məryəm əvvəlki Məryəm deyil və düz yeddi gün idi ki, Baba Keşişin onsuz da dünyanın işlərindən nigaran ürəyində təzə bir nigarançılıq əmələ gəlmişdi.

Düzdü, Baba Keşiş Allahın qarşısında həmişə təmiz olmuşdu və ömrünün bir anını belə Allahsız yaşamamışdı və buna görə də bilirdi: Müqəddəs Evin qapısı onun üzünə açıq olacaqdı və axır məqamda Müqəddəs Qoca da onu köməksiz qoymayacaqdı, amma nə üçün elə olmalıydı ki, iş gəlib axır məqama çataydı?

Baba Keşiş bütün ömrü boyu nigarançılıq içində yaşamışdı, çünki bütün ömrü boyu dinsizlərin əhatəsində olmuşdu, bütün ömrü boyu alçaq hisslərin, umsuq əməllərin, qara qəlblərin şahidi olmuşdu; kilsədə öz həmdinlərinin də etirafını qəbul edərkən bəzən Baba Keşiş dəhşətə gəlmişdi ki, insan nəfsi dünyanın necə ağlasığmaz cinayətlərinə qadirdir, qızıl hərisliyi, şəhvət düşkünlüyü, məğrurluq azarı İsa övladının özünü də necə dərin girdablarda batırır.

Baba Keşiş bütün ömrü boyu ədalətsizliyi görmüşdü, zülmü, rəzaləti, pozğunluğu görmüşdü və həmişə də içindən gələn bir qətiyyətlə inanmışdı ki, bütün bunlara dözmək lazımdı. Vəhşi ərəblər Əyyubun mal-qarasını oğurlamadımı, ildırım çaxıb sürülərini qırmadımı, həramilər dəvələrini oğurlayıb sarbanlarını qılıncdan keçirmədimi, bunlar az idimi, tufan qopub evini uçurdu, yeddi oğlu, üç qızı öldü, bədəni qurd saldı?[1] Bəs Əyyub nə etdi? Əyyub dözdü, dözdü.

İnsanların qəlbini basmış, hər tərəfi bürümüş bu qaranlıq içində Baba Keşişi yaşadan, Baba Keşişə güc verən, qüvvə verən yeganə işıq Allah və onun elmi idi, bir də ki... Məryəm idi.

O doğma, o mehriban pıçıltı da həmişə Baba Keşişlə idi.

Hərdən Baba Keşiş qızı ilə bağlı hisslərindən qorxurdu, çünki adi bəndə olan Məryəmi də Allah qədər istəmək günah idi, amma Məryəmin təmizliyi, Məryəmin sadəliyi bu günahı yuyurdu.

Məryəmə nə olmuşdu?

Məryəm ömründə atasından heç nə gizlətməmişdi və ümumiyyətlə, Məryəmin şəffaf ömründə nə ola bilərdi ki, onu atasından gizlətsin, amma indi Baba Keşiş hiss edirdi: Məryəmlə bağlı nəsə elə bir şey var ki, Baba Keşişin bundan xəbəri yoxdu.

İki dəfə belə olmuşdu, bu üçüncü dəfə idi.

Birinci dəfə Məryəm yekə qız olanda – günlərin bir günündə gecə yuxudan oyanıb üst-başını qanın içində görəndə və bir həftə qorxudan əsim-əsim əsəndə belə olmuşdu, ikinci dəfə axırıncı yaz belə olmuşdu və Baba Keşiş bunun da səbəbini başa düşmüşdü, başa düşmüşdü ki, təbiət öz işini görür və Məryəm də bu yaz torpaqla birlikdə oyanmağa başlayır.

İndi üçüncü dəfə idi və Baba Keşiş hiss edirdi ki, nə isə daha əsaslı, daha ciddi bir hadisə baş verib.

Düz yeddi gün idi ki, Baba Keşişin xəbəri yox idi, xəbəri yox idi ki, Məryəmə nə olub və bu nigarançılıq Baba Keşişi sıxırdı, çünki Baba Keşiş bu nigarançılıqda bir bədlik, bir bədbəxtlik duyurdu.

Baba Keşiş Məryəmdən heç nə soruşmurdu, çünki deməli bir söz var idisə, bunu Məryəm özü deməli idi və Baba Keşiş Məryəmi heç nəyə məcbur etməməli idi.

[1] İncil"də nağıl olunur ki, Allah Əyyub peyğəmbərin dözümlülüyünü yoxlamaq üçün bütün bu hadisələri onun başına gətirir, amma Əyyub hər şeyə dözür və Allahın ona yazığı gəlir, onu əvvəlki vəziyyətinə qaytarır.

Amma bu axşam kilsədən qayıdıb evlərində kiçik taxta mizin arxasında oturanda və bir kasa qatıq ilə bir dənə təndir çörəyini gətirib onun qabağına qoyan Məryəmin sifətinə baxanda özünü saxlaya bilmədi və soruşdu:

– Sənə nə olub?

Məryəm atasına baxdı. Baba Keşişin sifətindəki hər bir qırış Məryəmə tanış və doğma idi; başqaları Baba Keşişin qalın çatma qaşlarının altından baxan gözlərindəki sərt ifadədən zəhmə gəlirdi, amma Məryəm üçün bu sərt baxışlar doğma və mehriban idi: bir də yəqin Anuş üçün bu sərt baxışlar beləcə doğma və mehriban idi.

Sonra yenə Mahmud Məryəmin gözlərinin qabağına gəldi və Məryəm bu gün günorta o saman sarısı düzənlikdə – onların düzənliyində kolların dibindən durub qaçan yad adamları yadından çıxartdı və yenə dünyanın ən bəxtəvəri oldu. Baba Keşiş Məryəmdən bu bəxtəvərliyin səbəbini soruşurdu və Məryəm gülümsədi:

– Sən Mahmudu tanımırsan... – dedi.

Hər şey aydın oldu.

Məryəm – onun bu təmiz, bu saf Məryəmi, müqəddəs Məryəm ananı və İsanı yuxularda görən Məryəm, müqəddəs Məryəm ananın ağrılarını öz qarnında hiss edən Məryəm, Məhəmməd hümmətinə könül bağlamışdı.

Baba Keşiş uzun-uzun illər boyu müxtəlif insanların etiraflarını dinləyə-dinləyə insanları tanımağı, ürəklərindəkiləri duymağı öyrənmişdi və Baba Keşiş ürəyinin bir parçası olan Məryəmin gülümsəyən və indi burada yox, haradasa başqa yerdəki gözlərindən oxudu ki,

Təmiz Məryəm... Gör necə sadə danışırdı, bu sözləri neçə adi sözlər kimi deyirdi və bu sözlərin arxasındakı uçurumdan xəbəri yox idi. Xəbərsiz Məryəm...

Deməli, beləydi işlər, xanın oğlu bu boyda Gəncədə tamahını Məryəmə salmışdı... Minlərlə təmiz xaçpərəst qızların dinsiz və əxlaqsız sultanların, şahların, xanların saraylarında pozulmuş şəhvətlərə qulluq etməyi bəs deyildimi? Dinsiz qaçaq-quldurlar öz arvadlarını, qızlarını çadra altında saxlayıb azmı təmiz xaçpərəst qızları bədbəxt etmişdn? Bu dinsiz quldurlar təmiz xaçpərəst qızları hətta kilsədə, Allahın evində belə tutub növbə ilə zorlayırdı və bütün bunlar bəs deyildimi?

Baba Keşiş Məryəmin bəxtəvər sifətindən açıq-aşkar görürdü ki, bu dəfə söhbət zor söhbəti deyil, amma bunun fərqi yox idi, xaçpərəstlərin donuzotaranı bu müsəlman dinsizlərin xan oğlundan min dəfə artıq idi və Baba Keşişin belindən gəlmiş bir qız dinsiz bir oğlanı oxşasaydı, bütün dünya od tutub yanardı. Hərgah Baba Keşiş də müqəddəs dinə xəyanət etsəydi, onda daha nə qalardı dünyada və insan necə yaşaya bilərdi? Hərgah Məryəm kimi bir təmizlik dinini yaddan çıxarıb özünü bir dinsizin qucağına atsaydı, onda deməli... onda deməli hər şey yalan idi.

Baba Keşiş beynindən keçən bu fikirdən diksindi; Məhəmməd hümməti dinsizlərə qarşı Baba Keşişin ürəyində o qədər kin-küdurət, o qədər dərin bir nifrət var idi ki, ağlına hər cür fikir gəlirdi. Məryəmin dünyadan xəbəri yox idi, Məryəm təmiz idi, uşaq idi və Məryəmi bu tamahkar dünyada, bu nəfskar dünyada qorumaq lazım

...Həmin axşam Qəmərbanu da xəbər göndərmədən birbaş Ziyad xanın otağına girdi.

Bardaş qurub Ziyad xanın qarşısında oturmuş və nəyi isə müzakirə edən Bayandur bəy və başqa saray əyanları ayağa qalxdılar və Qəmərbanuya baş əyib otaqdan çıxdılar; birinci dəfə idi ki, Qəmərbanu Ziyad xanın çağırdığı məşvərəti pozurdu.

Ziyad xan qaşını dartıb zənlə Qəmərbanuya baxdı; Ziyad xan başa düşürdü ki, nəsə fövqəladə bir hadisə baş verməsəydi Qəmərbanu beləcə buraya gəlməzdi.

– Sənin Mahmuddan xəbərin varmı?

Son illərdə birinci dəfə idi ki, Qəmərbanu ərinə belə bir sual verirdi; Qəmərbanu öz dərdini özü çəkirdi, öz əlacını özü axtarırdı; getgedə, illər keçdikcə Qəmərbanu ilə Ziyad xan arasında Mahmudla bağlı bir sədd əmələ gəlmişdi, amma indi daha bu səddi dağıtmaq lazım idi və Mahmudu müştərək xilas etmək lazım idi.

Ziyad xanın xırda tum gözləri gülümsədi:

– Keşiş qızına aşiq olub?

Ziyad xan yenə başa düşmür ki, oğlunun başını hansı qara buludlar alıb? Yoxsa yenə də bu söhbətlərdən qaçmaq istəyir, bəs görmür ki, bıçaq sümüyə dirənib daha?

Ziyad xan yenə gülümsədi:

– Mən də onun yaşında sənə aşiq idim...

– Mən Müzəffər ağanın qızıyam, Ziyad, keşiş qızı deyiləm! Mahmud da sən deyilsən!..

Ziyad xanın nazik və qansız dodaqlarındakı gülüş silinib yox oldu və elə bil ki, Ziyad xan bircə anın içində qocaldı, beli büküldü:

– Hə, – dedi. – Mahmud Ziyad xan deyil...

Bu sözlərdə qürurdan əsər-əlamət yox idi; bu sözlərdə bir təəssüf, bir ağrı var idi və Qəmərbanu fikirləşdi ki, Ziyad xan Mahmudla bağlı söhbətlərdən qaçanda, əslində yarasının qaysağını qoparmaq istəmirmiş.

Qəmərbanu Ziyad xanın bir anın içində dəyişən görkəmindən və ağlına gələn bu fikirdən elə təsirləndi ki, daha özünü saxlaya bilmədi, bütün iradəsi, gücü birdən-birə tamam yox oldu, illərdən bəri əldə etdiyi dözüm çıxıb getdi işinin dalınca və Qəmərbanu yavaş-yavaş

– Bu gün... – dedi. – Bu gün... düzdə... mənim adamlarımı görüb... Gəldi otağıma... mənə elə baxdı ki... elə baxdı mənə ki... özümü asmaq istədim, Ziyad!.. Özümü asmaq istəyirdim... Ona görə asmadım... Ziyad... yenə ona görə...

Ziyad xan barmaqları ilə Qəmərbanunun ipək yaylığın altından sökülüb çıxmış saçlarını oxşadı və Ziyad xan heç bilməzdi ki, Qəmərbanunun saçları beləcə ağarıb. Ziyad xan Qurandan əzbər dedi.

– "Ruhu olan hər bir məxluq ancaq Allahın iradəsi ilə və ömrünün müəyyən edildiyi kitaba uyğun olaraq ölməlidir".

– Yox... ona görə asmadım...

– Sakit ol...

– Sakitlik tapa bilmirəm, Ziyad... Qorxuram...

– Sakit ol... Qızı saraya gətirdəcəyəm... Sonrası düzələr.

– Mahmud buna razı olmaz... Keşişi də yaman deyirlər, Ziyad...

– Bilirəm. Amma dərya olan yerdə qətrə nə qələt elər? Keşiş mənim qabağımda nə deyəcək?

– Bəs Mahmud? Mahmud keşiş qızına evlənmək istəyir, Ziyad...

Ziyad xan bir müddət dinmədi.

Gecə düşmüşdü.

Qəmərbanu alnını yerdən qaldırıb yaş gözləri ilə Ziyad xana baxdı. Ziyad xan dedi:

– Get yat... Gecənin xeyrindənsə, səhərin şəri yaxşıdı. İnşallah, səhər hər şey qaydasına düşər...

...Nə Ziyad xan, nə də Qəmərbanu bilmirdi ki, əksinə, hələ hər şey sabahdan başlayacaq.

...Həmin gecə Baba Keşiş axırıncı məsləhəti Məryəmin anasından istədi.

Bütün bu illər ərzində hər şey dəyişmişdi, Məryəm böyük qız olmuşdu, Baba Keşişin saçına, saqqalına çoxdan dən düşmüşdü və bu gecə o saçlar daha da ağarmışdı, təkcə Məryəmin anası həmişəki kimi cavan qalmışdı. Məryəmin anası indi az qala Məryəm kimi idi, təkcə gözləri cavan gözləri deyildi.

O doğma və mehriban səs pıçıldadı:

– Yox... – dedi. – Təmiz qalan bircə dinimizdi... – dedi. – Mənim

Baba Keşiş boğçasını yığıb Məryəmi durğuzmağa gedəndə Məryəmin dodağında yüngül bir təbəssüm var idi və Məryəm dodağındakı bu təbəssümlə yatmışdı. Baba Keşiş başa düşdü ki, Məryəm nəsə yaxşı yuxu görür, dayanıb gözlədi ki, Məryəm yuxusunu görüb qurtarsın, bu təbəssüm Məryəmin dodaqlarından çəkilib getsin, amma həmin təbəssüm Məryəmin dodaqlarından ötüb getmirdi, gecə isə gözləmirdi və Baba Keşiş quru barmaqları ilə əvvəlcə Məryəmin xurmayı saçlarını sığalladı, sonra Məryəmi yuxudan durğuzdu.

VII

– Sofi!

Sofi öz adını bir də eşitdi, amma bilmədi ki, onu yuxuda çağırırlar, ya doğrudan çağırırlar, sonra adını bir də eşitdi, sonra hövlnak yerindən qalxdı və əvvəlcə elə bildn ki, onu yenə nə üçünsə Qəmərbanunun adamları yuxudan durğuzur, amma qapını heç kim döymürdü və bu vaxt Sofi hələ səhərin gözü əməlli-başlı açılmamış onu çağıran səsi tanıdı.

Sofini çağıran Mahmud idi.

Sofinin qırx altı yaşı var idi və bu qırx altı illik ömrün otuz üç ilini Sofi sidq-ürəklə Qəmərbanuya xidmətdə keçirmişdi, əvvəlcə Qəmərbanunun atası Müzəffər ağanın iqamətgahında nökər olmuşdu, sonra Qəmərbanunun nökərləri, kənizləri ilə birlikdə Ziyad xanın sarayına gəlmişdi və düz on yeddi il idi ki, Mahmuda dayəlik edirdi.

Sarayda Mahmudun otağı ilə Sofinin otağı qonşu idi.

Artıq neçə vaxt idi ki, Mahmud, Sofini səsləməzdi.

– Sofi!

Sofi tələsik yerindən qalxıb qapını açdı və Mahmudun otaqına tərəf qaçdı.

Mahmud ağ kecə köynəyi əynində yataq taxtında çömelmə oturmuşdu və bu dəm Mahmudun sifəti də əynindəki gecə köynəyi kimi ağappaq idi; Sofi başa düşdü ki, nə isə olub.

Axır vaxtlar hərdən Sofiyə elə gəlirdi ki, Mahmudun sifəti yədibəyza[1] kimi işıq saçır, amma bu dəfə Mahmudun bütün sifətində, iri göy gözlərində bir qorxu var idi.

[1] Yədi-bəyza – hərfi mənası ağ əl deməkdir; rəvayətə görə Musa peyğəmbər əlini qoltuğuna salıb çıxaranda əlindən nur çıxırmış, ziyalanırmış.

Mahmud elə bil ki, bu qorxudan daha da iriləşmiş gözlərini Sofiyə zillədi:

– Qarışıq yuxu gördüm, Sofi!..

Sofinin ürəyi sakit oldu.

Sofi həmişə belə deyirdi və özü də belə fikirləşirdi ki, dünyada onun Mahmuddan başqa heç kimi yoxdu; Sofi indiyə qədər evlənməmişdi, çünki Sofinin özü barədə fikirləşməyə vaxtı olmamışdı və hərdən baş qaldıran kişi ehtirasını fürsət tapanda sarayın qulluqçularıyla, kəniz-qaravaşıyla, xüsusən də yayda yaylağa köçəndə dul kəndli arvadlarıyla söndürmüşdü, amma evlənməmişdi; düzdü, əvvəllər Qəmərbanu bir-iki dəfə Sofini evləndirmək barədə işarələr vurmuşdu və Sofi bilirdi ki, Qəmərbanu onu çox istəyir, Sofi də Qəmərbanu üçün bir növ uşaqlıq çağlarından qalan, atasından, anasından qalan yadigardır və halal süd əmmişin birini tapıb Sofini evləndirərdi, amma Sofi burasını da hiss etmişdi ki, əslində, lap əsl həqiqətdə Sofinin evlənməyi bir o qədər də Qəmərbanunun ürəyindən deyil, çünki Qəmərbanu istəmirdi ki, Sofinin Mahmuddan başqa bir qayğısı da olsun və doğrudan da belə idi: Sofinin Mahmuddan başqa, bir də ki, Qəmərbanunun iztirablarından başqa heç bir qayğısı yox idi.

Mahmud gözünü Sofidən çəkmirdi.

– Qarışıq yuxu idi...

Sofi qayıdaraq yerinə girib səhər yuxusunu doyunca almaq istəyirdi və buna görə də bu yuxu məsələsini uzatmaq istəmədi:

– İnşallah, xeyir olar...

Camaat min cürə əfsanə danışırdı, dünyanın sirli işlərindən danışırdı, hətta bir dəfə Qəmərbanu kimi ağıllı bir arvad qotur bir tülkünü yanında gəzdirən İsfahan lotusunu üç gün, üç gecə sarayda saxlayıb yedizdirib-içizdirmişdi ki, uşaqsızlıq dərdinə əlac eləyəcək; Sofi belə söhbətlərin və belə işlərin heç birinə inanmırdı, cadugər dərvişlərin, sehrbaz seyidlərin, gümüşdən qızıl düzəldən kimyagərlərin hamısına lotu kimi baxırdı və o cümlədən, yuxu yozanlara da inanmırdı; Sofi torpaq adamı idi və hər şeyi olduğu kimi görürdü.

– Yox, Sofi, yox!.. Yuxuda bir xaraba bağ gördüm...

Mahmud gözlərini Sofinin başı üstündən naməlum bir nöqtəyə zillədi və bütün diqqətini toplayıb yuxuda gördüklərini yadına salmağa çalışdı: – Sonra bir tufan qopdu... Sonra deyəsən... deyəsən Məryəmi gördüm, Sofi...

Mahmud bu sözləri elə ciddi deyirdi, elə bir ağrı və həyəcanla deyirdi ki, az qaldı Sofini də vahimə bassın və Sofi Mahmudla bərabər özünə də toxtaqlıq verdi:

– Adam hər gecə min yuxu görür, bəyəm bunun hamısı düz olar?

Birdən Mahmud yataq taxtının üstündə dik ayağa qalxdı və elə bil ki, yuxuda gördüklərini açıq-aşkar təzədən gördü:

– Məryəm idi, Sofi!.. Tufana düşən Məryəm idi!.. – Mahmud yerə atıldı və bir göz qırpımında otaqdan çıxıb eşiyə qaçdı.

Bu elə gözlənilməz oldu ki, Sofi özünü tamam itirdi, əvvəlcə haray salıb Qəmərbanunu durğuzmaq istədi, amma buna vaxt qalmadı və Mahmudun ardınca qaçdı.

Mahmud saraydan çıxıb bağça ilə saray darvazasına tərəf götürüldü.

Saray keşikçiləri Ziyad xanın oğlunun qəribəliklərinə öyrənmişdilər, amma bu dəfə hələ səhər tamam açılmamış Mahmudun başıaçıq, ayaqları yalın, ağ gecə köynəyində saray darvazasına tərəf qaçdığını görəndə bu işə lap mat qaldılar və bilmədilər ki, nə eləsinlər.

Mahmud darvazaya çatıb var gücü ilə qışqırdı:

– Açın!.. Açın!..

Keşikçilər indiyə qədər Ziyad xanın oğlunun bu cür sərt səsini eşitməmişdilər və hətta keşikçilərə elə gəldi ki, qışqıran Ziyad xanın özüdü – Mahmudun səsində bu qədər hökm vardı; keşikçilər tələsik darvazanın qapısını açdılar, Mahmud qapıdan sıçradı və baş alıb getdi.

Sofi də güclə nəfəs ala-ala Mahmudun ardınca qaçırdı.

Gəncə hələ yuxudan oyanmamışdı.

Bir azdan adamlarla dolacaq küçələr bomboş idi. Səhərə yaxın narınca çiskinləmişdi və küçələrin tozu yatmış, təmizlənmişdi. Sübh tezdən ayağa qalxmış çəkməçilər, səbzəçilər, qəssablar, dəmirçilər, kababçılar əllərinə naz süpürgə alıb dükanlarının qabağını süpürürdü, yerə su çiləyirdi və əyinlərində uzun gecə köynəyi olan iki nəfərin bir-birinin ardınca küçə ilə qaçdıqlarını görəndə əllərini saxlayıb qaçanlara baxırdılar, qaçanlar gözdən itəndən sonra, yenə başlarını aşağı salıb öz işləri ilə məşğul olurdular.

Gəncə camaatı bu dünyada çox şey görmüşdü və onları təəccübləndirmək çətin idi.

Sofinin az qalırdı ciyəri ağzından çıxsın, amma Sofi dayanıb nəfəsini dərə bilmirdi, çünki Mahmud nə Sofinin yalvarışlarına fikir

verirdi, nə də, heç olmasa, bir dəfə ayağını saxlayıb arxaya baxırdı. Mahmud elə bil dəli olmuşdu və Sofi nəfəsi tıncıxa-tıncıxa qaça-qaça ürəyində Qəmərbanuya "yazıq" dedi.

O kəhrəba sarısı düzənlikdə gəzəndə Məryəm əlini uzadıb Gəncənin kənarındakı balaca ağ evlərini Mahmuda göstərmişdi.

Onlar Gəncənin lap kənarlarına gəlib çıxdılar və bu vaxt Sofinin burnuna kabab iyi gəldi.

Qabaqdakı balaca evlərin birinin həyətində ocaq tüstüsü qalxırdı.

Mahmud bu balaca ağ evi gördü, həyətdən qalxan tüstünü gördü və addımlarını yavaşıtdı, sonra dayandı.

Sofi qaranəfəs gəlib Mahmudun yanına çatdı və əlini gecə köynəyinin yaxasından içəri salıb, az qala, sinəsini yarıb çıxacaq ürəyini ovxaladı, sonra güclə:

– Allah... Allah... sənə insaf versin... – dedi.

Mahmud heç nə demədi.

Sofi, Mahmudun gözlərinə baxdı, sonra Mahmudun baxdığı balaca ağ binaya tərəf baxdı, evin həyətindən qalxan ocaq tüstüsünə baxdı və təəccüb etdi ki, sübh tezdən bu nə kabab dəsgahıdı belə?

Mahmud yavaş-yavaş həmin balaca ağ binanın həyətinə yaxınlaşdı.

Bura doğrudan da Baba Keşişgilin evi idi.

Mahmud qaratikan kolları ilə çəpərə alınmış həyətin kiçik qapısını ehmallıca itələdi və həyətə girdi.

Sofi də Mahmudun ardınca həyətə girdi.

Dörd nəfər kişi bardaş qurub bu balaca həyətin ortasında oturmuşdu və qabaqlarına saldıqları çirkli bir əskinin üstündə bir qalaq kabab var idi. Yanlarında ocaq yanırdı və ocağın közünü bir qırağa qalayıb üstünə çubuq şişlər düzmüşdülər və şişlərdəki iri ət parçaları qızardıqca közün tüstüsü havaya qalxırdı.

Ağızları, əlləri yağa, qurumuş qana, kabab şirəsinə bulaşmış bu adamlar o qədər cındır geyinmişdilər ki, cındırlarından cin ürkərdi; gözlərini bərəldib birdən-birə peyda olmuş bu gecə köynəkli iki nəfərə baxdılar.

Həyətdə oturanların içərisində ən iricüssəlisi, əynində kobud kətandan cındır köynək, başında it quyruğu kimi bir şey olan, sağ qulağından iri dəmir halqa asılmış, bütün sifəti çopur-çopur, gözünün biri kərtənkələ yumurtası kimi ağappaq ağaran, ayağı yalın kişi diqqətlə Mahmuda baxdı və dedi:

– Şahi-Nəcəfin[1] qəbirinə and olsun ki, Ziyad xanın oğludu!

O biri kişilər elə bil ki, bu xəbərə inanmayıb maraqla Mahmuda baxdılar.

Sofi də bu iricüssəli təkgöz kişini tanıdı. Gəncənin ən məşhur dilənçisi Daməngir İsraili[2] bütün bu tərəflərdə tanımayan yox idi.

Daməngir İsrail dizləri üstə qalxdı və:

– Gəlin!.. – dedi, – Gəlin siz də yeyin!.. Həzrət Abbas belimdən vursun ki, ömrümdə belə dadlı kabab yeməmişəm!..

Mahmud hiss edirdi ki, bu həyətdən qalxan kabab tüstüsü başını gicəlləndirir və bu həyətdə bu kabab tüstüsündən, bu dilənçilərdən başqa da nəsə var və bu vaxt Mahmud həyətin bir küncünə atılmış Ağ Keçinin başını gördü.

Ağ Keçinin başı dik dayanmışdı. Ağ Keçinin boynunun qanı laxtalanmışdı, gözləri açıq idi və bu açıq ölü gözlər dünyada hər şeyə biganə idi.

Həyətdə oturan dilənçilərin arasındakı keçəl kişi Mahmudun gözləri zillənmiş keçi başına baxdı və tox bir səslə bərkdən dedi:

Nənəm o xallı keçi,
Məməsi ballı keçi,
Uca qaya başında
Tutubdu yallı keçi!..

Ocağın başında oturanların dördü də bu sözlərə ürəkdən güldü və Daməngir İsrail yekə əlini bu sözləri deyən dilənçinin keçəl başına sürtdü:

– Bu siz deyən keçəllərdən deyil! – dedi. – Buna Noxudu Keçəl deyərlər. Noxudu keçəl, hər şeyi bilər! Ayran içər, pişiyi minər!

Yenə bərkdən güldülər və bu dəfə Daməngir İsrail ayağa qalxıb Ağ Keçinin başına tərəf getdi və gedə-gedə də ləzzətlə Mahmuda dedi:

– Bunun dilini çıxardıb sənin kimi əziz qonaq üçün kabab eləyəcəyəm!.. Dil kababı başqa aləmdi!.. Oturun... Oturun...

Daməngir İsrail buynuzundan tutub Ağ Keçinin başını qaldırdı.

[1] Şahi-Nəcəf – İmam Əlinin ləqəblərindən biridir. Nəcəf şəhərində dəfn olun-

Mahmudun gözlərində heyvani bir ağrı, dəhşət əmələ gəlmişdi və Mahmud, Daməngir İsrailin əlində tutduğu Ağ Keçinin başına baxırdı.

Daməngir İsrail hər iki əlinin iri və ətli barmaqlarını zorla Ağ Keçinin ağzına saldı və keçinin ənglərinə güc verib qanırmağa başladı.

Ağ Keçinin ağzı yavaş-yavaş açılırdı və nazik dili Daməngir İsrailin güclü və ətli barmaqları arasından görünməyə başlayırdı.

Birdən Mahmudun sinəsindən bir fəryad qopdu və qırx altı illik ömrü boyu az fəryadlar eşitməmiş Sofinin belə, tükləri biz-biz oldu; bu fəryad hətta Daməngir İsrailə də təsir etdi və onu mat qoydu.

– Sofi!.. Sofi!..

Mahmud başqa bir söz tapa bilmirdi və Mahmudun tərləyib bədəninə yapışmış ağ köynəyi yavaş-yavaş qızarmağa başladı və Sofi dəhşət içində başa düşdü ki, Mahmud qan tərləyir, bədənindən su əvəzinə qan çıxır.

– Sofi!.. Sofi!..

Mahmud başqa söz tapa bilmirdi, amma bütün ürəyinin ağrısını bu bir sözlə deyirdi.

Daməngir İsrailin keçi başının ağzını qanıran əlləri quruyub qalmışdı və Daməngir İsrail də, o biri dilənçi dostları da heyrətlə Mahmuda baxırdı və tükürpədici fəryadın səbəbindən baş çıxara bilmirdi.

– Sofi!.. Sofi!..

Mahmud yerindən götürülüb kabab tüstüsü ilə nəfəs alan bu həyətdən bayıra sıçradı və var gücü ilə qaça-qaça bu tüstüdən, kabab iyindən uzaqlaşdı.

Sofi yenə Mahmudun ardınca qaçdı.

Kabab iyi geridə qalmırdı, qurtarmırdı, elə bil, Mahmudun qıpqırmızı qızarıb bədəninə yapışmış gecə köynəyinin içinə dolmuşdu, bədəninə hopmuşdu.

Bu kiçik, səssiz, xudmani həyətdə yenə tək qalmış Daməngir İsrail və dostları bir-birinin üzünə baxdı. Daməngir İsrail birinci özünə gəldi və oturub yaxşıca kef elədikləri yerdə birdən-birə peyda olub şəbih çıxaran Mahmudun qarasına söyüş söydü:

– Axmaq oğlu axmaq!..

Doğrudan da, kəsilmiş keçi başından qorxan və dünyanın ən ləzzətli toamı olan ke

Sonra Daməngir İsrail Ağ Keçinin ağzını tamam qanırıb dilini özü yemək istədi və bu vaxt bütün Gəncə camaatının heyrətinə səbəb olan bir hadisə baş verdi: Daməngir İsrailin əlləri sözünə baxmadı.

Daməngir İsrailin hər iki əli dirsəkdən aşağı qurumuşdu.

Ocağın başında oturan dilənçi dostları qalxıb Ağ Keçinin başını Daməngir İsrailin qupquru quruyub tərpənməyən barmaqları arasından güclə çəkib çıxartdılar.

Dilənçilərin, ac-yalavacların, evsiz-eşiksizlərin gözünün odunu almış Daməngir İsrail həmin səhərdən etibarən dilənçilərin ən əfəlinə çevrildi və iş o yerə gəlib çatdı ki, Daməngir İsrailə verilən sədəqəni də tutub əlindən alırdılar və bir müddət keçəndən sonra Daməngir İsrailin iri cüssəsindən, zorbalığından əsər-əlamət qalmadı, xırdalandı, balacalaşdı və illər keçdikcə Daməngir İsrailin ləqəbi də dəyişdi: hamı ona Keçi İsrail deyirdi, çünki İsrail durduğu yerdə birdən-birə keçi kimi mələməyə başlamışdı, bazar başına çıxan küçələrdən birinin tinində oturub keçi kimi mələyə-mələyə dilənirdi və gəlib keçənlərin onun qabağına tulladığı mis pulları da pusquda durmuş uşaqlar gəlib qapıb qaçırdılar; bir qış gecəsi Keçi İsrail axşamdan səhərə kimi mələdi və öldü...

...Nə Baba Keşişgilin həyətlərinə girdikləri o səhər, nə də sonralar bu barədə fikirləşəndə Sofi heç cürə başa düşə bilmirdi ki, Daməngir İsrail və o biri dilənçilər necə olmuşdu ki, elə gecə ilə həmin həyətin

[illegible]msəsizliyindən xəbər tutmuşdu, keçinin yəyəsizliyindən xəbər [illegible]tmuşdu? Sonralar – varlı, pullu bir adam olandan sonra Sofi bir dəfə [illegible]apısına gəlmiş bir dilənçiyə bu əhvalatı danışdı və bu sualı verdi. [illegible]ilənçi ağarmış uzun bığlarının altından gülümsəyib: "– Ağa, – dedi, kimsəsizliyin də, yiyəsizliyin də öz iyi var də...".

Sarayda hamı bir-birinə dəymişdi: keşiş, Mahmudun aşiq olduğu [illegible]zı da götürüb gecə ikən qaçıb Gəncədən getmişdi və Ziyad xan oğlu [illegible]ahmud didərgin düşüb bir keşiş qızının dalınca getmək istəyirdi.

Qəribə idi, Ziyad xan minbir əzab-əziyyətlə əldə etdiyi və sax[illegible]dığı hökmdarlıq taxtında əyləşməyi xoşlamırdı, həmişə vəzir-[illegible]əkillə bir yerdə gəbələrin üstünə düzülmüş döşəkçələrdə bardaş qu[illegible]b otururdu; yalnız ən mürəkkəb, ən çətin vaxtlarda taxtına qalxırdı.

Ziyad xan taxtda oturmuşdu. Qəmərbanu sağ tərəfində oturmuşdu. [illegible]arayın bütün hörmətli adamları ayaq üstə əmrə müntəzir dayanmışdı.

Ziyad xan daha heç kimdən heç nə gizlətmək istəmirdi, özü özünü [illegible]ldatmaq istəmirdi və varisin taleyi əslində taxtın taleyi idi.

Ziyad xanın xırda tum gözləri qızarmışdı.

– Keşişi günü bu gün tapdırıb dərisini soyduracağam. Qızı da saraya gətirdəcəyəm, Bayandur bəy!

Nazik, hündürboylu və yaraşıqlı bir oğlan olan Bayandur bəy bir addım irəli gəldi:

– Bəli, xan.

– Axşama qədər sənə möhlət verirəm. Bu işdən Mahmudun xəbəri olmamalıdı.

Bayandur bəy, Ziyad xanın son illərdə bəyəndiyi və irəli çəkdiyi ağıllı və igid adam idi. Öz əhatəsində olanların satqınlığı və ikiüzlülüyü barədə hərdən bədbin fikirlərə qapılanda Bayandur bəy yeganə adam idi ki, Ziyad xan onu yadına salıb təskinlik tapırdı, çünki Bayandur bəyin ağlı da, qılıncı da sidq-ürəkdən gələn bir sədaqətlə Ziyad xana xidmət edirdi. Ziyad xan ən gizli işləri, ən böyük etibar tələb edən tədbirləri Bayandur bəyin əli ilə görürdü. Vilayətin bütün darğaları Bayandur bəyə tabe idi və əslində Bayandur bəy həm də qoşunbaşı idi.

Bayandur bəy baş əydi və:

– Möhləti sabah səhərə kimi uzat, xan, – dedi.

Bayandur bəy, Ziyad xanın tapşırığını nəyin bahasına olursa-olsun yerinə yetirməli idi və Bayandur bəyin boş sözlə arası yox idi. [illegible] Ətrafdakılar başa düşdü ki, Bayandur bəy keşişi axşama qədər tə[illegible] bilməcəyinə şübhə edir, amma sabah səhərə kimi yerin dibində də olsa onu tapacaq və hamı üçün tamam aydın idi ki, sabah diri-diri keşişin dərisi soyulacaq.

Mirzə Salman əlini ağzına tutub bir-iki dəfə yavaşdan öskürdü.

Ziyad xan acıqla Mirzə Salmana baxıb:

– Nədir, qoca? – soruşdu.

Mirzə Salman irəli bir addım atdı, baş əydi və uzun saqqalının nazik ucunu sol əlinin şəhadət barmağına dolaya-dolaya dedi:

– Biz hamımız iki beşik[1] arasında iki cövhərik və bu iki cövhəri bir-birindən ayırmaq ancaq Allahın ixtiyarındadır, çünki yaradan Odur və verdiyini almaq ancaq Onun rüsxətindədir.

Ziyad xanın səbri tamam tükənmişdi:

– Sadə danış, qoca!

[1] İki beşik – yer və göy: iki cövhər – cism və ruh. Qədim Şərq fəlsəfəsində məşhur rəmzlərdir.

– Xan sağ olsun, mən səni sakitliyə çağırıram. Xacə Nəsrəddin Tusi kitablarından birində həkim Boqratisisin[1] bu sözlərini misal gətirir ki, mən güclü fırtınaların, dağlar qədər böyük olan dəhşətli dalğaların girdaba atdığı və ya qayaya çırpdığı gəminin xilas olmasına daha çox inanıram, nəinki ağzı köpüklənən qəzəblinin sakit olmasına, çünki dənizçilər bəlkə bir hiylə, bir çarə tapıb o gəmini xilas edələr, lakin qızıb-coşan qəzəbi heç bir şeylə söndürmək mümkün deyildir, nə qədər çox nəsihət etsən, yalvar-yaxara başlayıb könlün almaq istəsən, içərisinə tez-tez quru talaşa atılan oda oxşar, o qədər də çox alovlanıb özündən çıxar.

Bayandur bəy Mirzə Salmana altdan-altdan çəpəki bir nəzər saldı. Bayandur bəy təbiəti etibarilə səbrsiz bir adam idi və Mirzə Salmanın hər dəfə uzun-uzadı. danışmağı, büzürgmehrlik[2] iddiasında olmağı onun xoşuna gəlmirdi. Bu dəfə də Bayandur bəy Mirzə Salmana nəsə kəskin bir söz demək istədi, amma Ziyad xan əlinin işarəsi ilə onu saxladı və fikirli-fikirli:

– Mirzə, – dedi, – həmişə on iki imam üçün ağlayanda, bir dəfə də Yəzid üçün ağlamaq lazımdı. Həm də mən Yəzid ibn Müaviyə[3] deyiləm, sən bunu yaxşı bilirsən, mömin bir adamam. Mən vuruş zamanı, düşmən qılıncı altında da namazımın vaxtını ötürməmişəm...

Mirzə Salman bu dəfə Qurandan əzbər dedi:

– "Möminlik onda deyildir ki, siz üzünüzü şərqə tərəf çevirəsiniz, ya da qərbə tərəf; mömin olanlar onlardır ki, Allaha, axirət gününə, mələklərə, müqəddəs kitaba, peyğəmbərlərə inanırlar; onu sevdiklərinə görə öz əmlakından yaxın adamlarına, yetimlərə, yoxsullara, yolçulara, dilənçilərə, həmçinin qulları azad etmək üçün verirlər; namaz qılırlar, zəkat verirlər, əhd edib öz öhdələrinə götürdüklərini dürüst yerinə yetirirlər

– Nə deyirsən, qoca? Dinsizin biri öz qızını xan oğlundan əsirgəsin, el içində bizi xar etsin, biz də əlimizi qoynumuza qoyub tamaşa edək?

Mirzə Salmana yalnız Ziyad xan hərdənbir hirsli vaxtlarında "qoca" deyə müraciət edərdi və Bayandur bəyin onunla Ziyad xanın ədaları ilə danışmağı Mirzə Salmanın xoşuna gəlmədi, Bayandur bəyə ötəri bir nəzər salıb yenə üzünü Ziyad xana tutdu və dedi:

– Mən xanla danışıram, rəiyyətlə danışmıram!..

Bayandur bəy qıpqırmızı qızardı və nəbzi gicgahında vurmağa başladı; Bayandur bəy doğrudan da rəiyyət arasından çıxmışdı, atası əkinçi bir kişi idi və Mirzə Salmanın camaatın içində belə bir saymazyanalığı və təhqiri heç vaxt Bayandur bəyin yadından çıxmayacaqdı və Mirzə Salmana baha oturacaqdı...

Ziyad xanın hüzurunda heç kimin deyə bilmədiklərini Bayandur bəy cürət edib deyirdi və son zamanlar hərdənbir Mirzə Salman kimi qabağından yeməyənlərin Bayandur bəyə kinayəli söz deməsi əslində Ziyad xanın xoşuna gəlirdi, yəni ki, düzdü, Bayandur bəy, sən igidsən, ağıllısan və mənə sədaqətlisən, mən səni Sultan Mahmudun fili[1] kimi əvəzsiz etmişəm, amma hər halda səni rəiyyət arasından mən çəkib çıxarmışam və sən də gərək özünü həddən artıq sərbəst hiss etməyəsən, yerini biləsən, amma indi Ziyad xan bu xırda hisslərdən, bu kiçik saray çəkişmələrindən çox uzaq idi və qızarmış gözlərini yumub əli ilə alnını ovuşdurdu:

– Mirzə, bəs Mahmud?

Ziyad xanın bu sualı Qəmərbanunun sinəsindən bir ah qopardı və hamı nəzərlərini Ziyad xandan çəkib Qəmərbanuya baxdı:

istəyir. Qoşun götürmür özüylə, atlı götürmür, Mahmud dərviş olub çöllərəmi düşsün, Mirzə?

Qəmərbanunun sinəsindən yenə bir ah qopdu: Qəmərbanunun yorulmuş beyni fikirləşdi ki, namərd dünya gör işi nə yerə gətirib çıxarıb ki, Ziyad xan kimi bir adam öz təbəəsinin qabağında bu qədər açıq və aciz danışır.

Mirzə Salman saqqalının ucunu şəhadət barmağına dolaya-dolaya tutqun bir səslə:

– Xan sağ olsun, – dedi. – Mahmud "Yüksək aləm"in[1] oğludu və bizim kimi "Aşağı aləm" bəndələri çox zaman onu başa düşmür...

Ziyad xan ənglərini bir-birinə sıxdı və qabağında ayaq üstə dayanmış saray adamlarını bir-bir gözdən keçirdi:

– Hə, – dedi. – Mahmud sizin tayınız deyil...

Bu vaxt Mahmud içəri girdi.

Hamı gözünü Mahmuda dikdi və Qəmərbanunun sinəsini bu dəfə səssiz bir inilti dəlib keçdi.

Bu adamların ona dikilmiş gözləri heç vaxt Mahmuda bu qədər küt, cahil və bu qədər yazıq görünməmişdi. Bu adamlar ən adi bir şeyi başa düşmürdü ki, Məryəm təkdi dünyada və hərgah Mahmud da Məryəmə xəyanət etsə, onda bu dünyada heç bir düzlük, heç bir təmizlik yoxdu.

Bu gün səhər Mahmud çox şey başa düşdü.

Ağ Keçinin kəsilmiş başı Mahmuda çox şey dedi.

Dünyanın acıları yalnız isti çörəyin ağız yandırmasından və kicitkənin adamı dalamasından ibarət deyildi; dünyanın acıları yalnız uzaqdan-uzağa çayxanəndənin səsindəki qüssəni duymaq və durub saray məclisini yarımçıq tərk etməkdən də ibarət deyildi. Belə bir dünyada bağçadan, çöllərdən, çəmənlərdən gül-çiçək dərməsi indi Mahmuda gülünc görünürdü və Mahmud özü özündən xəcalət çəkirdi. Saray kitabxanasında məskən salıb gecə-gündüz kitablar oxumaq və bu dünyada yox, kitabların söylədiyi aləmdə yaşamaq bütün ömrüm boyu yumurtanı deşib çıxmamaq imiş, bütün ömrü boyu bomboş, şirəsi tamam çəkilib qupquru qurumuş yumurtanın içində yaşamaq imiş.

Mahmud səhər o balaca ağ evin həyətindən saraya qayıdan kimi Məryəmin ardınca gedəcəyini,– özü də tək gedəcəyini, özü də Məryəmi axtarıb tapacağını birinci Qəmərbanuya dedi və Qəmərbanu Mahmudun iri göy gözlərinə baxa-baxa başa düşdü ki, bu, belə də olacaq; Qəmərbanu başa düşdü ki, Mahmud əvvəlki Mahmud deyil.

Bu dünya ki, bu cür kabab tüstüsü içindədi, bu cür işıqsızdı və bu cür etibarsızdı, bu dünyada Mahmud gedib Məryəmin imdadına çatmalıdı və Mahmudla Məryəm bir yerdə olmalıdı.

Mahmudun əlini-qolunu bağlayıb ev dustağı eləmək olmazdı, Mahmuda heç nə eləmək olmazdı və bu, gün kimi aşkar bir məsələ idi.

Qəmərbanunun birdən-birə yorulmuş, tamam əldən düşmüş təfəkküründə yeganə işıqlı sima Anasının Əmcəyini Kəsən İbrahimin çopur sifəti, tamahkar gözləri idi, çünki bu tamah ki, Anasının Əmcəyini Kəsən İbrahimdə var idi, Qəmərbanunun qızıllarının zoru ilə Mahmuddan gözünü çəkməyəcəkdi, adamları ilə Mahmudu izləyəcəkdi və Ziyad xanın bütün başqa gözətçilərindən, xəfiyyələrindən başqa, özü də Mahmudu qoruyacaqdı...

...Qəmərbanu bilmirdi ki, Gəncədən gələcək bir xəbərdən sonra, Mahmud elə həmin an Anasının Əmcəyini Kəsən İbrahimin yadından çıxacaq və Anasının Əmcəyini Kəsən İbrahimin Qəmərbanudan aldığı beh qızıl kisələrinin hesabına əxlaqsız yəhudi, erməni, yunan arvadları ilə eyş-işrətə qurşanacaq və axırıncı təngəyə qədər pulu qurtarandan sonra qovulacaq ki, dünyanın ən əyri yolları ilə təzədən pul yığsın və sümsük itlər kimi yenə həmin arvadların yanına geri qayıtsın...

...Şər deməsən, xeyir gəlməz, bəlkə elə Mahmudun səfərə çıxmağı da xeyrədir? Bəlkə bir az bərkə-boşa düşər, görüb-götürər? Bəlkə elə belə lazımdı və bu səfər Mahmudu bərkidəcək, möhkəmlədəcək? Onsuz da bütün səfəri boyu Mahmud güzgü kimi Ziyad xanın ovcunun içində olacaq.

Ziyad xan qarşısında dayanmış Mahmuda baxırdı. Allah ona doqquz ilin həsrətindən sonra belə oğul vermişdi və indi ən qəribəsi bu idi ki, Ziyad xan bilmirdi ki, buna sevinsin, ya ağlasın. Mahmud özü olmayanda, beləcə üzbəsurət dayanmayanda Ziyad xan oğlu barədə daha dəqiq fikirləşirdi, çünki elə bil ki, Mahmud hər dəfə öz gəlişi ilə atasının iki tərəfi də ülgüc kimi kəsən qılıncının tiyəsini kəsəldirdi

Ziyad xan başa düşürdü ki, bütün bu tərəddüdlər nahaq yerədi, Mahmudun səfərə çıxmağına izin verəcək, çünki Ziyad xan kimi günahkar bir adam, əliqanlı, fikri qaranlıq bir adam Mahmud təmizliyi müqabilində heç nə edə bilməyəcəkdi. Ziyad xan oğlunun getməyinə bir də ona görə razı qalacaqdı ki, Mahmudu fikrindən döndərmək mümkün deyildi və Mahmud Ziyad xanın sözünü yerə salacaqdı, ona qulaq asmayacaqdı; qoy camaat Mahmudu atasının sözünü yerə salan qeyrətsiz, namussuz bilməsin, çünki babalardan belə bir miras qalmışdı ki, igid odu tənə oxun atmaya, halal mayasına haram qatmaya və bir oğul ki, ata sözünü tutmaya, o oğulda qeyrət, namus, ar olmaz; Ziyad xan istəmirdi ki, oğlunu belə bir qeyrətsizliyə təhrik etsin.

Ziyad xan gülümsədi və ürəyindən yenə qara qanlar axdı: əlbəttə, bütün bu fikirlər hamısı təskinlik üçün idi, özü özünə təskinlik vermək istəyirdi... Məgər bir keşiş qızına vurulub Məcnun kimi çöllərə düşmək dünyanın ən böyük rüsvayçılığı deyildimi və Ziyad xan kimi aldadırdı?

Ziyad xan Qəmərbanuya baxdı və Qəmərbanunu birdən-birə elə kiçilmiş, balacalanmış gördü ki, tükü ürpəşdi və bütün gücünü toplayıb xırda tum gözlərinin baxışları ilə Qəmərbanunu sakit eləmək istədi.

Ziyad xanın xəfiyyələri məlumat toplamışdı ki, Baba Keşişin ata yurdu Ərzurumdadı və Baba Keşiş də şübhəsiz ki, Ərzuruma tərəf yol almışdı. Xəfiyyələr bu xəbəri gətirəndə Mahmud da Ziyad xanın yanında idi. Baba Keşiş, Sultan Səlimin qorxusundan Ərzurumdan o tərəfə keçə bilməzdi və ümumiyyətlə, Ziyad xanın adamları Baba Keşişin harada olduğunu və hara getdiyini hər gün biləcəkdilər. Ərzurumda Süleyman paşa adlı cavan bir hakim var idi və Ziyad xan kömək üçün Süleyman paşaya müraciət edə bilərdi, amma Ziyad xanın o cavan paşadan gözü su içmirdi, çünki təxminən bir il bundan əvvəl həmin Süleyman paşadan qəribə bir məktub almışdı. Süleyman paşa qəribə birliyə, qəribə ittifaqa çağırırdı, yer üzündəki, nə qədər türk xalqları var idi, hamısını birliyə çağırırdı, Böyük Türk Xalqları Dövləti arzulayırdı, belə çıxırdı ki, azərbaycanlı ilə osmanlının, özbək ilə yakutun fərqi yox idi və bunlar gərək hamısı bir yerdə olaydı. Ziyad xan bu məktubu oxuyandan sonra, fitnə-fəsaddan ehtiyat etdi, məktubu Şah İsmayıla göndərmək istədi, amma sonra fikrindən daşındı: məktubda bu qəribə, əcaib fikirlərdən başqa, qəribə də bir səmimilik

var idi; amma hər halda, Ziyad xan cavab da yazmadı, yazmadı ki, ey cavan, belə-belə fikirlərlə bu mürəkkəb dövranda öz boynunu sındırarsan və anan yazığın gözlərini ağlar qoyarsan.

Əlbəttə, Ziyad xan bütün vilayətin xəfiyyəsini ayağa qaldıracaqdı, gizlincə vilayət xəfiyyələrinin işinə göz qoyan şəxsi xəfiyyələrini ayağa qaldıracaqdı, həmin bu xəfiyyələrin özlərinə göz qoyan muzdlu xəbərçilərini ayağa qaldıracaqdı, qoymayacaqdı ki, Mahmudun başından bir tük əskik olsun, amma Mahmudun ki, gözlərini bağlaya bilməyəcəkdi və Mahmud bu dünyanı olduğu kimi görəcəkdi. Ziyad xanın ürəyini bir xof bürümüşdü ki, Mahmud gördüklərinə dözə bilməsin, çünki Mahmud bu dünyanın əsl üzünü görüb dözməyə hazır deyildi, amma nə etmək olardı, su gələr, axar gedər, qayalar yıxar gedər, dünya bir pəncərədir, hər gələn baxar gedər... Yox, bəlkə elə doğrudan da belə yaxşıdır; təskinlik üçün demirəm, özümü aldatmıram, bəlkə bu bir fürsətdi, tale bizə verib? Bəlkə bu bir sınaqdı, Allah göndərib və bu sınaqdan çıxandan sonra bugünkü iztirablar uzaqlarda, keçmişdə qalacaq və bir də qayıtmayacaq?

Qəmərbanu bilirdi ki, Ziyad xan Mahmudun gizli mühafizəsi üçün bütün bəylərbəyliyini ayağa qaldıracaq, amma Anasının Əmcəyini Kəsən İbrahimin qızıla hərisliyi daha etibarlı bir mühafizə idi, bir də ki... bir də ki... əlbəttə...

– Sofi!.. Sofi də sənlə gedəcək!..

Həmin gün Qəmərbanu birinci dəfə ağzını açıb söz dedi. Heç olmasa Sofi Mahmudla getməli idi. Heç olmasa Sofi Mahmudun yanında olmalı idi. Sonra Qəmərbanunun tamam yorulmuş, tamam əldən düşmüş beyni yenə sızıldadı, yenə heysiz fəryad etdi: Rabiə iti xilas etdi, bəs mən o itdən betər yanıram, bəs məni niyə xilas edən yoxdu?[1]

Qəmərbanunun özünün xəbəri yox idi ki, dərd əlindən, yorğunluqdan alacalanmış gözləri bu dəm Mahmuddan imdad istəmirdi, bu gözlərdə bu dəm bir məzəmmət var idi. Qəmərbanunun oğluna baxan gözləri birinci dəfə idi ki, məzəmmət edirdi: hamını görən, anasını görməyən oğul, canım oğul, gözüm oğul, yaman yarası çıxarıb yaman bəlaya düşən oğul, bu vəfasız dünyada mən səndən ayrılmazdım,

[1] Məşhur Şərq əfsanəsinə görə Rabiə Bəsrəli adlı qadın səhrada bir itin susuzluqdan can verdiyini görür və özünün uzun hörüklərini kəsib oyninden çıxartdığı paltarlarına bağlayır, bu paltarları quyuya sallayıb isladır, sonra dartıb çıxarır, sıxıb suyunu itə verir və iti xilas edir.

fələyin gücünü mənə göstərən oğul, demirsən qan olar?; yel əsər, fəqan olar?; bilmirsən bala gəzən yerlərə analar qurban olar?; niyə fələk elə elədi ki, deyə bilmədim ki, balamdı, xandı, xandı, bağçada quş qovandı, misri qılınc belində; vurmağa pəhləvandı və bu sözlər həmişəlik ürəyimdə qaldı mənim?; tifil vaxtı ağlayanda ağzına basardım məməmi, sən dincələrdin, mənim üzüm gülərdi, indi bəs neyləyim mən?; və haçansa çox-çox illər bundan əvvəl, özü uşaq olanda eşitdiyi sözlər birdən-birə Qəmərbanunun yadına düşdü: bala dadı bal dadı, bala adam aldadır, şirini şirin olur, acısı da bal dadır və bu sözlərin ağrısı Qəmərbanunun yorulmuş fikrini daha da qarışdırdı, gözünün qabağını boz bir tor bürüdü və elə bil ki, hər şey bu boz torun içində əriyib yox oldu.

Mahmud Qəmərbanunun gözlərində elə bir ifadə sezdi ki, bu gün sübh tezdən Ağ Keçinin kəsilmiş başının laxtalanmış, qanı bulaşmış gözləri də belə bir ifadə ilə baxırdı və Mahmud gözlərini anasından çəkdi, çünki Mahmud qorxdu ki, Qəmərbanunun yorulub əldən düşmüş gözləri Məryəmi ondan uzaqlaşdıra bilər və Məryəm tək qalar.

Mirzə Salman, Mahmudun iri göy gözlərinə baxa-baxa bütün varlığını sarsıtmış bir təəccüb, heyrət hissi keçirirdi: necə olur ki, Mahmudun bu təmiz, saf ürəyi başqasını xoşbəxt etmək üçün və özü də xoşbəxt olmaq üçün bu cür tələsir, amma öz doğma anasını, beləcə, dünyanın ən bədbəxti edir?

Bayandur bəy astaca iki-üç addım atıb Mahmudun qarşısında dayandı və Ziyad xan birdən-birə Bayandur bəyin bu asta addımlarında sikarına yaxınlaşan pələng yırtıcılığı, hərisliyi hiss etdi və yerində

istəmirdi, Qəmərbanuya heç olmasa azacıq bir toxtaqlıq verməkdən ötrü Mahmudla getməyi lazım bilirdi, öz borcu hesab edirdi.

Mahmud:

– Sofi də getsin... – dedi.

Mahmudun sözləri Sofini kövrəltdi.

Qəmərbanu yorğun-yorğun Bayandur bəyə baxdı və yüngülcə gülümsədi; bu – diri-diri doqquz barmağı kəsilib onuncu barmağı bağışlanan, kəsilməyən bir adamın təşəkkür təbəssümü idi.

Ziyad xan da Bayandur bəyə baxdı və xırda tum gözləri ilə elə bil ki, bayaqkı fikirlərdən ötrü üzrxahlıq istədi.

Sonra birdən-birə Qəmərbanunun qulaqlarına bir çağa qışqırtısı gəldi və Qəmərbanu başa düşdü ki, bu, Mahmudun səsidi, Qəmərbanunun bətnindən çıxanda Mahmudun bu dünyada səslənən ilk səsidi; sonra elə bil Qəmərbanu daha heç nə eşitmədi, heç nə görmədi və heç nədən xəbəri olmadı.

Həmin gün Ziyad xan darğalara, xəfiyyələrə Mahmudun səfəri ilə bağlı tapşırıqlarını verəndən sonra Sofinin qolundan tutub xəzinəyə apardı:

– Bundan sonra işin mənimlə olacaq!

Sofi bu sözlərin, zəndlə baxan bu tum gözlərin zəhmini bütün varlığı ilə hiss stdi və başa düşdü ki, bu dünyada Mahmudun taleyi ilə Sofinin taleyi bir yerdə yoğrulub. Sofi buna təəssüf etmədi, çünki qırx altı il ömür sürmüş Sofinin Mahmuddan başqa heç kimi yox idi və daha heç kimi də olmayacaqdı.

– Bütün

Ziyad xan:

– Sən indi məmləkətin ən qiymətli adamısan, – dedi.– Amma boynun ətdəndi!

Heyvani bir qorxu hissi Sofinin bütün vücuduna hakim kəsilmişdi, çünki Sofi, düzdü, bilirdi ki, Ziyad xan varlıdı, dövlətlidi, amma heç vaxt ağlına gətirə bilməzdi ki, bu qədər ləl-cavahir toplanıb bir yerdə ola bilər və bunlar hamısı bir adamın ola bilər. Ziyad xan yolda xərcləmək üçün Sofiyə üç-dörd kisə qızıl sikkə verdi və sonralar da nə qədər lazım olsaydı, göndərəcəkdi. Sofi heyrətə gəldi ki, məgər bu qədər qızılı xərcləyib qurtarmaq olar? Ziyad xanın gözləri həmişə onların üstündə olacaqdı, amma Sofi özü də tez-tez məktub yazmalıydı, bir qızıl verib çaparla göndərməliydi və Ziyad xan da məktub gətirəcək həmin çapara sarayda iki qızıl verdirəcəkdi.

Həmin gün Ziyad xan bütün tapşırıqlarını bir-bir Sofiyə başa saldı.

Həmin gün Mahmud Ziyad xanın ən ağıllı, ən sözəbaxan və ən içində idi və diqqətlə qulaq asırdı, bu sehrli bir aləmdə hava ilə yox, Mahmudun söylədiyi sözlərlə nəfəs alırdı.

Mahmud həmin yağışlı-çiskinli gecədə ona da, Sofiyə də sığınacaq vermiş Çobana Şeyx Nizaminin "Leyli və Məcnun"unu danışırdı.

Bütün günü at belində yol getdilər, itin qurddan seçilməyən vaxtı bir şıdırğı yağışa rast oldular, elə islandılar, elə bil atı sürüb çaya girmişdilər. Nə yağış dayanırdı, nə də atdan düşüb daldalanmağa bir yer tapırdılar və Sofi fikirləşirdi ki, deyəsən Nuhun tufanına[1] düşmüşük...

Birdən bu yağış şırhaşırında Sofinin qulağına it səsi gəldi, su süzülüb axan gözləri ilə diqqətlə ətrafa baxdı, bir ocaq işığı gördü və o işığı tuş eləyib gəldilər.

Sofi baxıb gördü ki, bura qoyun-quzunun yaylaq yeridi, bir də bir çoban var burda, lap törpü dəyməmiş çobandı.

Çoban əlindəki toppuz boyda çomağı qaldırıb:

– Kimsiz, nəcisiz? – qışqırd

Sofinin əynindəki paltar hələ də yaş idi, qurumamışdı və Sofi qorxurdu ki, sətəlcəm olub öləcək. Sofi Mahmudu belə dözümlü bilməzdi: zalım Mahmud nə yorulmaq bilirdi, nə də soyuq, yağış ona təsir edirdi.

Bu səfər nə vaxt qurtaracaqdı və Sofi yenə nə vaxt saraydakı rahat yatağına qayıdacaqdı? Sofinin canı nə vaxt qurşağındakı bu ləl-cavahirdən qurtaracaqdı? Bu ləl-cavahirin qorxusu da bir tərəfdən Sofini sıxıb əldən salırdı.

Mahmud "Leyli və Məcnun"u söyləyirdi və bu törpü dəyməmiş Çoban da beləcə ağzını açıb maddım-maddım qulaq asırdı. Sofinin belə nağıllarla arası yox idi, hərçənd indi fikirləşirdi ki, bu Məcnun da elə Mahmud kimisinin biri olub, amma Sofi hiss etdiyinə, fikirləşdiyinə yox, gördüyünə inanırdı, gördüyü də ki, səhərdən axşamacan at beli, yeməyin vaxtı yox, içməyin vaxtı yox və Sofi bu dəm əsnəyə-əsnəyə gözləyirdi ki, Mahmud nə vaxt qurtaracaq və nə vaxt yatacaqlar; hələ Sofi Ziyad xana məktub da yazmalı idi.

Mahmud ilə Çoban yatandan sonra Sofi, nəhayət, paltarını soyunub ocaqda qurudacaqdı və elə ocağın da işığında Ziyad xana birinci məktubunu yazacaqdı.

Mahmud ocağın işığında Çobanın iri, kobud əllərini görmüşdü və Çobanın nəinki iri, qaba əlləri, sinəsinə alıb buraxdığı nəfəs də iş görməkdən, çalışmaqdan, gecə-gündüz ayaq üstə olmaqdan xəbər verirdi; bu adam sarayın nökərlərindən çox fərqlənirdi və bu adamda nəsə elə bir şey var idi ki, həmin şey təkcə qara torpaqda idi; qara torpaq cücərib bar verirdi, bu Çobanın da qığ iyli, motal iyli varlığı bardan, bərəkətdən xəbər verirdi. Belə bir adamın uşaq kimi oturub bu cür maraqla qulaq asmağı Mahmudu daha artıq bir şövqə gətirdi və Mahmud "Leyli və Məcnun"un axırını elə söylədi ki, Sofi də özünü saxlaya bilməyib ürəyində əhsən dedi və gözləri yaşardı.

Sükut çökdü.

Çoban gözünü Mahmuddan çəkdi, Sofiyə baxdı və dedi:

– Lələ yolçu, eşq ki, var, harınlıqdandı. Yeməyin, içməyin bolluğundandı.

Çobanın dediyi bu sözlər o qədər gözlənilməz və heyrətamiz oldu ki, Sofinin Mahmuda yazığı gəldi.

Mahmud bir söz demədi.

Bəlkə doğrudan belədi, bəlkə doğrudan da eşq harınlıqdandı?

Birdən elə bil ki, o leysan yağışlı çöllərdən, o qaranlıq və kimsəsiz çöllərdən, sel kimi axan su şırıltısı arasından yanıqlı bir səs eşidilməyə başladı və elə bil ki, bu uzaq səs Qarabağ dağlarından Gəncə sarayına gətirilmiş o cavan xanəndənin səsi idi; elə bil ki, o uzaq səs: "–Yox, – o deyirdi, – çoban qardaş, səhvin var, – deyirdi – səhv edirsən, çoban qardaş" – deyirdi.

Məryəmin sifəti Mahmudun gözlərinin qabağına gəldi və Mahmud birdən-birə bu balaca alaçıqda o kəhrəba sarısı düzənliyin azadlığını, sərbəstliyini hiss etdi. Yox, yox... yox, bədbəxt Çoban, yox, məsələ bunda deyil, məsələ bundadı ki, sənin gördüklərini Məcnun görməyib... Sənin bildiklərindən Məcnun xəbərsiz olub... Sənin qayğıların Məcnuna yad olub... Birdən-birə Şeyx Nizaminin "Leyli və Məcnun"u Mahmudun özünə də kiçik göründü, çünki Məcnun Leylidən başqa heç kimi və heç nəyi görmürdü, amma hicrandan başqa da bu dünyanın dərdi, ələmi çox idi.

Gəncədən çıxdığı bu günlərdə Mahmud çox şey görmüşdü.

Həmin gecə Sofi ocaqda öz paltarını qurutmağa macal tapmadı, təkcə ocağın işığında gizlincə məktub yaza bildi və səhəri gün həmin məktubu çaparla Ziyad xana göndərdi.

"Ey başımızın tacı Ziyad xan. Yerdə sənsən, göydə Allah. Allahdan başqa heç bir Allah yoxdu və o tək olan Allah sənin bütün cənnətlik səlaflərinə rəhmət eləsin və sənin bütün xələflərinin ömrü uzun olsun. Sən adilsən və qadirsən, hər şeyi bilirsən və hər şeyi görürsən, amma mənə tapşırdığın üçün ki, məktub yazım, mən də məktub yazıb halımızı sənə bildirirəm. Onuncu gündü ki, səfərdəyik və heç cürə gözümüzün nuru Mahmuddan ayrılıb məktub yaza bilmirdim və yalnız indi belə bir fürsət ələ düşüb. O məlun din düşməni keşişi gördüm deyən yoxdu, yəqin ki, yola gecələr çıxır, yaxşı gizlənir, xətrini əziz tutan özü kimi dinsizlər sənin adamlarının min bir haqlı işkəncəsinə dözür, amma gecələr evlərində gizlətdikləri məlun keşişi ələ vermirlər. Sənin adamların hərdənbir imkan tapıb gözün

sübh tezdən yola rəvan olanda yalvarıram: "Qayıdaq, xanlar xanı Ziyad xan Yəquba[1] dönmüş yəqin. Axı, sənin ən yaxın adamındı". Sən mənə tapşırmısan ki, səndən heç nəyi gizlətməyim, ona görə də gözümüzün nuru Mahmudun dediklərini sən

qədər ac camaata ruzi vermir və niyə Mikayıl Allahın gözü ilə bunları görmür?. Niyə vəqf[1] torpaqlarının barını camaata vermirlər ki, kasıbların əlindən tutsun və onları xoşbəxt etsin?"

onlardan Mahmudun xəbəri yoxdur və səndən təvəqqəm budur ki, adamlarına tapşır məni yaxşı qorusunlar, çünki mən özümdən bu mənada çox nigarançılıq çəkirəm və ümidim sənin adamlarınadır ki, məni göz bəbəyi kimi qorusunlar. Mən bilmirəm nə edim və gözümüzün nuru Mahmud üçün də çox qorxuram. Öz-özü ilə danışmağa başlayıb. Mən soruşanda ki, kiminlə danışırsan, deyir ki, Məryəmlə danışıram. Bir dəfə dedi ki, atamla danışıram, amma bilmədim ki, sənlə nə danışırdı. Bir dəfə də qoca bir kişiyə rast gəldik və gözümüzün nuru Mahmudun dedikləri məni lap qorxuya saldı, çünki heç nə başa düşmədim. Qoca kişi gözümüzün nurundan soruşdu: "Oğlum, söylə görüm səfərin haradı?" Gözümüzün nuru dedi: "Əmi, səfərim kanan məkandı". Qoca kişi soruşdu: "Oğlum, kan kandı[1], bəs məkan nədi?"

Gözümüzün nuru belə cavab verdi: "Kan bu dünyadı, əmi, məkan o dünyadı". Qoca kişinin çox pis gözləri var idi, pis gözlərini qıyıb dedi: "Ölümü özünə güclə gəzirsən?" Gözümüzün nuru dedi: "Ölüm haqdı. Taleyin əsirindən çıxmaq olmaz." Qoca kişi boğçasından balaca bir bardaq çıxartdı və bir dənə də saxsı cam çıxartdı, bardağın içindəkini gözümüzün nuruna uzatdı və dedi: "İç bu camı". Gözümüzün nuru Mahmud başını buladı və belə cavab verdi: "O camdakını peyğəmbər bizə haram buyurub." Qoca kişi pis gözləri ilə gülümsədi və camın içindəkini – yəqin ki, çaxır idi – özü içdi, sonra çıxıb getdi və həmin qoca kişi gözdən itəndən sonra mən gözümüzün nurundan soruşdum ki, bu nə söhbətdi belə? Gözümüzün nuru mənə cavab vermədi, amma birdən kafir şair Nəsiminin şerini söyləməyə başladı: "Məndə sığar iki cahan, mən bu cahana sığmazam...". Bəzən mən heç nə başa düşmürəm, öz kor-koranə gözümüzün nurunun dalınca gedirəm. Mən təskinliyi onda tapıram ki, sənin kimi böyük ümidgahımız var və sən bizim bu mənasız və gözümüzün nuru Mahmud üçün baha başa gələn səfərimizə bir əlac tapıb son qoyacaqsan. Söhbət çoxdur, amma qorxuram ki, gözümüzün nuru yuxudan oyana və sənə yazdıqlarımı görə. Daha burda bitirirəm. Sabah çaparla məktubu sənə göndərəcəyəm.

Sofinin məktubunu gətirən çapar Ziyad xandan daha iki qızıl alıb getdi və Ziyad xan öz otağına çəkilib heç kimi içəri buraxmadı və Sofinin məktubunu bir neçə dəfə diqqətlə oxudu.

Sofi Ziyad xandan əlac istəyirdi və axmaq Sofi bilmirdi ki, hərgah dünyada bir əlacsız varsa, o da elə Ziyad xanın özüdü.

Ziyad xan otağından çıxıb sarayın kitabxanasına getdi və Hindistandan ağırlığı çəkisində qızıl qiymətinə aldırıb gətirtdiyi qara cildli Böyük Fal kitabını rəfdən götürüb qəflətən açdı və ilkin oxuduğu sözlər bunlar oldu: "Eşq bəlasına yalnız eşqlə əlac etmək olar."

Ziyad xanın adamları iki gün-iki gecə vilayəti dolaşdı, seçdi, seçdi və nəhayətdə sorağı Ceyrandan gətirdi: Ceyran ağıllıların ağıllısı idi, biclərin bici idi, qədim sənətinin hər bir incəliyinə bələd idi, elə bir qız idi ki, qaşları kaman, gözləri şəhla, yerişi tovuz yerişi, məmələri şamama kimi yumru, baxanın ağlını aparır; söhbətin gödəyi, elə bil ki; Allah-taala dünyada olan gözəlliyin hamısını bu qızın başına tökmüşdü, özü də pulgir idi, daş-qaş xəstəsi idi.

Ziyad xan bir vaxt Qəmərbanunun uğursuz təşəbbüsünü təkrar etdi və bu təşəbbüs xanlara layiq oldu. Ziyad xan heç kim görməsin deyə, gecənin yarısı Ceyranı saraya gətirtdi və bu gözəl qızı görən kimi, gözlərindən oxudu ki, hansı yuvanın quşudu, başa düşdü ki, adamları hələ az deyib, bu qız dünyada nə desən eləyər. Ziyad xan Ceyrana yeddi kisə qızıl verdi, on kisə də boyun oldu. Ziyad xanın adamları Ceyranı Mahmudun izinə salacaqdılar və Ceyran yolda Mahmuda ürcah olacaqdı, Mahmudu özünə məftun eləyəcəkdi, Mahmudu geri qaytaracaqdı, bir müddət sarayda Mahmudla qalıb, sonra Gəncədən çıxıb gedəcəkdi və Ziyad xan Təbrizdə Ceyrana bir mülk alacaqdı.

Elə həmin gecə Ceyran kəcavənin pərdəsini salıb kəniz-qaravaşları ilə, nökərləri ilə birlikdə yola düzəldi. Ceyran, Qısır Qarını da özüylə götürdü və Qısır Qarı da palanlı qatıra minib pərdəsi salınmış kəcavənin dalına düşdü.

Ceyran tələsirdi.

Vaxt var idi – Ceyran Gəncəni beləcə arzulayırdı, Gəncə onun üçün arzularının son həddi idi, könlündən Gəncə sarayı keçirdi, amma indi bunlar hamısı keçmişdə qalmışdı və indi daha Gəncəyə sığışmırdı. Gəncə sarayının sahibi də başqaları kimi deyildi, arvadı Qəmərbanudan başqa qadın tanımırdı və Ceyran az qala bütün ümidlərini üzmüşdü. Bu gün gecənin yarısı birdən-birə xanın adamları gəlib onu saraya aparanda, Ceyran elə bildi ki, birbaşa xanın yatağına girəcək, amma məlum oldu ki, yox belə deyilmiş... Nəhayət ki, tale Ceyranın üzünə güldü, əfəl bir xan oğluna dünyanın ləzzətlərindən bir damcı damızdırıb Gəncəyə əlvida deyəcəkdi, Təbrizdə öz mülkünə köçəcəkdi, bir qalib kimi Təbrizə gələcəkdi və ağlı ilə, gözəlliyi ilə Təbrizi, lap elə həşt-behişti fəth edəcəkdi.

Fəttah yalnız Şah İsmayıl deyildi.

Həmin gecə pərdəsi salınmış kəcavənin içində gedə-gedə Ceyran özünü Şah İsmayıldan kiçik

insan əməli ilə bağlı idi. Hər gün rastlaşdığı adamlar, eşitdiyi hadisələr, gördüyü müsibətlər hər dəfə də yeni bir kəşfə çevrilirdi və bu kəşflər Mahmudun beynində insan xisləti ilə bağlı yüz cürə sual yağdırırdı və Mahmud bu suallara cavab tapa bilmirdi; Mahmud gözlərini yumurdu və gözlərinin qabağına muxtəlif rənglər gəlirdi, amma bu rənglər məhz hansı rənglər idi – qırmızıydımı, maviydimi, yaşılıydımı? – bilmirdi, amma bu naməlum rənglər aləmi hər tərəfə bir ümidsizlik saçırdı və bəlkə bu naməlum rənglər elə ümidsizliyin rəngi idi?

İrəlidə bir topa qara bulud göründü və belə bir aydın, günəşli gündə o qara bulud topası Sofini həyəcana gətirdi.

Sofi diqqətlə baxdı.

Mahmud təmiz idi. Mahmud belə şeyləri ürəyinə gətirə bilməzdi və Sofi bir bəhanə ilə Mahmudu burada qoyub irəli tək çapmalıydı; Mahmud belə şeyləri görməməli idi və hərgah hər şey Sofinin

birinə qarışmışdı, dəmir zirehləri, paltarları qana, torpağa bulaşmışdı, hər tərəf qalxan, qılınc, nizə idi və bu dəmirlər günün şüaları altında parıldayırdı:

Bu başsız cəsədlər Səfəvilərin qızılbaş döyüşçüləri idi və indi gözünü kəllələrdən düzəldilmiş ehramdan, başsız cəsədlərdən çəkə bilməyən və bərkdən öyüyə-öyüyə qusan Sofi bilmirdi ki, beş gün bundan əvvəl bu Çaldıran düzündə qırğın olmuşdu və bu qırğın üç gün davam etmişdi: Osmanlı hakimi I Sultan Səlim Səfəviləri müsəlman dininin düşməni elan etmişdi və İslam müdafiəsi naminə iki yüz minlik türk ordusu ilə Azərbaycana girmişdi, 1514-cü ilin avqust ayında Səfəvilər dövlətinin – "Məmləkəti-Azərbaycan"ın yaradıcısı və hökmdarı Şah İsmayıl türk ordusundan bir neçə dəfə az qoşunla Sultan Səlimin Maku yaxınlığındakı bu Çaldıran düzündə qarşılamışdı, döyüşə girmişdi və məğlub olmuşdu.

Beş gün bundan əvvəl Şah İsmayıl adi bir döyüşçü qiyafəsində boz ürgənin belində oturub göz işlədikcə uzanan Çaldıran düzünə baxırdı və yağışlar çox yağdığı üçün payızqabağı təzədən göyərmiş, çiçəklənmiş bu torpağın bir azdan sonra süvari atlarının dırnağı altında didim-didim didiləcəyini, on minlərlə insan qanına bulaşacağını bilirdi; indi yalnız Maku camaatının tanıdığı Çaldıran düzünün bu gündən sonra bütün dünyada tanınacağını, Xandəmir kimi, Qəzvini kimi tarixçi mirzələrinin[1] bu düzənliyin adını əbədiləşdirəcəyini bilirdi, Lütfi paşa[2] da yəqin ki, Sultan Səlimin ordusunda idi və nəsə şeyi gözü ilə görmək istəyirdi.

Şah İsmayıl burasını da yaxşı bilirdi ki, Sultan Səlimin ordusu təkcə sayca çox deyildi; Sultan Səlimin ordusu hələ yeni başlamış bu əsrin ən müasir ordusu idi, on min tüfəngli, yüz araba toplu, zərbzənlə, badlicla[3] silahlanmış ordu idi və türk döyüşçüləri də vuruşan döyüşçü idi, ağıllı, təcrübəli, igid döyüşçü idi: Səfəvilərin topu yox idi, qoşunun sayı az idi.

[1] Xandəmir – əsl adı Qiyasəddin ibn Hümaməddin əl-Hüseyni (1475-1536); Mir Yəhya əl-Hüseyn əl-Qəzvini (1481-1555); orta əsr görkəmli Azərbaycan tarixçiləri və Şah İsmayıl sarayına yaxın adamlar idi

[2] Lütfi Paşa – XVI əsr məşhur türk saray tarixçisi idi. Sultan Səlimin hərbi səfərlərində iştirak edirdi. Çaldıran müharibəsini təsvir edən "Tarixi ali-osman" əsərinin müəllifidir.

[3] Zərbzən, badlic-XVI əsrin əvvələrində ixtira edilmiş odlu silah növləri

Sultan Bəyazidin vaxtında Şah İsmayılla osmanlıların arasında bir "ata-oğul münasibəti" var idi, amma elə o vaxtdan Trabzon hakimi Yavuz Səlim bu münasibəti qəbul edə bilmirdi və bu münasibətə etibar etmirdi. Yavuz Səlim Şah İsmayılda Osmanlı torpağını da "Məmləkəti-Azərbaycan"a qata biləcək bir qüvvə və bacarıq görürdü. Sultan Bəyazid Xorasan və Türküstan üzərinə yürüşlərindən sonra "Məğlubedilməz" şöhrəti qazanmış Şah İsmayılı Cənuba yönəltmək istəyirdi və məktublarından birində açıq yazırdı: "Siz Rum elini istila etmək fikrindən ümidinizi kəsin. Yaxşısı odur ki, İran, Turan və Hindistandakı xanlıqları məhv edib, o tərəflərdə olduqca qüvvətli bir dövlət təşkil edin."

Amma bu etibarsız dünyanın işini nə bilmək olardı və kim zəmanət verə bilərdi ki, həmin "olduqca qüvvətli bir dövlət" doğrudan da axıra qədər "dəymə mənə, dəyməyim sənə" siyasətinə sadiq qalacaq? Trabzon hakimi Yavuz Səlim Sultan Bəyazidin taxtını ələ alıb I Sultan Səlim olduqdan sonra, Şah İsmayılın ən qəddar bir düşməni meydana çıxdı və Sultan Səlim müftiləri, fəqihləri və qaziləri toplatdırıb əmr ilə Şah İsmayılın və qızılbaşların hamısının əleyhinə fitva hazırlatdı.

Sultan Səlim usta və hiyləgər bir adam idi və Şah İsmayıl bunu da bilir və qiymətləndirirdi. Şah İsmayıl İspaniya kralı V Karla məktub yazmışdı və həmin məktubda Sultan Səlimin hiyləgərliyini bütün osmanlılara aid etmişdi: "Hiyləgər osmanlılara etibar etməyin, çünki Sultan elə bir adamdır ki, onun üçün ittifaq, and, vədlərə sədaqətin heç bir qiyməti yoxdur və o Sizi məhv etmək üçün əlindən gələni edəcəkdir".

İspanların kralından bir xəbər çıxmadı...

Şah İsmayıl bütün bunları bilirdi, amma Şah İsmayılın ürəyində heç bir nigarançılıq yox idi, onsuz da "məmləkətin ətrafında həmişə at cövlan etmişdi"[1] və Şah İsmayıl Sultan Səlimə göndərdiyi məktubda yazırdı ki, "məmləkət gəlinini o şəxs möhkəm quca bilər ki, sivrilmiş qılıncın dodağından öpə".

Məsələ yalnız bunda deyildi ki, keçən əsrin sonunda "Azərbaycan taxtı və səltənəti uğrunda" mübarizəyə qalxmış İsmayıl cəmi on dörd il ərzində yalnız Azərbaycanda deyil, Amu-Dəryadan tutmuş Fərat

[1] Şah İsmayılın öz sözləridir.

çayına kimi bir ərazidə, İraqı, Diyarbəkri, Kiçik Asiyanın bir çox vilayətlərini, Xorasanı əhatə edən bir ərazidə qılınc gücünə qüdrətli Azərbaycan Səfəvilər dövləti yaratmışdı və ölümlə min dəfələrlə üzbəüz dayanmışdı və buna alışmışdı; məsələ bunda da deyildi ki, Sultan Səlim topuna arxayın idi, Şah İsmayıl isə həmişəki kimi özünə arxayın idi və Quranda belə yazılmışdı: "Ya peyğəmbər! Dindarları həvəsləndirib vuruşmağa təşviq et; əgər aranızda iyirmi nəfər mətanətli adam olsa, onlar iki yüz nəfərə qalib gələr".

Düzdü, Şah İsmayıl peyğəmbər deyildi, amma hər halda əlinə Zülfüqar[1] almışdı və ordu da sədaqətli ordu idi, hətta dünən aldığı məlumata görə toy məclisi qurulmuş bir nəfər gənc Şah İsmayılın çağırış fərmanını eşidib zifaf gecəsində gəlin ilə görüşmədən orduya qoşulmuşdu.

Məsələ burasında idi ki, həmin yay günü Çaldıran düzü birdənbirə Şah İsmayılı boz ürgənin belindən alıb uşaqlıq illərinə aparmışdı və Şah İsmayıl heç cürə özünü ələ alıb, o uzaq uşaqlıq illərindən qopub ayrıla bilmirdi.

Şah İsmayılın ürəyində hamıdan, hətta özündən də gizlətmək istədiyi – amma bacarmadığı – bir nöqtə var idi, bu nöqtə çox kövrək idi, çox kiçik idi, zərif idi, amma sehrli idi, çünki o kiçik nöqtədə elə bil böyük bir səhra yerləşirdi və bu səhrada sərin yel əsirdi, meh əsirdi və bu yel də, bu mehriban meh də onun hissləri idi, hamıdan gizlətmək istədiyi həmin hisslər ki, Şah İsmayılı Xətai imzası ilə yazan bir şairə çevirirdi. Şah İsmayıl və Xətai bir nəfərdə bir-birinə tamam zidd olan iki nəfər idi və indi Şah İsmayıl istəmirdi ki, döyüşqabağı Xətaiyə çevrilsin.

Şah İsmayılın ən yaxın və inanılmış əmirlərindən Eşikağası Durmuş xan atını hökmdarın yanına sürdü və nə isə soruşmaq istədi, amma şahı çox fikirli gördüyü üçün bir söz deməyə cəsarət etmədi.

Şah İsmayılın uşaqlığı Çaldıran düzündə keçməmişdi, amma o uşaq indi Çaldıran düzündə alabəzək kəpənəklər tuturdu, qarışqa yuvalarına tamaşa edirdi, gül-çiçək dərirdi sonra arxası üstə göy çəmənlikdə uzanıb göyə baxırdı, sonra gözlərini yumurdu və gələcəkdəki dünyasına girirdi; həmin gələcək dünya təmiz idi, pak idi, sevgi, məhəbbətlə dolu idi, qansız idi, qırmızıya boyanmamışdı, hiyləsiz idi, siyasətsiz idi və başdan-başa şer içində idi.

[1] Zülfüqar – İmam Əlinin qılıncının adıdır. Burada şiəliyin rəmzi

Şah İsmayıl indi bu Çaldıran düzündə arxası üstə uzanıb gözünü yummuş o uşağın dünyasından – arzulanan, amma heç vaxt gerçək olmayacaq dünyasından çıxıb boz ürgənin belinə qayıda bilmirdi və birdən-birə Şah İsmayıl bu il anadan olmuş oğlu Təhmasib Mirzəni xatırladı və Şah İsmayıla elə gəldi ki, indi Çaldıran düzündə beləcə mənasında işlənmişdir.

Arxası ustə uzanıb gözünü yummuş uşaq özü yox, Təhmasibdir, indicə qalxıb imək ləyəcək; Təhmasibin imək ləməyini gözünün qabağına gətirdi və gülümsədi, sonra bu gülüş sifətindən çəkildi və İsmayıl fikirləşdi ki, bəlkə bir vaxt babası Şeyx Cüneyd də beləcə öz oğlunu – Şeyx Heydəri xatırlayıb, Şeyx Heydər də beləcə öz oğlunu – Şah İsmayılı xatırlayıb... Yəqin bir vaxt gələcək ki, Təhmasib də öz oğlunu beləcə gözlərinin qabağına gətirəcək... Adlar dəyişir, sifətlər dəyişir, hisslər həmin hisslərdir, xislət həmin xislətdir və əslində dünyada heç nə dəyişmir, həyat elə bir məhəccərin içindədir ki, heç vaxt bu məhəccəri adlamaq olmayacaq. Bu fikir İsmayılı darıxdırdı, ürəyini qısdı və bu dəm məşhur Səfəvi sərkərdəsi, Diyarbəkr hakimi və Şah İsmayılın yeznəsi Xan Məhəmməd Ustaclı qaynının köməyinə gəldi. Azərbaycanın kəşfiyyatçı atlıları xəbər gətirmişdi ki, Sultan Səlimin ordusu üzü Çaldıran düzünə tərəf arxayın-arxayın gəlməkdədi və düşmən ordusunun say çoxluğundan, yeni silahından narahat olmuş Xan Məhəmməd Ustaclı osmanlıların üstünə qəflətən hucum çəkmək istəyirdi.

Xan Məhəmməd Ustaclı çapa-çapa Şah İsmayılın qabağına gəlib ağ atının belindən yerə sıçradı və təzim etdi:

– Şah sağ olsun, onlar yolda ikən üstlərinə hücum edək! Xan Məhəmməd Ustaclının bu sözləri bircə anın içində Şah İsmayılı o uzaq uşaqlıqdan, o təmizlikdən, qayğısızlıqdan qoparıb boz ürgənin belinə gətirdi və o xatirələrin yerini dərin bir təəssüf hissi, bir həzinlik tutdu; sonra Şah İsmayıl bütün iradəsini toplayıb özünü bu təəssüf hissi və həzinliyin də içindən çıxartdı.

Şah İsmayıl son on beş ili birlikdə at belində keçirdikləri sərkərdəsini hirslə təpədən dırnağacan süzdü və səhərdən bəri səssiz dayanmış Eşikağası Durmuş xan yaxşı öyrəndiyi bu acıqlı baxışların mənasını dərhal başa düşdü və dedi:

– Sənin tədbirlərin Diyarbəkrdə işə keçər. Burada Şah İsmayıl var, rəy və göstəriş də onundur!

Xan Məhəmməd Ustaclı Eşikağası Durmuş xana cavab vermədi, çünki bu ölüm-dirim mübarizəsi ərəfəsində belə bir adamla ağız-ağıza verməyi və onun səviyyəsinə enməyi öz ləyaqətinə sığışdırmadı, bir ürək ağrısı ilə təkcə bunu fikirləşdi ki, yaltaqlıq necə bir sirr-xudadır ki, İsmayıl kimi böyük adamlar da yaltaqsız keçinmir və əslində yaltaqlığa möhtacdırlar?

Şah İsmayıl elə bil ki, çərikbaşının[1] ürəyindən keçənləri oxudu və bu dəfə Eşikağası Durmuş xana ötkəm bir nəzər saldı, sonra dedi:

– Mən karvan basan quldur deyiləm!

Xan Məhəmməd Ustaclı qəzəblə alışıb-yanan bu gözlərə baxdı, hirsdən şahın uzun bığlarının nazik uclarının titrədiyini gördü, uzunsov təmiz sifətinə qırmızı əsəb ləkələrinin düşdüyünü gördü və Xan Məhəmməd Ustaclı bu uzun illər boyu neçənci dəfə heyrət etdi ki, bu dünyanın necə işidi ki, boz ürgənin belində oturub hirsindən Çaldıran düzünə sığışmayan bu zəhmli adam belə sözlər deyir:

Sorsa, Xətai kimdir, eşqimdə ol pəri,
Bir binəvayi-xəstədilü natəvan dərəm.

Şah İsmayıl bir tərəfdən sarayda Məliküm-şüəra Şirvanlı Həbibinin başçılıq etdiyi ədəbi məclisin ən adi bir üzvü kimi, qəzəl və qoşmalar yazırdı və məclisin bu şerlər barədə fikrini şerlərindən başqa heç nəyi olmayan kimsəsiz bir şairin ürək çırpıntıları ilə gözləyirdi, bir tərəfdən də Xan Məhəmməd Ustaclının bir müddət bundan əvvəl verdiyi: "– Rəiyyət baş qaldırsa nə etməli?" – sualına – "Əgər rəiyyət bir söz belə dilinə gətirsə, mən Allah-taalanın köməyi ilə qılınca əl ataram və bir nəfəri də sağ qoymaram" – deyə cavab verirdi və Xan Məhəmməd Ustaclı Sahibi seyf vəl-qələmin[2] sərt sifətinə baxa-baxa bircə an belə tərəddüd etmirdi ki, belə də olar, İsmayıl dediyi kimi də edər.

Şah İsmayıl o Çaldıran düzündə yalnız Xan Məhəmməd Ustaclının sözlərinə qəzəblənməmişdi – şah Xan Məhəmmədin keçirdiyi hissləri başa düşürdü və yaxşı bilirdi ki, yeznəsi qorxaq deyil, az qala əfsanəvi bir cəngavərdir, qılıncı möhkəm tutan əli var, düşmənə aman verməyən cəsarətli ürəyi var, vətənə, məzhəbə və Şah İsmayıla sədaqətli qəlbi var, amma Xan Məhəmməd Ustaclı indi bir sərkərdə kimi tələş

[1] Çərik – ayrı-ayrı qızılbaş qoşunları belə adlanırdı.

[2] Sahibi seyf vəl-qələm – mənası "Qılınc və qələm sahibi" deməkdir. Müasirləri bəzən Şah İsmayılı belə çağırırdılar.

hissi keçirirdi və buna haqqı da var idi: Şah İsmayıl Roma papasından tutmuş İspaniya kralı V Karla kimi, İoanitlər ordeninin[1] başçısından tutmuş Polşa kralınacan, Venetsiyadan tutmuş Macarıstanacan bütün Avropa ilə Sultan Səlimin əleyhinə ittifaq bağlamağa təşəbbüslər göstərmişdi – məktublar yazmışdı, elçilər göndərmişdi, amma indi bu Çaldıran düzündə iki yüz minlik Sultan Səlim ordusu ilə təkbətək dayanmışdı; Şah İsmayılı qəzəbləndirən bu baş tutmayan ittifaq, bu təkbətəklik də deyildi – iyirmi səkkiz illik ömrü boyu Şah İsmayıl artıq dəqiq bilirdi ki, siyasət elə bir aləmdir ki və şahlıq da elə bir taledir ki, ən çətin məqamda yeganə pənah öz qılıncın və şüurundur və bu həyat da elə bir həyatdır ki, əslində düşmənlə təkbətək dayanmaq bir o qədər də qorxulu şey deyil, buna öyrəşirsən, çünki əslində hökmdar həmişə düşmənlə təkbətəkdir, öz yataq otağında belə, istirahət çağlarında belə düşmənlə təkbətəkdir, ən qorxulusu gecələrin sakitliyində və tələsiksizliyində özün özünlə təkbətək dayanmaqdı.

Şah İsmayılı qəzəbləndirən səbəb sövq-təbii idi, döyüşqabağı qətiliyə, sərtliyə və qəddarlığa bir hazırlıq idi və həmişə böyük döyüşlər ərəfəsində belə olmuşdu; bu sövq-təbii qəzəb şairi şahın bədənindən qovub çıxarırdı, şairi döyüş hərisinə çevirirdi. Bayaqdan bəri Çaldıran düzündə arxası üstə uzanıb gözlərini yummuş o uşağın dünyası indi tamam yox olub getmişdi, bir əlçatmazlıqda, ünyetməzlikdə qalmışdı.

Az bir müddət ərzində Çaldıran düzündə top-tüfənk səsi, qılınc-qalxan səsi, insan qəzəbi və insan naləsi, at kişnərtisi ərşə qalxdı və bütün yürüşlərdə, döyüşlərdə həmişə Şah İsmayıl ordusunu müşayiət edən və döyüşçülərin vuruşmaq əzmini qaldıran ozanların türkü varsağıları, çukurlarda[2] çalınan cəngilər bu vəhşi səs-küy içində itib batdı, eşidilməz oldu, Çaldıran düzü qan qırmızısına büründü və Şah İsmayıl salnaməçilərin "cəsarət dənizinin nəhəngi, dilavərlik meydanının pələngi" adlandırdıqları osmanlı sərkərdəsi Əlibəy paşa Malquc oğlunu şəxsən qılınc zərbəsi ilə vurub öldürsə də, vuruşda ən adi bir Səfəvi əsgəri kimi iştirak etsə də, baş sərkərdə kimi bütün çəriklərin əməliyyatlarına rəhbərlik etsə də say və silah öz işini gördü – Şah İsmayıl Çaldıran müharibəsində məğlub oldu, ağır yaralanıb ordusunun salamat qalmış hissələri ilə Azərbaycanın içərilərinə çəkildi.

[1]. İoanitlər ordeni – səlibçi cəngavərlərin hərbi təşkilatı.

[2] Türkü varsağıları – ozan mahnıları; çukur – saz.

Şah İsmayıl neçə gün sayıqladı, neçə gün Şah İsmayılı qara basdı, heç kimi tanımadı, heç nə eşitmədi və nəhayət, özünə gələndə, ilk dəfə gözlərini açanda nə ailəsini, oğlanlarını, nə qoşunu, nə Təbrizi soruşdu, ən birinci Behzadı[1] xəbər aldı:

– Kəmaləddin salamatdı?

Bu sual çox gözlənilməz oldu, çünki bu dəm Şah İsmayılın yatağı ətrafında toplanmış sərkərdələrin, vəzirlərin, əmirlərin heç biri Behzad hayında deyildi və Behzad heç ağıllarına da gəlmirdi; bu adamlardan kimi intiqam hissi ilə alışıb-yanırdı, kimi ürəyinin dərinliyində öz gələcək taleyinin hayında idi, kiminin də bütün fikri-zikri bundan ibarət idi ki, Şah İsmayıl tez sağalsın, tez ayağa qalxsın və bütün qayğıları yenə öz üzərinə götürsün – bu qayğıların hamılıqla da olsa yükünü daşımaq çox çətin və dözülməz idi.

– Salamatdı, şah...

Şah İsmayılın kağız kimi ağappaq və tamam zəifləmiş sifətindən yüngül bir təbəssüm ötüb keçdi və hələ də elə bil torun arxasından baxan gözləri bir anlıq işıqlandı.

Sultan Səlim Çaldıran döyüşündə həlak olmuş Səfəvi döyüşçülərinin başlarını kəsdirib bu başlardan ehram düzəltdirmişdi, sonra qoşunu Çaldıran düzündən çəkib Xoyu, Mərəndi tutmuşdu, Təbrizə yaxınlaşmışdı.

Sofinin bütün bunlardan xəbəri yox idi.

Sofinin bundan da xəbəri yox idi ki, kəllələrdən düzəldilmiş bu ehramın lap yuxarısındakı təkcə başın sahibi qəlbgahda Sultan Səlimin çadırına təkbaşına hücum çəkəndə sinəsi top gülləsinə hədəf olmuş məşhur sərkərdə Xan Məhəmməd Ustaclı idi; qarğa-quzğun həmin başın gözlərini çıxartmışdı, alnını, yanaqlarını deşik-deşik eləmişdn, dilini, dodaqlarını qopartmışdı.

Sofi gözlərini bu kəllə ehramından, bu başsız cəsədlərdən çəkə bilmirdi.

Öyüməkdən Sofinin bütün sinəsi sancırdı, bütün bədəni ağrıyırdı, nəfəs ala bilmirdi, amma Sofi gözlərini bu kəllələrdən, bu cəsədlərdən çəkə bilmirdi, elə bil ki, bu kəllələr, bu başsız cəsədlər, bu qan qırmızısı Sofinin gözlərinə gözə görünməyən qarmaq atıb tarımtarım özünə tərəf çəkib saxlamışdı; Sofinin gözləri də ağrıyırdı, göz qapaqları qırpılmırdı, bərəlib açıqca qalmışdı.

[2] Kəmaləddin Behzad 1450-1535 (36) – böyük Azərbaycan miniatür rəssamı. Şah İsmayılın sarayında kitabxana rəisi olmuşdur.

Qarqa-quzğun göydə qıy vururdu. Yerində dayana bilməyib fınxıran, başını cilovdan xilas etmək istəyən at və bərkdən öyüyə-öyüyə atın belində oturmuş diri insan, Çaldıran düzündəki cəsəd sakitliyini pozmuşdu.

Qarğa-quzğun yavaş-yavaş az qala Sofinin lap başının üstündən ötməyə başladı və Sofi dimdiyi, caynaqları, qanlı quşların qanadlarının altından gələn yeli sifətində hiss etdi; bu yel elə bil ölümün, qəbir qurdlarının nəfəsi idi və ölümlə belə bir yaxınlıq Sofini özünə gətirdi; Sofinin saçları heyvani bir dəhşətdən qabarıb dik durdu və Sofi başa düşdü ki bircə an belə itirmədən geri çapmaq lazımdı, Mahmudu bu tərəflərə gətirmək olmaz, Mahmudun yolunu döndərmək lazımdı, çünki Mahmud bütün bunları görməsin gərək, Mahmud təmizdi, kövrəkdi və bu təmizlik, bu kövrəklik bu müsibətə dözə bilməz.

Elə bu zaman Çaldıran düzünün o qarğa-quzğun səsi içindən Mahmudun fəryadı eşidildi:

– Sofi! Sofi! Beş qarış torpaq üstə? Bir kisə qızıl üstə?! Uşaq olmayıbmı bunlar? Göyü, ayı, ulduzları görməyibmi bunlar? Şümr[1] olub bir-birinin başını kəsirlər, Allah buna niyə dözür, Sofi?

Mahmud Sofinin ardınca çapıb gəlmişdi və Çaldıran düzü ilə üzbəüz çıxmışdı.

Sofi Mahmuda baxırdı, Mahmudun səsi beyninin hər bir hüceyrəsinə yayılırdı və Sofi ağlayırdı; Mahmudun səsində tükürpədən bir fəryad var idi, amma bu fəryad Keşişin həyətində, Daməngir İsrailin qarşısındakı fəryad deyildi, bu fəryadda qorxu, ürkü yox idi, bu fəryad başdan-başa bir yanğı idi.

Sofi için-için ağlayırdı. Sofi hər şeyi yadından çıxartmışdı, hətta belindəki qurşağı da bu dəm yadından çıxartmışdı.

Qarğa-quzğun qıyı arasından Mahmudun səsi gah eşidilir, gah da eşidilməz olurdu:

– Mehdi Sahibi-əzzaman[2] nəyi gözləyir, niyə zühur etmir, niyə bu zülmətə dözür, bundan artıq bir müsibət olarmı, niyə gəlib dünyanı düzəltmir?

Bəlkə yoxdu, olmayacaq Sahibi-əzzaman, Sofi, ona görə? Bəlkə düzəltmək olmaz bu dünyanı, Sofi, ona görə gəlmir?

[1] Şümr – Dəməşq xəlifəsi Yəzid ibn Müaviyənin sərkərdələrindən biri olmuşdur və İslam tarixinə görə vuruşma zamanı İmam Hüseynin başını kəsmişdir.

[2] Mehdi Sahibi-əzzaman – 12-ci imamın adıdır, dinə görə qeyb olub və dünyanın axırında gəlib insanlığı xilas edəcəkdir.

Bu küfr sözlər belə daha Sofini qorxutmurdu, çünki dünyanın bütün qorxuları bu Çaldıran düzünün yanında bir heç idi. Sofi için-için ağlayırdı. Sofi Mahmudun dərdinə şərik idi.

Sofi atı Mahmudun qabağına sürüb ağlaya-ağlaya:

– Gedək. – dedi. – Gedək burdan!..Gedək...

Bu dəm Sofi Mahmudu qucaqlamaq istəyirdi, öpüb bağrına basmaq istəyirdi, ömründə olmamış və bundan sonra daha olmayacaq doğma balası kimi Mahmudun dərdini azaltmaq istəyirdi, çünki Mahmud bu Çaldıran düzündə yeganə nəfəs idi.

Mahmud eyni çılğınlıqla:

– Gedək! – dedi. – Gedək, Sofi! – Və Mahmud nazik boğazının damarları şişə-şişə farsca qışqırdı: – Ey müsəlman, dərdi-məra dərman nist əlqiyas![1]

Mahmud bu sözləri deyə-deyə atın başını döndərib çapdı. Çaldıran düzündən uzaqlaşdı, amma elə bil Dağlı Arvad[2] dağlardan enib Çaldıran düzünə gəlmişdi – Mahmudun sözləri qarğa-quzğunun səsi ilə bir müddət əks-səda verdi, Mahmudla Sofinin arasınca qovdu:

– ...dərman nist əlqiyas!..

– ...dərman nist əlqiyas!..

– ...dərman nist əlqiyas!..

Sofi var gücü ilə Mahmudun ardınca çapa-çapa bu Çaldıran müsibətindən, bu qarğa-quzğun əks-sədasından uzaqlaşmaq istəyirdi, amma Sofi hələ bilmirdi ki, müsibət təkcə Çaldıran müsibətindən ibarət deyildi.

Sofi indi başa düşmüşdü ki, nə üçün bir həftədən artıq bir müddətdi Ziyad xanın adamlarından xəbər-ətər yoxdur, nə üçün Ziyad xana göndərdiyi ikinci və üçüncü məktuba cavab yoxdur. Sofi Çaldıran düzündəki geyimlərini indi xatırlayıb başa düşdü ki, Sultan Səlim ordusu ilə Səfəvilər arasında qırğın olub və deməli, indi baş qarışıq idi, indi yəqin Gəncədə aləm bir-birinə dəymişdi.

Düzdü, Sofi bunları başa duşmüşdü, amma əslində Sofinin heç nədən xəbəri yox idi.

[1] Şərq aləmində geniş yayılmış bu məşhur kəlamın tərcüməsi belədir: "Ey müsəlmanlar, bizim dərdimizin dərmanı yoxdur".

[2] Dağlı Arvad – əfsanəyə görə, gözəgörünməz bir qadındır, dağlarda yaşayır və əks-sədanı da verən odur.

Sofinin xəbəri yox idi ki, artıq neçə gündü Gəncə taxtında təzə bir xan oturub və Qarabağ bəylərbəyliyinin bu yeni hökmdarının adı Bayandur xandır.

Ziyad xan Gəncədə Mahmudla görüşüb Mahmudu bu səfərə yola salanda təkcə Bayandur bəy bilirdi ki, bu ata-oğul ayrılığı əbədi ayrılıqdı, çünki Ziyad xanın ömrünə az qalmışdı, çünki Bayandur bəy bütün hazırlığı görmüşdü və hər şey Sultan Səlimin Azərbaycana yürüşünə bənd idi.

Dəli bir taxt-tac ehtirası Bayandurun bütün varlığını sarsıtmışdı, bu ehtiras Bayanduru məhv edirdi, canavar kimi bütün içini yeyirdi və Bayandur yaxşı bilirdi ki, bu ehtiras onu ya qara torpağın altına aparacaq, ya da Ziyad xanın taxt-tacında oturdacaq.

Bayandur bəy Ziyad xanın hər bir hərəkətində, hər bir sözündə, hər bir tədbirində bir qüsur görürdü və hərgah Bayandur bəy özü xan olsaydı, bu siyasət qüsurlarının, bu münasibət qüsurlarının, bu hakimiyyət qüsurlarının heç biri olmayacaqdı.

Həmin "hərgah"lar taxt-tac ehtirasının başlanğıcı oldu.

Allah Bayanduru hökmdarlıq üçün yaratmışdı, ya da ki, yaşamağın mənası yox idi.

Sultan Səlim adamlarının xüsusi çaparı gecə ilə böyük yürüşün başlanmağı xəbərini Bayandur bəyə çatdıranda elə həmin gecə də Bayandur bəy gələcək amansızlıqdan, gələcək şücaətlərdən xəbər verən bir qətiyyətlə Ziyad xanın yataq otağına girdi və özü öz əli ilə xəncəri dəstəyinə kimi, yatmış Ziyad xanın sinəsinə sapladı.

Ziyad xan bircə anlıq gözlərini açmağa macal tapdı və dərhal Bayandur bəyi tanıdı və hər şeyi başa düşdü, hələ tamam axıb getməyən xırda tum gözləri bu köçhaköç məqamında imkan tapıb istehza etdi, sonra Ziyad xan pıçıldadı:

– Mənim canımı qurtardın...

Bayandur bəy nə o anda, nə də çox-çox sonralar bu sözlərin mənasını başa düşmədi, uzun-uzun illər keçdi, Bayandur xanın başına çox qəzavü-qədər gəldi, taxtdan salındı, yenə taxta çıxdı, əsir düşdü, gözləri çıxarıldı, qaçıb dağlara çəkildi, qalalarda gizləndi və ömrünün sonuncu günü ölüm yatağında can verdiyi vaxt Ziyad xanın uzaq-uzaq keçmişlərdə qalmış səsi həmin sözləri bir də pıçıldadı və qoca Bayandur yalnız o zaman bu sözlərin mənasını dərk etdi.

Ziyad xanın sinəsinə xəncər sapladığı həmin anda mənasını başa düşmədiyi bu sözlər Bayandur bəyi üşüm-üşüm üşütdü.

Ziyad xan buna da macal tapdı ki, əlini sinəsinə sürtsün və öz qanına bulaşmış iri pəncəsini Bayandur bəyin sifətinə yapışdırsın.

Sonra Ziyad xan keçindi.

Bayandur bəy məhur kimi sifətinə yapışdırılmış bu isti qanın tamını ağzında hiss etdi, qoxusunu duydu. İndiyə qədər Bayandur bəy ya uşaq vaxtı yıxılıb ağzı əziləndə, ya burnu qanayanda, ya da sonralar döyüşlərdə yaralananda öz qanının tamını hiss etmişdi, amma indi ağzında tamını duyduğu bu qan öz qanı deyildi, başqa adamın qanı idi, yad qanı idi və bu qanın tamı də başqa cür idi.

Sonralar camaatın "Qurd" ləqəbi verdiyi Bayandur xan baş kəsdirəndə də, adam öldürəndə də, döyüş meydanlarında da həmişə ağzında belə bir tam hiss edirdi – yad adam qanının tamını.

Sofinin bütün bunlardan xəbəri yox idi.

Bayandur xan həmin qətl gecəsinin səhəri Gəncə taxtına çıxarkən hələ evlərə od vurmamış, – Ziyad xanın və Qəmərbanunun əli qılınc tutan bütün qohum-əqrəbasını qılıncdan keçirməmiş ilk tədbiri bu oldu ki, Mirzə Salmanın saqqalını dibindən qırxdırdı və cavana, qocaya baxmayıb bütün saray əhli qarşısında Mirzə Salmanı rüsvay etdi:

– İndi daha şəhadət barmağını keçi saqqalına oxşayan saqqalına dolaya bilməyəcəksən, – dedi. – Gicişəndə şəhadət barmağını bilirsən nə elə?..

Sonra Mirzə Salmanı axsaq bir eşşəyin belində tərsinə oturdub ayaqlarını heyvanın sağrısına sarıtdı, başına bir kasa qatıq tökdürüb Gəncədən qovdu və bundan sonra heç kim bilmədi ki, Mirzə Salmanın axırı nə oldu.

Sofinin bundan da xəbəri yox idi ki, çapa-çapa Çaldıran düzündən qaçdıqları zamanda, Gəncənin çöllərində, dağlarında bircə günün içində tamam-kamal qocalıb əldən düşmüş ayağı yalın, başı açıq havalı bir qarı dolaşırdı və o qarı gecə-gündüz ağaclar üçün, kol-kos üçün, dağlar üçün, daşlar üçün belə bir mahnı oxuyurdu:

Öldü Ziyad xanım, Mahmudum itdi,
O itkin Mahmudun anasıyam mən...
Sağalmaz dərdlərin binasıyam mən...
Qəmli hicranların dəryasıyam mən...

Əlbəttə, Sofi burasını da bilmirdi ki, gecə-gündüz bu mahnını oxuya-oxuya dağları, meşələri dolaşan bu havalı qarı biri dişi, o birisi erkək iki canavara rast gələcəkdi və ac canavarlar qarını yeyəcəkdi və o vaxtdan da Gəncə meşələrində bu iki canavardan dünyanın ən qəribə canavar nəsli törəyəcəkdi: həmin nəsildən olan canavarlar ulamaq əvəzinə, gecə-gündüz adam səsi ilə ağlayacaqdı...

X

"Ey müsəlman Allahı! Ey Məhəmməd peyğəmbər! Əgər, siz varsınızsa, əgər, siz haqsınızsa, mənə kömək edin. Kömək edin mənə!.. Mən xaçpərəstəm, amma mən də, axı, insanam və mən hər hansı bir xaçpərəst kimi, hər hansı bir müsəlmanın da burnunun qanamağını istəmirəm. Əgər, sən istəmirdin ki, Mahmudla biz bir yerdə olaq, onda niyə bəs Mahmudun ürəyində mənimçün yer ayırdın? Ey İsa! Ey müqəddəs ana! Ey Allah! Axı, siz hər şeyi bilirsiniz, siz hər şeyi görürsünüz, axı, siz qadirsiniz! Bəs nə üçün siz mənim ürəyimi Mahmudun məhəbbəti ilə alışdırmısınız? Nə üçün mənim bütün fikrim-zikrim Mahmudun yanındadı? Nə üçün mən yatanda da, duranda da Mahmudu istəyirəm, Mahmudu arzulayıram? Nə üçün mənim bütün bədənim, bütün vücudum, bütün varlığım Mahmudun həsrətindədi? Əgər siz bilirdinizsə Mahmud mənim olmayacaq və bu məhəbbət, bu istək bu qədər təhqirlərə dözəcək, bu qədər işgəncə görəcək, mənim atama bu qədər iztirablar gətirəcək, onda nə üçün bəndənizin ürəyini bu məhəbbətə düçar edirdiniz?".

Məryəm xaç çevirdi.

Məryəm səhərdən bəri yuxuya gedə bilməyən, çırpınan beynində söylədiyi bu sözlərə heyrət etdi və özü öz sözlərnndəki gizli şübhədən, şəkdən ürkdü.

Elə bil bu sözləri Məryəm demirdi, kimsə başqası deyirdi.

Məryəm qaranlıq içində bir də xaç çevirdi.

Hərgah Məryəmin ürəyində Allahın, İsanın, Müqəddəs ananın varlığına və qüdrətinə belə bir şübhə oyanıbsa, bəlkə elə bu, Məryəmin günahlarının nəticəsidi? Bəlkə bu, müsəlman hümmətinə məhəbbət yetirməyin sayəsindədi? Bəlkə bu bir pis tilsimdi, bir bəd sehrdi?

Və Mahmuddu sehrbaz? Mahmuddu onu yolundan azdıran? Mahmuddu onun ürəyində şəkk yaradan? Bu pislik və bədlik Mahmuddan gəlir?

Bu sualların buz soyuqluğunu Məryəm bütün bədəni ilə hiss etdi,

Dünyanın mömin bəndələri və o cümlədən, Baba Keşişin özü

görmürəm Məryəm necə əzab çəkir? Bəyəm mən görmürəm Məryəm necə iztirab içindədi? Dinsiz hiyləsi Məryəmin ürəyini oğurlayıb və sən bu ürəyi yenə Məryəmin özünə qaytarmalısan. Belə bir təmizliyi

Keşiş nə deyirdisə onu edirdi. Baba Keşiş hara aparırdısa, ora gedirdi və Məryəmin bu cür mütiliyinin özü də Baba Keşişi sıxırdı, ürəyini bir iztirab içində göynədirdi, çünki Baba Keşiş görürdü, ürəyi ilə, qanı ilə hiss edirdi ki, Məryəmin ürəyi Ziyad xanın oğlu Mahmudun məhəbbəti ilə vurur və bu təcrübəsiz, əslində dünyadan tamam xəbərsiz qız Mahmudun məhəbbəti ilə nəfəs alır. Bu tamam aşkar idi və Baba Keşiş üçün burada gizli, məchul bir şey yox idi.

Məryəmə kömək etmək lazım idi. Məryəmi xilas etmək lazım idi.

Bütün bu müddət ərzində Məryəm bircə dəfə keçmişi xatırladı: sübh tezdən bir bulaq başında dayanıb nəfəslərini dərdilər, əllərini, üzlərini yudular, Baba Keşiş iri ovuclarını qoşalayıb bulaqdan su götürdü və Məryəm başını əyib atasının iri ovuclarından qurtum-qurtum su içdi, sonra başını qaldırıb üfüq boyu qıpqırmızı qızarmış şəfəqlərə baxdı, bu sübh təmizliyindən sinə dolusu nəfəs aldı və birdənbirə soruşdu:

– Görəsən indi Ağ Keçi nə eləyir? Adamlardan ürkürdü Ağ Keçi, görəsən öyrəşdi başqalarına?

Baba Keşiş yaş əlləri ilə uzun, qalın saqqalını sığalladı və dedi:

– İnsanlar da, heyvanlar da, yer üzünün cəmi məxluqatı hər şeyə öyrəşir, adət edir. Dünyada əbədi heç nə yoxdur. Əbədi yalnız Allahdır və Onun təlimidir, qızım.

Məryəm daha heç nə demədi və heç nə soruşmadı.

İndi yatıbmı görəsən? Yazıq qız heç olmasa bir az, lap bir az yataydı.

Birdən həmin gecə qara

xanın adamları Mahmudu tapıb qətlə yetirə bilər və hər şey öz qaydasına düşər.

Baba Keşiş bunu fikirləşəndə birdən-birə bütün sinəsini bir sancı sarsıtdı və Baba Keşiş başa düşdü ki, sinəsindəki bu sancı Məryəmin ürəyinin ağrısıdı və Baba Keşiş dəhşətə gəldi, dəhşətə gəldi ki, onun varlığının bir parçası olan Məryəmi bu qədər ağrıdacaq bir ölümü arzu edir.

Allahı uca tutan və dinə xidmət edən bir adam belə qəddar ola bilərdimi?

Dünyanın necə sirli işləri var...

Nə üçün bir insan başqa bir insana ölüm arzulamalıdı?

Başqasına, hətta dinsizə belə ölüm arzulayan ürək saf ola bilərmi? Müqəddəs Evin qapıları belə bir ürək sahibinin üzünə açıla bilərmi?

Yenə o doğma, o mehriban pıçıltı köməyə gəldi: "Yat, həyatım, yat, özünü üzmə, həyatım, yat, yat, yat, yat... yat... yat...".

Məryəm gözlərini İsanın şəkli asılmış səmtdən çəkmirdi və bütün bədəni titrəyə-titrəyə dodaqaltı nəsə pıçıldayırdı, amma nə pıçıldadığını özü də bilmirdi. Qaranlıqda heç nə görmürdü, amma bayaq bu balaca otağın sahibləri onlara sığınacaq verib şam işığında yerlərini salanda Məryəm gördü ki, qarşıdakı divarda İsanın kiçik şəkli asılıb.

Məryəm qaranlıqda gözlərini qıyıb zəndlə qarşıdakı divara, İsanın şəkli asılmış səmtə baxdı və birdən bu qaranlıq içində o səmtdə həmin

şəkli gördü, amma bu şəkildən baxan İsa deyildi, bu şəkildən baxan Mahmud idi və bu gözlər Mahmudun iri göy gözləri idi.

Məryəm başa düşürdü ki, onu qara basır, başa düşürdü ki, bu görüm yorğun beynin, əzilmiş, əldən düşmüş zehnin görümüdü, amma Məryəm qorxmadı, bu günah görümə görə xaç çevirib üzrxahlıq eləmədi, Məryəm gülümsədi, Gəncədən çıxdıqları o gecədən sonra birinci dəfə gülümsədi, bu görüm Məryəmin bütün bədəninə bir rahatlıq gətirdi və Məryəm o iri göy gözlərin baxışı altında yüngül və səksəkəli bir yuxuya getdi...

XI

Hər şey məhv olub gedirdi və Ceyran heç vaxt ağlına belə gətirə bilməzdi ki, bu qədər zəifdir və dünyada hər şey onun üçün bu dərəcədə uğursuzluqla, bu dərəcədə şərəfsizliklə sona yetəcək.

Yaşamaq mənasız olmuşdu.

Gələcək yox idi.

Ceyran bütün ağlı ilə, şüuru ilə başa düşürdü ki, belə olmaz, bu, axmaqlıqdı və bu axmaqlıq Ceyran kimi dünyanın hər üzünü görmüş, həyatın dibindən çıxıb dünyanın böyük saraylarının astanasınacan gəlmiş bir qadına yaraşmaz, amma Ceyran heç nə edə bilmirdi, ürək sözə baxmırdı və hər şey məhv olub gedirdi.

Gəncənin qız-gəlini belə bir söz danışırdı ki, guya bir saray kənizi Mahmudun dərdindən özünü asmışdı – düzdümü bu, düz deyildimi, ara sözüydümü, yoxsa yox? – fərqi yox idi, amma indi Ceyran da o axmaq qız kimi özünü kəndirdən asmalı idi? Onda bəs bu illərin çarpışması, aclıqla, səfalətlə, təhqirlərlə əlbəyaxalar, min bir fitnə-fəsad, illərin yuxusuz gecələrində atası yaşında, babası yaşında murdar və acgöz kişilərin, bədənləri doysa da gözləri doymayan kişilərin iyrənc ehtiraslarını öz rifahı naminə, gələcəyi naminə gözəl bədəni ilə söndürməsi, yalançı çılğınlığı ilə oxşaması və bütün bunlara dözməsi nə üçün idi? Onunçün ki, dünyanın bərkindən-boşundan xəbərsiz bir novcavanın dərdindən divanə olsun və özü öz əli ilə boynuna kəndir keçirsin?

Ziyad xan öldürülmüşdü, amma indi bunun heç bir mənası yox idi, çünki onsuz da Ceyran Ziyad xanın tapşırığını yerinə yetirə bilməmişdi və yerinə yetirə bilməyəcəkdi – bu aydın məsələ idi. Ziyad xan öldürülmüşdü, deməli, Ceyran tamam azad idi; düzdü, Təbrizdə vəd olunan mülk də əldən çıxırdı, amma nə olsun, dünyanın axırı deyildi ki, – Ceyran cavan idi, gözəl idi, ağıllı idi və hər şey gələcəkdə idi.

Gələcək isə yox idi.

Ziyad xanın öldürülməyi xəbəri gələndə Qısır Qarının ağzındakı tək dişi ağardı:

– Şükür Allaha! – dedi. – Qayıdaq gedək Gəncəyə, öz xarabamıza! Day nə ölümümüz var bu çöllərdə? Bir kişi xeylağı ki, adını cavan oğlan qoya, amma sən kimi nazəninin ləzzətini qanmaya, onda kül onun başına! – Qısır Qarı əllərini qoşalayıb havada kül elədi.

Hirsindən Ceyranın çənəsinə ləkə düşdü:

– Bəsdi, axmaq qarı! – dedi. – Kiri!

Ceyran belə dedi, amma ürəyində fikirləşdi ki, dünyanın ən xoşbəxt adamı, ən qayğısız adamı, bax, bu imansız Qısır Qarıdı – dünya vecinə deyil... Sonra da fikirləşdi ki, kim bilir, bəlkə bu Qısır Qarının da ürəyində elə bir dərdi var ki, heç kimin bundan xəbəri yoxdur və Qısır Qarı da beləcə başını girləyir?

Əlbəttə, Ceyran bilmirdi ki, bax, bu Qısır Qarının, beləcə başını girləyən bu Qısır Qarının taleyi dünyada ən qəribə, ən möcüzəli insan taleyi olacaq...

Cəmi bir neçə həftə bundan əvvəl, gələcək necə işıqlıydı, gecələr adama rəngli yuxular gətirirdi. Gəncədən çıxdıqları o gecə Ceyran güclü idi, bütün dünya Ceyranın gözəl ayaqlarının altında idi.

O zaman Ceyran hələ Mahmudu görməmişdi. Deyirdilər ki, Ziyad xanın oğlu Mahmud çox utancaqdı və gecə-gündüz kitab oxumaqla məşğuldu. Bir-iki dəfə Ceyranın ürəyində bir istək baş qaldırmışdı ki, işi elə qursun ki, Mahmudla rastlaşsın, atasıyla bacarmadığını oğluyla bacarsın, saraya düşsün, amma tez də ürəyindəki bu istəyi boğmuşdu, çünki Gəncə camaatı Qəmərbanunu yaman söyləyirdi və deyirdi ki, adamlar bir tərəfə, dünyanın heç bir heyvanı, heç bir quşu öz balasını elə istəmir, necə ki, Qəmərbanu oğlunu istəyir. Ceyran taleyini sınamağı xoşlamırdı. Ceyran o işdən yapışırdı ki, tamam əminamanlıq idi, yəni bilirdi ki, xeyir özünün olacaq; Ceyranın başı az çəkməmişdi ki, illərin əzab-əziyyəti ilə əldə etdiklərini tərəzinin bircə gözünə qoysun.

Yola çıxdıqları günün səhərisi Ceyran Qısır Qarını yanına çağırdı və Mahmudu xəbər aldı.

Qısır Qarının gözləri az qaldı yağ yemiş pişiyin gözləri kimi çanağından çıxsın:

– Görməmisən? – dedi. – Oxuduğum Quran haqqı, qıldığım namaz haqqı, elə bil Yusifdi, Kənandan gəlib!.. Bir dəfə məni çağırdılar ki... – Qısır Qarı o tərəf-bu tərəfə baxıb sözünün dalını bərkdən demədi, sallaq dodaqlarını Ceyranın qulağına dirədi və ləzzətlə nəsə dedi, sonra da taxta kimi qaxac əllərini bir-birinə vurub uğunub getdi: – Hə, hə, həzrət Abbasın qılıncına gəlim ki, lap zor kişidi!..

Ceyran da gülümsədi və hiss etdi ki, bədənində bir isti baş qaldırdı; Ceyranın belə söhbətlərdən xoşu gəlirdi, çünki Ceyran əvvəllər kişilərlə ancaq qızıl xətrinə yatırdı və ağrıyırdı, əzab çəkirdi, özü özünü zorlayırdı, amma illər ötdü və Ceyran kişilərdən ləzzət almağı da öyrəndi.

Qısır Qarı tək dişini sallaq dodaqlarının arasından ağarda-ağarda gülürdü və güldükcə də hardansa tapıb boynundan asdığı qusuntu muncuğu[1] taxta sinəsində silkələnə-silkələnə bir-birinə dəyib siçan kimi nazik səs çıxarırdı; bu dəm Ceyran fikirləşdi ki, hanı o Abi-Kövsər[2] suyu ki, içib həmişə cavan qalasan, heç vaxt bu Qısır Qarının gününə düşməyəsən... Ceyran fikirləşdi ki, əlbəttə, gələcək, elə bir gün gələcək ki, onun da qaməti "dal" hərfinə dönəcək.

Ceyran hələ ağlına gətirmirdi ki, bir vaxt var idi, bu Qısır Qarı da cavan idi, canlar alan idi, şivəsi çox adamı od kimi yandırmışdı...

Ceyranın cəmi iyirmi beş yaşı var idi, amma Ceyran indidən hərdənbir gələcəyin tənhalığından qorxurdu.

Mehtər Cəfər atları qaşovlaya-qaşovlaya guya ki, atlara kəndlərindən danışırdı, kəndin rahatlığından, istirahətindən və kənd camaatının təmizliyindən, istiqanlılığından danışırdı:

– Eh, olaydıq indi kəndimizdə. Bu yolçuluqdan, bu toz-torpaqdan canımız qurtaraydı. Qəşəngcə düzəldəydik evimizi-eşiyimizi. Qəşəngcə

Mehtər Cəfərin əsli Şirvan torpağından idi, dağların qoynundakı Talıstan kəndindən idi, o yerlərdən ki, lap qədim-qədim zamanlarda, yeddi yüz-səkkiz yüz il bundan əvvəl Cavanşir adında hökmdar o yerlərdə at çapıb, qılınc oynatmışdı, ərəbləri qanına qəltan eləmişdi.

Mehtər Cəfərin bəlkə də heç özünün xəbəri yox idi ki, beləcə həzin-həzin, arzulaya-arzulaya dediyi bu sözlərin hamısını əslində Ceyrançün deyir...

Mehtər Cəfər bu sözləri daha gizlədə bilmədiyi bir ehtiras və şövqlə, gözləri ilə Ceyranı yeyə-yeyə deyirdi və Ceyran mehtər Cəfərin üstünə çımxırmırdı, günəmuzd məvaciblə saxladığı şəxsi keşikçilərinə him eləyib mehtər Cəfəri itim-itim itirmirdi; yalnız ona görə yox ki, Ceyran kişilərin bu cür baxışlarına öyrənmişdi və buna adi bir şey kimi baxırdı və əslində bundan ürəyinə bir şadlıq, gizli bir fərəh gəlirdi; ona görə də yox ki, mehtər Cəfər yaraşıqlı və sağlam oğlan idi; ona görə ki, yazıq mehtər Cəfər bunu hardan bilsin və necə ağlına gətirsin? – Ceyran özü də kənddə doğulmuşdu, kənddə böyümüşdü və on dörd yaşına kimi kənddə yaşamışdı. Düzdü, Ceyran yetim olmuşdu, düzdü, Xorasandan kəndə gələn iki qoca seyid Ceyranı tovlayıb zorlayandan sonra kəndin camaatı cüzam vurmuş kimi, Ceyrandan üz döndərmişdi, düzdü, altmış yaşlı kəndxuda Allahqulu on dörd yaşlı Ceyranı gizlincə kənddən çıxarıb dağa aparmışdı və yayın o cırhacır istisində düz on gün gecə-gündüz doymaq bilməyib, sıxıb, sıxıb Ceyranın suyunu çıxarmışdı, iri dişləri ilə, codsaqqallı sifəti ilə, öküz dırnaqları kimi kobud barmaqları ilə Ceyranın bütün bədənini qapqara qançır eləmişdi, sonra da "–Allah mənim ürəyimi o qədər yumşaq yaradıb ki, sənin kimisini də qayadan yumarlamağa əlim gəlmir. İtil, bir də kölgən buralarda görünməsin!" demişdi və dalına da bir təpik vurub qopmuşdu, amma, amma mehtər Cəfərin dediklərində

yemoyimizi içimoyimizi hazırlayaydı... Bir azdan qış gələcək. Oturaydıq isticə evimizdə, sobanın qırağında, çıqqaçıqnan yanan ocağa baxa-baxa dünyanın işlərini heç vecimizə almayaydıq...

...mehtər Cəfər atla məhrəm söhbətinə qulaq asanda bütün bədənində bir yorğunluq duyurdu və başa düşürdü ki, bu, kənddən qovulduğu o gündən sonrakı illərin

qurub-quraşdırmadan, yalansız, şərsiz, böhtansız rahatlanmaq istəyi, yox, istəyi yox, həsrəti yatıb və mehtər Cəfəri də ona görə qovmaq lazımdı ki, bu yatmış istək oyanmasın, o həsrət dəli eləməsin onu.

Ceyran gülümsədi: mehtər Cəfərin nə təqsiri? Bütün bu lazımsız fikirlər, Ceyranı əldən salan bu duyğular, özünü-tənələr Mahmudla görüşdən sonra baş qaldırıb və həmin gecəyə lənət olsun ki, Ceyranı saraya çağırdılar, qulluq buyurdular, həmin günə lənət olsun ki, Ceyran Mahmudu gördü.

Görəsən Qısır Qarı nə xəbərlə qayıdacaq?

Ceyran tamam əmin idi ki, heç bir xoş xəbər gəlməyəcək və bu dərd ümidsiz dərddi.

Görəsən o dinsiz keşiş qızında nə sehr var ki, bu oğlanı beləcə sehrləyib?

Ceyran gözünü də qırpmadan, "uf" demədən o dinsiz keşiş qızının ürəyinin başına conğar sancmağa hazır idi.

Ceyran axşamüstü Qısır Qarını Sofinin üstünə göndərmişdi və indi xəbər gözləyirdi. Sofi can-dildən, sidq-ürəkdən Mahmuda təsir eləməliydi, Sofi mütləq elə eləməliydi ki, Mahmud Ceyranın olsun və Ceyran Qısır Qarı vasitəsilə Sofiyə az qala bir mən[1] qızıl vəd edirdi ki, bu qızıl Ziyad xanın Ceyrana verdiyi qızıldan iki dəfə artıq idi.

doyacaqdı və bilməyəcəkdi ki, bu kimsəsizi, bu pulsuzu, bu evsiz-eşiksizi nə eləsin? Dünyanın işləri, bax, belədi və dünyada heç nəyə etibar yoxdu. Dünənə kimi bu oğlan xan oğlu idi, bu gün isə yetimin və yoxsulun biridi. Bu dünya fanidi, ömür bivəfa. Beləcədi qanlı fələyin işi, nə şah bilir, nə xan, nə gəda, hey!..

Mahmudun bu kimsəsizliyi də birdən-birə Ceyranın ürəyini sıxdı və Ceyran birdən-birə də başa düşdü ki, onun özündən səkkiz yaş kiçik Mahmuda məhəbbətində haradasa lap dərinlərdə ananın oğluna məhəbbəti də var. Bu fikir Ceyranı sarsıtdı və Ceyran yenə də Mahmudun başını öz döşlərində hiss etdi və Ceyrana elə gəldi ki, elə bil indi öz balasını əmizdirəcək.

Ceyranın heç vaxt uşağı olmamışdı və yəqin ki, heç vaxt da uşağı olmayacaqdı və Ceyran ömründə bunun fərqinə varmamışdı, çünki vaxtilə o qədər əzab-əziyyət, o qədər işgəncə və iztirab çəkmişdi ki, indi yalnız özünün xoşbəxtliyi barədə düşünürdü və hər bir işi öz şəxsi rifahı üçün, təkcə özü üçün görürdü. Bir dəfə – iki, üç il bundan əvvəl – kəndxuda Allahqulu Ceyranın yadına düşdü və Ceyran bu qərara gəldi ki, pulla qatil tutsun, kəndə göndərib kəndxuda Allahqulunun başını kəsdirsin. İki gün bu intiqam hissi ilə yaşadı, amma sonra

ardınca səfərə çıxanda bu səfər Ceyranı Təbriz saraylarına yaxınlaşdıran dümdüz, hamar yolun başlanğıcı idi, amma sən demə, həmin gecə yeni iztirabların və sarsıntıların başlanğıcı imiş.

Ceyran Mahmudu birinci dəfə bulaq başında haqladı və ancaq Ceyranın bacardığı eyhamlarla, əslində dəli bir ehtirasdan və şəhvətdən xəbər verən bir utancaqlıqla Mahmudla tanış oldu, amma Ceyran burasını da başa düşdü ki, Mahmud nə bu eyhamları anladı, nə də xəyal Mahmudu gələcəyin o şəhvətli anlarına apardı. Mahmud adicə olaraq başa düşmürdü ki, təsadüfən rastlaşdıqları və kəcavəsindən enib bulaqdan su içən bu qadın ondan nə istəyir.

İkinci dəfə Ceyran özünü Mahmuda göstərdi.

Nökərlər xəbər gətirdi ki, Mahmudgilin yolu Armudlu gölün üstündən keçir. Həmin günəşli gün Ceyranın karvanı kəsə yolla Mahmudgili qabaqladı və o günəşli gündə pusquda dayanmış kənizlər Mahmudgilin gəldiyini xəbər verəndə çılpaq Ceyran Armudlu gölün ilıq suyuna ayaq basdı və kənizlər hay-küylə, gülə-gülə, zarafatlaş-

Birdən-birə Qısır Qarı elə bil qeybdən peyda oldu, Mahmudun qabağına gəlib:

– Boy!.. – dedi. – Başıma xeyir!.. – Sonra gözü ilə Ceyranı göstərib: – Qorxma, – dedi. – Demərəm ona ki, baxırdın burdan...– Qısır Qarı Mahmuda göz vurdu. – İndi bax, o çadıra girəcək, tək olacaq orda... Bulaq başında sənə aşıq olub... – Qısır Qarı xışın-xışın güldü – hə, hə, gəl bəri, gəl aparım səni çadıra, özün qurula onu məhrəbayla... Gəl... Gəl bəri...

Bircə anın içində Mahmudun bütün varlığına bir qorxu, təlaş hakim oldu və Mahmudu ayıltdı: Mahmud qorxdu ki, indicə qaça-qaça gedib o çadıra girəcək və bütün ömrü boyu, bundan sonra nə qədər yaşayacaqsa, yalnız bu qadının bədəni ilə nəfəs alacaq və o zaman dünyada bir tək, bir kimsəsiz, bir inamsız qız qalacaq: Məryəm.

Və Mahmud bilmədi ki, özünü necə məcbur etdi, atı necə çapdı, Armudlu göldən necə uzaqlaşdı.

Qısır Qarı yana-yana, ağzından tüpürək

Ceyran həmin gecəni sübhə kimi yata bilmədi. Kəndxuda Allahqulu ilə kəndlərinin yaxınlığındakı dağda keçirdikləri və indi uzaq illərii arxasında qalmış o işgəncəli gecələrdən sonra, hətta on beş yaşında qaraçılarla yaşadığı müddətdə belə, Ceyranın bu cür əzablı gecəsi olmamışdı. Əvvəlcə Ceyran elə bilirdi ki, Ziyad xanın oğluna hirsi tutub, bu cavan oğlanın belə bir əfəlliyinə acıqlanıb, amma sonra başa düşdü ki, yox, belə deyil, Ceyranın özünə hirsi tutub, günortakı o çılpaqlığına görə Ceyran indi öz-özündən həya edir və bütün bunlarla bərabər, Ceyran başa düşürdü ki, belə olmaz, özünü bu cür tənələrin

sürürdü və çöllü-biyaban bir yerdə səhər tezdən kənizlərdən birini irəli – Mahmudu çağırmağa göndərdi:

– De ki, kəcavədə bir nəfər vacib bir işdən ötrü səni görmək istəyir.

Sonra Ceyranın əmri ilə kəcavəni dəvənin belindən alıb yerə qoydular və kəniz-nökər kənarlara çəkildi. Ceyranı tək buraxdı. Ceyran Mahmudu gözləməyə başladı. Dünən gecə bu səhər görüşünü qət eləmişdi, daha dözə bilmirdi və Mahmuda deyəcəklərini uşaq kimi əzbərləmişdi. Həqiqəti deyəcəkdi, hər şeyi deyəcəkdi Mahmuda:

Sofi heç bir söz demədi, kəcavəyə ötəri bir nəzər salıb Mahmudun atının cilovundan yapışdı və bu atı da ardınca çəkə-çəkə yavaş-yavaş uzaqlaşdı.

Mahmudun qışqırtısı hələ bu çöllərdən çəkilməmişdi.

Ceyran kəcavənin içində tək qalmışdı. Əslində Ceyran bütün yer üzündə tək və tənha idi.

Ceyran başını geri atıb ala gözlərini kəcavənin alçaq tavanına zilləmişdi və bu gözlər bu dəm heç nə ifadə etmirdi.

Ceyran başa düşdü ki, Mahmud təkcə ondan qaçmadı, Mahmud eyni zamanda özü özündən qaçdı.

Sonra Ceyran üşüdü, köynəyinin cırılmış yaxasını sinəsinə sıxdı və Ceyranın yadına düşdü ki, uşaq olanda kənddə Novruz bayramında axşamçağı ocaq qalayardılar və gecə hay-küy sala-sala, atılıb düşə-düşə ocağın üstündən hoppanardılar və gecə böyüklərdən gizlin – ocağı su ilə söndürmək günah idi – quyudan su çəkib qıpqırmızı közərib yanan bu ocaqların üstünə su səpərdilər, közlər cızıldayıb [illegible]

[illegible]

Ceyran nə üçün bu iki misranı xatırladı?

Bu dəm Gəncənin o xanəndə qızları ilə Ceyranın arasında elə bir məsafə var idi ki, bu məsafəni dünyanın heç bir atı, heç bir dəvə karvanı başa vura bilməzdi, bu, əlçatmaz, ünyetməz bir məsafə, uzaqlıq idi; Ceyran Gülguna[1] minib illərlə çapsaydı da daha bu məsafədən canını qurtara bilməzdi, Arəş[2] dalbadal yüz dəfə ox atsaydı da bu məsafənin axırına çata bilməzdi, çünki bu məsafənin sonu yox idi. Hər halda, Ceyrana belə gəlirdi.

Gəlib nə deyəcək Qasır Qarı? Nə edəcək Sofi? Mahmud təmizliyinin müqabilində bütün dünya çirkab içindədi, təkcə Ceyran yox. Nə üçün göndərdi Qısır Qarını? Zorla da məhəbbət olar? Ceyranın ürəyindən yenə bir sızıltı keçdi: ağla ürək, ayrılığın günüdü, ayrılığın dəmi gəlib. Ceyran çadırın pərdəsi arasından çölə baxdı. Dəvələr yerə çöküb gövşəyirdi və Ceyrana elə gəldi ki, bu dəvələrin beli xurcun-xurcun ləl-cavahirlə, qızılla doludu və bütün bu varidatı Ceyran gələcək illərin çarpışmaları ilə, özünü oda-közə vurmaqla, ağlasığar

[illegible]

amma məsələ burasında idi ki, bu yeni məhəbbət birdən-birə öz kəndlərini mehtər Cəfərin yadına salmışdı; mehtər Cəfər on iki il idi kənddən ayrılmışdı və kənddə onu indi təkcə anası gözləyirdi, başqa heç kimləri yox idi. Bu on iki ildə Gəncədə yığdığı pulla mehtər Cəfər özü hələlik kiçik bir ilxı saxlaya bilərdi. Camaatın bir-birini qırdığı bu zamanda yaxşı atın qiyməti qızıl qiyməti idi və mehtər Cəfər özü var-dövlət qazana bilərdi, qoşunları yaxşı atlarla təmin eləyən böyük-böyük ilxıların sahibi ola bilərdi.

Amma işin içindən iş çıxdı, bu at məhəbbətinə, at qayğısına yeni bir məhəbbət, yeni bir qayğı əlavə oldu və bu yeni məhəbbətin, yeni qayğının yanında at məhəbbəti, at qayğısı nə idi ki? Heç nə... Mehtər Cəfər ayıq oğlan idi və yaxşı bilirdi ki, ayağını gərək yorğanına görə uzatsın; Ceyran kimi bir xanım onun tayı deyildi, tayı gərək axtarıb onun tayını tapaydı, amma ürək də görək bunu deyirdimi?

Elə bu dəm mehtər Cəfərin həyatında dünyanın ən böyük möcüzəsi baş verdi: Mehtər Cəfər hiss etdi ki, ömrü boyu adət etdiyi at iyinə çox zərif, çox incə bir iy qarışdı və mehtər Cəfər başını qaldıranda Ceyranı öz qarşısında gördü. Ceyran heç nə deməyib düz mehtər Cəfərin gözlərinin içinə baxırdı. Mehtər Cəfər bir o qədər də incə adam deyildi, amma mehtər Cəfər də Ceyranın adamın ağlını başından eləyən ala gözlərinin dərinliyinə hopmuş kədərlə bərabər, bu gözlərdə bir qətiyyət, bir çılğınlıq hiss etdi, sonra Ceyran əlini qaldırıb mehtər Cəfərin qaşov tutmuş iri və kobud əlinin üstünə qoydu və mehtər Cəfər başa düşdü ki, ilqarı düz adam olduğu üçün Allah onun ürəyinin səsini eşidib və mehtər Cəfəri dünyanın ən xoşbəxt adamı eləyib...

...Həmin gün Ceyran Qısır Qarını gözləmədən, bütün karvanı, kəniz və nökərlərini çölün ortasında atıb, Gəncədəki imarətini, var-dövlətini yadından çıxarıb mehtər Cəfərə qoşuldu və bir atın belində mehtər Cəfərin on iki il bundan əvvəl qoyub getdiyi kəndə çapdılar.

Ceyran belə Ceyran idi.

XII

Ocağın közü qızarırdı.

Dabbaqlar bütün günortanı bu çayın qırağında qoyun, keçi dərisini iylədib tumac qayırırdılar və indi, gecənin bu vədəsində də dəri iyi

buralardan çəkilib getməmişdi və Sofi ürəyində yer üzündəki dabbaqların atabaatasına söyə-söyə barmaqlarını ocağın közünə tutub qızdırırdı.

Dabbaqların nə təqsiri var idi?

Bəs Sofinin nə təqsiri var idi? Sofi hansı günah işin sahibi idi ki, dərviş olub çöllərə düşmüşdü, yaşının bu vaxtında kol-kos dibində yatırdı və bütün ürəyi qorxu içində idi ki, sabah nə olacaqdı? – Bir quyu qaranlığı bürməmişdi bu sualı və nə üçün belə bir quyu qaranlığı Sofinin qisməti olmalıydı?

Ümumiyyətlə, axı, elə qırx altı illik ömrünün özündə nə görmüşdü Sofi?

Payıza daha bir şey qalmamışdı və gecələrin ayazı adamı üşüdürdü...

Sofi lənət şeytana deyib axır vaxtlar onu tamam əldən salmış bu fikirləri başından eləmək istədi, çünki Sofi sövq-təbii hiss edirdi, başa düşürdü ki, bu fikirlər bütün vücudunu qamarlayır, Sofiyə sahib olur və Sofini əsl həyata, əsl yaşayışa çağırır.

Sofi əllərini bir-birinə sürtə-sürtə qollarını da közün üstünə tutdu.

Bu axşam burada məskən salmışdılar və Sofi gecə Mahmudun belinə küp qoymuşdu – Mahmud neçə gün idi ki, soyuqlamışdı, öskürürdü, qızdırırdı və sayıqlayırdı.

Bütün bu işlərin axırı nə olacaqdı?

Mahmudun gözləri güllərə baxırdı və elə bil, "Məryəmi gördüzmü?" – soruşurdu, göllərə baxırdı, "Məryəmi gördüzmü?" – soruşurdu, çöllərə baxırdı, yollara baxırdı, sulara baxırdı, "Məryəmi gördüzmü?" – soruşurdu; qürbətdə hərə öz elini arzular. Mahmudun gözləri, Mahmudun baxışları, Mahmudun hərəkətləri qürbət ellərdə ah-zar edə-edə bir keşiş qızını arzulayırdı və hərdən bütün bunlar Sofiyə elə təsir edirdi ki, Allahın yağışı yağanda da Sofiyə elə gəlirdi ki, elə bil yağış yağmır, Mahmudun dərdinə göylər ağlayır.

Deyəsən, Sofi də dəli olurdu...

Sofi ilk çağlarda bu səfəri də gəldi-gedəri bir şey bilirdi, bu səfərə ciddi baxmırdı, ürəyinin dərinliyində bir sakitlik var idi, çünki Qəmərbanu var idi. Ziyad xan kimi bir əjdaha var idi və kim bilirdi ki, axırı necə olacaq?..

Mahmudu yolundan döndərmək mümkün deyildi, hər dəfə irəliyə getmək istəyəndə Sofi:

– Orada elə lotlar var ki, – deyirdi – dizi kişmiş yeminə qərənfillə doldurub yeyərlər. Biz orada baş çıxara bilmərik...

Mahmudun da elə bircə sözü var idi:

– Mən yolçuyam, Sofi, yollar keçib gedirəm...

Yaxşı, sən yolçusan, yolçu ol, yollara düşmüsən, düş, öz aləmin var, öz məqsədin var, bəs mənim təqsirim nədir? Və ümumiyyətlə, mənim təqsirim nədir ki, qırx altı yaşa gəlib çatmışam, amma ömrümdə bir xoş gün yaşamamışam, həmişə əl buyruqçusu olmuşam, başqalarına xidmət etmək üçün bütün həyatımı qurban vermişəm?.. Bəsdir, axmaq Sofi, bəsdir. Nə tez başqaları oldu, yad oldu bu adamlar! Ziyad xanın bədəni torpağın altında hələ soyumayıb... Düzdü, Qəmərbanu da deyirlər itgin düşüb, amma dünyanın işlərini bilmək olmaz, Sofi...

Sofi ocağın o biri tərəfində yerə saldığı palazın üstündə üzüqoylu uzanmış Mahmuda baxdı və bu qara zindan ağırlığı fikirlərini dağıtmaq üçün:

– Küp ağrıtmır? – soruşdu.

Mahmud, həmişə olduğu kimi, yenə öz aləmində idi və Sofinin bu sadə sualına cavab vermək əvəzinə, özü suallar verdi:

– Bu təzadlar nədi belə dunyada, Sofi? Bir tərəfdə səfalət, o biri tərəfdə mal-dövlət... Bir tərəfdə Firdovsinin zəkası, o biri tərəfdə Sultan Mahmudun[1] nadanlığı...

Sofi hirsləndi:

– Bəyəm indi belədi? – dedi. – Bəyəm min il bundan qabaq belə olmayıb? Bəyəm belə olmayacaq min ildən sonra? Bəyəm təbiət öz gündüz ilə bərabər, gecə yaratmayıb? Bəyəm yaşadan da, öldürən də təbiət deyil? Gecənin yarısı indi bunların dərdini çəkmək bizə qalıb?

Sofi dalını demədi, özünü güclə saxladı: Sofi demək istəyirdi ki, bəyəm dünyanın elə ən böyük təzadı bu deyil ki, Ziyad xan kimi, Qəmərbanu kimi od parçalarının – əjdahanın və dişi aslanın sənin kimi oğlu var?

Sofi bu dəfə özünü saxladı, amma Sofi bilirdi ki, bir azdan daha özünü saxlaya bilməyəcək, ağzına gələni bu oğlana deyəcək və Sofi-

[1] Sultan Mahmud Qəznəvi (997-1030) – Şərqi İranın, Türküstanın və Hindistanın böyük bir hissəsində hökmranlıq edən Qəznəvilər sülaləsinin banisi idi və deyilənə görə Əbülqasım Firdovsi "Şahnamə"ni onun sifarişiylə 35 il müddətinə yazmışdır, amma sonradan Sultan qoca şairi aldatmışdır.

nin birdən-birə çənəsini qollarına dirəyib üzüqoylu uzana-uzana gözlərini gecənin qaranlığına zilləmiş bu kimsəsiz oğlana yazığı gəldi...

Mahmud gecənin qaranlığına baxa-baxa fikirləşirdi ki, torpaq hər yerdə eyni torpaqdır, amma torpağın ən zəifi insandır[1], düzdü, Sultan Mahmuddan heç nə qalmadı, amma Firdovsidən "Şahnamə" qalıb, amma nə olsun?; bu dəm bu "Şahnamə" şöhrətindən xorasanlı Əbülqasıma nə fayda?; xorasanlı Əbülqasım çoxdan torpağa qarışıb yox olub və bir vaxt gələcək ki, dünyada Mahmud da olmayacaq və ən başlıcası isə, bir vaxt gələcək və Məryəm də qara torpağa dönəcək və bir halda ki, bu cür olacaqdı, onda biz heç, bəs nə üçün Allah Məryəmi xəlq etmişdi? O gün rastlaşdığı qoca bu suala cavab verə bilərdimi?

Həmin qoca ilə iki gün bundan əvvəl rastlaşdılar: qoca eşşəyə minmişdi və düz onların üstünə gəlirdi, qucağında da bir bağlama aparırdı. Bu qocanın sifəti çox tanış idi və Mahmuda elə gəlirdi ki, Gəncədə ta uşaqlıq vaxtlarından bu tərəfə həmin qocanı çox görmüşdü, amma dəqiq haçan görmüşdü və kim idi – bilmirdi; bu qoca elə bil ki, yer üzünün bütün qocalarına oxşayırdı və eyni zamanda heç birinə oxşamırdı.

Qoca eşşəyi düz Mahmudun qabağına sürüb dayandı və tamam yaşıl gözləri ilə altdan-yuxarı Mahmuda baxdı. Mahmud da atın cilovunu çəkdi və bir müddət beləcə bir-birlərinə baxdılar, sonra Mahmud qocanın əlindəki bağlamaya işarə etdi:

– Bu nədi belə?

– Dörd kitabdı[2]

– Sən kimsən?

– Musayam, Davudam, İsayam, Məhəmmədəm.

– Allahsan?

Qoca yamyaşıl gözlərini gün işığı altında qıyıb:

– Yox, – dedi. – Adamam. Sənəm, oyam, mənəm, Məryəməm, Sofiyəm.

Mahmud:

– Bəs... bəs dərd əlindən necə çatlamır sinən? – soruşdu.

– Sən dərdi görürsən, dərd axtarırsan hər şeydə, amma mən, bax, o dağları da görürəm, bu otları, çiçəkləri də görürəm, bu çayı da

[1] İslam fəlsəfəsinə görə insan torpaqdan yaranıb.

[2] Dörd müqəddəs kitab nəzərdə tutulur. Tövrat (Musa peyğəmbərin kitabı), Zəbur (Davud peyğ

görürəm, səndə nə yaxşı var, onu da görürəm, Sofidə nə yaxşı var, onu da görürəm...

Sonra Qoca yamyaşıl gözlərini Mahmuddan çəkib eşşəyi mahmızladı və yoluna davam etdi.

Sofi bir neçə gün bundan qabaq yanına xahişə gəlmiş Qısır Qarını elə qovmuşdu ki, Qısır Qarı qorxusundan səsini də çıxarmayıb, qaçıb canını qurtarmağı qənimət bilmişdi.

Qısır Qarı Ceyranın adından kişə-kişə qızıl boyun olurdu ki, Sofi

karvan yükünü saymaqla qurtaran deyildi və o zaman Sofinin ürəyində heç vaxt bilmədiyi bir hiss baş qaldırdı: Sofi qurtarmaq bilməyən karvan zənginliyi müqabilində özünün heçliyini dərk etdi və bütün bədəninə soyuq su çiləyən bu kəşf Sofini elə sarsıtdı ki, birdən-birə öz əllərini qan içində gördü, elə bil, gecə ilə Qəmərbanunu xəncərlə doğrayıb ləl-cavahirini götürüb qaçmışdı: elə bil o ləl-cavahir Sofinin qıpqırmızı qana bulaşmış əllərində işıldamağa, dünyanın min bir rənginə çalmağa başladı. Sofi yerindən sıçrayıb atın belinə atıldı və həmişə sakit olan bu adamdan çıxmayan bir hikkə ilə atı qamçılayıb çapdı.

Təkcə bir qolu qoparılmış soyutma toyuq elə-eləcə söyüdün altında qaldı. Sofi bütün həyatında birinci dəfə idi ki, belə bədxərclik edirdi.

Sofi sidq-ürəkdən Allaha inanan adam idi, fırıldaqçı mollalarla, yalançı cadugərlərlə, adamı cəddi ilə hədələyən acgöz seyidlərlə arası yox idi, amma Allahın adını uca tuturdu və o zaman Sofi Allahı köməyə çağırdı və günlər keçdikcə Sofinin ürəyini bürümüş o dəli tamah hissi də keçib getdi.

Amma indi bu hiss keçib getmək bilmirdi.

Bəlkə ona görə ki, ürəyinin lap dərinlərində Sofi özü o hissin keçib getməyini istəmirdi? Nə üçün Sofi çöllü-biyabanlarda özünü məhv etməlidi və günün cırhacır istisində sonu görünməyən bu çöllərdə adi bir böyürtkən kolu görəndə gözünə işıq gəlməlidi, elə bil ki, tuba[1] görüb?

Nə üçün Sofi qurşağında bu qədər varidat gəzdirdiyi halda özü öz ayaqları ilə özünü gələcəyin səfalətinə aparır və əslində qurşağında gəzdirdiyi bu varidat düz yaşadığı üçün, təmiz yaşadığı üçün, həmişə gözü tox olduğu üçün, bütün uşaqlığını, gəncliyini, ən sağlam kişilik çağlarını başqalarına xidmətdə keçirdiyi üçün Allahın ona bəxş etdiyi halalca haqq deyilmi?

Sofi elə bil ki, diksindi.

Allah?

Allahın adını tutma, rəzil insan. Bütün dünyadakı insanlar rəzildi və sən ki bu cür xəyallar edirsən, rəzillərin rəzilisən və sənin özündən xəbərin yox imiş. Bütün dünyanın insanları rəzildirsə, onda Mahmud da rəzildi? Yox, Mahmud rəzil deyil, Mahmud... Sofi bu sözü fikrinə gətirmək istəmirdi, amma nə üçün? Nə üçün həqiqətin gözünə düz

[1] Tuba – Cənnət bağında gözəl və əzəmətli bir ağac.

baxmaq lazım deyil və nə üçün həqiqətdən qaçıb, özümüzü aldatmalıyıq? Həqiqət isə bu idi ki, Mahmud... Ürəkli ol, Sofi, ürəkli ol və sən yolunda ömrünü çürütdüyün adamlardan əskik deyilsən, ürəkli ol: Mahmud axmaq idi və Mahmuda baş qoşmaq, dünyanın bu vaxtında məcnunluq eləmək xəyalına düşmüş bu axmağın, hə, Sofi, sözü adı ilə de, bu axmağın dalınca getmək ona nə verəcək, sənə nə verəcək? Görmədin dünən Allahın əkinçiləri, o əkinçiləri ki, başqa vaxt onları adam hesab eləmirik, bizə necə qəhqəhə çəkib güldülər?

Dünən Sofi ilə Mahmud bir-biriylə mübahisə eləyən iki əkinçiyə rast gəldi. Mübahisə torpaq üstündə idi və əkinçilərdən biri o birinə başa salmaq istəyirdi ki, sahəsini iki arşın düz ölçməyib, səhv salıb və nə qədər edirdisə o birisi başa düşmürdü. Sofi ilə Mahmudu görəndə elə bil gözünə işıq gəldi.

– Ay başınıza dönüm, – dedi. – İmam Hüseyn yolunda mənə kömək eləyin, bu qanmaz oğlu qanmaza qandırım ki, səhv eləyir.

Sonra kişi sahəni necə ölçdüklərini və səhvin nədə olduğunu Mahmuda başa saldı, sonra da soruşdu:

– Hə, ay başına dönüm, indi sən denən, mən düz deyirəm, yoxsa yox?

Bu kəndli kişilər nə biləydi ki, Mahmudun fikri özündə deyil, bu kəndli kişilər, axı, Sofi deyildi.

Mahmud dedi:

– Məryəm düz deyir...

– Nə? – Kişinin gözləri bərələ qaldı, sonra ikisi də mübahisələrini yadlarından çıxarıb Sofi ilə Mahmudu hoydu-hoyduya götürdü.

– Hə, kim düz deyir? – Sonra Mahmudun qolunu silkələdi. – Sənin ləyəm, kim düz deyir? – Kişi bir də soruşdu:

Belədir işlər, Sofi...

Tutalım ki, getdik o məlun keşişi tapdıq, sonra nə olsun? Keşiş Mahmuda qız verəndi? Kimi var idi Mahmudun ki, qızı keşişdən alıb buna verə? Lap elə tutalım ki, Sofi əlini qurşağına saldı, daş-qaş gücünə – insan çiy süd əmib, – keşişi razı saldı və keşiş qızını Mahmuda verdi, sonra nə olacaq? Sofi qurşağındakını dinsiz bir keşiş qızı ilə bu əlsiz-ayaqsız Mahmuda verməlidi ki, alın, xərcləyin və mən də ölənə qədər sizə xidmət eləyəcəyəm, babası keşiş olan uşaqlarınızı saxlayacağam? Nə üçün? Niyə axı? Niyə?

Mahmud onsuz da pul qədri bilən deyildi və özünün nəyi var idisə yolda ac-yalavaca paylamışdı. Sofinin nəsihətləri Mahmuda təsir

etmirdi və Mahmud həmişə kasıb-kusuba pul verəndə Sofi fikirləşirdi ki, sən bəyəm Hatəmi-tai[1] olub neyləyəcəksən, a bədbəxt? Bəyəm dünyanın ki, bu qədər acı var, onların hamısını doydurmaq olar?

Yazıq Sofi başa düşmürdü ki, Mahmud cibindəkiləri təkcə ona görə kasıblara paylamırdı ki, acdırlar, çörək yesinlər; Mahmud bu səfər boyu hər addımda pulun və ümumiyyətlə, varidatın, olanın mənasızlığını dərk edirdi və buna görə də kasıb-kusub sədəqə üçün təşəkkür edəndə özünü naqolay hiss edirdi. Mahmuda elə gəlirdi ki, əksinə, bir qızıl, ya bir gümüş verməklə bu adamları tovlayır və onlar heç nə başa düşmürlər.

Sofi həmişə fikirləşirdi ki, yaxşı ki, Mahmudun onun qurşağından xəbəri yox idi və əslində indi Sofinin qurşağından dünyada heç kimin xəbəri yox idi. Təkcə Allahdan başqa...

ürəyində özünə yuva salır, bu dünyada Mahmudun qisməti qəbirdən başqa nə ola bilər? Hamımızın qisməti qara torpaqdı, amma sən öz əllərinlə başqasına qəbir qazsan, Sofi, onda qara torpağın da bağrı yarılar və bütün dünya alt-üst olar.

Sofi yanıxa-yanıxa Mahmudun kürəyini ovuşdururdu. Sən bir bu cəllad dünyanın işinə bax... Düz doqquz il Mahmudun yolunu gözlədilər, Mahmud anadan olanda bütün Gəncə camaatı xəzinənin hesabına qırx gün, qırx gecə müftə yeyib-içib kef elədi və indi həmin Mahmud bir səfil kimi kol dibində belinə küp qoydurub... Nağıl qoşub danışsan, inanmazlar buna... Sofi yun şalla Mahmudun üstünü basdırdı ki, küpün yeri soyuq çəkməsin və ürəyi yana-yana da dedi:

– Sən indi gərək yorğan-döşəkdə yatasan, bala... Kürəyin kömür kimi qaralıb... Yox, bala, sabah səni qoymayacağa

və Sofi ürəyində özünü gəmirirdi, amma Mahmudun ürəyində ona mahnı oxuyurdular...

Lap yaxşı oldu, Sofi, sənincün bu da azdı. Sən iztirab çəkirsən ki, bu yazıq beləcə soyuqlayıb, amma o özü üçün nəğmə oxuyur və səni elə salır. Sənə bu da azdı, arsız kişi. Nə istəyirsən ondan? Səfərdən döndərib hara aparacaqsan onu? Bəlkə Gəncəyə aparacaqsan ki, al, Bayandur xan, kəs bunun başını? Üstəlik mənim də başım peşkəşdir? Hansı başqa şəhərə aparacaqsan onu, avam kişi? Sən indi heç öz dərdini çəkə bilmirsən, onun dərdini də özünə yük eləyəcəksən? Sən görmürsən ki, Allah bunu belə yaradıb və bu iş düzələn iş deyil? Sən görmürsən ki, bu adam elə bir əlacsızlıq içindədi ki, heç bir işıq ucu görünmür?

Sofi fikirləşdi ki, bəlkə bayaq uzaqdan gələn o xanəndə səsi Hatif[1] idi və Sofini insan olmağa və insan kimi yaşamağa çağırırdı?

Sofi fikirləşdi ki, əlbəttə, adi bir bəndə yox, Sahəölçən[2] olsaydı, Mahmudu bir göz qırpımında Məryəmə yetirərdi, amma Sofi, Sahəölçən deyildi və Qələmlövhi-məhfuzda[3] necə yazmışdısa, elə də olacaqdı.

Ziyad xanın öldürülməsi xəbəri gəlib çatanda Sofinin bütün içini heyvani bir qorxu bürümüşdü: Bayandur xan adam göndərib Mahmudu da, elə Sofinin özünü də öldürdəcək, amma incəvarı, Mahmud elə xan oğlu idi ki, onu öldürməyin, ya öldürməməyin əhəmiyyəti yox idi və buna görə də Mahmud barədə tədbir görməyə Bayandur xanın heç vaxtı yox idi. Dünyanın işlərini nə bilmək olar, bəlkə heç kimə rəhmi gəlməyən Bayandur xanın Mahmuda rəhmi gəlirdi? Yox, Sofi, hələlik vaxtı yox idi, hələlik rəhmi gəlirdi, amma düz deyirsən, dünyanın işlərini bilən olmaz və hanı o zamanət ki, bax elə bu gecə Bayandur xanın adamları gəlib Mahmudun da, sənin də başınızı kəsməyəcək?

Sofi sövq-təbii əli ilə qurşağını yoxladı. Bu qurşaq taxıldığı gündən bəri neçə müddət idi ki, bir dəfə də olsun açılmamışdı və bütün bu müddət ərzində Sofi belindəki qurşağın dərdindən çimə də bilməmişdi. Əvvəlcə bu qurşaq Sofini darıxdırırdı, qurşağın altından

[1] Hatif – qeybdən gələn mələk səsi, Şərq ədəbiyyatında məcazi mənada da işlədilir, yəni ki, ürəyin səsi, qəlbin dediyi.

[2] Sahəölçən – Məhəmməd peyğəmbərin ləqəblərindən biridir, Məhəmməd peyğəmbər merac zamanı göyün yeddinci qatına – Allahın yanına qədərki məsafəni göz qırpımında qət edib.

[3] Lövhi-məhfuz – dünya yaranmamışdan əvvəl Allahın Qələm ilə varlığın taleyini yazdığı lövhədir, göylərdə saxlanır.

qarnı, beli qaşınırdı, tərləyirdi, amma sonradan yavaş-yavaş Sofi bu qurşağa öyrəndi və indi elə bil ki, bu qurşaq da əli kimi, ayağı kimi, Sofinin bədəninin bir hissəsiydi.

Sofi qurşaqdan hələ heç nə götürməmişdi. Mahmud cibindəkilərin hamısını paylayıb qurtarmışdı və indi heç kim onlara kömək eləmədiyi üçün, bütün dünyada tək-tənha qaldıqları üçün yeməyi-içməyi özləri almalıydı, daha heç kim xəlvəti gətirib Sofiyə Qəmərbanunun tapşırığı ilə ləzzətli təamlar vermirdi və Sofi atları satdı; neçə gün idi ki, həmin pulla dolanırdılar.

Ocağın közü qızarırdı.

O cavan xanəndənin səsi çayın şırıltısına qatışmışdı.

O cavan xanəndənin səsi gecənin bu qaranlığında birdən-birə bir baxışı, bir nəzəri Mahmudun gözlərinin qabağına gətirdi və Mahmud bu baxışları tanıdı: altı-yeddi gün bundan əvvəl o Qırmızı Tuman Kişi beləcə baxdı və getdi; həmin baxışdan sonra Mahmud bir xeyli atın belində oturub Qırmızı Tuman Kişinin ardınca baxdı və sən demə, həmin baxışlar, o nəzər o vaxtdan Mahmudun beynində həkk olub qalıbmış – indi, gecənin bu vaxtında həmin baxışları birdən-birə yenə beləcə aydın gördü.

O baxışlar nə deyirdi?

Həmin Qırmızı Tuman Kişiylə dağlarda rastlaşdılar.

Mahmud irəlidə, Sofi də həmişəki kimi onun ardınca dağ cığırı ilə üzüyuxarı qalxırdılar və bu vaxt qırmızı tuman geymiş bir kişi qaçaqaça düz onların qabağına çıxdı və özünü tamam itirdi, əlindəki çörək parçasını iki əlilə sinəsinə sıxdı və Mahmudun atının qabağında dayanıb bilmədi ki, nə eləsin.

Bir az aralıda, yoğun gövdəli bir qoz ağacının altında qoca bir kişi oturmuşdu və teyxa cırıq-cırıq uzun bir köynəkdən başqa qocanın əynində heç nə yox idi. Qoca o qədər arıq idi ki, qabırğaları bir-bir sayılırdı, başı elə kəllə sümüyü idi və gözlər olan çuxurun dərinliyindən iki xəstə işıltı gəlirdi. Qoca yalnız haça sümüklərdən və dəridən ibarət qollarını irəli uzadıb nə isə deyirdi, amma nə dediyini başa düşmək mümkün deyildi, çünki ağzından sözlər yox, nazik və taqətsiz civilti çıxırdı.

Mahmud başa düşdü ki, Qırmızı Tuman Kişi qocanın çörəyini əlindən alıb.

Mahmud qollarını irəli tutub yelləyə-yelləyə civildəyən qocaya bir də baxdı: yox, insan ancaq aclıqdan bu günə düşə bilməz, insan

ancaq dərd əlindən bu cür əriyə bilər və sən gərək kim olasan ki, belə bir adamın əlindən çörəyini tutub alasan...

Qırmızı Tuman Kişi çörək tikəsini iki əlilə də sinəsinə sıxa-sıxa başını aşağı əyib gözlərini yerə dikmişdi. Bu Qırmızı Tuman Kişinin yaşı bir o qədər də çox deyildi, amma bəşi, saqqalı, sinəsinin, qollarının tükləri ağappaq idi.

Mahmud:

– Nə üçün çörəyi o kişinin əlindən almısan? – dedi. – Sən görmürsən ki, dərd onu nə günə salıb? – Sonra Mahmud kişinin əynindəki qıpqırmızı tumanı enli balağından belinəcən gözdən keçirtdi və: – Eh, sən nə bilirsən dərd nədir? – dedi.

Qırmızı Tuman Kişi Mahmudun bu sözlərindən sonra başını yuxarı qaldırdı və cəmi bircə an Mahmudun gözlərinin içinə baxdı, sonra yenə başını aşağı salıb dinməz-söyləməz çıxıb getdi.

O bircə anlıq baxış Mahmudu sarsıtdı.

Sofi onda Mahmudun qarasına deyinirdi və Qırmızı Tuman Kişi çıxıb gedəndən sonra rahat nəfəs aldı; Sofi qorxurdu və deyinirdi ki, axı, sənin camaatla nə işin var, olmasın elə, olsun belə, süpürləyib salsın bizi ayağının altına, varımızı-yoxumuzu da soysun...

Mahmud atdan düşüb Sofinin deyinməyinə baxmayaraq, onun xurcununda nə ki, yemək-içmək var idi, hamısını çıxarıb qocaya verdi və qoca bir göz qırpımında bütün yemək-içməyin hamısını cındır köynəyinin altında gizlətdi, amma Mahmud qocanın belə bir cəldliyinə və acgözlüyünə fikir vermədi və bunu da görmədi ki, qocanın cındır köynəyinin içində başqa çörək, yemək də var; Mahmud geriyə dönüb Qırmızı Tuman Kişinin ardınca baxırdı.

Qırmızı Tuman Kişi gözdən itdi, amma Mahmud bir müddət gözlərini dağın ətəyi ilə aşağı düşən cığırdan çəkmədi.

O baxışlar nə deyirdi?

O baxışlarda ağrı var idi, iztirab var idi, əzab var idi, amma, ən başlıcası, o baxışlarda açıq-aşkar bir rişxənd var idi.

O əzablı baxışlar əslində gülürdü.

Elə bil o baxışlar Mahmuda gülürdü: bəs, sən bilirsən dərd nədir?

Gecənin qaranlığında, çayın şırıltısında, közərən ocağın yavaş-yavaş azalan istisində və o cavan xanəndənin get-gedə uzaqlaşan, itən avazı içində həmin baxışlar, elə bil, yenə təkrar etdi: bəs, sən bilirsən rişxəndinə qarşı coşdu: yox, Mahmudun dərdi təkcə Məryəm dərdi deyildi, yox, səfərə çıxdığı gündən bu tərəfə, gördüklərini görəndən sonra, el dərdi, oba dərdi, insanların dərdi idi, bu dünyada yaşamağın dərdi idi – bunu heç kim başa düşmürdü və başa düşmək də istəmirdi, hamı Mahmudu çöllərə düşmüş bir Məcnun bilirdi...

Həmin gecə qaranlığında Mahmud bu fikirdən diksindi – məgər Məcnun olmaq ayıbdı? Nə üçün bu camaat Şeyx Nizaminin, Əmir Xosrovun, Caminin, lap elə bu yaxınlarda yaşayıb yazan Nəvainin[1] əsərlərini oxuyub, bunlara qulaq asıb, Məcnunun aqibətinə göz yaşları axıdır, amma gördükləri, tanıdıqları, bir hava ilə nəfəs aldıqları adama "məcnunun biridir" deyib gülürlər?

Məcnunun biridir, yəni kimdir? O adamdır ki, çöllərdə ceyranla da dil tapa bilir və istədiyi məxluqa sədaqətlidir və heç kimə pislik eləmir, heç kimin ürəyini sındırmır və istəyir ki, hamı xoşbəxt olsun, nə üçün camaatın beləsinə gülməyi tutur?

O Qırmızı Tuman Kişinin baxışları da buna görə gülürdü?

Yox, o baxışlardakı gülüş başqa idi, o rişxənd başqa rişxənd idi.

...Əlbəttə, Mahmud o Qırmızı Tuman Kişinin baxışlarının mənasını axıra qədər başa düşə bilməzdi, çünki Mahmudun dağların qoynundakı o kənddən xəbəri yox idi, çünki Mahmudun o kənddəki qırğından xəbəri yox idi, o qırğından ki, Kərbəla qırğını o qırğının yanında yalan idi.

Mahmud nə biləydi ki, o kişi həmin qırmızı tumanı hardansa tapıb əyninə keçirib və o qırmızı rəng bu kişinin əynində sırtıqlığın, arsızlığın rəngi deyil, insan qanının rəngidi,

Həmin kənd dünyanın gözəl kəndlərindən biri idi; bütün dünya susuzluqdan yanıb cadar-cadar çatlayanda bu kəndin ətrafında hər addımbaşı pıqqıldayan bulaqlar adamın ürəyinə sərinlik gətirirdi, bütün dünya yeməyə çörək tapmayanda, bu kəndin sapsarı buğdası dəyirmanda üyüdülürdü, çuvallar çuval üstə yığılırdı, bütün dünyanın mal-qarası otlamağa heç qaratikan da tapmayanda, bu kəndin mal-qarası sübh tezdən dağların qoynundakı meşələrə girirdi və bir axşamüstü dolu yelinləriylə həyətlərə qayıdırdı, bütün dünya kürk üstündən

[1] Azərbaycan şairi Nizami Gəncəvinin (1141-1209), hind şairi Əmir Xosrov Dəhləvinin (1253-1325), fars şairi Əbdürrəhman Caminin (1414-1492) və özbək şairi

kürk geyib soyuqdan donanda və yandırmağa odun tapmayanda, bu kəndin sobaları çarthaçart yanırdı; bütün dünya bir-birinin qanını içirdi, insanlar dünyanın yer üzünün bu qədər torpağını öz aralarında bölüşə bilmirdi, axın-axın qoşunlar şəhərləri dağıdırdı, kəndləri viranə qoyurdu, bu tərəf hücum çəkib o tərəfin ilxısını, qoyun sürüsünü, mal-qarasını aparırdı, o tərəf bu tərəfin, amma bu kəndin sıldırım qayaları, dərin yarğanları, başı göyləri yaran zirvələri qoymurdu ki, buralara yad atının ayağı dəyə, bu kəndi yad nəfəsindən qoruyurdu və bir dəfə bu yerlərdən gəlib keçən Gözəl Xasiyyətli təxəllüslü ərəb şairi və səyyahı Yəmənli Əbülqasım Talıb əl-Həsən Cəmaləddin Qiyas ibn Ziyad Məhəmməd Kəmaləddin Həmidəxisal öz adından da uzun bir qəsidə yazıb bu kəndi bu dünyanın o dünyadakı cənnətindən artıq bir cənnət kimi dillər əzbəri eləmişdi.

Kəndin camaatı hündürboylu, qırmızıyanaqlı, kişilərinin qolu güclü, arvadlarının döşü südlü camaat idi, işləyən camaat idi, əkirdi, becərirdi, halallıqla da yeyirdi; dünyanın qarışıq zamanında talelərindən və güzəranlarından razı idilər və lazım olanda bir-birini bağışlamağı bacarırdılar, pisi tez yaddan çıxarırdılar və yaxşı ilə yaşayırdılar.

O vaxtlar Azər təzə evlənmişdi və cavan arvadı Aysulu ilə bir yerdə dünyagörmüş Gözəl Xasiyyətlinin cənnətdən də artıq vəsf elədiyi həmin kənddə yaşayırdı; Azərin bütün gününün əkib becərmək yorğunluğu Aysulunun təmiz və sağlam yatağında çıxırdı, Aysulunun balıq kimi sürüşkən və hamar bədəninin istisi dünyada yaşamağın gözəlliyindən deyirdi.

Azər ilə Aysulunun birinci oğlu olanda Azər ilkinə imam Əlinin adını qoydu:

– Adını mən vardım, yaxşı Allah verdi! – dedi və həmin gün kəndin bütün camaatı ocaq qaldı, heyvan kəsdi, şəhərə kimi çaldı, oxudu, oynadı – hər dəfə dünyaya təzə bir uşaq gələndə bu kənd beləcə bayram edərdi.

Azər ilə Aysulunun ikinci oğlu olanda Azər bu ikinci oğluna da adını Məhəmməd qoydu, [illegible] Azər üçüncü oğluna imam Hüseynin adını qoydu, dördüncü oğlanları oldu, Azər dördüncü oğluna imam Zeynəlabidin adını qoydu.

Azər ilə Aysulunun oğlanları kəndin ən sağlam, ən gözəl, ən ağıllı yaşıdlarından uşaqlar idi və kəndin bütün qadınları bu oğlanlara baxıb:

– Adlarına layiq oğlanlardı!... – deyirdi.

Sonra Azər ilə Aysulunun beşinci oğlanları oldu, Azər beşinci oğluna imam Məhəmməd Bağırın adını qoydu, sonra altıncı oğlanları oldu, Azər altıncı oğluna imam Cəfər Sadığın adını qoydu, gün keçdi ay dolandı və Azərlə Aysulunun yeddinci oğlanları oldu, Azər yeddinci oğluna imam Musayi-Kazımın adını qoydu.

Azər oğlanlarına bir-bir imamların adını qoyduqca və bu oğlanlar da beləcə sağlam, gözəl, ağıllı və mehriban böyüdükcə, yavaş-yavaş kəndin camaatına elə gəlirdi ki, elə bil, bu oğlanlar doğrudan da imamdırlar, təzədən dünyaya gəliblər və camaatın bu oğlanları sevməsində, oxşamasında bir möcüzə hissi də baş qaldırmağa başlayırdı; əlbəttə, camaat üçün bu oğlanlar hələlik adi oğlanlar idi, amma bu adilikdə nəsə bir qeyri-adilik də var idi və o zaman kəndin ağsaqqalı doxsan üç yaşlı Bayandur İxtiyar birinci dəfə fikrə getdi və bir gecə yuxusu qaçdı, yata bilməyib həyətə çıxdı, sonra gecənin qaranlığında kəndin küçələrini bir-bir gəzdi, yatmış kəndin sakitliyinə qulaq asdı və özü özündən soruşdu:

– Tanrının üzü bizdən dönür?

Azər ilə Aysulunun səkkizinci oğlanları oldu və Azər səkkizinci oğluna imam Rzanın adını qoydu, sonra Azər ilə Aysulunun doqquzuncu oğlanları oldu və Azər doqquzuncu oğluna imam Məhəmməd Təqinin adını qoymaq istəyəndə Aysulunun ürəyi birdən-birə bir nigarançılıqla sıxıldı və Aysulu tavandan sallanmış bələkdə yatmış doqquzuncu oğluna baxa-baxa:

– Başqa ad qoyaq ona... – dedi və bu söz əslində A[illegible] ürəyindən xəbər verdi, amma daha başqa ad qoymaq mümkün deyildi, onsuz da kəndin bütün camaatı bir-birinə pıqıldayırdı ki, Məhəmməd Təqi də gəldi...

Azər doqquzuncu oğluna imam Məhəmməd Təqinin adını qoydu.

Bütün dünya dəli-divanə ilə dolu idi, amma Gözəl Xasiyyətlinin cənnətdən artıq hesab elədiyi həmin kəndə cəmi bircə nəfər Havalı varıdı, adı da Havalı İbrahim idi. Havalı İbrahim gecə-gündüz oturub [illegible] söhbət edərdi. Bəzən elə dərəzdin ki, adlı-at gəzdi, [illegible] qarnı ağrı, hər qalmaqalda bir kəl gələ-gələ olan bu Havalıdı, amma iddaydı bir dəfə qəribə [illegible]. Havalı İbrahimin gözləri parlayıb hədəqəsindən çıxdı və bu vaxtı Havalı İbrahim qəribə səs çıxardı, sonra ağ-ayağı əsdi, yerə sərilib çırpınırdı, ağzından köpük gəldi. Havalı İbrahim özünə gəlib ayağa qalxandan sonra, ağır-ağır nəfəs

ala-ala qeybdən eşitdiklərini bir-bir camaata danışırdı və heyrət edirdi ki, bu səsin dediyi sözləri ondan başqa heç kim eşitməyib.

Kəndin camaatı heç vaxt Havalı İbrahimin dediklərinə fikir vermirdi və hamının Havalı İbrahimə ürəyi yanırdı ki, sapsağlam, güclü-

misralar işığa çıxdı: o gecə sakitliyində doxsan üç yaşlı Bayandur İxtiyarın bütün gün ərzində elə bil ki, tamam ağlını itirmiş camaata baxa-baxa həyəcandan səyriməyə başlamış və indi də səyriyən dodaqları lap uşaqkən eşitdiyi həmin işıqlı misraları söyləməyə başladı:

qırt toyuqlarının çıxartdığı on səkkiz cücədən cəmi yeddisi salamat

[redacted]

dörd sağmal inək saxlanırdı, amma yeddi uşaq atası Kərimin həyətində cəmi bircə inək var idi?

Mehdi Sahibi-əzzaman gələndən sonra bütün bu haqsızlığa son qoyulacaqdı və ədalət öz yerini tapacaqdı.

Əkinlər əkilmədi, bu qardaş dedi o qardaş əksin, o qardaş dedi mən niyə əkirəm, bu əksin; torpaq becərilmədi, o bunun dalınca dedi, bu onun dalınca dedi, bununla onun ədavəti düşdü, onunla bu qanlı oldu, qonşu qonşunun xeyrinə-şərinə yaramadı, dayıoğlu bibioğluna fırıldaq gəldi, qız atanın üzünə ağ oldu, ana çörəyi oğuldan əsirgədi.

Havalı İbrahimin qəbri pir oldu. Camaat bir-birinin ayıbını taparaq gəlib pirə söylədi, ayıbı olmayan haqqında yalan dedi, Mehdi Sahibi-əzzaman gələnə qədər pirdən hərəkət istədi.

Azərlə Aysulunun on birinci oğlu oldu və Azərin daha heç bir əlacı

[redacted]

nam yadından çıxartdı, öz ev-eşiyini yadından çıxartdı, əli qoynun- Mehdi Sahibi-əzzamanın yolunu gözlədi ki, gəlib onu xoşbəxt əcək; amma bu xoşbəxtlik necə olacaqdı?; axı, Fərəcullah xoşbəxt ısa, Əbülfəz bədbəxt olmalıydı, çünki Fərəcullahın xoşbəxtliyi

çöldə əkib-becərib oğlanlarına çörək yedirdirdi, in

[redacted]

və Aysulu da ürəyində yana-yana "Can!.. Can!.." deyə-deyə bu uşaqların hərəsinə bir parça çörək verirdi, amma hamısına çatdıra bilmirdi və buna görə də uşaqlarına yedizdirdiyi özünə nuş olmurdu.

Kəndin eşşəkləri baxımsız qalıb çöllərə düşmüşdü, atlar vəhşiləşib ilxıyla meşələrə çəkilmişdi, canavarlar elə bil kənd camaatının əldən düşüb əfəlləşdiyini başa düşmüşdü, inəkləri parçalayırdı, gecələr tövlələrə soxulub qoyun-keçidən apardığını aparırdı, aparmadığını da bir-bir boğub tələf edirdi.

Kəndin camaatı bir-biri ilə didişirdi, bu ondan bir ovuc noxud oğurlayırdı, o bir armud üstündə vurub bu birisinin başını yarırdı.

Doxsan altı yaşlı Bayandur İxtiyar bir-bir kəndin evlərini gəzmə-yə başladı:

– Camaat, dəli olmusunuz? – dedi. – Ağlınızı başınıza yığın– dedi.

[redacted]

doxsan altı yaşlı Bayandur İxtiyarın beləcə boş sözlərindən o qədər təngə gəldi ki, qocanın dalına bir təpik vurub kənddən qovdu və Bayandur İxtiyar təzədən kəndə qayıtmaq istəyəndə İbrahim pirinin yanında qocanı daşa basdılar, uşaq da, böyük də, arvad da, kişi də əlinə olacaqd

Aysulunun vədəsi yaxınlaşdıqca, qarnındakı tərpəndikcə, təpik atdıqca ürəyində səbəbini bilmədiyi bir nigarançılıq baş qaldırırdı, artırdı və Aysulu bir gecə yataqda Azərin qolunu öpə-öpə pıçıldadı:

– Gəl burdan qaçaq...

Azər Aysuludan çox özündən soruşdu:

– Hara qaçaq?

On bir uşağı götürüb on ikincisini də gözləyə-gözləyə, evi-eşiyi atıb, torpağı başsız qoyub hara getmək olardı, hara pənah aparaydılar və ümumiyyətlə, nə üçün qaçmalıydılar? Kimə nə pislik etmişdilər və kimə nə boyun olmuşdular?

Aysulu Azərdən ayrılmaq istəmirdi, gecə-gündüz Azərin yanında olurdu və Azər güclə Aysuludan ayrılıb çölə işləməyə gedirdi.

Həmin gün də Azər çöldə idi.

Kəndə bir göz qırpımında xəbər yayıldı: Aysulunun ağrısı tutub və belə işlərdə sərişdəsi olan Qəmərbanu arvad tumanının balaqlarını əlinə yığıb on ikinci dəfə Azərgilə qaçıb ki, uşağı tutsun.

Mehdi Sahibi-əzzaman zühur edirdi.

Bütün kənd Azərgilə axışdı.

– Allahımıza qurban olaq!

– Lailahəilləllah!

– Sahibi-əzzaman gəlir!

[illegible]

Bu vaxt bütün ətrafa bir çağa çığırtısı yayıldı və camaat səsini kəsib, elə bil, qeybdən gələn bu səsə – Sahibi-əzzamanın səsinə qulaq

asdı; camaat gözləməkdən yorulmuşdu, yoxsa aclıqdan, ədavətdən, qarğışdan, çirkabdan yorulmuşdu, nə sirriydisə, yekə-yekə kişilər də Sahib-əzzamanın səsinə qulaq asa-asa arvad kimi ağlayırdı.

Mehdi Sahibi-əzzamanın bu çağa səsində elə bir məlhəm var idi ki, adamların sinəsinə yayılırdı və yorğunluq da, aclıq da, ədavət də, qarğış da, çirkab da bu məlhəmin içində əriyib gedirdi, yox olurdu; həmin canın səsi elə bil ki, adamların ayağını yerdən üzüb havaya qaldırırdı və adamlar ömürlərində hiss etmədikləri bir yüngüllük hiss edirdilər.

İrəlidəki arvadlar özlərini saxlaya bilməyib evə doluşdular və birdən-birə dünyanın ən dəhşətli, ən müdhiş bir xəbəri həmin çağa səsi gələn otaqdan həyətə yayıldı:

– Uşaq qızdır!..

Azərlə Aysulunun on ikinci uşağı qız olmuşdu.

Bu xəbər camaatı ayaq üstündə qurutdu, dizlər titrədi, ürəklər dayandı, gözlər qaraldı, camaatı soyuq tər basdı və elə bil ki, hamı lal oldu, cınqırığını çəkə bilmədi.

Qəmərbanu arvad çağanı çölə çıxardı və qıpqırmızı ət parçasına oxşayan bu qız uşağını iki əli ilə qabağa uzadıb camaata göstərdi və özü də qəzəbdən alışıb yanan gözlərini camaata zillədi. Hava soyuq idi

[illegible]

[illegible], Musayı-Kazıma, Rzaya, Məhəmməd Təqiyə, Əli Ənnəqiyə, Həsən Əsgəriyə sataşdı və Fərəcullah əli ilə eyvanı göstərib daha da bərkdən qışqırdı:

– Bunlar iblisdi, camaat! Bizi bu günə qoyan iblislər bunlardı!..

Camaatın bütün içini bürümüş intiqam ehtirası çölə çıxıb dalğa-dalğa kəndin məhəllələrinə, düzlərə, dağlara yayıldı:

– İblisdilər!..

– İblisdilər!..

– İblisdilər!..

Qəmərbanu arvad iki əli ilə də yuxarı qaldırıb saxladığı və kirimək bilməyən qırmızı ət parçasını var gücü ilə camaatın üstünə tulladı, əllər yuxarı qalxdı, o qırmızı ət parçasını göydə qapdılar, çığırtı kəsildi, qırmızı ət parçası yox oldu, əllər qıpqırmızı qana bulandı və camaat eyvana yeridi, Əlini boğub öldürdülər, Həsənlə Hüseynin başını daşla əzib öldürdülər, Zeynalabdin, Məhəmməd Bağır, Cəfər Sadıq ayaq altında qalıb öldü, Musayi Kazımın ayaqlarından tutub başını divara çırpıb öldürdülər. Rzanın dəhşətdən bağrı yarıldı öldü, Məhəmməd Təqinin boynunu burub öldürdülər, Əli Ənnəqini, Həsən Əsgərini ayaqlarının altına alıb tapdaladılar, öldürdülər, yenə t

Aysulu qan nohurunun içində yerə sərilmişdi və Aysulunun bağırsaqları, kəsilmiş mədəsi də qarnından çıxıb ətrafa tökülmüşdü və kəndin bütün milçəkləri uçub gəlib Aysuluya daraşmışdı.

Aysulu hələ ölməmişdi, amma ağzını kip örtüb heç bir səs çıxarmırdı, təkcə böyümüş gözləri ilə baxırdı və dili ilə demədiklərini böyümüş gözləri ilə deyirdi.

Azər çöldən evlərinə gələndə də bütün camaatı beləcə yerində quruyub qalmış gördü, amma kiçikdən tutmuş böyüyəcən hamının başı ağappaq ağarmışdı.

Azər əvvəlcə Aysulunu təmizləyib basdırdı, sonra Əlini basdırdı, sonra Həsəni, Hüseyni, Zeynalabdini basdırdı, sonra Məhəmməd Bağırı, Cəfər Sadığı, Musayi-Kazımı, Rzanı basdırdı, sonra Məhəmməd Təqini, Əli Ənnəqini, Həsən Əsgərini basdırdı, amma nə qədər axtardısa da qızın tikələrini tapa bilmədi, uşaq əllərdə didişdirilib, ayaqlar altında tapdanıb torpağa qarışmışdı.

Həmin Qırmızı Tuman Kişi didərgin düşmüş Azər idi...

...Ocağın közü hələ qızarırdı.

Mahmudun bütün bunlardan xəbəri yox idi və Mahmud bilmirdi ki, qoca dilənçinin əlindən çörək qapan Qırmızı Tuman Kişi bütün ömrü boyu təziyədarlığa məhkum olmuş bir adamdı; Mahmud bunu bilmirdi, amma indi, bu gecəçağı, bu çayın sahilində Qırmızı Tuman Kişinin həmin baxışının cazibəsi o qədər güclü idi ki, əgər, bu dəm, Mahmudun bir cami-Cəmşidi[1] olsaydı, Qırmızı Tuman Kişiyə baxardı və yaddan çıxmayan o baxışın mənasını axtarardı.

Bəs Məryəm?

Yavaş-yavaş çayın şırıltısı da, cavan xanəndənin səsi də uzaqlaşdı, sonra tamam yox oldu və Mahmud bu səssizlik içində, bu boşluq içində yuxuya getdi və Mahmudun yuxusu əvvəlcə Məryəmin nuruna boyandı, amma sonra get-gedə bu yuxu da Qırmızı Tuman Kişinin baxışları ilə doldu.

Sofi hiss etdi ki, Mahmud yatıb, amma Sofi yata bilmirdi.

Sofi əli ilə qurşağını bir də yoxladı.

Nə olacaqdı qurşağa? Niyə yoxlayırdı? Sən də yıxıl yat bir tərəfdə, gecənin xeyrindənsə, səhərin şəri yaxşıdı, yat, bədbəxt Sofi, yat, miskin Sofi, yat. Yat ki, səhər durub yenə nökərçiliyini davam eləyəsən...

Sofi bütün ömrü boyu qaşiyəkeş[2] olmuşdu, amma bu örtüyü nə qədər gəzdirmək olardı?

Bayaq uzaqdan eşidilən o xanəndə zənguləsi Sofinin o biri dünyanın yox, bu dünyanın Ən Yüksək Budağına[3] səsləyirdi və ömrünün bu çağında kol-kos dibini özünə məskən eləmə deyirdi.

Qırx altı il ki, bu qədər işıqsız yaşamışdı, Xızır daha heç vaxt Sofinin imdadına yetməyəcəkdi[4] və Sofi özü özünə kömək eləməli idi.

Sofi yenə də əli ilə qurşağını yoxladı.

Bu qurşaqdan dünyada heç kimin xəbəri yox idi, təkcə Sofinin özündən başqa və bir də Allahdan başqa.

[1] Cami-Cəmşid – Şərq rəvayətinə görə hökmdar Cəmşidin camıdır və bu camın içinə baxanda nəyi və kimi arzulayırsansa, görə bilərsən.

[2] Qaşiyəkeş – hərfi mənası "yəhərin örtüyünü gəzdirən adam" deməkdir; məcazi mənası isə "birinə sidq-ürəkdən və sədaqətlə qulluq edən adam" deməkdir.

[3] Ən Yüksək Budaq – Şərq fəlsəfəsində Cənnətin rəmzi.

[4] Əfsanəyə görə, Xızır azmış yolçuları xilas edir.

Həmin gecə qaranlığında Sofi heç vaxt duymadığı bir qətiyyət duydu və öz-özünə pıçıldadı:

– Allah qafirüzzənbdir...[1]

Ocağın közü yanıb külə dönürdü və ocaq yavaş-yavaş tamam zəifləyirdi, sönürdü.

XIII

Buludlar qıpqırmızı qızarmışdı və bu lopa-lopa qırmızı buludlar göz işlədikcə uzanan bozumtul çöllükdə bozumtul-qırmızı bir dünya yaratmışdı və elə bil ki, bu bozumtul-qırmızı dünyada heç vaxt canlı bir məxluq olmamışdı, burada nəfəs ilıqlığından, canlı hərarətindən əsər-əlamət yox idi.

Buludlar batmaqda olan günəşin qabağını kəsmişdi.

Bu bozumtul-qırmızı dünyada onlar üç nəfər idi: Mahmud idi, dizlərinəcən uzanmış boz köynəkdən başqa əynində heç nə olmayan arıq, uzun, ayağıyalın bir kişi idi və bir də cır-cındır içində olan, amma addımlarında, hərəkətlərində, baxışında bu cır-cındır içindəki sağlam bədəninin gücü hiss edilən alagöz, sarışın bir oğlan idi.

Ayağıyalın kişi iz axtaran it kimi bir dəfə də olsun başını qaldırıb gözünü yerdən çəkmirdi.

– Bax, buradan keçiblər, – deyirdi və daşların, kolların üstündə təkcə özünün seçə bildiyi iz ilə Camaatın ardınca gedirdi və Mahmudla Sarışın Oğlan da Ayağı Yalın Kişi ilə Camaata doğru addımlayırdı.

Bayaq əxlaqsız ərəb, erməni, yəhudi və yunan arvadları dəstəsinə rast gəldilər və bu dəstəni görən Ayağı Yalın Kişi dedi ki, Camaat yaxındadır.

Əxlaqsız arvadlar dəstəsində qırışlı üzü günün altında yanıb qəhvəyi rəng almış, qırx beş-əlli yaşlarında arıq bir arvad Mahmuda baxa-baxa dilini çıxarıb oynatmağa başladı və göz vurdu, sonra dilini ağzına salıb çıxara-çıxara daha da iti oynatdı və ağzının suyu dilinin ucundan axıb töküldü; arvad bir də göz vurdu və Mahmud bilmədi ki, nə eləsin. Bu vaxt biləyində Sarışın Oğlanın sərt əlini hiss etdi, Sarışın Oğlan

[1] Qafirüzzənb – günahları bağışlayan.

güclü əli ilə Mahmudun biləyindən yapışıb kənara çəkdi və onlar yenə Ayağı Yalın Kişi ilə yanaşı addımlamağa başladılar.

Sübh tezdən indiyə kimi ağzını açıb bir kəlmə də söz deməyən bu Sarışın Oğlan bəlkə lal idi? Amma onun həmişə uzaqlara baxan ala gözləri fikirli və kədərli idi və bu adam şübhəsiz ki, özü özü ilə danışırdı, özü özünün müsahibi olurdu; əlbəttə, Mahmud bu təkbətək söhbəti eşitmirdi, amma hiss edirdi və Mahmud burasını da hiss edirdi ki, Sarışın Oğlanın ürəyi sakit deyildi və bu ürək yalnız bir qarın çörəyin, yalnız diri qalmağın, yaşamağın dərdini çəkmirdi...

Əxlaqsız arvadlar dəstəsi arxada qaldı.

Mahmud bu iki nəfərə bu gün sübh tezdən rast gəldi, daha doğrusu, onlar Mahmuda rast gəldilər. Mahmud neçə gün idi ki, çöllübiyabanda azmışdı, hara getdiyini bilmirdi, heç kimə də rast gəlmirdi, cibində iki qızıl sikkə ola-ola neçə gün idi ki, dilinə heç nə dəymirdi. Tasrağagün axşam Ərzurum dağlarına qalxan araba yolu ilə gedə-gedə özü də bilməmişdi, yoldan çıxmışdı, azmışdı.

Qəribə idi, Mahmud hara getdiyini bilmirdi, heç kimə rast gəlmirdi, bu çölləri, dağları tək dolaşırdı, amma Mahmud darıxmırdı, elə bil, heç hara tələsmirdi və hətta bəzən Mahmuda elə gəlirdi ki, əslində heç kimi görmək istəmir, beləcə tək-tənha olmaq istəyir... Mahmud bu hissdən qaçırdı, çünki sövq-təbii duyurdu ki, özünü həmin hissin ixtiyarına versə onun üçün həyatda hər şey dəyişər, başqalaşar, Mahmud özü də başqa bir adam olar və o zaman, əlbəttə, yer üzündə daha Məryəmin heç vaxt heç kimi olmaz.

Bu gün sübh tezdən bu iki nəfər gələndə Mahmud kolların dibindən yeməli pencər axtarırdı və Ayağı Yalın Kişi Mahmudu görən kimi soruşdu:

– Camaat hara getdi?

səhv edirmiş, Mahmudun bütün varlığı insanlara can atırmış... Mahmud Ayağı Yalın Kişinin xüsusi ehtiras və hərisliklə tələffüz etdiyi və xəbər aldığı Camaatın kim olduğunu bilmirdi, amma, hər halda, Ayağı Yalın Kişinin tez-tez adını tutduğu Camaat insan idi və Mahmud başa düşdü ki, yalnız Məryəm həsrətində deyilmiş, Mahmud, ümumiyyətlə, adam həsrətindəymiş; Mahmud heç vaxt bilməzdi ki, adamlara bu qədər bağlıdı... Hisslər aldadırmış, hisslər gəldi-gedərmiş... İnsan ürəyi necə mürəkkəb imiş, necə bir sirri-xuda imiş?.. Adamlar qəddar idi, adamlar acgöz idi, dərdli-sitəmli idi, qan tökürdü, anlamırdı, hə, hə, belə idi, bundan da artıq idi, amma, amma adamsız da mümkün deyildi.

Mahmud bir həftə idi ki, tamam tək idi.

Əslində, Mahmud Məryəmə rast gələnəcən həmişə tək olmuşdu, amma bu təklik yaxınların əhatəsində olmuşdu və qəribə idi, səfərə çıxdıqları müddət ərzində Mahmud Sofiyə daha artıq öyrənmişdi, nəinki bütün əvvəlki ömrü boyu.

Yazıq Sofi... Sofi öz həyatını Mahmudun yolunda qurban verdi. Sofi bu səfərin ağırlığına, bu səfalətə dözə bilmədi, Sofi özünü məhv etdi. Həmin çaydamı boğdu özünü? Qayadanmı atdı? Qurdlara-quşlaramı yem oldu?

Sofi həmin gecə çay qırağında Mahmudun belinə küp qoyanda Mahmud onun əllərində elə bir məhrəmlik, mehribanlıq hiss etdi ki, birdən-birə uşaqlığını yadına saldı, anasını yadına saldı, atasını yadına saldı və Mahmudun bütün içinə bir kövrəklik hakim kəsildi, sonra bu kövrəklik keçdi... anlaşılmaz bir boşluq vardı və o boşluq içində bir tənə baş qaldırdı: Mahmud bütün ətrafda daş ürəklər görürdü, amma, əslində, ən soyuq, daş ürəyin sahibi elə özü idi.

Bütün bu səhər boyu Mahmud bir dəfə də olsun anasını, ya atasını gözünün qabağına gətirib hallarına yanmamışdı. Axı, Mahmud bilirdi ki, anasının da a[illegible]

doğrudan da belədir, amma sonra get-gedə daha artıq hiss etməyə başlayırdı ki, yox, təkcə belə deyil. Məryəm əziz idi. Məryəmsiz həyat yox idi və Məryəmə etibarsız çıxmaq, Məryəmi axtarmamaq, tapmamaq mümkün deyildi, çünki hərgah bu mümkün olsaydı, onda, deməli, dünyanın axırı idi; bütün bunlar belə idi, amma bütün bunlarla bərabər, Mahmudun ürəyindəki yanğı təkcə Məryəmdən ayrılmağın yanğısı deyildi və çay qırağındakı həmin gecənin səhəri tamam tək qaldığı vaxt Mahmud özü öz ürəyindəki yanğının səbəbini kəşf etdi: bu yanğı hamının, ümuminin yanğısı idi və Mahmud ona görə məhz anasını, məhz atasını gözlərinin qabağına gətirmirdi ki, hamının, küllün halına yanırdı, gündüz gördüyü tamam yad adamlar gecə gözünün qabağından getmirdi; biri bədbəxt idi, ac idi, Mahmudun ürəyi yanırdı, çünki insan nə üçün bədbəxt olmalı idi, bu boyda dünyada ac olmalı idi?; o biri qatil idi, xain idi, Mahmudun ürəyi yanırdı, çünki insan nə üçün qatil və xain olmalı idi? Mahmud belə düşünürdü...

Yazıq Sofi... Sofinin cibində cəmi ikicə qızıl qalıbmış və Sofi bu iki qızılı Mahmudun cibinə qoyub özünü taleyinə təslim edib. Mahmud bütün varlığı ilə belə hesab edirdi və buna tamam əmin idi ki, Sofi bu naşı dünyada, bu amansız dünyada intiharı seçib, intiharı üstün tutub.

Mahmud belə bilirdi, amma Mahmud bilmirdi ki...

...Ocağın közü yanıb külə dönürdü və ocaq yavaş-yavaş tamam zəifləyirdi, sönürdü.

Sofi sönən ocağa baxırdı.

Mahmud yatmışdı.

Həmin dəm bu sönən ocaq Sofiyə çox şey deyirdi... Heç kim bu ocağa kömək etməsəydi, üstünə bir kösöv atmasaydı, odun qoymasaydı, sönüb gedəcəkdi, necə ki, bax, indi sönür. Gün keçəcək, yağış yağacaq, külək əsəcək və bu ocağın yeri də buralardan silinib gedəcək və heç kim bilməyəcək ki, haçansa burda bir ocaq yanıb və istisi ilə kimlərisə qızdırıb.

Sofiyə də heç kim kömək etməyəcəkdi.

Sofi özü özünə kömək etməli idi və edəcəkdi.

Qırx altı illik ömrü boyu Sofi heç vaxt indiki kimi qətiyyətli olmamışdı.

Sofi köynəyini qaldırıb belindəki qurşağı açdı və Sofi heç qorxmadı ki, kimsə gəlib başının üstünü alar, qarət edər. O anda ki, Sofi qət

etmişdi: bu ləl-cavahirin sahibi özüdü, Sofi dəyişmişdi, Sofi cəsur və güclü olmuşdu.

Sofi belindən açdığı qurşağı sönməkdə olan ocağın zəif işığında öz qabağına sərdi. Qurşağın üstünə səpələnmiş daş-qaş ocağın zəif işığını həmin andaca özünə çəkib alışıb-yandı.

Sofi qurşağı açılmış belində və bütün bədənində bir quş yüngüllüyü hiss etdi və Sofi başa düşdü ki, bu yüngüllük təkcə qurşaqdan azadlığın yüngüllüyü deyil, bu yüngüllük uzun-uzun illərin nökərçiliyindən, məhrumiyyətindən, miskinliyindən azad olmağın yüngüllüyüdür.

Sofi bir müddət ocağın zəif işığında yaşılla, göylə, qırmızı ilə, sarı ilə alışıb-yanan bu ləl-cəvahirə baxdı. Sonra bu ləl-cavahirin içindən bir dənə cəfəri gülü[1] götürüb o tərəf-bu tərəfə çevirdi və sidq-ürəkdən özü özünü söydü: axmaq adam, əbləhlər əbləhi, bu qədər ki, iztirablar çəkirdin, götür-qoy edirdin, dünyanın riyazəti[2] elə sənə qalmışdı?

Sofi əlini uzadıb barmaqlarının qəti hərəkətilə qabağındakı varidatı tən ortadan iki yerə böldü, həmişə süfrə kimi qabaqlarına saldığı dəsmalı qoynundan çıxartdı və iki böldüyü cavahiratı ovcu ilə dəsmala yığıb ağzını bağladı, sonra ehmallıca ayağa qalxıb həmin bağlamanı Mahmudun üstünə saldığı yun şalın altına qoydu, yenə öz yerinə qayıtdı.

Sofi çalışırdı ki, yatmış Mahmuda baxmasın, çünki Sofi ürəyinin dərinində bir səksəkə ilə hiss edirdi ki, Mahmuda baxsa, indi bütün varlığında duyduğu qətiyyət əriyə bilər, yox olar və yenə miskinlik dünyası Sofini öz qoynuna alar. Sofi bu an ölməyə hazır idi, amma o miskinlik dünyasına qayıtmaq istəmirdi.

Sofi Mahmuda baxmırdı, amma özünü saxlaya bilmədi, indicə yun şalın altında gizlətdiyi bağlamaya tərəf baxdı. Sofi ləl-cavahirin yarısını Mahmuda bağışladı və əslində Mahmudu – kimsəsiz, yazıq, əlsiz-ayaqsız bir adamı dünyanın varlılarından biri etdi. Bunu dünyada heç kim etməzdi, amma Sofi etdi... Mahmud səhər oyanacaqdı və üstünə örtdüyü şalın altında bir ətək ləl-cəvahir tapacaqdı, amma... amma Mahmud bu qədər dövləti nə edəcəkdi? Axı, Mahmud üçün bu qədər dövlətin heç bir əhəmiyyəti yox idi və bu dövlət Mahmudu xilas

[1] Cəfəri gülü – yüzdə yüz faiz təmiz qızıl.

[2] Riyazət – bütün ömrü boyu oruc tutaraq, pəhrizkarlıqla məşğul olaraq öz cismini tərbiyə etmək, nəfsi və tamah hissini öldürmək.

etməyəcəkdi... Bəlkə də əksinə, başkəsənin biri bu varidatdan ötəri xəncəri soxacaqdı Mahmudun ürəyinin başına... Sofi elə bil ki, o xəncər soyuqluğunu öz ürəyinin başında hiss etdi və tez də bu hissi özündən qovdu; yox, geriyə yol yox idi, addım atılmışdı və hərgah Sofi bu dəm geriyə çəkilsəydi, yaşamamalı idi.

Sofi gözünü bağlamanı qoyduğu yerdən çəkdi, amma özünü saxlaya bilmədi, bacarmadı, yenə o tərəfə baxdı və yenə ayağa qalxıb indicə ehmalla qoyduğu bağlamanı ehmallıca da yun şalın altından götürdü, açıb içindəkinin yarısını ovcuna yığdı, gətirib yerdəki qurşağın üstünə səpələnmiş ləl-cavahirə qatdı, yarımçıq bağlamanı təzədən büküb aparıb Mahmudun üstündəki yun şalın altına qoydu.

Sofi gəlib qurşağı rahatladı və təzədən belinə bağlamaq istədi, amma bağlaya bilmədi, çünki yun şalın altına qoyduğu o əl boyda bağlama bir ovsunçu hərisliyi və sirayəti ilə Sofini özünə çəkirdi.

Mahmud dünyanın yazığı, əlacsızı idi. Mahmud nə birinci idi, nə də sonuncu idi. Mahmudun xisləti bədbəxt xisləti idi və bu bədbəxtlik Hindistan ölkəsinin xəzinələrinə sahib olsa belə, özünü xoşbəxt edə bilməyəcəkdi. Tale Mahmudu məhkum etmişdi və Sofi bu dəm qarşısındakı qurşağın üstündə zəif ocağın işığını oynadan, qamaşdıran ləl-cavahirini, qızılın hamısını Mahmudun başına səpsəydi də Mahmudun məhkumluğu azalmayacaqdı.

Əl çək, Sofi, o miskinlik dünyasının tənələrindən əl çək, kişi ol, Sofi, dünyanın dərdini çəkmək sənə qalmayıb, Sofi, Allah səni xoşbəxt edir və Allah qafirüzzənbdir.

Sofi qəti bir hərəkətlə qurşağı götürüb belinə sarıdı və Mahmuda yaxınlaşdı, əyilib yun şalın altındakı bağlamanı da götürdü, onu da qurşağının içinə basıb çayın lap kənarına çıxdı, birdən dayanıb əlini qoynuna saldı və dar günləri üçün gizləyib saxladığı iki qızıl sikkəni qoynundan çıxartdı, təzədən geri döndü, həmin iki qızıl sikkəni Mahmudun başının yanında yerə qoydu və o gecə qaranlığında iti addımlarla məqsədinə tərəf yollanıb gözdən itdi.

Sofinin səccadəsi[1] yadından çıxıb çayın qırağında qaldı...

...Ayağı Yalın Kişi diqqətlə daşlara, kollara baxıb:

– Sümsüklər Camaatın dalınca gedir, – dedi. Əllərinə keçsək bizi yeyərlər. – Ayağı Yalın Kişi udqundu və yenə də nazik, arıq boğazının ucu sərt, iri hülqumu qalxdı, endi. – Dolama gedək, Camaata çataq.

[1] Səccadə – müqəddəs hesab edilən namaz xalçası.

Mahmud heç nə soruşmurdu: Camaat kimdir, Sümsüklər nə deməkdir? Sarışın Oğlan da bir söz demirdi, eləcə dinməz Ayağı Yalın Kişinin düşdüyü iz ilə gedirdilər...

Lopa-lopa buludlar qıpqırmızı qızarırdı.

Ayağı Yalın Kişinin gözləri də bu buludlar kimi qıpqırmızı idi, çünki Ayağı Yalın Kişi neçə illər idi ki, yuxusuzluq azarına tutulmuşdu və yuxusuzluq əlindən də səfil və didərgin olmuşdu. Neçə illər idi ki, bu adam, bir balaca gedən kimi, görürdü ki, bədənindən çıxan toxum, o toxum ki, nəsil artırır, dünyanın təzə bir adamının bünövrəsini qoyur, həmin toxum alışıb-yanan ocaq üstündəki tavada dağ olmuş yağın içində yumurta ağı kimi cızıltı ilə qızarır. Neçə illər idi ki, bu qarabasma Ayağı Yalın Kişidən əl çəkmirdi, onu yatmağa qoymurdu, dəli etmişdi və Camaata qatmışdı. Dörd gün bundan əvvəl gecələr qarabasma vaxtı qışqırdığı üçün Camaat Ayağı Yalın Kişini döyüb qovmuşdu, amma Camaatdan kənarda yaşamaq mümkün deyildi və əslində, Camaatın ürəyi yumşaq idi və Ayağı Yalın Kişi yenə Camaatın yanına qayıdırdı.

– Camaat!.. Camaat!.. – deyə Ayağı Yalın Kişi uzun, nazik barmağı ilə uzaqdakı qayalığı göstərdi.

Doğrudan da, gəlib Camaata çatmışdılar.

Camaat qayalığa səpələnmişdi və bütün bu adamların əynindəki çirkli və bozarıb rəngini itirmiş cır-cındır həmin bozumtul-qırmızı dünyada qayalardan seçilmirdi, təkcə uzanmış saçlar, qırxılmamış saqqallar ya qaralır, ya da gümüş kimi ağarırdı.

Ayağı Yalın Kişinin və onun kimilərin Camaat adlandırdığı bu adamlar ellərindən-obalarından didərgin düşmüş evsiz-eşiksiz səfillər dəstəsi idi. Yeməyə çörək tapmayanlar, başlarına müsibət gəlmişlər, adam öldürüb qaçanlar, dərvişlər, casuslar, yollarda soyulmuş, vardan-yoxdan çıxmış bəzurganlar, qocalıb əldən düşmüş fahişələr, dilənçilər beləcə dəstə ilə çöllərdə, dağlarda gəzirdi, gecə imkan düşəndə ucqar kənd həyətlərini qarət edirdi, yolunu azmış, məskənindən uzaqlaşmış inək, qoyun, keçi, toyuq – xəlvəti əllərinə nə keçirdisə oğurlayıb yerdən döşəmə, göydən tavan içində dolanırdı. Yolların qaçaq-quldurları nə dərğalardan, nə də qoşunlardan qorxurdu, qorxduqları, görəndə yollarını dəyişdikləri Camaat idi.

Bu gün Qul Məhəmməd ilə Xarkeş Mahmud[1] çöllərdə azmış bir yabını çəkə-çəkə qayalığa gətirmişdi.

[1] Xarkeş – tikan satan.

Qul Məhəmməd Zəfər kələntərin oyununda qalib çıxmışdı və qul olmaqdan qurtarmışdı. Zəfər kələntər kef məclisləri üçün belə bir oyun düzəltmişdi ki, qullardan kim ən yaxın qul dostuna ən böyük qəddarlıq fikirləşib tapsa və tapdığını həyata keçirə bilsə, onu qulluqdan azad eləyirdi, cibinə də on təngə pul qoyurdu. Qul Məhəmməd uşaqlıqdan bir yerdə qul olduqları və on beş il bir yerdə sərasər Zəfər kələntərə xidmət etdikləri, həmişə bir yerdə çörək yedikləri, su içdikləri Qul Əhmədə qəflətən həmlə edib əlini-qolunu sarımışdı, belinə bir mis səhəng bağlamışdı, səhəngin altından balaca bir deşik açmışdı, Zəfər kələntərin qonaqları yığışdığı dikdirin qabağında böyürtkən kollarından hündür və qalın bir çəpər çəkib meydança düzəltmişdi. Qul Əhmədi bu meydançaya salmışdı, sonra bir qazan yağı dağ eləyib Qul Əhmədin belinə bağladığı mis səhəngə tökmüşdü; dağ yağ səhəngin altındakı deşikdən axıb Qul Əhmədin çılpaq belinin arasına tökülürdü və Qul Əhməd öküz kimi böyürə-böyürə belindəki bu yükdən qurtarmaq istəyirdi, özünü çəpərə atırdı və böyürtkən kolları əlləri-qolları belinə bağlanmış bu adamın bədənini dəlik-deşik edirdi, üzünü-gözünü cırıb dağıdırdı; Qul Əhməd beləcə böyürə-böyürə özünü yerə atdı, dağ yağ mis səhəngin ağzından axıb qul Əhmədin başına töküldü və bu zaman yeri-göyü elə bir bağırtı bürüdü ki, hətta döyüş meydanlarında, qurduğu oyunlarda düşmənlərinə, əsirlərinə verdirtdiyi işkəncələr zamanı min bir nalə, şivən eşitmiş Zəfər kələntərin də ürəyi bərkdən döyündü, sonra Qul Əhmədin başı tamam bişdi və qul Məhəmməd şəksiz qalib kimi, hətta, qaliblər qalibi kimi [illegible] amma tanıyanlar da, tanımayanlar da bu əhvalatı

qoşmaları xalqın dilinin əzbəri olmuşdu. Həmin qoşmalara qulaq asan Hatəm Məlik and içmişdi ki, onun kimi bir atanın qızına tamah salmış Tahir Mirzənin qoşma deyən dilini dibindən çıxardacaq, saz çalan barmaqlarını dibindən kəsdirəcək və Tahir Mirzə də neçə vaxt idi ki, gizlənirdi, gözə görünmürdü. Bir gün el aşığının kəndlisi Xarkeş Mahmud Tahir Mirzəyə boyun oldu ki, elə eləyəcəyəm ki, Güləndamı sənə göstərəcəyəm və bütün əsl aşiqlər kimi sadəlövh olan Tahir Mirzədən pul aldı, sonra gedib Hatəm Məliyə söz verdi ki, elə eləyəcəyəm ki, Tahir Mirzə keçəcək sənin əlinə və Hatəm Məlikdən də pul aldı, Tahir Mirzə Hatəm Məliyin əlinə keçdi və Hatəm Məlik and içdiyi kimi də elədi: Tahir Mirzənin dilini dibindən çıxartdırdı, on barmağının onunu da dibindən kəsdirdi, amma Hatəm Məlik burasından da xəbər tutdu ki, Xarkeş Mahmud Tahir Mirzədən də pul alıb. Hatəm Məlik özü tamahkar və ikiüzlü adam olduğu üçün, başqa tamahkar və ikiüzlü adamlardan zəhləsi gedirdi və onlara qarşı mübarizə aparırdı. Xarkeş Mahmud başa düşdü ki, işlər xarabdı və didərgin düşüb axırda Camaata qoşuldu.

Qul Məhəmmədlə Xarkeş Mahmudun çöllərdən çəkib gətirdikləri həmin yabını Cəllad Kazım bir az bundan əvvəl bu qayalıqda kəsmişdi.

Cəllad Kazımın atası da cəllad olmuşdu, babası da cəllad olmuşdu və hamı elə bilirdi ki, Cəllad Kazımın oğlu Əlifəttah da cəllad olacaq, amma elə qəribə bir əhvalat baş verdi ki, xalq mat qaldı, Cəllad Möhsünün nəticəsi, Cəllad Qırmızı Fətullanın nəvəsi, Callad Kazımın oğlu Əlifəttah [illegible]

qulaqlarını kəsdilər, zindana saldılar. Bir zərrə də gün işığı düşməyən dəhmi zülmət zindanda Cəllad Kəzim dünyanın rənglərini gözünün qabağına gətirdi, səhər günün çıxmağını, axşam batmağını gördü və elə bil ki, bütün ömrü boyu dolmuş sinəsindən fəlsəfi şerlər axıb gəldi, Cəllad Kazımın özü də şair oldu. Heç kim bilmədi ki, Cəllad Kazım zindandan necə qaçdı. Cəllad Kazım hamıya deyirdi ki, onu zindandan Həzrət Mikayıl qaçırıb; dünyanın işlərini nə bilmək olardı, bəlkə elə doğrudan da belə idi... Cəllad Kazım əlifbanı bilmədiyi üçün yerdən qaynayan bulaq kimi sinəsindən axıb gələn qəzəlləri, qəsidələri, mürəbbiləri, təcribəndləri, rübailəri, qitələri, beytləri yazıya köçürmürdü və bu şerlər çox qəliz olduqları üçün adamların hafizəsində qalmırdı, unudulurdu. Camaatın içinə düşəndən sonra məcbur olub heyvan başı kəsəndə də Cəllad Kazım bədahətən fəlsəfi şerlər deyə-deyə kəsirdi.

Camaat elə qayalıqdaca ocaq çatıb Cəllad Kazımın fəlsəfi şerlər söyləyə-söyləyə kəsdiyi yabını kabab eləyib yemişdi və odda qızarmış ət iyi hələ də buralardan çəkilib getməmişdi, bu sal qayalara, qayaların arasında bozaran qaratikan kollarına, Camaatın cır-cındırına hopmuşdu. Ora-bura atılmış iri yabı qabırğaları, omba sümükləri, bel və boyun fəqərələri ağappaq ağarırdı və bu sümüklərin əti elə yeyilmişdi ki, tamam tərtəmiz idi və Sümsüklər bu sümüklərdə yeməyə bir şey tapmayacaqdılar, qayaların dibini axtarıb yabının başını, ayaqlarını tapacaqdılar və bişirib yeyəcəkdilər.

Sümsüklər korlardan, çolaqlardan, cüzam, burs və misri xəstəliklərinə tutulmuş adamlardan ibarət bir dəstə idi və hamı tərəfindən, hətta Camaat tərəfindən də qovulmuş bu insanlar həmişə bir az aralıda Camaatın ardınca gedirdi və Camaatın qabağından qalanlarla yaşayırdı.

Həmin bozumtul-qırmızı dünyanın qırmızısı yavaş-yavaş azalırdı və günəş hələ qızartısı tamam çəkilməmiş qara buludların arxasında batdıqca elə bil ki, yeməkdən sonra adda-budda qayalığa səpələnib dincələn Camaat adiləşirdi; buludların qırmızı kölgəsi ilə bərabər, bu adamların qeyri-adiliyi də çəkilib gedirdi və bu zaman bütün bu qayalığı bürümüş səfalət necə vardısa, elə də görünürdü.

Mahmud, Sarışın Oğlan və Ayağı Yalın Kişi qayalığa gələndə onlara fikir verən olmadı və Ayağı Yalın Kişi arıqlığına, yorğunluğuna yaraşmayan bir cəldliklə ətrafına sümüklər atılmış ocaq yerinə tərəf qaçdı, Sarışın Oğlan yerə oturub kürəyini bir qaya parçasına söykədi

və əski sarınmış ayaqlarını uzatdı, Mahmud isə necə dayanmışdısa, eləcə də dayandı, tərpənmədi.

Mahmud gözlərini bu səfalətdən çəkə bilmirdi. Səfərə çıxdığı müddət ərzində Mahmud yaxşı başa düşmüşdü ki, dünya başqa dünyadı və bəzən öz iztirabları, qayğıları Mahmuda çox kiçik görünürdü, amma Mahmud ağlına gətirməzdi ki, bu başqa dünyanın özündə də bu dərəcədə bir səfalət dolaşır.

Mahmud qayalığa səpələnmiş bu adamları bir-bir gözdən keçirirdi və bunların arasında Mahmud Qırmızı Tuman Kişini gördü.

Qırmızı Tuman Kişinin bir gözü ağappaq ağarmışdı – başına gələnlər azmış kimi, on gün bundan qabaq çöldə gözünə ilan tüpürmüşdü, amma Mahmud Qırmızı Tuman Kişini görən kimi tanıdı və bu adamın tək gözünə baxa-baxa yaddan çıxmayan o baxışların mənasını anladı, Qırmızı Tuman Kişiyə dediyi sözləri elə bil təzədən eşitdi: "Eh, sən nə bilirsən dərd nədir?" və həmin sözlərin sadəlövhlüyü Mahmudun özünü öz gözlərində o qədər kiçiltdi və o qədər mənasız, əhəmiyyətsiz bir məxluq etdi ki, bu kiçikliyin, bu mənasızlığın və əhəmiyyətsizliyin havasızlığı Mahmudu boğdu, ürəyini qamarlayıb sıxdı, sıxdı.

Muxtar Bədheybət böyrü üstə qaya dibində uzanmışdı və hamıdan çox yediyi üçün ağır-ağır nəfəs alırdı. Muxtar Bədheybət ayaq üstə tərpənməz dayanmış Mahmuda baxırdı və Mahmudun nəzərləri Muxtar Bədheybətin xoşuna gəlmədi. Muxtar Bədheybətin sol əlini dirsəyindən bir az aşağı kəsmişdilər və Muxtar Bədheybət kəsilmiş əlini qurudub özündə saxlamışdı və həmin qurumuş əlini az qala adamların gözünə soxa-soxa pul yığırdı, dilənçilikdən yorulduğu vaxtlar Camaata qoşulurdu. Muxtar Bədheybət əslində gərək Sümsüklərin arasında dolaşaydı, çünki əlsizlər, ayaqsızlar Camaatın içində baş çıxara bilmirdi, amma hamı Camaatdan qorxurdusa, Camaat da Muxtar Bədheybətin qurumuş əlindən qorxurdu.

Mahmud da Muxtar Bədheybətə baxdı və gördü ki, bu bədbəxt adam taleyindən o qədər razıdır ki, boynundan ilanmuncuğu[1] asıb; dünya gör necə dünya idi ki, bu bədbəxtə də göz dəyə bilərdi...

Muxtar Bədheybət ayağa qalxıb Mahmuda yaxınlaşdı və gözlərini Mahmuddan çəkməyərək ətrafında dövrə vurmağa başladı. Muxtar

[1] İlanmuncuğu – ilan kəlləsində muncuqvari sümükdür, guya bəd-nəzərdən gözləyir.

Bədheybət boyda Mahmuddan kiçik idi və başını azacıq yana əyib altdan-yuxarı Mahmuda baxa-baxa və ətrafında da dövrə vura-vura:

– Kimdi bu? – soruşdu, sonra daha cəld Mahmudun başına dolana-dolana və altdan-yuxarı ona baxa-baxa gah bərkdən, gah da yavaşdan tez-tez təkrar eləməyə başladı. – Kimdi bu? Kimdi bu? Kimdi bu? Kimdi bu? Kimdi bu? Kimdi bu? Kimdi bu?..

Mahmud tez-tez söylənən bu suala nə cavab verəcəyini bilmirdi və Camaatın da nəzəri yavaş-yavaş Mahmuda dikilirdi. Muxtar Bədheybət Mahmudun başına dolana-dolana bu dəfə Camaata tərəf baxdı və qoynundan çıxartdığı qurumuş əlini Mahmudun üzünə uzada-uzada gah pıçıltı ilə, gah da qışqıra-qışqıra elə hey deyirdi:

Camaat gözünü də qırpmırdı. Camaat tən ortada dayanıb qəribə-qəribə sözlər söyləyən bu əlif qamətli cavan oğlana baxırdı. Bu cavan oğlanın ağzından qaynayan sözlərdə bir sehr var idi və bu sehr Camaatın içində kimisə uşaqlığına çəkib aparırdı, kiminsə çoxdan yadından çıxartdığı anasını gözünün qabağına gətirirdi, kiminsə balasını yadına salırdı, kiminsə öldürdüyü adam indi gözlərini açıb ona baxırdı. Bu, yaxşı sehr deyildi və bu sehr hər şeyi illərin hafizələrdə bağladığı kirəcindən hisslərin korusu arasından çıxarıb ortaya tölsəydi, bu adamlara insanlıq ləyaqəti gətirsəydi, onda daha yaşamaq mümkün əlmazdı və Camaat bunu sövq-təbii duyurdu.

Sinəsindən qəpub gələn bir həyəcan, hərarət Mahmudun iki əlini

– İnsanlar!.. İnsanlar!.. Ağalar!..

– İki şahı verdik danışdırdıq, indi üç şahı veririk, kəsməz! – Camaat gülməkdən qəşş edə-edə daha artıq bir ehtiras və ləzzətlə əlinə keçəni Mahmudun başına tolazlamağa başladı; daş, kömür, kösöv, at sümüyü...

– Ovçudu bu, maral gəzir!..

Bu vaxt Camaatın arasından qıvrım, pırpız saçları ağappaq ağarmış bir qarı ortaya yüyürdü və ağzından tüpürcək sıçraya-sıçraya nazik səsiylə gücü gəldikcə qışqıra-qışqıra danışmağa başladı:

– Günlərin bir günü gün tutuldu, gündüz qaranlıq oldu. Məlik Cabbar padşahla Məlik Səttar padşah əndamları yanmış arvadlarıynan dənizin qırağına çıxdılar ki, görsünlər bu necə işdi? Birdən dəryadan bir balıq çıxdı, bunların dördünü də uddu. Uşaqları qaldı yetim! Biri qız idi. Bilirsən nə elədi? Sənin kimisinin birini gördü. Yapışdı burasından! – Qarı əlini atıb Mahmudun ayaqlarının arasından yapışdı. – Dedi, ovçu, ovdan danışmasan, buraxmaram! Sıxacağam!

Mahmudun həya, abır hissi içindən qopan bağırtını boğdu və Mahmud bütün ətrafına yığılmış və indi bu cır-cındırın içində dünyanın ən xoşbəxt adamları kimi ləzzətlə gülə-gülə az qala özlərindən gedən Camaata baxa-baxa başa düşdü ki, əslində insanın xoşbəxt olmağı üçün çox az şey lazımdı və ümumiyyətlə, hələ məlum deyil ki, xoşbəxtlik nədi...

Camaatın içində tək dişini ağarda-ağarda ən çox uğunub gedən Qısır Qarı idi. Ceyrandan sonra qürbət ellərdə tək qalıb çöllərə düşmüş [illegible]

qayalıqdan tullaya bilərdi və bu zaman hər şey sona yetərdi. Mahmud həmin azadlığın, həmin yoxsulluğun yüngüllüyünü bütün bədəni ilə hiss etdi, amma bu xoşbəxt Camaat bu dəm dəli bir ehtirasla gözləyirdi ki, bu tamaşanın axırı nə olacaq və bu Camaatın ki, sifətində bu qədər xoşbəxtlik var idi, bunun müqabilində Mahmudun sifətinin alışıb-yanması bir heç idi və Mahmud danışdı, ovdan danışdı:

– Ova çıxdım bir gün. Qabağımdan bir dovşan qaçdı, ayaqları yox idi!..

Camaat bərkdən güldü.

– Yay götürmüşdüm, ox götürməmişdim. Oxu atdım, dovşanı yerə sərdim!..

Camaat daha da bərkdən güldü.

– Tiyəsi yox bıçağım var idi, cibimdən çıxartdım, dovşanı soydum!..

Muxtar Bədheybət:

– Canım ay dovşan! – deyib daha gülməkdən ayaq üstə dayana bilmədi və yerə oturub qurudulmuş əlinin qaxac barmaqları ilə torpağı döyəcləyə-döyəcləyə uğunub getdi.

– Altıyox bir qazan tapdım. Dovşanın ətini altıyox qazanda qovurdum!..

Ağbaş qarı əlini buraxmışdı və o da Muxtar Bədheybətin yanında yerə oturub gülməkdən az qalırdı qəşş etsin. Mahmud daha o buraxılmış xərçəng əlin fərqində deyildi. Mahmud uğunub gedən bu adamlara baxa-baxa, ağlaya-ağlaya danışırdı və Mahmud xoşbəxt idi ki, Camaat onun ağlamağını görmür, başa düşmü[illegible]

[illegible]

– Xoruza...

– Xoruza mindilər...

Və bu zaman dünyanın görünməmiş bir hadisəsi baş verdi: uğunmaqdan az qala özündən gedən Qısır Qarıya birdən-birə elə gəldi ki, burnu böyüdü və əlini burnuna aparanda gördü ki, yox, bu burun deyil, bu – dimdikdi. Qısır Qarı dimdik çıxarmışdı, sonra Qısır Qarı bütün varlığını sarsıtmış bir dəhşət içində gördü ki, bədənindən quş lələkləri çıxır və bütün bədəni bu lələklərlə örtülür və Qısır Qarı qışqırmaq istədi, Camaatı köməyə çağırmaq istədi, amma qışqırmaq əvəzinə, qarğa kimi qarıldamağa başladı və bütün bədənini sarsıtmış o dəhşət də elə bil ki, ötüb getdi, xoş bir nigarançılıqla əvəz olundu.

Həmin qarğa qarıltısını heç kim eşitmədi, hamının fikri-zikri Mahmudun yanında idi, hamı gülməkdən qəşş edirdi və heç kim görmədi ki, Qısır Qarı birdən-birə necə kiçildi, necə gözgörəti çönüb yekə və qara bir qarğa oldu, sonra o qayalıqdan necə ayrılıb uça-uça göyə qalxdı, Camaatın başı üstdə iki dövrə vurdu, sonra da uça-uça bu yerlərdən uzaqlaşdı, göyün dərinliklərində gözdən itdi...

– Xoruza...

– Xoruza mindilər...

– Bəs sonra?..

– Sonra nə oldu?

– Qabağımıza bir çay çıxdı. Çaydan tapdıq bir palan. Palanı sökdük, içindən...

– Yox, palanı sökməyin! – Bu sözləri bütün ömrü boyu çiyninə palan alıb yük daşımış hambal Ömərüşağı dedi; hambal Ömərüşağı qocalmışdı, daha qolunda güc qalmamışdı, yük daşıya bilmirdi, bir müddət səfil dolaşıb Camaata qoşulmuşdu və indi, deyəsən hambal Ömərüşağı gülməkdən dəli olmuşdu, çünki birdən-birə var gücü ilə bağırmağa başladı, elə bil gözünün qabağında balasının başını kəsirdilər. – Yox, palanı sökməyin!.. Palanı sökməyin!..

Camaat qeyz ilə başını çöndərib beləcə qəflətən keflərini pozan hambal Ömərüşağına baxdı və hambal Ömərüşağı Camaatın bu qəzəbli baxışındakı məhkumluq hökmünü hiss etdi və heyvani bir qorxu ilə daha da bərkdən bağırdı:

– Yox!.. Yox!.. Yox!..

Qul Məhəmməd qara qıllı, uzun və ağır sümüklü qolları ilə ətrafdakıları kənara itələdi və yerdən iri bir daş parçası qapıb var gücü ilə

hambal Ömərüşağının başına çırpdı; hambal Ömərüşağının kəlləsindən sıçrayan ağ beyin horrası qanına qarışdı, bircə anın içində qıpqırmızı palçıq bütün sifətinə yayıldı və hambal Ömərüşağı üzü üstə yerə sərilən kimi, Qul Məhəmməd hündür bir qayanın üstünə atılıb sinəsinə, boynuna səpələnmiş qan ləkələrini, ağ beyin horrasını əli ilə silə-silə bərkdən qışqırdı:

– İnni dariballahu qatilün![1]

Mahmud iki əli ilə də qulaqlarını qapayıb başını tutdu, amma ərəbcə deyilmiş bu sözlər elə bil barmaqlarının arasından süzülüb beyninə dolurdu: inni dariballahu qatilün... inni dariballahu qatilün... inni dariballahu qatilün...

Camaat hərəkətə gəlmşdi. Hambal Ömərüşağının kəlləsindən sıçrayıb dağılmış sıyıq beyin və axıb yavaş-yavaş laxtalanmış qan elə bil ki, Camaatın içində mürgüləyə-mürgüləyə girəvə axtaran qan hərisliyini oyatmışdı, səsləri, hərəkətləri, hiss-həyəcanları insanlıqdan çıxarıb lap əzələ aparmışdı və Mahmud hərəkətə gəlmiş, həyəcanlanmış bu Camaatın arasında sıxıla-sıxıla, əzilə-əzilə başa düşdü ki, daha sondu, dəbbə[2] kimi tapdalanacaq və Mahmud bu son məqamda Camaatla rastlaşdığı vaxtdan bəri tamamilə yadından çıxartdığı Məryəmin adını qışqırmaq istədi, hətta Mahmuda elə gəldi ki, qışqırdı bu adı, "Məryəm! Məryəm!" – qışqırdı, amma həyəcan, çılğınlıq içindəki Camaatın səs-küyü, haray-həşiri Mahmudun qışqırtısını boğdu, Məryəmin adını Mahmudun dilindən alıb bircə anın içində yuxu kimi yaydı, yaydı və yox etdi.

Bu vaxt sərt və güclü bir əl Mahmudun qolundan yapışıb dartdı və Mahmud tamam vəhşiləşmiş Camaatın arasında daha heç nə fikirləşə və hiss edə bilməsə də qolunu sıxan bu güclü barmaqlarda bir tanışlıq və havadarlıq duydu.

Sarışın Oğlan Mahmudu tanımışdı, yəni Sarışın Oğlan bilmirdi ki, Mahmudun adı Mahmuddu və Mahmud gəncəli Ziyad xanın oğludu, amma Sarışın Oğlan burasını dəqiq bilirdi ki, ağlaya-ağlaya Caamaatı xoşbəxt etmiş bu iri, göygözlü cavan indicə ayaq altında qalacaq, bu

[1] Şərqdə geniş yayılmış dini fanatizm şüarı idi, tərcüməsi: "Mən vurdum, Allah öldürdü".

[2] Dəbbə – içi samanla doldurulmuş dəri kisə idi; döyüş fillərini müharibələrə hazırlamaq üçün dəbbələri onların ayaqları altına atıb tapdaladırdılar ki, vuruş zamanı düşmənləri də belə tapdalasınlar.

köməksiz və fağır adam əziləcək, məhv olacaq; Mahmudun qolundan yapışıb darta-darta Camaatın arasından çıxartdı və öz ardınca darta-darta Camaatdan uzaqlaşdırdı.

Gün tamam batmışdı və o bozumtul-qırmızı dünyadan daha əlamət yox idi. İndi hər tərəf gecəqabağı bir kölgəyə bürünmüşdü və bu kölgəli aləmdə heç bir işıqdan əsər-əlamət yox idi; hər tərəfi bürümüş bu gecəqabağı kölgə dünyanın dərdindən-ələmindən xəbər verirdi və hər tərəfə də bulanıq su kimi, bir ümidsizlik çiləyirdi.

Camaat arxada qaldı.

Sal qayaların qaralan kölgəsi də arxada qaldı.

Qəribə idi, Camaatdan uzaqlaşdıqda, o sal qayaların qaraltısı gözdən itdikcə, Mahmudun beyninə bir aydınlıq çökürdü və Mahmud Camaatın sifətini bir-bir gözünün qabağına gətirirdi, bu sifətləri bütün cizgiləri ilə dəqiq və aydın görürdü və bu dəqiqlik, aydınlıq hər tərəfi bürümüş ümidsizliyi daha da artırırdı. Gözünün qarşısına gələn sifətlərdən birini Mahmud yalnız indi Mirzə Salmana oxşatdı və bu bənzəyişdən diksindi...

Bu dəm Gəncədə nə var görəsən, Doğma Gəncədə, çinarlı Gəncədə... Mahmud bilməzdi ki, Gəncə onunçün bu qədər əzizdir və Gəncədən ötrü bu cür burnunun ucu göynəyə bilər. Ziyad xan nə edir? Qəmərbanu necədir? Mirzə Salman? Görəsən, sarayın həyətindəki o alma ağacının barla dolmuş budaqları yenə yerəcən sallanıbmı? Görəsən toyuqlara baxan o kəndli arvad yenə saraydadımı və yenə də tıqqıldayan, civildəyən yumurtaları balaca uşaqların qulağına tutub eləcə gülümsəyirmi? Bəlkə o kəndli arvad çoxdan ölüb, heç Mahmudun xəbəri yoxdu? Axı, axır vaxtlar o kök, yekəpər, amma mehriban arvadı deyəsən heç görmürdü... Birdən-birə saraydakı bir nökərin sifəti Mahmudun gözlərinin qabağına gəldi və Mahmud həmin nökərin sifətini heç vaxt görmədiyi bir təfərrüatla gördü, hətta qaşının üstündəki kiçik çapıq yerini də gördü. Mahmud bu adamın adını bilmirdi. Neçə il idi ki, həmin adam sarayda nökər idi və bütün bu müddət ərzində Mahmud onunla bircə kəlmə də danışmamışdı, amma nə üçün indi o adamı beləcə xatırladı?

Neçə vaxtdan bəri qovduğu, yaxına buraxmadığı, özündən kənar etdiyi bir fikir bu dəfə Mahmudu süpürləyib qamarladı: doğrudan da bu səfərin bir mənası varmı?; bir halda ki, bütün dünya belə bir ümidsizlik və uzaq xatirələr içində idi, bu dünyada işıq axtarmağın

mənası vardımı; bir halda ki, bu ümidsiz dünyanın, bu qəmgin dünyanın özündə bu cür bir Camaat dünyası var idi, Mahmudun öz xoşbəxtliyi arxasına düşməyə haqqı vardımı? Mahmud bu fikirlər içində qəfil bir doğmalıq hiss etdi, doğma bir nəfəs duydu və əlbəttə, bu, Məryəmin nəfəsi idi və bu doğma nəfəs Mahmudun beynini doldurmuş, Mahmudu məhv edən bütün bu suallara cavab verirdi; sözlə yox, həmin doğma duyumla cavab verirdi; Mahmud bu doğma nəfəsi bir daha hiss etdi və bu nəfəs elə bil Mahmudun da içinə dolub nəsə sevincli, kiçicik də olsa nəsə işıqlı bir ovqat gətirdi, bir ümid ərəfəsinin əhvalını gətirdi.

Sarışın Oğlan, Mahmudun qolunu buraxdı və Mahmud həmin gün – o uzun və üzüntülü gün, Camaat dərdi ilə dolu olan gün birinci dəfə Sarışın Oğlanın səsini eşitdi:

– Bu aclıq, bu sə-sə-səfalət aradan gö-gö-türülməlidi!..

Sarışın Oğlanın dili topuq çalırdı və indi açıq-aşkar həyəcanlı olduğu üçün danışığının bu qüsuru artıq hiss olunurdu.

– Millət bu cür ə-ə-əzab içindədi, amma iki bö-bö-böyük türk dövləti[1] bi-bi-birləşmək əvəzinə, bir-bi-birini mə-mə-məhv edir!.. Ba-ba-başlarına 12 imam çalması ba-ba-bağlamaqdansa, özlərini qızılbaş ad-ad-adlandırmaqdansa[2], öz xa-xa-xalqlarının qeyrətini çə-çə-çəksinlər!

Pu-pu-pullarımızın üstündə də 12 imamın a-a-adını yazırıq[3] öz a-a-adımızı ya-ya-yazmaq ağlımıza gə-gə-gəlmir!.. Zülqədərlər bir tə-tə-tərəfə ayrılıb, əf-əf-əfşarlar bir tərəfə a-a-ayrılıb, qa-carlar ayrı, ru-ru-rumular ayrı, ustaclılar şa-şa-şamlıları bə-bə-bəyənmir, şahsevənlər pa-pa-padarları...[4]

Bu aclıq, bu sə-sə-səfalət aradan götürülməkdən ötrü bü-bütün yer üzünün türkləri bi-bi-birləşməlidir!

Sarışın Oğlan qəribə sözlər danışırdı və Mahmud yanaşı addımlaya-adımlaya maraqla bu Sarışın Oğlana baxırdı; cır-cındır içində olan Sarışın Oğlanın danışığında, baxışında, hərəkətlərində bir qətilik, inam və bir də cazibə var idi, dediyi sözlər adamı ələ alırdı, özünə

[1] Osmanlı imperiyası ilə Səfəvilər dövləti nəzərdə tutulur.

[2] Səfəvilərin əsgərləri özlərini "müqəddəs şiəlik" əsgərləri adlandırırdılar və 12 imamın şərəfə başlarına on iki qırmızı zolaq olan alma bağlayırdılar, buna görə də onlara "qızılbaş" deyirdilər.

[3] Səfəvilər Təbrizdə, Ərdəbildə, Naxçıvanda, Bakıda, Dərbənddə, Şamaxıda iri gümüş pullar kəsdirirdi və bu pulların üzərində 12 imamın adı həkk olunurdu.

[4] Azərbaycan tayfaları.

çəkirdi. Mahmud bu adamın ürəyində bir buz soyuqluğu hiss edirdi, amma eyni zamanda həmin ürəkdə bir hərarət də var idi, bu – bayırın buz soyuğunda içəri üzündən tərləmiş pəncərə şüşəsinə bənzəyirdi.

Sarışın Oğlan Mahmudun sifətindəki təbəssümü özü başa düşdüyü kimi yozdu:

– Hə, hə, bi-bi-birləşməliyik biz!.. Görürəm, gö-gö-görürəm, oxumuş adamsan. Xacə Nə-nə-nəsirəddin Tusi ö-ö-özü "Əxlaqi-Nəsiri"də yazır ki, "bi-bi-birlik" nə qədər ya-ya-yaxın olsa, o qədər ka-ka-kamil olar.

Mahmud, Sarışın Oğlanın sözlərindəki bir qüsuru açıq-aşkar görürdü və ona görə də dedi:

– Tusi bütün insanları "birliyə" çağırır, amma sən təkcə türklərin birliyini arzulayırsan.

Sarışın Oğlan daha da artıq həyəcanlandı və dili daha da tez-tez topuq vurmağa başladı, amma bu pəltəklik elə bil ki, Sarışın Oğlanın nitqinin cazibəsini azaltmaq əvəzinə artırırdı:

– Mə-mə-mənim üçün millətin fö-fö-fövqündə insanlıq yoxdu! Mənim üçün tü-tü-türklər insandan fö-fö-fövqanədir!.. Bü-bü-bütün heyvanlar ey-ey-eyni deyil! Şirlər, pə-pə-pələnglə bərabər, so-sosoxulcanlar da var! İnsanlar da ey-ey-eyni deyil. Bütün ye-ye-yer üzünün türkləri si-si-sifətlərinin quruluşundan, a-a-adətlərindən asılı olmayaraq bi-bi-birləşməlidi!.. Bəs, biz nə e-e-edirik? Uzun Həsən os-os-osmanlıların əleyhinə yu-yu-yunanlarla it-it-ittifaq bağladı![1]

Qa-qa-Qa-raqoyunlu ilə Ağqoyunlu bir-birini qırdı!.. İndi Sultan Səlim nə e-e-edir? Taxta çıxan kimi tə-tə-təbə-liyindəki qırx mi-mi-mindən çox qızılbaşı as-as-as-dırdı! Kimdi qı-qı-qızılbaşlar? Özümüzünkü Şah İsmayıl nə edir? Şi-şi-şiə qeyrəti çə-çə-çəkir! Türk qeyrəti çə-çə-çəkmək əvəzinə! Özümüz ö-ö-özümüzü qılıncdan ke-ke-keçiririk? Onda da bax, be-be belə olur! – Sarışın Oğlan geri çöndü və əlini uzadıb barmağı ilə Camaatın qaldığı yaylaq tərəfi göstərdi.

Mahmud birinci dəfə idi ki, belə bir fəlsəfə ilə rastlaşırdı və təəccüblə:

– Bəs, başqa xalqların acları, səfilləri? – soruşdu.

Bu adi sual Sarışın Oğlanı lap özündən çıxardı və Sarışın Oğlan gözləri qəzəbdən oynaya-oynaya, qışqıra-qışqıra cavab verdi.

[1] Azərbaycan Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsən XV əsrin ortalarında yunan Trabzon imperiyası ilə Osmanlı imperiyasının əleyhinə ittifaq bağlamışdı.

– Başqa xalqlar? Ba-ba-başqa xalqlar bizə qul ol-ol-olmalıdırlar! Bi-bi-biz hələ öz türk millətimizin dərdini çə-çə-çəkə bilmirik, sə-sə-sən başqalarından da-da-danışırsan? Mən... Mən onları qul edə-cəyəm! Çindən tutmuş A-a-Aralıq dənizinəcən, Si-si-Sibirdən tutmuş Yə-yə-Yəmənəcən bir ərazi bi-bi-bizimdir! Mən bü-bü-bütün türk xalqlarını birləşdirəcəyəm! Mə-mə-mənim ömrüm çatmasa, bu-bu-bunu mənim oğlum edəcək! Onun öm-öm-ömrü çatmasa, onun oğlu e-e-edəcək! Sonra o bi-bi-birisi!.. Sonra o bi-bi-birisi! – Sarışın Oğlanın ağzı get-gedə köpüklənirdi və elə bil ki, bu dəm özü öz iradəsindən çıxacaqdı; birdən əlini atıb Mahmudun yaxasından yapışdı və daxili kindən-küdurətdən güc almış hikkə ilə Mahmudu silkələyə-silkələyə qəzəblə, dili dodağına dolaşa-dolaşa bağırdı: – Zə-zə-zəhləm gedir bu ya-ya-yalançı xeyirxahlıqdan! Xalqı o-o-oyanmağa qoymayan, a-a-ayağa qalxmağa qoymayan sə-sə-sənin kimilərdi! Yalançı "bəs ba-ba-başqaları?" sualının qulları!

Ya-ya-yalançı insanpərvərlikləri ilə a-a-acizliklərini, heçliklərini ö-ö-ört-basdır edənlər! Məhv etmək la-la-lazımdı millətin fö-fö-fövqündəki bu bə-bə-bəşərilik fəlsəfəsini! Bü-bü-bütün kitabları ya-ya-yandırmaq la-la-lazımdı! Tusinin də ki-ki-kitablarını!..

Sarışın Oğlan, Mahmudu bir tərəfə itələdi və iti addımlarla uzaqlaşıb qaranlıqda gözdən itdi.

Gecə düşmüşdü.

Bütün bu qışqırtılardan, qəhqəhələrdən, hiss-həyəcanlardan sonra həmin qaranlıq gecəni ölü bir sakitlik bürüdü.

Mahmud dizi üstə yerə çömbəlib bu sakitliyə qulaq asdı.

Gecənin bu ölü sakitliyi elə bil Mahmudun bədəninə dolmuş gözə görünməyən, amma sızıldayan nazik tikanları bir-bir çəkib çıxarırdı, amma bu bir rahatlıq gətirmirdi, əksinə, o cismani sızıltının əvəzinə heç bir işıq ucu görünməyən bir ümidsizlik bütün fikrini, hissini bürüyürdü.

Mahmud göyə baxdı.

Göy par-par yanan ulduzlarla dolu idi. Mahmud uşaq vaxtı hələ lap beş-altı yaşı olanda, həmişə ulduzlara baxıb fikirləşirdi ki, axı, ulduzlar quş deyil və ulduzların qanadı yoxdu, bəs necə uçub göyə qonublar?

O uşaqlıq illəri də bu ulduzların məsafəsi qədər dərin bir uzaqlıqda idi və o uzaq uşaq sadəlövhlüyü dünyanın qəddarlığı içində körpə barmağı nazikliyində bir şam idi, kövrəklik saça-saça əriyib yox olurdu.

mehriban pıçıltının söylədiklərinə və Gəncədən çıxdığı gecədən bu günə kimi əzab-əziyyətlə yolunu gəldiyi Müqəddəs Evin bu qədər yaxınlığına baxmayaraq, bədbəxtlik ondan və Məryəmdən əskik olmayacaq. Baba Keşiş iki əlini də qaldırıb əvvəlcədən bədbəxtlik hissini özündən qovmaq istədi, gözlərini bərk-bərk yumub üzünü yana çevirdi ki, o qan qırmızısını görməsin. Yox, yox, Allahın mömin bəndələri üçün Müqəddəs Evdə hər bir dərdə əlac var idi və Müqəddəs Qoca da öz məsləhətləri ilə Baba Keşişə kömək edəcəkdi, çünki Allah nəyə görəsə Baba Keşişdən üz döndərsəydi də Məryəmdən üz döndərməzdi.

Bu dəfə Baba Keşiş Məryəmi hər bir hücrəsindən nəfs qoxuyan, hər bir əşyasından iyrənclik yağan, zənginliyi ah-uflarla, göz yaşları ilə nəfəs alan, bakirəliyi əxlaqsız, məsumluğu ifritə etmiş saray içində gözlərinin qabağına gətirdi, Məryəmi müsəlman saray arvadlarının şəhvətdən xəbər verən paltarında gördü və bu görüm qırmızı qan görümündən daha dəhşətli və daha dözülməz idi. Yox, Məryəm belə bir dinsizlik və pozğunluq içində ola bilməzdi. Düzdü, indi Məryəm sarayda idi. Düzdü, Ziyad xan oğlu Mahmudu qəyyumluğa götürmüş Dəli Süleyman paşa bircə gecənin içində Baba Keşişi tapdırıb Məryəmi saraya aparmışdı, amma Məryəm hələ əvvəlki kimi pak və təmiz idi.

Bəs, sabah nə olacaqdı?

Süleyman paşa Mahmud ilə Məryəmin toy gününü sabaha toyun etmişdi. Süleyman paşa dünyanın elə bir dəli adamı idi ki, nə ağına baxırdı, nə bozuna və nə desən eləyə bilərdi, özü də tülkü kimi hiyləgər idi, ayıq adam idi, hətta başqasının nə fikirləşdiyini də az qala üzündən oxuyurdu.

Süleyman paşa sarayda Məryəm ilə Baba Keşişi bir yerdə saxlayırdı və dünən özü onların otağına gəldi, "Birigün toydu!" – dedi, sonra zəndlə Baba Keşişə baxdı. Baba Keşiş bilirdi ki, Dəli Süleyman paşanın sarayından qaçmaq mümkün deyil, amma yenə fikrindən keçirdi ki, Məryəmi götürüb Hələbə qaçsın. Hələb paşasının dərgahı Ortün bəyin köməyinə sığınsın. Birdən Süleyman paşa dili kökələyə-kökələyə dedi:

– Yox, ke-ke-keşiş, Ortün bə-bə-bəyi də öldürdərəm, sənı də. Və Baba Keşiş başa düşdü ki, son məqam gəlib çatıb və yeganə ümid Müqəddəs Evdi. Bu gün səhər Məryəmi sarayda qoyub özü yola düzəldi. Məryəmsiz Baba Keşiş azad idi, dünyanın dörd tərəfində hara istəsəydi, gedə bilərdi, əsir Məryəm idi, amma o nəfs düşkünləri, o qəddarlar burasını da yaxşı bilirdi ki, divin canı şüşədə olduğu kimi, Məryəmsiz də Baba Keşiş üçün həyat yox idi və buna görə də heç kim Baba Keşişi izləmirdi, təqib etmirdi.

Düzdü, dinsizlər, nəfs düşkünləri tülkü kimi hiyləgər idi, qazdan ayıq idi, amma onlar da bilmirdi ki, Allahın mömin bəndələri üçün Müqəddəs Ev var və bu Müqəddəs Evin qapısı Baba Keşişin üzünə açıqdı və Müqəddəs Evdəki əlaclardan biri Məryəmi dinsiz əlindən hifz edəcəkdi.

Baba Keşişə, elə bil, təzədən güc gəldi, təzə nəfəs gəldi, bütün tərəddüdlər, qarabasmalar yox oldu və Baba Keşiş iri və tələsik addımlarla yoxuşu qalxmağa başladı.

Baba Keşiş yer üzündə on mömin adamdan biri idi ki, Müqəddəs Evin sirlərinə bələd idi və artıq Müqəddəs Evdən hansı əlacı götürəcəyini bilirdi. Məryəmin pak, təmiz bədəni heç bir din düşməninin, heç bir nəfskarın gözünə görünməyəcəkdi.

Sonra Müqəddəs Ev bütöv göründü. Çılpaq qayaların qoynunda tək-tənha ucalan bu qədim binanın da sal daşları günbəzi kimi qapqara qaralmışdı və Baba Keşiş yaxınlaşdıqca bu böyük binanın damında, günbəzində vəhşi göyərçinlərin buladığı yerlər adda-budda ağarırdı.

Baba Keşiş bilirdi ki, Müqəddəs Evin günbəzi qızıldan deyil, amma hər halda Müqəddəs Evin bu qədər sadə və dünyəvi görkəmi elə bil ki, Baba Keşişi bir anlıq sarsıtdı, amma elə həmin anda da Baba Keşiş başa düşdü ki, əslində belə də olmalıdı, o qüdrət həqiqətən böyükdür, qadirdir ki, dünyanı məhv edən sərvətdən və dəli edən gözəllikdən yüksəkdir.

Baba Keşiş Müqəddəs Qocanı da heç vaxt görməmişdi, amma Müqəddəs Qocanı da görən kimi tanıdı. Müqəddəs Qoca sömə[1]sindən çıxıb ən adi bir bəndə kimi Müqəddəs Evin qabağında yerdə oturmuşdu, əynində uzun-uzun illərdən bəri cırılıb dağılmış cod kətandan uzun ağ köynək var idi, ayaqları yalın və çirkli idi, bu arıq adamın uzun saqqalı, uzun seyrək saçları da tamam ağarmışdı, alnı, yanaqları, əlləri qırış içində idi və Baba Keşiş yaxınlaşdıqca get-gedə artan bir heyrətlə görürdü ki, Müqəddəs Qocanın çevik gözləri nə qiyafəsinə, nə saç-

[1] Sömə – tərki-dünya olmuş sofi və zahidlərin hücrəsi.

saqqalının gümüşünə, nə də bədəninin, sifətinin qırışına uyuşur. Müqəddəs Qocanın gözlərində açıq-aşkar bir ehtiras var idi, dünyanın hiss-həyəcanları var idi.

Baba Keşiş gəlib Müqəddəs Qoca ilə üzbəüz dayandı.

Baba Keşiş qalib idi, Müqəddəs Evin qarşısında dayanmışdı və tamam əmin idi ki, Müqəddəs Evin qapısı üzünə açılacaqdı və bununla da dünyanın Məryəm təmizliyi bifz olunacaqdı, amma, amma Rəb

deyil ki, yeyir, içir və kef edir, günahkar o kəsdir ki, günlərini boş və mənasız bir eyniyyətə döndərir, özü özünə divan tutur, özü öz hisslərini boğub öldürür və bütün bunları yalnız altmış dörd il üç ay yeddi gündən sonra başa düşür.

Altmış dörd il üç ay yeddi gün tərəddüd etmədən ömrünü ibadətdə keçirmiş qoca rahib heç bir hazırlıqsız, heç bir söyqsüz və heç bir

Müqəddəs Qoca hər şeyi bilirdi və bir də ki, bəlkə bu sözləri heç Müqəddəs Qoca demirdi, bu sözləri elə Baba Keşişin özü özünə deyirdi? Bu fikir az qaldı Baba Keşişi qamarlayıb Müqəddəs Evin yavaş-yavaş cırıldaya-cırıldaya açılan ağır, qara darvazasına çırpın və Baba Keşiş bütün varlığı ilə başa düşdü ki, tələsmək lazımdı, imkan daxilində tələsmək lazımdı, yoxsa hər şey alt-üst olur.

Müqəddəs Qoca əlini uzadıb uzun barmağı ilə Müqəddəs Evin darvazasını göstərdi:

– Elə bilirsən onlar kimə xoşbəxtlik gətirib?

Baba Keşiş dedi:

– Mən xoşbəxtlik axtarmıram, ata, mən təmizlik istəyirəm.

– Təmizlik, paklıq istəyirsən? Axı, sən korsan! Sən təmizliyi, paklığı necə görə bilərsən?

– Mən səni görürəm, ata.

– Yazıq insan, miskin insan! – Müqəddəs Qoca yaşına yaraşmayan bir çəldlikə ayağa sıçradı. – Ömrünü hədər keçirmiş axmaq bir qocanın simasında təmizlik görürsən, amma bu dağları görmürsən, bu meşələri, bu günəşi görmürsən! Zavallı insan! Təbiət sənə iki göz verib, amma sən kor yaşayırsan və kor da öləcəksən! – Müqəddəs Qoca özü öz sözünü təkzib etdi. – Öləcəksən? Sən bəyəm ölü deyilsən? Ölüsən! Ölüsən! Ölüsən! – Müqəddəs Qoca bu cür qışqıra-qışqıra meşəyə tərəf qaçdı, elə bil özünə yer tapa bilmirdi, elə bil kimsə Müqəddəs Qocanı qovurdu.

Bu nə idi belə? İblismi Müqəddəs Qocanın qiyafəsinə girmişdi? Baba Keşiş başa düşürdü ki, yox, belə deyil, gözləri dəli bir parıltı ilə işıldayan və əlləri ilə uzun köynəyinin balağını yuxarı qaldırıb yaşına, sanına yaraşmayan bir yüngülliklə [illegible] damından adi köhnə binaların damı kimi, daş düşmüşdü və göyərçinlər də yəqin həmin deşikdən keçib burada özlərinə məskən salmışdı.

Baba Keşiş zalın bir küncündəki açıq hücrəyə tərəf getdi və ayaqlarının altında qalan göyərçin yumurtalarının quru qabıqları əzilib xırçıldadıqca Baba Keşişin əti ürpəşirdi və Baba Keşişə elə gəlirdi ki, ayaqlarının altında təzə çıxmış göyərçin cücələrini tapdalayır.

Baba Keşiş açıq darvazadan və tavandan düşən işıqda hücrədəki köhnə təsların, tərbələrin, nəllərin, palazların, paltarların arxasında solğun və yaraşıqsız donu ömründə birinci dəfə görə də tanıdı və çəld həmin donu götürüb peyin üfunətindən çürüntü qoxusu verən rütubətdən tez qurtarmaq üçün iti addımlarla zaldan çıxdı. Qaranlıqdan sonra günəşin işığı Baba Keşişin gözlərini qamaşdırdı və Baba Keşiş heç özü də bilmədi ki, necə fikirləşdi ki, bəlkə Müqəddəs Qoca düz deyir və Baba Keşiş doğrudan da kordur?

Ağır, qara darvaza cırıldaya-cırıldaya, qoca sümüyü kimi şaqqıldaya-şaqqıldaya, yavaş-yavaş Baba Keşişin ardınca örtüldü və bu qocalmış darvaza cırıltısı Baba Keşişi yenə təzədən özünə gətirdi. Sonra Baba Keşiş bir uğultu eşitdi və gözlərini açdı.

Müqəddəs Qoca meşədən çıxıb Müqəddəs Evin darvazasından on beş-iyirmi addım aralıdakı iri bir daş parçasının üstündə oturmuşdu və gülməkdən uğunub gedirdi. Baba Keşişin həmin gün neçənci dəfə tükü ürpəşdi – Baba Keşişə elə gəldi ki, Müqəddəs Qoca qocalıb əldən düşmüş bir bayquşdu, bu daşa qonub.

Müqəddəs Qoca işıldayan gözlərini Baba Keşişdən çəkməyərək və əlini uzadıb arıq, uzun barmağı ilə Baba Keşişi göstərərək uğuna-uğuna deyirdi:

– Təmizlik axtaran axmaq!.. Kor insan!.. Axmaq adam!

XV

Sazəndələr çalırdı, rəqqasələr oynayırdı və bu gün saraydakı bu toy məclisində ən xoşbəxt adam Süleyman paşa idi.

Mahmud demişdi:

– Mənə zor gücünə səadət lazım deyil.

Süleyman paşa gülmüşdü:

– Düzdü, Məcnun Nofəlin qoşununu daşa basdı, amma İsgəndər Dara ilə vuruşub Rövşənəyi aldı[1]...

Süleyman paşa göbək oynada-oynada [illegible]

geyib idarə etdiyi Ərzurum torpağını qarış-qarış gəzəndə də, döyüş meydanında da ancaq bu məqsədi güdürdü və əslində bu məqsəd naminə də yaşayırdı. Süleyman paşa böyük dünya müharibələri arzulayırdı, bütün dünyaya sahib olmaq istəyirdi, ərəbdən tutmuş ingilisəcən, çinlidən tutmuş yunanacan yer üzündəki bütün xalqların abelikdə olmağını diləyirdi və Süleyman paşa bu fikirlər naminə öz imkanlarının məhdudluğunu yana-yana, ürəyinin cızdağı çıxa-çıxa başa düşürdü, görürdü, amma əlindən gələni əsirgəmirdi və ən əsası isə, bütün bunlara qəlbən inanırdı. Mahmudu [illegible]

muş oğlandı, ağıllıdı, amma burası da tamam aşkar idi ki, zavallı idi, aciz idi, yazıq idi və acizin oğlu da aciz olacaqdı, elini, torpağını, xalqını əlində tutduğu qılıncla qaldıra bilməyəcəkdi, yüksəldə bilməyəcəkdi və ağıl onun köməyinə gəlməyəcəkdi; ağıl yüz ildən, iki yüz ildən sonra lazım idi. O vaxt ki, qılınc artıq öz işini görmüş olacaqdı, hələlik isə həmin qılıncın gücünə başqalarının ağlından da istifadə etmək olardı.

Mahmud saraya girib Süleyman paşanı görən kimi tanıdı və Süleymanın qabağındakı bir qalaq kitabı göstərib soruşdu:

– Bəs bu kitablar?

Süleyman dedi:

– Bunları da yandıracağam.

Mahmud bu kitabların arasında Sədinin "Gülüstan"ını gördü, Süleymanın Camaatdan ayrılandan sonra dediyi sözləri xatırladı və "Gülüstan"dakı bir misranı əzbər söylədi:

– Bütün insanlar bir bədənin üzvləridir...

Süleyman, Mahmudun sözlərinin mənasını başa düşdü və həmin anda da sifəti ağappaq ağardı, əlini sərt bir hərəkətlə "Gülüstan"ın ceyran dərisindən cildinə basıb:

– Bi-bi-birinci elə bundan ba-ba-başlayacağam!..– dedi.

Amma Mahmudun iri göy gözlərində elə bir ifadə var idi ki, bu ifadə açıq-aşkar Süleyman paşanın fikirləşdiklərinin əksini deyirdi və ən başlıcası da bu idi ki, həmin ifadə az qalırdı Süleymanın ürəyinə tərəddüd gətirsin... Süleyman özündən azı on yaş kiçik olan Mahmudda bir ali-ətharlıq[1] hiss edirdi və bu hiss Mahmuda qarşı qəzəbi söndürürdü, qəddar olmağa qoymurdu...

...Vaxt gələcək və bu toy məclisindən on doqquz il sonra, bütün ömrünü kiçik döyüşlərdə keçirən Süleyman paşa son kiçik döyüşdə xəyanət nəticəsində ölümcül yaralanacaq, ən yaxın adamları belə bu uzun-uzadı xırda müharibələrdən, onları tamam zinhara gətirmiş sərsəri fikirlərdən, bu sərsəri fikirlər naminə münaqişələrdən, çəkişmələrdən bezib, təngə gəlib at belində vaxtsız qocalmış Süleymanı döyüş meydanında tək Süleyman bu gözlərin sahibini xatırlaya bilməyəcək, amma o iri göy gözlər həmin mavi boşluq içində bir paklıqdan, təmizlikdən ona baxacaq. Birdən-birə şıdırğı yağmağa başlayan yağış Süleymanın üzündən-gözündən süzülüb axacaq, qızdırmadan od kimi alışıb-yanan bədəninə bir sərinlik gətirəcək və o sərinlik içində, o mavi boşluq içində paklıqdan, təmizlikdən baxan iri göy gözlərin təbəssümü Süleymanın hədər getmiş ömründən danışacaq, nahaq axıdılmış qanlardan xəbər verəcək və Süleyman gülümsəyəcək: gecdi daha, hər şey bitib. Sonra o gülüş Süleymanın sifətində donacaq və şıdırğı yağış Süleymanın açıq gözlərinə tökülüb sifətində donmuş gülüşün üstü ilə axacaq...

...Məqribli qız gözəl və çılpaq bədəninin hər bir əzasını əsdirə-əsdirə ortada dövrə vururdu və sürətlə dövrə vurduqca da uzun qara saçları havaya qalxıb qövs cızırdı.

Süleymanın bütün rəqqasələri, kəniz-qulluqçuları ərəb, erməni, həbəş, yəhudi qızları idi, çünki Süleyman belə hesab edirdi ki, özününkülər oğul tərbiyə edib böyütməlidi, döşlərinin südü ilə balalarına qədim və şərəfli tarixlərinə hörmət, məhəbbət aşılamalıdı, çünki bunsuz Sabah yoxdu.

Süleyman Mahmuda baxdı və yenə də gülümsədi.

Süleyman paşa əvvəlcə bilində ki, Mahmudun dərdi nədi, özlüyündə onu gülmək tutdu, çünki Mahmudun dərdi Süleymanın fikirlərinin, qayğılarının yanında o qədər kiçik və mənasız idi ki, heç olmasa ürəkdə gülməmək mümkün deyildi.

Süleyman bircə gecənin içində Baba Keşişi və qızını tapdırdı, ikisini də saraya gətirtdi və indi Mahmud ilə həmin keşiş qızının toyunu edirdi. Süleyman üçün dəxli yox idi ki, Mahmud Gəncəli Ziyad xanın oğludu – Ziyad xan Süleymanın məktubuna, çağırışlarına cavab verməyən və ancaq öz kiçik torpağının mənafeyi ilə yaşayan bütün bu ətraf hakimlərindən biri idi, həm də taxtdan salınmışdı; məsələ burasında idi ki, Mahmud gəncəli olmağından, yaxud təbrizli, ərzurumlu, naxçıvanlı, hətta krımlı, yaxud səmərqəndli, yaxud istanbullu olmağından asılı olmayaraq Süleymanın özününkü idi və bu dəm Süleyman

solğun idi, amma əynindəki gəlinlik donu daş-qaşdan, bəzək-düzəkdən, gümüşü-qızılı naxışlardan par-par parıldayırdı, işıq saçırdı. Süleyman öz kitabında türk qızlarının başqa millətdən olanlara ərə getməyini qəti qadağan edirdi, həm də təkcə xaçpərəstlərə, yəhudilərə, bütpərəstlərə yox, müsəlman olan ərəblərə, yaxud farslara da ərə getməyini qadağan edirdi, amma kişilərin başqa millətdən olan arvadlarla evlənməyinə icazə verirdi – bu, hələlik xalqın sayının artması üçün lazım idi. Amma indi Süleymanı narahat edən başqa bir şey idi: gəlinin əynindəki yaxası dörd düyməli donun işıltısında nəsə bir qeyri-təbiilik hiss edirdi və Süleyman gizlədə bilmədiyi bir kinlə qızın atasına baxdı.

Baba Keşiş gözlərini Süleymanın gözlərindən yayındırdı. Baba Keşiş qorxaq adam deyildi, amma bu dəli paşanın baxışları adamı üşüdürdü və Baba Keşiş burasını da hiss edirdi ki, məsələ yalnız bu əliqanlı dinsizin baxışlarında deyil. Məsələ burasında idi ki, Baba Keşiş nə qədər çalışırdısa da, özünü saxlaya bilməyib hərdən Mahmuda baxırdı; Müqəddəs Qoca Baba Keşişə kor demişdi, amma Baba Keşiş bu müsəlman törəməsinin özündə belə bir təmizlik görürdü və həmin təmizlik Baba Keşişi sarsıdırdı amma bu sarsıntı sinəsindəki nifrəti, ikrah hissini azaltmırdı, əksinə, daha da artırırdı: alçaq nəfs sahibi zorakı bir dinsizin gözlərində bu cür təmizlik olmamalı idi.

Süleyman paşanın sarayı qonşu hökmdarların, hətta kələntərlərin, dövlətli tacirlərin belə saraylarının zənginliyi yanında heç nə idi; ziynətin, xalı-gəbələrin, ipək-qumaşların, hər bir küncündən-bucağından hiss edilən erkək-dişi ehtirasının əvəzinə bu sarayda bir işgüzarlıq hökm sürürdü və ev əşyalarından tutmuş, saray adamlarının hərəkətlərinəcən burada hər şey həmin işgüzarlığa xidmət edirdi, amma Baba Keşiş bu sadə sarayın belə hər bir işıltısına, burada səslənən musiqiyə, ehtiraslar qurbanı çılpaq bədənini əsdirə-əsdirə oynadan bu rəqqasəyə, yerdən salınmış böyük süfrəyə düzülmüş yağlı xörəklərə, camlara tökülmüş zəfəranlı sarı şərbətə – buradakı hər şeyə bütün hissi, həyəcanı ilə nifrət edirdi, hətta səliqə ilə iri büllur qablara qoyulmuş yekə qıpqırmızı almalar, hər giləsi az qala baş barmaq boyda olan kəhrəba üzüm salxımları, ətrafa ətir saçan yetişmiş böyük armudlar, ovuca sığışmayan hulular, şirəsi qabığını partladan gavalılar da bu dəm Baba Keşişə iyrənc görünürdü. Baba Keşişə elə gəlirdi ki, dizlərini büküb üstündə oturduğu kiçik döşəkcədən, eşitdiyi musiqidən, gördüyü sifətlərdən, burada nəfəs aldığı havadan bütün

içinə bir çirkab daxil olur və bu çirkabı təmizləmək üçün üç gün, üç gecə çayda çimmək də azdı; amma bütün bu çiyrinməklə, bu kin-küdurətlə bərabər, Baba Keşişin ürəyində bir rahatlıq var idi. Baba Keşiş əməlisaleh adam olduğu üçün və Məryəm də təkcə adı ilə yox, bütün xisləti ilə Müqəddəs Ananın sələfi olduğu üçün Baba Keşişin Müqəddəs Evdən gətirdiyi don günəş kimi işıq saçırdı.

Baba Keşiş o solğun və yaraşıqsız, nimdaş donu Məryəmə uzadıb:

– Gəlinlik donundu, – dedi.

Məryəm təəccüblə atasının qoynundan çıxartdığı bu köhnə dona baxdı və bu dəm Baba Keşiş həyatında ilk dəfə yalan dedi:

– Anandan qalıb.

Baba Keşiş birdən-birə, qəflətən söylədiyi bu yalandan özü qorxdu, çünki bu yalandan bir qəbir qoxusu gəlirdi və bu zaman Baba Keşiş dünəndən bəri eşitmədiyi o doğma və mehriban pıçıltını yenə eşitdi: "Düz dedin, həyatım... Məndən Məryəmə yadigardı o don..." Baba Keşiş bu doğma və mehriban pıçıltıda indiyə qədər olmayan başqa nəsə də hiss etdi və başa düşdü ki, bu bir üzrxahlıqdı, o doğma və mehriban pıçıltı bağışlanmaq istəyir, əfv istəyir.

Hansı günaha görə?

Məryəm atasından heç nə soruşmadı və o dörd kəlməlik danışıq Məryəm ilə Keşiş Babanın son söhbəti oldu.

Onsuz da Gəncədən çıxdıqları o gecədən sonra Məryəm ilə Baba Keşiş həmişə bir yerdə olsalar da, lap az danışırdılar və Ərzurum sarayına gətirildikdən sonra heç danışmırdılar; baxışlar hər şeyi deyirdi.

Məryəm anasından qalmış yaxası dörd düyməli o nimdaş donu əyninə geyəndə bu don gözgörəti dəyişdi, dünyanın min bir rəngini aldı, par-par parıldadı, dünyanın ən gözəl gəlinlik paltarına çevrildi; elə bil Məryəmin əyninə biçilmişdi, rahat idi, amma Məryəm bu donda anlaya bilmədiyi, başa düşmədiyi bir soyuqluq hiss etdi. Bəlkə bu soyuqluq hissi ona görə idi ki, Məryəm anasından qalan dondan bütün ömründə bilmədiyi, amma həmişə həsrətində olduğu bir nəvaziş gözləyirdi, umurdu, amma bu don həmin nəvazişə qadir deyildi?

Məryəm indi də tül pərdənin arxasında oturub toyun nə vaxt qurtaracağını gözləyə-gözləyə həmin soyuğu bütün bədəni ilə hiss edirdi və başa düşürdü ki, bu soyuqluq əynindəki gəlinlik donundan gələn soyuqluqdu; elə bil ki, çılpaq bədəninə suya salınıb şaxtada dondurulmuş və ilan dərisi kimi sürüşkən olmuş don geymişdi.

Məryəm Gəncədən çıxdıqları o gecədən sonra, bu uzun-uzadı qaçış ərzində atasının necə iztirablar çəkdiyini hiss edirdi, görürdü, başa düşürdü. Baba Keşiş heç nə demirdi, amma Məryəm atasının demədiklərinin hamısını görürdü və burasını da yaxşı başa düşürdü ki, bütün bu iztirablar ona görədir; şüur bunu başa düşürdü, şüur bunu özünə dərd edirdi, amma ürəyə zor yox idi və ürək sözə baxmırdı. Məryəm bilirdi ki, atasını məngənə kimi sıxan təkcə Mahmudun məhəbbəti deyildi, bu məhəbbətin Məryəmin ürəyində özünə yer tapması idi, amma ürəyə zor yox idi, ürək sözə baxmırdı və Məryəm heç nə edə bilmirdi.

Nə yaxşı ki, ürəyə zor yox idi.
Nə yaxşı ki, ürək sözə baxmırdı.

Məryəm bu uzun-uzadı qaçış ərzində özünə yüz dəfə ölüm arzulamışdı. Məryəm bilirdi ki, belə olmaz, bu, günahdı, amma Məryəm onsuz da günaha batmışdı və atasının həmişə fikirli və dinməz sifətinə baxdıqca bu günah hissi Məryəmi yüz dəfə də öldürüb-dirildirdi.

Rəqqasənin oyunu da, musiqinin sədaları da Məryəmin bədənini bürümüş buz soyuqluğunda əriyib yox olurdu və bu buz soyuğu içində Məryəm atasına baxdı və atasının gözlərində heç vaxt görmədiyi bir sakitlik, rahatlıq gördü və ən qəribəsi də bu oldu ki, atasının həmin sakitliyi, rahatlığı elə bil soyuq iynələrlə Məryəmin bədəninə sancılıb bütün içini daha da üşüm-üşüm üşütdü.

Məryəm tül pərdənin arxasından Mahmuda baxdı və həmin dəm başa düşdü ki, bu uzun-uzadı qaçış ərzində yüz dəfə özünə ölüm arzulasa da, əslində heç vaxt ölmək istəməyib və bütün bu müddətdə təkcə ürəyi yox, bütün bədəni ilə Mahmuda can atıb. Bu hissin hərarəti buz soyuqluğunu keçib Məryəmin içinə axdı və bu vaxt Məryəmin gözləri atasının qalın, cod qaşlarının altından baxan nəzərləri ilə qarşılaşdı və Məryəm hiss etdi ki, əynindəki donun buz soyuğuna baxmayaraq, bütün sifəti qıpqırmızı qızarır.

Rəqqasə daha oynamırdı, tovuz lələklərindən düzəldilmiş iri yelpiklərlə Süleyman paşanın [illegible]

getmiş və müsəlmanlığı qəbul etmiş qoca xanəndə Kərbəlayi Usta Ərsin ürəkdən gələn saf səsi ilə Şah İsmayıl Xətainin lap təzəcə yayılmış qəzəlini oxumağa başladı:

Yəqin bil ki, xidaidir Xətai,
Məhəmməd Mustafaidir Xətai.
Sofi nəsli Cüneydi-Heydər oğlu,
Əliyyəl-Murtəzaidir Xətai.
Həsən eşqinə meydanə gəlibdir,
Hüseyni-Kərbəlaidir Xətai.
Əli Zeynalibad Bağiru Cəfər,
Kazim, Musa Rizaidir Xətai.
Məhəmməd Təqidir, Əli Nəqqi həm,
Həsən Əsgər liqaidir Xətai...

Kərbəlayi Usta Ərsin Xətainin sözlərini dəqiq və aydın tələffüz edə-edə oxuduqca Süleyman paşanın gözləri yerindən oynamağa başladı. Kərbəlayi Usta Ərsin gözəl səsinə və xanəndəlik bacarığına görə Süleyman paşanın dözdüyü yeganə başqa millət adamıydı və bu qoca xanəndə müsəlmanlığı qəbul edəndən sonra, ən mömin bir Allah bəndəsi olmuşdu: namaz qılırdı, oruc tuturdu, Kərbəlaya gedib İmam Hüseynin qəbirini ziyarət etmişdi, məclislərdə qazandığı pullardan həmişə zəkat verirdi, şərab içməyi tərgitmişdi və düz otuz iki il idi ki, donuz əti yemirdi, hətta toylarda belə fürsət tapıb muğamat üstündə şəriətə uyğun sözlər deyirdi.

Kərbəlayı Usta Ərsin altmış səkkiz illik ömründə çox məclislər keçirmişdi və məclis əhlinə bələd adam idi. Bu dəfə də Süleyman paşanın yerindən oynayan gözlərini görəndə hiss etdi ki, ağına-bozuna baxmayan bu dəli adamın dəliliyi baş qaldırır və bu, Kərbəlayi Usta Ərsinin oxumağı ilə bağlıdı. Ürəyi qorxu ilə vurmağa başlayan qoca xanəndə bilmədi ki, nə eləsin və bu zaman Süleyman paşa özü Kərbəlayi Usta Ərsinin imdadına yetdi: əlinin yüngül işarəsi ilə arif xanəndəyə başa saldı ki, keç başqa havaya və beləcə yüngülcə qurtardığından vəcdə gələn Kərbəlayi Usta Ərsin Xətainin qəzəlini

Xanəndə Xətainin qəzəlini oxuduqca Süleyman fikirləşirdi ki, xalqın böyüyü belə sözlər yazanda, onda adi bəndələrə nə deyəsən? Süleyman Xətainin sözlərinə qulaq asdıqca fikirləşirdi və dəli olurdu ki, bu cür getsə, axırda müsəlmanlıq bu millətin adını əvəz edəcək...

Qocanın bülbül kimi cəh-cəhlərinə qulaq asdıqca Süleymanın əvvəlki ovqatı yenə özünə qayıtdı. Yaxşı ki, bayaq özünü saxladı və Xətainin sözlərini yarımçıq kəsmədi. Hərgah Süleyman bu millətsiz müsəlmançılıq haray-həşirin saxladıb qoca xanəndənin üzünə tüpürsəydi və dalına da bir təpik vurub məclisdən qovsaydı, İsmayılın hər yerdə və şübhəsiz ki, bu toy məclisində də olan casusları ikicə gündən sonra şaha çatdıracaqdılar; Sultan Səlim Çaldıranda səni basdı, Təbrizi aldı, indi Ərzurumlu Süleyman paşa məclisdə sənin sözünü yarımçıq kəsir... Belə bir söhbəti isə Süleyman öz şəninə sığışdırmazdı.

Kərbəlayi Usta Ərsin boğazını arıtlayıb bülbülü təqlid edirdi və Kərbəlayı Usta Ərsinin beləcə bülbül kimi cəh-cəh vurması elə bil ki, məclisə bir çəmən ətri gətirdi, bir tərəfdən də nökərlər üzərlik yandırıb tüstüsünü məclis oturan zala verdilər: üzərliyin tüstüsü də elə bil ki, bütün qayğıları apardı və bu müvəqqəti dünyada bülbülün gözəlliyindən, meşələrin zümrüd yaşılından, bulaqların saflığından danışdı, amma bu bülbül gözəlliyində, bu zümrüd yaşıllığında, bulaq saflığında bir sünilik var idi, elə bil ki, bunların hamısı şüşədən düzəldilmişdi, zərif, yaraşıqlı və cansız idi.

Süleyman yenə Mahmuda baxdı və gülümsədi, məcnunluq ancaq şairlərin əsərlərində olmurmuş...

Süleyman istədi ki, zor gücünə səadətdən imtina edən–Süleyman yenə gülümsədi, – bu oğlanı xoşbəxt etsin və xoşbəxt etdi.

Mahmud Süleymanın gülümsəməyini gördü və birdən-birə Mahmudun Süleymana yazığı gəldi – niyə? – heç özü də bilmədi, Mahmud neçə gün idi ki, ürəyində bu adama nəsə bir duyğu bəsləyirdi və indi başa düşdü ki, bu duyğu yazıqlıq hissidi; Süleymanın bütün varlığında, xislətində qılınc tiyəsinin itiliyi və soyuqqanlığı var idi, amma buna baxmayaraq – bəlkə elə buna görə? – Mahmudun bu adama yazığı gəldi.

Sonra Mahmud fikirləşdi ki, bəs, özü kimdi?

Məryəm Mahmudla üzbəüz tül pərdənin arxasında oturmuşdu və bu məclis sona yetəndən sonra, Məryəm Mahmudun olacaqdı, heç kimdən ürkməyib, heç kimdən qaçmayacaqdılar, gecə-gündüz bir yerdə olacaq-

dılar, uşaqları olacaqdı və bu uşaqlara Məryəm döşlərindən ağappaq süd verəcəkdi və bütün bunlar dünyanın ən böyük xoşbəxtliyi deyildimi? Bir halda ki, bütün bunlar dünyanın ən böyük xoşbəxtliyi idi, bəs nə üçün Mahmud xoşbəxt deyildi və nə üçün birdən-birə Qırmızı Tuman Kişi Mahmudun gözlərinin qabağına gəlmişdi və səhərdən bəri çəkilib getmirdi? Axı, hər şey əldə olunub, əzab-əziyyətli səfər başa çatıb, Məryəm onunla bir havadan nəfəs alır və arada daha bu tül pərdədən başqa bir maneə, bir sərhəd yoxdu və bu tül pərdənin özü də bir azdan qaldırılacaqdı, Məryəm onun olacaqdı. Bəs nə üçün indi bütün bunlar barədə fikirləşmir. Məryəm barədə fikirləşmir, Qırmızı Tuman Kişi barədə fikirləşir? Mahmud bütün daxilində bir xəyanət hiss edirdi və ona elə gəlirdi ki, belə bir məqamda sevinməməyi, özünü xoşbəxtlik içində hiss etməməyi əslində Məryəmə xəyanət deməkdi.

Saraydakı ilk görüşləri zamanı Süleyman paşa Mahmudun xəbərsizliyindən heyrətə gəlib düz gözlərinin içinə dedi ki, Ziyad xan öldürülüb, yerinə Sultan Səlim tərəfdarı Bayandur bəy keçib və daha artıq heyrətə gəldi ki, Mahmud bu dəhşətli xəbəri çox sakit qəbul etdi, amma Süleyman paşa burasını bilmədi ki, beləcə bir heyrət də Mahmudun varlığına hakim kəsildi: Mahmud öz biganəliyinə heyrət etdi və bütün o biri günlər ərzində də həmin biganəliyin sıxıntısı Mahmudu bu cür sıxdı, əzdi.

Mahmud atası barədə fikirləşmək istəyirdi, amma gözlərinin qabağına palana yazığı gəldiyi üçün Camaatın öldürdüyü o bədbəxt qoca gəlirdi və Mahmud bütün iradəsini toplayırdı, bu bədbəxt qocanın sifətinə atasının cizgilərini vermək istəyirdi, onun əvəzinə atasını görmək istəyirdi və bir müddət görürdü də, amma sonra bu görüm qarğa-quzğunun üz-gözünü didim-didim dimdiklədiyi min-min kəllələrə çönürdü və Mahmud Çaldıran düzündəki o kəllələr ehramını görürdü. Bu kəllələrdən hər birinin sahibi də insan idi və həmin insanların da ürəyinin sevinci var idi, dərdi-səri var idi, həmin insanların da övladı var idi, atası-anası var idi və həmin insanlar da bu göyün altında yaşayırdı, bu günü, bu ayı, bu ulduzları görürdü.

Mahmud anası barədə fikirləşmək istəyirdi, amma gözlərinin qabağına Camaatın arasında uğunub özündən gedən o tək dişli bədbəxt qarı gəlirdi və Mahmud bütün şüuru ilə bu cür fikirləşmək istəməsə də fikirləşirdi ki, anasına nə olacaqdı, anası həmin qarıdan da pis günə düşməyəcəkdi ki...

Belə bir biganəlik Mahmudu məhv edirdi: dünya tamam maraqsız və əlacsız dünya olmuşdu.

Kərbəlayi Usta Ərsin axırıncı zənguləsini qurtarıb məclisə baş əydi, sazəndələr də susdu və Süleyman paşa gülə-gülə məclisin yuxarı başında xidmətçilərin girib-çıxdığı qapıya tərəf baxdı və bu vaxt Kosa, Keçi və Keçəl hay-küy sala-sala, oynaya-oynaya içəri girdi.

Süleyman paşa sarayda təlxək saxlamırdı, çünki Süleyman paşa bu fikirdə idi ki, azarbaycanlı, başına təlxək papağı qoyub adamların gözü qabağında dombalaq aşanda, əslində öz xalqını təhqir edir. Təlxək əvəzinə xalqın qədim oyunları, zarafatları Süleymana ləzzət edirdi və hərgah Süleymana ləzzət edirdisə, deməli, belə də olmalı idi.

Kosa üzünə bir parça ağ çit yapışdırmışdı, başına ucu şiş uzun təskülah qoymuşdu, əynində tərsinə geyinilmiş kürk, belində qırmızı parçadan qalın qurşaq var idi və qurşağından boş torbalar, boş qazan və çömçə sallanmışdı. Məclis üçün kosalıq edən bu adam yoğun görünməkdən ötrü kürkünün altından belinə balınc bağlamışdı və səsini də nazik çıxarırdı.

Ağ keçi dərisinə bürünmüş Keçi üzünə uzun saqqal bağlamışdı, başına iki uzun buynuz taxmışdı və buynuzlarının arası təzə otla dolu idi, boynundan zınqırov asmışdı və bu uzunboylu adam keçi kimi belini əyib atılıb düşdükcə zınqırovun səsi aləmi başına götürürdü.

Keçəlin başında lap təzəcə qoyun qarnı var idi, pal-paltarı tamam cır-cındır idi, qarın dərisinin üstündən başına dəlik-deşik bir papaq qoymuşdu və qulaqları da papağın içindəydi; tez-tez burunotu çəkib asqırırdı, üzü unlu idi və boynundan bir dənə balqabaq asılmışdı.

Kosa oynaya-oynaya dedi:

– Mən qış oğlu qışam də, neyləyim?

Keçi oynaya-oynaya dedi:

– Mənim işim yaxşıdı, yazam mən, kefim kökdü!

Keçəl təəccüblə xəbər aldı:

– Bəs mən kiməm?

Keçi güldü:

– Balqabaq!

Keçəl də güldü, Kosa da güldü və bütün məclis əhli güldü və

A kosa-kosa, gəlsənə!
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana!

Keçi təəccüblə Kosaya baxdı, elə bil ki, birinci dəfə idi Kosanı görürdü və dedi:

Yağ verin yağlamağa,
Bal verin bağlamağa,
Kosa gülmək istəyir,
Qoymayın ağlamağa.

Keçəl cani-dildən soruşdu:

– Qardaşım Kosa, gözüm Kosa, canım Kosa, nə üçün ağlayırsan?

Kosa gözlərinin yaşını silə-silə:

– Mənə bir etibarlı yer göstərin, – dedi.

Keçi soruşdu:

– Neynirsən?

Kosa dedi:

– Arvadımı gizlədəcəyəm!

Keçəl tez soruşdu:

– Arvadın cavandı?

Kosa ağlaya-ağlaya:

– Hə... – dedi.

Keçi soruşdu:

– Gözəldi?

Kosa ağlaya-ağlaya:

– Bəs niyə gizlədirəm? – dedi.

Keçəl qışqırdı:

– Tapdım!

Kosa soruşdu:

– Harda gizlədim?

Keçəl dedi:

– Bizim evdə!

Keçəl bu sözləri elə dedi və Kosa bu sözlərə elə mat qaldı ki,

Kosa bu dəfə ortaya düşüb oynaya-oynaya dedi:

Ay uyruğu-uyruğu,
Saqqalı it quyruğu!
Kosa bir oyun eylər,
Yığar şabran düyüsün,
Keçəlin toyun eylər.
Yığıb bayram xonçası,
Hər yerdə düyün eylər.

Keçəl başını tərpədə-tərpədə Kosanın sözlərini təsdiq edirdi, sonra

Mahmud güldükcə hiss edirdi ki, bütün bu müddət ərzində, bədəni, ürəyi, varlığı belə bir gülməyin həsrətində imiş, belə bir sadə və iddiasız zarafatın həsrətində imiş və güldükcə elə bil ki, Mahmudun ürəyi boşalırdı.

Kosa, Keçi və Keçəl elə bil ki, bu saray toyunun üzərlik ətrinə, barmaqlardakı daş-qaş işıltısına, yerdən salınmış uzun süfrənin üstündəki ləziz təamlara bir torpaq havası gətirdi, elə bil ki, illərlə açılmayan geniş pəncərələri açıb təzəcə şumlanmış torpaq ilə üzbəüz dayandın və bu təzə şumlanmış torpağın genişliyi ilə, bərəkəti ilə, təzə-tərliyi ilə sinə dolusu nəfəs aldın.

Çox qəribə oldu: Mahmud bu isti çörək hərarəti içində anasını gördü və ancaq indi başa düşdü ki, anası çox gözəl qadındı; elə bil ki, Qəmərbanunun sifətinin birinci layı o çörək hərarəti içində əriyib yox oldu və o birinci lay ilə bərabər, vaxtsız qocalıq da, qayğılar da, çılğınlıq da yox oldu və Mahmud anasının heç vaxt görmədiyi əsl sifətini gördü: adi bir qadın sifəti idi, sevinmək istəyirdi, əzizləmək və əzizlənmək istəyirdi, yaşamaq istəyirdi və həmin adilikdə dünyanın ən doğma bir gözəlliyi var idi. Bir halda ki, dünyada bu cür adilik var idi və bu adilikdə bu cür doğmalıq, gözəllik var idi, onda nə üçün insan mürəkkəblik axtarmalıdı? Günlərin bir gözəl günü insan başa düşəcək ki, bilə-bilə, yoxsa yox, amma bütün ömrü boyu mürəkkəblik axtarıb, hər şeydə bir mürəkkəblik görüb, əslində isə ən böyük müdriklik elə dünyanın adiliyinin özündə imiş. Bir halda ki, dünyanın adiliyində belə bir xoşbəxtlik var, onda mütləq, mütləq Camaat da bir ovuc işıq tapacaq, çünki bir ovuc işıq – bundan artığı heç lazım da deyil, – divlərin, əjdahaların qoruduğu dəmir qapılar arxasında deyil və onu oralarda axtarmaq da lazım deyil; həmin bir ovuc işıq hər addımbaşındadı, bütün dünyadadı.

Kosanın, Keçinin və Keçəlin beləcə açıqürəkli, şux zarafatlarından sonra Süleyman paşa özündən və dünyadan razı idi. Süleyman hələ də gülümsəyə-gülümsəyə xidmətçi saray qızlarının, kənizlərin yanında oturmuş bayaqkı rəqqasəyə baxdı və fikirləşdi ki, toydan sonra bu Məqrib gözəlini yatağına çağıracaq, gecəni onunla keçirəcək və bu gözəl qızı da xoşbəxt edəcək. Süleyman paşa bu gün elə bil Xızır İlyas idi, hamıya xoşbəxtlik paylayırdı...

Yenə Yaz dilləndi, kamançıça səsləndi, tutək ünə gəldi və Kərəməlayı Usta Ərsin Kosanın, Keçinin və Keçəlin zarafatından sonra həm dinceldi, həm də ürəyi açıldı – bir "Şur" dəsgahı başladı və qoca xanəndənin səsi, şirin nəfəsi həmin gecə bütün məclis əhlinin ürəyinə yol tapdı; bütün məclis əhlinin, təkcə Baba Keşişdən başqa.

Bütün məclis boyu Baba Keşişin dodağı da qaçmadı.

Baba Keşiş qızının sifətindəki təbəssümdə bir xoşbəxtlik əlaməti gördü və bu, Baba Keşişi daha artıq sarsıtdı: bir dinsizlik çirkabı ki, bu cür sadəlik, adamlıq donuna bürünüb Məryəm kimi təmizliyi də aldatmağa qıyırdı və aldada bilirdi, bundan artıq nə riyakarlıq ola bilərdi? Bir məclisin ki, yaraşığı dinini danmış və tonqalda diri-diri yandırılmağa layiq olan bir fırıldaqçının və lotunun pozğun hissləri

oxşayan nəğmələri olacaqdı, nə üçün həmin məclis yeganə qızının toyu kimi, Baba Keşişin qismətinə çıxmalıydı, hansı günahına görə Baba Keşişin yeganə qızı bu natəmizlik içində özünü xoşbəxt hiss etməli idi?

"Sakit ol, həyatım, sakit ol..." – o doğma, mehriban pıçıltı köməyə gəldi.

Baba Keşiş günah axtarırdı, bəs bu sualların özü günah deyildimi? Yox, tarım çəkilmiş o dinsizin barmaqları altında eyş-işrət hərisliyinə qulluq edən sazın simi deyildi, Baba Keşişin dözən, dözən və dözən əsəbləri idi. Az qalmışdı və bütün bu müsibət qurtaracaqdı. Axı, əzabın da hüdudu var idi... Məryəmin əynində gün kimi işıq saçan don Məryəmi xilas edəcəkdi; o don qoymayacaqdı ki, dinsiz əli Məryəmin bədəninə toxunsun.

Bəs sonra nə olacaqdı?

Baba Keşiş diksindi.

Bəs sonra?

Nə üçün Baba Keşiş bu adi sual barədə fikirləşməmişdi: bəs sonra nə olacaq?

Hər halda, Məryəmə dinsiz əli dəyməyəcəkdi və əslində Məryəmin xoşbəxtliyi də bunda olacaqdı. Məryəm sonradan bunu başa düşəcəkdi. Hər şey yaxşı olacaqdı...

Yaxşı olacaqdı...

Nə üçün pis olmalıydı, bu qədər əzab-əziyyət yetməzdimi?

Amma Baba Keşişin içindən bir xof baş qaldırırdı, pis bir ərəfə qorxusu baş qaldırırdı və Baba Keşiş bu xofu, qorxunu boğmaq istə-

yirdi, çünki həmin hiss Baba Keşişi qızının əynindəki donu cırıb çıxartmağa, tullamağa, tapdalamağa çağırırdı. Bu qorxu hissində dərin bir təəssüf də gizlənmiş və təəssüf deyirdi ki, daha gecdi, Məryəmin əynindəki o donu heç vaxt çıxara bilməz, cıra bilməz, o don ancaq nə vaxtsa Məryəmin qisməti olacaq bir mömin Məsiha oğlunun qabağında açılacaq...

Baba Keşiş var gücü ilə ənglərini bir-birinə sıxıb içindən baş qaldıran o qorxunu boğmaq istəyirdi və doğma, mehriban pıçıltı Baba Keşişin dəmirçi ocağından çıxıb qıpqırmızı dəmir kimi qızarmış əsəblərini soyutmağa başladı: "Sakit ol, həyatım, sakit ol... Sakit ol...". Bu pıçıltı bir məlhəm olub Baba Keşişin ürəyinə yayılırdı, bu ürəyi partlamağa, qaçmağa, qışqırmağa qoymurdu...

Kərbalayi Usta Ərsin "Şur"un təsnifinə keçmişdi və bir cavanlıq şövqü ilə bu dəfə də Xətainin sözlərini deyirdi, amma bu sözlər başqa sözlər idi:

Eşqim cuş eylədi keçdi sərimdən,
Artıb gəlir məhəbbətin nurindən,
Niyazımız budur cani-kərəmdən,
Didar ilə məhəbbətə eşq olsun...

Xətainin bu sözləri Süleymanın kefini lap kökəltdi və Süleyman məclisin aşağı tərəfində oturmuş hərəmağası Xacə Allahkərimə baxdı, sonra da rəqqasəyə baxdı. Məqrib gözəli Süleymanın baxışlarından hər şeyi oxudu və uzun kirpikli göz qapaqlarını bircə dəfə yumub-açmaqla sevdalı ürəyinin, İstanbul şərbaflarının toxuduğu zərli-baftalı döşlüyə sığışmayan sinəsindəki hisslərin sözünü dedi və işım-işım işıldayan qapqara gözləri ilə bir ox atdı, sonra elə bil özü öz ehtirasının bu cür açıq-saçıqlığından utanıb gözlərini Süleymandan çəkdi.

Fil yükün yüklətmə, qarınca çəkməz,
Dürlü reyhan çoxdur, gül kimi qoxmaz,
Dünya malın versən bizə gərəkməz,
Didar ilə məhəbbətə eşq olsun...

Kərbəlayi Usta Ərsin özü söylədiyi sözlərdən şövqə gəlib daha gözəl oxuyurdu...

Topa-topa buludlar şərqdən qərbə tərəf axırdı və ay, ulduzlar hərdən bu topa buludlar arasından görünürdü, sonra yenə yox olurdu və həmin arada ətrafa çökən aydınlıq kiçik pəncərələrdən keçib bu saray otağına da dolurdu, o zaman Məryəm bu iri göy gözləri daha aydın görürdü, bu solğun bənizin doğmalığı Məryəmin bütün vücuduna sirayət edirdi və Məryəmi özünə çəkirdi, özünə yapışdırırdı.

Onlar otağın ortasında ayaq üstə dayanıb qucaqlaşmışdılar və Mahmud qolları arasındakı bu qızın ürəyinin döyüntüsünü bütün sinəsi ilə hiss edirdi və Mahmuda elə gəlirdi ki, əslində, bu ürək onun öz ürəyidir, bu ürək onun öz sinəsində döyünür və Mahmud Məryəmin əynindəki yaxası dörd düyməli donun yuxarıdakı birinci düyməsini açdı və dodaqlarını Məryəmin hərdənbir otağa dolan aydınlıq içində süd ağlığı ilə ağaran boynunda gəzdirdi.

Sonra Mahmud Məryəmin əynindəki donun ikinci düyməsini açdı.

Bu dəm Məryəm üçün boynunda, sinəsində gəzən bu əziz, istəkli dodağın mərhəmliyindən başqa dünyada heç nə yox idi və Məryəm bütün bədəni ilə bu dodaqların ixtiyarında idi; bu dodaqlardan, Mahmudun barmaqlarından, nəfəsindən gələn isti Məryəmi öz içinə çəkirdi, Məryəmi bürüyürdü və Məryəmə elə gəlirdi ki, ana bətninə girir.

Mahmud Məryəmin əynindəki donun üçüncü düyməsini açdı və dodaqlarını Məryəmin döşlərinin arasında gəzdirdi, üzünü-gözünü Məryəmin sinəsinə sürtdü, elə bil Mahmud bu sinədə, bu döşlərin arasında bütün dünyadan gizlənmək istəyirdi.

Məryəm Mahmudun sarışın saçlarını barmaqları arasına alıb alnını, üzünü sinəsinə sıxırdı və tez-tez nəfəs alan bu iri göy gözlərin istisi Məryəmin sinəsindən bütün varlığına keçirdi.

Mahmud Məryəmin əynindəki yaxası dörd düyməli donun axırıncı düyməsini açdı və Məryəmin qabarmış döşləri pırtlayıb donun içindən çölə çıxdı və bu vaxt sonralar Marağadan Dərbəndəcən, Bakıdan Ərzurumacan bütün Azərbaycanın dilinin əzbəri olmuş bir hadisə baş verdi: Məryəmin əynindəki yaxası dörd düyməli donun düymələri yuxarıdan bir-bir öz-özünə düymələndi və Məryəmin bədənini təzədən gizlətdi.

Mahmud Məryəmin əynindəki bu donda bir ilan soyuqluğu hiss etdi və Məryəm də yenə bu donun içində üşüm-üşüm üşüməyə başladı; Mahmud təzədən Məryəmin donunun yaxasındakı düymələri buz soyuğundan donan barmaqları ilə bir-bir açdı və axırıncı düymə açılan kimi, yenə düymələr öz-özünə bir-bir bağlandı.

Məryəm:

– Cır!Cır! Cır bu paltarı! – qışqırdı və Mahmud Məryəmin əynindəki donun yaxasını cırmaq istədi, amma bayaqdan bəri parıltısını, bəzək-düzəyini itirmiş bu don cırılmırdı, Mahmud nə qədər güc edirdisə, Məryəm nə qədər dartınırdısa bu don cırılmırdı və Məryəmə elə gəlirdi ki, bu gecə qaranlığında kimsə onun ağzını qapayırdı, qışqırmağa qoymurdu, amma Məryəm güclə, bütün varlığının istəyi ilə qurtulub qışqırırdı: – Qurtar məni! Qurtar məni! Qurtar məni! – və Mahmud qollarının arasında quruya düşmüş soyuq balıq kimi çapalayan Məryəmi qurtara bilmirdi; Mahmud da qışqırmaq istədi, amma bacarmadı, Məryəmi sinəsinə sıxıb qızdırmaq istədi, amma Mər-

yəm qızınmadı və bu vaxt Mahmud bircə anın içində aydınlıq əvəzinə otağa dolmuş Camaat gülüşünü gördü, hər tərəfdə bir Camaat təbəssümü gördü, həmin gülüşdə, təbəssümdə bu dəli dünyanın əlacsızlığını gördü və Mahmudun sinəsindən bir ah qopdu, bu ah bir koma od oldu və Mahmud başa düşdü ki, yanır.

Alov Mahmudun paltarını, saçlarını bürüdü.

Məryəm əvvəlcə başa düşmədi ki, birdən-birə gözlərinin qabağında alovlanan bu məşəl nədi belə, sonra başa düşdü ki, Mahmud alışıb-yanır və özünü bu yanan məşəlin üstünə atdı, əlləri ilə, bədəni ilə bu yanan məşəli söndürmək istədi, bu yanan məşəli yalın əlləri ilə qucaqlayıb sinəsinə sıxdı və özü də alışıb-yanmağa başladı və nəhayət ki, bədəninin buz soyuğu getdi. Məryəm bir gözəl isti hiss etdi...

...Baba Keşiş gecənin qaranlığında böyük tut ağacının dibində dayanıb gözlərini Süleyman paşanın sarayında Məryəmgil üçün ayrılmış otağın qaranlıqda güclə seçilən kiçik qoşa pəncərəsinə zilləmişdi və bütün həyatının ən böyük səbrsizliyi ilə gözləyirdi. Baba Keşişə elə gəlirdi ki, indicə sarayın darvazası çırpılıb açılacaq və bütün əzab-əziyyətlərinin baisi o dinsiz Ziyad xan oğlu dəli kimi bu yerlərdən qaçıb gedəcək; onu Müqəddəs Evin təmizliyi qovacaq, Tanrının Baba Keşişə uzanmış kömək əli qovacaq, Məsihanın əməli Məryəmi Baba Keşişə qaytaracaq və öz mömin bəndəsini xilas edəcək; amma Baba Keşiş birdən-birə o qoşa pəncərədə bərq vuran bir alov gördü, sonra haray düşdü, sonra o alovun şölələri artıb pəncərələrdən dilim-dilim gecənin qaranlığına çıxdı...

...Hərəmağası Xacə Allahkərim özünü hövlnak Süleyman paşanın yataq otağına salıb:

– Yanğın! Yanğın! – deyə qışqırdı və Süleyman yanan şamların işığında xədimin qorxudan bərəlmiş gözlərinə baxıb qucağındakı Məqrib gözəlini özündən kənara itələdi və ayağa sıçradı.

...Saray adamları su daşıyıb gətirənəcən o məşəl tamam yanıb qurtarıb bir ovuc külə döndü və saray adamları həmin məşəldən alovlanmış otağı güclə söndürdü...

...Topa-topa buludlar elə hey şərqdən qərbə axırdı, hərdən ətrafa aydınlıq çökürdü və o qaranlıq – aydınlıq gecədə Baba Keşiş var gücü ilə qaçırdı və başını göyə qaldırıb var gücü ilə qışqıra-qışqıra deyirdi:

– Belə lazım bilmisən, belə də eləmisən!.. Belə lazım bilmisən, belə də eləmisən!.. Belə lazım bilmisən, belə də eləmisən!

Baba Keşiş bu qışqırtısına ara vermirdi, çünki Baba Keşiş qorxurdu, qorxurdu ki, qışqırtısına ara versə, ağzından başqa sözlər çıxar.

Baba Keşiş bütün varlığı ilə qorxurdu ki, Allahı danar, boynundakı xaça tüpürər və Baba Keşiş tələsirdi, var gücü ilə qaçırdı, özü özünə imkan vermirdi:

– Belə lazım bilmisən, belə də eləmisən!.. Belə lazım bilmisən, belə də eləmisən!.. Belə lazım bilmisən, belə də eləmisən!..

Baba Keşiş kola-kosa ilişə-ilişə, ağaclara toxuna-toxuna qaçırdı və birdən Baba Keşiş ətrafın qaranlığında topa-topa gümüş ağlığı gördü və Baba Keşişə elə gəldi ki, ağacların başı ağarıb, yarpaqlar ağappaqdı.

Qarşıda Ərzurum dağlarının sıldırım qayaları güclə sezilirdi.

O aydınlıq-qaranlıq gecədə həmin doğma, mehriban pıçıltı da Baba Keşişə həmlə edirdi. Baba Keşişi bircə anlıq saxlamaq istəyirdi, amma Baba Keşiş ara verməyən qışqırtısı ilə o pıçıltını da özündən qovurdu, yaxına buraxmırdı:

– Belə lazım bilmisən, belə də eləmisən!.. Belə lazım bilmisən, belə də eləmisən!.. Belə la...

Baba Keşiş ayağını boşluğa atdı və daş kimi sıldırım qayaların arxasından başıaşağı uçdu və birdən-birə Baba Keşişə elə gəldi ki, Müqəddəs Qoca yarğanın dibində dayanıb, qollarını geniş açıb onu gözləyir və deyir:

– Gəl, ey axmaq insan, gəl!..

Sonra hər şey bitdi...

...Süleyman paşanın əmri ilə o bir ovuc külü dəfn elədilər.

XVI

Axşam düşürdü.

Batan günəşin qıpqırmızı qızartdığı topa-topa buludlar yenə şərqdən qərbə axırdı; təbiət həmin təbiət idi.

Dörd dəvəlik kiçik bir karvan qarşıdakı təpənin arxasından çıxıb aramla yoluna davam edirdi.

Qabaqda gedən dəvənin üstündə qara rəngli bir kəcavə var idi və axşamçağı kəcavənin içində də rübəndi üzündən açmayan qadın kəcavənin örtüyünü qaldırıb çölə baxdı.

Altmış-yetmiş addımlıqda əhənglə günbəzi ağappaq ağardılmış köhnə bir məqbərə var idi və saçı-saqqalı da bu günbəz kimi ağappaq ağarmış zəif bir qoca məqbərənin yanında, torpağın üstündəcə oturub karvana tərəf baxırdı.

Qadın kəcavədən uzatdığı əlinin işarəsi ilə karvanı dayandırdı və dərhal arxadakı dəvələrdən birinin belindən atılıb qaça-qaça qabağına gələn cavan xidmətçi oğlana nəsə dedi.

Xidmətçi oğlan qaça-qaça qocaya yaxınlaşdı, nəsə soruşdu, sonra qaça-qaça da geri qayıdıb dedi:

– Bu məqbərinin yanında mücəvirdi,[1] xanım.

Qadın başını kəcavədən çıxarıb sarbana:

– Ora sür, – dedi və sarban dəvənin başını çəkə-çəkə məqbərinin yanına gəldi.

Qadın kəcavənin içindəki kiçik mücrünü açdı və bir dənə qızıl sikkə götürüb xidmətçi oğlana uzatdı. Xidmətçi oğlan qızılı alıb qocanın qabağına qoymaq istədi, amma qoca

[redacted]

Talıstanda üç aydan artıq qala bilməmişdi, darıxmışdı, sıxılmışdı və

[1] Mücəvir – hər hansı bir ibadətgah yanında ibadətə çəkilmiş adam.

gecələrin birində baş götürüb Talıstandan qaçmışdı, bədənini sata-sata, qabağına keçəni aldada-aldada yenə dövlət toplamışdı, xanım olmuşdu, böyük-böyük saraylara yol tapmışdı, ömrü naz-nemətlə keçmişdi və yavaş-yavaş qocalmışdı, tək qalmışdı və indi neçə illər idi ki, bu təkliyi ilə üzbəüz idi.

Ceyran başqalarının verdiyindən artıq məvaciblə yanında xidmətçi oğlanlar saxlayırdı və bu oğlanların əksəriyyəti kənddən gəlmişdi, ömründə qadın görməmişdi. Ceyran bu oğlanların güclü, cavan və sağlam qucaqlarında öz tənhalığından, kimsəsizliyindən gizlənmək istəyirdi. Bu oğlanlar Ceyranı səhər geyindirirdilər, günorta çimizdirirdilər, axşam soyundururdular, amma bütün bunları qapı-pəncərəsi, qalın pərdə ilə kip örtülmüş qaranlıq içində edirdilər, çünki Ceyran istəmirdi ki, bu cavanlar onun solmuş, qocalmış bədənini görsünlər, amma xidmətçi oğlanlar, onsuz da, əlləri ilə bu boşalmış, torbalaşmış dərini hiss edirdilər və fürsət düşən kimi, imkan tapan kimi qaçıb gedirdilər. Ceyran min bir vasitə ilə bu cavanların qanını qızıdırdı

[redacted]

Deyirdilər ki, haçansa Məhəmmədəli adlı bir kişi yaşayıb və o kişi Sofidən də artıq ömür sürüb. Görəsən, Məhəmmədəlinin günahı necə günah imiş?

Sofi düz 214 il yaşadı və 1682-ci ilin, hicri ilə 1093-cü ilin yayında vəfat etdi.

O zaman dünyanın ən möcüzəli bir hadisəsi baş verdi. Vaxtilə Ərzurum hökmdarlarının sarayları olan, indi isə qədim bir məqbərədən başqa heç nə olmayan və xalqın "Mücəvir dərəsi" dediyi bu yerdə yaz təzəcə qurtarmışdı, yay girmişdi, hər tərəf gül-çiçək idi. Birdənbirə günün günorta çağı göy qaraldı. Mücəvir dərəsində tufan qopdu, yer-göy guruldadı, hər tərəfə qapqara qar yağdı, zəlzələ oldu və Mücəvir dərəsinin ortasında bir yarğan əmələ gəldi, yer iki yerə bölündü, sonra yenə birləşdi, tufan dayandı, qara qar əridi, bir azdan yenə gülçiçək baş qaldırdı, amma Sofi daha yox idi, yarğanın içində qalmışdı.

Bu tərəflərin adamları danışırdı ki, guya hərdən bu qədim məqbərənin qabağında havadan bir saz peyda olub öz-özünə çalır və guya haçansa Sazlı Abdulla adlı bir el aşığı varmış və bu saz da guya həmin Sazlı Abdullanın sazıdı.

Talıstan-Bakı-Moskva, 1982

MÜNDƏRİCAT

Ön söz 4

Ağ Dəvə 11
Mahmud və Məryəm 232

ELÇİN

SEÇİLMİŞ ƏSƏRLƏRİ

"AVRASİYA PRESS"

BAKI-2005

Buraxılışa məsul: *Umud Rəhimoğlu*

Texniki redaktor: *Mübariz Piriyev*

Kompyuter səhifələyicisi: *Azər Quliyev*

Korrektor: *Şəbnəm Məmmədova*

Yığılmağa verilmişdir 25.08.2004. Çapa imzalanmışdır 18.02.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 26,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 31.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.

Ш6
Е49